FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 3

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2017

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. Əzizxan Tanrıverdiyev, f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e.d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, fil.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli
Filologiya məsələləri. Bakı, 2017, № 3

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2017

DİLÇİLİK

MƏSUD MƏMMƏDOV
Lənkəran Dövlət Universitetinin
professoru, filologiya elmləri doktoru

DİL VƏ ƏLİFBA

Açar sözlər: dil, səs, söz, dilçilik, zaman, qədim
Ключевые слова: язык, слова, звук, языкознание, время, издревля
Key words: language, sound, word, linguistics, time, ancient.

Dünyada çoxlu müxtəlif sistemli dillər mövcuddur. Dil səsə bağlı olsa da, mürəkkəb prosesdir. Belə ki, səs-soz təfəkkürdən doğulan məzmun aktıdır. İnsanın səsi də insan qədər qədimdir. Səs ümumiyyətlə tükənməzdir, davamlıdır və daimidir. Səslə yaranan varlıq ölməzdir. Səs fiziki qüvvədir. Səs dilin canıdır.

Səsi yazıya çevirmək çox uzun yol keçmişdir. Bu məsələnin həllində çoxlu çətinliklər yaranmışdır. Hər şey zərurətdən yarandığı kimi səsə işarə tapmaq zərurəti də yarandı və insan səslərə hərfi işarəni kəşf etdi. Bu proses yeni eradan əvvəl IV-III əsrdə İaron Narmerin əmri ilə həyata keçdi. O, Misir fironlarından olmuşdur. Dövründə Şərqdə çoxlu başqa dövlət ərazilərini zəbt etmişdir. O, Misiri tam öz tabeliyinə almış və öz qəhrəmanlığını yaşatmaq üçün şəkilli yazıda göstərilməsini təsdiq etmişdir. Amma bu dövrdə Misir alimləri artıq şəkildən (piktoqrafiyadan) səs işarələri (hərflər) yaratdıqlarına görə fironun şücaətini hərfi yazıda təsvir etmişlər. Onların yaratdıqları hərfi yazı belə olmuşdur: Məsələn, **kəpənəkdən** üç səs **XPR**, **zənbil** şəklindən iki səs **Nb** yaratmışlar. Bu cür işarələr şəkli işarələr olsa da, fonetik işarələr sayılırdılar. Misir alimləri bir, iki və üç hecalı sözlərdən istifadə etdikləri zaman, ancaq samit işarəsini bildirən işarədən istifadə edir, sait səsləri isə nəzərə almırdılar. Onlarda təkhecalı sözlər bir səsi bildirirdi. Bu minval ilə müxtəlif mürəkkəb proseslərdən təkhecalı sözlər yarada bildilər və bunun nəticəsi olan təkhecalı işarələrdən mürəkkəb bir sistem olan **Əlifba** yarandı. Tanınmış Azərbaycan alimi Afat Qurbanov bununla bağlı yazır: "Əlifbanın mənşəyinə dair Misir nəzəriyyəsinə görə yazı tarixində ilk dəfə olaraq səsləri əks etdirən işarələr bizim eradan əvvəl Misir yazısında əmələ gəlmişdir. Həmin işarələr ancaq samit səsləri bildirmişdi. Misirlilər ilk dəfə olaraq hərf yaratmalarına baxmayaraq sırf hərfli yazıdan istifadə edə bilməmişlər. Çünki onların istifadə etdikləri yazıda hərflər heroqliftlərlə qarışıq şəkildə işlənilmişdir" [2, 704].

Misir əlifbası ilə şərq və Avropa alimləri maraqlanmış, öyrənmiş və bu əlifba bazasında yeni-yeni fikirlərə, üsul və variantlara gəlmişlər. Beləliklə, əlifba sistemi təkminləşdi. Bu işin sürətlə inkişafının səbəbkarları, əsasən gəmiçilər və

gəmiçi tacirlər idi. Belə ki, tacirlər hesabat verməkdən ötrü yazı rahat və tez başa gəlirdi. Paola Utevskaya özünün "Слов драгостерние клади" kitabında qeyd edir ki, əsli əlifba **bizim eradan əvvəl X əsrdə** yaranmışdır. Bu əlifba 22 işarə - hərfdən ibarət idi. Burada hər bir hərf bir samit və ya yarı sait səsə bərabər idi. Finikiyada yaranan bu əlifbada da Misir əlifbası kimi samit yazılırdı, sait səsi isə nəzərdə tutulurdu. Yarısait səslər dörd işarədən – **alef** və üç işarədən – **ayn**-dan ibarət olmuşdur. Bunları sözün əvvəlində olan sait səslərin önündə işlədirdilər ki, lazımi vaxtda boğaz səsləri ayıra bilsinlər [6, 704].

Afad Qurbanov da rus alimi V.A.İstrinə istinadan yazır ki, "cəmiyyət tarixində ilk səs-yazı sistemlərindən biri olan finikiya yazısında 22 hərf işlənilmişdir". Bu hərflərdə dilin fonem sistemi əks olunurdu. Finikiyalılar istifadə etdikləri hərflərə, təxminən **a** səsini bildirən işarədən başlayaraq əlifba sırası müəyyənləşdirmişlər. Həmin sıra sonradan yaranan əlifbalar üçün də əsas qəbul edilmişdir [2, 705]. Məlumdur ki, Finikiya hərflərinin adları (canlı) əşya formalarının oxşarlığına görə verilmişdir. Məsələn, əlifbanın birinci hərfi **a** - yəni **alef** öküz başına oxşarlığına görə adlandırılmışdır, ikinci hərf-**bet** (finikiya dilində **ev**-dən), **qimel** (finikiya dilində -**kömür**-dən), **daled** (finikiya dilində **qapı**-dan) və sairə hərflər də əşyalara oxşarlıqlarına görə ad verilmişdir. Deməliyəm ki, hərflərin bu cür təsviri Finikiyalıların zəngin mədəniyyətindən xəbər verir. Onların mədəniyyətləri demək olar ki, başqa xalqlara, xüsusən Yunanlara güclü təsir etmişdir. Finikiyalıların tərtib etdikləri əlifba sıralamaları çox dəyərli və doğru olduğundan yunanlar tərəfindən bu ardıcıllığı olduğu kimi qəbul edilmiş və beləliklə, ilk əlifba sırasını qoruyub saxlaya bilmişlər. Dilimizdə səslənən **əlifba** (alfavet) söz-termini **iki (alfa+vita)** adın birləşməsindən yaranmışdır. Belə ki, birinci komponent finikiya dilindəki iki hərfin adından **- alef** və **bet** olub, sonuncu **bet** çox vaxt -**vita** kimi işlənir və buna görə də bir çox dillərdə **Alfavit** kimi tələffüz olunur.

	Hərfin adı	Adların mənası	Hərf mənası
	Alef	Öküz	A
	Bet	Ev	B
	qimel'	dəvə	Q
	Dalet	Qapı	D
	Xe	Hasar	H
	Vav	Mıx	V
	Zayn	Silah	Z
	Xet	Qala	X
	Tet	Yük	T
	Yod	əl	Y
	Kof	pəncə	K
	Lamet	Taz	L

	Mem	Su	M
	Nun	Balıq	N
	Samex	Yığım	S
	Ayn	Göz	O
	Re	Ağız	ə
	Ciode	Quyruq	Ct
	Kof	Meymun	K
	Reş	Baş	R
	Şin	Diş	Ş
	Tav	işarə	T

V.İ.Kodoxovun fikrinə görə Finikiyalılar **Livan** dağlarının şərqində dar bir torpaq ərazidə yaşayırdılar.Onların hərfi yazıları **Kipr** ərazisində (vaxtı ilə Kipr Finikiya dövlətinin koloniyası olmuşdur) tapılmışdır. Bunun tarixi təxminən **e.ə.XII-X** əsrlərə təsadüf edilir. Bu **22** hərifdən olan işarələr bizim dövrə qədər gəlib çatmışdır. Bunu yuxarıda göstərdiyimiz sxemdə də görmək olur. Sxemdən məlum olur ki, Finikiya işarələri insanları əhatə edən canlı və cansız əşyalara oxşadaraq hərf yaratmışlar. Məsələn, ... hərfi **alef** adlanırdı mənası da **öküz (başı)** demək idi, səs mənası isə "**qalın partlayıcı**" xüsusiyyətləri daşıyan və s. Bu minvalla Finiki alimlər **piktoqrafik** işarədən **ideoqrafik** işarəyə və onlardan istifadə edərək **fonoqrafik** hərfi yazı yarada bilmişlər. Bütünlüklə Şərq dünyası Misirlilərin, Finikiyalıların yaratdıqları Əlifba ilə bəhrələnmişdir. Yazırlar ki, bu qədim hərflər konsonant prinsipləri əsasında leksik mənaları izah olunurdu. V.İ.Koduxov bir neçə nümunə vermişdir : **p-p-x** "juk" , **n-f-r** "krasevey" və s. səs sözlərin skeletini göstərərək samitlərin leksik funksiyasını bəyan edir.

Qeyd etməliyəm ki, IX-VIII əsrlərdə finikiya əlifbası yunanlar tərəfindən ələ keçib öyrənildi.Yunanlar bu əlifbaya **sait hərifləri** də əlavə edərək əlifbanı yeniləşdirdilər. Beləliklə, finikiya yazıları başqa xalqlar tərəfindən öyənilərək çoxlu yeni formalara düşdü və Misir, Finiki əlifbası əsasında öz əlifbalarını qurdular. Alimlərin yazılarında Finikiya sürətli yazı forması **Arami əlifbasını** və **yazı** növünü yaratdı. Bu da öz növbəsində **semit dil qrupuna** daxil olan Avrasiya ailə qoluna yayıldı (9, 367).

Məlumdur ki, Arami əlifba və yazı formaları əsasında - yəhudi, Suriya, İran və ərəb qollarının əlifbaları yaranmışdır. Ərəb əlifbası da konsonant üzərində qurulmuşdur və onların da samitlərinə saitin birləşməsi diakritik işarələr hesabına həyata keçirilmişdir. Bir neçəsini nümunə üçün göstərək: **ba** hərfi **bir nöqtə** aşağıda (ب) qoymaqla [b] səsini bildirir, əgər **iki nöqtəni** yuxarı (ت) - qoyduqda [t] səsini, **üç nöqtə (ث)** qoyulduqda isə [s] səsini oxumuş oluruq. Bu minvalla ərəb dilində səslərin sayı 17-dən 28-ə qədər gəlib çatmışdır. Hərflərdən altısı (r,d,z,v,a,b) iki şəkilli, qalanları isə dörd şəkillidirlər. Bunlar əvvəldə, ortada və axırda işlənirlər. Ərəb əlifbası öz inkişafında 9 dövr keçirmiş və təkminləşmişdir.

Dünyamızda 75% əhali yazı növündən istifadə edir. Bu yazı da geniş yayılmış dörd əlifba ailəsindən ibarətdir: **latın 30%** , **slavyan-kiril 10%** , **ərəb 10%** və **hind 20%** təşkil edir.

Yazılı mənbələrdən məlum olur ki, Şərqdə yaranan yazıların **dörd qoldan** ibarət olmuşdur. Ön Asiyada **iydaizm** (yəhudilərin yazısı), **Şərqi xristian** (Suriya yazısı), **atəşpərəstlik** (İran yazısı) və **müsəlman** (ərəb yazısı) yarandı. Qeyd etməliyəm ki, İran (pəhləvi) yazılarından **Uyğur**, **Mancur**, **Monqol** və **Buryat** əlifbaları yaranmışdır. Deməliyik ki, ərəblər şərq ölkələrinin bir çox dövlətlərini zəbt etdikdən sonra ərəb yazısı geniş yayılmış və dövründə başqa əlifbaların yaranmasını ləngidmiş, çoxlarını sıradan çıxarmışdır. Amma qərbdə yaranan əlifbalardan yunan əlifbası və dili daha çox nüfuz qazanmışdır. Yunanlar da ilkin yazılarında **konsonantlardan istifadə etmiş**, sonralar, yəni bizim eradan əvvəl VIII-VII əsrlərdə **vokal səs** yazısına keçmiş və **sait samit** və **samit saitlər** səs birləşmələrindən istifadə edərək əlifbalarını təkminləşdirmişlər. Əslində, tədqiqatçı alimlər yazırlar ki, əvvəl samit səsi bildirən (konsonant-səs yazısı) hərflər II minilliyin 2-ci yarısında yaranmış, sonradan sait səsi bildirən (vokalizm-səs yazısı) hərfləri konsonantla birgə istifadə edilmişdir. Bu birgə yazı növündən istifadənin eradan əvvəl I minillikdə olduğunu göstərilir (8, 140).

Latın əlifbasına gəldikdə, bu yazı mədəniyyəti də çox mürəkkəb yol keçmişdir. Belə ki, latın əlifbası və ya Rim yazısı Rim şəhərinin yaranmasına səbəb olmuşdur. Bu şəhərin yaranma tarixi bizim eradan əvvəl 753-cü ildə göstərilir (3, 146). Bu əlifbanın təkminləşməsinə **Rimlilərin** şimal qonşuları olan **Etruslar** olmuşlar. Məlumdur ki, **Etruslar türkdilli idilər**. Onların dili iltisaqi dillər qrupuna aiddir.

Klassik latın əlifbası 23 hərfdən ibarət olmuşdur. Bu hərflər müxtəlif cizgilərdən ibarət olmuş və biri digərindən fərqlənmişdir. Məsələn, **u** və **v**, **i** və **j** və s. formalarda yunan mənşəli hərf olan **R**, **U**, **Z** səsləri fərqlənirdilər və sonuncular yunan dilinə məxsus olan sözlərdə istifadə olunurdu. Məsələn **q** hərfi ancaq **u** hərfi ilə birləşirdi və birləşdikdə [**kv**] kimi oxunurdu: drātum-kvadrat kimi səslənirdi.

Latın əlifbasının qərbi Avropa mədəniyyətinə güclü təsiri olmuşdur. Müasir dövrümüzdə də dünya xalqlarının 70-80% əlifbaları latın əlifbası əsasında qurulmuşdur. Bunlardan 30% Avropa, 20% Asiya, 20% Afrika xalqları istifadə etməkdədir. MDB dövlətlərinin əksəriyyəti də Latın əlifbasından istifadə edirlər. Latın əlifbası özünün yaranma tarixini, dəyərini və formasını saxlamışdır. Amma başqa xalqlar bu əlifbadan istifadə etdikdə öz dillərinin səslərinə uyğun əlavə işarələr də artırmış və ya əksikləşdirmişlər. Bu cür dəyişmələr olunsa belə, bunlar da latın qrafiki hesabına aparılmışdır.

Latın əlifbası əsasında yaranmış əlifbalar, demək olar ki, klassik Rim yazı hərf sıralarını saxlamış, lakin sonralar iki hərf işarələri əlavə olunmuşdur: **j** və **w**. Bunlardan da birincisi **i** hərfindən törəmiş, digəri isə ikiləşən **v** hərfindən əmələ gəlmişdir. Qeyd olunur ki, latın dilində **v** hərfi sözün əvvəlində işlənir, amma

sözün ortasında **u** səsi istifadə edilir. Orta əsrlərdə **v** hərfi dildə [**v**] səs mənasında özünü bərkişdirdi. Bundan başqa, **u** hərfi də [**y**] səs məzmununda qrafikaya yerləşdirdilər.

Məlumdur ki, sonrakı tədqiqatçıların məlumatlarına görə, latın dilindəki səslərin kəmiyyəti işarələrdən (yəni hərflərdən) çoxdur. Buradan da yeni zərurət yaranmışdır, yəni əlifbanı təkminləşdirmək zərurəti. Bu səbəbdən də əlifbada əla və diakritik (fərqləndirmə işarəsi) və **liqatur** (bağlayıcı elementlər) artırmşlar. Bu işarələri latın səslərinin əlifbada forma və məna xüsusiyyətlərini bildirmək məqsədi ilə yaranmışdır. Deməliyəm ki, müasir dillərin çoxunda latın əlifbasının **diakritik** və **liqatur** işarələrdən istifadə edirlər. Məsələn, **Çeş** və **Portuqal** latın əlifbasında **č** hərfi [ç], **d** hərfi incə **[d'], e>[ə], n>[n']** və s. Bundan əlavə, **Çeş** dilinin latın qrafikasının əsasında qurulan əlifbasında **akuta** (uzun) tələffüz olunan saitlərin üstündə - (tire) işarəsi qoyularaq [ā, ū] uzun tələffüz olunan səsi bildirir. Qeyd etməliyəm ki, latın qrafikasına keçən hər dövlət və onun dövlət dilinin xüsusiyyətləri latın dilinin səslərinin keyfiyyət və kəmiyyət cəhətdən fərqləndirirlər. Bunun üçün də keçid mərhələlərində hər bir xalq öz dilinin səs tərkibinə görə həm hərfi işarələr, həm də əlavə hərf artırmaq məcburiyyətində qalır. Bəllidir ki, dillərdə səs fərqləri var. Məsələn, Şimali Qafqazda yaşayan Abazan dilində iki sait (**a** və **ı**), 65 samit səslər var. Elə dillər də mövcuddur ki, bir [a] saiti var, amma samitlərin sayı 100-ü keçir. Həmin xalq Kol yarımadsında yaşayan Saamilərdir (3, 60).

Azərbaycan dilinin yeni (kiril əlifbasından latın) əlifbasına keçid 1992-ci ildə, XX əsrin sonlarında həyata keçirildi. Bu yeni əlifbada da, Azərbaycan dilinin səs keyfiyyət və kəmiyyətinə görə hərflər üzərində işarələr (a>ä, o>ö, u>ü, c>ç, s>ş və s.) qoymaqla sayını artırmaqla özününkiləşdirmişik.

Hind-Avropa dil ailəsinin Roman qrupundan olan Fransız dilindəki əlifbada da diakritik hərflər mövcuddur. Baxmayaraq ki, diakritik ifadə az tələffüz olunur. Məsələn, **accent aigu** birləşməsinin **e** hərfi üstündə işarə qoyulur [é] ki, [e] səsini bildirsin və ya **accent grave** - işarəsi **e** üzərində qoyularaq [é] səsini ifadə edir. Eləcə də sözlərin müxtəlif məna verilməsində də işarələrdən istifadə olunur (mére, lá-or-da da, burda, buraya; müqaisə et: **l**a - həm artikl, həm də əvəzlik kimi işlənir), **apostrophe** sözdə səs düşümünün işarəsidir (Ĺheure, ćest və s.).

Dilçilikdə **Liqatur** (bağlayıcı) iki və ya üç hərf birləşməsinə deyilir. Məsələn, qədim Slavyan dilindəki Ψ = ш+т hərflərini bağlayaraq bir hərf kimi mövcuddur. Deməliyəm ki, çoxhərfli birləşmələr daha çox samit səslər üçün istifadə edilir. Müqaisə üçün, rus hərfləri х,ч,ш,щ-nın polyak dilində qarşılığı belədir: ch,cz,sz,sch və s. Bu cür qrafik işarələr səs və hərf arasında fərqlərə gətirib çıxarır və dildə çətinlik yaradır (rus dilinin bəzi samitlərində də müşahidə olunur, məs.: ц=t+s qovuşmasında). Dillərdə səs və hərfi fərqlərinin hesablamalarını ilk olaraq fransız dilçisi M.Koena aparmışdır. Onun hesablamalarına görə **[a],[o]**,[**e**] fransız yazısında **143 formada**, ingilis dilində isə

658 qrafik konbinasiyasında aparılır. Bu hal rus dilinin sait sistemində və qoşa samit+sait (я=y+a, ю=y+u, ё=y+o, e=y+ə) birləşməsində də özünü göstərir.

Elmə məlumdur ki, Slavyanların **Kiril** deyilən əlifbası IX əsrin sonu və X əsrin əvvəllərində yaranmışdır. Bu əlifba **Azbuk** (hərfi mənası mənim (az-mən+buk(um) öküzüm) mənasından götürülüb. Əlifbanı yaradanlar Kirilla və Mefodiya qardaşlarının adı ilə bağlıdır. Bu Əlifba da Yunan əlifbasının nəzəri və praktik işlənmiş və yenidən təkminləşdirilmiş başqa oxşar növü kimi sayılır. Belə ki, Kirilla və Mefodiya hazırladıqları yeni əlifbanın hərflərinin 43-dən 19 hərf olduğu kimi götürülüb. Qədim Slavyan əlifbasında istifadə olunmuşdur (4, 150). Bunlardan əlavə, Kiril qardaşları özləri də əlavə işarələr yaratmışlar. Onlardan: **buki, jivete, zelo, tsı, çervb, şa, şta, er, erı, yatı, yus** (böyük) və **yus(**kiçik), eləcə də **y** ilə birləşən **a, u, ə, o yus(**lar və liqatur(yəni bağlayıcı), **uk**. Bundan əlavə, hesablayıcı rəqəmlərdə və alınma sözlərdə fərqləndirici hərflər işlədirdilər. Onların adlarını çəkməklə kifayətlənirik: **omeqa, fita, psi, ksi, i** onluqları bildirən və bir də **ijitsa.** Kirilla və Mefodiya qardaşlarının yaratdıqları Əlifba **Bolqar, Serbiya, Makedoniya** və Şərqi Slavyanlarda (yəni **Malarus, Belarus** və **Rus** xalqlarında) yayılmış və qəbul olunmuşdur.

Ümumiyyətlə, məlum olur ki, dünyamızda tarixən 400-dən artıq yazı növü olmuşdur. Bunların ayrı-ayrılıqda bir inkişaf yolu keçmişdir. Bütün bunlara baxmayaraq, bütün əlifba növləri, onların yaranma kök nümunəsi Misir-Şumer-Finikya Əlifbaları əsasında olmuşdur. Deməliyəm ki, dünyada əlifbanın icad olunub yaranması və yayılması konkret dillərin sürətlə tədqiqatına təkan verdi. Dünya xalqlarının dilləri təsvir olunurdu. Dillərin bir-biri ilə əlaqələri öyrənildi. Dilçilik elmi genişləndi həyati məsələlərin ən vacibinə çevrildi.

Əksər alimlər yazırlar ki, dünyada mövcud dillərin bir çoxunun yazısı finikiyalıların yazısı əsasında əmələ gəlmişdir və finikiya əlifbasını mənbə hesab edirlər. Doğrudur, başqa fikirlərdə olanlar da var. Bu haqda Nəsir Məmmədov daha konkret yazaraq bildirmişdir: Bolqar alimi V.Giorgiyeva görə, finikiyalıların əlifba(hərfi) yazısı **minoyların** sillabik(heca) yazısı əsasında formalaşmışdır. Onlar minoylarda ayrı-ayrı əlamətləri alıb mənimsəmiş və öz dillərinin baş səsi ilə adlandırmışlar. Məsələn, minoylarda **cadır**-sığınacaq mənasını verən al–wa sözünü finikiyalılar buynuzlu heyvan **Alef** adlandırıb, onun baş səsini ötürərək **[a]-(x)** saitini işarə etmişlər" (7, 92). Bir sözlə, istər Minoylar və istər Finikiyalılar vasitəsi ilə yaranan əlifba Şərqə və Avropaya yayılmış və inkişaf dövrünü keçirmişdir. Bu əlifbadan nümunə götürən xalqlar öz doğma dillərinin səs ahənginə uyğun dəyişikliklər apararaq yeniləşdirmişlər. Bu cür yeniləşən əlifbalardan biri də latın əlifbası əsasında qurulan Azərbaycan əlifbasıdır.

ƏDƏBİYYAT

1. Babayev A. Dilçiliyə giriş. Bakı, 2004
2. Qurbanov A. Ümumi dilçilik. Bakı, 2004

3. Məmmədov M., Əliyev A. Müasir dilçilik problemləri. Bakı, 2015
4. Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı, 1980
5. Дирингер Д. Алфавит. М., 1963
6. Истрин В.А. Возникновения и развитие письма. М., 1965
7. Кодухов В.И. Введения в языкознание. М., 1970
8. Моисеев А.Г. Буквы и звуки. Л., 1969
9. Сусов И.П. Введения в языкознание. М., 2007

МАСУД МАМЕДОВ

ЯЗЫК И АЛФАВИТ

РЕЗЮМЕ

В статье рассмотриваются происхождения алфавита. Известно, что почти 75% современного насиления земли пользуются буквенно-звуковым письмом, которое сейчас образует четыре наиболее распространённые семьи алфавитов. Происхождения алфавита уходит своими корнями прежде всего в такие древние стпаны, как Египет, Финикия, Греция. Например, финикийские надписи найдены XII-X вв. до н.э. Финикийские письмо состояло из 22 знаков, обозначавших согласно и полу-гласные [w] и [j]. Финикийские буквы имели более проетую форму, название и порядок расположения.

Финикийское письмо с течением времени менялось. В IX-VIII вв. до н.э. финикий алфавит в его ранней разновидности был заимствован греками, которые изобрели знаки для гласных.

MASUD MAMMADOV

LANGUAGE AND ALPHABET

SUMMARY

The article deals with the origin of the alphabet. It is Known, that about 75% of the modern world population use letter-sound type of writing which forms four most spread families of alphabets. The origin of alphabet has its roots in such ancient countries as Egypt,Phoenicia,Greece. For example Phoenician inseriptions are found in XII-X centuries BC. Phoenician writing consists of 22 symbols standing for a consonant and semi-vowel [w] and [j]. Phoenician letters had simpler forms, names and order.

In procces of time Phoenician writing underwent changes. In IX-VII centuries BC Phoenician alphabet in its earliest form was borrowed by the Greeks, who invented symbols for vowels.

Rəyçi: prof. Nadir Məmmədli

Aygül HACIYEVA
AMEA Nəsimi adına Dilçilik İnstitutunun
Türk dilləri şöbəsinin müdiri,
filologiya üzrə fəlsfə doktoru, dosent
aygul.akhundoff@gmail.com

RUHI BAĞDADİ "DİVAN"I DİLİNDƏ SAY

***Açar sözlər**: Ruhi Bağdadi, "Divan", kəmiyyət kateqoriyası, say, məna növləri*
***Ключевые слова**: Рухи Багдади, «Диван», категория числа, числительное, смысловые формы*
***Keywords:** Ruhi Baghdadi, Divan, the category of quantity, numrrals, semantic types*

Kəmiyyət anlayışı insanın əşya haqqındakı əlavə anlayışlardandır. Tədqiqatlar göstərir ki, insanlıq tarıxində kəmiyyət anlayışı konkret saylardan öncə yaranmış və hər bir dilin spesifik vasitələri ilə ifadə olunmuşdur. Dildə mövcud olan kateqoriyalar bütün zaman kəsiklərində türkologiyanın diqqət mərkəzində duran tədqiqat obyektlərindən olmuşdur. Bu mənada türkologiyanın müasir inkişaf səviyyəsində türk dillərinin, o cümlədən Azərbaycan dilinin qrammatik quruluşunun ayrı-ayrı həlqələrini təşkil edən qrammatik kateqoriyaların diaxronik aspektdə də tədqiq olunması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dilçiliyində, ümumən türkologiyada belə qrammatik kateqoriyalardan biri də kəmiyyət kateqoriyasıdır. M.M.Kazımbəy hələ XIX əsrdə (1839-cu ildə) "Türk-tatar dillərinin ümumi qrammatikası" adlı əsərində türk dillərində iki kəmiyyətin – təklik və cəmliyin olduğunu göstərmişdir (2, s.194). Kəmiyyət kateqoriyası Y.S.Malov, A.M.Şerbak, N.K.Dmitriyev, N.A.Baskakov və s. bu kimi görkəmli rus dilçilərinin də diqqət mərkəzində olmuşdur. Azərbaycan dilçiliyində kəmiyyət kateqoriyasına dair məlumatlara M.Hüseynzadə, S.Cəfərov, Ə.Dəmirçizadə, F.Zeynalov, N.Məmmədov və A.Axundov, R.Xəlilov, Y.Seyidov, F.Cəlilov, A.Aslanovun, eləcə də M.Qıpçağın məqalə və monoqrafiyalarında rast gəlinir.

Türk dillərinin qrammatik quruluşundan bəhs edilən əsərlərdə, eləcə də kəmiyyət kateqoriyası ilə bağlı bir sıra monoqrafik tədqiqatlarda bu kateqoriyanı müəyyənləşdirən əsas parametrlər üzə çıxarılsa və bu problem diaxron və sinxron aspektdə tədqiq olunsa da, əsas diqqət kəmiyyət şəkilçilərinin etimologiyasının araşdırılmasına cəlb olunmuşdur. Tədqiqatlar göstərir ki, yazılı abidələrdə kəmiyyət kateqoriyasının yaranmasını şərtləndirən amillərin sistemli şəkildə öyrənilməsinə hələ də ehtiyac vardır. Fikrimizcə, kəmiyyət kateqoriyasını XVI əsr Azərbaycan dili yazılı abidələrinin ümumtürk yazılı mənbələri ilə müqayisəli şəkildə öyrənilməsi zərurəti indi də mövcuddur və bu baxımdan, həm fəlsəfi

(*idraki*) və həm də qrammatik səciyyə daşıyan kəmiyyət kateqoriyasının R.Bağdadi "Divan"ı əsasında araşdırılmasını da aktual hesab edirik.

Kəmiyyət anlayışının dildə ifadəsi üçün qrammatik vahidlərin şəkilçilərin olması bir o qədər də vacib deyil. Çünki dildəki hər hansı leksik vahid şəkilçi qəbul etmədən də topluluq ifadə edə bilirsə, bu zaman cəm çəkilçisinin işlənməsinə ehtiyac olmur, leksik vahidin özü topluluq bildirir "...və bu topluluq fasiləli (diskret) çoxluqdan fərqli olaraq fasiləsiz (adiskret) olur (7, s.22). Yəni, topluluq cəmlik bildirməsinə baxmayaraq, tək formada mövcuddur. Fikrimizi əsaslandırmaq üçün Ruhi Bağdadi "Divan"ından topladığımız faktiki materiallarda rast gəldiyimiz nümunələrə müraciət edək:

*Alub əlinə cami-zər, nərgis **çəməndə** eyş edər,*
Yəni şəhi-gül dövrüdür, oldi meyi-nabə səla (s.173);

*Xali degildir, bülbülün **gülşəndə** hər şəb nəğməsi,*
Əlbətdə, ol şuridənin başında vardır bir həva (173);

Təqribində rəvamı ələm verə bizə qeyr
*Öləm gedəm bu **ələmlə** yazıq degilmi bana? (s.177);*

*Kimi ğəmnak bu **xəlqin**, kimi əyyaş nədir?*
Kiminin balisi ətləs, kiminin daş nədir? (c.193, s.59);

Məst olub gül-gül açılmışsan, bu fəttanlıq nədir?
***Aləmi** qurtarmaqdasan, aşübi-dövranlıq nədir (c. 193, 141b);*

*Sinəçak olmadan həman **ərzi**,*
Vəslətə fətni-babdır guya (s.185) və s.

Nümunələrdən də göründüyü kimi, verilən sözlər (*çəmən, gülşən, ələm, xəlq, aləm, ərz*) qrammatik cəhətdən tək halda olan isimlərlə ifadə olunsalar da, kəmiyyətcə topluluq bildirir.

Kəmiyyət kateqoriyasının leksik ifadə vasitələrindən biri də saydır.

Uzun müddət dilçilikdə sayların *ədədi-isim* və ya *ədədi-sifət* adı altında öyrənilməsi təsadüfi xarakter daşımayıb, dərin əsası olan məsələlərdəndir.

Akad. K.Abdullayev yazır: "Saylar dil sisteminin ən sabit, dəyişməz kateqoriyalarından olub, hər bir dil qrupunun özünəməxsus xüsusiyyətlərini özündə qoruyub saxlayır (1, s. 34).

Say müstəqil və əsas nitq hissəsi olmaqla, həm ismə, həm də sifətə məxsus xüsusiyyətləri daşıyır. Lakin sayların lüğəvi mənaları onları hər iki nitq hissəsindən əsaslı surətdə fərqləndirir. Bir sıra dilçilər də "Azərbaycan dilinə aid

tarixi materialların verdiyi faktlara əsaslanaraq sayın mənası və vəzifəsinə aid olan xüsusiyyətlərin, əsasən sabit qaldığı ilə həmfikirdir (2; 3; 4; 5; 7; 8).

Ruhi Bağdadinin "Divan"ından əldə edilən materiallar da "Azərbaycan dilində işlənən sayların həm quruluşu, həm lüğəvi mənası və həm də vəzifəcə tarixi ardıcıl inkişaf yolu keçərək sabit qaldığını" göstərir:

*Hüsn bağində bu gün ol **iki** ləli-ziba,*
__İki__ güldür, gözəlim, biri-birindən ziba (s.169);

Yar istəyən olur neçə əğyarə aşina,
__Bin__ yarə yerinə ta olə __bir__ yarə aşina (s.186);

Sayın məna növləri."Divan" da sayların aşağıdakı məna növləri işlənilmişdir: a) *miqdar sayı* əşyanın müəyyən konkret sayını bildirmişdir:

Bəni __bir__ navək ilə eylədi ğəmzən __iki__ qat,
Qoluna qüvvətü ustaduna __yüz bin__ rəhmət (s.197);

Qeyd edək ki, müəyyənlik bildirən ***bir*** sözü müxtəlif məqamalrda işlənir:

__Bir__ ləli ruxi-yar olmaq üçün üşşaqə,
Dedim, aya, nədir əgləncə, gülü mül dedilər (s.226);

Ağlasam __bir__ bən yaraşur kim, bana bülbül dedilər,
Sən gül, göngeyi-rəna ki sana gül dedilər (s.336);

b) ***əvvəl, son*** sözlərinin sıra sayı məzmunu ifadə edən nümunələri aşağıdakılardır:

Yarın __əvvəl__ cəmalı məzhəri-səni-ilahdür,
Münkir olanə gözləri iki gəvahdür (s.443);

c) ***kəsr sayı*** bütövü bildirən saydan sonra *-da,-də* şəkilçiləri və *bir* sözü işlənmişdir:

__İkidə bir__ sirrini faş eyləyəndir aləmə,
Əşki-çeşmim, ey dili-şuridə, bilsəm nəm bilür (s.278);

Gördüm rəqibi söylədi dün çoq yalan bana (s.168);

ç) ***qeyri-müəyyən say*** *bir-iki* sözlərinin yanaşı işlənməsi ilə yaranmışdır:

Qoyub ol xətti, əgər səfhəyi-gülzari bana,
Bağiban, gəl satayın, der, __bir-iki__ xari bana (s.169);

d) ***-ar, -ər, şar,-şər*** *şəkilçisinin* konkret miqdar saylarına artırılması ilə:

Xoş degil, __birər__ bad ilə, saqi, təklifi qo,
Xatiri-yaran isə məqsud, bir sağər yetər (s. 381);

İkişər *cani məchuh etməgə şəmşirə çəkmə ehtiyac,*
Ey kəmanəbru,müjən oqlarını döndər,yetər (s.510);

Onu da qeyd etmək yerinə düşərdi ki, bu şəkilçini H.Mirzəzadə əşyanın cinslərə bölünmüş hissələrini bildirən bölgü saylarına daxil etmişdir.(8, s.165).

e) ***numerativ sözlərlə***:

Dağı-xunilər degil sinəmdə, ey şəh, cabəca,
Bir avuc *altın alub qoynuma qoydum bən gəda (s.172);*
Qətrə-qətrə *səfçəyi-çöhrəmdə əşki-laləgun,*
Kağızi-zər üzrə mərcandır düzülmüş guyiya (s.172);

Bən gedüb xaki-dərindən, vermədim zəhmət sana,
Sən turub ***bir kərrə*** *halim sormadın, rəhmət sana (s.174);*

Huşyar olunca su yerinə badəyi-içər,
Məst olsa ***neçə kərrə*** *edər tövbəyi-məsuh (s.210);*

Gül kibi sən al bidabən qəbalər gey ki, biz
Bir bölük *bietibarüz, ğəm degil keysək pəlas (s.421).*

Çoxsaylı nümunələrdən də görünür ki, R.Bağdadinin "Divan"ında sayın bir sıra məna növləri işlənilmişdir.

Faktik materiallar sıra sayının R.Bağdadinin "Divan"ı dili üçün səciyyəvi olmadığını da üzə çıxardı. Belə ki, sira sayına da yalnız bir nümunədə təsadüf etdik:

Al ilə ***birimci*** *eylədülər könlümüz əsir,*
İki gözüni Ruhiyi-zarın qapatdülər (s.510).

Sıra sayı şəkilçisinin *-mci* şəklində işlənməsi hazırda Azərbaycanın Cənub dialektləri üçün xarakterik olsa da, ədəbi dildə 1900-cü ildə nəşr edilən bir çox qəzet və jurnallarda öz əksini tapmış, 1920-ci ildə yazı dilində möhkəm sabitləşmişdir (8, s,165). Qeyd edək ki, müasir Azərbaycan dilində *birinci // birimci* sözünün qarşılığı kimi ərəb mənşəli *əvvəla* sözü indi də işlənməkdədir.

Saylara dair toplanmış nümunələrə diqqət yetirildikdə *bir* sözünün müxtəlif məna variantlarında işləndiyi diqqət çəkir. Müxtəlif dövrlərə aid yazılı abidələrin tədqiqi göstərir ki, *bir* sözünün daşıdığı məna xüsusiyyəti XIII əsrdən başlayaraq daha sonrakı dövrlərdə ardıcıl bir xətlə inlişaf etməyə başlamışdır. "Divan"dan topladığımız nümunələrdə *bir* sözü aşağıdakı məqamlarda işlənmişdir:

• ***Bir*** sayı əşyanın konkret miqdarını bildirir:

Neçə yıllardır ki, kuyi-dilrubadə sakinüz,
Bir bölük *dərd əhliyüz, Darüş-şəfadə sakinüz (s.381);*
Bir *güli-tərsən ki, girmiş xar əlinə damənin,*
Pakdamənsən sən,həmnişinin bitəmiz (s.409);

• ***bir*** sayı qeyri-müəyyən miqdar bildirir:

Qanqı ***bir*** *şəhin abdalıyüz kim, nari-zövq ilə yaqar,*
Nüqtəyi-eşqində daim bin qələndər tazə yağ(s.490);

• ***bir*** sayı digər miqdar sayı ilə birgə işlənərək əşyanın qeyri-müəyyənliyini bildirir:

Bir-iki *gün bilürsən təkyəi-eşqində mehmanüz,*
Bizə incinmə kim, əhli-kərəm mehmanə incinməz (s.412);

• ***bir*** sayı müəyyən üslubi çalarlarla işlənərək qarşılaşdırma bildirmişdir:

Gəlüb sən Yusifin dəvayi-hüsnin bir yana atdın,
Demişlər dərçi aləm ***bir*** *yanavü* ***bir*** *yana Yusif (s.444);*

• ***bir*** sayı *özgə* əvəzliyi ilə işlənərk ədatlıq (*bir başqa* mənasında) məzmununu ifadə etmişdir:

Bir *özgə nişayı hasil eyləmiş cami-məhəbbətdən,*
Leyk dövrində uhi badəyi-gülfamdən keçmiş (s.426).

Daha yuxarıda numerativ sözlərlə aid verilən nümunələrdə *bir* sayının müxtəlif mənalarda işləndiyi aydın göründüyündən bunları xırdalamağa ehtiyac duymadıq. Onu da qeyd edək ki, saylar üçün də xarakterik olan substantivləşməyə R.Bağdadi "Divan"ından əldə etdiyimiz bu nümunədə təsadüf etdik:

Çoqların *vəsfi-xətinlə müşkilinhəll eylədim,*
Kim, verür hal əhli-dil yaranə qali-dilguşə (s.182);

R.Bağdadinin "Divan"ından gətirilən nümunələr bir daha aradan bir neçə yüzilliklərin keçməsinə baxmayaraq say kateqoriyasının ən qədim morfoloji kateqoriyalardan olduğunu, M.Şirəliyevin (9) də qeyd etdiyi kimi, morfoloji, leksik və sintaktik yolla ifadə olunduğunu göstərir.

Tədqiqatın nəticələri bunu da deməyə əsas verir ki, Ruhi Bağdadi "Divan"ında qrammatik cəhətdən tək hesab olunan, lakin mənaca çoxluq bildirən

bir sıra sözlər vardır və bu sözlərin kəmiyyət etibarilə çoxluq-cəmlik bildirməsində xəbərlərin də müəyyən rolunun olduğu şübhəsizdir.

Onu da qeyd etmək lazımdır ki, hər bir ismi və feili xəbər şəxslər üzrə dəyişməklə tək və cəm ola bilir. Ayrı-ayrı şəxslərin cəmini bildirən isimlər də xəbərlik şəkilçilərinin (*-ıq,-ik,-uq,-ük;-sınız,-siniz,-sunuz,-sünüz, -dırlar, -dirlər,-durlar,-dürlər*) iştirakı ilə çoxluq bildirir. Lakin bunlar ismin kəmiyyət şəkilçiləri deyil, xəbərlik (şəxs) şəkilçiləridir və onların çoxluq bildirməsi xəbərlik kateqoriyasının ikinci, yəni, əlavə vəzifəsidir ki, Ruhi Bağdadi "Divan"ında bu şəxs şəkilçilərinin XVI əsrin dil xüsusiyyətlərinə uyğun şəkildə ifadə olunduğunun bariz nümunəsini görürük:

Eşq camın nuş edüb, anlər ki, bihuş oldilər,
Cani-dildən hu deyüb, bir kərrə xamış oldilər;
Tənlərin yaqub, bəla bəzmində xamuş oldilər(246).

Bir dövrdə gəldik bu fəna aləmə biz kim,
Asari-kərəm var nə bəşərdə, nə mələkdə (180);

*Kövsəri anma, ibni vəqt**üz** (ik) biz*
Birə derin şərabi-nabın ver (s.239);

*Məniyi-surətdə bulanlar biz**iz** (ik),*
Mərtəbəyi-aləmi-irfan gör (s.239);

*Nə kimsəyə ədavət eylər**iz** (ik) nəkinəmiz vardır,*
Bizim, sufi, məhəbbətlə dolu bir sinəmiz vardır (s.260);

Qeyd edək ki, "Divan"dan gətirilən bu nümunələr bir sıra türk dillərində (*türk, başqırd, tatar, çuvaş və s.) -**z*** ünsürünün cəmlik əlamətini sübut edən faktların (*göğüs – türk; qaqauz; köks – azərb.* və s .) olmasını bir daha təsdiq edən atributlardandır. N.K.Dmitriyev özünün "Başqırd dilinin qrammatikası" əsərində xəbərlik kateqoriyasından danışarkən *-**z*** ünsürünün cəm əlamətinin qədim şəkilçilərindən biri olduğunu göstərir (6, s.210).

.**ƏDƏBİYYAT:**

1.Abdullayev K. Say. Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası. II hissə, Morfologiya, Bakı, 1986

2. Babayev A. Azərbaycan dilçiliyi tarixi. Bakı, 1996, s.194.

3.Əlizadə A. Azərbaycan dilində kəmiyyət kateqoriyası. Namizədlik dissertasiyasının avtoreferatı, Bakı, 1966

4.Əlizadə A. Azərbaycan ədəbi dili tarixi. 4 cilddə, Bakı, 2007

5.Cavadov Ə. Say. Azərbaycan dilinin qrammatikası. Bakı, 1960

6.Дмитриев Н.К.Грамматика башкирского языка. М-Л.,1948

7. Qıpçaq M. Kəmiyyət anlayışının dildə ifadəsi. Bakı, 2000

8.Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası, Baki, 1962
9. Şirəliyev M.Ş. Azərbaycan dilinin qrammatikası. I hissə, Bakı, 1951

АЙГЮЛЬ ГАДЖИЕВА

ЧИСЛИТЕЛЬНЫЕ И ИХ СМЫСЛОВЫЕ ФОРМЫ В ЯЗЫКЕ «ДИВАНА» РУХИ БАГДАДИ

РЕЗЮМЕ

Одним из средств выражения категории числа является числительное. Являясь самой устойчивой, неизменной категорией языковой системы, числительные сохранили в себе специфические свойства каждой языковой группы. Будучи самостоятельной знаменательной частью речи числительное носит в себе свойства как существительного, так и прилагательного. Однако словарное значение числительных основательно отличает их от этих частей речи. Ряд языковедов, ссылаясь на факты исторических материалов азербайджанского языка, едины во мнении, что свойства числительных относительно значения и функции, в основном, устойчивы.

Материалы, полученные из «Дивана» Рухи Багдади, также доказывают, что «и строение, и словарное значение, и функции числительных, пройдя последовательный исторический путь, остаются устойчивыми».

AYGUL HAJIYEVA

NUMERALS AND THEIR SEMANTIC TYPES IN "DIVAN" BY RUHI BAGHDADI

SUMMARY

One of the lexical ways of expressing the category of quantity is the numeral. It is the most stable and unchanging category of the language system which keeps special features of each language in itself. Numeral is an independent and main part of speech which has the same features belonging to nouns and adjectives. But the lexical meanings of numerals basically differentiate them from both of the parts of speech. Based on the facts of the historical materials on the Azerbaijani language, many linquists also think that the features concerning the meanings and duties of numerals mostly remain stable.

The materials taken from "Divan" by Ruhi Baghdadi also show that the structure, the lexical meaning and duty remain stable after the consequtive way of their hostorical development.

Rəyçi: Nadir Məmmədli
Filologiya üzrə elmlər doktoru, professor

Dos. Dr. QIZILGÜL ABDULLAYEVA
Baki Dövlət Universiteti

ZƏRF XVII ƏSRİN DİL MƏNZƏRƏSİNDƏ

Açar sözlər: Zərf, adverbiallaşma, arxaizmlər, inteqral, diferensial, variantlılıq, məna tutumu, leksik paralellər, diferensiativ, adverbiallaşma, morfoloji struktur, sabitlik...

XVII əsr Azərbaycan ədəbi dilində sabitlik nümayiş etdirən nitq hissələrindən biri də zərfdir. Zərfin inkişaf tarixi elə əslində feilin inkişafı tarixidir. Bu inkişafın paralel gedişi, təbii ki, zərfin feillərlə əlaqələnməsi ilə bağlıdır. Hərəkət bildirən bir nitq hissəsinin zərf vasitəsi ilə müxtəlif yöndən izahı diferensiativ məna növlərinin
XVII əsrdə də qorunuşunu təmin edir. XVII əsr Azərbaycan ədəbi dilinin morfoloji strukturunda yer alan zərfin araşdırılması bu nitq hissəsinin aşağıdakı dil mənzərəsinin reallığını təqdim edir:

İlk növbədə onu deyək ki, ədəbi dilimizin bu tarixi mərhələsində zərfin, demək olar ki, bütün mənaca növləri öz təzahürünü tapır. XVII əsrin dil materialından seçilən ümunələrə söykənmə də bunu təsdiq edir:

Tərzi-hərəkət zərfi: Abbas ağlar *arsız-arsız*, Dünya olub e'tibarsız (Aşıq Abbas, 16, s.323); Ta qucağımızdan *irağ* düşdün, təni-bican bənəm (Təsir., 16, s. 318)...

Birinci nümunədəki zərf bu gün ədəbi dil səviyyəsində işlək vəziyyətdədir, amma ikincidə yer alan zərf canlı danışıq faktıdır. Normativlik qazanan paraleli isə *uzaq* leksik vahididir.

Zaman zərfi: XVII əsr Azərbaycan ədəbi dilinin qrammatik sistemində zaman zərfləri də müəyyən əhatə ilə diqqət çəkir:

Dəlil oldu kişi ardınca oğlan,
Gecə-gündüz gedərdilər şitabən (Fədai, **7,** s.114)

Nümunədə təqdim olunan *gecə-gündüz* leksik vahidi də ədəbi dil faktı olaraq müasir dildə ünsiyyətə xidmət etməkdədir. Bu mürəkkəb quruluşa malik zərfin yaradıcıları olan antonim komponentlərin hər birinin müasir Azərbaycan ədəbi dilində müstəqil şəkildə işləkliyi də obyektiv reallıqdır.

XVII əsr Azərbaycan ədəbi dilində zaman zərflərindən biri də müasir Azərbaycan ədəbi dilində normativlik qazanan *indi* zərfidir (Gəl indi doğru söylə sən həqiqət – Fədai, 7, s.149) ki, o, XVII əsr təmsilçilərinin dilində fonoparalelləri ilə qeydə alınır. *İmdi* onlardan biridir:

Əcəb gündür, gəl *imdi*, Rəhməti, beytül-həzəndən çıq, (Rəhməti Paşa,16,s.65)

Söz bu fonetik cildlə XVII əsrəqədərki klassik ədəbiyyatın dili üçün də işlək olan sözlərdən biri kimi diqqət çəkir (Allah ilə ol *imdi* niyaz eylə, Nəsimi –15,s.

29). Bu gün dilimizdə *indi* fonetik cildi ilə ədəbi dil faktına çevrilən *imdi* zərfinin ilkin fonoforması isə tarixən *amtı* şəklində olmuşdur:

Ol *amtı* anığ yok / Orada *indi* pis yoxdur − Kül $tiqin_{kiçik}$ abidəsi-Cənub.,3 (1, s. 24-25).

Görünür, sözün fonoloji strukturunda aşağıdakı istiqamətlənmə getmişdir:

amtı → emti → imti → imdi → indi

Onu da deyək ki, bu fonoformalar içindəki *imdi* fonetik cildli zərf yaşlı nəslin dilində hələ də qorunmaqdadır.

Kəmiyyət zərfi: Bəla zülfiylə saldın hər tərəf bir seyd toprağa, Düşür damın fəribi *çoxca*, rəhmi heç səyyadın (Məlik bəy Avçı, 16, s.273); Pay edəndə ədu qənimətini, *Çoxcacuq* səbr edən səfayə burax (Məczub, 16, s.196); Ona eylədilər *çox-çox* siyasət (Fədai, **7,** s.115)...

Təqdim olunan ilk iki nümunədə yer alan *çox* zərfi ədatla birləşdiyindən haqqında danışılan söz daxilində məna qüvvətlənməsi təmin edilir. Müasir dilimizdə *çoxca* işlənir, amma *çoxcaçıq* variantı qeydə alınmır. Bu da maraqlıdır ki, bu variant işlənməsə də, onun antonim komponenti olan *azaçıq* lüğəvi dil nümunəsi hal-hazırda kifayət qədər intensivlik nümayiş etdirir. Kəmiyyət zərfi kimi işləklik nümayiş etdirən *çox* zərfinin özü isə bu gün də ümumxalq dilinin sayəsində normativlik nümayiş etdirir.

Yer zərfi: Savaş düşdü *arayə* iki yandan, Boyandı lalə tək yer üzü qandan (Fədai, **7,** s.105); Durdu *oradan* pəs ol vəfadar, Məhzi od olub çü şö'leyi-nar (Məsihi, 14, s.64)...

Nümunələr vasitəsi ilə təqqdim olunan yer zərflərinin işlənmə fonovariantları eyni ilə müasir Azərbaycan türkcəsində olduğu kimidir.

XVII əsr Azərbaycan ədəbi dilində sırf leksik fakt olaraq arxaiklik nümayiş

etdirən zərflər də XVII əsr Azərbaycan türkcəsində qeydə alınır. Təbii ki, bunlar da zərfin, demək olar ki, bütün məna növlərini əhatə edir. Müasir Azərbaycan ədəbi dili ilə müqayisədə tarixi fakt olaraq arxaik sayılan zərflərdən bəzilərinin izahına ehtiyac duyuruq. Onu da unutmayaq ki, XVI əsrin sonu XVII əsrin əvvəllərindən etibarən dildə gedən yeni proseslərin nəticəsi olaraq türk dili aparıcılığa doğru istiqamətlənsə də, fars dili hələ də onunla paralel olaraq addımlayırdı və addımlamada ərəb dili də o qanalardan biri sayılırdı. Odur ki, arxaikləşən zərflər nizamında türk mənşəli lüğəvi dil nümunələri ilə yanaşı ərəb və fars mənşəli dil faktları da yer alır. Belə leksik vahidlərdən biri olaraq, *dərdəm* lüğəvi dil nümunəsi xüsusi maraq doğurur. Məna növünə görə zaman zərfidir. Nadir bir dil faktı kimi diqqət çəkən bu söz *dərdəm* د رد م fonoforması ilə XVII əsrin dil materialında yer alır. Bu lüğəvi dil nümunəsi haqqında danışılan zaman kəsiyində epizodikliklə müşayət olunur və intensivlik nümayiş etdirmir. Bu isə ona işarədir ki, bu zərf artıq XVII əsr Azərbaycan ədəbi dilində arxaik sayılır. Amma hər halda fars mənşəli bu leksik vahid XVII əsr Azərbaycan türkcəsində

qeydə alınır və «dərhal, o saat, yubanmadan» məna tutumu ilə ekvivalentlik təşkil edir (5, s. 145):

Apardılar onu sultanə *dərdəm* (Fədai, **7,** s.115)

Dərdəm leksik vahidi əslində ikitərkiblidir, yəni «*dər*» və «*dəm*» hissələrindən ibarətdir. Ikinci komponent «hal», «vəziyyət», «zaman» (5, s.142), «vaxt» mənaları ilə ekvivalentləşir. Beləliklə, bu lüğəvi dil nümunəsi semantikasına gorə «dərhal» anlamına uyğun gəlir. Bu zərfin eyni məna tutumu daşıyan başqa bir fonoformasına da rast gəlirik ki, bu da *birdəm* zərfidir:

Çatıb *birdəm* çağırdı övrətini (Fədai, 8, s.57)

Bu zərf müasir didə işlənən «birdən» zərfinə uyğun gəlir.

Müasir Azərbaycan ədəbi dilinin nə lüğət tərkibində, nə də bir zərf olaraq qrammatik sistemində rast gəlinməyən dil faktlarından biri də *filhal* lüğəvi dil nümunəsidir:

Filhal çağırırdı bir ləbibi, Ta ol mərəzin ola təbibi (Məsihi, 14, s. 180)...

Yuxarıdakı eyni izahat *filhal* **فی الحا ل** leksik vahidi üçün də keçərlidir. Mətnin təqdimatına əsasən o da müəyyənləşir ki, *filhal* dil faktı da *dərdəm* leksemi ilə cemantik uyum saxlayır, yəni bu söz də çağdaş dilimiz üçün işlək sayılan «dərhal», «tez», «cəld» mənaları ilə ekvivalentlik nümayiş etdirir. Bu gün bu leksem Türkiyə türkcəsinin lüğət tərkibində oturmasa da, vaxtilə Osmanlı türkcəsində işləndiyi qeydə alınır. Müəyyənləşir ki, Çağdaş Azərbaycan və Türkiyə türkcələrinin arxaik leksik qatında yer alan *filhal* lüğəvi dil nümunəsi tarixən Osmanlı türkcəsində fi-l – hâl **فی الحال** fonetik tərkibi ilə işləklik qazanıb və «bu anda, hemen, şimdi» məna tutumlarının ifadəçisi olub (17, s. 319).

Arxaikləşən zərflərdən biri də *şimdi* zaman zərfidir. Əslində bu, *indi* zərfinin leksik paralellərindən biridir:

Köhnə oldu dövrdə Fərhadü Şirin qissəsi, Söylənür *şimdi* Zəfər eşqi bu günlər xəlq ara (Zəfər, 16, s.130)...

Sözsüz, müasir Azərbaycan dilinin lüğət tərkibində bu dil faktı ilə rastlaşmırıq. Bu o deməkdir ki, tarixən klassik ədəbiyyatımızın dili üçün işlək sayılan *şimdi* zərfi (məsələn: *Şimdi* bizüm bu dəʾvimüz bürhana irdi, şükr ana! – Q.Bürhanəddin, 3, s. 121) indi arxaikləşmiş sözlər nizamında yerləşir. Amma Türkiyə türkcəsində hal-hazlrda da ədəbi dil faktı kimi işlənməkdə və «şu zamanda, içinde bulunduğumuz zamanda» məna tutumu ilə ünsiyyətə daxil olmaqdadır:

Şimdi daha bahtiyar bir haberi sevgili bir sesten bizzat duymaya imkân buluyoruz (18, s.1868).

Arxaikləşmiş zərflərə aid diqqət çəkən digər bir fakt, bizə görə, yenə də nadir görünən *şim* zərfidir. Məna etibarilə *şimdi* sözü ilə paralelləşsə də, fonetik cild baxımından fərqlilik qazanan dil vahididir. Bəlkə də, bu həmin leksik vahidin

(yəni *şimdi* sözünün) canlı daışıq dilində oturan fonoformalarındandır. Hər halda dildə rastlaşdığımızdan təqdiminə ehtiyac duyuruq:

Qurtulmadı vəsliylə daxi Sadiqi qəmdən, *Şimdən* bəri yox çarəsi bu dərdə dəvanın (Sadiq bəy Əfşar, 16, s.57);

Bu söz yalnız XVI əsrin II yarısı, XVII əsrin əvvəllərində yaşamış, Səfəvilərin Dövlət kitabxanasının müdiri olmuş və «Sadiqi Kitabdar» adı ilə tanınmış (16, s.51) Sadiq bəy Əfşarın dilində qeydə alınır. Onu da qeyd edək ki, bu dil faktına nə Osmanlı türkcəsində, nə də müasir Türkiyə türkcəsində rast gəlinir.

Fars mənşəli *əndək* اندك zərfi də xüsusi maraq doğurur. «Bir az, azacıq» semantikası ilə lüğətlərdə yer alan (11, s. 166) bu arxaik zərfə Fədainin «Bəxtiyarnmə» əsərinin dilində rast gəlirik:

Var idi məndə ləşgər, bişümarə Onu *əndək* görüb etdim nəzarə (Fədai, 7, s.107).

Mətndən də aydın görünür ki, *əndək* lüğəvi dil nümunəsi «az» semantikası ilə uyğunluq təşkil edir.

Arxaik zərflər içərisində *köp* leksik vahidi də qeydə alınır. Cümlədəki yerinə görə həm də say kimi işlənən bu söz XVII əsr ədəbi-bədii dil nümunələrində kəmiyyət zərfi kimi də qeydə alınır:

Rəqiba, qürbə məğrur olma *köp* kim, şol səri-kudə
Sənin dik itləri xeylidə bihədd aşınamız bar (Əmani, 4, s.36)

Bu, təbii ki, leksik-semantik yolla bir nitq hissəsinə aid olan lüğəvi dil nümunəsinin adverbiallaşması ilə bağlı məsələdir. Bununla bağlı tədqiqat aparan S.Abdullayeva da qeyd edir ki, bu halda adverbiallaşan leksemlər feilə yanaşır və onu müxtəlif yöndən izah edərək zaman, tərz, kəmiyyət yer məzmununun ifadəçisinə çevrilir (**2,** s.42).

Orxon-Yenisey abidələrinin də dilində bu sözün sayla yanaşı zərf kimi işləndiyinə da rast gəlinir:

Yok çığan bodunığ *kop* kobartdım / Yox (vəziyyətində olan) kasıb xalqı çox yüksəltdim − Kül tiqin$_{kiçik}$ abidəsi- C.,10 (**1,** s.38-39)

Fərq yalnız fonetik səviyyədə görünür. Göründüyü kimi, XVII əsr Azərbaycan ədəbi dilində daha çox *köp* şəklində qeydə aldığımız bu leksemin qədim türk dilində *kop* variantı qeydə alınır. Hansı ki, epizodik şəkildə buna da XVII əsr Azərbaycan ədəbi dilində rast gəlinir. Unutmayaq ki, qədim türk dilində qalın samitlə yanaşı yalnız qalın sait işlənə bilər və yaxud da əksinə, qalın saitlə yanaşı qalın samit yer ala bilər. Bu leksik vahidin imlasında da [k'] samitinin yazıda ifadəçilərindən biri olan ↓ qrafemi yer aldığından (1> ↓) onun yanındakı sait [ö] deyil, qalın [o] saiti kimi oxunur, yəni belə: [k' op] .

XVII əsr Azərbaycan türkcəsində qulaqlarımızın eşitməyə alışmadığı (təbii ki, biz klassik ədəbiyyatın dilinə əsasən bunu deyirik) *şitaban* zərfi ilə də qarşılaşırıq.

Dəlil oldu kişi ardınca oğlan Gecə-gündüz gedərdilər *şitaban* (Fədai, 8, s.121)

Sözün kök morfemi fars mənşəli *şitab* lüğəvi dil nümunəsidir. Semantikasına gəlincə, «sürət, ceviklik» mənasını ifadə edir (12, s. 331). *Şitaban* isə lüğətlərdə «tələsən, iti gedən, yüyürən» məna tutumu ilə təqdim olunsa da (12, s. 331), bu nümunədə «tez, tələsik, iti, sürətlə» mənaları ilə ekvivalentləşir.

Semantikasına görə kəmiyyət bildirən bir zərf də diqqət çəkir. Bu, *bunəhayət* zərfidir:

Buyurdu, döydülər çox *binəhayət* (Fədai, 7, s. 115)

Təqdim edilən leksik vahid əslində «xeyli, çox» semantikası ilə şeirə tarazlıq gətirir. Bu leksik vahidin qarşısında yer alan «çox» lüğəvi vahid isə məna qüvvətlənməsinə meydan verən ədatdır. Adətən sifətin qarşısında daha çox rast gəlinən bu leksik vahid, göründüyü kimi, zərf kimi qəbul etdiyimiz lüğəvi dil nümunəsinə yanaşır və intonasiyanın artımını təmin edir. Əslində isə bu birləşmə «çox + çox» anlamını reallaşdırır.

XVII əsr Azərbaycan ədəbi dilində rastlaşdığımız *sənsizin* dil faktı da diqqətimizi çəkir:

Sənsizin, ey dilruba, hicran ara təskini-ğəm... Bermədi heç növ ilə fəryad ilən əfğan mana (Əmani, 4, s.26)...

T.Hacıyev bu zərfin *-sizin* morfoloji göstəricisi vasitəsilə reallıq qazandığını qeyd edir (9, s.188) və nəticədə bu leksik vahid quruluşuna görə düzəltmə sözlər sırasında yer alır. R.Əskər isə bu şəkilçinin tərkib etibarilə iki hissədən ibarətdir olduğunu və burada zərf düzəltmənin -ın[2] morfoloji göstəricisinin payına düşdüyünü vurğulayır (6, s.242):

آرنسزن آمکیور *Ərənsizin* əmgəyür / Ərənsizlikdən əziyyət çəkər (Mahmud Kaşğari-1, 10, s.367-368).

Fikrimizcə, sifət düzəldən -sız[4] şəkilçi morfemi müxtəlif nitq hissələri düzəltmək baxımından omonimlik təşkil edir. Yəni o, ayrı-ayrılıqda həm adlardan sifət yaradan (məsələn: *-sız*[4] → yağsız, dadsız, duzsuz...), həm də zərf düzəltmək funksiyasının ifadəçisi olan şəkilçi morfemdir. Bizə görə, sözü zərfləşdirən elə bu şəkilçidir (diqqət yetirək: *Sənsiz yaşaya bilmirəm*; Yaxud: *Sənsiz gedə bilmərəm* və s.). Şəkilçinin daxilində yer alan *-in* morfoloji göstəricisi də dilimizdəki zərf düzəldən *-la*[2] şəkilçisinə uyğun gəlir. Fikrimizin təsdiqi üçün Cəbrayıl şivəsində işlənən «güc***lə**» məna tutumunu özündə daşıyan *güc**in*** (9, s.186) sözünü xatırlatmaq kifayətdir. Deməli, zərf düzəltmə prosesində hər iki şəkilçinin (*-siz* və *-in*) iştirakı reallıq kimi qəbul edilməlidir. Onu da qeyd edək ki, həm kök morfem (*sən*), həm də sözün deivatoloji sistemə girəndən sonra qazandığı yeni forma (*sənsiz*) bütün tarixi mərhələlərdə, eləcə də XVII əsr Azərbaycan ədəbi dilində ünsiyyətə xidmət edən sözlər sırasında nizamlansa da, *sənsizin* fonocildli leksik fakt işləklikdən qalaraq dili tərk etmiş sözlər sırasında nizamlanır. Reallıq

isə budur ki, bu forma artıq tam mənada XVII əsr Azərbaycan ədəbi dilinin özü üçün belə arxaikləşmiş lüğəvi dil nümunələrindən biri kimi qəbul edilir.

Adətən sifətin dərəcə kateqoriyasının morfoloji göstəricilərindən biri kimi daşlaşan *-raq*, *-pək* şəkilçisi XVII əsr mənbələrində zərflərə qoşulması ilə də diqqət çəkir. Zərflərə həm bitişik, həm də ayrı yazılması ilə qeydə alınan və əslində dildə heç bir funksionallıq nümayiş etdirməyən bu morfemin işlənmə tezliyinin epizodikliyə doğru istiqamətlənməsi də qabarıq şəkildə görünür. Elə buna rəğmən hiss olunur ki, *-raq* (**راق**), *-pək* (**رک**) dildə artıq son akkordlarını vurur:

عشقیدین هر نیجه دیدوم حالوم اولغای یخشیراق

Eşqidin hər nicə didüm halum olğay *yəxşiraq*;

وای کیم بولدی یمان راق یخشی تا قیلدم نظر

Vay kim buldi *yəmanraq* yəxşi ta qıldım nəzər (Məsihi «Divanı», 13, s.240);

ظلمت دکی خضر سوییدین خوبرک کورور

Zülmətdəki xızır suyidin *xubrək* görür (Məsihi «Divanı», 13, s.249).

XVII əsr Azərbaycan ədəbi dilinin morfoloji sistemində rastlaşdığımız *tezrək*, *ğəmginrağ* ... da bu leksik vahidlər sırasında nizamlanan lüğəvi dil nümunələridir:

tezrək (**تزرک** – F, s.49); *ğəmginrağ* (**غمکینراغ** – Məsihi «Divanı», 13,s.242)

При изучении русского языка на компетентностной основе у студентов формируется особая структура познавательной деятельности. Студенты, сталкиваясь с новым языковым или речевым явлением осознают мотив и определяют цель предстоящей деятельности, ориентируясь в её условиях, планируют этапы своей деятельности и отбирают необходимые для неё средства, осуществляют эту деятельность и сравнивают полученные результаты с ожидаемыми. Такое сходство познавательной и речевой деятельности ещё раз подтверждает целесообразность особого внимания к

разряду *речь* в обучении русскому языку как иностранному и возможность реализации компетентностного подхода при совершенствовании речевой деятельности студентов-азербайджанцев.

Речь возникает из потребности человека общаться, высказаться, а высказывания человека порождаются различными побуждениями, т.е. определенной мотивацией.

Мотивация речи, т.е. «ради чего я говорю», возникает у студентов при наличии эмоций, связанных с яркими впечатлениями, интересом к той или иной деятельности. Значит, потребность общения – это первое условие развития речи. Однако общение возможно только с помощью общепонятных знаков, т.е. слов, их сочетаний, различных оборотов речи. Следовательно, студентам следует дать образцы речи или создать речевую среду. Это второе условие развития речи. От того, какая у студента речевая среда, во многом зависит богатство и разнообразие его речи. Богатство речи во многом зависит от обогащения студента различными представлениями и понятиями, от его способности и умения использовать в своей речи полученные знания. Это третье условие успешного развития речи.

Выделяют четыре уровня работы по развитию речевой деятельности: произносительный, лексический, грамматический, уровень текста [3].

В речи студентов-азербайджанцев наблюдаются следующие типичные орфоэпические ошибки: произношение *чт, чн* в словах *что, чтобы, конечно, нарочно, что-нибудь, яичница, булочная* и т.д.; произношение: *гк, гч* в словах *мягкий, мягче, легкий, легче* и т.д.; произношение *его, ого* в словах *первого, летнего, моего, летающего* и т.д.; произношение звука [г] в словах *сегодня, итого, сегодняшний* и т.д.; неправильное произношение твердых и мягких согласных, сочетаний согласных и т.д. Кроме указанных ошибок, наблюдаются также прерывистость речи, интонационное однообразие, нерасчлененность речи, когда главная мысль не отделяется от дополнительных мыслей ни интонацией, ни логическим построением. Эти и подобные типичные произносительные ошибки вызваны несоответствием звукового и буквенного составов слов и распространены не только в озвученной письменной, но и в естественной разговорной речи студентов.

Задача преподавателя русского языка как иностранного состоит в предупреждении и устранении отрицательного воздействия написания как ведущей причины отклонений от орфоэпических норм. Студентов следует учить орфоэпически правильно читать написанное и грамотно записывать орфоэпически правильно диктуемое.

Одна из важнейших задач обучения русскому языку как иностранному заключается в том, чтобы, «опираясь на содержание обучения, активно воздействовать на умственное развитие учащихся» [3, с. 29], формируя у них лингвистическое мышление. При этом важнейшими критериями, на наш

взгляд, являются следующие: 1) наличие определенного запаса структурированных лингвистических знаний (лингвистических понятий и языковых фактов); 2) выработка комплекса специальных лингвистических умений: а) анализировать, сравнивать, сопоставлять, классифицировать языковые факты; б) соотносить явления внеязыковой и языковой реальности; в) выделять соотношение «форма – значение», что является одним из определяющих умений при изучении языка; г) различать в слове лексическое и грамматическое значения.

Процесс формирования лингвистического мышления студентов предполагает работу в нескольких направлениях, важнейшим из которых является работа над пониманием студентами различий между лексическим и грамматическим значениями слова. Вначале (совершенно уместно и правомерно) студентам предлагать сведения о том, что «при образовании однокоренных слов получаются слова с различным лексическим значением» [4, с. 38], а затем давать примеры слов, различающихся не только лексическим, но и грамматическим значением: *звонить, звонкий, перезвон.* В данном случае было бы уместнее привести в качестве примера однокоренные слова, грамматическое значение которых одинаково, например: *дом – домик, кот – котик, звон – звонок, зазвонить – перезвонить.*

Следует отметить, что «при изменении слова получаются формы этого же слова; изменяется только его грамматическое значение, а лексическое остается тем же самым» [5, с. 95]. Например: *звонить, звонит, звонят; правильный, правильная, правильные; телефон, телефона, телефону.* Для понимания студентами сущности грамматического значения необходимо обратить их внимание на систему падежных форм имени существительного, имени прилагательного и парадигму спряжения глагола; например:

вод*а* подводник водн*ый* я прочита*ю* мы прочита*ем*
вод*ы* подводник*а* водн*ого* ты прочита*ешь* вы прочита*ете*
вод*е* подводник*у* водн*ому* он прочита*ет* они прочита*ют*
вод*у* подводник*а* водн*ый* я чита*ю* мы чита*ем*
вод*ой* подводник*ом* водн*ым* ты чита*ешь* вы чита*ете*
о вод*е* о подводник*е* о водн*ом* о он чита*ет* о они чита*ют*

Такая расстановка акцентов позволила бы более четко дифференцировать в сознании студентов, с одной стороны, различия в лексическом значении между однокоренными словами и, с другой стороны, различия в грамматическом значении между формами одного и того же слова. Это целесообразно еще и потому, что знания об особенностях процессов, происходящих при изменении слова, должны опираться на полученные ранее знания о том, что «кроме лексического, слово имеет и грамматическое

значение» и что «… у существительных можно определить род, падеж, число, у глаголов – время, лицо и число» [6, с. 74].

Поскольку овладение лексическими значениями связано с формированием представлений о реалиях окружающего мира, оно проходит более успешно, нежели овладение грамматическими значениями, которые относятся к явлениям абстрактно-логического ряда. Именно поэтому усвоение знаний о грамматических значениях требует достаточного уровня сформированности абстрактного мышления.

Одним из эффективных приемов работы по развитию лингвистического мышления студентов являются познавательные задачи, активизирующие учебный процесс. Рассмотрим некоторые из подобных заданий.

I. Как вы думаете, каким значением – лексическим или грамммАтическим – различаются выделенные слова в следующих предложениях? ДокАжите свой ответ.

1) На руке у девушки красовалось *бирюзовое* колечко.
2) Мы пришли на пляж и увидели *бирюзовое* море.

Для нас важно, каким образом будут рассуждать студенты, обосновывая свою точку зрения. Во-первых, студенты должны самостоятельно обратиться к толковому словарю и, уточнив лексическое значение слова *бирюзовое,* отметить, что эти слова употреблены в разных значениях. Далее студенты обращаются к содержанию понятия «грамматическое значение», указывая, в каком роде, числе и падеже употреблены эти слова. Отметив, что формы рода и числа слова *бирюзовое* в обоих случаях совпадают и это связано с тем, что оба прилагательных относятся к среднему роду, имеют форму числа, студенты определяют падеж слова *бирюзовое* в первом и во втором предложениях. Определив падеж, студенты получают наглядное доказательство того, что выделенные слова в первом и во втором предложениях различаются формой падежа, хотя и имеют одинаковые окончания.

II. Есть ли в следующем отрывке слова, которые различаются только лексическим значением? А какое значение у них является одинаковым?

Гроза прошла, и ветка белых роз
В окно мне дышит ароматом…
Еще трава полна прозрачных слез,
И гром вдали гремит раскатом.
(А.Блок).

Задание дает реальную возможность увидеть в тексте слова, разные по лексическому значению, но совпадающие по грамматическому значению. Задачу можно сформулировать иначе, например:

Распределите слова стихотворного отрывка по следующим группам: 1) существительные женского рода в форме им. п. ед. числа (*гроза, ветка,*

трава); 2) существительные женского рода в форме род. п. мн. числа (*роз, слез*); 3) существительные мужского рода в форме тв. п. ед. числа (*ароматом, раскатом*); 4) прилагательные в форме род. п. мн. числа (*белых, прозрачных*); 5) глаголы в форме наст. вр., 3-го лица, ед. числа (*дышит, гремит*).

Интересным и полезным с точки зрения формирования лингвистического мышления студентов могут быть и задания, связанные с нахождением и определением в предложениях однокоренных слов и форм одного и того же слова. При выполнении подобных заданий активизируется аналитическая деятельность студентов. Приведем примеры заданий.

1. В русском языке есть слова, обозначающие предметы, слова, обозначающие признаки предметов, а также слова, обозначающие действие предметов. Как вы думаете, могут ли быть такие слова однокоренными? Докажите свой ответ примерами из данных ниже предложений.

2. Как вы думаете, лексическим или грамматическим значением различаются выделенные слова в предложенных парах?

3. Что объединяет все выделенные слова в следующих предложениях?

1) На леса и поля опустился летний *вечер.* – Мы любовались летним *вечером.*

2) *Вечерняя* заря разливалась по небу. – До самой *вечерней* зари носились по небу неугомонные ласточки.

3) Летом *вечерело* поздно. – Зимой быстро *вечереет.*

Анализируя подобные примеры, студенты получают возможность взглянуть на языковое явление с разных сторон. Нахождение сходства между однокоренными словами формирует представление о языке как о системе взаимосвязанных и взаимодополняющих единиц, отражающих связи и отношения внеязыковой действительности, что способствует формированию лингвистического мировоззрения студентов.

Только в предложении факт языка может стать коммуникативным. Студенты с первых шагов должны овладеть умением конструировать предложения, ибо в них осуществляется функциональная группировка слов. Лингвистическим обоснованием методики обучения конструированию предложений является анализ разных типов синтаксической связи языка, который должен проводиться на всех этапах обучения.

Речь усваивается, если приобретается способность запоминать градацию сочетания языковых единиц в потоке речи, в связном тексте. «В роли средств организации связного текста могут выступать различные части речи. Помимо этого текстообразующую функцию несут такие грамматические категории, как видо-временная соотнесенность глагола, категория рода, категория числа, категория лица, категория наклонения». [7, с. 10].

Рассмотрим структурную организацию текста и выделим возможные морфологические средства связи.

Мать – начало всех начал, неиссякаемый источник добра, всепонимания и всепрощения. Мать – опора земли. Ее жизнелюбием, милосердием и бескорыстием создается, крепнет и умножается семья.

В данном тексте средствами текстуальной связи являются слова: *мать – мать – ее* (*жизнелюбием, милосердием, бескорыстием*). Последнее предложение присоединяется ко второму путем употребления, в качестве текстуального средства, местоимения *ее.*

На примере текста покажем также действие синтаксических средств связи. При этом следует обратить внимание на многомерность связей в одном тексте.

Оглянулась Ирада, зовет брата, а вместо мальчика бежит за ней беленький козленочек. Догадалась Ирада, что это за козленочек, и горько заплакала. А тут и река близко оказалась – водичка бежит, струится студеная. Села Ирада на камушек прибрежный у кустика и плачет.

Текст пронизан множеством связей. Можно выделить связь через подлежащее (*Ирада – Ирада*), дополнение (*брата – мальчика – козленочек*), сказуемое (*оглянулась – догадалась – заплакала – села – оказалась – плачет*). Помимо этого, обратный порядок слов в первом, втором и четвертом предложениях связывает их в единое целое. Помимо текстовой функции порядок слов выполняет и стилистическую функцию.

Текст – основа создания той среды, которая формирует и развивает языковую личность. Работа с текстом развивает чувство языка, творческую память, приобщает к культуре, способствуя духовному становлению личности. И, самое главное, систематическая работа над лексико-грамматическими средствами построения динамических текстов формирует лингвистический подход к анализу любого текстового фрагмента. А это уже свидетельство сформированного умения соотносить знания по русскому языку с его речевыми манифестациями. Следовательно, развитие речи студентов на грамматической основе приводит к коммуникативной речевой правильности на уровне текста [8].

Необходимо использовать все возможные средства, чтобы создать атмосферу благожелательного отношения студентов к вопросам культуры русской речи. Эта работа должна занимать исключительно важное место во всем процессе обучения русскому языку в азербайджанской аудитории.

ЛИТЕРАТУРА

1. Введенская Л. А., Павлова Л. Г. Культура и искусство речи. Ростов-на-Дону: РГПИ, 1996.
2. Жинкин Н. И. Речь как проводник информации. Москва, Наука, 1982.
3. Костомаров В. Г., Митрофанова О. Д. Методическое руководство для преподавателей русского языка иностранцам. Москва: МГУ, 1976.
4. Розенталь Д. Э., Голуб И. Б., Теленкова М. А. Современный русский язык. Москва, Айрис – Пресс, 2007.
5. Дейкина А. Д. Обучение и воспитание на уроках русского языка. Москва, 1990.
6. Щукин А. Н. Методика преподавания русского языка как иностранного. Москва, 2003.
7. Романова Г. В. Анализ текста как средства развития речи учащихся // Русский язык в школе, 1989, № 1, с. 9-13.
8. Кожанова Н. И. Структурно-семантические особенности современной устной разговорной речи в практике обучения русскому языку как иностранному // Современные проблемы лингвистики и методики преподавания русского языка в вузе и школе. Воронеж, 2008. Вып. 5. с. 65-72.

S. H. MEHDİYEVA

RUS DİLİNİ XARICI DIL KIMI ÖYRƏDƏRƏK TƏLƏBƏLƏRIN NITQININ INKIŞAFI

XÜLASƏ

Məqalədə rus dilini xarici dil kimi öyrədərək azərbaycanlı tələbələrin nitq mədəniyyətini inkişaf etdirmək imkanları tədqiq edilir. Müasir rus ədəbi dilinin normalarına əsaslanaraq nitqin inkişaf şərtləri və dil tələffüzünü formalaşdıran meyarlar şərh edilir. Tələbələrin rus dilində nitq təfəkküründün formalaşmasının müxtəlif istiqamətləri təhlil edilir. Sözün leksik və qrammatik mənalarının qarşılıqlı əlaqəsi bilavasitə cümlədə nəzərdən keçirilərək müqayisə edilir. Mətnin kommunikativ quruluşunda cümlələrin bir-birilə struktur-semantik əlaqələrinə xüsusi diqqət verilir. Hər bir konkret insanın nitqi onun ümumi mədəniyyətini əks etdirir. Ona görə də nitq müəyyən tələblərə cavab verməlidir. Konkret olaraq nitqdə qaydalara əməl edilməlidir, yəni müasir rus dilinin normalarına riayət olunmalıdır. Bu mənada rus dilini xarici dil kimi bilik əsasında öyrənərək tələbələrdə dərketmə fəaliyyətinin xüsusi strukturu formalaşır. Tələbələr bu və ya digər nitq hadisələrinin motivlərini anlayırlar və onları düzgün işlədilər. Azərbaycanlı tələbələrinin rus dilində nitqin inkişafının müxtəlif şərtləri şərh

edilir. Onların nitq fəaliyyətinin inkişafı üzrə işin tələffüz, leksik, qrammatik və mətn səviyyələri nəzərdən keçirilir.

S.H.MEHDIYEVA

THE DEVELOPMENT OF THE RUSSIAN LANGUAGE AS A FOREIGN LANGUAGE SPOKEN BY STUDENTS IN TEACHING

SUMMARY

In the article we are observing teaching Russian language as a foreign language to Azerbaijan students to develop their speech culture. Accordung to contemporary Russian literature language, speech's development terms and criterions which form language pronunciation are commented. Several students speech thinking is analyzing. Thge word's lexical and grammatical meaning's mutual connection is directly compared by reviwing. At the communicative strukture of the sentences structural-semantic connection with each other are the attention is paid. Each persond's speech shows his|her general culture. That is why speech has to answer to several demands. In particular in the speech schould be followed to regulations. Which means norms of Russian language should be followed. In this sense teaching Russian language as a foreign language can shape student understands of the specific structure. Student understabd the motives of this or any other speech events and use them properly. The Russian speech of Azerbaijan students's refer to comment in different term. Work on the development of their speech, pronunciation, vocabulary, grammar and text levels are being considered.

Rəyçi: Qasımova Könül
Filologiya üzrə fəlsəfə doktoru, dosent

TƏRANƏ XƏLİLOVA
Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti (UNEC)
Txalilova0@gmail.com

BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ ONUN NƏTİCƏLƏRİ

Açar sözlər: *türkdilli xalqlar, Türkoloji qurultay, türkologiya, türk dilləri*
Ключевые слова: *тюркоязычные народы, Тюркологический съезд, тюркология, тюркские языки*
Key words: *turkic peoples, Turkological congress, turkology, turkish languages*

Bütün türkdilli xalqların həyatında əlamətdar hadisə olan I Türkoloji Qurultay yüksək dövlət səviyyəsində keçirilmiş, onun işində keçmiş SSRİ məkanının türk xalqları yaşayan bütün bölgələrindən, habelə xarici ölkələrdən dəvət olunmuş çoxlu sayda görkəmli türkoloq və başqa alimlər iştirak etmişdilər. Türk xalqlarının tarixində ictimai-siyasi əhəmiyyət daşıyan Türkoloji Qurultaya qədər türk xalqlarının keçmişi və gələcəyi ilə bağlı ən vacib məsələləri müzakirə obyektinə çevirən belə bir qurultay olmamışdı.

Qurultay dünya mədəniyyəti tarixində türk xalqlarının da payının az olmadığını bir daha sübuta yetirdi. Eyni zamanda türkoloqların və geniş ictimaiyyətin diqqətini cəlb etdi.

Türk xalqlarının mədəni inteqrasiyasında xüsusi və mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm Qurultay ilk növbədə geniş vüsəti və böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ardıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyırdı. Belə ki, məhz bu mötəbər məclisdə keçmiş Sovetlər Birliyi məkanında yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarlar qəbul edilib, latın qrafikalı əlifbaya keçidin elmi-metodik prinsipləri ətraflı şəkildə işlənib hazırlanmışdı.

I Türkoloji Qurultayın Bakıda keçirilməsi tamamilə qanunauyğun idi, çünki həmin dövrdə bir sıra sahələrdə olduğu kimi türkologiya elmində də Azərbaycan öndə gedirdi, birinci idi. Ölkədə bu istiqamətdə tanınmış və nüfuzlu söz sahibləri, elm adamları çoxdan bəri səmərəli fəaliyyət göstərirdilər. Təsadüfi deyil ki, keçən əsrin 70-ci illərində də nüfuzlu "Sovetskaya Türkologiya" jurnalı məhz Bakıda nəşr edilməyə başladı. Bu fakt Azərbaycanın və onun paytaxtı Bakı şəhərinin postsovet məkanında türkologiyanın mərkəzi kimi məşhurluğunun və təsdiqinin ifadəsidir. Onu da

qeyd etmək yerinə düşər ki, sözügedən jurnal hazırda da "Türkologiya" adı ilə Bakıda öz işini uğurla davam etdirir.

I Bakı Türkoloji Qurultayın möhtəşəm və mötəbər bir tədbir kimi tarixi əhəmiyyət daşıması haqqında əyani təsəvvür əldə etmək üçün aşağıdakı bilgilər diqqətçəkicidir: Qurultayda bütövlükdə Türk Dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdi. İclasa Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd Ağamalıoğlu sədrlik etmiş, qurultayın Rəyasət Heyətinə aşağıdakı şəxslər seçilmişdilər: Səməd Ağamalıoğlu, Azərbaycandan Ruhulla Axundov, Həbib Cəbiyev, tanınmış şərqşünas-tarixçi alim akademik Bartold, akademik Oldenburq, Avropa alimlərinin nümayəndəsi professor Mensel, RSFSR Xalq Maarif Nazirliyindən Naqovitsin, professor Bəkir Çobanzadə, professor Samoyloviç, Qazaxıstandan Bəytursun, Yakutiyadan Barahov, Şərqşünaslıq Assosiasiyasından Borozdin və Pavloviç, Tatarıstandan Qəlimcan İbrahimov, Başqırdıstandan İdelquzin, Türkiyədən Fuat Köprülüzadə, Dağıstandan Qorqmasov, Özbəkistandan Nahamov, Qara-Qırğızıstandan Tunstanov, Türkmənistandan Berdiyev, Krımdan Akçökraklı, Şimali Qafqazdan Əliyev Umar və digərləri. Bundan əlavə, Qurultaya fəxri üzv kimi dəvət olunmuş böyük türkoloq Əli Bəy Hüseynzadə, məşhur nəzəriyyəçi N.Marr, sovet ideologiyasının rəhbərlərindən A.V.Lunaçarski rəyasət heyətinə seçilmişdilər.

Qurultayda görkəmli türkoloq alimlərdən F.Köprülüzadə "Türk xalqlarının ədəbi dillərinin inkişafı", A.N.Samoyloviç "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri", F.Ağazadə "Türk dillərində düzgün yazı", V.V.Bartold "Türk xalqlarının tarixinin müasir vəziyyəti və öyrədilməsinin yaxın vəzifələri", S.F.Oldenburq "Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları", A.A.Müller "Türk xalqlarının təsviri sənəti haqqında", B.Çobanzadə "Türk ləhcələrinin yaxın qohumluğu haqqında", eyni zamanda "Elmi terminologiya sistemi haqqında", S.Y.Malov "Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri", C.Məmmədzadə "Türk xalqlarının əlifba sistemləri haqqında", Q.Şərəf "Ərəb və latın sistemli şriftlər və onların türk-tatar xalqları üçün tətbiqi məsələləri" mövzularında maraqlı elmi məruzlərlə çıxış etdilər.

Beləliklə, Birinci Türkoloji Qurultaydaəlifba məsələsi, imla-orfoqrafiya problemi, termin və tədris-metodika məsələsi, qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri, türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi, milli dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri qurultayda müzakirə olundu.

İstərdik yuxarıda qeyd etdiyimiz qurultayda müzakirə olunan məsələlər haqqında qısa da olsa məlumat verək.

Əlifba problemi. Türk maarifçilərin XIX yüzillikdən bəri apardığı yeni əlifba məsələsi iki qola şaxələnmişdi: ərəb və latın qrafikası əsasında türk əlifbası.

Uzun mübahisələrdən sonra səs çoxluğu və fikir üstünlüyü ilə latıncılar qalib gəldi. Latın əlifbasını qəbul etməklə o zaman ərəb əlifbasını işlədən Türkiyədən ayrılmağı nəzərdə tutan yuxarı sovet siyasi dairələrinin əsas fikri nə olursa-olsun, əlifbanı dəyişmə, türklərin bir-birindən uzaqlaşma ənənəsinin əsasının qoyulması idi.

Yeni əlifba komitəsinin Türküstana, İdil (Volqa) boyu ölkələrinə, Xivə və Krım hökumətlərinə müraciəti oldu. Bu müraciətin əsasında yeni əlifbaya keçmək məsələsi dayanırdı.

20 oktyabr 1923-cü ildə Azərbaycan hökuməti "Yeni türk əlifbasının dövlət əlifbası kimi qəbul edilməsi" adlı qərarını elan etdi.

16 mart 1925-ci ildə Azərbaycanda Sovetlər Qurultayının qərarı ilə birinci dərəcəli məktəblər latın əlifbasına keçmişdi. Qurultayın elmi, siyasi, maliyyə və b. təşkilat məsələləri bütün təfərrüatı ilə Moskvada hazırlanmışdı. 1926-cı ilə qədər vəziyyət belə idi. Bu tarixi konteksti nəzərə almadan qurultayda müzakirə olunan əlifba məsələsini dəyərləndirmək çətindir.

Göründüyü kimi, Sovet hökuməti artıq I qurultay ərəfəsində kəşfiyyat xarakterli nəbz yoxlaması aparmış, latın əlifbasına keçməyin təbliğini 20-ci illərin əvvəlindən başlamışdı. Ərəb əlifbasını ləğv etmək hədəf seçilmiş, kiril əlifbasının gələcək yolunu açmaq üçün latın əlifbası məsələsi ön plana gətirilmişdi. Moskva Ankaranın ərəb əlifbasından yeni əlifbaya keçməsini ağlına belə gətirmirdi. Atatürkün uzaqgörənliyi və siyasi çevikliyi kommunistləri çaşdırdı.

1937-1940-cı illərdə İ.V.Stalinin yenidən türklərin əlifbasını dəyişərək kiril-rus əlifbasına keçməsi, dilin adını dəyişdirməsi sovet repressiya siyasətinin və ümumən, totalitar rejim ideologiyasının tərkib hissəsi idi.

İmla-orfoqrafiya məsələsi. Bir prinsip olaraq fonetik prinsip, yəni "danışdığın, eşitdiyin kimi yaz" prinsipi daha çox tərəfdar tapsa da, yeri gəldikcə morfoloji, tarixi-ənənəvi prinsiplərdən də istifadə üzərində daha çox dayanıldı.

Termin məsələsi. Bu məsələdə 4 qrupa ayrılan alimlərin əsas mübahisəsi ərəbləşmə, farslaşma, Avropalaşma, türkləşmə, demokratlaşma istiqamətində idi.

Tədris-metodika məsələlərində ana dilinin tədrisinin Avropa standartları ilə milli ənənəni birləşdirən tədrisə üstünlük verilməsindən daha çox bəhs olundu və milli dərsliklərin zəruriliyindən danışıldı.

Qohum və qonşu dillərin müasir elmi metodlarla öyrənilməsi müzakirə edildi və bu sahənin altayşünaslıq, kompratividstika sahəsindəki perspektivləri göstərildi. Türk ədəbi dillərinin norma və üslub xüsusiyyətləri üzərində

dayanan türkoloqların ortaq ədəbi dil və ya ünsiyyət dili, onun elmi prinsipləri üzərindəki fikirləri diqqəti cəlb etdi.

Türk xalqlarının ana yurdu problemi, dil tarixinin fonetik, morfoloji, leksik və sintaktik səviyyələrdə öyrənilməsi, türk etimoloji lüğətlərinin yaradılması, tarixi qrammatika əsərlərinin yazılması və s. məsələlərinin öyrənilməsi və bu sahədə ortaq fəaliyyətlərinin həyata keçirilməsi qərarlaşdırıldı.

Türklər üçün ədəbi dil məsələsi qurultayın 14-cü iclasında Türkiyənin və o dövr şərqşünaslığının böyük ədəbiyyatşünası professor Mehmet Fuat Köprülüzadənin "Türk xalqlarında ədəbi dilin inkişafı" adlı məruzəsinin müzakirəsi ətrafında gedən çıxışlarda qaldırıldı. İllərlə apardığı tədqiqatın nəticəsi olaraq, F.Köprülüzadə türk dilində Sasanilər dövrünə (V əsr) gedib çıxan əsərlərin olduğunu söyləyirdi. Dünya mədəniyyətinə hələ XIX əsrdən məlumdur ki, məhz öz əlifbası ilə yazılmış Orxon-Yenisey abidələrinin kamil dili timsalında VIII əsrdə türkün mükəmməl ədəbi dili vardır. Bu, kifayət qədər inkişaf etmiş ədəbi dildir. Bu, Altaydan Dunaya qədər uzanan möhtəşəm imperiyanın dövlət dilidir. Bu nəhəng türk imperiyasının qövmləri, əşirətləri olmaq etibarilə yerli türklərin yerli ədəbi ləhcələri də imperiya ədəbi-dövlət dilinin tərkib hissələridir və təbii ki, yerli ədəbi təzahürlərdə əsas leksik, qrammatiknorma imperiya-dövlət ədəbi dilinindir.

F.Köprülüzadə məruzəsində xüsusi vurğulamır ki, bu gün türklər üçün vahid ədəbi dil yaratmaq lazımdır. Ancaq məruzəsinin adı hay-küysüz, qışqırıqsız öz məzmununu elan edir: "Türk xalqlarında ədəbi dilin inkişafı" deyilir, "Türk xalqlarında ədəbi dillərin inkişafı" deyilmir. Deməli, hər türk xalqı xüsusi ədəbi dil işlətmir, bütün xalqalara bir ədəbi dil xidmət göstərir. Bundan əvvəl isə B.Çobanzadə "Türk dillərini yaxın qohumluğu" adlı məruzəsində bu mətləb üçün bir hazırlıq işi görmüşdü. Əvvələn, o da məruzəsinin adı ilə çox söz deyirdi-türk dillərinin yaxınlığı başqa dil ailələrindəki qohumluğa bənzəməz, o biri tərəfdən, M.Kaşğaridən gətirilən bu fikirlə bu dil ailəsinin üzvləri arasında yaxınlığın çox qədimlərə getdiyi əyani göstərilirdi və beləliklə, F.Köprülüzadənin türk xalqlarının tarixində bir ədəbi dilin inkişafından danışması havadan asılı görünmürdü. M.Kaşğarinin sözü budur: "Türk ləhcələrində leksikanın bünövrəsi birdir. Ortada fərqlər yoxdur. Əgər varsa, yalnız müxtəlif hərflərdə (səslərdə) və onların dəyişmələrindədir.

Türklər üçün ümumi ədəbi dil mübahisəsində vahid ədəbi dil tərəfdarlarının əsas söykənəcəklərindən biri bugünkü türklərin bir-birini anlaması faktı idi. B.Çobanzadənin məruzəsində bu məsələ canlı faktlarla özünəməxsus şəkildə cavablanmışdı, onun məruzəsində çox ibrətli məqamlar vardı. Tarixən müxtəlif qütblərdən-şimaldan və cənubdan, şərqdən və qərbdən olan türklər bir-biri ilə o qədər yaxınlaşırlar ki, bir-birlərinə qarışırlar; bəzən də coğrafi cəhətdən çox-çox uzaqlara düşürlər, ancaq öz yeni qonşuları ilə anlaşma üçün qarşılıqlı şivə-ləhcə mübadiləsi edirlər, bir qrupdan dillər kimi

görünürlər. Beləliklə, bu yaxınlaşmaların izləri uzaqlaşmalar zamanı itmir və buna görə də aralarında anlaşma faktları qüvvədə qalır.

Xalq dili ilə ədəbi dilin münasibətlərindən danışarkən bəzən, ümumiyyətlə, ədəbi dilin yaradılmasına yanlış yanaşanlar da olurdu: "Ədəbi dil məhz sinfi meyillərin təsiri altında yaranıb, ziyalıların özlərini xalq kütləsində təcrid etmək, qara camaatın başa düşməyəcəyi bir dil yaratmaq istəyi ilə meydana gəlib".

Qurultaydan çıxan nəticə isə bu idi ki, türklər üçün vahid bir ədəbi dil yaradılsın, türklərin hamısı bir-birilə rahat ünsiyyət saxlaya bilsinlər. Bundan gözəl, xoş nə ola bilər ki!

Tariximizə öz möhürünü vuran, I Türkoloji Qurultayda qaldırılan ortaq türk əlifbası, ortaq türk dili, ortaq türk tarixi, ortaq türk terminologiyası kimi qlobal məsələlər bu gün də aktualdır, əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Anar, Fərəh, "Birinci Türkoloji Qurultay haqqında düşüncələr", Ədəbiyyat qəzeti, Bakı-2006
2. Babayev A, "Bəkir Çobanzadənin yeni Azərbaycan əlifbası və orfoqrafiyası uğrunda mübarizəsi", Bakı-1998
3. Bakıda keçirilən Türkdilli xalqların Birinci Türkoloji Qurultayının Stenoqram hesabatı, 26 fevral-5 mart 1926
4. Həsənli.C, "Türk-tatar tarixinin fədakar tədqiqatçısı-Əziz Qubaydilinin yaradıcılığı və Birinci Türkoloji Qurultaydakı fəaliyyəti haqqında", Bakı.1991
5. İ.Stalin Marksizim və dilçilik məsələləri. Bakı, Azərnəşr, 1953
6. Kamil Vəli Nərimanoğlu, "Latın əsaslı Türk əlifbası və I Türkoloji qurultayı Biblioqrafiya", Bakı-2006, "Karşılaştırımalı Türk Lehçeleri Sözlüğü I",T.C. Kültür Bakanlığı 1371, Kaynak eserleri/54, Ankara-1991
7. "Maarif ve Medeniyyet", "Osmanlı, özbek, kazak dillerinin mukayesesi", No 2-3, Bakü 1926, Mehmet Kara, "Türk Cumhuriyetleri Ortak Alfabenin Neresinde?", www.yalquzaq.com
8. Tofiq Hacıyev, "Türklər üçün ortaq ünsiyyət dili", "Təhsil yayınları", Bakı 2013
9. Самойлович А. Новый турецкий алфавит: /Письмо из Азербайджана/ //Новый Восток.-М., 1924- №5
10. Чобанзаде Б. Тюркологический съезд: /Резюме доклада прочитанного на заседании Тюркологической секции Общества/ //Изв.Об-ва обследования и изучения Азербайджана.-1925-№1
11. Яковлев Н.Проблемы национальной письменности восточных народов СССР //Новый Восток.-М., 1925-№10-11

TARANAKHALILOVA

I TURKOLOGICAL CONGRESS AND IT`S RESULTS

SUMMARY

So at this prestigious event in the history of the Turkish people of the former Soviet Union, literature, language, alphabet, ethnography and culture for the foreseeable future the most important decisions were made in a series of thought, scientific and methodological principles for the transition to the Latin alphabet in detail has been developed.

I Turkish Congress held in Baku was completely legal, because at that time, as well as in a number of fields in the Azerbaijani Turkic science was going ahead, the first was. The owners of the well-known and influential in the country, scientists have long functioned effectively. It is no coincidence that, in the 70s of the last century, the "Sovetskaya Turkology" magazine began to be published in Baku. The fact that Azerbaijan and its capital city as the center of the former Soviet Union's popularity and approval turkology expression. It should be noted that at present the magazine "Turkish" and continues its work in Baku.

ТАРАНА ХАЛИЛОВА

I ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД И ЕГО РЕЗУЛЬТАТЫ

РЕЗЮМЕ

I Тюркологический Съезд состоялся в Баку на правительском уровне. Приглашенные на съезд известные ученые высказывали многочисленные мнения затрагивающие вопросы не только языка, но и литературы, алфавита, этнографии и культуры тюркских народов. Съезд доказал что, тюркские народы сыграли большую роль в развитии мирового искусства, литературы и науки.

Были приняты решения касающиеся азербайджанского алфавита. Разработаны методологические вопросы связанные с переходом азербайджанского языка на латинский алфавит.

Rəyçi: dos.G.M.İsmayılzadə

Ş.V.ASLANOVA
ADU
qarikk@yahoo.de

FUNKSİONAL-SEMANTİK TƏHRİKLİK MİKROSAHƏLƏRİ VƏ ONLARIN İFADƏ FORMALARI

Açar sözlər: təhriklik semantikası, mikrosahə, ifadə forması, imperativ
Ключевые слова: побудительное семантика, микрополе, средства выражения, императив,
Keywords: semantic inducement, microsphere, indication, imperative

Kommunikativ-praqmatik cəhətdən təhrik nitq aktlarının təsnifi məsələlərini Y.İ.Belyayeva, L.A.Biryulin, T.Sarantsasral, N.İ.Formanovskaya və başqaları araşdırmışlar (3; 4; 8; 10 və s.).

Tədqiqatçılar təhrik növləri ilə bağlı müxtəlif fikirlər irəli sürürlər. Məsələn, Y.İ.Belyayeva təhrikin əmr, xahiş, yalvarış, dəvət, sərəncam, xəbərdarlıq, məsləhət, icazə, qadağan, təlimat, təklif, göstəriş, sifariş, tələb, komanda. İcazə tələb növlərini ayırır (3, 53).

O.V.Boqemova təhrik sahəsinə əmr, xahiş, dəvət, məsləhət, qadağan, təklif, sifariş, zəmanət, N.İ.Formanovskaya əmr, xahiş, yalvarış, dəvət, sərəncam, xəbərdarlıq, məsləhət, icazə, qadağan, vəsiyyət, inandırma, təlimat, təklif, göstəriş, tələb, komanda, məcburetmə, təlimat, zəmanət, resept, tələb-məsləhət, tələb-icazə, çağırış, təhrik, S.Sarantsasral əmr, xahiş, yalvarış, məsləhət, icazə, qadağan, təklif, tələb, komanda, məcburetmə, təlimat, zəmanət, resept, tələb-məsləhət, tələb-icazə, çağırış, təhrik, S.Sarantsasral əmr, xahiş, yalvarış, məsləhət, icazə, qadağan, təklif, tələb, zəmanət, Y.V.Filatova əmr, xahiş, yalvarış, xəbərdarlıq, məsləhət, icazə, qadağan, təlimat, təklif, tələb, zəmanət, tələb-məsləhət, tələb-icazə, çağırış, Timoşenkova T.M., Papkova O.A. əmr, xahiş, yalvarış, məsləhət, qadağan, təlimat, təklif, zəmanət, ciddi məsləhət, R.V.Nikifirova əmr, xahiş, yalvarış, xəbərdarlıq, sərəncam, qadağan, təklif, tələb, komanda, zəmanət, V.E.Uosiofova əmr, xahiş, yalvarış, sərəncam, xəbərdarlıq, məsləhət, qadağan, xəbərdarlıq, tələb, sifariş, komanda, zəmanət, göstəriş, L.Y.Biryulin əmr, xahiş, yalvarış, xəbərdarlıq, məsləhət, icazə, qadağan, vəsiyyət, inandırma, məlumat, təklif, tələb, and, N.M.Xabirova əmr, xahiş, yalvarış, dəvət, sərəncam, məsləhət, icazə, qadağan, təklif, tələb, komanda kimi növləri daxil etmişdir (3; 4; 8; 9;10).

Təhrik növlərinə tədqiqatçıların münasibətlərini ümumiləşdirən növlərin bu və ya digər aspektdən təsnifi zamanı aşağıdakıların təhrikə aidliyində fikir eyniliyi müşahidə edilir: 1)əmr; 2) xahiş; 3) yalvarış; 4) xəbərdarlıq; 5) məsləhət; 6) icazə; 7) qadağan; 8) təklif; 9) tələb; 10) zəmanət. Qeyd

edilənlərdən başqa daha çox dəvət, komanda, sifariş, inandırma növləri nəzərə çarpır.

İmperativi öyrənmiş bir sıra tədqiqatçılar onun tərifində təhrik sahəsinin müəyyən növlərinin sadalayırlar. Eyni hadisə əmr şəklinə verilən tərifl ərdə də özünü göstərir.

Göründüyü kimi, təhrikin növlərinə Azərbaycan dilçiliyində də münasibət bildirilir. Onun fikrinə görə, "təkid ifadə edən əmr cümlələri, adətən, yüksək; məsələn, məsləhət, öyüd, nəsihət, xahiş bildirən əmr cümlələri isə nisbətən aşağı intonasiya ilə tələffüz olunur" (2, s.194). Bu tərifdə Z.Budaqova təkid, məsləhət, öyüd, nəsihət, xahiş bildirən əmr cümlələrindən bəhs edir.

Əmr şəklinin çoxformalığı dilimizin istər tarixinə dair, istərsə də dialekt və şivələri haqqında yazılmış bir sıra əsərlərdə tədqiqatçıların diqqətini cəlb etmiş və bu planda əmr şəkli qismən geniş şərh edilmişdir.

Ümumiyyətlə, türkoloji ədəbiyyatda əmr şəklinin I şəxsi haqqında üç müxtəlif fikir, üç fərqli nöqteyi-nəzər mövcuddur. Bir qrup türkoloqlar belə hesab edirlər ki, I şəxs özü-özünə əmr edə bilmədiyi üçün əmr şəklinin birinci şəxsi yoxdur. Başqa qrup türkoloqların fikrincə, əmr şəklinin I şəxsdə yalnız cəmi var, təki isə yoxdur. Üçüncü qrup türkoloqlar isə belə fikirdədirlər ki, əmr şəklinin hər üç şəxs üzrə tək və cəmi vardır, yəni bu şəkil II və III şəxslər kimi I şəxsə də (həm təkə, həm cəmə) malikdir. Azərbaycan dilinin istər yazılı abidələrinin faktları, istərsə də, müasir dil materialı üçüncü qrup türkoloqların fikrini, yəni əmr şəklində bütün şəxslərin mövcudluğu müddəasını təsdiq edir.

N.Sauranbayev tamamilə haqlı olaraq yazır ki, əmr şəklinin qrammatik məzmunu sözün müstəqim mənasında heç də sırf əmr etmək deyil, hərəkətin danışan tərəfindən buyruq, xahiş, təhrik, ehtimal təriqilə müəyyən subyektə yönəldilməsidir. Deməli, əmr şəklində ancaq əmr mənasını görmək doğru deyildir (8, s. 36).

Z.İ.Budaqova onun "təkid, təklif, xahiş, məsləhət, nəsihət və çağırış" çalarlarını (2, s.175), M.Cahangirov isə bunu bir qədər də genişləndirərək həmin şəklin "buyruq, təhrik, təşviq, təbliğ, çağırış, müraciət, xahiş, yalvarış, alqış, qarğış, arzu istək, nəsihət və s. bu kimi" çalarları bildirdiyini göstərir.

Bir sıra hallarda əmr şəkli ilə arzu şəkli xüsusən I şəxsdə mənaca bir-birinə çox yaxınlaşır, hətta hər ikisi bəzən eyni məna çalarını (arzu, niyyət, istək) ifadə edir.

Deməli, əmr şəkli ilə arzu şəkli I şəxs təkdə bəzən yaxın məna çalarını ifadə etsə də, hətta bəzi hallarda semantik cəhətdən çarpazlaşsa da, bunların hər biri müstəqil kateqoriya forması kimi özünə məxsus funksiyaya, özünə məxsus işlənmə dairəsinə malikdir.

Təhrik nitq aktlarının müxtəlif növləri qeyd edilən işlərdə adları çəkilməyən növlərin başqa nitq aktına aidliyi göstərilmir (4; 6;). Bunun iki səbəbi ola bilər:

1) tədqiqatçılar təhrikin başqa növlərinin və ya yarımnövlərinin olduğunu inkar etmirlər. Bu zaman onlar təhrik nitq aktları növlərinin intuitiv müəyyənləşdirilməsinə istinad edirlər;

2) bəzi tədqiqatçılar tərkibində imperativ olan müəyyən nitq aktlarında təhrik görmürlər.

Məsələn, Y.A.Filatovaya görə, məzmunda təhrik çaları olmayan hökmləri təhrik nitq aktlarına daxil etməklə yanlış nəticələr üzə çıxır. Tədqiqatçı razılıq, arzu, hədə-qorxu və işarə kimi nitq aktlarının ifadə olunmasında imperativin iştirak etdiyini, lakin bu nitq aktlarının təhrik sahəsinə aid olmadığını göstərir (9, 12).

Alman dilində təhrikin müxtəlif növlərindən istifadə edilməsinə dair bəzi nümunələri nəzərdən keçirək.

Gerlinde, setz dich - *Gerlinde, əyləş.*

Bu nümunə əmr, xahiş təkid, təklif və s. ifadə edə bilər. Onun konkret olaraq hansı növə aid olmasını təyin etmək üçün kontekst, situasiya, eləcə də, mətnin əvvəlki məzmunu əhəmiyyət kəsb edir.

Luise, morgen kommt ihr doch alle beide um Papas Geburtstag zu feiern! (200, s.95) - *Luiza, sabah ikiniz də papanın ad gününü qeyd etmək üçün gəlin də!*

Bu nümunədə təhrikin yalvarışa yaxın olan xahiş növü ifadəsini tapmışdır. Cümlənin Azərbaycan dilinə tərcüməsində təhriki gücləndirmək məqamında istifadə olunan "də" ədatı məhz xahişi yalvarışa yaxınlaşdıran vasitə kimi özünü göstərir.

Dann tun Sie das mal. - *Onda bunu edin də.*

Yuxarıda verilmiş nümunəyə oxşar məna dairəsinə malikdir. Bu cümlədə də təhrikin yalvarışa yaxınlaşan xahiş növü istifadə olunmuşdur.

Beləliklə məlum olur ki, alman dilində imperativin köməyi ilə qəti əmr, qadağan, çağırış, neytral əmr, məsləhət, xahiş, arzu, təklif və s. ifadəsini tapdığı göstərilir. Bu təbii ki, alman dilində olan bütün təhrik növləri deyildir. Azərbaycan dilində də imperativin əmr, xahiş, çağırış, qadağan və s. ifadə etməsi göstərilir. Aydındır ki, bu cür yanaşmalarda ümumiləşmə aparılmış, bütün növlərin göstərilməsinə ehtiyac duyulmamışdır. İmperativin hansı məna növlərinin olmasına münasibətdə fərqli fikirlərin yaranmasının əsasında məsələyə hansı aspektdən yanaşma xüsusi yer tutur.

ƏDƏBİYYAT

1. Abdullayev S. Müasir alman və Azərbaycan dillərində inkarlıq kateqoriyası. Bakı: Maarif, 1998, 279 s.
2. Budaqova Z.İ., Məmmədov İ.T. Felin şəkilləri / Müasir Azərbaycan dili. II c. Bakı: Elm, 1980, s. 307-355

3. Бельяева Е.И. Грамматика и прагматика побуждения: английский язык. Воронеж: БУ, 1992, 167 с.
4. Беляева Е.И. Функционально-семантические поля модальности в английском и русском языках. Воронеж: Воронежский ун-т, 1985, 180 с.
5. Беляева Е.И. Функционально-семантическое поле императивной модальности в английском языке / Императив в разноструктурных языках: Тезисы докладов конференции «Функционально-типологическое направление в грамматике. Повелительность». Л.: АН СССР, 1988, с. 19-21
6. Бирюлин Л.А. Семантика и прагматика русского императива. Helsinki: Slavica Helsingiensiz, 1994, 229 с.
7. Богемова О.В. Структура речевой ситуации и выбор директивного высказывания (на материале французского языка): Автореф. дис… канд. филол.наук. СПб., 2002, 18 с.
8. Саранцацрал Ц. Речевые акты побуждения, их типы и способы выражения в русском языке: Автореф. дис. ... док. филол. наук. М., 1993, 48 с.
9. Филатова Е.А. Побуждение и императив: Способы выражения побуждения по-русски (материалы к спецсеминару). М.: Моск. Ун-та, 2002, 76 с.
10. Формановская Н.И. Прагматика побуждения и логика языка // Русский язык за рубежом. М., 1994, № 5-6, с. 34-40
11. Формановская Н.И. Русский речевой этикет: лингвистический и методический аспекты. М.: Русский язык, 1982, 126 с.

ШАМСИНУР АСЛАНОВА

ФУНКЦИОНАЛЬНО-СЕМАНТИЧЕСКОЕ МИКРОПОЛЕ ПОБУЖДЕНИЯ И ИХ СРЕДСТВА ВЫРАЖЕНИЯ

РЕЗЮМЕ

В данной статье рассматривается многосферные конституенты поля побуждения, анализируется побудительная форма глагола в немецком и азербайджанском языках как доминант поля побуждения побудительности, а также определяются ядерные и периферийные компоненты побудительной речи, выясняются модели структурной организации функционально-семантической сферы побуждения. Здесь также анализируется разнообразие и многостепенность средства выражения как черта, определяющая количество микросферы побудительной речи и обобщаются научные результаты, обнаруженные в процессе исследования.

SHAMSINUR ASLANOVA

FUNCTIONAL-SEMANTIC MICROSPHERE OF INDUCEMENT AND ITS INDICATIONS

SUMMARY

In this article multi-branched fields of constituents are considered, imperative mood of the verbs in the Germanic and Azerbaijani languages are analysed as the dominant of the field of inducement, nuclear and periferic components of inducement are determined, structural establishment models of functional-semantic inducement field is investigated, present conjunctive and its equivalents in the Azerbaijani language are exposed. Here as the features conditioning the multi-numbered quantity of micro branches of inducement, its varieties of ways of expression and its multi-numbered fields are also analysed and the scientific results, attained in the process of investigation are generalized.

Rəyçi: Qahirə Axundova
Pedaqogika üzrə fəlsəfə doktoru

FƏRİDƏ KAZIMOVA
Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu
e-mail:feride 148@rambler. ru

"DƏDƏ QORQUD" KİTABINDA HEYVAN ADLARININ EPİK-MİFOLOJİ SEMANTİKASI

Açar sözləri. Zoonim, ad, semantika, epik, mif, totem, mediatr və s.
Key words. Zoonim,name,cemantik,epic,myth,totem,mediatr.
Ключевие словы. Зооним, названия, семантика, эпос, миф, тотем, медиатр

Məlumdur ki,tarixən oğuzların məişətinin əsasını heyvandarlıq təşkil etmişdir. Abidənin dilində **at**, **dəvə**, **qoyun, keçi, keyik, it, pişik, qurd, aslan** kimi bir çox heyvanların adları çəkilir. Bunlardan bir qismi mifik görüşlərdə müqəddəs bilinmiş, zoomorf varlıqlar hesab edilmişdir.

Türklər üçün **at** əvəzedilməz canlı olmuşdur. Türkün yaşamsevərliyi, qoçaqlığı atın yüyrəkliyi ilə birləşərək geniş əraziləri əhatə edən möhtəşəm dövlətlərin idarəçiliyini asanlaşdırmışdır. Türk at belində dünyanı dolaşmış, imperiyalar qurmuş, cahanın ən böyük fatehlərindən olan Atiila – Atlı xan kimi tanınmışdır. Atın türklərin həyatında oynadığı rol onu kult mərtəbəsinə qaldırmışdır. At mifik baxışlarda müqəddəs bilinib,hətta Günəşin övladı hesab olunub və dünyanın başlanğıcında Yerə ilkin gələnlərdən sayılıb (4,45). At həm də mediatr kimi görülüb. Xalq arasında atın qoruyucu, ruhi aləmlə bağlı obraz olmasından bəhs edən çoxlu inanclar vardır. Məsələn, "Yuxuda at görmək xeyirə yozulur", "Qapıya at nalı vurduran arzusuna qovuşar", "Bağ-bostanda quru at kəlləsini payaya keçirsən məhsula bəd nəzər dəyməz" və s. eləcə də nağıl və dastanlarımızda at qəhrəmanlara kömək edir, onları təhlükələrdən qoruyur. Məlikməmməd atın məsləhəti ilə qaranlıq dünyada sınaqlardan çıxa bilir, Koroğlunun igidliyinin yarısı hesab olunan Qırat və Dürat qəhrəmanın həyatında xüsusi yerə malikdir.

At kultunun izləri "Dədə Qorqud" kitabında da özünü göstərir. "At işlər,ər öyünər", "At yeməyən acı otlar bitincə bitməsə yey", "Hünər ərinmidir, atınmıdır?" kimi deyimlər dastanda xüsusi vurğulanır. Eləcə də abidənin dilində **"Qazlıq at", "keçi başlı Keçər ayğır", "toğlu başlı Toru ayğır", "Ağ boz at", "Gög bədəvi at"** ifadələri yer almışdır. Atların belə ayrıca şəkildə adlanması ilə onların insan həyatındakı roluna diqqət çəkilir. Deməli, Oğuz türkü qazandığı uğurlara görə ata – bu səmavi varlığa minnətdardır. Atların xüsusi adlarla adlanması maraq doğuran, diqqəti özünə çəkən məqamlardandır. Oğuzlar atları rənginə, əlamətinə və eləcə də sahibinin adına uyğun adlandırmışlar. Məsələn, **Boz atlı Bamsı Beyrək, Qonur atın əyəsi Qazan xan** və s. Deməli, qədim görüşlər

atların adlanmasında da qorunub saxlanmışdır.boyların sonunda Dədə Qorqudun dilindən verilən soylamalarda "çaparkən Ağ boz atın büdrəməsin" – deyilir ki, bu da ağ boz atların xüsusi məna daşımasından və uğur simvolu olmasından xəbər verir. Bu rəngdə olan atlar bu gün də folklorda müqəddəs sayılır.Yeri gəlmişkən qeyd edək ki, ağ və boz rəngli atlar xeyir tanrısı Ülgenin rəngidir, ona görə də belə atlar uğur rəmzi olmuşlar. Burada atın müqəddəsliyinə rəngin də simvolozasiyası əlavə olumuşdur. Folklorda müqəddəs şəxslər, ərənlər ağ boz atın belində zühur edirlər. "Buğacın boyu"nda Xızır peyğəmbərdən "Boz atlı Xızır" – deyə bəhs olunur. Dastanda ağ, boz, ağboz rənglərin kodu, daşıdığı mifik yük eynilik təşkil edir. XII boyda Beyrək vəsiyyət edərkən Boz atına həm də Ağboz deyir:

Yigitlərim, yerinizdə uru durun
Ağboz atımın quyruğunu kəsin!(7,182)

Bu həmin atdır ki, Baybura bəy oğlu üçün onu bəzirganlar İstanbuldan gətirtmişdi və ən qiymətli ərmağan hesab olunurdu. Dastanda bu atdan "dəniz qulunu boz ayğır" kimi bəhs olunur. Ümumtürk folklorunda Ağ, Boz, Ağboz ayğırlar dəniz atları cinsindən hesab olunur. Bu motiv "Koroğlu" dastanında daha geniş planda işlənmişdir. Qəhrəmanın Qırat və Dürat su mənşəlidir. Maraqlıdır ki, "Qır at" da boz, ağ boz at kimi izah olunur. Yəni qır/kır türk dillərində çöl, səhra kimi izah olunur ki, bu da rəng olaraq boz rəng anlamına gəlir(6,75).

Dədə Qorqudun Banu Çiçəyə elçi gedərkən mindiyi iki atdan biri Keçi başlı Keçər ayğır, digəri Toğlu başlı Turu ayğırdır. Atların adları maraq doğurur və bunun izlərinə qədim türk ədəbi abidələrində rastlanır. M.Seyidov bunu türklərdə keçi və qoyun onqonluğu ilə əlaqələndirmiş, İssık kurqanında tapılmış "Qızıl geyimli döyüşçü"nün papağındakı at fiqurunun keçi buynuzlu olması ilə izah etmişdir(10,47). Mifoloji at obrazlarından danışarkən onların qanadlı olması üzərində kifayət qədər dayanılıb, amma buynuzlu atlar barədə örnəklər də vardır. Bildiyimiz kimi keçi Günəşin, yazın, istiliyin bəlgəsidir. Qanadlı təsvirlər atları səmaya bağlayırsa, göylərdən gəldiyinə işarədirsə, zənnimizcə, buynuzlu təsvirlər, qoyun, keçi surətində görüntülər onu Günəşlə, işıqla, xeyirxah qüvvələrlə bağlayır. Bu mənada mifik at obrazı bir neçə funksiyanı özündə birləşdirən zoomorf varlıq hesab olunur.

Atların adlanmasında poetik incəliklər gözlənilir, alleterasiya və assonans diqqətlə qurulub: Keçi başlı Keçər ayğır, toğlu başlı Turı ayğır. Birinci adda [k] samitinin və incə saitlərin, ikinci adda isə [t] samitinin və qalın saitlərin ahəngi vardır. Araşdırmalrda Turi sözü daha çox təhlil olunub və bu sözün rəng anlamında şərh olunur.İlk öncə onu deyək ki, ayğır cinsinə görə erkək olan, formalaşmış ata deyilir. "Turi" sözü tədqiqatlarda müxtəlif cür izah olunur. Professor R.Məhərrəmova "Turı"nı Göy bədəvi at kimi qeyd edir(8,173) ki, bu məntiqli görünmür. Çünki abidənin dilində "gök", "gök bədəvi" leksemləri vardır və "Turı" ilə bunların heç bir əlaqəsi yoxdur. Abidənin S.Əlizadə tərəfindən tərtib

olunmuş izahlı lüğətində "turı"/ "duru" – qızıl qəhvəyi, səmənd rəng kimi verilir(7,224).

E.Əzizov da bu mövzuda araşdırmalar aparmış və bu qənaətə gəlmişdir ki, Turı, Doru, Doru at, Dür at eyni kökdən yaranan leksik vahidlərdir, Doru at – "tünd-kəhər, tünd-zolaqlı at" deməkdir(6,77).

Bartold da "Doru at"ı kəhər at şəklində tərcümə etmişdir(3,227). B.Abdulla da Dor rəngdən bəhs edir, bu rəngi qonur rənglə eyniləşdirir, Dor at və Qonur at barədə birlikdə bəhs edir(2,107). Qonur da kəhərə yaxın çalardır. Bu mənada Turi/Doru – kəhər,qonur,qızıl qəhvəyi,qırmızımtıl rəng çalarında olan atdır. Bu rəng özü də Günəşin rəngidir. "Doru"nun "Turı"ya çevrilməsi isə Azərbaycan, eləcə də bir çox türk dillərinə xas olan t və d səs əvəzlənməsindən irəli gəldiyi şübhəsizdir.Müasir Azərbaycan dilində bir çox d ilə deyilən sözlər vardır ki, onlar tarixən t ilə deyilib. Dastanda da belə nümunələrə rast gəlinir. Qazan kafərlərlə dialoqunda:

Qalın Oğuz elində bir oğlum var, - Uruz adlu,
Bir **qartaşım** var, - Qaragünə adlu.
Yenidən **toğanın** öldürmiyələr (7,173) – deyir.

XII boyda Beyrək Aruza belə söyləyir:

Mən Qazanın nemətin çoq yemişəm,
Bilməzsəm gözümə **tursun** (7,181).

Aruz bu işi edəcəyin bilsəydim,
Qaraqucda qazlıq atıma binərdim!
Əgni bərk dəmür **tonum** geyərdim!(7,181) və s.

Deməli, Duru \Turı \ Dür at zoonim olaraq türk dillərində sıx işlənmişdir. Dastanda Turı ayğır və Keçər ayğır adları qoşa işlənsə də Turı sözü daha çox araşdırılmışdır. Biz bir də "Keçər" sözünə diqqət etmək istərdik. Bu söz "keç" feilindən və -ər şəkilçisindən ibarətdir.Müasir dilimizdə -ər qeyri-qəti gələcək zamanın şəkilçisidir. Abidənin dilində isə indiki zaman feili sifətinin şəkilçisi funksiyasındadır. Yəni "keçən", "ötən", "irəli gedən" mənasını verir.

Oğuzların məişətində və təsərrüfatında **qoyunçuluq** əsas olmuşdur. Dastandan bilirik ki, Oğuzların böyük qoyun sürüləri vardır, hətta Qazan xan on minlik sürüyə sahibdir. Qoyun məhsuldarlıq, artım və bərəkət simvoluna çevrilmiş, zoomorfik onqon olaraq görülmüşdür. "Oğuznamə"dən məlum olduğu kimi Oğuz xan Boz oqlara ağ qoyun, Uc oqlara qara qoyun hədiyyə edir ki, sonrakı dönəmlərdə bu şəcərələrin davamı Ağqoyunlu və Qaraqoyunlu tayfalarının dövlət şəklində yüksəlməsinə qədər gedib çıxır. Oğuz tayfalarının qoyunlu adını saxlamaları təsadüfi deyildi, çünki ta əski görüşlərdən "qoyun verimliyin, məhsuldarlığın, artımın (quzulamanın) zoomorfik onqonu sayılmışdır. Ulu baba Oğuz xaqan da oğlanlarının törəyib artmaları, firavan dolanmaları üçün onlara elə qoyunu onqon verir"(10,140). Mifik görüşlərdə xüsusi yer tutan Sayaçı

mərasimləri də qoyunçuluqla bağlıdır. Sayaçı sözlərinin məzmunu və sayaçı mərasimlərinin mahiyyəti təsərrüfatın qorunması, insanların güzəranının yaxşı olması üçün tanrıya şükür və dualar etməkdən ibarətdir. Xalqın qədim düşüncəsində Saya obrazı qoyunçuluq hamisidir. Qoyun müqəddəs bilinmiş, qoyunçuluqla bağlı müəyyən inanclar mövcud olmuşdur ki, bunlardan bəziləri hələ də yaşamaqdadır. Tərəkəmələr bu gün də tövlədən burma qoç buynuzu asarlar. Eləcə də Azərbaycanda qoç başlı qəbir daşlarının çox olması inanclarda bu heyvanın üstün qoruyucu funksiyasından xəbər verir. Qoyun həm də türkün mal-dövlətidir. Oğuz elində yaşayış səviyyəsinin yüksəkliyi qoyunun sayı ilə bilinir. Oğuzun ən varlı kişilərindən olan Qazan xanın Dərbənddə on min qoyunu var. "Salur Qazanın evinin yağmalanması" boyunda kafərlər Qazanın varıdatını, ailəsini, oğlunu ələ keçirirlər. Amma düşmənlər əsas intiqam üçün bunları yetərli bilmirlər. Onlar Qazana "ulu heyif etməkdən" ötrü məhz sürünü aparmaq fikrinə düşürlər. Bu detal qoyunun Oğuz eli üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Qaraca Çobanın mövqeyinə gəldikdə isə o, cəmiyyət üçün dəyərli və vacib olanın keşiyindədir. Dastanda Qaraca Çoban kafərlərlə dialoqunda:

Altundağı alaca atun nə ögərsən,
Ala başlı keçimcə gəlməz mana!(7,50) – deyib öyünür.

Çobanın düşmən atlarını sürüsünün keçisi ilə müqayisə etməsi təsadüfi deyil. Keçi türk mifologiyasında yazın, istiliyin, Günəşin bəlgəsidir(30). Novruz tamaşalarının obrazı olan Kosa qışı, Keçi isə yazı təmsil edir. Novruzla bağlı olan bir şeir parçasından aydın olur ki, keçi qurban olaraq kəsilmişdir:

Sabah bayramdı,
Qatıq ayrandı,
Keçi qurbandı...

Bu, görünür, daha əski çağlara aiddir. Qədim türklər ən dəyərli bildiklərini – keçini Günəşə qurban kəsmişlər. Bir çox xalqlarda belə nümunələr olmuşdur. Qədim İsraildə Azazelə ildə bir dəfə keçi qurbanı gətirərmişlər(10,31).Yunanlar da Dionisin şərəfinə keçirilən ayin və mərasimlərdə keçi qiyafəsinə girərmişlər. Bunlar bizim əski Yaz bayramının detallarıdır, desək, yanılmarıq və araşdırmalar bunun türk mifologiyasında daha qədim olmasını göstərir.M.Seyidov F.Demirtaşa istinadən keçi adı ilə bağlı üç türk qəbiləsinin – Qarakeçili, Ağkeçili,Qızılkeçililərin adını çəkir(10,34). Burdan görünür ki, öz kökünü keçi ilə bağlayan qəbilələr olmuşdur. Keçinin müqəddəs bilinməsi keçi ilə bağlı inanclarda da əksini tapmışdır.Türklər qədim zamanlarda məzara keçi buynuzu qoyar, şaman qavalının dərisini keçi dərisindən hazırlayarmışlar. İnanclara görə, qızılca çıxara bilməyən uşaqları keçi dərisinə bükər, yaxud yaxınlığından asarmışlar və s. Bununla inanarmışlar ki, şər qüvvələr Günəşdən və onun yerdəki surəti olan keçidən uzaq gəzər.

Dastanda **keyik** adına müxtəlif boylarda rast gəlinir. Eposun III boyunda Beyrək keyik ovlayıb Banu Çiçəyə bağışlayır və bu da hörmət əlaməti kimi qəbul

olunur. Lakin Bəkilin boyunda keyik təkcə ov heyvanı deyil, həm də mifik planda təsvir olunur. Keyiklər qulağı dəlikli olarsa bu, "Bəkilin suncu" deyilərdi, yəni Bəkilə məxsus hesab olunardı. Bəkil ov hamisi, ov tanrısı qəbul olunur. M.Seyidovun fikrincə, keyik və yarımifik səciyyəli adam – Bəkil arasındakı əsas bağlılıq onların hər ikisinin qoruyucu, mühafiz olmasından irəli gəlir və qulağı dəlikli keyiklərin Bəkilə göndərilməsinin əsas səbəbi budur(10,242). Altay xalqlarının inancına görə, qulağı dəlik dağ keçisi, maral, keyik ovlamaq xoşbəxtliyə və ya varlanmağa işarədir(10,243). Həm də inanclara görə ox hədəfindən yayınan ovu qovmaq yasaqdır. Bəkil bu yasağı pozur, keyikin ardınca uzun-uzadı at çapır və nəhayətdə özü-öz yasağını pozduğundan cəzalanır, ağır yaralanır. Keyik türk mifologiyasında yolgöstərən bələdçi obrazında da çıxış edir. Məşhur bir əfsanəyə görə, qədim hun ovçuları öz adətləri üzrə sürək ovu hazırlamışlar. Onlar ov edərək Maeotis bataqlıqlarının içərilərinə doğru getmişlər. Bu vaxt qarşılarına hardan gəldiyi bilinməyən bir dişi keyik çıxmış və onlara bataqlığa tərəf yol göstərməyə başlamışlar. Ovçular keyikin dalınca getmişlər. Az sonra bataqlığın o biri tərəfinə ayaq basar-basmaz keyik yoxa çıxmışdır(4,119). Buradakı ideya xilaskar, hami obrazı hun dövründən nişanədir. Folklorumuzda keyik, ceyran, maral kimi heyvanlar qurtarıcı olması ilə yanaşı, həm də dönərgə hesab olunmuşdur. El arasında bilinən "Ana maral" əfsanəsinə görə, maral ona yaxşılıq edən, silah qaldırmayan ovçunu öz südü ilə sağaldır(5,66). Yaxud xalq arasında məşhur olan digər bir əfsanəyə görə, Niqoy dağının ətəyində səfalı bir bulaq varmış. Vəli kişi gəlib burada oba salır. Vəli kişinin arvadı bulağa öz eltiləri ilə gedibtək qayıdır. Bundan şəklənən Vəli kişi arvadını izləyir. Gizlənib görür ki, bir sürü maral sürüsü, bir xeyli də adam gəldi. Arvadı onlara qoşulub halva çalmağa, yuxa yaymağa başladı. Arvad birdən ərinin onu izlədiyini hiss edir. Geri dönüb deyir ki,niyə evimi yıxırsan, niyə məni güdürsən? Daha sonra çaldığı halvadan bir çay qaşığı, qaladığı ocağın külündən bir ovuc gətirib ərinə verib deyir ki, halvanı qırx gün gün uşağa yedirin, külü də sən saxla, bu, səni dolandıracaq. Bunu deyib qeybə çəkilir, marallara qoşulub gedir. Peşman olan kişi evə gəlir, uşaq halvanı yeyir, kül də alışıb ocaq olur. Yuxuda Vəli babaya deyirlər ki, bura ocaqdır və bu ocağın adını Qaranər ocağı qoy.Deyilənə görə, qeybə çəkilmiş qadın qoşulub getdiyi maral sürüləri ilə gəlib bu ocağı ziyarət edər, yenə qeybə çəkilərmiş(5,72).

Qəbələnin Xırxatala kəndində yazıya alınmış digər bir əfsanədə isə deyilir ki, Hüsnü adlı bir qadın hər gün hara isə gedər, qayıdanda süd gətirərmiş. Gəlin onun ardınca düşüb görür ki, qayınanası bağda bir cüt ceyranı sağır. Sirrin üstü açıldığından qadın quşa dönüb uçur və ceyranlarla bərabər yoxa çıxır(5,73). Misallardan göründüyü kimi, ana maral, ceyran və keyiklər daha çox qadınlarla təmas qurur, həm özləri , həm də onlara yaxınlaşan qadınlar cildini dəyişmiş varlıqlar kimi çıxış edirlər.Deməli, bu heyvanlar ana ruhu,ana obrazı olaraq qəbul olunmuş və zoomorf obrazlardan sayılmışlar. Eyni zamanda keyiklər şəklini

dəyişə bilən meşə ruhunu simvolizə etmişlər. Bir çox dünya xalqlarının folklorunda orman ilahəsi keyik donuna düşə bilən gözəl qız biçimində qəbul olunur. Hətta mifik təfəkkürdə meşə tanrısının qızı keyik cildində təsvir edilir. Bu da keyik obrazı ilə məqamın dastanda təsadüfi təsvir olunmadığını göstərir.

Türk mifologiyasında **qurd** totem olmuşdur. Yaradılış miflərində türklər öz köklərini qurdla bağlayırlar. Mifik görüşlərə görə, boz qurd türklərin yol göstərəni, uğur simvolu, əcdadıdır.Əsatirə görə , bir tayfanın varmış. Bu tayfanın başçısı sonsuz imiş.çox nəzir niyazdan sonra bunun bir oğlu olur. Uşaq dörd-beş yaşına çatır. Amma yeriyə bilmir. Günlərin birində düşmənlər hücum edib o tayfanı məhv edirlər. Bu uşağı isə bir daşın dibinə atırlar ki, qurd-quş yesin. Oğlanı bir dişi qurd tapıb saxlayır, süd verib böyüdür. Onun ayaqları açılır, güclü pəhləvan olur, tayfasının qisasını düşmənlərdən alır (14,29).

Digər bir əsatirdə isə deyilir ki,Nuh peyğəmbərin oğullarından birinin adı Türk imiş. Türk bir cəzirədə yaşayırmış. Qoyun-quzu saxlayırmış. Dörd yüz əlli il burada yaşayan Türk bir gün boz qurdla rastlaşır. Qurd onu görüb gəldiyi yolla geri dönür. Türk onu izləyib uzun illər yaşadığı adadan xilas olur. Türk onu azadlığa çıxaran qurdun şərəfinə bayrağına qurd şəkli çəkir(14,38).

Təsadüfi deyil ki, dastanda Qazan xanın dilindən : "Əzvay qurd əniyi erkəyində bir köküm var", "Qara başım qurban olsun, qurdum sana!" – deyilir. Qazanın öz kökünü qurdla bağlanması çox qədim totemistik baxışların dastandakı əks-sədasıdır. Qurd xilaskar, hifz edən qüvvənin ifadəçisidir. El arasında bu məzmunda maraqlı inanc və sınamalar mövcuddur. Deyirlər ki, "qurd dərisinə girənin kürəyi ağrımaz", "qurd dərisindən kəmər bağlayan adam qüvvətli olar", "qurd aşığını topuğuna bağlayan adam iti qaçar"və s.(1,150).Qurdla bağlı görüşlər sonrakı dönəmlərdə İslam dininə transformasiya olunub. El arasında "Qurd Həzrət Əlinin köpəyidir," – deyilir və inanclara görə qurdu öldürmək günahdır.(14,18). Əfsanələrdə qurd "börü", "aşina" və s. adlarla da tanınır. Baybörü\ Baybura, Beyrək kimi antroponimlərin kökü "börü" sözü ilə bağlanır.

Türk mifologiyasında qurd və at kimi **Aslan** da Günəşlə ilgili heyvanlardandır. Qədim türklər Günəşi kainatın xaqanı saymışlar(4,80). Aslan da çox əski dönəmlərdən hakimiyyət simvolu olmuşdur. Hökmdarların başlarına şir biçimində dəbilqələr qoyması, saraylarda şir heykəlləri və daha çox şir görüntülərinin təsviri olan qalalar buna sübutdur. Eləcə də qədim zamanlarda hökmdarlar hakimiyyətlərinin uzun ömürlü olması arzusu ilə Şir bürcündə tacqoyma mərasimi keçirib taxta çıxarmışlar. Dahi Nizami "Yeddi gözəl" əsərində Bəhramın Əsəd, yəni Şir bürcündə hökmranlığa başladığını təsvir edir. Eyni zamanda İslamın ən öncül şəxsiyyətlərindən olan Həzrəti Əliyə "Əsədullah", yəni "Allahın şiri" deyilmişdir.

Təbiətlə iç-içə olan qədim türk ətrafındakı bütün canlıların ən güclüsü və heybətlisi kimi aslanı tanıyırır. Odur ki, Günəşlə aslanı eyni konteksdə dərk etmişdir. Bu da "türkün ucalığa, böyüklüyə, möhtəşəmliyə olan təbii sevgisi,

instiktiv bağlılığı ilə əlaqəli idi"(4,81). Mifik görüşlərdə Günəş kimi aslan da həyat verən, ilkin başlanğıc statusundadır. VIII boyun qəhrəmanı Basatı aslanlar böyüdüb.Bu baxımdan Basatın Təpəgözlə dialoqunda:

Atam adın sorar olsan, Qoğan Aslan,

Anam adın sorar olsan, Qaba Ağac...(7,145) – söyləməsi adi nağıl, dastan epizodunun təsviri deyil, çox əski mifik baxışların emblemidir. Eyni süjet xəttini "Əmiraslanın nağılı"nda da görürük və burada qəhrəmana onun süd anası aslan yol göstərir(13, 214). Görünür, Oğuz mif sistemində aslan kult səviyyəsində qəbul olunmuş canlılardandır. Mifik görüşlərdə hökmdar özü də kutlaşmış, toxunulmazlıq qazanmış bir modeldə qəbul olunurdu. Təsadüfi deyil ki, dastanda "padşah Tanrının kölgəsidir" fikri yer alıb. Basatın özünün əslini nişan verdiyi aslan da qağan, yəni xaqan, hökmdar aslandır.

Dastanda Qazan xanın təqdimatları sırasında maraqlı bir ifadə verilib: "İtüni ulatmayan, çətigüni molatmıyan"(7,92). Xalq inancına görə, itin ulaması bədbəxtliyə yozulur. O səbəbdən də insanlar həyətlərində saxladıqları iti ac saxlamaz, onu döyməzlər. Bununla da it öz sahibindən Tanrıya şikayətçi olmaz. Tarixən isə, qədim türklər iti əcdad hesab etmişlər. Geneoloji əfsanələrə görə, qırğızlar, tobol tatarları, ağ noqaylar və s. özlərini qadınla itin izdivacından doğulmuşların nəslindən sayırdılar. Hunlar arasında məşhur olan əfsanə macar və italyanlar içərisində də yayıldı. Əfsanənin macar variantına görə, macar kralı öz qızını qorumaq üçün qalada saxlayır. Günlərin birində qızın qüllədə onunla birlikdə qalan itdən hamilə olduğu məlum olur və Atilla doğulur. Buna görə də italyan ikonoqrafiyası sərkərdəni it qulaqlı təsvir edirdi (12, 221). Qeyd edək ki, bir çox türk sərkərdə və hökmdarları adlarına it semantemli **"köpək"** sözünü artırmışlar. Məsələn, Rum Səlcuqlarının vəziri Sadəddin Kobyak, XI əsr Xarəzm hökmdarı Məhəmməd Köbək və s.

Abidənin dilində **"çətüg", "kedi"** kimi sözlərə də rastlanır. "Qanturalı boyu "nda "Qanturalı niqabın sərpdi. Qız kışkdən baqardı. Taraqlığı boşaldı, kedisi mavladı" ifadəsi işlənmişdir(7,121). S.Əlizadəyə görə, qədim Oğuzlarda qız özü üçün gələn elçilərə razılığını bildirərkən pişik səsi çıxarırmış (7,205). Dastanda da bu ifadə həmin anlamı bildirir.

"Kedi" müasir Azərbaycan dili üçün arxaik sözdür. Məlumdur ki, Türkiyə türkcəsində **"kedi" "pişik"** deməkdir və İngilis dilindəki **"cat[kət]"** sözünü xatırladır. Prof. M.Qıpçaq bu sözün hind-Avropa dilləri vasitəsilə dilimizə keçmiş Afrika mənşəli söz olduğunu yazır(9,7). IV boyda rastlanan **"çətüg"** sözü də səsləniş etibarilə **"kedi"** sözü ilə eynilik təşkil edir. Sözün folklordakı semantikasına gəldikdə isə, pişiklə bağlı görüşlər müxtəlifdir. İnanclar sistemində bu heyvan cadugərlərin, qara magiya ilə məşğul olanların xidmətkarı hesab olunur. Şər qüvvələrin pişik simasına düşərək insanlara pislik etmələri ilə bağlı inamlar ta qədimlərdən mövcud olmuşdur. Digər tərəfdən dini rəvayətlərdə pişik Məhəmməd peyğəmbərin sevimli ev heyvanı kimi yer alır. El arasında məşhur bir deyim var:

"İt deyər ki, sahibimin yeddi oğlu olsun, hərəsi bir tikə atsa, bəsimdir. Pişik isə deyər ki, sahibimin yeddi kor qızı olsun əllərindəkini alıb qaçım". İtə müsbət, pişiyə ziddiyyətli mənfi münasibət insanların yaşam tərzi, həyati təcrübəsi ilə bağlı olmuşdur.

Oğuzların ətraf mühitə, heyvanlara yanaşması praktik mahiyyət kəsb edir. "Dədə Qorqud"eposunda heyvan adlarının işlədilməsi epik-mifoloji məzmunla yanaşı, həm də həyati təcrübədən qaynaqlanır. Oğuzlar tarixən heyvandarlıq və ovçuluqla məşğul olduğundan dastanın zoonimiyası da olduqca zəngindir və bu sözlərin araşdırılması Oğuz cəmiyyətinin mənzərəsinə, məişətinə və görüşlər sisteminə işıq salmış olur.

ƏDƏBİYYAT

1. Abdulla B., Haqqın səsi, Bakı, Azərnəşr – 1989.
2. Abdulla B., "Kitabi-Dədə Qorqud" dastanında rəng simvolikası,
3. Bartold V.,Kniqa moevo Deda Korkuda,Moskva – 1962.
4. Əlizadə R., Azərbaycan folklorunda təbiət kultu, Bakı, Nurlan – 2008.
5. Əsatirlər,əfsanələr,rəvayətlər, Bakı,Şərq-Qərb nəşriyyatı – 2005.
6. Əzizov E.,Qır at və Dür at, Söz xəzinəsi,Bakı, Maarif – 1995.
7. "Kitabi-Dədə Qorqud" dastanı (tərtib edəni S.Əlizadə),Bakı, YNE – 1999.
8. "Kitabi-Dədə Qorqud" dastanını izahlı lüğəti, Bakı, YNE – 1999.
9. Qıpçaq M., "Dədə Qorqud Kitabı"nın dilində it və pişik semantikalı sözlər, Dədə Qorqud (elmi-ədəbi toplu), 2008/1.
10. Seyidov M., Azərbaycan xalqının soy-kökünü düşünərkən, Bakı, Yazıçı – 1989.
11. Seyidov M., Yaz bayramı,Bakı,Gənclik, 1990.
12. Süeymenov O.,Az – Ya,Bakı, Azərnəşr, 1993.
13. Təhmasib M., Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı – 1972.
14. Vəliyev K., Elin yaddaşı, dilin yaddaşı, Bakı, Gənclik – 1988.

FERIDE KAZIMOVA

THE EPIC-MYTH CEMANTIC OF THE ANIMAL NAMES IN "DADA GORGUD" EPOS.

SUMMERY

Names of animal developed in the Dada Gorgud epos are investigated folk lor cemantik their. There are many faiths sayings connected with animals between people.Information is given about being called in some myths of these animals. Zoonims is developed as horse,dog, cat, sheep,goat ,camel in the epos. It is interestig that animal name describes with life, connected, fight stages. Zoonims is developed in structure of the metaphores. Develop of the animal names brings aliveness to languarge of the epos. Believes system is reflected of the ancient

Oguzs in animal names. Names of the different animals suitable symbol to their feature. Nature is described in comparison with man copies. Cirle of develop is wide. There are talked from animals of home and savage animals. Investigations shows hunting and the profession of a hunter and investigations have spread in the Oguz widely.

ФАРИДА КАЗЫМОВА

ЕПИЧЕСКИЕ МИФОЛОГИЧЕСКИЕ СЕМАНТИКА НАЗВАНИЯ ЖИВОТНИХ В ЕПОСЕ «ДЕДА КОРКУДА».

РЕЗЮМЕ

Деде Коркуда имена епическая животного происхожения используемые в статье рассматривается семантика их фольклора. Есть много верований и фразы, связянные с животными в общественных местах. Информация об этих животных называют в некоторых легендах. В епосе уроминает лощадь,собака, кошка, верблюд и другие. Названия животных изображены на повседневной жизны, даже батальние сцены. Кроме того являясь частью зооними в метафоры. Система верований отражается в названиях животных в древних огузах. Как символы название особенностей различных животных и человеческих характеров подбираются событие сообщества. Широкий круг развития названий животних. А также названия диких животных и домашних привликают сюда. Исследуйте стрелка которая показывает названия животных в охоте широко распространена в провинции.

Rəyçi: Sönməz Abbaslı
Filologiya üzrə elmlər namizədi

ELMİRA ƏSGƏROVA
ADU
emma.askerova@mail.ru

MODAL AUIXILARIES AND THEIR EQUIVALENTS

Açar sözlər: *feil, modallıq, məna, söz, cümlə*
Key words: *verb, modality, meaning, word, sentence*
Ключевые слова: *глагол, модальность, значение, слова, предложение*

İngilis dilinin qrammatikasında modal fellərin ekvivalentləri də işlənir ki, bu da onların istifadəsində xırda dəyişiklik yaradır. Modal fellərinin hər birinin özünün yaxın mənalı ifadələri var ki, bu ifadələr modal ekvivalent (ifadələr) adlanır ki, bütün zaman formalarında işlənir.

Can modal felinin modal ifadəsi *"to be able to"*dur ki, *can* modal feli bacarmaq mənasını verirsə *"be able to"* verilmiş bir an üçün bir şeyi edə bilmək iqtidarında olmaq deməkdir.

To be able to modal ifadəsi bütün zaman formalarında işlənir. Verilmiş an üçün bir işi bacarmaq və ya bacarmaq kimi tərcümə olunur (2, s.197).

He will never be able to marry that woman

Can modal feli bir başa bacarıq bildirir və verilmiş an göstərilmir. Lakin onun ifadəsi olan *to be able to* verilmiş an üçün bir işi görmək kimi ifadə olunur.

My sister can't knit but she likes kniting. She will have been able to knit by the end of this month.

Mənim bacım toxuya bilmir. Amma o toxumağı xoşlayır. Bu ayın sonuna qədər toxuya biləcək.

May modal felinin ekvivalenti yəni ona yaxın məna verən modal ifadələr *"to be allowed to", "to be permitted to"* işlənir icazə mənasında *may* modal felinə yaxın mənanı verərək bütün zamanlarda işlənir.

I am allowed to stay at home alone.

Mənə evdə tək qalmağa icazə verirlər.

Will you be permitted to join us to night?

Sənə bu axşam bizə qoşulmağa icazə verəcəklər?

Must modal felinin modal ifadələri *must* modal felinin mənasına uyğun olaraq verilmişdir və bütün zaman formalarında işlənir. *"Have to"* modal ifadəsi şəraitdən yaranmış vacibliyi ifadə edərkən işlənir. Nəzərdə tutulmuş vaciblik bildirmir. (2, s.200)

I missed the bus in the morning, I had to go by taxi not to be late at classes.

Səhər avtobusa gecikdim dərsə gecikməyim deyə taksiylə getməli oldum.

"To have to" feli modal mənada bütün növ zaman formalarında, o, cümlədən bitmiş və davamedici formalarda işlənir. Məsələn,

I'll have to work alone.

Mən təklikdə işləməli olacam.

To have to daha çox şəraitlə olan məcburilik, zərurət bildirir. İnkar cümlələrdə *"have to"* lazımsızlıq, lüzumsuzluq modal mənasını ifadə edir. Bəzən də 2 və ya artıq semi-auxiliaries işlənə bilir.

You don't have to go there.

Sən oraya getməməlisən.

Must modal felinin güman mənasında ona yaxın məna bildirən modal ifadələr də *evidently* modal sözü də işlənir. Güman mənası inkarda işləndikdə *must* modal feli əvəzinə *evidently* modal sözü işlədilir (2, s.201).

Must modal feli əvəzinə güman edilən hərəkət gələcəyə aid olarsa, *probably* modal sözü və ya *"to be likely"* modal ifadəsi işlədilir.

They will probably send me a telegram tomorrow.

Güman ki, onlar sabah mənə teleqram göndərəcəklər.

They are likely to come next week.

Güman ki, onlar gələn həftə gələcək.

To be to modal ifadə kimi 2 formada işlənir. İndiki zamanın qeyri-müəyyən və keçmiş zamanın qeyri-müəyyən formalarında.

We are (were) to start off at down.

Sübh tezdən (səhər erkən) biz yola düşürük (düşəcəyik) düşməli idik.

To be to modal ifadəsi aşağıdakı modal mənaları ifadə edir.

1. İrəlicədən olan sazişə (şərtləşməyə) əsaslanan borc (öhdəçilik, vəzifə).

He is to arrive tomorrow. - O sabah gəlir (Bu cür şərtləşmişlər).

Who is to arrange the meeting. - İclası kim təşkil eləyəcək? (eləməlidir).

2. Əmretmə, sərəncamvermə (çox vaxt rəsmi şəkildə).

The students are to hand in their course papers by the 1st of May.

Tələbələr öz kurs işlərini mayın 1-dək təhvil verməlidilər.

3. Qaçılmaz fakt. *He knew at the time that he was never to see his son again. - O vaxt o bilirdi ki, öz oğlunu bir də görmək ona nəsib olmayacaq.*

4. Şəraitlə bağlı olan imkan. *Where is he to be found. - Onu harda tapmaq olar?*

Modal fellər modal ifadələrlə də işlənir və bu da modal ekvivalents və ya modal expressions kimi ingilis dilində rast gəlinir. İngilis dilində bir sıra fellər var ki? bu fellər həm modal fel kimi həm də köməkçi fel kimi işlənir və müxtəlif mənalar verir.

Shall feli spesifik xüsusiyyətə malikdir o heç vaxt sırf modallıq ifadə etmir. *Shall* feli ingilis dilində əsasən gələcək zaman formalarını əmələ gətirən köməkçi fel kimi işlənir. Həmin formalarda müəyyən modal məna çaları da qalır. *Shall* feli 2-ci xarakterə malikdir. *Shall* feli aşağıdakı modal mənaları ifadə edir.

1. İkinci və 3-cü şəxslərdə işlənən *shall* feli vəd, hədə qorxu və xəbərdarlıq mənasını ifadə edir.

You shall have my answer tomorrow.

Sən mənim cavabımı sabah alacaqsan.

Shall feli köməkçi fel kimi isə 1-ci şəxsin təkində və cəmində işlənərək gələcək zamanı ifadə edir. *I shall visit my granny tomorrow. - Sabah nənəmə baş çəkəcəm.*

2. Birinci və 3-cü şəxslərdə *shall* modal fel kimi sual cümlələrində danışanın müraxiət etdiyi şəxsdən göstərişş buyruq gözlədiyini ifadə edir.

Who shall meet the delegation?

Nümayəndələri kim qarşılayacaq?

İngilis dilində *shall* feli I şəxs üçün *I* və *we* əvəzliklərinə aid olan sadə gələcək zamanı ifadə edir.

Shall we meet by the river?

Biz çayın sahilində görüşəcəyik.

Qeyd: II-III şəxslər üçün *will* feli işlənir. *Will* felinin I şəxs üçün işlənməsi danışanın iştirakının müəyyənləşdirilməsini ifadə edir. *We will finish this project by tonight. - Biz bu işi bu gün axşam qurtaracağıq.*

Shall felinin III-II şəxsləri üçün istifadə olunması mübtəda barəsində müəyyən bir vəd verir.

This shall be revealed to you in good time.

Bu, münasib bir vaxtda sizə göstəriləcək.

Azərbaycan dili ilə müqayisədə biz, *shall* felinin aşağıdakı xüsusiyyətlərini qeyd edə bilərik. *Shall* dilimizə felin qəti gələcək zaman forması müvafiq gəlir.

I shall go to the village this summer.

Bu yay mən kəndə gedəcəyəm.

Əlbəttə, modallığın növlərindən birini inam, yəqinlik, əminlik, mənasını hesab ediriksə, demək lazım gəlir ki, məhz belə bir məna sadə gələcək zaman formasına tamamilə xas olan bir keyfiyyətdir. *Shall* modal felinin sual məqamında işlənməsi ikimənalıdır. O, birincisi, cavab almaq məqsədi güdən sual mənası bildirir.

Shall I see you tomorrow?

Mən sabah səni görəcəyəm?

Aydındır ki, müraciət edilən şəxsin rəyindən asılı olaraq bu suala həm "hə" həm də "yox" cavabı vermək olar. Sual məqamında işlənən *shall* felinin başqa bir mənası zərurət, vaciblik bildirməkdir.

Shall I come and fetch you.

Mən gəlib sizi tapmalıyam?

Shall felinin inkarda işlənməsi də Azərbaycan dili ilə müqayisədə bir sıra özünəməxsusluqlar nümayiş etdirir. Həmin mənalardan birincisi əsas fellə ifadə olunan hərəkətin icrasının inkar edilməsidir.

We shall not work tomorrow.

Biz sabah işləməyəcəyik.

Həmin məqamda müvafiq məzmun Azərbaycan dilində, misaldan da göründüyü kimi, qəti gələcək formasının inkarı ilə ifadə olunur. Ancaq bununla yanaşı, ingiliscə gələcək zamanın həmin forması Azərbaycan dilində sırf modallıq bildirən formalarla da verilə bilər: *"Biz sabah işləyəsi/işləməli deyilik"*. Həmin məzmunu hətta bu şəkildə də ifadə etmək olar: işləyəsi olmadıq.

Shall feli dilimizə köməkçi fel kimi qəti və qeyri-qəti gələcək zaman forması kimi tərcümə olunur. *Shall* felinə xas olan maraqlı xüsusiyyətlərdən biri onun təfəkkür felləri ilə işlənməsidir. *Should* ingilis dilinin qrammatikasında *should* feli köməkçi və modal fel kimi də işlənir. *Should* feli köməkçi fel kimi keçmişə nəzərən gələcək zamanın işlənməsində özünü göstərir. *Should* modal feli öz inkişafı nəticəsində, *shall* felindən fərqli olaraq, yeni məna məsləhət bildirmək mənasını kəsb etmişdir.

You should learn this poem.

Siz gərək bu şeri öyrənəsiniz.

Icrası məsləhət görülən hərəkət keçmişə aid olduqda, *should* felindən sonra məsdər bitmiş formada işlədilir. *You should have learned this peom. - Siz gərək bu şeiri öyrənəydiniz.*

Should ingilis dilinin qrammatikasında köməkçi fel kimi Future Indefinite in the Past (Keçmişə nəzərən gələcək) zamanı ifadə etmək üçün 1-ci şəxsin təkində və cəmində işlənir.

He said that we shouldn't come.

O dedi ki, biz gəlməyəcəyik.

Eyni zamanda *should* feli ingilism dilində Felin sapozinal şəklində köməkçi fel kimi işlənir. *Jim insisted that she should do so* (5, s.201).

Should köməkçi fel kimi Felin Kandişınal şəklində də 1-ci şəksin təkində və cəmində işlənir.

If I were you I should go.

Yerinə olsaydım gedərdim.

Fikirdə tutulan, lakin ifadə edilməyən şərtlə əlaqədar olan sadə cümlələrdə də felin kandişınal şəkli işlədilərək *should* köməkçi fel kimi işlənir. *I should like to see her.*

Should modal fel kimi aşağıdakı mənalar ifadə edir.

1) Məcburilik: *You should speak to him right away. - Sən elə indicə onunla danışmalısan.*

Should modal fel kimi semantik mənada Azərbaycan dilində felin vacib şəkli vasitəsilə tərcümə olunmuşdur.

2) Başqasının fikrini öyrənmə: *Should I ask him about it? - Mən bu barədə ondan soruşmalıyam?* (7, s.236)

3) Ritorik sualda *should* emosional münasibət: *Why should he do it? - O niyə bunu etsin ki? How should I know? - Mən hardan bilim?*

Should feli aşağıdakı məqamlarda işlənir: 1-si o, formal olaraq yarımçıq cümlənin xəbəri vəzifəsində çıxış edir. Bu danışıq dilində, dialoji nitqə xas olan bir xüsusiyyətdir. Ancaq mətndən *should* felinin aid olduğu əsas feli bərpa etmək olar.

Yes, you should. You're entitled to ask.

Qız onun sözünü kəsdi. Əksinə, soruşmalısan.

2-ci misalda *should* feli əsas fellə birbaşa əlaqədə işlənir. *I should say you're twenty-eight. - Məncə yaşınız 28-dən çox olmaz.* Eyni sintaktik məqamda (ancaq sual cümləsində) *should* feli müxtəlif cür başa düşülməyə imkan verir.

Should he return to the radar room now?

İndi radar otağına qayıtmısanmı.

Will və *would* fellərinin işlənməsi həm tam predikasiya vasitələri, həm də modal fellər kimi işlənir. *Will* felinin 2 zaman forması var: 1) indiki zaman forması *will*; 2) keçmiş zaman forması *would*. İngilis dilinin qrammatikasında *will* və onun keçmişi *would* feli həm köməkçi fel kimi həm də modal fel kimi işlənərək başqa məna verərək cümlələrdə işlənir və bu fellər müasir ingilis dilində 2-li xüsusiyyət daşıdığına görə modal auxiliaries modal köməkçi fellər adlanır.

O.Musayevin "Ingilis dilinin qrammatikası" kitabında *will* felinin modal fel kimi aşağıdakı mənalar var.

1) Arzu və ya istək:

I will go and lie down.

2) Qətilik, inad, təkid:

I try to sleep but the sleep won't come.

Çalışıram yatım yuxum gəlmir ki, gəlmir.

3) Xahiş, nəzakətli tələb. Bu halda *will* modal feli bir qayda olaraq 2-ci şəxsə aid olur və sual cümlələrində işlədilir.

Will you wait a minute?

Bir dəqiqə gözləyə bilərsiniz.

Would you open the window?

Pəncərəni aça bilərsiz? (Zəhmət olmasa pəncərəni açın)

Will modal feli vəd mənasında belə bir cümlə verilir:

I will help you to learn French. - Fransız dilini öyrənməyi sənə kömək edəcəm.

Would feli köməkçi fel kimi ingilis dilinin qrammatikasında keçmişə nəzərən gələcək zamanı göstərərkən 2-ci və 3-cü şəxsin təkində və cəmində işlənir. Felin kandişınal şəklində də 2-ci və 3-cü şəxsin təkində və cəmində işlənir.

He said that he would come.

O dedi ki, o gələcək.

If she were here she would be happy.

O burada olsaydı xoşbəxt olardı.

Would və *used to* modal fel kimi keçmişdə təkrarən baş verən hərəkətləri bildirərkən işlədilir.

We would play in the garden/We used to play in the garden.

Bağda oynayardık.

Ingilis dilində *shall, should, will, would* felləri həm modal həm də köməkçi nitq hissəsi kimi də işlənə bilir. Semi-auxiliaries yəni yarım köməkçi fellər tərkibi fel idiomlardan ibarətdir ki, bu da əsas fel *have* və *be* ilə işlənir: *be able to, to be about to, be bound to, be likely to, be meant to, be obliged to, be supposed to, to be willingly to, have to.*

Modallıq bildirən 4 idioma var: *would sooner, would rather, would prefer to, had better.* Bu modal idiomların aşağıdakı mənaları vardır. *Had better* - məsləhət mənasını bildirir. *Ought* və *should* felinin məsləhət mənasına uyğun gəlir. *Would rather* - üstün tutardım kimi mənasına uyğun gəlir. *Have got to* - məntiqi vaciblik şəraitdən yaranan məcburiyyəti bildirir. İngilis dilinin danışığında şəraitdən yaranan vacibliyi bəzən də *"got to"* ilə də istifadə edirlər.

ƏDƏBİYYAT

1. Cahangirov F. Ingilis və Azərbaycan dillərində modallığın struktur-semantik tətdiqi. Bakı, 2004, s.190.
2. Musayev O. Ingilis dilinin qrammatikası. Bakı, 1997, s.196.
3. Blokh M.Y. A course in theoretical English Grammar. Moscow, Russkaya Skola, 1983.
4. Cambridge International Dictionary of Phrasal Verbs. Cambridge University Press, 1997.
5. Ilyish B. The Structure of Modern English. Leningrad, 1971.
6. Jahangirov F. Modality in English: Semantic, Pragmatic and Psycholinguistic Approaches. Tabriz, 2003, p.201.

7. Palmer R.F. Mood and Modality. Second edition Cambridge University Press, 2001, 236 p.
8. Yunusov D. A Guide to English Grammar.

ELMIRA ASKEROVA

MODAL AUXILIORIES AND THEIR EQUIVALENTS

SUMMARY

The article deals with the modal verbs and their equivalents. The article proves the differences existing between modal verbs and modal equivalents. The article also deals their close meanings. The modal verb can and its equivalent to be able to in the meaning of possibility due to circumstances. The modal equivalent of the may "to be permitted to, to be allowed to" can be used in the meaning of permission.

The modal verb shall is used to denote strict order, obligation, threat or warning. Shall as an auxiliary verb is used to denote the future simple in the 1st person singular and plural. The modal verb must and its equivalent to have to express obligation or necessity ariring out of circumstances to be to is used obligation arising out of arrangement, plan, agreement, time able so on. The article highligs modal auxiliaries refering to the future and future in the past as well.

ЭЛМИРА АСКЕРОВА

ВСПОМОГАТЕЛЬНЫЕ МОДАЛЬНЫЕ И ИХ ЭКВИВАЛЕНТЫ

РЕЗЮМЕ

Статья исследует модальные глаголы и их эквивалента. Статья доказывает различия существующие между модальными глаголами и их эквивалентами.

Статья также исследует их близкие значение. Модальный глагол *Can* и его эквивалент *"to be able to"* в значении «возможности» в силу обстоятельств. Модальные эквиваленты глагола *"may" "to be allowed t/to be permitted to,* могут быть использованы в значение «разрешения». Модальный глагол *shall* используется для выражения строго приказа, обязательства, угрозы и предупреждения. *shall* как вспомогательный глагол употребляется для выражения будущего времении с один лицом в единственном и во множественном числе. Модальный глагол *must* и его эквивалент *have to* выражает объязательства вптекалющего у договоренном плана, соглашение плана. Данная статья также освещает модальные вспомогательные относящие к будущему, а также к будущему в прожедщем.

Rəyçi: ***f.e.n., b/müəl. Əliyeva Ş.Ə.***

NAİLƏ QASIMOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

EMAIL ETIQUETTE

Açar sözlər: elektron məktub, mesaj, ünsiyyət, formallıq, üslüb, əlaqə, müştəri, salamlaşma
Key words : email, message, communication, formality, style, rapport, customer, greeting
Ключевые слова: электронная почта,сообщение, общение, формальность, стиль, связь, клиент, приветствие

The explosive growth of email has created many problems, mainly because there have never been any strict standards of guidelines on how to use it. An informal online culture has evolved over the years, but there has never been one definitive guide to common standards and expectations among users. Consequently, systems have bee overloded, miscommunication has been rampant, reputations have been damaged, feelings have been hurt, and time has been wasted.

Another consideration is that because of the apparent informality of email, things are often written in an email message that would not be written in a business letter. This can have serious implications for some businesses, which may find themselves facing legal action.

Organisations are now realising the importance of protecting themselves against the dangers of email. However, this is not enough. They must also take steps to ensure that email works effectively for them. This chapter will take you through the good, the bad and the ugly of email, and will help you to make email work for you. You will learn how to enhance your online ,communication skills and create a good electronic rapport with your customers and colleagues.

We have to use email appropriately to enhance our reputation and our organisation's image.

Seven deadly sins of working with email

- You sometimes wish you could backtrack after sending a message, but it's too late.
- You sometimes forget to add an attachment that you promised in the message.
- You have sometimes sent messages via email when you know a telephone call would have been better.
- You haven't done any housekeeping or deleted any messages for a long time.

- You have sent private or confidential messages via email, which you have later regretted.
- You sometimes send messages off quickly without a greeting or a sign-off.
- You often send messages without checking through for good grammar, spelling and punctuation.

Never write a message in anger! Leave it in your outbox for at least an hour. Then go back and look at it again. If you still feel the same way and want to send it, do so. But chances are you won't.

The good, the bad and the ugly of email:

Email is really a double-edged sword, with many reasons to love and to hate it.

Why do we love it?

- It's informal.
- Messages can be sent to many people at the click of a button.
- We can attach a file and send it very easily.
- It's instant-massages are delivered in seconds.
- It's relatively cheap.
- It's time-zone friendly.
- It's always online unless you switch it off.
- You can write anything to anyone.
- It's easy.
- It can be prioritised.

Why do we hate it?

- Has it become too informal? People are now using sms code in emails, which can't be good.
- Do we receive too many emails just bacause it is so easy?
- If we aren't careful we may download a file that contains a virys; also large files take a longer download time.
- It can be too instant. Have you ever clicked 'send' and then wished you could retrieve it?
- We receive lots of junk mail-spam.
- Lots of people send ccs and bccs just because they can-not because we need to see them.
- It means constant interruptions to your working day, so it interferes with your planned work.
- There is no confidentiality.
- There is real pressure to reply quickly to emails, which causes an increase in stress levels. One of the main causes of workplace stress is the pressure of keeping up with email messages.
- Our oral communication skills are suffering. Workers are sending emails to people sitting at the next desk instead of walking over to speak to them.

Top 10 lazy email habits. We are all busy. We all have overflowing in boxes. But lazy email habits could lead to misunderstanding, frusyration, non-action, wasted effort, wasted time, damaged relationships and ruined reputations. I often ask my workshop participants what annoys them about email they receive.

- Using vague or out dated subject line
- Not using a greeting or sign-off
- Not proofreading
- Using abbreviations or acronyms
- Using the wrong case
- Not thinking about who really needs to see the message
- Writing messages with details missing
- Using unfriendly tone
- Messages that are just plain sloppy

Top 10 tips for making the most of email

- **Turn off your email alert:** Someone once told me that every time they receive a new email, their email alert shouts 'Yabadabadoo!' just like in The Flintstones! Whether tou have a ping, a clang, a bong or a Yabadabadoo, for goodness sake turn it off occasionally. Don't let email take over your life.
- **Respond to messages promptly:** Once you have read an email, it's common to reply promptly. If you are pushed for time and cannot reply immediately,don't feel compelled to do so. This will only result in a rushed message, perhaps mistakes, and it may not be as detailed or effective as it could be. Instead send a quick note saying you will get back to the writer soon with a more considered response.
- **Think carefully about your subject heading**

This should give the recipient a good idea of the contents of the message and will make easier handling and filing.

- **Keep caps lock off**

Capitals are difficult to read, they INDICATE SHOUTING and can appear THREATENING! And also don't use lots of exclamation marks!!!!

- **Get your greeting and closing right**

Formality doesn't read well in email. Replace gormal salutations like '[Dear Pat'with informal 'Hi Pat' or even just 'Pat'. Similarly, replace 'Yours sincerely' with 'Best wishes' or even 'Cheers'. Try to avoid overuse of the very boring 'Regards', or worse still abbreviations like 'Tnks and Rgs'!

- **Send a cc to those who need to know, not to everyone you know**

If we are suffering from overflowing inboxes, how much of it is self-inflicted? Has it become too easy to send messages to lots of people just because you can? We must learn to use email more thoughtfully by recognising when we should and should not send messages. Do you really need to send all those cc, bcc

and fwd copies? If you receive lots of messages that you don't really need to see, tell the authors so that it doesn't happen again.

▪ **Check your message carefully and get it right first time:** There's no second chance with emails- once you hit 'send' it will be the recipient mailbox within seconds!

▪ **Do regular housekeeping.** Delete or file your sent and read messages so as to keep your system fast and efficient. Set up filters on your email system so that messages the automatically sent to different folders according to the sender and the subject matter.

▪ **Take pride in your message**

When composing on-screen, it is easy to allow sentences to become very long. Make an effort to keep sentences short and simple, and check your syntax.

▪ **Don't panic-you can always pick up the phone**

Have you ever been involved in a prolonged email exchange that lasts for days? Wouldn't it be better to pick up the phone? It's a sure fact that email overload is contributing to a decline in oral communication skills. People are sending emails to the person in the next office rather than walking a few steps.

When we discuss something in person or on the telephone, we can get the root of the issue much quicker and resolve any problems so much faster.

LITERATURE

1. Krashen S., The power of writing. Portsmouth, NH: Heinemann and Santa Barbara: Libraries Unlimited (second edition), 2008.

2. Storch N. Collaborating writing: Product, process, and students' reflections, 2005.

3. American Accent Training. Grammar. 2007.

4. Write English Right, 2007.

5. Rajab H. Developing Speaking and Writing Skills of L1 Arabic EFL Learners, 2013.

6. S. R.Guidelines:A cross-cultural writing text.3-rd ed.Cambridge University Press, 2009.

7. Lee S. Teaching EFL. Writing. Journal of National Taipei Teaching College, 2003.

N.İ.QASIMOVA

ELEKTON POÇTLA GÖNDƏRİLƏN MESAJLARIN YAZILMASINDA ETİKET QAYDALARI

XÜLASƏ

Hal-hazırda, elektron poçtdan istifadə ümimi hala çevrilib. Lakin, elektron poçtdan istifadə edərkən etiket qaydalarına riayət etmək vacibdir. Məsələn, məktuba düzgün başlıq vermək, düzgün salamlaşmanı tərtib etmək, məktubu düzgün formada bitirmək, caps lock düyməsindən mümkün qədər az istifadə etmək, düzgün tonda yazılı ünsiyyət seçmək lazımdır.

Göndərdiyniz sənədin onu oxuyan şəxsdə yaxşı təəssürat oyatmağını istəyirsinizsə, onu düzgün tərtib etmək lazımdır.

Bu məqalə elektron poçtdan istifadə edərək işgüzar yazışmanın aparıcı qüvvəsi olan insanlar üçün yaxşı bir bələdçidir.

Н.И.КАСУМОВА

ПРАВИЛА ЭТИКЕТА ПРИ НАПИСАНИИ СООБЩЕНИЙ, ПОСЫЛАЕМЫХ ПО ЭЛЕКТРОННОЙ ПОЧТЕ

РЕЗЮМЕ

В настоящее время пользование электронной почтой стало обычным делом. Но очень важно соблюдать правила этикета при использовании электронного письма. Например, необходимо правильно озаглавить письмо, правильно оформить приветствие и правильно завершить письмо, меньше использовать кнопку caps lock, следует выбрать правильный тон письменного общения и т.д.

Чтобы посылаемый вами документ произвел хорошее впечатление на человека, который будет его читать, необходимо правильно его оформить.

Данная статья является путеводителем для людей, ведущих частую деловую переписку, используя электронную почту.

Rəyçi: **dosent F.Ə.Hüseynova**

FƏRİDƏ HÜSEYNOVA
"Xarici Dillər 1" kafedrası
farida@gmail.com

AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE UNIVERSITETININ "XARICI DILLƏR KAFEDRASI"NIN TARIXINDƏN (30-70CI ILLƏR)

Açar sözlər: hörmət, rəğbət,dosent, kadr, mütəxəssis, müəllim, xarici dil, müdir,kafedra
Ключевые слова*:* Уважение, сочувствие, доцент, кадр, специалист, преподаватели, иностранный язык, заведующий, кафедра.
Key words: Respect, sympathy, professors, staff, specialists, teachers, foreign language head, department.

Azərbaycanda Neft Sənayesi, Akademiyasi adlanan Politexnik İnstitutunun yaradılmış (16 noyabr 1920-ci ildə Azərbaycan İnqilab Komitəsinin "Bakıda politexnik institutunun yaradılması haqqında" dekreti elan edilmişdir), lakin təəssüf ki, bütün dünyanı öz nefti ilə cəlb edən Azərbaycan kimi bir ölkədə milli kadrların çatışmamazlığı həmişə birinci yerdə olmuşdur.

Politexnik institutunun yaradılmasının ilk günlərindən ali məktəblərimizə RSFSR və digər yerlərdən mütəxəssislər dəvət olunurdu. Onlar ali məktəblərimizdə kadrların hazırlanması vəzifəsini həll etməli idi. Keçmiş dövrümüzdə də ölkəmizdə xarici dillərin öyrənilməsinə olan tələblər yüksək olmuş və daim inkişaf etdirilmişdir ki, bu da hər zaman öz növbəsində effektiv mütəxəssislərin yetişməsində öz səmərəsini vermişdir.

Hələ XX əsrin əvvəllərində Azərbaycan kimi bir ölkədə, Politexnik İnstitutu istər ölkəmizin daxili üçün, istərsə də xarici üçün yüksək tələblərə cavab verən ixtisasçıları -sabahın mütəxəssislərini hazırlamış, elmi-texniki tərəqi, ictimai-siyasi həyatla ayağlaşan və problemlərin həllinə elmi yanaşmaq imkanına malik olan kadrlar yetişdirmişdir. Azərbaycan Politexnik İnstitutu təkrarolunmaz, özünəməxsus özəlliyi olan bir tədris mərkəzi olmuşdur. Burada öz prinsipiallığı, inadkarlığı, məsuliyyəti, hər şeyin ölçülüb biçilməsindəki dəqiqliyə riayət edən müəllimlər ordusu çalışmışdir. Azərbaycan Politexnik İnstitutunun yarandığı ilk günlərdən onun nəzdində " Xarici Dillər" kafedrası yaradılmış və burada elmin son nailiyyətlərə inanan, müxtəlif sahələri dialektik vəhdətdə götürüb işləməyi sevən mütəxəssislər yeni nəslin yetişdirilmısində əllərindən gələni etmış və bu işdə yorulmamış və xarici dilləri layiqincə tədris etmişlər. İndiki dövrdə də xarici dillərin tədrisi həmin ənənəyə sadiq olaraq tədris edilir.

İlk dövrlərdə ali məktəblərimiz üçün kadrların yetişdirilməsi və işə cəlb edilməsi ən mühüm vəzifələrdən idi. Bu işdə bir sıra çətinliklər olsa da ən yaxşı mütəxəssislər Azərbaycan Politexnik İnstitutuna cəlb edilirdilər.Yaradıcılıq maneraları ilə fərqlənən, ictimai-siyasi təşkilatçılıq bacarığı ilə seçilən fitri qabiliyyət sahibi olanlar Azərbaycan Politexnik İnstitutuna dərs deməyə dəvət olunurdular. Məsələn, Kiyev və Barşava Universitetlərinin məzunu - Pyotr Xristyanoviç Tumbil, 1932-35-ci illərdə Ümumittiaq Neft Sənayesi Universitetində " Xarici Dillər" kafedrasında əvəzçilik üzrə xarici dildən dərs demişdir. P.X.Tumbil 1920-ci ildə Baklya gəlir və müxtəlif vəzifələrdə çalışmağa başlayır. O, özünü tək yaxşı müəllim kimi göstərməmişdir, o eyni zamanda həssas dövlət İmtahan komissiyasının sədri, tədqiqatçıların gayğıkeş rəhbəri, elmi işçilərin obyektiv rəyçisi, ona tapşırılan işləri vicdanla yetirən və səliqəli bir şəxsiyyət olmuşdur.Özünə və başqalarına tələbkar olan P.X. Tumbil böyük elmi əhəmiyyəti olan tədqiqat işlərinin müəllifi olmuşdur. Həmin elmi işlərin yazılması tarixindən asılı olmayaraq onlar bu gün də elmi əhəmiyyətini itirməmişlər. Bunlardan "Baki kitabxanalında saxlanılan ən qədim və dəyərli kitablar" (biblioqrafik məlumatdır), "Latın-rus-ingilis-azərbaycanca lüğət", "Azərbaycan antiq dövr ədəbiyyatında, "Azərbaycanda Rim yazıları(birinci eraya kimi)" və s. misal göstərmək olar. 1938-ci ildən isə P.X.Tumbil əsasən ADU-nun Xarici Dillər kafedrasının müdiri vəzifəsində çalışmış və ondan ehtiyac duyulan yerdə tərəddüdsüz kömək etmiş, vaxt və bacarığını elm yolunda əsirgəməmişdir. Latın, yunan, sanskrit, polyak, alman,fransız,italyan, ingilis, rus, ukrayna, latış,litov, belarus, azərbaycan, türk dillərini bilən P.X. Tumbil bacarıqlı bir poliqlot kimi də məşhur idi. Sonralar Ümumittiaq Neft Sənayesi İnstitunun "Xarıcı Dillər" kafedrasına müəllim kimi əsasən Moskva və Leningrad xarici dillər İnstitutlarının məzunları işə cəlb olunurdular. Və nə yaxşı ki, tədricən milli kadrlarımız da yetişməyə başlayırdı.

İlk milli kadr olan qadın gənc mütəxəssis Ruxsarə Əli qızı Gaibova öz dövrünün çətinliklərinə baxmayaraq 1934-37 ci illərdə Moskvada Mərkəzi Giyabi Xarici Dillər ınstitunda təhsil aldıqdan sonra 1938-ci ildə Neft Sənaye İnstitutunda ingilis dilindən dərs deməyə dəvət olunmuşdu. Sonralar əlacı maarif işçisi kimi tanınan, Azərbaycanın ali və elmi müəssisələrı təşkilatının fəal üzvü olan R.Ə. Gaibova Azərbaycan orta məktəbləri üzrə ingilis dili dərsliklərin yazılmasında yaxından iştirak etmiş, ingilis dilinin dil gayda ganunlarının azərbaycan dili ilə müqayisəli şəkildə öyrənilməsi,ingilis dilinin öyrənilməsi metokisasına dair onlarca məqalələrin müəllifi olmuşdur.

S.M.Kirov adına Bakıdakı Neft Sənayesi Akademiyasının "Xarici Dillər" kafedrasında müəllim kimi çalışan R.Qaibova məruzə ilə çıxış edərək, təlimin tədrisi ilə əlaqədar olaraq qərar qəbul olunması təklifini irəli sürmuşdu. " Xarici dildə oxunmuş ədəbiyyatın tərcüməsinə itirilən vaxta son qoyulsun . Əsas

məqsəd oxunmuş ədəbiyyatı başa düşmək və həmin ədəbiyyatdan əməli işlərdə istifadə etmək mümkün olsun. Ədəbiyyatın seçilməsi məsələsi ön plana çəkilsin." Universitetin nəzdində xarici dillər üzrə yaradılmış fənn kabinetinin apardığı iş də faydalı olmuşdur. Fənn kabinetinin vəzifəsi: a) tələbə və aspirantlara dili dialektik materializm nəzəriyyəsi əasasında başa salmaq və dildən sinfi mübarizədə ideoloji silah kimi istifadə etmək ; b) xarici dilin öyrənilməsində ən çox çətinlik törədən dil- qayda –qanunlarının ana dili ilə müqayisəli sxemini hazırlamaq və onları nümayiş etdirmək; v) tələbə və aspirantlarda dili öyrənməyə maraq oyatmaq və dərsdən kənar vaxtlarını səmərəli təşkil etməkdə köməklik göstərmək; q) müəllimlərə öz metodik biliklərini zənginləşdirməkdə dil kabinetin rolunu artırmaqdır. Beləliklə, müəllimlər kabinetdə elmi və metodik ədəbiyyatla tanış olmalı, onları müzakirə etməli, müvafiq və əlverişli üsulları tədris prosesində tətbiq etməli idilər.Eyni zamanda tələbə və aspirant kabinetdə öz elmi işi üzrə müıllimdən məsləhət alır, biliyini əyani vasitələrin köməyilə möhkəmləndirir, dilçilik üzrə mühazirələr dinləyirdi. Bundan başqa dil kabineti sərgi , görüş, ədəbi-bədi gecələr, qırmızı təqvim günü, divar qəzetinin buraxılması, ev oxusu üzrə yardım və.s.tədbirlərdə iştirak etməlidi. Kafedranın ictimai işlərinə aspirantların və alimlərin qarşısında, əsgərlər qarşısında tez-tez məruzə və mühazirələrlə çıxış etmək vəzifələri də daxil idi.

Adriana Georgiyevna Mdivani - 1950- 1973-cü illərə kimi uzun müddət "Xarici Dillər" kafedranin müdiri vəzifəsində çalışmışdır. İngilis, fransiz, alman və rus dillərini bilirdi.

Xarici dillərə həmişə böyük tələbat olduğundan 1937 ildə V.İ. Lenin adına APİ –də "Avropa dilləri" fakültəsi yaranir və bu fakültənin məzunları işə dəvət olunurdular. Bundan sonra V.İ. Lenin adına APİ-nin məzunları xarici dillərin tədrisində boyük rol oynayırlar. Bir az sonra isə 1940-1941-ci illərdə ölkədə xarıcı dil müəllimlərinə tələbatın bir daha da artdığına görə V.İ. Lenin adına APİ –nin Avropa Dilləri fakültəsi Azərbaycan Dövlət Xarici Dillər İnstituna çevrilir və məhz bu dövrdən başlayaraq Ümumittiaq Neft Sənayesi Akademiyasında əsasən bu İnstitutun məzunları xarici dillərin tədrisində boyük rol oynamağa başlayırlar. Get-gedə xarıcı dil üzrə dilçilik və metodik problemləri həll edə bilən böyük dilçilər və metodistlər ordusu yaradilırdı.

1943-46-ci illərdə V.İ. Lenin adına APİ –nin "Avropa dilləri" fakültəsinin Alman dili şöbəsində, 1948-52 -ci illərdə isə V.İ. Lenin adına APİ-nin aspiranturasında təhsil almış Şəfiqə Əmrullah gızı Abdullayeva müxtəlif ali məktəblərdə işləmiş, 1968-ci ildə "Alman dilində mürəkkəb tabeli cümlə və onun Azərbaycan dilində ifadə formaları" mövzusunda dissertasiya işi müdafiə etmiş və filologiya elmləri namizədi adıni almlş və 1973-1978-ə illərə kimi cü ildə M. Əzizbəyov adına Azərbaycan Neft və

Kimya İnstitunun “Xarici Dillər “ kafedrasının müdiri olmuş, 2002- ci illərə kimi oranın dosenti vəzifəsində çalışmışdır. Şəfiqə Əmrullah gızı Abdullayeva alman, rus, avar dilləri ilə yanaşı səlis azərbaycan dilini də bilirdi.

Təqdirəlayiq hal idi ki, atriq 1970-ci illərdə “Xarici Dillər “ azərbaycanlı kadrların sayı coxalirdı. Məsələn Şəfiqə Abdullayeva, İsmət Rüstəmov, Rəhilə Məmmədova, Raya Axundova, Gıznaz Quliyeva, Saida Kasimova, Ruhəngiz Məmmədova, Sima Əzizova, Rəfiqə Ələkbərova və s. beynlmiləl “Xarici Dillər “ kafedrasının aparıcı müəllimləri idilər. Sonrakı dövrlərdə də get gedə azərbaycanlı kadrların sayı coxalırdı. 1978-ci ildən isə kafedrada uzun illər baş müəllim kimi çalışan Səidə Cavad qizi Kasimova M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitunun “Xarici Dillər “ kafedrasının müvəggəti icra edən müdiri təyin olunmuşdur. Səidə Cavad qizi Kasimova yeganə azərbaycanlı kadr idi ki,o dövrdə -1967 ci ildə ABŞ-da təkmilləşmə kurslarında olmuşdur. Mükəmməl ingilis dili biliklərinə malik olan Səidə Cavad qizi Kasimova bir necə ixtisas üzrə -energetika. Kimya və gaz neft mədən ixtisaslari üzrə azərbaycan-rus-ingilis dilləri üzrə lüğətlər üzərində işləmiş, dilçiliyə aid məqalələrin müəllifidir.

Tarixə nəzər saldıqda Azərbaycanda dövlət dili funksiyasını ayrı-ayrı dillərin- ərəb , fars , rus dillərinin daşımasının şahidi oluruq. Lakin Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Azərbaycan dili ünsiyyət vasitəsinə çevrilmişdir. Lakin , məlumdur ki , Azərbaycan ədəbi dili dövrümüzə qədər min ildən artıq inkişaf yolu keçmiş bir dildir. Dilimizin tarixi kökləri çox qədim dövrlərə gedib çıxır. Belə ki, ümumtürk mədəniyyətinin yaranmasında və inkişafda xalqımızın müəyyən rolu vardır.

Dilimizin cəmiyyətlə qarşılıqlı inkişafı və zənginləşməsinə nəzərən deyə bilərik ki, ötən dövrlərdə həm xalqımız, həm də dilimiz müəyyən məhrumiyyətlərə məruz qalmışsa da öz saflığını, milli ruhunu, sintaktik quruluşunu bu günədək qoruyub saxlamaqla bərabər, həm də inkişaf etdirmişdir. Beləliklə, dil milli mənəviyyatın, insan şüurunun, xalq təfəkkürünün, formalaşdığı cəmiyyətin, yaşadığı tarixi axarın və zənginləşən lüğət tərkibimizin mayasıdır.

Azərbaycan dilçilik elminin inkişafı B. Çobanzadənin, M. Şirəliyevin, Ə.Dəmirçizadə, M. Hüseynzadə, Ə.Orucov, S.Cəfərov, Ə.Abdullayev, F.Zeynalov və s. kimi dilçilərin fəaliyyəti ilə bağlı olmuşdur.

Humboldt öz prizmasından yanaşaraq dili belə qiymətləndirmişdir: ”Dünyada iki eynilik yoxdur ki, bir xalqın dili ilə onun ruhu arasınında eyni olsun.”

Türk dünyasının birliyi perespektivləri haqqında düşünən M. K. Atatürkün Türkiyə daxilində yürütdüyü dil siyasəti dil məsələsinə həmişə xüsusi diqqət yetirməsini bir daha sübut edir. Dili mənəvi körpü sayan Atatürk Humboldtdan xəbərsiz olaraq 1933 -cü ildə sentyabr ayında dil haqqında türk mənəviyyatını , türk əxlaqını , türk təfəkkürünü əks etdirən fikir söyləmişdir : ” Dillə şüur arasında qırılmaz bir bağ vardır. Milli şüuru inkişaf etdirmək üçün yetər ki, dili inkişaf etdirəsən.”

Biz bilirik ki , insan dünyaya göz açdığı andan allahın ona bəxş etdiyi şüur ətraf aləmin , ən əsası isə mühitin və cəmiyyətin təsiri ilə formalaşır, inkişaf edir. Bu prosesdə dilin rolunu xüsusi vurğulamaq lazımdır. Çünki dil vasitəsilə əşyaların adını öyrənir, yaşadığım dünyanı dərk edirik . Ayrı-ayrı xalqların özünəməxsus dili ilə şüuru arasındakı vəhdət müxtəlif dünya baxışlarını , adət- ənənələrini , yaşam tərzini

meydana çıxarır. Belə ki, dil spesifik ictimai hadisə olub hər dəyişikliyi özündə əks etdirmə qabiliyyətinə malikdir.

Bu baxımdan , milli şüurumuzu və dilimizi paralel şəkildə inkişaf etdir-məliyik ki, həm dilimizi, həm də milli - mənəvi dəyərlərimizi möhkəmləndirək və qoruyub saxlayaq.

Heydər Əliyev cənablari isə dil haqqında belə söyləmişdir: ”Hər millət öz dili ilə yaranır . Dilini unudan xalq xırda-xırda öz milliliyini də unudar.”

Azərbaycan dilinin dövlət dili kimi yaşamasını , möhkəmlənməsini , inkişaf etməsini ən böyük nailiyyətimiz hesab edən ümummilli liderimiz Azərbaycan cəmiyyətinin ruhən möhkəmlənməsi üçün dil ilə milli “mən” imizi daima qarşılıqlı əlaqə və qarşılıqlı vəhdət təşkil etməsini düzgün saymışdır. Heydər Əliyevin yürütdüyü dil siyasətində xalqın müstəqilliyi və onun davamlılığı xüsusi əhəmiyyət kəsb etmişdir. Heydər Əliyev “bilirdi ki , mədəniyyətin , mənəviyyatın tərəqqisi ilə müşayiət olunmayan iqtisadi inkişaf bütövlükdə cəmiyyətin davamlı yüksəlişini təmin edə bilməz. Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı ” (11 , 49).

Azərbaycan dilinin nüfuzunun qaldırılması təbii ki , müstəqillik qazandıqdan sonra daha da gücləndi və dövlət səviyyəsində qorunması təmin olundu. Bu işdə dilinə böyük qayğı ilə yanaşan H. Əliyevin xüsusi xidmətləri olmuşdur.

Azərbaycan Respublikasının prezidenti , ümummilli liderimiz Heydər Əliyev cənablarının Azərbaycan dilinin tətbiqi və qorunması haqqında 18 iyun,

9 avqust 2001 - ci il, 30 sentyabr 2002 - ci il , 2 yanvar 2003 – cü il verdiyi fərmanlar öz ana dilinə göstərdiyi böyük qayğının bariz nümunəsidir. (7, 22).

18 iyun 2001-ci il tarixli “ Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” verdiyi fərmanda H. Əliyev dilin xalqın həyatında rolu və əhəmiyyəti haqqında belə demişdir : “ Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O , xalqın ən ağır günlərində belə onun milli mənliyini , xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmlətmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir , ölməzdir , böyük gələcəyə malikdir”(7 , 23) .

Prezidentimizin 9 avqust ,2001 – ci il tarixli “ Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında ” fərmanı isə mütəqillik qazandıqdan sonra verilən ən düzgün qərar idi . Fərmanda deyilir : ” Hər il avqust ayının 1 - i Azərbaycan Respublikasında

Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilsin. ”(7, 38)

Bir sözlə, ümummilli liderimizin dil siyasətində millilik və beynəlmiləlçilik münasibətini optimal şəkildə əlaqələnir və mənəvi aləmin ön planda olması xüsusi əhəmiyyət daşıyır.

Tanınmış alim Uşinski isə dil haqqında belə deyir: ” Bir millətə hər bir şeyi ver , əlindən dilini al, o öləcək. Əgər hər şeyini alıb dilini saxlasan, o yaşayacaq. ” Deyə bilərik ki, məsələn dünyada qaraçının yeri, dövləti yoxdur, lakin dili var. Bu xalq dilini qoruyaraq onun əsasında tarixini, mədəniyyətini, musiqisini, şeirini, mənəviyyatını yaratmış, öz milliliyini qoruyub saxlamış və yaşatmaqdadır.

Təbii ki , dil bilavasitə mənəviyyatla bağlıdır. İnsan şüuru, düşüncəsi isə dillə bağlıdır. Bu fikrə əsaslanaraq bir neçə nümunəni nəzərdən keçirək. Məsələn, “ Eurovision müsabiqəsi Bakıda keçiriləcəkdir. ”

Türk dilində isə belə ifadə olunur . ” Bakı Eurovision müsabiqəsinə ev sahibliyi edəcəkdir.”

Belə qənaətə gəlmək olar ki, türk dilində Bakı sözü cümlə üzvü kimi mübtəda, Azərbaycan dilində isə yer zərfliyidir. Deməli , ayrı - ayrı dillərdə işlənmiş və eyni fikri ifadə edən cümlənin nəinki quruluşu, hətta cümlə

üzvləri də dəyişir. Beləliklə, düşüncə tərzi də dəyişir. Deməli , hər bir millətin düşüncə tərzi onun dilində öz əksini tapır.

İndi isə başqa bir cümləyə diqqət yetirək. Məsələn , “ Qoca qarını axtarmağa getdi . ” Bu cümlədə bilinmir ki , qoca qarının axtarışı , yoxsa bəyin gəlini axtarması nəzərdə tutulub . Çünki türk dilində “ koca” bəyə, “ karı ” isə xanıma deyirlər . Bizim dildə isə bu sözlər belə

işlənmir. Azərbaycan dilində yaşlı qadının arxasınca getmək mənasını ifadə edir.

Deməli , dildəki hər bir söz belə öz ifadə tərzinə , funksiyasına görə dilin daşıyıcısı olan millətin şüurunun ifadəçisidir. Bu baxımdan 1907- ci ildən başlayaraq Azərbaycan dilinin varlığı uğrunda mübarizə başlamışdır. Öndə gedən ziyalılardan biri Firudin bəy Köçərli olmuşdur. Firudin bəy Köçərli demişdir ki, Azərbaycan xalqı min ildən bəri yaşamış, formalaşmışdır, çünki onun ana dilisi var, ana dili.

O, Uşinskidən sitat gətirərək deyir:” Bir millətə hər bir şeyi ver ,ana dilini al, o, fövt olar , amma hər şeyini al , dilini dilini ver ,o, fövt olar.”

Ö. F . Nemanzadə dil haqqında belə deyir: ” Dil millətin tək nişanıdır. ” Düzdür, çünki hər hansı bir millətin tarixini, mədəniyyətini öyrənmək istəyiriksə biz ilk növbədə onun dilinə bələd olmalıyıq. Hər bir millət məskunlaşdığı yerdən asılı olmayaraq dilini qoruyub saxlamağı

bacarmalı və yaşatmalıdır . Çünki vətənsiz millət yaşayar, amma dilsiz yox.

Dil həm çoxcəhətli , həm də mürəkkəb ictimai hadisədir . Dil bilavasitə mənəviyyatla bağlıdır . Məlumdur ki, dil daim dəyişir . Dillərin hər biri özü - özlüyündə zəngin tərkibə , müxtəlif quruluşa və geniş ifadə imkanlarına malikdir . Həm fərqli , həm də mürəkkəb işarələr sisteminə malik olan dil cəmiyyət üzvləri arasında ünsiyyətə xidmət etməklə yanaşı, mədəniyyətlərin qarşılıqlı öyrənilməsinə xidmət edir.

Azərbaycan dilinin yaranması və bugünkü səviyyəyə qalxması Azərbaycan xalqının tarixi ilə möhkəm bağlıdır və mürəkkəb proseslər nəticəsində millilik xüsusiyyətini qoruyub saxlaya bilmişdir.

Hazırda Azərbaycan dili Azərbaycan xalqının milli dili, Azərbaycan Respublikasının rəsmi dövlət dilidir . Və biz bu gün bütün ruhumuzla "dərin fikirləri incə çalarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik "(7, 23) dilimizin millilik xüsusiyyətini qorumalı və yad ünsürlərin dilə təsirinin qarşısını almalıyıq.

ƏDƏBİYYAT

1.Abdullayev Ə.Azərbaycan dil məsələləri, Bakl,1992,202 s.
2.AxundovA.A. Bir neçə söz. N.Xudiyev Heydər Əliyev və Azərbaycan dili,Bakı,Təhsil,1997,292 s.
3.Axundov A. A. Dil və mədəniyyət. Bakı, Yazıçı,1992,192 s.
4..Babayev A. M. Diçiliyə giriş. Bakı, Maarif, 1992,504 s.
5.Babayev A. M. Azərbaycan dilçiliyinin tarixi. Bakı,1996,356 s.
6.Babayev A. M. Dilçiliyimizin məbədi. Bakı, BDU,2002,286 s.
7.Babayev A. M. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı,"Elm və təhsil",2011,620 s.
8.Qurbanov A. Ümumi dilçilik .I cild, Bakı. Nurlan,2004,748s.
9.Qurbanov A. Ümumi dilçilik. II cild, Bakı, Nurlan,2004.532 s.
10.Əliyev F . Heydər Əliyevin azərbaycançılıq ideologiyası. - Heydər Əliyev və Azərbaycan, Bakı , Azərbaycan, 2008, s. 295-306
11.Novruzov S. Heydər Əliyev və müstəqilliyinin əsaslarının yaranması. Heydər Əliyev və Azərbaycan. Bakı: "Azərbaycan", 2008,s.45-52.

МЕХРИ ИМАНГУЛИЕВА

ЯЗЫК ОСНОВА НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ

РЕЗЮМЕ

Настоящая статья посвящается роли и место в обществе. Национальный язык и национальное сознание, и их взаимное влияние в жизнь каждого народа и объясняется связь. Существуют различные мнения по поводу языка, интерпретации и его анализа.

В статье рассказывается об оказании Великим лидером Гейдаром Алиевым заботу и внимание языку.Указы ,изданные Общенациональным лидером с целью развития языка ,находят свое отражение.Выясняет роль языка в жизни и развитии каждого народа.Также приводя в пример несколько слов употребляемых в ежедневной речи излагается их выражение в различных значениях на родственных языках.

MEHRİ İMANQULİYEVA

LANGUAGES OF NATIONAL MORALS YEAST

SUMMARY

The article is about language, its role and place in society. National language and national consciousness and their mutual influence in the life of each nation and the connection is explained. There are different opinions about language interpretation and analysis.

The article deals with our great national leader Heydar Aliyev s care and attention to our language.İt also reflects the decrees issued by our great national leader with the aim of developing our language.The role of the language is emphasized in every peoples life and development.The article linghtens some productive native words whid are used to express onother meaning in some other languages.

Rəyçi: Prof., f.e.d. Babayev A. M.

Л.МАМЕДОВА
Ст. преподаватель Азербайджанского Государственного Экономического Университета

КОММУНИКАТИВНЫЙ АСПЕКТ КУЛЬТУРЫ РЕЧИ

Açar sözlər: nitq mədəniyyəti, aspekt, dil normaları, ünsiyyıt bacarıqları, müasir dil təcrübəsi
Ключевые слова: культура речи, аспект, языковые нормы, коммуникативные качества, современная речевая практика.
Key words: speech culture, aspect, linguistic norms, communication quality, modern speech practice.

Культура речи представляет собой такой выбор и такую организацию языковых средств, которая в определенной ситуации общения при соблюдении современных языковых норм и этики общения позволяют обеспечить наибольший эффект в достижении коммуникативных задач.

Термин «культура речи» употребляется в двух значениях:

1.раздел языкознания, изучающий вопросы нормализации;

2.владение нормами литературного языка и умение построить оптимальный текст.

Культура речи анализирует употребление языковых элементов и категорий в рамках литературного языка.

Для культуры речи важно как и насколько современная речевая практика, речевой обиход соответствуют сложившимся в обществе представлениям:

1.о грамматической, орфоэпической, орфографической правильности и о правильном, точном употреблении слов;

2.о достаточно разнообразном с точки зрения смысла и экспрессивности составе лексики (и фразеологии) письменных текстов и устной речи;

3.об уместности (или мотивированности) использования тех или иных языковых средств в типических речевых ситуациях и контекстах;

4.о том, насколько речь носителей данного языка (в первую очередь носителей литературного языка) – и дома, и в официальной, деловой обстановке, и в служебной или личной переписке, и в СМИ (печатных и электронных), и в учебном заведении – соответствует высоким меркам речевой культуры.

Эти представления отражены и закреплены в академической грамматике и различных словарях и справочниках, где фиксируется лексика и фразеология, а также основные орфоэпические, грамматические,

стилистические нормы конкретного современного русского литературного языка.

Для культуры речи принципиальное значение имеют выразительность, ясность изложения. Круг исследований в области культуры речи охватывает всю современную языковую жизнь общества: не только литературный язык, но сферу народно-разговорного языка, отдельные элементы которого из просторечия, народных говоров, жаргонов – от криминальных арго до профессиональной речи –включаются в устные и письменные тексты носителей языка, в том числе и литературного. В этом вопросе культура речи сближается со стилистикой. Стилистика служит теоретической базой исследований в области культуры речи.

Исходя из этого, можно вывести основные аспекты культуры речи:

1.*нормативный* (один из важнейших, обеспечивающих охрану литературного русского языка, его норм, которые воспринимаются людьми в качестве идеала, образца. Этот аспект защищает литературный язык от потока диалектов, просторечий. Нормы помогают лит. языку сохранить свою целостность и общепринятость)

2.*коммуникативный* (использование языковых средств, которые соответствуют ситуации общения и поставленным коммуникативным целям, т.е. означает умение пользоваться функциональными разновидностями языка. Если для научной речи необходима точность, то в разговорной речи нормативным является неточные обозначения. В отличие от литературных норм, коммуникативные нормы не кодифицированы, т.е. не выведены в печати. В этом направлении в лингвистике идут поиски и исследования).

3.*этический* (обеспечивает соблюдение этических норм поведения в общении, в речевой деятельности, те соблюдение речевого этикета. На него возложена контакно-установительная функция). Этот аспект предписывает строгий запрет на сквернословие, осуждает общение на повышенных тонах. Этические нормы имеют свою национальную особенность в каждой стране, так например сфера общения на Вы гораздо шире в русском языке, чем в европейских, которые допускают сокращенные имена при общении. В русской языковой среде это выглядит бестактно. Под этическими нормами понимается речевой этикет (формы приветствия, обращения, просьбы, вопроса). Важны правила общения с должностными лицами. Влияют экстралингвистические факторы: возраст, статус, время и место речевого взаимодействия.

4.*Эстетический* (аспект, который предполагает владение различными приемами, способами образного выражения мысли, украшение речи, владение набором лексико-стилистических фигур: эпитеты, сравнения и т.д.)

На протяжении всей истории развития учения о культуре речи гораздо больше внимания уделялось нормативному аспекту культуры владения языком. Именно поэтому нормативный аспект культуры речи был главной заботой лингвистов и всего общества. Основа основ коммуникативного аспекта культуры речи — выбор нужных для данной цели общения языковых средств — процесс творческий.

Лингвисты всегда хорошо понимали важность для культуры речи того, что здесь названо коммуникативным аспектом. С. И. Ожегов писал: «Высокая культура речи — это умение правильно, точно и выразительно передать свои мысли средствами языка. Правильной речью называется та, в которой соблюдаются нормы современного литературного языка... Но культура речи заключается не только в следовании нормам языка. Она заключается еще и в умении найти не только точное средство для выражения своей мысли, но и наиболее доходчивое (т. е. наиболее выразительное) и наиболее уместное (т. е. самое подходящее для данного случая) и, следовательно, стилистически оправданное».

Культура речи определяется как набор коммуникативных качеств хорошей речи. Эти качества выявляются на основе соотношения речи с отдельными неречевыми структурами. К неречевым структурам отнесены: язык как некоторая основа, производящая речь; мышление; сознание; действительность; человек — адресат речи; условия общения. Язык выполняет разные коммуникативные задачи, обслуживает разные сферы общения. Каждая сфера общения в соответствии с теми коммуникативными задачами, которые ставятся в ней, предъявляет к языку свои требования. Поэтому невозможно говорить в коммуникативном плане о культуре владения языком вообще. Речь должна идти о культуре владения разными функциональными разновидностями языка. То, что хорошо в одной функциональной разновидности языка, оказывается совершенно неприемлемо в другой.

Для успешной реализации коммуникативных задач необходимо иметь представление о функциональных разновидностях языка. Язык располагает большим арсеналом средств. Так, для официально-делового стиля характерной чертой является штамп (стандартные обороты речи). Невозможно представить себе вольную форму в заявлении о командировке или об отпуске, так как существуют установленные образцы составления официальных документов. Для эффективной деловой беседы по телефону необходимо сразу же отрекомендоваться, при ведении делового разговора не должно быть никаких излишеств. Главнейшее требование к хорошему тексту таково: из всех языковых средств для создания определенного текста должны быть выбраны такие, которые с максимальной полнотой и

эффективностью выполняют поставленные задачи общения, или коммуникативные задачи.

Выделяют следующие коммуникативные качества речи:

1) правильность – соответствие речи действующим языковым нормам.

2) Точность - соответствие речи избранному предмету речи.

Условия точности речи: - экстралингвистическое знание того, о чем собираешься говорить.

- лингвистические условия: - точное представление о значении слова.

- умение различать значение многозначного слова.

- умение выбрать нужное слово из синонимического ряда

-умение разграничивать омонимы, паронимы.

3) логичность – построение речи по законом непротиворечивого мышления. Условия логичной речи:

- нельзя объединять слова со взаимоисключающим значением.(благодаря наводнению)

- нельзя объединять несоотносимое(характеру Аркадия, как и его отцу, свойственна сентиментальность.)

-Следует избегать плеоназм.(в сентябре месяце обычно наступает бабье лето)

-необходимо соблюдать правильный порядок слов(он почти забивает в каждой игре).

4)чистота – отсутствие в речи языковых единиц, которые относится к внелитературным разновидностям языка, а также слов-паразитов и бранных слов.

5)выразительность – такие особенности речи, кот позволяют поддерживать интерес слушателя или читателя.(условия выразительности-самостоятельность мышления и интерес говорящего к предмету речи, + постоянная тренировка навыков речи и стремление говорить выразительно).

6)Уместность – соответствие речи условиям общения(коммуникативная ситуация, характер межличностных отношений).

7)богатство - это разнообразие речи.

Условия богатства:

-обширный лексический запас, привлечение в речь тропов и стилистических фигур.

8) действенность – эффективность речи.- о ней говорят тогда, когда были достигнуты поставленные коммуникативные цели.

Нет сомнения в том, что все эти качества действительно важны для оценки многих конкретных текстов в коммуникативном аспекте. И задачу определения текста по шкале «плохой — хороший» в коммуникативном аспекте можно было бы считать решенной, если для этого было бы достаточно приложить к любому тексту названные восемь признаков.

ЛИТЕРАТУРА

1. *Л.К. Граудиной и Е.Н. «Ширяева Культура русской речи», М., 2000*
2. Б. Н.Головин «Основы культуры речи», М., 1988
3. О.Я.Гойхман, «Русский язык и культура речи», М, 2009.
4. Л.А.Введенская «Русский язык и культура речи», М., 2003.

L.MƏMMƏDOVA

DİL MƏDƏNİYYƏTİNİN ÜNSİYYƏT ASPEKTİ

XÜLASƏ

Nitq mədəniyyəti ədəbi dil çərçivəsində dil elementlərinin və kateqoriyalarının istifadəsini təhlil edir. İfadəlilik və aydınlıq nitq mədəniyyəti üçün prinsipial əhəmiyyət kəsb edir. Nitq mədəniyyəti yaxşı nitqin ünsiyyət keyfiyyətlərindən müəyyən olunur. Bu keyfiyətlər nitq və qeyrinitq strukturlarının əlaqəsi nəticəsində ortaya çıxır.

Qeyri-nitq strukturlarına bir sıra xüsusiyyətlər aiddir: şüur, düşüncə, reallıq, insanlar və ünsiyyət şəraiti. Bu xüsusiyyətlər nitqdən bir sıra yaxşı keyfiyyətlər tələb edir: nitqin düzgünlüyünü, onun təmizliyini (dialektsiz, jarqonsuz), dəqiqliyini və məntiqliyini.

Dil bir sıra kommunikativ məsələləri həll edir, müxtəlif ünsiyyət sferalarına qulluq edir. Ünsiyyətin hər bir sferası dilə qarşı öz tələblərini irəli sürür.

Şüphəsiz ki, bütün bu keyfiyyətlər bir çox mətnlərin qiymətləndirməsində çox vacib rol oynayır.

L.MAMMADOVA

COMMUNICATIVE ASPECT OF SPEECH CULTURE

SUMMARY

Culture of speech is such a choice, and an organization of language means that in certain situations of communication in compliance with modern standards of language and ethics of communication allow for the greatest effect in achieving communication objectives.

Culture speech analyzes the use of language elements and categories within the literary language. For the culture of speech is important as far as modern speech practice, voice usage match the prevailing social representations. For the culture of speech fundamental importance expressiveness, clarity.

There is no doubt that all these qualities are really important to assess many of the specific text in the communicative aspect. And the task of determining the text on a scale of "bad - good" in the communicative aspect could be considered as solved, if it would be enough to make any text called eight symptoms.

Rəyçi: **Fü..f.d. Əmirova A.**

МУСАЕВА А.Г.
Аз. Государственный
Экономический
Университет ст.преподаватель
Email: aynurmusa@mail.ru

СОВРЕМЕННЫЕ ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ В ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ

Ключевые слова: педагогические технологии, ролевая игра, иноязычное общение, речевая деятельность, учащиеся, преподаватель, критическое мышление, кластер, кейс, новая тема, деловая игра, “стадия вызова”, “смысловая стадия”.
Açar sözlər: təsil texnologiyaları, rol ifası oyunlar, yaddilli ünsiyyət, nitq fəaliyyəti, tələbələr, müəllim, tənqidi təfəkkür, klaster, keys, yeni mövzu, işguzar oyun, “çağırış mərhələsi”, “qavrama mərhələsi”.
Keywords: educational technology, role-playing game, foreign-language space, speech activityspeech activity, students, teacher, critical thinking, cluster , case, new topic, business game, “call stage”, “semantic stage”.

Игровые технологии. Игра - это вид деятельности в условиях ситуаций, направленных на воссоздание и усвоение общественного опыта, в котором складывается и совершенствуются самоуправление поведением (Селевко,2005). Большинству игр присущи четыре главные черты:

- свободная развивающая деятельность, предпринимаемая лишь при желании учащегося, ради удовольствия от самого процесса деятельности, а не только от результата;
- творческий, в значительной мере импровизационный , очень активный характер этой деятельности;
- эмоциональная приподнятость деятельности, соперничество, состязательность, конкуренция, аттракция и т.п.;
- наличие прямых или косвенных правил, отражающих содержание игры, логическую и временную последовательность её развития (Шмаков 1994).

В отличие от игр вообще педагогическая игра обладает существенным признаком - чётко поставленной целью и соответствующими ей педагогическими результатами, которые могут быть обоснованы, выделены в явном виде и характеризуются учебно-познавательной направленностью. (Селевко 2005).

При обучении русскому языку как иностранному можно выделить:

языковые игры (фонетические, орфографические, лексические, грамматические);

коммуникативные игры (ролевые, творческие), способствующие решению следующих задач:

- создание психологической готовности учащегося к речевому общению;
- обеспечение естественной необходимости многократного повторения языкового и речевого материала;
- тренировка учащихся в выборе нужного речевого варианта, что является подготовкой к спонтанной речи.

На занятиях по русскому языку как иностранному большое распространение получили ***ролевые игры***. В них учащиеся включаются в моделируемую ситуацию, которая требует принятия решения на основе анализа самой ситуации. Ролевая игра предусматривает распределение учащихся по ролям и разыгрывание ситуации общения в соответствии с заданной темой и ролями. Во временном плане учебная деятельность представляет собой относительно целостный цикл управляемого взаимодействия между преподавателем и учащимися, который состоит из трёх этапов: подготовки ролевой игры, её проведения и коллективного обсуждения результатов. Ролевые игры подразделяются на социально-бытовые и профессиональные (деловые). ***Социально-бытовые*** игры направлены на формирование навыков и умений иноязычного общения в социально-бытовой среде, а также на развитие инициативности, коллективности и ответственности как общественно-ценных качеств личности и совершенствование общей культуры поведения. ***Профессиональные*** (деловые) игры используются при обучении профессиональному общению

Пример упражнения, реализующего игровую технологию в преподавании русского языка как иностранного.

Примите участие в деловой игре.

Открытие фирмы: набор сотрудников и комплектование штата

Цель игры — проверить коммуникативные навыки участников в жанре саморекламы (составление резюме, саморекомендации), навыки монологической речи.

На роль директора фирмы выбирается наделенный лидерскими задатками, коммуникативно раскрепощенный студент. Он вместе с группой решает, какую фирму они будут открывать (важно, чтобы интересы совпадали). Он же выбирает себе двух помощников — секретаря и двух сотруд-

ников фирмы (главного бухгалтера и менеджера по персоналу). Остальные хотят устроиться в эту фирму на работу.

Заранее дома готовятся резюме, которые обсуждаются принимающей стороной. В резюме указываются реальные биографические данные, требования к оплате труда, пожелания, знания и умения. Каждый из участников должен пройти собеседование, в котором должно проявиться умение рекламировать себя как работника на рынке труда.

Открывает занятие "директор" короткой презентационной речью, в которой рассказывает об открытии новой фирмы, о направлении ее деятельности, о перспективах, о кадровой политике.

Затем слово предоставляется менеджеру по персоналу, который зачитывает согласованный заранее список вакансий с приблизительными ставками.

Затем сидящие за одним столом директор, главный бухгалтер и менеджер по персоналу приглашают желающих поступить в фирму на работу пройти собеседование. Во время собеседования зачитывается резюме. Принимающими оцениваются деловые и коммуникативные качества претендентов, их умение находить способы решения сложных проблем.

После заслушивания всех претендентов комиссия удаляется на совещание (5-10 мин) и принимает решение " приеме на работу из числа прошедших собеседование.

Заключительный этап — подведение итогов. Комиссия объявляет список принятых, комментируя, чем мотивирован выбор.

Интерактивные технологии

Интерактивные технологии основаны на активном взаимодействии учащихся с преподавателем и другими учащимися.

Интерактивные технологии разрабатывались в рамках проекта «Чтение и письмо для развития критического мышления» *(«Reading and Writing for Critical Thinking»),* разработанного в конце XX в. В США (Ч. Темпл, Д. Стил, К. Мередит). Главной задачей проекта является внедрение в педагогику методов, развивающих критическое мышление учащихся всех возрастов, независимо от изучаемого предмета, в том числе и на занятиях по иностранным языкам.

Главная цель интерактивных технологий - развивать критическое мышление учащихся как конструктивную интеллектуальную деятельность, продолжить осмысленное восприятие информации и последующее её усвоение.

В рамках интерактивных технологий разработаны основы обучения и учения, состоящие из «стадии вызова», «смысловой стадии», и «стадии рефлексии».

На «стадии вызова» пробуждается интерес к новой теме, учащиеся с опорой на предыдущие знания и языковой опыт делают прогнозы относительно содержания новой информации.

На «стадии осмысления» проводится работа с текстом, изучается новый материал, учащиеся интегрируют идеи, заложенные в тексте, со своими собственными, для того, чтобы прийти к пониманию новой информации.

На «стадии рефлексии» учащиеся размышляют над полученной информацией, закрепляя таким образом новый материал.

Создателями интерактивных технологий были предложены и широко используются следующие приёмы преподавания: «кластер» (в ряде публикаций называется также «карта понятий». «ассоциограмма»), двухчастный дневник, цепочка из слов, технология кейс, пазл, целенаправленное чтение и ряд других.

Кейс-технология (от английского «case» – ситуация, случай) – технология, основанная на использовании в учебном процессе специально смоделированной или реальной ситуации в целях анализа, выявления проблем, поиска альтернативных решений, принятия оптимального решения проблемы. Данная технология позволяет найти нетривиальный подход к раскрытию проблемы, проиллюстрировать учебные ситуации, может быть использована на уровне элементов урока или стать основой для занятий в виде деловых игр. Работа по решению кейсов одинаково эффективна в групповой работе учащихся, в работе в парах, в индивидуальной работе. Результат решения кейсов может быть представлен в виде презентации, защиты проекта, критической справки, описательной работы, эссе.

Кейс-технологии имеют различные цели:

1.Научить как индивидуально, так и в составе группы анализировать информацию.

2.Выявлять ключевые проблемы предложенной ситуации.

3.Сортировать информацию для решения выбранной задачи.

4.Выбирать оптимальное решение и формировать программы действий.

5.Достичь речевых компетентностей.

Кейс-технология может применяться на различных этапах обучения русскому языку. Пример содержания кейса.

Кейс "Привлечение нового клиента". Ознакомьтесь с опорными словами и словосочетаниями: пищевые продукты, оптовики, розничные магазины, потенциальный клиент, отдел закупок, повседневный спрос, поставщик, предложение о сотрудничестве, оборот, прибыль, качество.

Инструкция: Группа делится на несколько команд. Командам необходимо подготовиться к предстоящим переговорам в рамках поставленной задачи. Для этого необходимо:

- определить предмет и цель переговоров;
- обосновать цель переговоров с точки зрения собственных интересов и возможных интересов клиента.

Роль торгового представителя: Вы - представитель компании "Рацион", производящей пищевые продукты. Вы работаете в регионе N. У вас уже сложились отношения с некоторыми розничными магазинами, торговыми точками, есть постоянные оптовики. Однако, чтобы основательно обосноваться на этой территории вам необходимо дальше расширять область своего присутствия. В число потенциально интересных клиентов попала розничная сеть "Глобус". Для вас этот клиент является важным. От успеха проведённых переговоров будет во многом зависеть успех вашей компании в этом регионе.

Предмет переговоров - обсуждение возможности сотрудничества.

Роль клиента: Вы являетесь руководителем отдела закупок сети магазинов "Глобус". В её состав входит 10 крупных магазинов в городе и регионе. Все магазины этой сети предлагают покупателям широкий выбор продуктов и товаров повседневного спроса. В настоящее время у вашей компании имеются поставщики, причем со многими из них вы работаете по несколько лет. В этой связи компания неохотно идет на расширение круга поставщиков, особенно, если новые кандидаты предлагают аналогичный или родственный ассортимент. Ваша сеть привлекла внимание компании "Рацион". Вы догадываетесь, что они собираются сделать вам предложение о сотрудничестве. На данный момент у вас уже есть два поставщика подобного товара. Продукт имеет хороший оборот и приносит прибыль. Но стабильность поставок и качество оставляет желать лучшего. Основные параметры, по которым вы выбираете Поставщика следующие:

- известность компании Поставщика;
- прибыль от продаж данной продукции;
- вся продукция Поставщика имеет безусловное и постоянное качество;
- гарантия того, что цена поставки в "Глобус" не выше, чем в другие торговые сети и крупные универсамы.

Прием **«кластер»** применяется для стимуляции познавательной деятельности

учащихся, развития их памяти и пространственного мышления. Работа протекает следующим образом. Учитель записывает в центре классной доски тему (ключевое слово), просит учащихся подумать и

записать вокруг данного слова всё, что приходит на ум в связи с предложенной темой. Затем учащиеся обмениваются своими идеями при работе в парах, делятся ими сов всей группой.

В качестве примера приведем составление кластера на уроке делового русского языка при изучении темы «*Имидж делового человека*». В самом начале работы учащиеся высказывают все имеющиеся у них знания по данному вопросу, предположения и ассоциации. Например: бизнес, предприниматель, сделка, работа, офис. Учитель фиксирует их на доске. Далее следует чтение текста. В ходе ознакомления с материалом (или по результату прочтения), схема дополняется новыми фактами. Итогом урока должен стать анализ полученной картины, с обсуждением верности или неверности первоначальных суждений и обобщением полученной информации.

Опыт преподавания свидетельствует об эффективности применения интерактивных методов в качестве способов развития интеллектуальных способностей, аналитического мышления учащихся в процессе межличностной коммуникации на языковых занятиях.

БИБЛИОГРАФИЯ

1. Верещагин Е.М., Костомаров В.Г. Язык и культура. Изд. 4-е, - М.: Русский язык, 1990 г.
2. Селевко Г.К. Педагогические технологии на основе активизации, интенсификации и эффективного управления УВП. – М.,2005.
3. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам.
4. Соосар Н., Замковая Н. Интерактивные методы преподавания. Настольная книга преподавателя. – 2004.
5. Щукин А.Н. Методика преподавания русского языка как иностранного: учебное пособие - М.: Высшая школа, 2003 г.

MUSAYEVA A.Q.

RUS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ MÜASİR PEDAQOJİ TEXNOLOGİYALAR

XÜLASƏ

Bu məqalə rus dilinin xarici dil kimi tədrisində müasir tədris texnologiyaların tətbiqinə həsr edilib. Müəllif oyun və interaktiv texnologiyaların anlayışını açıqlayır. Məqalədə bu texnologiyalara aid olan rol ifası oyunları, keys və klaster üsulları haqqında məlumat verilir və nümunələr gətirilir. Müasir texnologiyaların tədrisi, bütün öyrədilənlərin qarşılıqlı əlaqəli

(həmçinin müəllim daxil olmaqla) tədrisi kimi verilir. Müəllif interaktiv və oyun texnologiyalarının dil dərslərində tətbiq etməklə tələbələrin təhsil materialının daha yaxşı anlaşmasına, idrak fəaliyyətinin inkişafına ciddi təsir göstərə bilər. Müəllif rus dili dərslərində bu metodlardan istifadə etməyi tövsiyə edir.

MUSAYEVA A.Q.

MODERN EDUCATIONAL TECHNOLOGY IN TEACHING RUSSIAN AS A FOREIGN LANGUAGE

SUMMARY

This article was teaching Russian as a foreign language has been devoted to modern technologies. The author explains the concept of the game and interactive technologies. The article relating to the technologies of role-playing games, keys and cluster information about the methods and examples are given. The teaching of modern technologies, all interconnected oyrədilənlərin (also including teachers) are given as teaching. Author interactive and gaming technologies through the use of language classes a better understanding of students' educational material, can have a significant impact on the development of cognitive activity. The author recommends that the use of these methods in the Russian language classes.

Rəyçi: fil.f.d. dosent Şahbazova F.E.

AYSEL ŞÜKÜROVA
ADU-nun "Ümumi Dilçilik" kafedrasının dissertantı

DİSKURS, MƏTN VƏ KOMMUNİKASİYA ANLAYIŞLARININ QARŞILIQLI ƏLAQƏSİ

Açar sözlər: dil, koqnitiv dilçilik, diskurs, kommunikasiya, mətn, qarşılıqlı əlaqə
Key words: language, cognitiv linguistics, discourse, communication, text, interaction
Ключевые слова: язык, когнитивная лингвистика, дискурс, коммуникация, текст, взаимодействие

Mübaliğəsiz demək olar ki, müasir dilçiliyin ən çox araşdırılan məsələlərdən biri diskurs, mətn, kommunikasiya fenomenlərinin qarşılıqlı əlaqəsidir.

Linqvistik ədəbiyyatda diskursun müxtəlif şərhləri mövcuddur. Məsələn, Böyük Ensiklopedik lüğətdə diskurs belə izah edilir:

"Diskurs ekstralinqvistik-praqmatik və digər amillərlə əlaqədə olan, hadisə aspektində öyrənilən rabitəli mətndir" (5, s.136-137). Deməli, burada diskursun ayrılmaz komponenti olan nitq məqsədyönlü sosial hərəkət kimi insanların qarşılıqlı əməkdaşlığında, onların şüur mexanizmlərində, yəni koqnitiv proseslərdə iştirak edən məfhum kimi nəzərdən keçirilir.

Fransız mütəffəkiri Mişel Fuko diskursu ictimai-tarixi nöqteyi-nəzərdən qurulmuş insan biliyi sistemi adlandırır. O, bu haqda yazır: "Diskurs anonim, tarixi nöqteyi nəzərdən zaman və məkan vasitəsilə determinə olunmuş qanunların məcmusudur və bu qanunlar hər hansı bir dövrdə, sosial, iqtisadi, coğrafi və ya dil mühitində söyləmin təsir şərtlərini müəyyənləşdirir" (12, s. 216). Beləliklə, M.Fuko üçün diskursiv təhlilin məqsədi hər hansı bir söyləmin işləndiyi tarixi şəraiti müəyyənləşdirmək və konkret şəraitdə bu söyləmin işlənmə səbəbini izah etməkdir.

V.E.Çernyavskayanın fikrincə, diskurs müəllifin adressatla əlaqə yaradarkən kommunikativ-praqmatik, koqnitiv məqsədlər və söyləmin yaranması üçün, situativ kontekstlə ayrılmaz vacib hesab edilən mətndir. Bu mənada diskurs mətnin məyyən strukturunun yaranmasına səbəb olan kommunikativ prosesi xarakterizə edir. V.E.Çernyavskaya diskursla bağlı yazır: "Diskurs konkret komunikativ hadisə olub yazılı mətnlərdə və şifahi nitqdə fiksə edilir, müəyyən koqnitiv və tipoloji nöqteyi-nəzərdən şərtlənən kommunikativ sahədə reallaşır: Mətn + onun mətnətrafı fonu" (13, s. 143). Onun fikrincə, "Tematik mətnlərin qarşılıqlı əlaqəsi, diskursda birləşən mətnlər hər bir halda ümumi bir mövzuya müraciət edir. Diskursun məzmunu (mövzusu) ayrı bir mətn vasitəsilə açılmır - əksinə, ayrı-ayrı mətnlərin kompleks şəkildə qarşılıqlı əlaqəsi nəticəsində intertekstual formada açılır" (13, s.144). Həmçinin, V.E. Çernyavskaya qeyd edir: "Diskurs çoxlu sayda mətn/söyləmlərin əhəmiyətli dərəcədə açılmasıdır. Diskurs nə bir mətn səviyyəsində qəbul olunur və nə də ki, ayrı bir mətndən ibarət deyildir. Mətn isə diskursun fraqmenti olub və bu nöqteyi nəzərdən tədqiq olunmalıdır " (13, s.146). V.E. Çernyavskayanın bu fikirləri ilə tanış olub belə bir nəticəyə gəlmək olar ki, mətn özlüyündə vahid forma olmasına

baxmayaraq dikursu təşkil edən komponentlərdən biridir. Bir neçə mətnin ümumi bir diskurs çərçivəsində fəaliyyət göstərməsi mümkündür. Buna müvafiq olaraq, hər bir mətn ayrılıqda müstəqil olsa da, diskursa münasibətdə tamın bir komponenti kimi qəbul olunur.

Mətn nədir? Q.Ş. Kazımov mətni aşağıdakı kimi izah edir: "Ünsiyyətin əsas vahidi olan cümlə bitmiş fikir ifadə etsə də, onun ifadə etdiyi fikir bitkinliyi nisbi xarakter daşıyır. Cümlə onu əhatə edən cümlələr birliyində, mətn mühitində struktur-semantik xüsusiyyətlərini tam şəkildə üzə çıxara bilir. Cümlələrin müəyyən fikir ətrafında əlaqəli birliyi mətnin yaranmasına səbəb olur. Mətnin yaranmasının əsaslı qanunauyğunluqları vardır. Mətnin təşkili mexanizmi, qurulma texnikası ardıcıl gələn cümlələrdə semantik proqressiya ilə bağlıdır. Bu sahədəki qanunauyğunluqların hərtərəfli tədqiqi bir sıra dil problemlərinin həllinə kömək edir, dilin funksional əhəmiyyətini daha ətraflı üzə çıxarır. Ona görə də sintaksisin vəzifəsi yalnız söz birləşməsi və cümləni öyrənməklə məhdudlaşmır" (15).

İ.V.Arnold mətn haqqında yazır: " ... Bəzən mətnin heç olmasa iki sözdən ibarət olması haqqında eşidilən fikir tamamilə məntiqsizdir: mətn operativ (kommunikativ) vahid kimi bilavasitə sözlərə bölünə bilməz, mətn cümlələrlə seqmentləşir. Beləliklə, mətnin təyin olunmasında yaranan vahidlərin sayı qeyri relevantdır. Biz, M. Hallideyin, mətnin *n* sayda, ən azı 1 və istənilən miqdarda çox cümlələrdən ibarət olması nöqteyi-nəzərini bölüşürük" (4, s.55-56). O, "Müasir İngilis dilinin üslubiyyatı " adlı kitabında M.Halideyin fikirlərinə istinad edərək qeyd edir: "Mətn - dilin operativ, cümlə isə onun sintaktik vahididir, mətn yazılı və ya şifahi ola bilər; ona, xayku və ya Homerin eposu kimi ədəbi-bədii mətnin özünəməxsus növü aid edilə bilər. Stilistik tədqiqatların obyekti hər hansı bir sintaktik bütöv deyil, məhz mətndir; mətn - funksional-semantik anlayış olub ölçüsü müəyyən edilmir" (Halliday M.A.K. Linguistic Function and Literary Style. – In: Explorations in the Functions of Language.-Ldn, 1974. - p.107) (4, s. 56).

Həmçinin İ.V. Arnold Y.M.Lotmanın mətnin şərhinə geniş semiotik mövqedən yanaşması haqqında yazır: "O, incəsənəti xüsusi formada təşkil olunmuş dil, dili isə kommunikasiya vasitəsi və işarələrdən istifadə edən nizamlanmış sitem kimi müəyyən edir. Bu dildə sənət əsərlərinə məlumat kimi baxılır və onları mətn adlandırırlar. Y.M.Lotman və onun məktəbi üçün mətnlər istənilən sənət əsəridir: poemalar, şəkillər, simfoniyalar, memarlıq ansamblı" (4, s. 59).

İ.V. Arnold mətnin kommunikativ təyinatı haqqında qeyd edir: "Mətni təşkil edən əsas amil onun kommunikativ təyinatı, yəni onun praqmatik məğzidir, çünki mətn ünvanlandığı insanlarda emosional-iradi və estetik təsir üçün nəzərdə tutulmuşdur; ünsiyyət aktı iştirakçılarına münasibətdə dil vahidlərinin funksiyası isə dilçilikdə praqmatika adlanır" (4, s. 61).

M.B.Voroşilova diskursu ekstralinqvistik faktor olan situativ kontekstlə əlaqədə olan mətn hesab edərək yazır: "Diskurs situativ kontekstlə qırılmaz əlaqədə olan mətndir. Diskurs mətndən kənara çıxaraq onun realizə olunmasında müxtəlif şərtləri özündə cəmləşdirir. Belə ki, diskurs mətnlərdə mövcuddur və buna görə də diskursun təhlili ilk növbədə mətnin, lakin "reallıqla yüklənmiş" mətnin təhlilidir" (6, s. 79-80).

Diskurs və diskursiv təhlilin tədqiqatçılarından olan T.A. van Deyk əsərlərində diskurs anlayışını tez-tez "social practice" yəni "sosial təcrübə" adlandırır (14, s.244). O, yazır: " ... diskurs mürəkkəb kommunikativ hadisə olub, özündə mətndən əlavə mətnin anlanılması üçün vacib olan ekstralinqvistik (dünya haqqında biliklər, fikirlər, adresatın məqsəd və hədəfləri) faktorları birləşdirir" (7, s. 8).

Qeyd etmək istərdik ki, mətn və sosial fəaliyyət olan diskurs arasındakı əlaqələr nəinki Avropa, Amerika və rus dilçilik məktəblərində öyrənilir; həmçinin Azərbaycan alimləri də diskursun başa düşülməsinin əsasını yaradan mühüm əsərlərin müəllifləri olaraq diskurs anlayışını geniş tədqiq edirlər. Məsələn, Ə.Ə.Abdullayev diksur və mətni belə fərqləndirir: "Diskurs mətndən daha geniş anlayışdır. Diskurs - eyni zamanda həm dil fəaliyyəti prosesi, həm də onun nəticəsidir (= mətndir). Diskursun öyrənilməsinə meyl – müasir funksionalizmin, onu dilçiliyin bir çox başqa cərəyanlarından və əvvəlki dilçilik məktəblərindən fərqləndirən fundamental cəhətidir" (1, s. 181).

A.Məmmədov, M.Məmmədov diskurs və mətn haqqında yazırlar: "Mətn bilavasitə maddi varlıqdır və onu bu yanaşma çərçivəsində tədqiq etmək mümkündür. Lakin diskurs daha mürəkkəbdir və onun təhlili üçün biz mətni göndərənin niyyətini, fikrini bərpa etməliyik, yəni gözümüz önündə mövcud nitq əsərindən mətndəki eksplisit infromasiyadan əlavə mətnarxası nəyin nəzərdə tutulduğunu müəyyənləşdirməliyik" (3, s. 23).

Deməli, Ə.Ə.Abdullayev, A.Məmmədov, M.Məmmədov mətni diskursun əsas komponentlərindən biri hesab etsələr də, diskursu daha mürəkkəb anlayış, koqnitiv və praqmatik aspektlərlə zəngin məfhum kimi qəbul edirlər.

Həmçinin, Azərbaycan dilçilərindən F.Y.Veysəlli özünün "Semiotika" kitabında diskurs və mətnin dilin işarə sistemindəki yerini təqdim edərək yazır:

"Dilin işarə sistemində səviyyələr məsələsi çox mübahisəlidir. Ən çoxu 9 səviyyə fərqləndirirlər.

1. Fərqləndirici əlamətlər səviyyəsi (qısa/uzun saitlər, sərt/ yumşaq samitlər və s.). Bunu merizmatik səviyyə də adlandırırlar;
2. Fonem səviyyəsi;
3. Morfem səviyyəsi;
4. Leksem səviyyəsi
5. Söz birləşməsi (sintaqm) səviyyəsi;
6. Cümlə səviyyəsi və söyləm reallaşması;
7. Cümləfövqü vahidlər (mürəkkəb bütövlər, mətn hissələri, abzaslar, frazemlər);
8. Mətn səviyyəsi;
9. Diskurslar" (2, s.196).

F.V. Veysəllinin təqdimatından göründüyü kimi, diskurs dil sisteminin sonuncu səviyyəsini təşkil edir.

İ.B. Rubert mətn və diskurs arasındakı terminoloji fərqi üç mərhələdən ibarət yanaşmayla müəyyən edir. İ.B.Rupert üçün mətn ünsiyyətin statik vəziyyətdə olan komponenti, diskurs isə dinamikada olan anlayışdır. Onun dəqiq ifadəsinə görə, "İlk növbədə hər iki anlayışın eyniləşdirilməsi, daha sonra "obyektin statikası" (mətn)/"kommunikasiyanın dinamikası" (diskurs) parametrlərinə görə onların tam fərqləndirilməsi və mətnə diskurs anlayışının əlavə edilməsi lazımdır" (11, s. 23).

Qeyd etmək lazımdır ki, diskursun digər önəmli komponenti ünsiyyətdir. Böyük Ensiklopedik lüğətdə ünsiyyət fenomeni aşağıdakı kimi izah edilir:

"Kommunikasiya- ünsiyyətdir, fikir, məlumat, ideya və s. mübadiləsi olaraq təfəkkür və əmək fəaliyyəti prosesində insanlar arasında özünəməxsus qarşılıqlı təsir formasıdır. Kommunikasiya söyləmi (mətni) yaradan və onu şərh edən üzvlərinin iştirak etdiyi ünsiyyət aktlarından (kommunikasiya vahidlərindən) yaranır (5, s. 233).

Əlavə edək ki, diskurs və kommunikasiya arasındakı qarşılıqlı əlaqə mürəkkəb və çoxşaxəli bir prosesdir. Bunun səbəblərindən biri ünsiyyətin müxtəlif sahələrdə özünəməxsus formada təzahür etməsidir. Habelə, kommunikasiya prosesini ümumilikdə təsəvvür etmək üçün onun müxtəlif istiqamətlərdə konkretləşməsi əsasdır, çünki ünsiyyət həm ictimai həm də fərdi formada mövcud ola bilər. Mürəkkəb kommunikativ hadisə olaraq diskurs sadəcə mətn yaratmır; həmin mətnin ictimailəşməsi və növbəti mərhələlərdə qavranılaraq mövcud olması bir sıra "dil xaricində" yəni "ekstralinqvistik" olan məqamlardan asılıdır.

Diskurs anlayışının şərhində praqmalinqvistik, psixolinqvistik, sosiolinqvistik yanaşmalar mövcuddur. Praqmalinqvistik nöqteyi-nəzərdən diskurs ünsiyyət iştirakçılarının interaktiv fəaliyyəti kimi, əlaqənin yaranıb dəstəklənəsi, emosional məlumat mübadiləsi, bir-birinə qarşılıqlı təsir, ani olaraq dəyişən kommunikativ strategiyalar kimi başa düşülür. Bütün bu faktorlar isə vahid sistem olan sosial kommunikasiyanı yaradır. Sosial fenomen olan ictimai kommunikasiya cəmiyyət üzvləri arasında məlumat mübadiləsi yaradan faktordur. R.V. Patyukovanın dəqiq ifadəsinə görə, "İctimai kommunikasiya - məlumatın cəmiyyətə ötürülməsi və cəmiyyət tərəfindən qəbul edilməsidir. Belə bir məlumatı cəmiyyətin istənilən üzvü əldə edə bilər və bu məlumat sosial nöqteyi-nəzərdən önəmlidir. Biz belə informasiyanı ictimai statusa malik hesab edirik" (10, s.97-103).

Həmçinin, "Rus dilinin üslubiyyatı" adlı kitabda müəlliflər ictimai kommunikasiya haqqında yazırlar: "İctimai kommunikasiya şifahi ünsiyyətin bir növü olaraq rəsmi şəraitdə məlumatın çox sayda dinləyiciyə ötürülməsinə xidmət edir. İctimai kommunikasiya növləri üçün ictimai maraqlara toxunan və rəsmi statusu olan məlumatın ötürülməsi xarakterikdir. İctimai status ünsiyyətin rəsmi şəraitindən asılıdır" (9, s. 412).

Biz isə ictimai kommunikasiyanı əsas praqmatik məqsədlərindən biri məlumatın geniş auditoriyaya çatdırılması olan "rəsmi xarakterə malik sosial statuslu ünsiyyət" adlandırırıq.

T.A. van Deyk və V.Kinç "Rabitəli mətni anlama strategiyaları" adlı məqalədə diskursun sosial-mədəni kontekstdə yarandığını qeyd edirlər. Onlar yazır: "Biz artıq hər hansı bir hadisə haqqında hekayə kimi əlaqəli mətnlərin "vakumda" mövcud olmaması fərziyyəsini irəli sürmüşük. Onlar danışan və dinləyənlər tərəfindən konkret situasiyalarda; geniş sosial-mədəni kontekstin çərçivələrində hazırlanır və qavranılır. Buna görə də, diskursun emalı sadəcə koqnitiv proses deyil, eyni zamanda sosial kommunikativ hadisədir. Bu fikir əlbəttə ki, aydındır, lakin burada biz qeyd etmək istərdik ki, diskursun sosial xüsusiyyətləri koqnitiv xüsussiyyətlərlə qarşılıqlı əlaqədədirlər. Başqa sözlə, koqnitiv model əlaqəli mətni və buna müvafiq olaraq mətni anlama prosesinin sosial kontekstdə həyata keçirilməsi faktını əks etdirməlidir. Biz bunu (sosial) funksionallığın bünövrəsi adlandırırıq. Bu əsasın ən aydın koqnitiv

nəticəsi isə dil istifadəçilərinin nəinki müvafiq mətn haqqında həm də sosial kontekstdə təsəvvürlər qurmasıdır və bu iki təsəvvür qarşılıqlı əlaqədədir ".

Həmçinin, T.A. van Deyk və V.Kinç qeyd edirlər: "Daha dəqiq desək, biz güman edirik ki, yol nəqliyyat hadisəsi haqqında kommunikasiya prossesində danışılır və qavranılır; bu zaman isə dinləyici danışandan məlumat (bizim misalda yol hadisəsi haqqında) və danışanın yaddaşında bu hadisənin kodlaşdırılması üsulu haqqında informasiya alır. Bundan əlavə, kommunikativ əsas həm də dinləyənin sadəcə hekayə barədə təsəvvür qurması deyil; eyni zamanda, dinləyənin danışanın nə demək niyyətində olmasını öz şərhi ilə əlaqələndirməsidir" (8, s.159-160).

Deməli, T.A. van Deyk tərəfindən təqdim olunmuş diskurs modelində diskurs kommunikativ hadisə kimi danışan və dinləyən arasında şifahi-yazılı, verbal-qeyri verbal tərkibdən ibarət olan kommunikativ təsir prosesində müəyyən zaman, məkan kontekstində baş verir və dil forması - məna - hərəkətin mürəkkəb vəhdətindən yaranır. Belə ki, müəyyən şəraitdə hadisə baş verir, həmin hadisənin təhlili zamanı məlumat yaranır və nəticədə, koqnitiv-praqmatik məqsədlər üçün istifadə olunan bu məlumat diskursa çevrilir. Beləliklə, diskursun məzmunu ilk növbədə hadisənin təhlilidir; hadisə isə öz növbəsində təhlilsiz məlumat kimi diskursa çevrilə bilməz. Buradakı informasiyanın koqnitiv emalı geniş sosial - mədəni kontekstdə baş verən mürəkkəb prosesdir. Kommunikativ qarşılıqlı əlaqə və sosial - mədəni sahənin istifadəsi diskursun konkretləşdirilməsinə və onun çoxlu sayda müxtəlif növlərinin müəyyən olunmasına yardım edir .

Əlavə olaraq qeyd etmək istərdik ki, diskurs nəinki sosial təcrübə, həm də insanların sosial təcrübəsi zamanı yaranan və inkişaf edən sosial təfəkkür, ictimai bilikdir, çünki yalnız ictimailəşmiş bilik diskursa çevrilə bilər.

Beləliklə, diskurs və mətn mürəkkəb qarşılıqlı əlaqədə olan komponentlər olsa da, diskurs fenomeni mətndən daha geniş anlayışdır. Ünsiyyət, kommunikativ sahə, mətnlərin yaranması, nitq aktları və ekstralinqvistik xüsusiyyətlər isə diskursun tərkibini təşkil edir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə.Ə. Koqnitiv dilçiliyin əsasları. Bakı: 2006, 228 s.
2. Veysəlli F.Y. Semiotika Studia Philologica. IV. Bakı: Mütərcim, 2010, 336 s.
3. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: 2010, 96 s.
4. Арнольд И.В. Стилистика современного английского языка. М.: Флинта, Наука, 2002, 384 с.
5. Большой энциклопедический словарь: языкознание. М.: Большая российская энциклопедия, 1998, 684 с.
6. Ворошилова М.Б. Политический креолизованный текст: ключи к прочтению: моногр.; Урал. гос. пед. ун-т. Екатеринбург: 2013, 194 с.
7. Дейк Т.А. Ван. Язык. Познание. Коммуникация. Б.: БГК им. И.А. Бодуэна де Куртенэ, 2000, 308 с.
8. Дейк Т.А., Кинч В., Стратегии понимания связного текста; «Новое в зарубежной лингвистике», М.: «Прогресс», 1988, вып. XXIII, когнитивные аспекты языка. с.153-211

9. Кожина М.Н., Дускаева Л.Р., Салимовский В.А. Стилистика русского языка. М.: Наука; Флинта, 2009, 680 с.
10. Патюкова Р. В. К вопросу о дифференцированных отношениях между дискурсивными сферами // Вестник Челябинского государственного университета. Челябинск: 2010, № 42. с. 97-103
11. Руберт И. Б. Текст и дискурс: к определению понятий: сб. науч. ст. СПб., 2001, с. 23-36

Aysel Shukurova

The interaction of "discourse", "text" and "communication" concepts

SUMMARY

The given article is dedicated to the interpretation of the concepts Discourse, Text and Communication. Discourse, Text and Communication interaction are the most studied topics in modern linguistics. The author of the article describes the main characteristics of these notions. There is an interaction between "discourse", "text" and "communication". Text is considered as the static component and discourse is reviewed as the dynamic part of communication. According to the author, being a social experience, discourse should be considered as a broader phenomenon than the text. Communication, communicative space, texts, speech acts and extra features are the composite parts of the discourse. It was pointed out that, discourse is not only a social experience, but also a social mind which emerged and developed in the process of people's common experience.

АЙСЕЛЬ ШУКЮРОВА

ВЗАИМОДЕЙСТВИЕ ПОНЯТИЙ "ДИСКУРС", "ТЕКСТ" И "КОММУНИКАЦИЯ"

РЕЗЮМЕ

Данная статья посвящена интерпретации понятий "дискурс", "текст" и "коммуникация". Взаимодействие дискурса, текста и коммуникации является наиболее изученными темами в современной лингвистике. Автор статьи описывает основные характеристики этих понятий. Есть взаимосвязь между дискурсом, текстом и коммуникацией. Текст рассматривается как статическая составляющая, а дискурс рассматривается как динамическая часть общения. По мнению автора, будучи социальным опытом, дискурс следует понимать как более широкое явление, чем текст. Сообщения, коммуникативное пространство, тексты, речевые акты и дополнительные черты являются составными частями дискурса. Было отмечено, что дискурс является не только социальным опытом, но и социальным сознанием, которое возникло и развивалось в процессе социального опыта людей.

RƏYÇİ: filologiya elmləri doktoru, professor, Əfqan Əli oğlu Abdullayev

KƏNAN BƏŞİROV
kbesirov@qu.edu.az / kananbashir@gmail.com

ŞƏXS VƏ İŞARƏ ƏVƏZLİKLƏRİNİN MÜRƏKKƏB SİNTAKTİK BÜTÖVLƏRİN ƏMƏLƏ GƏLMƏSİNDƏ ROLU

Açar sözlər: Azərbaycan dili, dilçilik, mürəkkəb sintaktik bütövlər, şəxs əvəzlikləri, işarə əvəzliklər
Key words: Azerbaijani language, linguistics, phrase types, personal pronouns, sign pronouns
Ключевые слова: Азербайджанский язык, лингвистика, сложно синтаксические целое, лицо местоимений, знак местоимений

Mürəkkəb sintaktik bütövün (MSB) komponentlərinin bağlanmasında əvəzliklərin xüsusi rolu vardır. Əvəzliklərin xüsusiyyəti, digər nitq hissələrindən fərqli olaraq ümumilik ifadə etməsidir. Onlar şəxs, əşya, əlamət və s. ifadə edən sözlərin yerini tutur. Əvəzliklər daha əvvəl işlədilmiş hər hansı bir sözü, ifadəni, cümləni, MSB-ni təmsil etdiyi kimi, böyük bir mətni də ifadə edə bilir. Buna görə də onlar sadəcə MSB-nin komponentlərini deyil, MSB-ləri də bağlayan əhəmiyyətli vasitələrdir.

"Əvəzliklər öz leksik mənalarını itirmədən istər baş və budaq cümlələrin qrammatik cəhətdən bağlanmasında, istərsə də müstəqil cümlələr arasında məzmun və quruluşca əlaqə yaratmaqda yaxından iştirak edir. Bu, hər şeydən əvvəl əvəzliklərin bir nitq hissəsi kimi ümumilik və mücərrədlik bildirməsi ilə əlaqədardır. Cümlə içərisində çıxış edən əvəzlik daxili məzmuna, real mənaya malik olmadığından çox vaxt budaq cümlə və ya ayrıca müstəqil cümlə vasitəsilə aydınlaşdırılır, konkrektləşdirilir. Buna görə də tərkibində əvəzlik olan cümlə onu aydınlaşdıran cümlə ilə sıx əlaqədə olur..." [6, 67-68]

Əvəzliklərə sadəcə təkrardan qaçmaq üçün istifadə edilən bir vasitə kimi baxmaq doğru deyildir, onlar müstəqil bir vasitədir. Əvəzliklər MSB-lərdə aşağıdakı funksiyaları daşıyır:

- Mürəkkəb cümlənin tərəflərini bir-birinə bağlayır;
- Müstəqil cümlələr arasında əlaqə qurur;
- MSB-lər arasında əlaqə qurur.

MSB-nin komponentlərinin bağlanmasında əvəzliklərin, ümumilikdə, bütün növləri iştirak edir:

Şəxs əvəzlikləri

Şəxs əvəzlikləri MSB-nin komponentləri və MSB-lər arasında əlaqə vasitəsi kimi istifadə edilərək mətnə yeni məna çalarları verir.

Aşağıdakı MSB-də **mən** əvəzliyi **sən** və **o** şəxs əvəzlikləri ilə işlənərək cümlələri bir-birinə bağlamaqla bərabər mətni yeni məna çalarları ilə

zənginləşdirmişdir. **Mən** əvəzliyində öyünmə, özünü əhəmiyyətli görmə mənaları hiss edilir:

Sərvər az qaldı ki, uşaq kimi ağlasın.

*– Bəs **mənim** barəmdə bir söz demədi?*

– Dedi. Dedi ki, gəzib dolansın, çıxıb getsin kəndə. Dedi, ondan alver eləyən çıxmaz.

Sərvər səsi gəldikçə bağırdı:

*– Bəs **mənim** pullarım, bəs **mənim** şeylərim?!*

Teymur heç halını da pozmadı:

*– **Mən** pul işini bilmərəm, – dedi, – onu özünüz bilərsiniz. **Mənə** söz tapşırıblar, **mən** də sənə deyirəm… Dedi ki, tək gün getsin, cüt gün getməsin. O günlər Əjdərin tanış pravadniki var – yeddinci vaqonda. Dedi ki, bilet-zad almasın, vaqonun pravadnikinə səni tapşırıbdır. Poyez gecə bir tamamda gedir, pravadnikə Əjdərin adını verəcəksən… Yeddinci vaqon, yadından çıxmasın…ÜRƏK MSB 22 [9, 108]*

İkinci şəxsin təkini bildirən **sən** əvəzliyi birinci şəxsin təkini bildirən **mən** əvəzliyi ilə qarşılıqlı şəkildə işlənir və dialoq əmələ gətirir, eyni zamanda MSB içində əlaqəni qurur:

Donmuş sahil yolunu xırçıldada-xırçıldada onlar bir müddət də səssiz-səmirsiz yeridilər. Sonra Əjdər özünü bir skamyanın üstünə saldı:

– Saat neçədir?

– Birin yarısıdır.

– Az qalıb ki!

– Nəyə az qalıb?

– Poyezdin getməyinə.

*– Axı **sən mən**i niyə qovursan burdan?.. Pullarımı xərclədiyin üçün?*

*– Xeyr, bilirəm ki, **sən** burda ilişərsən, özü də tez ilişərsən.*

– Bəs Teymur niyə ilişmir?

– Teymur heç vaxt ilişməyəcək.

*– Bəs **mən** niyə ilişirəm ki?*

*– Çünki **sən** satqın deyilsən!*

Yenə həmin xırıltılı nəfəs, yenə həmin fısıltı, həmin dilxorçuluq. Üstəlik Əjdərin gözləri də qızarıb, get-gedə qan çanağına dönürdü. Və Sərvərin Əjdərə bərk yazığı gəlirdi. Sərvər çaşıb qalmışdı: çıxıb getsinmi, necə getsin? Qalsın, nədən ötrü qalsın? Əjdərdən ala biləcəyi puldan o, hələ restoranda ümidini üzmüşdü.

Sərvər birdən-birə saatına baxıb:

– Gedirəm, - dedi.

– Düz deyirsən?

*– **Mən sən**i birdən-ikiyə aldatmışam?*

Əjdər ayağa durdu:

*– Pulların pravadnikdədir, – dedi – Yeddinci vaqon– Teymur deyib **sən**ə. Beş yüz manatdır, rayona çatanda alacaqsan. Bu küçə ilə düz gedib vağzalın qabağına çıxacaqsan. Di, yeri get. **Mən** xarabam, çox xarabam, **mən sən**nən vağzala gedə bilməyəcəyəm…ÜRƏK MSB 31 [9, 113-114]*

O əvəzliyi, ümumiyyətlə, təkrardan qaçma vasitəsi olaraq istifadə edilir. Aşağıdakı nümunədə MSB-nin ilk cümləsində işlənən **Sərvər** sözünün yerini həmin mürəkkəb cümlənin üçüncü və beşinci cümlələrində **o** əvəzliyi tutmuşdur:

*1. O gün Sərvər axşamacan şəhəri dolandı, axşam evə qayıdıb Əjdərin yolunu gözlədi, çünki **onun** fikrincə Əjdər o axşam mütləq bu evə gəlməli idi. 2. Ancaq o axşam Əjdər o evə gəlib çıxmadı; onun səhərisi də Əjdər o tərəflərdə görsənmədi. 3.Sərvər günortayacan gözlədi. 4. Günorta bazara cumdu, ancaq orada da Əjdəri tapmadı. 5. **O**, bazarda öz şeylərini də tapmadı; bazarı əldən-ayaqdan saldı, dünən şeylərini tapşırdığı o adam da elə bil əlli-ayaqlı göyə çəkilmişdi… 6. Əjdərin yer-yurdunu öyrənmək üçün bazardan Marqo avradın evinə qayıdanda yol boyu Sərvər çox fikirləşdi, çox baş sındırdı, ancaq bu işdən heç nə anlaya bilmədi. 7. Üstəlik, Marqo arvad da Əjdərin yerini demədi. 8. Elə bil qəsdən demədi. 9. Əlac bircə Teymura qaldı və o gün axşamüstü bazar bağlanana yaxın, Kömürçü bazarında Sərvər Teymurun üstünü kəsdirdi:*

– 10. Ə, Teymur, Əjdəri görməmisən ki?

– 11. Görmüşəm. 12. Səhər tezdən Tiflisə getdi.

– 13. Necə yəni Tiflisə getdi?

– 14. Getdi də. 15. Necəsi yoxdu ki. ÜRƏK MSB 21 [9, 107-108]

Biz, **siz** və **onlar** şəxs əvəzlikləri MSB içində ən az iki şəxsi göstərərək ümumilik ifadə edir. Belə olduqda həm mətni təkrara yol verilmir (iki və ya daha çox şəxsin adı çəkilmir), həm də MSB-ni əhatə edir.

QIZIL MSB 39-da 3-cü cümlədə işlənən **ata** və **ana** sözləri 15 və 17-ci cümlələrdə **biz** əvəzliyi ilə əvəzlənmişdir:

*1. Oğlanlardan biri cəsarətlənib yarıdan çoxu qəbirdə olan ilanın quyruğundan yapışmaq istədi.2. Qoymadı və birdən onun ağlına dəhşətli bir fikir gəldi. 3. Bəlkə bu qızıl ilan **atasının**, ya da **anasının** ruhu idi. 4. Axı deyirlər insan öləndə onun ruhu heyvanların sifətində yenidən peyda olur və buna görə də hindlilər heyvanlara toxunmurlar. 5. Dəhşət idi. 6. Bu fikir onun ağlına hardan gəldi? 7. Niyə məhz ilan şəklində, özü də qızıl ilan cildində onu qarşılamışdılar? 8. Yoxsa ondan incimişdilər? 9. Onları tək qoyduğuna, dədə-baba yurdunu atıb şəhərə getdiyinə görə ondan üz döndərmişdilər? 10. Axı son nəfəslərində gərək onların yanında olaydı, onların gözünü sığayaydı. 11. Bəlkə ona deyiləsi sözləri vardı, vəsiyyət edəcəkdilər? 12. Anası onu bir işə buyuranda həmişə "a çiynində gedim",— deyərdi. 13. "Bəs nə oldu, cənazəni götürəndə hara itib batdın? 14. Əvvəllər heç olmasa ayda-ildə bir dəfə üstümüzə gələrdin. 15. **Bizə** o saat əyan olardı ki, oğlumuz **bizi** yadından çıxartmayıb. 16. Amma sonra sinəmizin üstünə bir daş, başımıza da bir daş qoyub yoxa çıxdın. 17. Bəs indi gün hardan doğub,*

bizi *nə yaxşı yada salmısan?! 18. Yoxsa, özünə yer axtarırsan, yanımıza gəlmək istəyirsən? 19. Gec deyilmi, oğul? 20. Gəlmə, məsləhət bilmirik. 21. Gəlsən ruhumuz səni tas-tas eləyəcək, qızıl ilana dönüb üstünə atılacaq və adamların ayağı qəbiristanlıqdan çəkilməmiş sürünüb gözlərini yeyəcək". QIZIL MSB 39 [11, 457-458]*

siz

Aşağıdakı MSB-də **siz** əvəzliyi ilə "Əsmər və anası" ifadə edilərək həm əvvəlki cümləyə, həm də ana və qızı haqqında danışılan GÜRCÜ MSB 23-ə [4, 362-363] işarə edilmişdir:

– İçəri şəhəri sökürlər. Köhnə evləri, küçələri...

– Sən nə danışırsan, – onun üzündə dəhşət ifadəsi vardı. – Ola bilməz. Bu, tarixdir, keçmişdir. Başa düşürsən, İçərişəhər memarlığın folklorudur, onu əsrlərlə tikiblər, müxtəlif nəsillər, müxtəlif adamlar.

– Bilirəm, bilirəm, əzizim. Hər halda axı mən də memaram. Deyirsən ki, İçəri şəhər memarlığın folklorudur. Bunların hamısını mən bilirəm. Amma bir məsələ də var... Axı... adamlar belə bir şəraitdə yaşaya bilməzlər. Bu köhnə evlər, əyri üyrü küçələr, natəmizlik...

– Düzdür, düzdür, razıyam sənin lə. Qoy adamları köçürtsünlər. Evlər isə qalsın.

– Gözəl fikirdir. Bizim müdir eşidəydi sənin bu sözlərini. Şəhərin tən ortasında böyük, boş, adamsız bir ərazi – sentimental uşaqlıq xatirələrinin abidəsi.

– Dayan, Oqtay, dayan görüm. Bəsdir yuyub apardın məni. Bura bax, deyəsən bu döngə mənə tanış gəlir. Hə də, əlbəttə, bax, bizim ev ordadır.

*– **Siz**in ev orda yoxdur. Söküblər.*

– Necə yəni söküblər? Anam rəhmətliyə təzə evdə mənzil verəcəkdilər, amma mən elə bilirdim ki, bu ev qalıb. GÜRCÜ MSB 45 [4, 370-371]

onlar

Onlar şəxs əvəzliyi də MSB içində ən az iki şəxsi ifadə edir:

*1. O, müharibədə olarkən tez-tez düşünürdü ki, Allah eləməmiş **atam**, ya da **anam** ölərsə və **onlar**ı mənsiz basdırsalar, ürəyim partlar. 2. Amma indi yarım sutqalıq yolda ola-ola **onlar**a əli çatmamışdı, son nəfəslərində başlarının üstündə olmamışdı.3.Bu da övlad, bu da oğul-uşaq! 4. Ayaqları yer tutan kimi baş alıb gedirlər, bir də boya-başa çatdıqları yurda qayıtmaq istəmirlər.*

*5. Axşamüstünə yaxın özünə təsəlli verdi: bəlkə elə belə yaxşıdır, **onlar**ı ölüm yatağında, kəfənə bürünmüş halda görmədiyim məsləhətmiş. 6. Mənim xəyalımda bütün ömrüm boyu **onlar** diri qalacaqlar.*

QIZIL MSB 27 [11, 453]

Yuxarıdakı nümunədə 1-ci cümlənin şərt cümləsi olan budaq cümləsinin ilk hissəsindəki **ata** və **ana** sözləri həmin cümlənin ikinci cümləsində və 2, 5, 6-cı cümlələrdə **onlar** əvəzliyi ilə əvəzlənərək mətni təkrardan xilas etmişdir.

İşarə əvəzlikləri

O işarə əvəzliyindən istifadə edildiyi zaman həm MSB-ni qapayır, həm də mövzunun uzanmamasını təmin edir. Bəzən **o** əvəzliyinin yerinə **bu** əvəzliyindən istifadə edilməsi müxtəlif məna çalarları əmələ gətirir. İfadə edilmiş bir fikri **o** və **bu** əvəzliklərinin vasitəsilə mətnin sonrakı cümlələrinə bağlamaq mümkündür. Bu, dildə yersiz təkrarın qarşısını alan ən önəmli vasitədir.

o

Aşağıdakı MSB-də **o** işarə əvəzliyi ilə "Nargin adası" ifadə edilmişdir:

"Qırğızıstan" açıq dənizə tərəf yönələrək uzun uzadı fit verdi və bu fit səsi aramla şəhərin, dənizin üzərinə axıb əriyirdi.

– O adanın adı nədir? – Əsmər əlini üfüqə tərəf uzatdı.

– Nərgiz.

– Nərgiz?

*– Əsil adı Nargindir. Amma mən **ona** Nərgiz deyirəm.*

*– Hə, hə, Nargin. Yadıma düşdü. Uşaqlıqda **o** mənə çox sirli və əfsanəvi görünürdü. Elə istəyirdim ki, bir ora gedim. Ora getmək olar?*

*– İstəyirsən dəniz gəzintisinə çıxarıq. Adaya çıxmayacağıq, amma **onu** lap yaxından görəcəksən.*

– Nə yaxşı, gedək də onda.

– Axşam gedərik. Daha romantik olsun. – Hiss elədim ki, istehza ona toxundu.

– Gedək, – dedi.

– Gedək. Ya bəlkə bir şey istəyirsən?

– Yox, yox, nə danışırsan? Bilmirsən arıqlamaqçün nə müsibət çəkmişəm. İndi, deyəsən, normadayam. Elədir?

– Yüz faiz.

– Mən yoq sistemiylə arıqlayırdım. Bilirsən yoq sistemi nədir? GÜRCÜ MSB 35 [4, 366-367]

İşarə əvəzlikləri özlərindən əvvəlki bir neçə cümləni və MSB-nin bir hissəsini təmsil edə bilirlər.

bu

Taksinin arxa yerində oturmuşduq, o, geri qaçan aeroport binasına, yola, hündür çıraqlara hərisliklə baxırdı.

*– Əcəb qiyamət aeroportdur. Lap Beyrutdakı aeroporta oxşayır. Çoxdan tikiblər **bunu**?*

– Üç il olar, – dedim. – Bəlkə bir deyəsən görüm axı...

– Bu saat, bu saat, hirslənmə. Bilirsən səni görməyimə necə şadam.

Elə səni görməkçün gəlmişəm də...

"Belə olsaydı nə vardı ki – deyə düşündüm, – bu cür xoşbəxtliyə inanmaq olar? Özü də belə asan?"

– Çox gözəl,– dedim. Yaxşı, bəs niyə belə gizlin, sirli?

– Əcəb işdir, – deyə, təəccübləndi və pıçıltıya keçdi. – Mən ərli arvadam, ilk eşqimin vüsalına gəlmişəm, deyirsən bəs heç bir sirr-zad olmasın? GÜRCÜ MSB 9 [4, 358]

Yuxarıdakı nümunədə 4-cü cümlədə işlənən bu əvəzliyi 1, 2 və 3-cü cümlələrin hər üçünü ifadə etmişdir.

Bəzən **o** və **bu** işarə əvəzlikləri işləndiyi MSB-ni özündən əvvəlki MSB-ə bağlayır.

o

Aşağıdakı nümunədə **o** işarə əvəzliyi işləndiyi MSB-ni "toyuq oğurluğu"ndan bəhs edilən əvvəlki MSB-yə – ÜRƏK MSB 5-ə [9, 100-101] bağlamışdır:

*Ağalar kişi **o** fərə oğrusunu heç vaxt görə bilmədi, onu Sərvər gördü; gecələrin birində oğru özü öz ayağı ilə gəlib çıxdı. Özü də bostanın lap ortasına, çardağın lap yanına… Ağalar kişi yatmışdı, xoruldayırdı, ancaq Sərvər yatmamışdı, çardaqda üzüqoylu uzanmışdı, aşağıda ayın süd kimi işığında bozumtul tağlar boyunca ağara-ağara səpələnib gedən yemişlərə baxırdı. Birdən Sərvər arxa tərəfdən öz adını eşitdi. Diksindi, qorxdu və elə diksindi, elə qorxdu ki, qışqırıb atasını oyatmağa da səsi-nəfəsi gəlmədi. Sonra o, aşağıdan, dirəyin dibindən pıçıltı eşitdi: "Ə, səs salma, aşağı düş, mənəm, Əjdərəm, qorxma…" Ancaq Sərvər elə qorxmuşdu ki, heç tərpənməyə də halı qalmamışdı. O, handan-hana birtəhər dikələ bildi, çardağın bu tərəfinə keçib altda, dirəyin dibində əlini ağzına qoyub, bütün vücudu ilə Sərvərə "sus" deyib dayanmış uzun və arıq Əjdəri gördü. ÜRƏK MSB 6 [9, 101]*

Bənzər funksiya ilə işlənən **belə, elə** əvəzlikləri, əsasən, özünə yaxın olan komponenti göstərir. Bu əvəzliklər həm özündən əvvəlki, həm də özündən sonrakı cümlə və cümlələri, yaxud MSB və MSB-ləri ifadə edə bilir.

elə, belə

Yaxın mənada işlənən **elə**, **belə** əvəzlikləri, əsasən, özünə yaxın olan komponentləri göstərir. Bu əvəzliklər baş cümlədə işlənərək köməkçi cümləni təmsil etmək surətilə mürəkkəb cümlənin qurulmasına kömək etdiyi kimi özündən əvvəlki cümləni ifadə edərək müstəqil iki cümlə arasında da əlaqə qura bilir.

*...O axşam, Aprelin 29–da bizdən dağılışanda, mən də hamıyla birlikdə çıxdım. Əsməri ötürəcəkdim. Bir az geri qaldıq uşaqlardan, birdən tinbaşında Əsmərin çəkməsinin dabanı çıxdı. Mən maşın saxladım və ömrümüzdə bəlkə də ilk dəfə taksiyə mindik. Özümü **elə** itirdim ki, sağa əvəzinə, sola gedək dedim.*

Əsmər:

– Buğda, arpa, – dedi.

*Bizim idman müəllimimiz **belə** deyərdi. Məşqlər zamanı bir adam tələsəndə, sağla solu çaşdıranda idman müəllimimiz deyərdi ki, solu sağı yadında saxlaya bilmirsənsə, yadında saxla arpa bu yana, buğda o yana. Bu da onun zarafatı idi. Biz taksiylə Əsmərgilin evinə çatıb maşından düşdük. Qapılarının ağzında*

ayrılanda Əsmər birdən diqqətlə (indiki vaxtım olsaydı deyərdim ki, işvəylə) mənə baxıb xəbər aldı:

– Bəs sən mənə bir şey demək istəmirsən?

Yenə də görünür ki, fikir axınımız bir mənzilə çatdı və Əsmərin sözlərinə bu səfər də təəccüblənmədim:

– Yadında o axşam mənim çəkməmin dabanı çıxmışdı, sən də məni ötürürdün. – Bir az susandan sonra əlavə etdi. – Hər şey başqa cür ola bilərdi.

Ancaq mən keçmişi çözələmək istəmirdim. Uşaqlıqdan biz daima nə isə itiririk. Bəzən adam lap mat qalır. Adam harda, haçan bu qədər şey yığıb ki, elə hey itir- itirə yenə də nə isə saxlayır. GÜRCÜ MSB 54 [4, 374-375]

Eyni əvəzliyi, eyni zamanda, başqa bir hadisəyə və ya eyni anda mövcud olan başqa bir məfhuma işarə edərək cümlələri və MSB-ləri əlaqələndirir. Aşağıdakı MSB-nin başında "vaxt" sözü ilə bərabər işlənən **eyni** əvəzliyi özündən əvvəlki MSB-yə – ÜRƏK MSB 4-ə [9, 100] zaman məfhumu baxımından işarə etmişdir:

*Və **eyni** vaxtda da o, Əjdəri və Əjdərlə bağlı olan əhvalatı xatırladı. Əhvalat isə çoxdanın əhvalatı idi, yeddi-səkkiz ilin əhvalatı…Yay idi, qovunun təzəcə ağaran vaxtı idi. Və o yay qovunun təzəcə ağardığı vaxt, gecələrin birində Xanım arvadın bostanda, dəmir tor arasında saxladığı fərələrdən biri yoxa çıxdı. Fərənin yoxa çıxmağı səhər bilindi və o səhər Ağalar kişi ilə Sərvər bostanın dörd yanını gəzib ayaqdan saldılar, ancaq heç yerdə toyuq tükü, toyuq nişanəsi tapmadılar. O biri gecə bir fərə də yoxa çıxdı. Bu dəfə Ağalar kişi gecəni yatmayıb, səhərəcən hinə keşik çəkməyi qərara aldı. Əlində tüfəng, kolların arasında gizləndi, ağacların dalında pusdu, ancaq onun səhərə yaxın dözməyib, oturduğu yerdə bir balaca mürgüləməyi ilə səhər hindən bir toyuq da qeyb olub, əlli-ayaqlı göyə çəkildi. Ağalar kişi möhkəm dilxor oldu, çünki bu, yaxşı əlamət deyildi; çünki bu iş, heç şübhəsiz, adam işi idi- yer üzünün heç bir heyvanı o dəmir torun arasından toyuq apara bilməzdi. Bir də bu söhbət təkcə toyuq söhbəti deyildi, burada adama sataşmaq məsələsi vardı. Və bu cür adama sataşmağın axırı çox pis qurtara bilərdi, çünki bu gün-sabah qovun yetişirdi. Ağalar kişi çox fikirləşdi, kənddəki düşmənlərini çox götür-qoy elədi, hətta üç-dörd qonşu kəndin şübhəli hesab elədiyi cavanlarını da ürəyində birbəbir sayıb-sadaladı, ancaq heç bir dürüst qənaətə gələ bilmədi. ÜRƏK MSB 5 [9, 100-101]*

Həmin əvəzliyi də **o**, **bu** işarə əvəzliklərinin funksiyasında işlənir. Bu nümunədə **həmin** əvəzliyi özündən əvvəlki cümlədəki "işıq" sözünü göstərərək cümlələri əlaqələndirir:

*Başmaqlarını geyindi. Pəncələrinin üstündə dəhlizə çıxdı. Gözü uşaqlarının yataq otağına sataşdı. Pəncərədən içəri solğun işıq düşmüşdü. **Həmin** işıqda gördü ki, oğlanlarından biri ağzüstə uzanmışdır. Ayaqları təkcə yorğandan deyil, çarpayıdan da kənara çıxmışdı. O birisi isə dizlərini qarnına yığıb büzüşmüşdü. Axşamdan böyrü üstə necə uzanmışdısa eləcə də qalmışdı. Dayandı. Balalarına*

qibtə ilə baxdı. Bilirdi ki, əgər onları oyatmasan, düz günortayacan beləcə yatacaqlar. İş otağına keçdi. Buraya gələndə həmişəki kimi özünü bir az yüngül hiss etdi. Pənçərəni açdı. Şəhərin işıqları sönsə də hava aydın idi. Dənizin ləpələri işıldayırdı. Nargin tərəfdəki mayaq həmişəki kimi yanıb sönürdü. Sahildəki ağaclar mürgüləyirdi. Küçələrdə təkəm seyrək şütüyən maşınların təkər şırıltısından başqa gecənin sükutunu heç nə pozmurdu... QIZIL MSB3 [11, 447]

ƏDƏBİYYAT

1. Abdullayev, Kamal. **Azərbaycan dili sintaksisinin nəzəri problemləri**, Bakı: Maarif, 1998.
2. Abdullayev, Əfqan. **Aktual üzvlənmə və mətn**, Bakı: Xəzər Universiteti nəşriyyatı, 1998.
3. Abdullayev, Kamal. **Mətn dilçiliyi**, Bakı: ADU-nun nəşri, 1974.
4. Anar. **"Gürcü familiyası"** hekayəsi, Əsərlər, I cild. Bakı: Nurlan nəşriyyatı, 2003.
5. Gürsoy-Naskali, Emine. **Türk Dünyası Gramer Terimleri Kılavuzu**, Ankara: TDK Yayınları, 1997.
6. Xəlilov, Əbdülmənaf. **"Əvəzliklərin müstəqil cümlələr arasında əlaqə yaratmaqda rolu"**, Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri-Ədəbiyyat, dil və incəsənət seriyası, N 1, Bakı: 1969.
7. İsrafilova, Rəxşəndə. **"Şəxs əvəzliklərinin semantikası**", Müasir azərbaycan dilinin semasiologiyası, Bakı: Elm nəşriyyatı, 1985.
8. Kazımov, Qəzənfər. **Müasir Azərbaycan dili**, Bakı: Nurlan nəşriyyatı, 2008.
9. Naibov, Əkrəm. "**Ürək yaman şeydir"** hekayəsi, Seçilmiş əsərləri, II cild. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1987.
10. Novruzova Nuridə. **Mətn sintaksisi**, Bakı: Təhsil nəşriyyatı, 2002.
11. Şıxlı, İsmayıl. **"Qızıl ilan"** hekayəsi**,** Seçilmiş əsərləri, II cild. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1986.
12. Vəliyev, Kamil. "**Cümlənin semantik üzvlənməsi**"**,** Azərbaycan dilçiliyi məsələləri**,** Bakı: ADU-nun nəşri, 1981.
13. Vəliyev, Kamil. **Linqvistik poetikaya giriş**, Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989.

BASHIROV KANAN

THE PERSON AND SIGN PRONUNS ROLE IN THE FORMATION OF PHRASE TYPES

SUMMERY

Phrase types is one the new and important areas of grammar. In phrase types sentences are compiled around the smallest concepts. This group requires some conceptions and grammar criteria.

Among the grammatical means that form relations between components of phrase types pronouns are of highly important. Not only with the ability to express common pronouns in sentences, but also connects phrase types to each other. In this study, the role of the person and sign pronuns in the emergence of phrase types has been explained by examples.

Баширов Kanan

РОЛЬ МЕСТОИМЕНИЙ ЛИЦ И МЕСТОИМЕНИЙ ЗНАК В ФОРМИРОВАНИИ СЛОЖНО СИНТАКСИЧЕСКИЕ ЦЕЛИ

РЕЗЮМЕ

Сложно синтаксические цели является одним из самых новых и важных сферой нового современного языкознания. Сложная синтаксическая целинах смысл фразы самый младший объединяется вокруг. Компоненты сложно синтаксические цели увязывается семантическими и грамматическими средствами. Грамматические средства, составляющие части речи между местоимение еще велика роль. Местоимение выражение общность, с чем особенность предложения, даже сложно синтаксические цели также связывают друг с другом. В этом занятии роль лиц и местоимения знак в возникновении сложно синтаксические цели примерами разъяснены.

Rəyçi: Mayıl Əsgərov
Filologiya elmləri doktoru

Fil.f.d. SEYİDOVA V. M
ADU

ANTROPONİMLƏRDƏN ƏMƏLƏ GƏLƏN QASTRONOMİK VAHİDLƏRİN FRANSIZ DİLİNDƏN TƏRCÜMƏ YOLLARI

Açar sözlər: antroponymes – antroponimlər, gastronomie - qastronomiya, culinaire - kulinariya, repas –yemək, tradition – adət - ənənə.
Ключевые слова: antroponymes - антропонимы, gastronomie - гастрономия, culinaire - кулинария, repas – блюдо, tradition - традиция .
***Key words*:** antroponimes - antroponimlər, gastronomy - qastronomiya, culinary - kulinariya, dish – yemək, tradition - adət - ənənə.

Müasir nominativ proseslərin səciyyəvi xüsusiyyətlərindən biri insan əməyinin nəticəsi olan məhsulların (artefaktlar) və əşyaların antroponimlərlə adlandırılması hallarının ənənə halını almasından ibarətdir. Müasir dövrdə antroponimlərin işlənmə sahələri coxşaxəli olmuşdur. Yer adlarını, su hövzələrini, heyvan adlarını və s. ifadə etmək üçün də həmçinin antroponimlərdən istifadə olunur. Bunlara misal olaraq fransız dilində Martin (quş), Azərbaycan dilində Sabirkənd və s. adları göstərmək olar.

Lakin bizim tədqiqat obyektimiz qastronomik vahidlər olduğu üçün çalışacagıq ki, bu vahidlərə antroponomik adların verilmə xüsusiyyətlərini və onların tərcümə yollarını araşdıraq.

Xörəklər adət-ənənə, sosial-psixoloji və estetik münasibətləri özündə cəmləşdirdiyi üçün fransız mədəniyyətini daha dolğun təcəssüm etdirən fenomenlərdən biridir.

Antropoloji nöqteyi- nəzərdən qida ilk istehlak məhsulu olmuşdur, illər keçdikcə cəmiyyətin estetik və texniki inkişafına uyğun olaraq o da əhəmiyyətli dərəcədə struktur dəyişikliyinə uğramışdır.

Antroponimlərdən əmələ gələn fransız yemək adlarını struktur-semantik cəhətdən təhlil edərkən bu dəyişikliyin hər hansı bir yemək növünün daha təmtəraqlı təqdim edilməsi qanunauyğunluqlarından irəli gəldiyini aşkar etmək mümkündür. Belə olan halda, əlbəttə ki, bu adların fransız dilindən digər dillərə tərcüməsi zamanı da müxtəlifliklər və çərinliklər meydana çıxır.

Təhlil obyekti olan fransız antroponimlərindən əmələ gələn yemək adlarını struktur-semantik cəhətdən aşagıdakı qruplara bölmək olar:

Birinci qrupa daxildir:

1. Təktərkibli - xüsusi isimlərdən əmələ gələn qastronomik vahidlər. Məs. *Le Chateaubriand* – Şatobrian.

2. Cüttərkibli- ümumi və xüsusi isimlərdən əmələ gələn qastronomik vahidlər. Məs. *Le beurre Colbert – Kolber yağı, la crème Beauvoir – Bovuar*

kremi, la glace Cannen – Kanen dondurması, le gâteau Colette – Kolet peçenyesi, ***la pâte*** *Savarin – Savarin piroqu (tac formalı piroq),* ***les ananas*** *Suzette –Süzet ananası,* ***la sauce*** *Soubise –Subiz sousu,* ***les fruits*** *Mèlba- Melba meyvəsi etc.*

İkinci qrupa sözönlü ifadələrdən ibarət mürəkkəb tərkibli təsviri-predikativ vahidlər daxildir:

1. Yeməyin hazırlanma texnikasını ifadə edən və *à* sözönü ilə əmələ gələn konstruksiyalar - *le gigot à la Mirabeau* – Mirabo budu;

2.Yeməyin mənşəyini göstərən və *de* sözönü ilə əmələ gələn konstruksiyalar - *le perdrix du Colbert* – Kolber kəkliyi;

3. Xüsusi hazırlanma üslubunu ifadə edən və « *à la façon de»* ifadəsi ilə əmələ gələn konstruksiyalar - *les côtelettes à la façon de Grimod de la Reynière* – Qrimo dö la Reyner üslubu ilə hazırlanmış kotlet;

4. Xüsusi hazırlanma metodunu ifadə edən və *«à la manière de»* ifadəsi ilə əmələ gələn konstruksiyalar - *les figues à la manière d'Escoffter* – Eskofter metodu ilə hazırlanmış əncir.

Ümumilikdə klassik antroponimik yemək adları iki qrupa bölünür: bu yeməklərin yaradıcılarının adlarını və ya qeyri-adi insanların adlarını daşıyanlar:

1.Yeni ərzaqların yaradıcılarının adlarını daşıyanlar - *les Praslines* – Pralin (şəkərlənmiş və qızardılmış badam-III Ludovikin hakimiyyəti dövründə hersoq Plessinin aşbazı Kleman Jalüzo badamı təsadüfən qənd şirəsinin içərisinə salır və fransız mətbəxi üçün yeni bir radikal ərzaq əldə edir).

2. Həmin məhsulu ixtira edənin adını daşıyanlar - *la Clémentine* – Pomerans (acı narıngi) və mandarin ağaclarının peyvəndindən əmələ gələn meyvə (Rahib Kleman ata Bu meyvəni Əlcəzairdən missionerlik fəaliyyətindən qayıdarkən Fransaya gətirmiş və ona bu adı özü vermişdir).

3. Bu yeməyi ilk dəfə hazırlayan aşpazların adını daşıyanlar - *la fraise Vatel* – Vatel çiyələyi (Desertin müəllifi əvvəl Nikol Fukenin, sonra isə şahzadə Kondenin eşikağası isveç mənşəli Fransua Vatel(1631-1671) olmuşdur.

4. Bu yeməyin ilk dəfə təqdim olunduğu evin sahibinin adını daşıyanlar - *filet de boeuf d'Agnès Sorel* – Anyes Sorel mal əti filesi (Anyes Sorel, VII Karlın sevgilisi. Kral ona le Chateau de Beauté qalasını hədiyyə etmişdi. O bu qalada ballar təşkil edər və qonaqlıqlar verərdi).

İkinci qrupa müxtəlif fəaliyyət sahələrində məşhurlaşmış qeyri-adi insanların adlarını daşıyan vahidlər daxildir:

1. Tarixi şəxsiyyətlərin adlarını daşıyanlar - *le garnir Talleyrand* – Taleyran qarniri (Qarnir XVIII əsr məşhur fransız siyasətçisi və diplomatı Şarl Moris Toleyranın şərəfinə adlandırılmışdır).

2. Müəyyən bir fəaliyyət sahəsində tanınmış yaradıcı insanların adlarını daşıyanlar - *la crème de Rossini* – Rosini kremi (XVIII əsr məşhur italyan bəstəkarı).

3. Xristianlıqda kilsə xadimləri və dini şəxsiyyətlərin adlarını daşıyanlar - *la coquille Saint-Jacques* – Müqəddəs Jak balıqqulağı (Katolik dinində xüsusi hörmətə malik və İssus Xristosun əshabəsi).

4. Kral ailəsinin adlarını daşıyanlar - *le potage à la Condé* – Konde şorbası (Fransa ordu generalı XI Henrinin oğlu 4-cü şahzadə II Lüdovik Konde).

Müasir yemək adlarının içərisində yemək müsabiqələrində ad qazanmış şəxslərin adları ilə adlananlara da rast gəlmək olur:

1. *La selle d'agneau de Léa Linster* – Leya Linsterin quzunun bel ətindən hazırladığı yemək (1989-cu ildə Bocuse d'Or mükafatı laureatı adını alan Lüksemburqlu Leya Linsterin adını daşıyır). [CVF №110, 2007, c.38].

2. *Le boeuf aux carottes d'Adrienne* – Adrian köklə mal ətindən hazırlanmış yemək (bu yemək növü Parisdə yüksək keyfiyyətli mətbəxi ilə məşhur olan «Chez la vieille» restoranının sahibi baş aşpaz Adrianın adını daşıyır). [CVF №96, 2006, c.67].

Müasir yemək adlarını fərqləndirən xüsusi bir cəhət də onların "mediyativ" xarakterli olmasıdır. Bu yeməklər kulinariya şouları zamanı hazırlanır və onu hazırlayanın adı ilə adlandırılır: *le jambon de Bayonne à la Benoît Malin* – Bönua Molen Bayon budu (bu yemək növünün müəllifi kulinariya verilişinin aparıcısı, aşpaz Bönua Molendir). [http://ww\v.cuisine.tv].

Müasir dövrün məşhur insanlarının adını daşıyan yeməkləri aşağıdakı qruplara bölmək olar:

Məşhur siyasi xadimlərin, eyni zamanda siyasi liderlərin adını daşıyanlar - *la soupe V.G.E., la soupe Valéry Giscard d'Estaing* – Valeri Jiskar D`Esten supu [http://mvw.gastronom.ra]; *la sauce d'Auriol* – Oriol sousu (sous II Dünya müharibəsindən sonra ilk prezidentin şərəfinə adlandırılmışdır) [www.recettes.guidegantie.com], *le perche à la Sarkozy* – sarkozi xanı balığı [http://www. ltv.ru] və s.

Dünyəvi şəxsiyyətlərin adlarını daşıyanlar - *la tarte aux prunes Marie de Tilly* – Mari dö Tilli gavalı piroqu. Piroq zərif davranışlar klubunun təsisçisi Mari dö Tillinin şərəfinə adlandırılmışdır. Bu klubda Qatar şahzadələrinə Yelisey sarayındakı qəbullar zamanı düzgün davranış qaydaları öyrədilirdi [http://w\vw.tatler.ru]; *le coeur fondant tout chocolat Gainsbourg* – Qensburq şokoladı. Desert Fransa kinomatoqrafiyasında "Sezar" mükafatına layiq görülmüş S. Qensburqun qızı aktrisa Şarlotta Qensburqun adı ilə adlandırılmışdır. [http://lichnosti.net].

Fransız kulinariyası sahəsində məşhur şou-biznes nümayəndələrinin də adlarına rast gəlinir - *le dôme au pamplemousse Badi* – Badi günbəz formalı qreypfrut. Desert müasir fransız artisti Ş. Badinin şərəfinə adlandırılmışdır. [http://vvww.750g.com/fiche_de_cuisine].

Fransız kulinariyasının tədqiqi və bu vahidlərin Azərbaycan dilinə tərcüməsi zamanı aşkar olur ki, fransız xalqı özlərinin milli adət-ənənələrini təcəssüm etdirən

yemək növlərini interpretativ surətdə hər hansı bir obraz və ya ada uyğun olaraq, ekvivalentliyə, oxşarlığa, uyğunluğa istinad edərək adlandırmışlar. Bu isə metaforik və ya metonimik üsulla həyata keçirilir. Elə bunun üçün də belə qastronomik vahidlərin digər dilə tərcüməsi zamanı çətinliklər meydana çıxır və tam ekvivalent tapılmadıqda izahlara üstünlük verilir. Bir qayda olaraq onomastik vahidlər digər dilə tərcümə zamanı ilk nominativ formasını saxladığına görə antroponimlərdən əmələ gələn yemək adları da fransız dilindən Azərbaycan dilinə tərcümə zamanı öz orijinal formasında qalır.

Ədəbiyyat siyahısı

1. CVF №110, 2007, c.38;
2. CVF №96, 2006, c.67.
3. http://ww\v.cuisine.tv.
4. www.recettes.guidegantie.com.
5. http://www. ltv.ru.
6. http://w\vw.tatler.ru.
7. http://lichnosti.net.
8. http://vvww.750g.com/fiche_de_cuisine.
9. Лопатникова Н. Н., Мовшович Н. А. Лексикология современного французского языка. Учеб. для ин-тов и фак. иностр. яз. -4-е изд., М.: Высш. шк., 2001. -247.
10. Новый Большой Французско-Русский фразеологический словарь. / Под ред. В. Г. Гака. - М., 2005.
11. Djabbarov Rachid . Lexicologie du français contemporain . Bakou, 2013.

СЕЙИДОВА В. М

ПУТИ ПЕРЕВОДА ГАСТРОНОМИЧЕСКИХ ЕДИНИЦ ОБРАЗОВАННЫХ С ПОМОЩЬЮ АНТРОПОНИМОВ

РЕЗЮМЕ

Данная статья посвящена гастрономическим единицам образованных с помощью антропонимов и пути их перевода с французского языка.

В статье описываются особенности наименований гастрономических единиц с помощью антропонимов, проблемы, созданные при переводе этих названий, использование предложных конструкций, имен людей победивших в кулинарных конкурсах, создателей этих продуктов, исторических личностей, семей королей, известных политических деятелей, а также имена политических лидеров при наименовании. В статье одновременно говорится об отличительной черте современных названий

гастрономических единиц – об их медиативной природе. Эти блюда готовятся во время кулинарных шоу и их называют именем автора.

Статья основывается на материалах сайтов из интернета и книг известных авторов-лингвистов, изучающих современный французский язык.

SEYIDOVA V. M

THE WAYS OF TRANSLATION OF THE GASTRONOMIC UNITS FORMED BY THE ANTHROPONYMS

SUMMARY

This article is about the gastronomic units created by the anthroponyms and used in the French linguistics during the long period of the development of the French vocabulary.

In this article are described the features of names of gastronomic units by means of anthroponyms, the problems created during the translation of these names, the use of prepositional constructions, the names of people who won in a cookery competition, the inventors of these products, the historical people, kings' families, the famous politicians, and also names of political leaders in case of the name. In the article it is at the same time told about the distinctive features of the modern names of gastronomic units - about their mediative nature. These dishes are prepared during the culinary shows, and they are called by the name of their developers. This article is based on the materials of the İnternet Sites and the known authors-linguists' books who are learning the gastronomic units of modern French language.

Rəyçi: Fil.f.d.dos. R.C.Cabbarov

NAİLƏ ABBASOVA
Milli Aviasiya Akademiyası

İNGİLİS DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏNİN BİR NÖVÜ: TƏYİN BUDAQ CÜMLƏSİ (ATTRIBUTIVE CLAUSES)

Açar sözlər: *ingilis dili, tabeli mürəkkəb cümlə, təyin budaq cümləsi, baş cümlə, budaq cümlə*
Keywords: *English, complex sentences, attributive clauses, clause*
Ключевые слова: *английский язык, сложноподчиненное предложение, придаточное определительное, придаточное предложение*

Giriş. İngilis dilinin qrammatik quruluşunda mürəkkəb cümlənin mühüm yeri vardır. Azərbaycan dilində olduğu kimi, ingilis dilində də mürəkkəb cümlənin tabesiz (*compound sentences*) və tabeli (*complex sentences*) növləri, tabeli mürəkkəb cümlənin də, öz növbəsində, müxtəlif növ və tipləri vardır. Bəllidir ki, ingilis dilində tabeli mürəkkəb cümlə iki və ya daha artıq qeyri-bərabərhüquqlu cümlədən ibarətdir ki, bu cümlələr arasında bir asılılıq əlaqəsi olur. Tabeli mürəkkəb cümlənin tərkibindəki cümlələr əsas və ya baş, habelə asılı və ya tabeli cümlələr olur. İngilis dilində də Azərbaycan dilində olduğu kimi, belə asılı cümlələr budaq cümləsi adlanır (*the subordinate clause).* Bir cəhəti xüsusi olaraq nəzərə almaq lazımdır ki, ingilis dilində tabeli mürəkkəb cümənin tərkibindəki budaq cümləyə münasibətdə Azərbaycan dilində "*cümlə*" mənasını verən "*sentence*" sözü deyil, "*clause*" sözü işlədilir. Bu termin - "*clause*" termini yalnız tabeli mürəkkəb cümlənin tərkibindəki budaq cümlələrə və tabesiz mürəkkəb cümlələri təşkil edən sadə cümlələrə münasibətdə işlənir. Mürəkkəb cümlənin tərkibinə daxil olmayan sadə cümlələr isə və ya mürəkkəb cümlənin özü "*sentence*" termini ilə ifadə olunur.

Təyin budaq cümləli tabeli mürəkkəb cümlə (attributive clauses). İngilis dilində təyin budaq cümləsi tabeli mürəkkəb cümlənin tərkibində təyinedici funksiyanı yerinə yetirir və what? which? – (hansı?) suallarından birinə cavab verir. Adətən təyin budaq cümləsi tabeli mürəkkəb cümləni təşkil edən digər sadə cümlələrə bağlayıcılar -

that – hansı ki
whether - hansı
əvəzliklər
who – hansı ki
whom – hansını ki
whose – hansına ki
which – hansı ki
zərflərlə

when – nə zaman ki, haçan ki
where – hara ki
why – niyə ki
və s. ilə birləşir. Məsələn:

*The woman **who was here last week** is a teacher – O qadın ki, keçən həftə burada idi, müəllimədir.*

*My grandmother, **whose letter I showed you yesterday**, will return to Baku at the end of March. – Mənim nənəm, hansının ki, məktubunu sizə dünən göstərdim, martın sonu Bakıya qayıdacaq.*

*The april battle, **which was the greatest battle in Garabakh war**, ended in the victory of the Azerbaijan army. – Aprel döyüşü, hansı ki, Qarabağ müharibəsində möhtəşəm döyüşlərdən idi, Azərbaycan ordusunun qələbəsi ilə bitmişdir.*

*I have found the office **that I was lokking for**. – Mən şirkəti, hansını ki, axtarırdım, tapdım.*

*In Shamakhi I have seen the house **where (or - in which) greatest Azerbaijani poet Sabir lived. –** Şamaxıda mən evi, hansında ki, böyük Azərbaycan şairi Sabir yaşamışdır, gördüm.*

*I remember the day **when I first time went to the University. –** Mən Universitetə getdiyim ilk günü yaddan çıxarmıram.*

*The reason **why he did it** is plain. – Onun bunu etdiyinin səbəbi məlumdur.*

İngilis dilində təyin budaq cümləsi mürəkkəb cümlənin tərkibində baş cümlədə təyin etdiyi sözdən sonra gəlir. Yəni konkret işlənmə yeri və mövqeyi vardır.

İngilis dilində təyin budaq cümləsinin budaq cümlənin digər növlərindən fərqli cəhətləri. Təyin budaq cümləsini digər budaq cümlələrindən fərqləndirmək çox əhəmiyyətli bir məsələdir. Xüsusilə tərcümə zamanı buna diqqət yetirmək lazımdır. İngilis dilində çox zaman təyin budaq cümləsi mübtəda budaq cümləsi və tamamlıq budaq cümləsi ilə çox oxşar cəhətlərə malik olur. Məsələn,

*Do you know the girl **who wrote this letter**?- Siz bu məktubu yazan qızı tanıyırsınızmı? – təyin budaq cümləli tabeli mürəkkəb cümlə*

*Can you tell me **who wrote this letter**? – Bu məktubu yazanın kim olduğunu mənə deyə bilərsinizmi?- tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə*

*This is the stadium **where I won with my team**. – Bu mənim komandam ilə qalib gəldiyim stadiondur. – təyin budaq cümləli tabeli mürəkkəb cümlə*

*This school built **where I won with my team**. – Məktəb mənim komandamla qalib olduğum yerdə tikilmişdir. – zərflik budaq cümləli tabeli mürəkkəb cümlə.*

İngilis dilində təyin budaq cümləsini tabeli mürəkkəb cümlənin digər budaq cümlə növlərindən fərqləndirməyin bir rahat və dəmir qanunu vardır. Yuxarıda da qeyd etdiyimiz kimi, ingilis dilində təyin budaq cümləsinin konkret işlənmə yeri

və mövqeyi vardır. O, mürəkkəb cümlənin tərkibində baş cümlədə təyin etdiyi sözdən sonra gəlir. Amma digər budaq cümlələri tədqiq etdiyimiz dildə baş cümlədən əvvəl də gələ bilər. Məsələn,

When I woke up *it was sunny – Mən oyananda hava günəşli idi. – zərflik budaq cümləli tabeli mürəkkəb cümlə.*

Amma ingilis dilində təyin budaq cümləsinin yeri məlumdur:

Novruz is a holiday, ***when pupils do not go to school. –*** *Novruz o bayramdır ki, şagirdlər məktəbə getmirlər.*

Azərbaycanlı tədqiqatçılar L.Məhərrəmov və Q.Məmmədov ingilis dilində təyin budaq cümlənin müəyyənləşdirilməsi zamanı dil öyrənənlərin və ya tərcüməçilərin üzləşdikləri başqa bir çətinlik üzərində ətraflı dayanmışlar. Müəlliflər qeyd etmişlər ki, "həm təyin budaq cümləsində təyin edilən üzvün, həm də feli sifətin eyni suala – necə?, nə cür?, hansı? sualına cavab verməsi dil öyrənənlər arasında böyük çaşqınlıq yaradır. Burada da cümlədə neçə qrammatik əsasın olmasını müəyyənləşdirmək tövsiyə edilir" (1, 362). Bu müddəanı misallar üzərində aydınlaşdıraq:

I enjoyed the fragrance of perfume ***which I bought yesterday. –*** *Mən ətrin, hansı ki, dünən aldığım, iyindən ləzzət aldım.*

Bu cümlə təyin budaq cümləli tabeli mürəkkəb cümlədir.

I enjoyed the fragrance of perfume ***bought yesterday –*** *Mən dünən aldığım ətrin iyindən ləzzət aldım.*

İkinci cümlə isə feli sifət işlənən sadə geniş cümlədir. Gördüyümüz kimi, birinci cümlədə mürəkkəb cümlələrdə olduğu kimi, iki qrammatik əsas - *enjoyed* və *bought* olduğu halda, ikinci cümlə yalnız bir qrammatik əsasdan ibarətdir - *enjoyed* sözü. Məhz bu nüans ingilis dilində təyin budaq cümləli tabeli mürəkkəb cümlələr ilə feli sifət işlənən sadə geniş cümlələri fərqləndirməyə imkan verir.

İngilis dilində təyin budaq cümləsinin təsnifat məsələləri və növləri. İngilis dilindəki təyin budaq cümləsinin təsnifatına və məna növlərinə gəlincə onu söyləmək lazımdır ki, ən ilkin təsnifatlardan biri hələ ötən əsrin ortalarında, yəni XX əsrin 50-ci illərində Y.İzraleviç və K.Kaçalova tərəfindən aparılmışdır. Yeri gəlmişkən qeyd edək ki, bu iki müəllifin ingilis dilinin praktik qrammatikasına həsr olunmuş monumental tədqiqatı yarandığı gündən indiyədək ingilis dilinin qrammatikasına həsr olunmuş ən mükəmməl tədqiqat əsəri sayılır. Təsadüfi deyildir ki, məhz bu müəlliflərin sözügedən tematikaya həsr olunmuş əsərləri XX əsrin 50-ci illərindən bu günədək dəfərlərlə böyük tirajlala yenidən çap edilmidir. Qeyd etdiyimiz kimi, Y.İzraileviç və K.Kaçalova ingilis dilində təyin budaq cümləsinin təsnifatını apararaq onları semantik xüsusiyyətlərinə görə üç növə bölmüşlər:

"1. *Fərdiləşdirici (индивидуализирующие) təyin budaq cümlələri*

2. Təsnifedici (классифицирующие) təyin budaq cümlələri

3. Təsviredici (описательные) təyin budaq cümlələri" (2, 427).

Birinci tipə aid olan təyin budaq cümlələri, yəni fərdiləşdirici təyin budaq cümlələri bir şəxsin və ya əşyanın (və ya şəxslər və əşyalar qrupunun fərdi əlamətlərini bildirir. Bu elə bir əlamətdir ki, həmin şəxsi və ya əşyanı digərlərindən fərqləndirməyə xidmət edir. Məsələn,

*The news **that I received from my mother this morning** is very important. –Bu səhər anamdan aldığım xəbər çox əhəmiyyətlidir.*

*The taxi **which arrived at the Baku last year** was produced in the Great Britain. – Keçən il Bakıya gətirilən taksi Böyük Britaniyada istehsal olunub.*

*The girl **who studied at this University** is my daughter. – Bu Universitetdə təhsil alan qız mənim qızımdır.*

İkinci qrupa daxil olan, yəni təsnifedici təyin budaq cümlələri bu və ya digər əlamətinə görə şəxs və ya əşyanın aid olduğu sinfi və ya qrupu göstərir. Məsələn,

*A book **which is written in dialects** is difficult to read. – Şivələrdə yazılan kitabı oxumaq çətin olur.*

*Peoples **who live in nature** are usually long-lived. – Təbiətdə yaşayan adamlar adətən uzunömürlü olur.*

Üçüncü qrup – təsviri təyin budaq cümlələri isə şəxs və ya əşya haqqında əlavə məlumat verməyə xidmət edir. Bu əlaqə məlumat isə həmin şəxs və ya əşyanın keyfiyyətlərinin təsvirindən ibarət olur. Məsələn,

*We have received a news, **which contains important information on the situation of the Karabakh war.** – Biz xəbərlər aldıq, hansılar ki, Qarabağ müharibəsindəki vəziyyətə dair mühüm məlumatları əhatə edir.*

*In the Old town I met three tourists, **who lost in the narrow streets of the Old town. –** İşərişəhərdə mən üç turistə rast gəldim, hansılar ki, İşərişəhərin dar küçələrində itmişdilər**.***

*Director of our institute, **which is a cultured man,** knows modern philosophy well. – Bizim İnstitutun direktoru çox mədəni adamdır, hansı ki, çağdaş fəlsəfəni gözəl bilir.*

Azərbaycan tədqiqatçılarından R.Fərəcova ingilis dilində təyin budaq cümləli tabeli mürəkkəb cümləni semantik-sintaktik xüsusiyyətinə görə nəzərdən keçirərək belə bir bölgü aparmışdır:

1) "...Keyfiyyət bildirən təyin budaq cümlələri

2) Fərqləndirici təyin budaq cümlələri

Keyfiyyət bildirən təyin budaq cümlələri öz növbəsində iki növə bölünür:

1) Məhdudlaşdırıcı təyin budaq cümlələri (limiting/restrictive/essential)

2) Təsviredici təyin budaq cümlələri (descriptive/ nonrestrictive/ nonessential)" (3).

Nəticə. İngilis dilində təyin budaq cümlələri üzrə aparılan çoxsaylı təsnifatlardan yalnız ikisini təqdim etdik. Onların qarşılaşdırılması isə belə bir

qənaətə gətirib çıxarır ki, əslində təsnifat zamanı təyin budaq cümlələr neçə növə ayrılsa da, bu məna qruplarının ehtiva etdiyi semantik yük eynidir.

ƏDƏBİYYAT

1. Məhərrəmov L., Məmmədov Q. İngilis dilindən fonetik, qrammatik, leksik materiallar və testlər. Bakı: Elm və təhsil, 2012. s. 362-365.

2. Израилевич Е., Качалова К. Практическая грамматика английского языка. Москва: Внешторгиздат, 1954, 554 с.

3. Fərəcova R. İngilis dilində təyin budaq cümləli tabeli mürəkkəb cümlələrin semantik-sintaktik xüsusiyyətlərinə görə təsnifatı // https://www.researchgate.net

АББАСОВА НАИЛЯ

ОДИН ТИП СЛОЖНОПОДЧИНЕННОГО ПРЕДЛОЖЕНИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ: ПРИДАТОЧНОЕ ОПРЕДЕЛИТЕЛЬНОЕ (ATTRIBUTIVE CLAUSES)

РЕЗЮМЕ

В статье исследуется одна из разновидностей придаточных предложений в английском языке. В начале автор представляет общий обзор сложноподчиненных предложений английского языка, затем на обширном материале английского языка переходит к исследованию придаточных определительных предложений. В статье также предлагаются классификации придаточных определительных предложений, проведенных как в английской лингвистике, так и в русском языкознании, а также Азербайджанскими языковедами.

NAILE ABBASOVA

THE TYPE OF COMPLEX SENTENCES IN ENGLISH: ATTRIBUTIVE CLAUSES

SUMMARY

This article examines one of the types of subordinate clauses in English. At the beginning the author presents an overview of complex sentences in English, then in the vast material of English language goes to the study of the paranasal attributive proposals. The article also provides the classification of adventitious attributive proposals conducted in English linguistics, as well as in Russian linguistics, as well as Azerbaijani linguists.

Rəyçi filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova

SÜCƏDDİN ƏYYUBLU
A D U
sujaddin@hotmail.com

MÜASİR FRANSIZ DİLİNDƏ NEOLOGİZMLƏRİN YARANMASINDA İXTİSARLAR VƏ TELESKOPİYAYA DAİR

Açar sözlər: neologizm, abreviatura, teleskop sözlər, sözbirləşməsi
Key words: neologism, abbreviation, telescopic words, combination of words
Ключевые слова: неологизм, аббревиатура, телескопические слова, словосочетание

Digər dillərdə olduğu kimi fransız dilində də ixtisarların əmələ gəlməsi prosesi fikrin və ya deyiləıcək anlayışın daha dəqiq və daha qısa ifadə olunması ilə birbaşa əlaqəlidir. Onlardan bir çoxu, məs. *ONU (Organisation des Nations Unies), HLM (Habitation à loyer modéré), SİDA (Syndrome d' immuno- déficit acquis), PDG (Président Directeur général)* və s. o qədər çox işlənirlər ki, müasir fransız dilində onlar söz birləşmələrinin ixtisarı kimi deyil adi sözlər kimi qəbul edilirlər. Məlumdur ki, söz birləşmələrinin ixtisar edilməsi **(sigle)** hələ latın dilində də baş vermişdir *(PS – post scriptum*), amma bu proses XX əsrdə daha geniş vüsət almışdır. Bununla belə latın dilindən, həmçinin digər dillərdən daha sonralar fransız dilinə keçən alinma sözlər leksik deyil, qrafik ixtisarlar olmuşdur. Odur ki, biz onlarin ixtisar olunmuş formasını yox, özünü bütövlüklə tələffüz edirik. Misal olaraq *PS-* ni götürək: biz bu ixtisarı *"pese"* kimi deyil, *post scriptum* kimi tələffüz edirik. Qeyd etməliyik ki, qrafik ixtisarlar neologizm hesab edilmirlər və odur ki, sözdüzəltməyə aid deyillər. Leksik ixtisarlar sözdüzəltmə vasitəsi olduğundan yalnız onların köməyilə söz birləşmələrindən yeni leksik vahid- mürəkkəb ixtisarlar *(sigle*) yaranır. Fransız dilində ixtisarların təsnifatının onların əmələ gəlmə üsulu yəni strukturuna görə aparılması daha məqsədəuyğun olardı.

1.Ayrıca götürülmüş sözlərin ixtisarı (sözün ilk hərfinin, ilk və son hərflərinin, sözun əvvəlində və sonunda (bəzən də ortasında) bir neçə hərfin, sözun ilk hərflərinin, o cümlədən son hərfin istifadə edilməsi bir qayda olaraq samitlə bağlı olur, amma sözun son hissəsinin istifadə olunması nadir rast gəlinən hadisə hesab edildiyindən bu yolla yeni sözlər çox az yaranır yaxud heç yaranmır. Ayrica götürülmüş sözlərin ixtisarı kifayət qədər az rast gəlinən hadisədir. Məsələn, *X-er* sözu daha çox c*ensurer- senzuradan keçirmək, tənqid etmək, senzura ilə qadağan etmək, kəsib cixartmaq, əzmək, psixoloji senzuraya məruz qoyub sıxışdırmaq* –mənalarında işlənir. Bu sözu biz *ixer* [ikse] kimi tələffüz etməliyik Gördüyümüz kimi ixtisar ilk və son hərflərdən ibarətdir. Feil abreviaturası '*se faire x-er d"un débat = se faire sortir sana ménagement '*(

mübahisədən üzüağ çıxmaq) tipli söz birləşmələrinin tərkibində rast gəlinə bilər. Bizim fikrimizcə *bouffon-axmaq, gic, səfeh- sözünün fonb"* şəklində ixtisar edilməsi çox maraq doğurur, əslində bu forma arqo sözlərin bir növü olan verlan hadisəsi nəticəsində sözün hecalarının yerinin dəyişməsidir. Bu zaman sözun son və ilk hərfləri istifadə olunur.

2. Söz birləşmələrinin ixtisarı (söz birləşməsindəki komponentlərdən (adətən birincinin) birinin ilk hərfinin istifadə olunması, söz birləşməsinin tərkibindəki leksik baxımdan tam mənalı sözlərin ilk hərflərinin istifadə edilməsi). Köməkçi sözlər olan artiklllər, sözönülər və bağlayıcılar bir qayda olaraq ixtisarlara daxil edilmirlər, lakin ümumi tendensiyadan kənara çıxmalar da mümkündür, burada əsasən sözbirləşməsinin ayrı-ayrı komponentlərinin ilk hərflərinin istifadə edilməsi nəzərdə tutulur : əgər sözbirləşməsinin tərkibində yanaşı gələn iki və ya daha çox komponent eyni hərflə başlayarsa, onda bu sözləri ifadə etmək üçün ixtisarın tərkibinə yalnız bir hərf, sözbirləşməsinin komponentlərinin ilk hecaları, qarışıq hecalar, sözün ayrı-ayrı elementləri və tam sözlər daxil ola bilərlər.

Fransız dilində ən çox yayilmış istisar növlərindən biri hərf ixtisarıdır, bu zaman sözbirləşməsinin tərkib hissəsini təşkil edən tam mənalı leksik komponentlərin ilk hərfləri ixtisar edilir. Bir neçə ixtisar nümunəsinə nəzər salaq:

BCBG – *ədəb qaydaları* mənasında işlənən *bon chic bon genre* ifadəsinin ixtisarı ;

Pour l"hebdomadaire Télérama du 7 juin 1989, le look de l"acteur Bernard Giradeau se situe *"entre Tinti baba-cool et Fanfan la Tulipe BCBG" (Merle, 1989: 30).* Maraqlıdır ki*, BCBG* ixtisarından *béceébégisme* törəmə sözü yaranır və *caractère de tout ce qui est BCBG ou suppose tel (vêtement, philosophie, tendance politique, gouts divers)* mənasi kəsb edir.

Son illər, xüsusən də XX əsrin 90-cı illərinin sonuna doğru, bu ixtisar (BCBG), o cümlədən aşağıda sitat gətirdiyimiz digər ixtisarlar semantik evolyusiyaya məruz qalmışlar, məsələn *: " TTCC- Tasse de Thé Cul Coincé. Tend à supplanter les plus classiques NAP (Neuilly – Auteuil – Passy) ou FHCP (Foulard Hermes Collier de Perles), pour évoquer ce qui est globalement BCBG, autrement dit : baisebeige."*

CCCG – *cravate club complet gris* (kişi geyiminə xasdır) ;

FHCP – *Foulard Hermes Collier de Perles*- in ixtisarı (qadın geyimi üçün xarakterikdir) ;

BD – *bande dessinée*(cizgi filmi) – nin ixtisarı və bu [bede] kimi tələffüz olunur. Bu ixtisardan törəmə söz olan *bédéphile – amateur des bédés* (cizgi filmi həvəskari) ismi yaranmışdır.

Jite – hərfi mənada JT, yəni *journal télévisé*(telejurnal) söz birləşməsinin ixtisaridır.

NAPY – yeni nəsil BCBG mənası verir. Merle öz lüğətində 1989- cu il may ayında çixan bir mətbu orqandan misal gətirir : " Les nappies sont ouverts à toutes les nouveautés, ils sont modernes (pas de cravate, mais une belle pochette, des chaussures impeccablement cirées, un pantalon suffisament court pour faire entrevoir les losanges des Burlington.Leur passion commune : la communication et le look." (Pariscope). (Merle, 1989 : 103). Verilmiş bu nümunə *Neuilly, Auteuil, Passy (NAP)* – dan düzəlmişdir. İls aiment se retrouver dans les bars d"hôtels (Meurice, Grillon, Bristol, par exemple) lisent peu mais aiment faire " lettre". D' après Prosper Assouline, Fréderic Mitterand, François Léotard, Cristine Ockrent peuvent être considérés comme des nappies types (yenə orada, səh. 103).

QJC – *quadragenaire journaliste à prétention sociologique* (sosiologiya sahəsində iddialı olan qirxyaşlı jurnalist).

"Le QJC type vous crache une critique de film dans le plus pur style Michel Mardore (critique cinéma au Nouvel Obs) sans avoir l'air de se forcer, même s' il l' a servilement copiée." (yenə orada, səh. 119).

PAF – *paysage audiovisuel français* (audiovizual texnikanın istifadə panoramı).

"En fait, le brassage superficiel, qui a secoué le PAF n' a amené aucun bouleversement "profond", constate, rigolard". Le Canard enchaîné du 7 octobre 1989 (yenə orada, səh. 203).

Qeyd etmək lazımdır ki, dünyada kabel və sputnik televiziyasının yaranmasından sonra XXI əsr rəqəmsal televiziyanın yaranması ilə diqqət mərkəzinə gəldi.

TNT – *télévision numérique terrestre* (yerüstü rəqəmsal televiziya).

"La télévision numérique terrestre (TNT) arrive enfin! Le 31 mars, sept chaines gratuites supplémentaires déboulen t sur les antennes rateaux d' une partie de la France.Et ce n'est pas fini. Mais cette explosion de l'offre va- t –elle tirer les programmaes vers le haut? Le point de vue (optimiste) du sociologue Dominique Wolton. Le guide du nouveau paysage télévisuel. (Télérama № 2880 – 23 mars 2005, p. 12)

Trois B ou 3B = *Belleville – Beaubourg – Bastille* (həddən artıq dəbdə olan).

"Trois B, comme d' ailleurs l'affirme le Journal du dimanche du 5 juillet 1989, signifie donc " super-code –mode-néo-branche-classe" et tout et tout" (Merle, 1989 : 221).

Hərf ixtisarı formasında isimlərin ümumiləşməsi həyatın müxtəlif sahələrinə aid olur. Məsələn, **C.B.** – *[sibi] sitizen band* (özəl danışıqlar üçün diapozon tezliyi) , xüsusən avtomobillərdə belə verilişləri qəbul edən radioqəbuledici; **F.İ.V.** – *fécondation in vitro* (------), **İ.V.G.-** *interruption volontaire de grossesse* (bilərəkdən hamiləliyin dayandırılması, abort) ; **O.P.E**. – *offre publique d'échange* (digər şirkətlə səhmlərin mübadiləsi barədə elan); **P.Q.**

– *Parti quebecois* – nin ixtisarı, yaxud *Province de Qubec*(Kvebek əyaləti) –in ixtisarı; **R.M.İ.** – *revenu minimum d'insertion* (yaşamaq üçün imkanl olmayan şəxslərə qanunla təminat verilən minimal ödəniş); **S.A.M.U** – [samy], *service d'aide médicale d'urgence* (təcili tibbi yardım xidməti) –nin ixtisarı ; **S.M.R.İ.** – *service médical rendu insuffisant* (kifayət qədər göstərilməyən tibbi yardım)- in ixtisarı ; bu neologizmin (2006) əmələ gəlməsi onunla bağlıdır ki, Fransa apteklərində satılan 221 adda dərman preparatının ödənişi kompensasiya edilmir.Bu tip misallar aşağıdakiları da əlavə etmək olar**: B.A.F.A.** – *brevet d'aptitude au fonctions d'animateur* (1991) –in ixtisarı (sigle), *Passer le BAFA* və s., **B.M.X**.. (1995) , mot anglais (1978) sigle et mot – rébus pour bicycle moto X, pour (moto) cross, burada X xaç işarəsini bildirir və yalnız arxa əyləci olan dağ- idman velosipedi mənası verir. BMX 2008 – ci ildən artıq olimpiya oyunlarına daxil edilib ; **C.M.U.-** *couverture maladie universelle* (1999) –in ixtisarı = bénéficier de la **C.M.U.; D.E.U.S.T**.- diplôme d'études universitaires scientifiques et techniques (1989) –un ixtisarı, *D.V.D.* – [devede] ingilis sigli olub " Gigital Video Disc" –in istisar formasıdır, lakin söz fonetik cəhətdən tamamilə fransız dilinin orfoepiyasına uyğun şəkildə tələffüz olunur, **DVD – ROM, DVD – CAM, DVD HD** və s. də bu qəbildəndir ; **ESB** – [øsbe] , 1989 –cu ildə yaranmış neologizmdir və "Encephalopathie spongiforme bovine"- in ixtisarıdır ; **H.T.M.L**. – (aşteemel) – 1994, sigle anglais de Hypertext Marcup Language " langage hypertexte à balises"- in ixtisarı **;** **M.M.S.** – 2001, sigle anglais de "Multimedia Messagind Service " Messagerie multimédia" ; **O.M.G.** – 1992, " *Organisme génétiquement modifié*" – nin ixtisarı və s.

Son illər hərf ixtisarlarının sayı inzibati dildə də nəzərə çarpacaq dərəcədə artmaqdadır, misal olaraq **UV** (*unité de valeur*), **UE** (*unité d'enseignement*) və s. göstərmək olar.Bundan başqa artıq dildə mövcud olan sözə hərf ixtisarı yoluyla omonim sözlərin yaradılması tendensiyası da müşahidə olunmaqdadır, əyani nümunə kimi **MAL** (*Mouvement Apolytique Lyceen)* ismini göstərə bilərik.

2004- cü ilin əvvəllərində hərf ixtisarı ilə yaranmış sözlər arasından aşağıdakıları misal gətirə bilərik : **ZRR** (*zone de revitalisation rurale*) və **SİDER** (*sociétés d'investissement pour le développement rural).* Hər iki ixtisar kənd təsərrüfatı sahəsinə aiddir.

Tanınmış fransız siyasi xadimlərinin adlarının və ümumiyyətlə fəaliyyətlərinin abreviaturası da müəyyən maraq doğurur. Belə ki, bu yöndə " La Montagne" qəzetində rastlaşdığımız bir neçə sətir diqqətimizi cəlb etdi, oxuyuruq: " Les hommes politiques ont souvent le sens de la formule, celle qui fait mouche, épingle un adversaire ou, mieux encore, qualifie de quelques mots une idée, comme le célèbre " Laisser du temps au temps", de François Mitterand, ou s'adressant justement au défunt président de la République, le terrible "Vous n'avez pas le monopole du coeur" de Valéry Giscard d'Estaing. C'est un domaine

dans lequel le premier ministre est très à l'aise. İl en a donné la preuve lors du congrès de l"UMP, en opposant un vigoureux, mais apparemment peu efficace "**TSD"** (tout sauf la livraison) , au bien connu **"TSS"** (tout sauf Sarkosy). L'expression de J.-P. Raffarin pourrait être reprise à gauche ou, dans les cercles "bien informés", circulerait, parait-il, un surnois " **TSF".** Une abréviation qui n'a rien à voir avec les postes radio de grand-papa, mais se traduit par "Tout sauf Fabius".. A propos, Savez-vous que la comédie préférée des Français reste " Les tontons flingueurs"? (La montagne du 15 février 2004). Bu işimizdə biz müasir fransız dilində ixtisarlar vasitəsilə yaranan bir sira tipik hallara nəzər saldiq və hesab edirik ki, digər abreviatura formaları da mövcuddur ki, bu da xüsusi bir tədqiqatın mövzusudur.

Məlumdur ki, fransız dilinin lügət tərkibi mütəmadi olaraq yeni sözlərlə zənginləşir və bu yeni sözlərin yaranmasında teleskopiyanın da xüsusi rolu var. Bu yolla söz düzəltmə prosesi nisbətən çətin olduğundan onun əvvəlcədən hansı formada olacağını bilmək mürəkkəbləşir və bu bir növ söz oyununa bənzəyir. Tək-tək sözlərin işlənməsinə rəğmən neologizm yaratmada teleskopiyanın bir vasitə kimi ixtiyariliyi və gözlənilməzliyi bütövlükdə sözdüzəltmə prosesini çətinləşdirir. Məsələn, *stabcroissance = stabilité + croissance* (Télématin, 6 novembre 2000), *télématique = télévision + informatique.* Kanadanın Kvebek əyalətinin sakinləri *e- mail* sözü yerinə *courriel= courrier électronique* sözünü yaradıblar. Onların nitqə daxil etdiyi sözlər sırasında yenə də informatika sahəsinə aid olan *clavardage* sözü *clavier + bavardage* elementlərinin birləşməsindən yaranmışdır.Bu teleskop söz İnternet vasitəsilə aparılan müzakirələr anlamına gəlir. Göründüyü kimi teleskopiya vasitəsilə sözlərin birləşməsi onları gigər mürəkkəb sözlərdən daha çox ifadəli olmasına səbəb olur.Əvvəllər bu üsulun o qədər də məhsuldar olmadığına və bir çox yazıçıların bu prosesi *(crucifige, violuptés)* tənqid etmələrinə baxmayaraq, son illər, xüsusilə də XX əsrin son illəri ərzində teleskop sözlər vasitəsilə sözdüzəltmə hadisəsi geniş vüsət almışdır.

İsrail və Fələstin arasındakı münaqişənin globallaşması ilə bağlı dünyada yaranan siyasi vəziyyət nəticəsində yeni teleskop sözlər (*islamophobie, judéophobie*) əmələ gəlmişdir. Bu sözlər də öz növbəsində geniş yayılmış **isme** suffiksi ilə yaranan adəti sözləri (*racisme, antisemitisme*) əvəz etmişdir. Mətbuat dilində neologizmlərin bu yolla yaranmasını əyani olaraq göstərən başqa bir nümunəyə nəzər salaq : " Quels mots- valises vont marquer l'année 2005? "Tout est relatif" objecterez- vous. Attendez- vous à consommer "masstige" (mariage produit de masse et marque de prestige, genre H&M et Karl Gerfeld) et à croiser encore pas mal de "rétrosexuels" (à l'opposé des " métrosexuels", jeunes urbains qui prennent soin d'eux), ces messieurs qui passent moins d'un quart d'heure dans la salle de bains.." (Télérama № 2869- 5 janvier 2005, p. 15). Göründüyü kimi fransız mediası dildə baş verən bütün yeniliklərə çox tez reaksiya verir. Məşhur

Le Monde qəzeti bu mənada çox fəaldır və buna əyani misal kimi həmin qəzetin səhifələrində çap olunmuş "*beurgeois* " sözünü göstərə bilərik. Verilmiş halda söhbət *bourgeois və beur* sözlərinin birləşməsindən yaranan neologizmdən gedir. *Beur* sözü Afrikanın şimalından Fransaya mühacirət etmiş ailələrdə doğulmuş və təkcə ali təhsil almış deyil, həmçinin yüksək vəzifələr (vəkil, həkim, dövlət qulluqçusu) tutan gənc fransızları bildirir. Digər həftəlik jurnal olan "*Le Nouvel Observateur"* öz nəşrinin 4 səhifəsini Mərakeşli uşaqların tarixinə həsr etmiş və onlarin sadə mühitdə böyümələrinə baxmayaraq nəticədə yüksək ali təhsil alaraq mötəbər vəzifələr tutmasından bəhs etmişdir. Bu nömrələrlə demək olar ki, eyni zamanda Əcəzairli qadın yazıçı Raziki Zutinin " *Comment je suis devenue une beurgeoise*" adlı kitabı işıq üzü gördü. "Beurgeoise, écrit-elle, c'est ce que disent de moi les jeunes dans les cites parce que j'ai su trouver ma place dans la société" (Télérama № 2880- 25 mars 2005, p.26). Qeyd etməliyik ki, leksik kompessiyanın bir növü hesab edilən teleskopiya ixtisar və qisaltmalara nisbətən az yayilmış üsuldur. Teleskop sözdüzəltmə yalnız okkazional xarakterli yeni leksik vahidlərin yaranmasını şərtləndirir. Bu mənada biz rus dilçisi Y.S.Maslovun aşağıdakı fikrinə şərik oluruq. O hesab edir ki, " bu sözlər müəyyən sözbirləşmələrin qısa ekvivalenti funksiyasından uzağa getmirlər, bu birləşmələr kimi oxşar mürəkkəb sözlər də deyim prosesində müəyyən model üzrə qurulurlar və əvvəlcədən danışanin yaddaşında olmurlar."(Maslov, 1975: 231).

Məlumdur ki, bütün canlı orqanizmlər kimi dil də daima inkişafda və hərəkətdədir, xüsusən onun lüğət tərkibi bu hadisəyə hər şeydən qabaq reaksiya verir və gələcək işlərimizdə neologizmlərin yaranmasının digər üsulları barədə işlərimizi davam etdirmək fikrindəyik.

ƏDƏBİYYAT

1. Гак В. Г. О современной французской неологии// Новые слова и словари новых слов.- Л., 1978. – С. 37-53.
2. Дебов В.М., Скворцова М.А. Сложноинициальные сокращения в современноь французском языке: На материале прессы.- Иванова, 1999.- 103 с.
3. Маслов Ю.С. Введение в языкознание.- М.- Высшая школа, 1975.- С. 231.
4. Guilbert L. La néologie lexicale// Langages.- N 36, 1974.- 128 p.
5. Merle P. Dictionnaire du français branché. – P. Editions du seuil, 1989.- 233p.
6. Merle P. Les blues de l'argot.- P., Editions du seuil, 1990 – 117p.
7. Merle P. Précis de français précieuxau XXI siècle ? Mayenne, 2002. – 176p.
8. Pruvost J., Sablayrolles J. F. Les néologismes.- Paris, Presses Universitaires de France, 2003, 127p.
9. Robert P. Le Petit Robert. – Paris, 2014

Istifadə edilmiş mənbələr:

1. La Montagne, 15 février 2004, 29 décembre 2005
2. Le Nouvel Observateur, 4 mars 1988
3. Le canard enchaîné, 7 octobre 1989, 8 mars 2006
4. Le Monde informatique, 15 décembre 1995
5. Télérama, № 2880, 2869, 2773, 2867 (années 2002-2005)
6. Télématin, 6 novembre 2000

AYYUBLU SUJADDIN

ABOUT THE ABRIDGEMENTS AND TELESCOPE IN THE FORMATION OF NEOLOGISMS IN MODERN FRENCH LANGUAGE

SUMMARY

Role of abridgements and telescope in the process of word formation of modern French language is investigated in this article. A number of different points of view of native and many well known foreign linguists are also considered. As it's known, the language is a live organism and always is in motion enriching its composition of dictionary. There are different means in this process among which abridgements and telescope words play a special role. This work analyses completely different opinions in regard with this issue. A definitive number of neologisms are given in this article formed by means of abridgements and telescope. Enough number of newspapers and magazines are used as the sources published in France and many words chosen in the new dictionaries are cited as well.

АЮБЛУ СУДЖАДДИН

О СОКРАЩЕНИЯХ И ТЕЛЕСКОПИИ В ОБРАЗОВАНИИ НЕОЛОГИЗМОВ В СОВРЕМЕННОМ ФРАНЦУЗСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В настоящей статье исследуется роль сокращений и телескопии в словообразовательном процессе современного французского языка. Рассматриваются также ряд различных точек зрений отечественных и многих известных зарубежных лингвистов. Как известно, язык это живой организм и всегда в движении обогащая свой словарный состав. В этом процессе существуют разные способы в числе которых особый роль играют сокращения и телескопные слова. В данной работе анализируются совершенно различные мысли по отношению данного вопроса. В статье приводится определенное количество неологизмов, образованные путем сокращения и телескопии.

Rəyçi : prof. Ç.Babaxanova

XAVƏR HACIYEVA
ADİU
xavər.@.mail.ru.

QƏDİM,ORTA VƏ MÜASİR İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN ROLU

Key words: *affixes, suffixes, prefixes, productivity,*
Açar sözlər: *afikslər, suffikslər, prefikslər, məhsuldarlıq.*
Ключевые слова: *аффиксы, префиксы, суффиксы, продуктивность*

İngilis dilində affikslər hələ lap qədim dövrlərdən işlənməyə başlanmışdı. Qədim ingilis dilinə aid yazılı mənbələrin azlığı sözyaratma yollarının məhsuldar və qeyri-məhsuldar olmasını aydınlaşdırmağı bir qədər çətinləşdirir. Bu dövrdə prefikslər və suffikslər vasitəsilə yeni sözlər yaranırdı. Müxtəlif prefikslər sayəsində eyni köklü feillər ayrı-ayrı mənalarda işlənirdi: ȝan – go; ā-ȝan – goaway; be- ȝan – goaround; fore- ȝan – precede; ofer- ȝan – traverse.

Qədim ingilis dilində tez-tez işlənən və məhsuldar olduğu güman edilən prefikslər bunlaridi: *ā-, be-, for-, fore-, ȝe-,ofer-, un-*. Bəzi feillərlə prefikslərin mənası o qədər zəif və cüzi idi ki, prefikslə olan feillə prefiksiz arasında heç bir fərq görünmürdü. Məsələn, *ābidan* və *bidan* "await", *swerian* və *āswerian* "swear", yəni eyni mənaalı idi. Başqa feillər isə həmin prefikslərlə işlənərkən məna dəyişikliyinə məruz qalırdı.

Müasir ingilis dilində bu feillərin bir qismi hələ də işlənir və demək olar ki, lüğət tərkibinin əsas hissəsi olaraq tam hüquqlu sözlər sırasına daxildir. Bu "ā" prefiksi təkcə feillərlə deyil, başqa nitq hissələri ilə də işlənir [2, 78].

She's willing to forget everything that's happened and start afresh[4, 63].

It's a solutary discipline to consider the vast number of books that are written and the fate which awaits them [4, 27].

When I awoke he was still asleep [4, 136]. She was a little ashamed of her courage and business capacity [4, 76].

I cloud not find out how this had arisen [4, 75].

In the struggle between his passion for art and duties of his station I could have aroused sympathy for him [4, 160].

Qədim ingilis dilində suffikslər sözdüzəltmənin məhsuldar forması hesab olunurdu. Suffikslər əksər hallarda isim və sifət yaradılmasına, nadir hallarda isə feil düzəltməyə xidmət editrdi: *ere* suffiksinə *fiscere -fisher, leornere – learner* və s. Sözlərdə, *ung/ing* suffikslərinə feillərdən mücərrəd isimlər düzəltməklə istifadə olunurdu: *bodian – bodung (preach,preaching), earnian–erarning (earn, earning).*

Orta ingilis dilin dövründə affikslər vasitəsilə sözdüzəltmə yalnız feildə deyil, başqa nitq hissələrində də əksəriyyət təşkil edirdi.Ayrı-ayrı affikslərdən

söhbət açarkən onların qədim ingilis dili dövründə işlənmə tezliyi və məhsuldarlığı haqqında danışmağa çalışacayıq.

Qeyd etmək lazımdır ki, əgər affiksin aydın şəkildə semantik dəyəri varsa, o həmin dildə qalır.Qədim ingilis dilində bəzi prefiksli feillərin heç bir yeni məna verməməsi və kök fellərlə sinonim kimi işlənməsi həmin prefikslələ yaranan yeni düzəltmə feillərin deyil, sadə feillərin dildə qalmasına səbəb oldu.Feil prefikslərinin aradan götürülməsinin digər səbəbi isə feillərin zərflə bərabər işlənərkən yeni məna kəsb etmələri idi.Məsələn, *ā-drifan – drive away; ā-ɜan – go* və s.

Bu feillərin işlənməsi qədim skandinav dilinin təsiri idi. Başqa german dillərindən fərqli olaraq feil-zərf frazalarının geniş sürətlə işlənməsi Şimali German dil qrupuna daha çox xas idi.

Bu inkişaf, dəyişiklik prefikslərin tamamilə yox olduğunu deyil, orta ingilis dili dövründə az məhsuldar olduğunu göstərir, lakin erkən yeni ingilis dili dövründə onların məhsuldarlığı yenidən artmağa başladı. Bu dövrdə ***mis-*** və ***un-*** inkar prefiksləri külli miqdarda yeni sözlərin yaranmasına səbəb oldu. XVI əsrə qədər mis- prefiksi o qədər məhsuldar deyildi, onun məhsuldarlığı erkən yeni ingilis dili dövründə artdı. Bu prefiks yerli və alınma sözlərə artırılaraq fel və isim əmələ gətirir.

It is a grotesque misapprehension *which sees in art no more than a craft comprehensible perfectly only to the craftsmen [4, 33].*

When I imagined that on seeing his picture I should get a clue to the understanding of his strange character I was mistaken [4, 157].

There is someting ghoulish in the activity with which will pounce upon the misfortune of their friends so that they may exercise their dexterity [4, 35].

And presently Dr. Weitbreich-Rotholz produced the work which finally set at rest misgivings of all lovers of art [4, 25].

Whenever she went out and compassion for her misadventure made her friends eager to entertain her – she bore a demeanour that was perfect and she saw that the world is bored by the recital of misfortune [4, 74].

Qədim ingilis dilindən ***un-*** prefiksi.əsasən.isim və sifətlər.az hallarda feil ilə istifadə olunurdu və butun dövrlərdə məhsuldarlığını saxlamışdır.

He set his cloak for the Virgin Queen to walk on than because he carried the English name to undiscovered countries [4, 23]

It is not thus that the Church in its great days dealt with evidence that was unwelcome [4, 25]

He had an unerring eye [4, 26]

And here he lived unmindful of the world and by the world forgotten [4, 197]

She struggled for self-control, and I saw her hands clench and unclench spasmodically [4, 51].

Looking back, I realize that I have written about Charles Strickland must seem very unsatisfactory [4, 159].

Qədim ingilis dili zərflərindən və sözönlərindən inkişaf edərək yaranmış bəzi prefikslər orta və yeni ingilis dili dövrlərində daha çox sözlərə qoşularaq işlənməyə başladı. Bunlar aşağıdakılardır: qədim ingilis dilində *ūt, ofer, under;* orta ingilis dili dövründə *out, over, under* şəklində işlənmiş yerli və alınma sözlərə qoşularaq istifadə olunurlar.

The waiter, an undersized youth with a flat, spotty face, hurried to and fro carrying a tray laden with glasses of beer [4, 178].

Orta ingilis dili dövrünün sonunda və erkən yeni ingilis dili dövründə ingilis dilinin söz düzəltmə prosesində fransız latın yunan dillərindən daxil olmuş yeni prefikslər istifadə olunurdu. 1200-cü və 1500-cü illər arasında **re-** prefiksi ilə çox miqdarda söz ingilis dilinə yol tapdı. Bu prefix yerli və xarici sözlərin kökü ilə işlənərək çox məhsuldar idi.

He was left battered an ensanguined [4, 123].

Sifət prefiksi **in-** və onun variantları *in – im – ir* orta ingilis dili dövründə inkar mənasını verən çoxlu prefikslərdən biri idi; yerli *mis-, un-* haqqında əvvəl danışmışdıq, bundan əlavə alınma **non-** fransız-latin mənşəli olaraq çox məhsuldar bir ingilis prefiksi kimi inkişaf etmiş və sərbəst surətdə isim və sifətlərlə işlənir.

XVII-ci əsrlərdən bəri latın və yunan dillərindən çox sayda klassik alınma sözlərdə bir sıra yeni prefikslərin olmasi, sonralar bu prefikslərin geniş surətdə digər sözlərlə işlənərək lüğət tərkibini zənginləşdirməyə xidmət etməsi də xüsusi vurğulanmalıdır. Bu alınma sözlərin əksəriyyətinin elmə, təhsilə, fəlsəfəyə, ədəbiyyata aid olması yeni prefikslərin bu sahəyə uyğun sözlərlə işlənərək geniş yayılmasına səbəb oldu. Latın və yunan prefikslərinin çoxu yüksək dərəcədə məhsuldar hesab olunaraq, çox vaxt elə həmin dillərdə olan sözlərə əlavə olunurdu. Yunan dilinə məxsus *anti*, latin dilindən olan *co, extra, post, pre, semi* və s. bu qəbilədəndir.

Qədim ingilis dilindəki **ere** suffiksi orta və yeni ingilis dili dövrlərində ən məhsuldar isim düzəldən şəkilçi kimi inkişaf edərək əvvəl isim köklərindən *bocbre – boc* sözundən – *book*.Orta ingilis dili dövründə **-er** suffiksi ilə çoxlu yerli və xarici mənşəli isimlər yaranmışdır.bu suffiksin mənası tədricən genişləndi və o, hər hansı bir mənanı, ərazini təmsil edən şəxsin yerindən xəbər vermək huququ qazandı: *Londener, Southerner*. Yeni ingilis dili dövründə bu suffiksin işlənmə dairəsi daha da genişlənərək, yeni məna qazandı və alət, əşya bildirən isimlərə də aid olundu.

Mücərrəd isimlərin yaradılması üçün istifadə olunan qədim suffikslər *ap, op, p* artıq orta ingilis dili dövründə ölü suffikslər hesab olunurdular və onların əvəzinə daha məhsuldar olan yerli *–ness, –ing*, sonralar isə bir neçə alınma suffikslər mücərrəd isimlərin yaranmasında daha çox işlənirdilər. –ness suffiksi tarixin bütün dövrlərində çox məhsuldar olmuş, mənşəyindən asılı olmayaraq,

əsasən, sifət köklərinə qoşularaq yeni isimlər yaradılırdılar: *darkness, seekness, narrowness, prettiness (yerli), alertness, consciousness, politeness* (alınma).

Qədim ingilis dilində **-iз** formasında olan, orta ingilis dili dövründə işlənən **–y** geniş işlənmə dairəsinə malik olan suffiks idi. Bu suffiks bütün dövrlərdə isim, feil və sifət köklərindən sifətlər yaradan hesab olunurdu.Qədim ingilis dilində **-lic** və orta və yeni ingilis dili dövrlərində **-ly** suffiksi kök morfemdən yaranaraq nominal köklərdən sifət yaratmağa davam edirdi. ingilis dilinin bütün dövrlərində bu suffiks vasitəsilə yerli və alınma sözlərdən kifayət qədər yeni sifətlər yaranmışdır: *fatherly, manly, masterly, bustly, neighbourly.*

She had the same kindly expression and sedate, untroubled eyes [4, 35].

Again the beastly stench almost made him faint [4, 212].

He saw the dreaful, mutilated, ghastly object which had been Strickland [4, 212].

Qədim ingilis dili isimdüzəldən suffikslərin arasında kök morfemlərdən əmələ gələn bir neçə yeni suffikslər var idi: ***dom, lāc, hād, scipe***. Orta ingilis dili dövründə onlar nisbətən məhsuldar idilər, lakin sonrakı dövrlərdə onların məhsuldarlığı azalaraq yox oldu. Yeni *dom, ship və hood* törəmələri işləndiyi mətnlərə butun tarixi dövrlərdə ras gəlmək olar: *sheriffdom, dukedom, boydom, churchdom, brotherhood, manhood* və s. Bunların arasında ***–ship*** ilə işlənən mücərrəd isimlər də digər suffkslərə işlənənlər kimi, çoxluq təşkiletmir: *hardship, courtship, editorship, relationship*. Bu suffikslərin mənaları çox da aydın deyil və bəzi hallarda bunlar daha məhsuldar suffiks ***–ness*** ilə (mucərrəd isimlər ücün) əvəz oluna bilər: richdom – *richness; fasledom – falseness.*

Perhaps it is Truth and Freedom that you seek, and for a moment you thought that you might find release in Love [4, 158].

But at the moment he was all heartiness and good-fellowship [4, 169].

I thing I should have shown a strong vocation in boyhood [4, 159].

Ingilis dilinin söz yaradıcılığında alınma suffikslər çox mühüm yer tuturlar. Prefikslər kimi, alınma suffikslər də ingilis dilinə alınma sözlərin iki böyük dalğası ilə gəlmişlər: orta ingilis dilində dilə axın edən fransız sözləri və erkən yeni ingilis dili dövründə klassik alınma sözlər onların assimilyasiyaya uğraması və söz yaratma sisteminə daxil olması alınma prefikslərdə olduğu kimidir. Alınma suffikslərin arasında müxtəlif nitq hissələri əmələ gətirənlər var. Sifət yaradan ***–able*** məhsuldar suffikslərdən sayılır: *agreeable, admittable, lovable, understandable.*

ƏDƏBİYYAT

1. Axundov A. A.Ümumi dilçilik, Bakı, Şərq-qerb, 2006 , 280 s.
2. Arnold İ.V. The English Word. Moscow, 1998, 296 p
3. Cəfərov S.Ə.Müasir Azərbaycan dili. Lenksika II hissə. Bakı, Elim, 1982, 216 s.
4. Maugham S. The Moon and Sixpence. Moscow, 1972, 240 p.

KH .Gadjieva

THE ROLE OF SOME AFFIKES IN THE ENRICHMENT OF THE ENGLISH VOCABULARY

SUMMARY

This article is about the role of the affixes in word-formation and here native and borrowed prefixes and suffixes are given, their productivity from Old English till nowadays is analysed. The basic word-stock changes and eneriches in the process of a particular historical development. Enrichment occurs in the lexical and morphological ways, as well as through borrowing. Some OE prefixes were used as word-building means and their productivity grew in late ME and Early NE. The negative prefixes *mis-* and *un-* produced a great number of new words. Some new prefixes began to be employed in word derivation in English and these foreign prefixes were taken from French, Latin and Greek.

Х.ГАДЖИЕВА

РОЛЬ И ЗНАЧЕНИЕ ВСПОМОГАТЕЛЬНЫХ СЛОВ В ОБОГАЩЕНИЕ СЛОВАРНЫХ ЗАПАС АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В статье по отдельности рассматриваются префиксы и суффиксыб, их продуктивностьб начиная со староанглийского периода до наших днейю. Основной словарный фонд меняется и обогащается в процессе конретного исторического развития. а также за счет заимствования. Обогащения происходит лексическими и морфлогическими путями.Староанглийские местные префиксы использовались как словообразования и стали более продуктивными в конце среднглийского и в начале новоанглийского периодов. Отрицательные префиксы *mis-* и *un-* использовались для образования множества слов. В тот же период многие префиксы из латинскогоб французского и греческого языков вошли в английский язык и использовались в новых словообразованиях.

Rəyçi: Yusif Süleymanov
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

TƏRANƏ ZEYNALOVA
ADU
tzeynalova65@gmail.com

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNİN LÜĞƏT TƏRKİBİNDƏ İCTİMAİ-SİYASİ TERMİNLƏRİN YARANMA YOLLARI

Açar sözlər: *termin, beynəlxalq terminlər, alınma sözlər, kalka yolu ilə alınma terminlər*
Key words: terminology, international terms accepted from English language, direct borrowing, full tracing, half tracing.
Ключевые слова: термины, интернациональные термины, прямое заимствование, полное калькирование.

Tədqiqat işi İngilis və Azərbaycan dillərində ictimai-siyasi terminlərin yeri, yaranma mənbələri, yaranma yolları, semantik-struktur xüsusiyyətləri, eləcə də bu terminlərin formalaşmasında sosiolinqvistik amillərin və kütləvi informasiya vasitələrinin rolundan bəhs edir.

Mövzunun aktuallığı. İctimai-siyasi terminlərin dilin lüğət tərkibində çox geniş yer alması faktı danılmazdır. Xüsusilə də son dövrlərdə kütləvi informasiya vasitələrinin insanların həyatında misilsiz rol oynadığı bir dövrdə bu mövzunun tədqiqi daha çox diqqəti cəlb edir, çünki ictimai-siyasi terminlərin geniş vüsət alması məhz elə kütləvi informasiya vasitələrinin işi ilə birbaşa əlaqəlidir.

İstər ingilis dili olsun, istərsə də Azərbaycan dilində digər sahə terminləri kimi ictimai siyasi terminlər də iki yolla yaranır və bu yollar ictimai siyasi leksikanın zənginləşməsi üçün əsas rol oyanyır.

1) daxili imkanlar hesabına; 2) alınmalar hesabına

İngilis dilinin lekisikologiyası, lüğət tərkibindən əhatəli şəkildə danışan Arnold da lüğət tərkibində özünəməxsus yerə malik olan terminlərdən danışmış, onların müvafiq sahə daxilində işlənildiyini, həmin sahənin insanları üçün anlaşıqlı olması fikrini bir daha qeyd etmişdir. Arnold həmçinin İngilis dilində işlənən terminlərdən danışarkən onların həm dilin öz daxili imkanları hesabına , həm də digər dillərdən alınmalar hesabına yaradılmasından da söhbət açmışdır. Digər dillərdən alınma terminlərin İngilis dilində xüsusi yerə malik olması hamıya məlumdur, amma İngilis dilinin öz daxili imkanları hesabına, yəni sözlərə şəkilçilərin artırılması yolu ilə(düzəltmə sözlər), bəzi sözlərin mənasının dəyişməsi yolu ilə, ixtisarlar vasitəsilə, eləcə də iki müxtəlif sözün birləşməsi yolu ilə (mürəkkəb sözlər) də terminlər yaratmaqla lüğət tərkibinin zənginləşdirilməsi faktı da əlbəttə ki, danılmazdır. Arnold digər dillərdən alınma terminlərdən danışarkən xüsusilə qeyd edir ki, bu tipli sözlər keçdiyi dilin öz xüsusiyyətlərini, həmçinin həmin dili daşıyan insanların mədəniyyətini də özündə qoruyub saxlaya bilər,

çünki dil və mədəniyyətin bir-birindən ayrılmaz olduğu məlumdur. Arnold həmçinin qeyd edir ki, dildə yaranan bəzi terminlər hər hansı millətlə, xalqla deyil, hətta konkret şəxslərlə əlaqələndirilə bilər. Yəni terminologiya sahəsində işlədilən terminlərin yaranma səbəbi ayrı-ayrı şəxslərin adı ilə bağlı ola bilər, amma həmin şəxslərin bu termini nəyə görə dilə daxil etdiyini əsaslı şəkildə əsaslandırılması lazımdır.

İngilis dilinin lüğət tərkibində xüsusi yerə malik olan terminlərdən söhbət açan Arnold onu da qeyd etmişdir ki, terminlərin daha çox bu və ya digər konkret sahələrdə işlənməsi faktı o demək deyil ki, onlar yalnız həmin sahənin adamları tərəfindən anlaşılmalıdır. Çünki illər keçdikcə müəyyən sahəni əhatə edən terminlər asanlıqla ümümişlək sözlərə çevrilə bilər, və hər kəs tərəfindən anlaşıla bilər. Məsələn, bir zamanlar yalnız radio – televiziya sahəsində işlədilən terminlər antenna(antena), transistor (yarımkeçirici) indiki dövrdə hamı tərəfindən işlənə bilər, çünki bu anlayışlar artıq hamıya məlumdur.

Söz yaradıcılığının leksik, morfoloji, sintaktik yolu ictimai siyasi leksikada terminlərin meydana gəlməsi zamanı genişlənərək yeni imkanlar üçün şərait yaradır. M. Qasımov Azərbaycn dilinin yeni terminlərin yaranması üçün aşağıdakı üsulları göstərir:

1) semantik üsul ;2) morfoloji üsul ;3) sintaktik üsul; 4) kalka üsulu; 5) sözlərin ixtisarı və qısaldılması

Amma Hacıyeva qeyd edir ki, kalka üsulu ilə sözlərin ixtisarı və qısaldılması (abreviatürlər) üsulları da semantik üsula daxil edilsə, daha məqsədəuyğun olar.

İstər İngilis dili , istərsə də Azərbayca dilində terminləşmə zamanı sözlər hazır vahidlər kimi götürülür. Amma terminə verilən tələblər nəzərə alınmalıdır. Terminə verilən tələblər isə aşağıdakı kimi qruplaşdırıla bilər:

-termin dəqiq olmalı, nəzərdə tutulan anlayışın əsas mahiyyətini ifadə etməlidir

- termin qısa və aydın olmalıdır

-termin müəyyən sistemləşdirici rol oynamalıdır

Çoxmənalılıqdan, sinonimlik, omonimlikdən məhrum olmağı zəruri sayılsa da terminlər bu xüsusiyyətlərindən kənarda qala bilmir. Emosional ekspressiv çalardan uzaq tutulan terminlər kontekstual baxımdan bu çaları da özündə ifadə edir.

Dilin lüğət tərkibində olan sözlərin ictimai siyasi terminə çevrilməsi semantik transformasiya, ayrı ayrı terminlərin bir sahə leksikasından ayrılaraq digər sahənin leksik sisteminə keçməsi daha çox milli dilin daxili imkanlarına, onun gerçəkliyi əksetdirmə gücünə, işləklik və anlaşıqlıq səviyyəsinə söykənir.

Sahə termininin transformasiyası zamanı müxtəlif elm, sənət , peşə, fəaliyyət sahələrinə aid leksik vahid öz semantikasında dəyişiklik edərək ictimai siyasi leksikaya keçir. Terminoloji konversiya kimi özünü göstərən terminləşmə prosesi bəzən hazır termini dilin lüğət tərkibindən tamamilə ictimai siyasi məzmun

kəsb etməyən terminlər sırasından alır. Əslində dilin lüğət tərkibinə də həmin termin müəyyən sahədən keçir. "Dövlət" sözü sərvət, mülk, əmlak mənasında daha geniş və konkret bir mənaya millətin müəyyən ərazi, dil, din və mədəniyyət birliyinə söykənən ayrıca fərqləndirici atributlara malik beynəlxalq yuridik vahidə çevrilir və ictimai siyasi leksikada terminləşir. "Sinif" dərs keçilən otaq mənasından cəmiyyətdaki müəyyən zümrənin adını işarələyən vahid kimi çıxış etməyə başlayır. "Elçi" oğlan evindən qız evinə razılaşma üçün göndərilən adam və ya heyətə deyilir ama indi "səfir" sözünü əvəzləyib geniş mənada işlənə bilir.

İctimai siyasi proseslər milli dilin lüğət tərkibində ayrı ayrı terminlərin yeni məna kəsb etməsinə, semantikasını genişləndirməsinə, səbəb olur, dil vahidinin termin kimi statusu möhkəmlənir müəyyən fikrin ifadəsində zəruri elementə çevrilir. İngilis və Azərbaycan dillərinin lüğət tərkibində olan sözlərin müəyyən qismi ictimai dəyişikliklər nəticəsində yeni məna kəsb etmiş və ya mənaca genişlənmişdir. Milyonçu , milyoner, istismar , müqəddəs, şəhid , mübarizə, yarış.

Dilin lüğət tərkibində olan sözlər ya məna daralması ya da müəyyən obyektiv zərurət nəticəsində əvvəlki semantik tutumunu itirərək başqa sahəyə keçir. Məsələn bizim dildə olan "bəy", "xanım" tipli sözlər əvvəl imtiyaz sahibi bildirən şəxsi bildirdiyi halda , müasir dövrdə daha çox müraciət şəklində istifadə olunur.

Dilin lüğət tərkibində olan ictimai siyasi terminlərin zənginləşməsində çoxmənalılığın da rolu danılmazdır. Bəzi sözlər kontekst daxilində digər sözlərlə birləşib termin əmələ gətirir.

Məsələn:azad – azadpərvər, azadlıq hüququ, din azadlığı; vergi - vergi haqqı, gəlir vergisi, gömrük vergisi; milli –milli haqlar, milli mübarizə, milli mənafe, milli mədəniyyət, milli mənlik

İngilis dilində : national (milli) – national police (milli polis) – national income(milli gəlir) – national bank (milli bank); tax(vergi) – tax qualification (vergi senzi) – tax revenues (vergi gəlirləri)- tax; system (vergi sistemi) – tax collector (vergi yığan) – tax payer (vergi ödəyicisi) və s.

Dilin öz daxili imkanları hesabına zənginləşmə mənbələrindən biri də omonimləşmədir. Leksik qrammatik omonimlik təşkil edən terminlərə aşağıdakıları nümunə göstərmək olar: vergi(rüsum)-vergi(istedad),qurğu(hiylə)-qurğu(alət)

İngilis dilində isə omonimlik hallarına daha çox rast gəlmək mümkündür, çünki məlumdur ki, İngilis dilinin lüğət tərkibində bir söz həddindən artıq çox mənaya malik ola bilər, bu mənalar bir birilə əlaqəli ola da bilər, tamamilə bir birindən fərqli mənalar da ola bilər.

Məsələn: right (qanun , qayda) – right (istiqamət mənasında sağ) – right (düz)

law (qanun) – law (məhkəmə), social(ictimai) – social (ünsiyyətcil), party(partiya, qrup)- party (qonaqlıq), sentence (hökm)- sentence (cümlə) və s.

Sinonimləşmənin də bu sahədə rolunu inkar etmək olmaz. İngilis dilində ictimai siyasi termin kimi işlənən sözlərin bir birilə sinonimlik yarada bilməsi hallarına aşağıdakı nümunələri göstərmək olar. Məsələn: Freedom – liberty (azadlıq), tax – charge (vergi), national – public (milli), to sentence - to condemn (məhkum etmək), norm – right (qayda qanun).

Lüğət tərkibinin mühüm hissəsini təşkil edən ictimai siyasi terminlərin sinonimik yaratmasını 2 yolla göstərmək olar:

1) digər dildən alınma ilə milli dildəki sözün sinonimliyi. Məsələn : heysiyyət – mənlik, xarici –yadelli, səfir – elçi, müasir – çağdaş

2) ozgədil sözlərin öz aralarındakı sinonimlik . Məsələn: populyar – məşhur, barbar – vəhşi, qələbə - zəfər, inkişaf –tərəqqi

Dildə antonim yaradan sözlər də lüğət tərkibinin öz daxili imkanları hesabına zənginləşməsində, ictimai siyasi terminlərin sayının artmasında mənbə rolunu oynaya bilər : məsələn İngilis dilində : democracy (demokratiya) – anarchy (anarxiya); judge (hakim) – convict (məhkum); master (sahib,ağa) – footman (nökər)

Azərbaycan dilində həmin sözlərin qarşılıqları eyni qaydada antonimlik yarada bilir: anarxiya – demokratiya, hakim – məhkum, ağa – nökər eləcə də məsələn : vətən – qürbət vəs.

Dildə morfoloji üsulla, yəni mövcud sözlərə müxtəlif sözdüzəldici şəkilçilərin artırılması yolu ilə yaradılan terminlərin sayı daha çoxdur. Məsələn, Azərbaycan dilində tərcüməçi, çimərlik, sayğac və s., İngilis dilində development(inkişaf), politician (siyasətçi), monarchy (monarxiya) və s kimi yüzlərcə termin məhz həmin yolla meydana gəlmişdir. Bu yolla yeni terminlərin yaradılmasına aid nümunələrə daha sonra geniş yer veriləcək.

Ayrı-ayrı terminoloji sistemlərdə söz birləşmələri şəkilindəki terminlər də mühüm yer tutur. Məsələn, müqabil plan, idarəetmə mərkəzi, sağlamlıq zonası və s. İngilis dilində isə: social policy (sosial siyasət), national policy (milli demokratiya), Prime Minister (Baş Nazir) və s.

Müəyyən hallarda termin yaratmaq üçün kalka üsulundan da istifadə olunur. Kalkalar başqa bir dilə məxsus sözlərin, yaxud söz birləşmələrinin tərkib hissələrini ana dilinin müvafiq sözləri və söz birləşmələri ilə dəqiq tərcümə etmək üçün onların modeli üzrə qurulan sözlərdir. Məsələn, əgər Rus dilindən Azərbaycan dilinə kalka edilən termin sözdüzəldici şəkilçi vasitəsilə yaranmış düzəltmə sözdürsə, tərcümə zamanı həmin sözün dəqiq qarşılığı və həmin şəkilçiyə uyğun şəkilçi götürülür. Məsələn: samokritika- özünütənqid, rukopis-əlyazması və s. Amma elə sözlər də vardır ki, onlar aid olduqları məfhumlarla birlikdə bir ölkədən digərinə, bir dildən başqasına keçərək beynəlxalq terminlərə çevrilirlər.

Termin bu və ya digər məfhumu sadəcə olaraq ifadə etmir, həm də öz növbəsində məfhuma təsir edir, onu dəqiqləşdirir, aralıq hadisələrdən ayırır. Elm

və texnikanın bu və ya digər sahəsinin terminologiyasını bilmədən, həmin sahəni lazımi dərəcədə öyrənmək mümkün deyildir. Elmi fikrin inkişafı terminologiyanın inkişafı ilə sıx əlaqədardır. Terminologiya elm öyrənməyin açarıdır. Dilimizin mühüm hissəsini təşkil edən terminlər öz-özünə yaranmır və dəyişmir. Yeni yaranan və dəyişən terminlərin leksikonumuza daxil olmasında mətbuatın da mühüm rolu var. Mətbuat yalnız yaşadığımız ictimai-siyasi və mədəni həyatın deyil, həm də ana dilimizin aynasıdır. Dilimizin zənginləşməsi, yeni sözlərin ümumişləklik qazanması mətbuatın inkişafı ilə bağlıdır.

Müstəqillik qazandıqdan sonra respublikamızın başqa ölkələrlə həm iqtisadi, həm də siyasi əlaqələrinin genişlənməsi dilimizin terminologiyasını yeni sözlərlə zənginləşdirmişdir. İstər mətbuatda, istərsə də məişətdə bu terminlərin bir qismi işlənməkdədir. Sponsor, parlament, imic, lider, kompyuter sözlərini başa düşməyən çox az adam tapılar. Bu sözlərin dilimizin lüğət tərkibinə və məişətimizə belə tez daxil olması və müntəzəm işlənmək hüququ qazanması daha çox informasiya vasitələrinin bolluğu ilə bağlıdır. Müasir dövrdə termin kimi işlənən spiker, lobbi, ekologiya, internet və s. sözlərin ümumişlək sözlərə çevrilmə prosesi gedir. Lakin bu proses elmi, ictimai-siyasi anlayışları əks etdirən bütün terminlərə aid edilə bilməz. Elə terminlər var ki, onlar uzun müddətdən sonra belə öz funksiyasını qoruyub saxlaya bilir. Mətbuatda işlək olan bu terminlər ümumxalq dilinə, məişət leksikonuna daxil ola bilmir. Koalisiya, reputasiya, sindrom, inteqrasiya, sfera terminləri kütləvi informasiya vasitələrində tez-tez işlənsə də, termin olaraq qalır.

Dilimizin lüğət fonduna daxil olan terminlər çox vaxt dilimizin qayda-qanunları nəzərə alınmadan kortəbii surətdə qəbul edilir.Vaxtilə ərəb-fars və rus dillərindən alınan terminlər haqqında da bunu demək olar. Müasir dövrdə mətbuatda bir sıra terminlər paralel işlənir: bilgisayar-kompyuter, münaqişə-insident, layihə-proyekt, vəsait-investisiya, tərkib-kontingent, mühit-atmosfer, himayədar-sponsor, arasıkəsilmədən-intensiv və s. Bizim fikrimizcə, eyni anlayışları ifadə edən bu paralellərin birincisi işlənərsə, daha münasib olar. Çünki işlənmə məqamından asılı olaraq birincilər bəzən həm termin, həm də ümumişlək söz vəzifəsini daşıya bilər. Paralel terminlərin işlənməsi mətbuat dilini artıq sözlə yükləyir və anlaşılmazlıq yaradır.

Bildiyimiz kimi, dil başqa dillərdən alınan sözlərlə zənginləşir. Elm və texnologiya sahələrindəki inkişafla əlaqədar olaraq, bir çox əcnəbi terminlər dilə daxil olur. Amma əcnəbi terminləri qəbul etməzdən əvvəl dilin mövcud imkanlarmı araşdırmaq lazımdır.

İngilis dilində alınmaların sayı kifayət qədər çox olduğu kimi, bu sözlərin arasında ictimai-siyasi terminlərə də rast gəlmək mümkündür. Bildiyimiz kimi, millətlər, dövlətlər bir-birilə qarşılıqlı əlaqədə olduğu kimi, dillər də bir-birilə qarşılıqlı əlaqədə inkişaf edir, daha da zənginləşir. İngilis dili də tarix boyu, eləcə

də müasir dövrdə, alman, fransız, yunan, latın və s dillərdən müxtəlif sözlər mənimsəmişdir. Bu dillər arasında fransız dilinin rolu xüsusilə diqqətəlayiqdir.

İngilis dilində siyasət sahəsində işlənən fransız mənşəli sözlərə aşağıdakıları misal göstərmək olar: liberalism – liberalizm, capitalism – kapitalizm, materialism – materializm, nationalism – millətçilik, coup d'état - dövlət çevrilişi, regime – rejim, sovereignty – suverenlik, müstəqillik.

Azərbaycan dilinin quruluşu elmi terminləri qarşılayacaq xüsusiyyətə malikdir. O öz-özünü kökündən yarada bilən, işləndikcə zənginləşən bir dildir. Başqa dillərdə olduğu kimi, Azərbaycan dilində də terminologiyanın yaradılması və zənginləşdirilməsi üçün ən əlverişli yol dilin daxili imkanları əsasında terminlərin, termin-söz birləşmələrinin yaradılmasıdır. Ona görə də elm və texnikanın müxtəlif sahələrində meydana gələn yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır»

Müstəqillik illərində termin yaradıcılığında əsas mənbə kimi türk dillərindən istifadə edilməkdədir. Hal-hazırda müstəqil Azərbaycan, türkmən, qazax, özbək və qırğız xalqları ilə Türkiyə arasında əlaqələrin həcmi və intensivliyi durmadan artmaqdadır. Hərtərəfli əməkdaşlığın inkişafı, bu qohum dillərin lüğət tərkibinə də öz təsirini göstərir. Tarixi-mədəni, təhsil, iqtisadi-siyasi, diplomatik, beynəlxalq və s. sahələrlə bağlı söz alıb söz verirlər.

ƏDƏBIYYAT

1. Axundov A. Dilimizə dövlət qayğısı.- "Azərbaycan dili və ədəbiyyatı tədrisi", № 3, 2001, s.9.

2. Hacıyeva İ. Azərbaycan dilinin ictimai-siyasi terminologiyası(nam. dis) Bakı 1997

3. İsrafilova R.D Azərbaycan dili lüğət tərkibinin daxili imkanlar hesabına zənginləşməsi və lüğətlərdə onun əks olunması (nam. Dis.) Bakı 1971

4. Халилова С. Н. Лингвистические основы общественно-политической терминологии. (док. Дис) Бакы 1990

5. A plain English guide to Political terms. The National Adult Literacy Agency - 2006

6. Arnold I.V. The English word. M-L., 1966

7. George Orwell, "Politics and the English Language," 1946

TARANA ZEYNALOVA

ENGLISH AND AZERBAIJANI LANGUAGES IN THE VOCABULARY OF THE WAYS OF SOCIAL AND POLITICAL TERMS

SUMMARY

The article is devoted to define a place and role of international terms accepted by English language in socio-political terminology. The object of the study in both languages, social and political terms, the subject of the investigation of the different orientation of these terms, contained in the language dictionaries define the role of semantic and structural analysis. A very wide range of socio-political terms, to take place in the vocabulary of the language is undeniable fact. It is shown that socio-political terminology is one of the most important ways to enrich political terminology in Azerbaijan language. In Azerbaijan language assimilated a lot of socio-political terms through direct borrowing, full and half tracing. The half tracing created numerous derivative terms and phrases terms on base of the terms of the donor language.

ТАРАНА ЗЕЙНАЛОВА

АНГЛИЙСКИЙ И АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫКИ В СЛОВАРЕ ПУТИ СОЦИАЛЬНЫХ И ПОЛИТИЧЕСКИХ ТЕРМИНОВ

РЕЗЮМЕ

Статья посвящена определению место и роли общественно-политических терминов на основе английских, азербайджанских словорей. Объектом исследования в обоих языках, социальные и политические условия, предметом исследования различной направленности этих терминов, содержащихся в языковых словарей определяют роль семантического и структурного анализа. Очень широкий спектр социально-политической точки зрения, иметь место в лексиконе языка является неоспоримым фактом. Показано, что общественно-политическая терминологии является одним из важнейших путей обогашения словоря на английских, азербайджанских языках. В посредством азербайджанском языке усвоено немало обшественно-политических терминов прямого заимствования, полного калькирования и полукалькирование. Полукалькированием были созданы многочисленные производные термины и термины словосочетания на основе терминов языка-донора.

Rəyçi: dos.Xanbutayeva L.M.

XANBUTAYEVA LEYLA
Azərbaycan Dillər Universiteti

SİQNİFİKATİV CÜMLƏ QRUPLARI: İMPERATİVLƏR

Açar sözlər: siqnifikativ qruplar, imperativlər, psixolinqvistika, cümlə emalı, informativlik
Key words: significative groups, imperatives, psycholinguistics, production of the sentence, informativity
Ключевые слова: сигнификативные группы, императивы, психолингвистика, обработка предложение, информативность.

Əsas kommunikativ vahid olan cümlə bir çox dillərə xas bir sıra struktur-semantik və funksional əlamətlərə - məna bitkinliyinə, informativliyə, cümlə üzvləri və sözlər arasında məna və qrammatik əlaqəyə, modallığa, intonasiya bitkinliyinə və kommunikativ funksiyaya malikdir.

Sadə cümlələr dörd əsas siqnifikativ qrupa bölünür: 1. Deklarativlər, 2. Interroqativlər, 3. Imperativlər, 4. Eksklamativlər.

Bu dörd cümlə tipləri diskursda müxtəlif funksiya – statsmentləri (təsdiq cümlələr), sual cümlələri, direktivlər, nidalar – yerinə yetirirlər.

Bəzən elə sual cьmlə nцvləri ilə rastlaюəгəq ki, onlar sintaktik və semantik cəhətdən bir-birindən fərqlənirlər.

Məs. She bought this book herself ? (1)

What to do? (2)

I had rather visit these splendid places (3).

Isn't Mrs. Smith nice! (4).

Birinci cьmlə deklarativ sual formasə olub sintaktik cəhətdən deklarativ, semantik cəhətdən isə sual formasəndadər. Əkinci cьmlə ritorik sualdər; sintaktik cəhətdən sual, semantik cəhətdən isə təsdiq cьmlədir (statement). Ьзuncь cьmlə deklarativ cьmlə olub, semantik cəhətdən direktiv təklif irəli sьrьr. Nəhayət, dцrdьncь cьmlə sintaktik cəhətdən interroqativ, semantik cəhətdən isə nidadər. Lakin /How nice Mrs. Smith is!// desək, cьmlə həm sintaktik, həm də semantik cəhətdən nida cьmləsi olacaq.

Təsdiqdə olan cьmlələr fikri təsdiqləyə (1), qabaqcadan xəbər verə (2), və ya ьzrxahləq (3) ifadə edə bilər.

(1) It will snow tomorrow.
(2) It's going to snow any minute now.
(3) I'm sorry for my disturbing you.

Müasir dilçiliyin mərkəzi problemi bizim üçün yeni olan cümləni necə yaradıb başa düşməkdir. "Cümləni anlayıb yadda saxlamaq üçün müəyyən qaydalar sisteminə riayət etmək lazımdır. Məhz bunun sayəsində saysız-hesabsız

cümlə yaradıb başa düşə bilərik. Psixolinqvistikanın əsas problemlərindən biri də bu bacarığın təbiətini başa düşüb inkişaf etdirməkdən ibarətdir" (4, 14-15).

Cümlənin kroslinqvistik emalı universal hadisədir. Kommunikasiya prosesində cümlənin kroslinqvistik emalında (əsasən qrammatik kodlaşması) danışan aldığı mesajı kodlaşdırır. Danışan arzu olunan mesajı ötürmək üçün lazımı sözü seçir, sözlər arasında funksional asılılığı aydınlaşdırır, onları qanunauyğun formada düzür və onu yenidən artikulyasiya formasına qaytarır. Bu hal özünü bütün siqnifikativ cümlə tiplərində, o cümlədən imperativlərdə də göstərir.

Qrammatik kodlaşmanın birinci addımı "düşüncədən artikulyasiyaya (tələffüzə) gedən yoldur. Qrammatik kodlaşma elə prosesdir ki, burada leksik və sintaktik özəlliklər əsas götürülür. Bu proses iki mərhələdən ibarətdir: funksional və pozisyon (6).

Funksional emalın əsasını leksik materialın, sintaktik-semantik informasiyanın seçilməsi, qrammatik funksiyanın təyin edilməsi, pozisyon emalda isə leksik vahidlərin seçilməsi, mübtəda xəbər uzlaşması əsas götürülür.

Psixolinqvistik tədqiqatların çoxunda dilin universal sistem olması və cümlə emalının bu sistemdən asılı olmaması əsas götürülür. Tədqiqatçıları cümlənin konseptual uyğunluğu məsələsi də maraqlandırır. Konseptual uyğunluq dedikdə, mübtəda-xəbər uzlaşması, cümlənin məlumda, yoxsa məchulda işlənməsi, söz sırası və s. başa düşülür. Söz sırası cümlədə sözlərin ardıcıl düzülməsini, onlar arasındakı əlaqəni (subyekt-obyekt əlaqəsi) göstərməklə yanaşı, eyni zamanda başqa informasiya da verir. Cümlədə bir sıra funksional markerlər (the, a, with və s.) və sufikslər (-s, -es,-ed, -ing və s.) iştirak edir. Şübhəsiz, bu markerlər sözlərin daxil olduğu sinfi, başqa sözlərə olan münasibəti və mənanı bildirir.

Söz sırası və markerlər cümlənin qrammatik quruluşunu təşkil edir və vasitəsiz söz yığınından cümləyə çevrilməsində mühüm rol oynayır. Düzgün cümlənin qurulmasında isə sintaksisin mühüm əhəmiyyəti var. Sintaksisin öyrənilməsi bizi insan dili kimi mühüm əhəmiyyət kəsb edən bir aspektlə - dil və onun produktivliyi ilə üz-üzə qoyur.

İnsan şüurunda biliyin təqdimi və təşkilində kateqoriyalaşma əsas rol oynayır. Kateqoriyalaşma prosesinin obyekti- qavramanın koqnitiv mexanizmi kimi və beynimiz tərəfindən informasiyanın emalı xarici mühitin deyil, eyni zamanda insanın daxili aləminin məhsuludur. Kateqoriyalaşma prosesi özü dilin anlaması prosesində reallaşır. Məhz dil insanın daxili və xarici aləmini təmsil edir. Kateqoriyalaşma bacarığı insanda erkən baş qaldırır və tədricən dilə yiyələnməklə daha bitkin xarakter alır. Kateqoriyalaşma hadisəsi linqvistik hadisədir. Dil kateqoriyası haqqında danışarkən, ilk növbədə qrammatik kateqoriya nəzərdə tutulur. Belə ki, qrammatik kateqoriyalaşma konseptual setka əmələ gətirir və buna görə də qrammatikada əsas anlayışlar öz əksini tapır (5,13).

Cümlənin struktur-semantik və funksional əlamətləri içərisində modallıq xüsusi əhəmiyyət daşıyır.

Modalləpən ikiqьtblьyь V.A.Plunqyana imkan verdi ki, modalləpən 2 mənasənə ayərsən – qiymətləndirici və irreal modalləq. Qiymətləndirici modalləq - danəюanən sцyləmin məzmununa olan mьnasibətini təyin edir və ətraf aləm necə varsa onu elə təsvir edir. Эrreal modalləq-danəюanən danəюəq anənda юьurunda həkk olunmuю "alternativ dьnyanə" təsvir etməsidir və bu qьtblər bir-birilə səx baplədər (2).

Struktur linqvistikada feilin юəkil kateqoriyasə və imperativ qeyri-realləq ələmətlərinə gцrə birləюdirilir, xəbər юəkli ilə isə qarюə-qarюəya qoyulur. Struktur dilзilikdə feilin юəkil kateqoriyasə və əmr kateqoriyasə feilin xəbər юəkli ilə qarюə-qarюəya qoyulur. V.V.Vinoqradov imperativlə nidanə ortaq cəhətləri oldupuna gцrə yaxənlaюdərər.

Funksional dilзilikdə qeyri –realləpa realləq mənasə daюəyan obyektiv modalləq kimi baxələr. "Qeyri-real modalləq mənasə real həyatla ələqəsi olmayan situasiyanə təsvir edir, baюqa sцzlə sцyləmdə xəbər verilən hadisə ola bilsin ki, hez baю verməsin. Bu cьr xьsusiyyət eyni zamanda юəkil kateqoriyasəna da malikdir. Belə olan юəraitdə qeyri-real anlamda imperativ tamamilə qeyri-real modalləq zonasəndan зəxər və ayrəca kateqoriyaya зevrilir.

E.B.Raqozina daha bir modalləq nцvьnь qeyd edir. Bu situativ modalləqdə.Tədqiqatзələrən fikrincə, imperativ məhz bu zonaya aid olub obyektiv modalləpən bir hissəsidir (3). Эmperativlik elə formadər ki, onda həm юəkil, həm də xəbər юəklinin ələmətləri цzьnь gцstərir.

II юəxs formasə imperativin əsas formasə hesab olunur. Bu formanə "mərkəzi", "paradiqma əmələ gətirən" və ya "etalon" adlandərərlar. Эmperativin bu formasə elmdə mьbahisə dopurmur (5, 25).

Эllokutiv aktda imperativ cьmlələrdən geniю istifadə olunur. Эmperativlərdə illokutiv gьc kontekstdən asələdər. Эmperativlər *əmr* – Fire!; *qadapan* – Don't touch; *xahiє* – Shut the door, please; *зarpərəю* – Help!, məsləhət, *tцvsiyə* - Take an aspirin for your headache; *xəbərdarləq* – Be careful!, *təklif* – Let's have a smoke, *dəvət* – Come in and sit down; icazə - Help yourself; *xoє arzular* – Have a good time; *qarpəю* – Go to hell!, *mьstəqil dьєьntmə* - Let me see now və s. bildirir.

Эmperativ cьmlələr *and* və ya *or* - la bir-birinə birləєərsə, єərt implikasiyasə (mənasə) yaratməю olur. Bu zaman konstruksiyanən illokutiv gьcь dəyiюir (1, 832).

Sit next to Joan and she'll explain what you have to do. - Xahiє

Don't make any noise and I'll give you some ice-cream. - Sцz vermə

Make a move and I'll sgoot. - Hədə-qorxu

Don't eat so much or you'll be sorry. - Xəbərdarləq

Give him enough rope and he"ll hang himself – cьmləsi kandiюoinal konstruksiyasəna tam uypun gəlir.

Təlimatverici imperativlər tez-tez yazəda iюlənir. /Take one spoonful 3 times a day after meal//.

Эmperativlərdə yьksək nəzakət nьmayiю etdirmək ьzьn "please" və "kindly" sцzlərindən istifadə olunur. Məs. /Please eat up your dinner. Kindly move to the next seat//.

Эmperativlərdə tez-tez xahiю sual vasitəsilə də ifadə olunur. Məs. /Will you shut the door, please? Would you mind shutting the door? Could you shut the door?

"Do" kцməkzi feilinin kцməyilə pozitiv imperativ daha zox təkid bildirir. Эmperativlərdə "do"-nun iюlənməsi əsasən qadən və kiюi nitqi ьzьn xarakterikdir. Məs. Do have some more tea. Do let's go for a walk.

Эmperativlərdə adverbiallarən da bцyьk rolu vardər. Bu zaman konstruksiyalarda əsasən hərəkət bildirən feillər iюlənir. Məs. Forward! On your feet! Left! Right ! To the left ! Эside !

Adverbial birləєmə, eləcə də noun phrase+adverbial da imperativlik əmələ gətirə bilər. /Full speed ahead! Back to work! (1) All abroad! Everybody in side! Citizens to the left! (2)

Bu konstruksiyalarda iєlənən hərəkət feilləri əsasən səbəb bildirir, ismi birləєmə (Nph) isə vasitəsiz tamamləq olur. Məs. Hands up! Shoulders back!

Feilsiz əmr konstruksiyaları "with" ilə də müşayiət oluna bilir. Məs. On with the show! – (begin or continue the show?) Off with the head! (Cut off his head!) Out with it! (Tell me about it).

Tələbat, şərait, həyat tərzindən asılı olaraq, bütün dünya dillərində dil vahidləri mövcuddur ki, onlar hərəkətə çağırış ifadə edir. İmperativin qrammatik kateqoriyasına daxil olan bu vahidlər bütün dünya dillərinin qrammatikasında mövcuddur. Buna görə də imperativə həm qrammatik, həm də kateqoriyal vahid kimi baxmaq məqsədəuyğundur.

ƏDƏBİYYAT

1.Н.М.Пипченко. Современный русский язык. Синтаксис словосочетания и простого предложения. Минск, БГУ, 2008.

2.http://archieve.li/ Плунгян В.А. Общая морфология: Введение в проблематику.

3.Рагозина Е.В. Модальность вопросительных предложений в современном русском языке. Дисс.канд.фил. наук. Калининград, 2008.

4.Слобин Д., Грин Дж. Психолингвистика. Перевод с английского Е.И.Негневицкой / под общей редакцией и с предисловием доктора фил-ких наук. А.А.Леонтьева. М.: Прогресс, 1976.

5.Шетиева А.Т. Прагматика императива в русском языке Казахстана. Авт. Реф. Диссертации «доктор философии».

6. Florian Jaeger, Norcliffe E.J. The Cross-linguistic Study of Sentence production. Language and Linguistics Compass 3/4 , Blackwell Publishing Ltd, 2009.

ХАНБУТАЕВА ЛЕЙЛА

СИГНИФИКАТИВНЫЕ ГРУППЫ ПРЕДЛОЖЕНИЙ: ИМПЕРАТИВЫ

РЕЗЮМЕ

В данной статье речь идет о группе сигнификативных предложений, в том числе об императивных предложениях, их обработке, запоминании и понимании.

Будучи отдельной категорией, императивы составляют отдельную часть объективной модальности. Это такая форма, в которой выражаются признаки как сказуемой, так и побудительной форм глагола. Императивными предложениями широко пользуются в иллокутивном акте. В императивах иллокутивная сила зависит от контекста, хотя при обозначении ими условной импликации меняется иллокутивная сила этих предложений. Во всех языках мира существуют языковые единицы, которые выражают призыв к действию. Эти единицы, входящие в грамматическую категорию императива, существуют в грамматике всех языков мира. Отсюда считаем целесообразным рассматривать императивы как грамматическую, так и категориальную единицу.

KHANBUTAYEVA LEYLA

SIGNIFICATIVE SENTENCE GROUPS: IMPERATIVES

SUMMARY

The article deals with the significative sentence groups - mainly imperative sentences, their production, memorizing and understanding.

Imperatives have been the separate category that organizes a part of the objective modality. It is such a form in which the peculiarities of the indicative and imperative moods are preserved. Imperative sentences are widely used in the illocutary act and the illocutory force in imperatives depends on the context but when they denote conditional implication, the force of the illocutory is changed in these sentences. In all world languages exist language units which express a challenge to the action. These units entered to the grammatical category of the imperatives exist in all world languages. That's why it is appropriate to investigate the imperative both as grammatical and categorial unit.

Rəyçi: prof.A.Məmmədov

ARİFƏ HÜSEYNOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

İNGİLİS DİLİ FRAZEOLOGİZMLƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ ÜSULLARI

Ключевые слова: *полные фразеологические эквиваленты, неполные фразеологические эквиваленты, аналог, калка или буквальная методы перевода, литературные свойства, адекватное выражение мысли.*
Key words: *complete phraseological equivalents, incomplete phraseological equivalents, equivalent, analog, loan or literally, antonym translation methods, literary features, identical expression of the thought.*
Açar sözlər: *tam frazeoloji ekvivalentlər, natamam frazeoloji ekvivalentlər, analoq, təsviri , kalka yaxud hərfi, antonim tərcümə metodları, bədii xüsusiyyətlər, fikrin bədii ifadəsi.*

Frazeologiya dilçiliyin bir sahəsi olub frazeoloji vahidləri,onların təbiətini, nitqdə işlənmə funksiyasını öyrənir. Frazeologiya bölməsində öyrənilən sabit, leksik səciyyəli birləşmələr müxtəlif terminlərlə adlandırılır: "frazeoloji birləşmələr", "sabit söz birləşmələri", "frazeologizmlər" və.s. Bu birləşmələr iki və daha artıq sözün birləşməsindən əmələ gələn hər hansı birləşmə deyil, mənaca bütöv, sabit, leksik tərkibli, məcazi mənalı birləşmələrdir. Məsələn: to catch at a straw- saman çöpündən yapışmaq, to read between the lines – sətir altı mənanı anlamaq , to skate on thin ice- riskə getmək, to have on one's heart in one's boots. , həyacanlı olmaq.

Azərbaycan dilinin və şifahi xalq ədəbiyyatının zənginliyi ingilis dilində olan frazeoloji birləşmələrin bu dildə ekvivalentlərinin asanlıqla verilməsinə imkan verir.Fikri düzgün, aydın, məqsədəuyğun ifadə etməklə yanaşı onu cazibəli, təsirli,emosional bir formada vermək üçün dinləyicinin zehninə nüfuz edə biləcək dil vasitələrindən istifadə edə bilmək natiqin ən yüksək dil bacarığına malik olmasınının bariz göstəricisidir. Nitqi ifadəli, təsirli çatdırmaq üçün müxtəlif vasitələr və leksik vahidlər mövcuddur. Bu leksik vahidlərdən biri də dilin xalq fizionomiyası hesab olunan frazeoloji birləşmələrdir. Onların həm məzmun, həm də forma etibarı ilə zənginliyi və dildə əhatəli şəkildə ifadə tərzi alimlərin də diqqətindən kənarda qalmamışdır. Frazeologizmlərin daxili məna qurluşunun, xarici strukturunun , ayrı-ayrı dillərdə yeri və mövqeyinin açıqlanması, tərcümə olunma imkanlarının öyrənilməsi, milli və beynəlmiləl mahiyyətinin şərhi, praktik cəhətdən də aktuallıq kəsb edir.

Frazeologizmlərdən istifadə edə bilmək bacarığına malik olan insanlar fikirlərini daha dəqiq, qısa və idiomatik ifadə etməkdə çətinlik çəkmirlər. Onlar məfhumu dolayı vasitələrlə də olsa, konkret ifadə edir. Dilin

ekspressivliyində, emosionallığında frazeologizmlər spesifik xüsusiyyətlərə malik olduğundan bu və ya digər anlayışı ayrı-ayrı sözlərdən dəfələrlə təsirli və obrazlı ifadə edir. Hər bir dilin özünəməxsus frazeologizmləri vardır. İngilis dilinin frazeologiya dünyası çox zəngin və müxtəlifdir. Bu dilin frazeologizmlərinin əmələ gəlmə mənbəyi, əsasən xalq danışıq dili, yazılı ədəbiyyat və folklor olmuşdur. İngilis dilinin öyrənilməsinə geniş tələbat yarandığından bizim ölkəmizdə də bu dilin tədrisinə və öyrənilməsinə xüsusi diqqət verilir ki, bu da həmin dilin spesifik xüsusiyyətlərini bir daha araşdırmağa sövq edir. Bu dilin frazeologizmlərinin yaranma mənbəyi əsasən xalq danışıq dili, yazılı ədəbiyyat və folklor olmuşdur. Hər bir dildə frazeologizmlər özünəməxsus şəkildə dərk edildiyindən onların tərcüməsinin bir dildən digərinə çevrilməsi zamanı tərcüməçidən dillər arasındakı fərqi dəqiq bilməsi tələb olunur, bu da tərcümə prosesi zamanı orijinaldakı frazeologizmlərin xüsusiyyətlərini saxlamaq üçün hər iki dilə məxsus vasitələrdən istifadə edərək frazeoloji birləşmələrin ekvivalentini verməkdə bir- birinə mənaca yaxın tərcümə etməkdə kömək edir. Yuxarıda qeyd etdiyimiz kimi frazeologizmlər millilik xüsusiyyətlərinə məxsus olduğundan, onlar başqa dillərə tərcümə edildikdə təmsil etdiyi xalqın milli düşüncələrindən, eləcə də bədii əsərin kontekstindən uzaqlaşdırılmamalı, tərcümə edildiyi dilin tələblərinə cavab verməklə bərabər, həmin xalqın düşüncəsinə, zəkasına həkk oluna bilməlidir. Frazeologizmlərin tərcüməsində iki əsas amil götürülür; tərcümə olunacaq frazeologizmlərin tam anlaşılması və adekvat şəkildə ana dilində ifadə olunması. Tərcümə prosesində ingilis dilindən götürülmüş frazeologizm semantik, stilistik və qrammatik nöqteyi- nəzərdən təhlil olunur, frazeoloji birləşmənin leksik- qrammatik mənası və üslubi xüsusiyyətləri də müəyyən olunur. Bunlar müəyyənləşdirilərkən ana dilinin normaları ilə müqayisə edilməli ana dilində ifadə vasitələri də müəyyənləşdirilməlidir. Frazeologizmlər tərcümə üsuluna görə iki qrupa bölünür: ekvivalent frazeologizmlər, ekvivalenti olmayan frazeologizmlər. Ekvivalenti olan frazeologizmlər özləri də iki qismə ayrılır: tam frazeoloji ekvivalentlər, natamam frazeoloji ekvivalentlər. Leksik tərkib, bədiilik, grammatik quruluş, üslubi çalarlıq baxımından tərcümə olunduğu dilin frazeologizmlərin uyğun gələn, yaxud üst-üstə düşən dildə hazır şəkildə olan frazeologizmlərə tam ekvivalenti olan frazeologizmlər aiddir. Məsələn: to show somebody the door "bir kəsə qapını göstərmək", yaxud " bir kəsi qovmaq", to dig a pit for somebody "bir kəsə quyu qazmaq", to stick like a leech "zəli kimi yapışmaq", to frown one's eyebrows "qaşlarını çatmaq" ,in the sweat of one's brow, "alnının təri ilə", as cold as ice "buz kimi soyuq",to gnash the truth "dişlərinini qıcırtmaq"(Кунин А.В. Фразеология современного английского языка)

Bədiilik və məna baxımından tərcümə olunduğu dilin frazeologizmlərinə uyğun gəlməyən frazeoloji birləşmələr natamam ekvivalent frazeologizmlərdir, onların ifadəliliyini , emosionallığını tərcümə zamanı qoruyub saxlamaq vacibdir. Məsələn: golden opportunity "gözəl fürsət", to make a monkey out of somebody

"bir kəsi ələ salmaq", to be in black book "qara siyahıda olmaq", to burn the candle at both ends "ömrünü puç etmək" (Кунин А.В. Фразеология современного английского языка)

Natamam frazeoloji ekvivalentlər də üç qrupa bölünür. Tərcümə olunduğu dilin frazeologizmləri ilə mənaca uyğun, bədiilik və üslubi çalarlılıq baxımından yaxın olan , amma leksik tərkibinə görə fərqlənən natamam frazeoloji ekvivalent birləşmələrdir. Məsələn: the first portent "ilk müjdəçi", "ilk əlamət" , the game is not worth the candle "əl bulamağa dəyməz", don't count your chicken before they are hatched " cücəni payızda sayarlar".

İkinci qrupa daxil olan natamam frazeoloji ekvivalentlər tərcümə olunduğu dilin frazeologizmləri ilə mənaca uyğun, bədiilik, üslubi çalarlıq baxımından yaxın olsa da, bəzi formal əlamətlərinə, tərkibindəki sözlərin sayına və sırasına görə fərqlənirlər. Məsələn: all is not gold that glitters "hər parıldayan qızıl deyil" , strike while the iron is hot " dəmiri isti-isti döyərlər", there is no rose without thrown " tikansız qızılgül olmaz".
Bədiilik baxımından tam fərqli, amma tərcümə olunduğu dilin frazeologizmlərinin bütün xüsusiyyətlərini özündə əxz edən frazeologizmlər üçüncü qrupa aid olan birləşmələrdir. Məsələn: to be born with a silver spoon in one's month "xoşbəxt ulduz altında doğulmaq" ,as old as hills "dünya qədər qoca" Ekvivalentsiz frazeologizmlər dildə çoxluq təşkil edir. Bu qəbildən olan frazeologizmlərin tərcümə olunduğu dildə ekvivalenti yoxdur, onların tərcüməsi leksik vasitələrin köməyi ilə verilir, tərcümə zamanı onlara məxsus bədiilik, məna çalarları, ekspressivlik kimi xüsusiyyətlər də ifadə olunmur.

Frazeologizmlərin tərəflərini ayrı-ayrı söz hesab hesab etmək, eyni zamanda tərkib hissələrinə ayırmaq olmaz. Məsələn: to fall in love "eşqə düşmək", to kiss the hare's foot- "gecikmək", the green- eyed monster " qısqanc" . Semantik kriteriyaya əsasən sərbəst söz qruplarının tərkibi ayrılıqda işlənə bilir. Məsələn: a red flower, a teaspoon. Sərbəst birləşmələrin tərəfləri arasında sintaktik əlaqənin mütəhərrikliyi qabarıq şəkildə ifadə olunduğu halda, frazeoloji birləşmələrdə sabit və donuqdur. Frazeoloji birləşmələrin tərəfləri məcaziləşmə imkanlarına görə də fərqlənir, bəzi birləşmələrdə məcazilik güclü, bəzilərində zəif nəzərə çarpır. Məcazilik az və zəif olduqda isə sərbəst birləşmə ilə frazeoloji birləşmələri fərqləndirmək çətin olur. Frazeologizmləri bir sözlə də ifadə etmək olur. To make an attempt – to try, to make haste –to hurry, to offer an apology – to beg, to make a clean breast of- to confess, to get in one's nerves - to irritate, to haul down colours -to surrender, on the nose- exactly, to hang up one's boot- to retire. Məsələn: What will Mrs Grandy say? "camaat bizə nə deyər", Cordelia's gift "sakit incə qadın səsi" (Kinq Lir əsərinin qəhrəmanı Kordeliyanın səsi)(Кунин А.В. Фразеология современного английского язык
İngilis dilindən Azərbaycan dilinə frazeologizmlərin tərcüməsi əsasən ekvivalent,

analoq, təsviri, kalka və ya hərfi, antonim, müştərək, paralel tərcümə üsullarından istifadə etməklə verilir.

Ingilis dilindən Azərbaycan dilinə frazeologizmlərin mənasını, bədiilik xüsusiyyətlərini mükəmməl olaraq verə bildiyimiz tərcümə ekvivalent tərcümə üsuludur .Məsələn: winged words "qanadlı sözlər", black as coal "kömür kimi qara", Platonic love "platonik sevgi". Analoq tərcümə ingilis dili frazeologizmlərnin bədiilik xüsusiyyətlərini ya tam, ya da qismən fərqli ifadə edir. Məsələn: the observered of all observers "diqqət mərkəzi", to fall upon one "bir kəsin davamçısı olmaq ", pop the the question "evlənmə təklif etmək". Frazeologizmlərin tərcüməsi zamanı adekvat və anoloji tərcümə mümkün olmadığı halda təsviri tərcümədən istifadə olunur, bu zaman frazeologizmlərdə orijinaldakı bədiilik və ifadəlilik xüsusiyyəti ifadə oluna bilmir və sərbəst söz birləşmələri kimi tərcümə edilir. Məsələn: be in pink "sağlam görünmək", "gümrah olmaq", have a yellow streak "cəsarətsiz adam", "qorxaq" a black eye " gözünün altı göyərmiş", the dark ages " orta əsrlər" (Кунин А.В.Болъшой англо-русский фразеологический словаръ)

Tərcümə zamanı orjinaldakı fikrin adekvat şəkildə ifadəsi və frazeologizmlərin inkar konstruksiyasının təsdiq formada verilməsi isə antonim tərcümə üsulu adlanır. Məsələn: Don't count your chickens before they are hatched "cücəni payızda sayarlar", to keep one's hair on "əsəbləşmək", to keep above water "borca girməmək". Ekvivalentsiz frazeologizmlərin tərcüməsində milli koloriti saxlamaqla orijinaldakı frazeologizmin azərbaycan dilinə tərcüməsinin başqa üsulla verilməsi mümkün olmadıqda kalka və ya hərfi tərcümə üsulundan istifadə zərurətə çevrilir. Antik və mifik frazeologizmlərin tırcüməsində bu tərcümə üsulu daha mükəmməldir. Məsələn: David and Jonathan "Deyvid və Conatan", (Кунин А.В. Фразеология современного английского языка) Frazeologizmlərin tərcüməsində bədii dil baxımından hərfi tərcümə düzgün hesab olunmasa da cox geniş istifadə olunur. Məsələn: to put the cart before the horse "atı arabaya bağlamaq ", to won heart of somebody "kiminsə ürəyini qazanmaq", broken heart "qəlbini qırmaq",heart of stone " daş ürəkli" Frazeologizmlərin tərcüməsində tərcüməçilər aşagıdakı üsullardan da istifadə edirlər: frazeologizmlərə yeni komponentlər daxil etməklə, komponentləri başqa sözlərlə əvəz etməklə, komponentləri hissələrə ayırmaqla, onların komponentlərini sərbəst söz birləşmələrinin tərkibində işlətməklə və frazeologizmlərin bəzi komponentlərini saxlamaqla.

Ingilis dilindən Azərbaycan dilinə frazeologizmlərin tərcüməsində hər iki dilin leksik-semantik, qrammatik quruluşu arasındakı fərqli xüsusiyyətlər bəzi çətinliklər yaradır. Çətinlikləri yaradan səbəblərdən biri frazeologizmlərin düzgün seçilməməsi, sərbəst söz birləşmələri ilə eyniləşdirilməsi, digər səbəb frazeologizmlərin yanlış dərk olunmasıdır ki, bu da mətnin mənasının təhrif olunması ilə nəticələnir. Frazeologizmlərin orjinaldakı xüsusiyyətlərini

saxlamaqla tərcümə etmək üçün bu qaydalar nəzərə alınmalıdır; dil və üslub xüsusiyyətləri , məxsus olduğu xalqın milli xüsusiyyətləri, tərcümə olunduğu xalqın dilinin müxtəlif ifadə vasitələrindən, sinonimlərindən , tərcümə metodlarından düzgün istifadə , bədii əsərin kontekstindən uzaqlaşmamaq, tərcümə olunduğu dilin tələblərinə cavab vermək.

ƏDƏBİYYAT

1. Qurbanov A.Müasir Azərbaycan dilinin frazeologiyası. Bakı 1963,səh. 3-5
2. Кунин А.В.Болъшой англо-руский фразеологический словаръ. Москва 2005
3. Кунин А.В. Английская фразеология. Москва 1970, стр.7-12
4. Амосова Н.Н. Основы английской фразеологии. Ленинград 1963, стр.8-10
5. Arnold I.V. The English word. Moscow 1966, səh.165, 179,199.

АРИФА ГУСЕЙНОВА

МЕТОДЫ ПЕРЕВОДА АНГЛИЙСКИХ ФРАЗЕОЛОГИЗМОВ НА АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

РЕЗЮМЕ

В статье описываются методы перевода английских фразеологизмов на Азербайджанский язык. Эти методы были анализированы, лексико-семантические, грамматические свойства и отличия были определены. При переводе они должны сравниваться с нормами родного языка и средства выражения должны уточнятся. Сохранив свойства оригинальности фразеологизмов требования предъявленные к языку должны учитываться в процессе перевода.

ARIFA HUSEYNOVA

TRANSLATION METHODS OF ENGLISH PHRASEOLOGISMS INTO AZERBAIJANI

SUMMARY

The article concerns the translation of the phraseologisms from English into Azerbaijani. Their translation methods were investigated, lexico- semantic, grammatical features and differences have been determined. While translating phraseologisms they have to be compared with the norms of native language and expession means should be specified. Keeping original specifications the requirments to the language should be considered in the process of translation.

Rəyçi: R.X Şamiyeva
Pedaqogika üzrə elmlər namizədi, dosent

САБИНА МАМЕДОВА
АГЭУ "Кафедра иностранных языков"
e-mail: samira.jahangir@gmail.com

A PROFESSIONAL GROWTH PLAN FOR LIFELONG LEARNERS

Açar sözlər: invention – ixtira - изобретение
effort – səy - усилие
adapt – uyğunlaşdırmaq - приспосабливаться
content – məzmun - содержание
skills – bacarıqlar - навыки
reflection – əks - отражение
correlation – əlagələndirmə - взаимосвязь

I. Life-long Learning is a Necessity

The last century has brought an explosion of inventions, new technologies and new information about our world and universe. Teachers have had to keep up with all the new information and knowledge. What would it be like if they hadn't? Think back about 30 years. Classrooms in those days had chalkboards and pull-down maps. Now imagine for a minute what it would be like if this teacher had not adapted to change. What would she not have learned, embraced, and passed on to students? She would not have known much, if anything, about DNA. She wouldn't know how to use a personal computer, the internet or cell phones. It is easy to see that if we stand still the world will pass us by. We need to adapt and change. Life-long learning is a necessity for everyone.

Personal and Professional Development

In order to keep up with our changing environment and to stay informed, teachers make effort to continue learning. They will take part in professional training. Teachers attend workshops to keep up with technology, the newest teaching strategies, and classroom management techniques. They are eager to take in new information about our world and look for ways to improve their teaching practices in the classroom. At the end of a day it is helpful for a teacher to think deeply about the events of that day, to analyze him- or herself and therefore better understand and react to situations in the future. It is good to take time to remember happy events, a chance to feel content about good things that may have happened. One of the reasons it is so important for teachers to stay informed, is so they can pass this new knowledge and information on to students.

Teaching with Passion

If we can have "students see our passions – it gives them proof that we enjoy learning." (Thomas, 2007)

Investigating life-long learning and what it means made me think about what it means to me as a student and as a prospective future teacher.

It would be exciting to spark the imagination of children and watch them find the same joy that I have always felt when learning something new. I know I have much to learn to be able to know how to best pass on knowledge, as well as excitement about learning.

Most of my learning about teaching will come through the time spent in the classroom.

Life-long learning goes beyond the time spent at school; it goes beyond the classroom and beyond the teaching years. Life-long learning is an adventurous journey through life. Life-long learning has the ability to shape, influence, and determine the future.

Inspire teachers to be lifelong learners.

Time to share: By providing opportunities for teachers to share with each other, standards can be raised, knowledge can be gained and inspiration can be spread. Creating a learning community which is fired by the enthusiasm of others is a powerful way to move a staff of teachers forward on the path of knowledge. It is important to ensure that all teachers know and feel that we are all learning. A two minute session titled "I have recently learned ….." by teachers in a department, or wider staff meeting, could be a sensational way of igniting a flame in others.

II. A professional growth plan for lifelong learners

"Give a man a fish, feed him for a day. Teach a man to fish; feed him for a lifetime." The founder of Taoism, Lao Tzu, spoke these words over 2000 years ago. (Smith, xi) Education is similar to this principle. For centuries students were "fed" information and taught to memorize facts, in the hope they would retain a portion of what was taught. Today it isn't enough just to feed information to students. Our world is changing so fast that new information becomes available faster than it can be taught. If a nation wants to keep pace with this ever-changing world, then learning can't stop at graduation. Students as well as teachers must learn "how to fish" for knowledge by becoming life long learners. Teachers can become life-long learners by realizing and acknowledging that life long-learning is a necessity; by learning to keep up with changes through personal and professional development; and by teaching with passion, inspiring young minds to see learning as something wonderful.

The teacher is no longer done learning once they graduate from college. The teacher who does not continue studying and learning after becoming a teacher will be left behind. Learning can't stop at graduation. Teachers can become life-long learners by realizing and acknowledging that life long-learning is a necessity; by learning to keep up with changes through personal and professional development; and by teaching with passion, inspiring young minds to see learning as something wonderful.

Investigating life-long learning and what it means made me think about what it means to me as a student and as a prospective future teacher. The world has always been a very interesting, exciting, and beautiful place to investigate and to learn about. I can't imagine what my life would be like without that wonder and appreciation about learning new things. Life is so much more stimulating, rich and pleasurable when we engage our minds, use our imagination and fill our hearts with the beauty that surrounds us. Will would love to pass that excitement on to someone else. It would be exciting to spark the imagination of children and watch them find the same joy that have always felt when learning something new. Learn to be able to know how to best pass on knowledge, as well as excitement about learning. Learn how to become that teacher who can create those sparks that light up a child's eyes and light his or her path through life with inquisitiveness and excitement.

Transmission of information, learning in an open, professional system, continuously supported by special pedagogical methods and techniques becomes a commodity that can be brought. Even if e-learning cannot completely replace traditional learning methods, it can facilitate learning or even provide more effective solutions. Its success depends on the quality of the solution adopted and, of course, the degree of students' motivation.

The importance of fostering the professional growth of teachers, to embody and model the ideals of a lifelong learner, has become a new key component of the strategic planning of school officials. School leaders must invest in their teachers and staff to have the knowledge, skills, and abilities to create a learning environment. Teacher evaluations are intended to assist teachers to improve performance and grow professionally.

One of the major benefits of professional growth plans, for both novice and veteran teachers, is the fostering of continuous improvement of teaching practices through lifelong learning.

In an effort to foster teacher professional development and commitment to lifelong learning, professional growth plans should be tailored to meet specific needs of a teacher, based on a specific focused feedback.

A teacher should then be offered a wide selection of professional development activities that encourage a variety of learning strategies to be applied as the targeted content. Next, a selection will include: (a) using collaborative

learning through book study activities, (b) employing mentor and peer observations, (c) conducting research on best practices, (d) collaborating in online forums, (e) participating in workshops, (f) completing online trainings, and (g) completing reflections on her learning process and the newly acquired knowledge.

A teacher could consider furthering their educational career by taking online classes at a college or university to advance expertise in the targeted content, and manage their work and study time to pursue professional development opportunities.

Additionally, a teacher will be encouraged to select from the following activities to target any classroom management deficiencies: (a) participate in online professional development training on effective classroom management skills; (b) observe a veteran teacher or mentor modeling effective classroom management strategies; (c) conduct independent research on effective classroom management strategies; (d) videotape the implementation of observed strategies in class, and collaborate with a mentor to interpret and reflect on lessons; (d) generate alternatives to remediate observed weaknesses; and (e) maximise instructional practice by capitalising on observed strengths.

To foster teacher commitment to lifelong learning, educational leaders should understand what motivates adults to learn. A study examining motivational factors for adult lifelong learning indicated a strong correlation between lifelong learning and individual motivational dynamics: intensions, expectations, and benefits (Pires, 2009). There are multiple professional, personal, and social motivational factors that motivate adults to engage in lifelong learning activities: recognition, achievement, and growth. Adults are eager to learn if the information is relevant to help them cope with reallife problems, and perform more effectively. Internal motivational factors of increasing job satisfaction and improving self-esteem are significantly stronger than external factors (Popp, 2013). The findings of the study examining the impact of different types of motivation on continued learning suggest that adult motivation to learn lifelong can be improved if connected to structural and institutional conditions. If an educational institution conditions are conducive for a more extensive adult participation in learning and training activities, the employees are likely to engage in meaningful learning experiences throughout their lives.

III. Why Should Teachers Adopt a Lifelong Learning Mindset?

1. Lifelong Learning Helps Teachers Face Challenges

Kati Lepi's Edudemic article titled, "How to Become a Learning Teacher," references an infographic that captures several key points about lifelong learning and teachers: what it means to be a learning teacher, the types of learning that teachers do, and reasons to continue learning. Professional development days

don't necessarily target the areas in which teachers want to focus their learning or address their concerns. Teachers who adopt a lifelong learning mindset have access to information and use it to collaborate with others. Learning teachers also view mistakes and challenges as part of the learning process rather than as failures.

2. The Best Learning Happens on the Job

In her Edutopia post, Heather Wolpert-Gawron explains that to fully adopt a lifelong learning mindset, teachers must understand the ways in which it benefits their career and themselves. Wolpert-Gawron says that the best teachers are willing to learn from their students. She also contends she "learned more from other teachers, my students, and their parents than I learned from any class in my teacher-credential program…. In turn, when they saw my own enthusiasm for learning, students were more inclined to learn from me. And that's how my own happiness and growth has translated into the success of my students."

3. Lifelong Learning Makes Big Transitions on the Job Easier to Process:

Paul Jun also makes the case for becoming a lifelong learner: "By embracing a student-like mindset and learning to turn self-education into a daily habit, you can hone your current skills and develop new ones while enriching your mind. Then, when the time to adapt arrives, transitions are less bumpy." Teaching is by far the career that demands the most flexibility as schedules, students, standards, and regulations change nearly constantly. Teachers have to think on their feet when students ask questions, and the only way that they can approach the daily challenges of their career is to be a lifelong learner.

4. Lifelong Learning Fosters Creativity

Similarly, Fischer outlines some of the key reasons to adopt a lifelong learning mindset, and two of them are the most critical for educators. First, he explains that in the information age, people lack creativity (a debatable claim, but for the purposes of argument, let's run with it for now). He references a study that shows that lifelong learning positively influences creativity in individuals, groups, organizations, and countries. He also contends that for people to thrive in the 21st century, they must have the ability to proficiently use new technologies and media; learning to use these new technologies and media is a key component of lifelong learning.

Technology is an essential part of teaching and learning today, and teachers must be knowledgeable about technology in the classroom to meet state requirements and prepare their students for their futures outside the classroom walls.

Teachers must adopt a lifelong learning mindset to continually push themselves to learn new ways of facilitating learning and increasing student engagement. By taking courses and collaborating with colleagues on creative teaching methods including collaborative learning environments, flipped classrooms, and student-centered learning situations, teachers will reap the benefits of adopting a lifelong learning mindset and being innovative educators.

In Short

Can a teacher successfully educate students without becoming a lifelong learner? In the age of accountability and high stakes, it is unlikely. With all of the benefits and advantages that lifelong learners accrue, teachers who adopt this mentality are more than excellent educators: they're excellent models for their students.

Ədəbiyyat

1. Purva Chhabra Assistant Professor chhabra.purva@gmail.com

24. Adăscăliţei, A., 2007. Instruire asistată de calculator: didactică informatică, Polirom: Iasi.

2. Conole, G. & M. Oliver (ed.). 2007 Contemporary Perspectives in E-learning Research. London: Routledge.

3. Finke, A., Bicans, J., 2010. E-learning System Content and Architecture Evolution, Proc. of 16th International Conference on Information and Software Technologies IT.

4. Holmes, B., Gardner, J., 2006. E-Learning. Concepts and Practice, Sage Publications, London.

5. Moise, G., 2008. Contribuţii la modelarea şi conducerea proceselor de instruire online, utilizând tehnici de inteligenţă artificială, Universitatea Petrol-Gaze din Ploieşti.

6. Scheuermann F. & Francesc Pedro (ed.). 2009. Assessing the Effects of ICT in Education. Indicators, Criteria and Benchmarks for International Comparisons. Luxembourg: European Commission JRC/ OECD.

7. Wang, Y.M., 2007, Internet Uses in University Courses. International Journal on ELearning, 6(2). pp. 279–292 8. The use of ICT to support innovation and lifelong learning for all – A report on progress. Commission Staff Working Document, Commission of the European Communities, Brussels, 2008, Online: www.europa.eu/raport/press/

8. Intel Corp. 2009. Positive benefits of eLearning. White Paper. Intel World Ahead Program: Education.

9. International Communication Union. 2010. Measuring Information Society 2010. Geneva: ITU-D.

10. Organization for Economic Co-operation and Development. 2009. Education Today: The OECD Perspective. OECD.

11. (http://www.ziare.com/articole/invatare+limbi+straine)
12. http://www.apple.com/education/mobile-learning
13. http://www.englishtown.com/online/home.aspx
14. http://deepenglish.com/courses/method/

ПЛАН ПРОФЕССИОНАЛЬНОГО САМОСОВЕРШЕНСТВОВАНИЯ ЗНАНИЙ УЧИТЕЛЯ

РЕЗЮМЕ

Может ли современный учитель успешно обучить своих студентов без постоянного самосовершенствования своих знаний? Конечно нет. Только самообучение может быть прекрасным примером для своих студентов.

Необходимость профессионального роста учителей стала ключевым моментом стратегического планирования в учебных заведениях. Проведение тестирований и аттестаций учителей направлено на улучшение их работы и профессиональный рост путем выявления слабых сторон. Курсы и тренинги способствуют устранению недостатков в работе учителей.

Администрация учебных учреждений должна заботиться о повышении знаний и навыков своих учителей. Также важное значение имеет планирование профессионального роста учителей. Этот план должен содержать материалы для программы, перспективы обучения учителей. План включает в себя цель и средства повышения квалификации.

MÜƏLLİMLƏRİN PEŞƏKARLIĞININ ARTIRILMASI PLANI

XÜLASƏ

Biliyinin davamlı inkişafı olmadan müasir müəllim uğurla tələbələrə biliyi çatdıra bilərmi? Əlbəttə yox. Yalnız müəllimin öz üzərində biliklərinin inkişafı işı onun tələbələri üçün böyük bir nümunə ola bilər.

Məktəblərdə strateji planlaşdırma müəllimlərin peşəkar inkişafı üçün əsas element olmuşdur. Sərişdə və peşəkarlığın artımı məqsədi ilə keçirilən diagnostik test və qiymətləndirmə müəllimlərin zəif tərəflərini müəyyənləndirilməsinə yönəldilib. Kurslar və treninqlər müəllimlərin fəaliyyətində nöqsanların aradan qaldırılmasına kömək edir.

Təhsil müəssisələrin rəhbərləri öz müəllimlərinin bilik və bacarıqlarının artırılması üçün qayğı göstərməlidir. Eləcə də müəllimin peşəkarğının inkişafında planlaşdırılma mühüm əhəmiyyət kəsb edir. Həmin plana müəllimin hazırlığ perspektivləri və proqramı daxil edilməlidir. Plan müəllimlərin ixtisaslasrması üçün məqsəd və vasitələri özündə birləşdirir.

Rəyçi: prof.Abbasova. A.

ƏLİYEVA İ.B.,
f.e.n. VƏLİYEVA V.Ə.
Azərbaycan Tibb Universiteti

PEŞƏ HAZIRLIĞI VƏ SOSİAL KOMMUNİKASİYA PROSESİNDƏ NİTQ MƏDƏNİYYƏTİ

Açar sözlər: nitq mədəniyyəti, ünsiyyət, kommunikativ sərişdə, sosial kommunikasiya, tibbi diskurs.
Ключевые слова: культура речи, общение , коммуникативный навык, социальная коммуникация, медицинский дискурс
Key words: speech culture, communication, communicative ability, social communication, medical discourse.

Ölkəmizin sosial-iqtisadi, siyasi və ictimai-mədəni həyatında baş verən dəyişikliklər dil fəaliyyətinin nəzərdən keçirilməsinin zəruriliyini şərtləndirir. Bu fəaliyyət ünsiyyətin effektivliyinə nail olmaq üçün nitq mədəniyyətinin yüksəldilməsinə yönəlmişdir. Dil problemləri filologiya çərçivəsindən çıxaraq cəmiyyətin mənəvi problemləri ilə bir cərgədə durur. Axı nitq təkcə ünsiyyət vasitəsi deyil, o, eyni zamanda, psixikamıza, eləcə də bizi əhatə edən mühitə güclü təsir göstərir. Məhz buna görə də hazırda hər bir şəxsin nitq mədəniyyəti səviyyəsinin yüksəldilməsi probleminin həlli mənəvi dirçəlişin əsas şərtlərindən biridir. Sosial kommunikasiya prosesində nitq mədəniyyəti ictimai prosesləri nizama salır, cəmiyyətin bütöv sistem kimi inkişafını təmin edir. Sosial mədəniyyətin müəyyən səviyyəsinin ifadəsi kimi nitq mədəniyyəti üçün səciyyəvi olan budur ki, o, hər zaman insanların şüuruna, davranışına və fəaliyyətinə təsir göstərir. Həm subyekti, həm də obyekti insan olan nitq mədəniyyəti sosial kommunikasiya faktorudur. Nitq mədəniyyətinin spesifikası bütövlükdə cəmiyyətin mədəniyyəti ilə müəyyənləşir. Onun proqressiv inkişafının göstəricisi ictimai sistemin təkmilləşdirilməsidir. Bu isə sosiumin hərtərəfli inkişafı üçün vacibdir. Nitq mədəniyyəti insan mədəniyyətinin mühüm elementi sayılır, onun inkişafı isə sosial kommunikasiyanın həyata keçirilmə prosesidir.

Nitq fəaliyyətinin optimallaşdırılması üçün lüğət ehtiyatını inkişaf etdirmək və zənginləşdirmək kifayət deyil. Sosial kommunikasiya prosesində nitq mədəniyyəti aspektlərinin üzə çıxarılması və öyrənilməsi praktik zərurətə çevrilmişdir. "Unutmaq olmaz ki, nitq mədəniyyəti geniş mənada fikir, zəka və düşüncə mədəniyyətidir. İnsanın öz fikir və düşüncəsini danışığında dolğun, düzgün ifadə edə bilməsi onun kamil və mədəni nitqə malik olmasının əsas əlamətidir" (4, 12).

Ana dilinə dərindən yiyələnmə, ünsiyyət yaratmaq və dialoq aparmaq

bacarığı, kommunukasiya prosesində uğur qazanmaq – müxtəlif fəaliyyət sahələrində peşə bacarıqlarının mühüm tərkib hissəsidir. "Ali məktəbləri bitirdikdən sonra gənclər elə situasiyalarla qarşılaşırlar ki, orda yalnız professional sahədə əldə etdikləri bilik və bacarıqlarla kifayətlənmək olmur. Möhkəm iradə, prinsipiallıq, təşkilatçılıq, məsələlərin öhdəsindən gəlmək üçün insanları öz ətrafında toplamaq, başqalarının, eləcə də özünün fəaliyyətinə qiymət vermək və s. kimi bacarıqlara yiyələnmək lazım olur ki, bunların da təməli məhz ali məktəbdə qoyulmalıdır" (1). Ali təhsilli mütəxəssis hansı sahədə işləyirsə-işləsin, daim dəyişən informasiya məkanında sərbəst fəaliyyət göstərən, düzgün istiqamətlənə bilən bir ziyalı olmalıdır. Məhz buna görə də son illərdə zamanın tələblərinə cavab verən "Azərbaycan dili və nitq mədəniyyəti" fənni ali məktəblərin, o cümlədən Azərbaycan Tibb Universitetinin tədris proqramına daxil edilmişdir. Bununla əlaqədar ali məktəblərdə tələbələrin yalnız gələcək mütəxəssis kimi deyil, həm də təhsilli, hərtərəfli inkişaf etmiş, savadlı, mədəni insanlar kimi yetişdirilməsi məsələsi daha da aktuallaşır. Bu fənn şəxsiyyətin peşə fəaliyyətinə olan müasir tələblər çərçivəsində mütəxəssis hazırlığının inkişafına kömək edəcəkdir.

Kursun müasir tələblərə uyğun şəkildə tədrisinin təşkili dil normalarının, şifahi və yazılı nitq qaydalarının mənimsənilmə səviyyəsinin inkişafı üçün yeni yolların axtarışının zəruriliyini şərtləndirir. Tədris prosesində iki istiqaməti – nəzəri əsasları və nitq inkişafını birləşdirmək lazımdır. Bu kursda tələbələrin nitq mədəniyyəti inkişaf etdirilməli, onlara öz fikirlərini ifadə edə bilmək və sənədləri savadlı şəkildə hazırlamaq öyrədilməlidir.

Azərbaycan dili üzrə biliklərin keyfiyyətinin yüksəldilməsi ünsiyyət mədəniyyətinin inkişafına kömək edir. İnsanın nitq mədəniyyəti ümumi mədəniyyətin tərkib hissələrindəndir, düşüncə mədəniyyəti, davranış mədəniyyəti ilə bağlıdır, şəxsiyyətin mənəvi simasının keyfiyyətini müəyyən edir, kommunikativ fəaliyyətin effektivliyinə təsir göstərir. Elmi-pedaqoji ədəbiyyatın təhlili, tələbələrlə iş təcrübəsi göstərir ki, tələbələr yüksək səviyyəli nitq mədəniyyətinə malik deyildir, üslubiyyat üzrə bilikləri zəifdir, düzgün nitqin keyfiyyətləri barədə təsəvvürləri səthidir. Tələbələrin nitq mədəniyyətinə dair bilikləri ilə konkret kommunikativ situasiyalar arasında ziddiyyət var. Onlar müxtəlif şifahi və yazılı mətnlərin tərtibi zamanı müxtəlif tipik situasiyalarla qarşılaşır. "Azərbaycan dili və nitq mədəniyyəti" fənni ana dilinə dair bilik səviyyəsinin, normaların, nitqin qurulması qaydalarının, savadlı yazının təkmilləşdirilməsi, müəyyən dərəcədə, tələbələrin ali məktəbdə tədris prosesinə uyğunlaşmasını asanlaşdırar, çünki mühazirəçinin nitqinin daha yaxşı anlaşılmasına və qavranılmasına kömək edir, tələbə şəxsiyyətinin, gələcək mütəxəssisin kommunikativ-nitq keyfiyyətlərini inkişaf etdirir və təkmilləşdirir.

Tələbələrin peşə hazırlığı prosesində ana dili üzrə biliklərin keyfiyyətinin təkmilləşdirilməsi və nitq mədəniyyətinin inkişafı üçün elmi cəhətdən

əsaslandırılmış psixoloji-pedaqoji və metodik əsasların işlənib hazırlanması çox aktualdır. Bu aktuallıq həmin məsələnin ictimai əhəmiyyəti və praktik zəruriliyi ilə şərtlənir.

Lakin bu sahədə bəzi ziddiyyətlər özünü göstərir:

1. Qeyd etdiyimiz kimi, mütəxəssis keyfiyyətli biliyə, yüksək şifahi və yazılı kommunikasiya mədəniyyətinə, işgüzar ünsiyyət vərdişlərinə malik olmalı, ana dili vasitələrindən aktual və peşəkar fəaliyyət sahələrində optimal şəkildə istifadə etməyi bacarmalıdır. Müasir cəmiyyətdə bir çox sahələrdə yüksək ixtisaslı mütəxəssisə ehtiyac olsa da, psixoloji-pedaqoji cəhətdən həmin məsələnin həllinin nəzəriyyəsi kifayət qədər işlənilməmişdir;

2. Tələbələrdə nitq mədəniyyətinin keyfiyyətinin yüksəldilməsi məsələsi üzrə mövcud müxtəlif elmi tədqiqatlar aparılmışdır. Lakin tədris prosesində onların həyata keçirilməsini təmin edəcək metodika kifayət qədər işlənilməmişdir;

3. Qrammatika, stilistika və nitq mədəniyyəti üzrə mövcud metodik əsərlər bir çox hallarda tədris prosesində tətbiq olunmur;

4. Tələbələrdə nitq mədəniyyətinin şəxsiyyətin ümumi mədəniyyətinin əsası kimi inkişaf etdirilməsinin zəruri olduğunu yuxarıda qeyd etmişdik. Lakin tədris prosesində onun formalaşması üçün pedaqoji texnologiyalar kifayət qədər işlənilməmişdir.

Həkimlik insanlarla çox ünsiyyətdə olan sahədir. Həkimlik fəaliyyətinin linqvistik aspekti hər zaman həm tibb işçilərinin özləri, həm də tədqiqatçılar – psixoloqlar, filosoflar, dilçilər üçün böyük maraq kəsb etmişdir. Sözlə təsir etmək həkimin pasiyentlə rabitə yaratmasının ən vacib anıdır, müalicənin uğurla aparılmasına kömək edir. Dil mədəniyyəti həkimin ümumi peşə səriştəsinin zəruri şərtidir.

Bütün dövrlərdə ən yaxşı həkimlər pasiyentlə olan ünsiyyətin böyük əhəmiyyətini başa düşürdülər və müalicə məqsədilə pasiyentə şüurlu şəkildə təsir göstərirdilər. XIX əsrin məşhur psixiatrları qeyd edirdilər ki, inandırmanın mənəvi gücü müalicə prosesinin ən vacib tərkib hissələrindəndir.

Pasiyentə nitqlə təsirin kəsərli üsullarının aşkar edilməsi müasir həkimlərə imkan verir ki, pasiyentlə maksimum effektiv ünsiyyət yaratsın. Buna görə də hər bir həkim tibbi diskursun strategiya və taktikasını bilməli, praktikada onları tətbiq etməyi bacarmalı, pasiyentlə ünsiyyətdə nəzakət qaydalarına və nitq etiketinə riayət etməli, ona hörmət göstərməlidir.

M.İ.Barsukova həkimin nitq davranışının üç müəyyənedici strategiyasını göstərir: diaqnostik, müalicəvi və tövsiyyəedici. Onun fikrincə, bu və ya digər taktikanın seçiminə bir çox meyar təsir göstərir: həkim şəxsiyyətinin tipi, pasiyentin tipi, xəstəliyin xarakteri, ünsiyyət situasiyaları və s. (2).

Çox vaxt pasiyent öz fiziki və mənəvi vəziyyətini real qiymətləndirmək iqtidarında olmur. Həkimin kommunikativ kompetensiyası, dil vasitələri toplusundan ən məqsədəuyğun olanlarını seçmək və tətbiq etmək bacarığı

pasiyentlə apardığı söhbətlərdə böyük rol oynayır. "Həkimin peşə kompetensiyası onun nitq mədəniyyətinin səviyyəsindən, sözdən istifadə bacarığından asılıdır. Bununla əlaqədar tibb işçilərinin (hər şeydən əvvəl, peşəkar həkimlərin) dil xüsusiyyətləri, onların nitq davranışı linqvistik tədqiqatların mühüm obyektidir" (2, 3).

XX əsrin 60-cı illərində psixologiyanın bir elm kimi inkişafı ünsiyyət probleminin sırf sosial psixoloji problem kimi işlənilməsini müəyyənləşdirdi. Lakin bu məsələyə müxtəlif baxışlar var. Məsələn, B.F.Lomov "ünsiyyət" anlayışını yalnız sosial psixologiya sferası ilə məhdudlaşdırmağı düzgün saymır və "ünsiyyət"i "fəaliyyət" anlayışından ayırır. V.Q.Ananyev L.S.Vıqotskinin ardınca ünsiyyəti insan fəaliyyətinin növlərindən biri sayır: əmək, şüur, ünsiyyət. A.A.Leontyev də bu fikrin tərəfdarıdır. Buna uyğun olaraq, ünsiyyət – onun iştirakçılarının birgə fəaliyyət ehtiyacından doğan, informasiya mübadiləsini və vahid fəaliyyət strategiyasını özündə birləşdirən qarşılıqlı təsir prosesi, iştirakçılar arasında əlaqə yaradılması prosesidir (5). "Kommunikasiya (ünsiyyət) prosesi əsasən aşağıdakı ünsürlərdən ibarətdir: danışan, dinləyən, məkan, zaman, məqsəd, məna, üslub, tələffüz" (8, 174). K.Obuxovski ünsiyyəti geniş fəlsəfi-antropoloji planda şərh edir: ünsiyyət – insanın yalnız sadəcə fəaliyyəti deyil, qarşılıqlı fəaliyyətidir, bir subyektin digərinə (birinə və ya bir çoxlarına) qarşı praktik aktivliyinin təzahürüdür, subyekt-subyekt münasibətləri ünsiyyətin mahiyyətini təşkil edir (6; 7, 45-67).

Ünsiyyət probleminin psixoloji aspektlərini araşdıranlardan K.A.Abulxanova-Slavskaya, B.Q.Ananyev, V.İ.Andreyev, A.Q.Asmolov, A.A.Bodalev, M.S.Kaqan və b. adlarını qeyd etmək olar. Fəlsəfi planda ünsiyyət problemləri B.Q.Ananyevin, M.S.Kaqanın, Y.L.Kalaminskinin, A.A.Leontyevin, A.N.Leontyevin, V.F.Lomovun, A.V.Petrovskinin, S.L.Rubinşteynin və b. əsərlərində nəzərdən keçirilir.

Lakin nitq mədəniyyəti bizi ali məktəb kursu kimi maraqlandırdığından, pedaqoji tədqiqatlar çox vacibdir. Elmi-pedaqoji ədəbiyyatın təhlili göstərir ki, nitq kommunikativ bacarıqlarının inkişaf etdirilməsi məsələlərinə xeyli tədqiqat həsr olunmuşdur (T.A.Ladıjenskaya, A.A.Leontyev, A.K.Mixalskaya və b.). İşgüzar ünsiyyətə hazırlığın müxtəlif aspektləri V.İ.Andreyeva, F.A.Kuzina və b. əsərlərində nəzərdən keçirilir.

Tələbələrdə nitq mədəniyyətinin inkişafı prosesi "Azərbaycan dili və nitq mədəniyyəti" fənninin tədrisi zamanı aşağıdakıları nəzərə almaqla effektiv ola bilər: 1)tələbələrdə kommunikativ mədəniyyətin inkişafının elmi üsulları diferensial yanaşma əsasında işlənib hazırlanarsa; 2)tələbələrin şifahi və yazılı nitqinə aid olan, nitqin kommunikativ normalara uyğunluğunu müəyyən edən vahid tələblər işlənib hazırlanarsa; 3)tələbələrdə nitq mədəniyyətinin inkişafı prosesinin metodik təminatı varsa: yəni a)təlimə diferensial yanaşmanı nəzərə almaqla proqram və didaktik materiallar hazırlanmışsa; b)didaktik materiallardan

istifadə formaları işlənilib hazırlanmışsa: anlayış, qayda və normaların öyrədilməsi tələbələrlə iş zamanı müxtəlif səviyyəli tapşırıqlarla, ümumiləşdirici cədvəllərlə, nümunələrdən istifadə edərək və ya müstəqil şəkildə müxtəlif üslublu və janrlı mətnlər tərtib etməklə təmin olunursa; c)kursun tədrisi zamanı diferensial yanaşma əsasında auditoriya və auditoriyakənar işin müxtəlif formaları (fərdi, frontal, fərdi-qrup, müstəqil) və təlim metodları (izahlı-illüstrativ, reproduktiv və evristik) uzlaşdırılırsa; 4)fənn üzrə tələbələrin bilik səviyyəsinin yüksəldilməsinə nəzarət ənənəvi və innovativ formalar vasitəsilə həyata keçirilirsə.

Bütün bu məsələlərin yerinə yetirilməsi üçün qarşıda bir sıra vəzifələr durur:

1.Psixoloji-pedaqoji və metodik ədəbiyyatın öyrənilməsinə və pedaqoji təcrübənin ümumiləşdirilməsinə əsaslanaraq, gələcək mütəxəssislərdə nitq mədəniyyətinin inkişafının elmi əsaslarını işləyib hazırlamaq;

2.Fənn üzrə proqram və didaktik materialların hazırlanması;

3.Nitq mədəniyyətinin inkişafının və ana dili üzrə biliklərin (xüsusən orfoqrafiya və stilistika) təkmilləşdirilməsinin təmin edilməsi üçün tədris prosesində didaktik materialların istifadə formalarını işləyib hazırlamaq;

4.Tələbələrin bilik səviyyəsini yüksəltmək və nitq mədəniyyətini inkişaf etdirmək üçün ənənəvi və innovativ nəzarət formalarının əhəmiyyətini müəyyən etmək.

Nəzərə almaq lazımdır ki, tələbələrin hazırlıq səviyyəsi müxtəlifdir və müxtəlifsəviyyəli tapşırıqların və tədris prosesinə fərdi-diferensial yanaşmanın köməyi ilə təlim üçün psixoloji cəhətdən rahat şəraitin yaradılması zəruridir. Bu təkcə istedadlı və yaxşı oxuyan tələbələrə deyil, bütün tələbələrə aid edilməlidir.

1.Fərdi-diferensial yanaşmanı praktik məşğələlərdə (seminarlarda), konsulta-siyalarda, tələbələrin fərdi işlərində (onların praktik məşğələlərə hazırlığı, monoqrafiya və məqalələrin lazım olan fəsillərinin konspektləşdirilməsi, cədvəl və sxemlərin tərtibi, referat və məruzələrin yazılması və s.) tətbiq etmək, tələbə işlərinin portfelinin hazırlanması.

2.Tələbə hansı səviyyəli tapşırığı yerinə yetirəcəyini özü müəyyənləşdirir. Tapşırıqların mürəkkəbləşməsi onların yerinə yetirilməsi üçün zəruri olan iş növünün dəyişilməsi, yaradıcı fəaliyyətin genişlənməsi hesabına həyata keçirilir. Diferensial yanaşma tələbələrin kursu daha tez və dərindən mənimsəməsi arzusunu reallaşdırır.

Məşğələlərin böyük həcmli və müxtəlif mürəkkəbliyə malik tədris materialı ilə zənginləşdirilməsi tələbələrin fəallaşmasına, xüsusilə nitq mədəniyyətinin inkişafına imkan verir.

4.Müxtəlif səviyyəli tapşırıqlardan istifadə məşğələ boyu hər tələbənin dərsə cəlb olunmasına imkan verir. Səviyyəli diferensiasiyadan istifadə nəticəsində məşğələlər daha dərin məzmunlu, tərbiyəvi xarakterli, tələbələrin biliyini zənginləşdirən və genişləndirən dərslərə çevrilir.

5.Tələbələr dilin müxtəlif təsvir-ifadə vasitələrindən dəqiq və yerində

istifadə edərək öz nitqini və mövqeyini aydın, düzgün, ardıcıl və inandırıcı şəkildə ifadə etməyi öyrənir, nitq üzərində müşahidə aparmaqla nöqsanları tapıb səbəbini müəyyənləşdirmək, nitq mədəniyyəti ilə bağlı çalışmalar hazırlamaq vərdişlərinə yiyələnirlər.

6.Savadlı və mədəni nitqin formalaşdırılması kommunikativ səriştənin inkişaf etdirilməsi ilə birbaşa bağlıdır. Çünki "Nitqin kommunikativliyi dedikdə onda bir sıra cəhətlərin olması nəzərdə tutulur. 1. Dildən istifadə səriştəliliyi – dil, eləcə də onun quruluşu, sistemi, dil vahidlərinin nitqdə işlənməsi qanunauyğunluqları, ədəbi dilin orfoepik, leksik və qrammatik normalarından istifadə etmək qabiliyyətidir; 2. Dil səriştəsi əsasında aşağıdakılardan ibarət xüsusi kommunikativ səriştə formalaşır: 1) Professional fəaliyyətdə qarşılıqlı təsirin şifahi metodlarından istifadə etmək bacarığı; yəni həm professionallarla (həmkarları ilə), həm də qeyri-professionallarla (tələbələrlə, valideynlərlə və s.) əlaqə yaratmaq; hər cür münaqişənin öncədən qabağını almaq; 2) Həm şifahi, həm də yazılı nitqlə informasiya alıb ötürmək vərdişləri; mövcud faktları və göstərişləri savadlı və asan dildə yazmaq" (3, 5). Kommunikativ səriştədə ünsiyyət situasiyasına uyğun olaraq, lazımi linqvistik formanı, ifadə üsulunu seçməyə imkan verən xüsusi kommunikativ vərdiş və bacarıqlar mühüm yer tutur. Həmin bacarıqları yalnız linqvistik səriştə bazasında formalaşdırmaq olar. Müxtəlif janrlı mətnlərin tərtibi tələbələrdə sözü dəqiq və yerində işlətmək, onun bu və ya digər nitq üslubu ulə əlaqəsini anlamaq bacarığını inkişaf etdirməyə kömək edir.

"Azərbaycan dili və nitq mədəniyyəti" fənni ümumtədris xarakterə malikdir. Lakin tələbələrin gələcək əmək fəaliyyətinin spesifikasını nəzərə alaraq, ona peşə yönümü də verilməlidir. Bu fənnin öyrənilməsinin peşəkar istiqaməti şifahi və yazılı nitqin tələbəyə, gələcək mütəxəssisə vacib olan peşə əhəmiyyətli janr və üslublarına yiyələnməni nəzərdə tutur: peşə leksikasından, terminologiyadan savadlı istifadə, hər bir konkret ünsiyyət situasiyasında nitq etiketi qaydalarını tətbiq etməyi bacarmaq.

Diferensial təlim dərs prosesində fərdi yanaşma üçün optimal şəraitin yaradılmasına yönəldilmişdir. Tələbənin marağını, şəxsi keyfiyyətlərini və fərdi xüsusiyyətlərini müəyyən etməklə ona yanaşmaq da nitq fəaliyyətinin formalaşmasına imkan yaradır. Tələbələrə elə tapşırıqlar verilir ki, təkcə öyrədici xarakterə malik deyil, həm də analitik bacarıqların inkişafına kömək edir.

Bu fənnin tədrisinin son məqsədi – ünsiyyətin vəzifələri və şərtlərinə uyğun olaraq, dil vasitələrindən düzgün və yerində istifadə edərək, şifahi və yazılı formada başqalarının fikirlərini qavramaq və öz düşüncələrini ifadə etmək bacarığının formalaşmasıdır. Tələbələrin Azərbaycan ədəbi dili normalarını effektiv və şüurlu şəkildə qavramasına kömək edən metodik üsul və formalar kimi tədris fəaliyyətinin müxtəlif növlərindən istifadə etmək olar. Bunların arasında daha uğurlu olanlar bunlardır: ümumiləşdirici cədvəllərin tərtibi və onlar üzərində iş; mətnlərin redaktəsi (qrammatik, üslubi və nitq səhvlərinin düzəldilməsi) ilə

bağlı iş; nümunə mətnlər əsasında xarakterik üslubların öyrənilməsi və həmin üslubda öz mətnlərini hazırlamaq; müxtəlif tapşırıqların yerinə yetirilməsi.

Cədvəllərin tətbiqi ilə keçirilən seminar məşğələlərində nəzəri material daha yaxşı qavranılır və tələbələrin nitqini inkişaf etdirən tapşırıqların yerinə yetirilməsinə daha çox vaxt ayrılır.

Auditoriyadankənar işdə aşağıdakılardan istifadə olunur: tələbə işləri "portfelinin" yaradılması; məsləhət saatları; referatların yazılması; məşğələlər üçün əyani materialın hazırlanmasında müəllimə kömək (cədvəllər, plakatlar, sxemlər və s.); praktik məşğələlər üçün ev tapşırıqlarının hazırlanması (tədris, elmi, publisistik və bədii ədəbiyyat oxumaq, suallara cavab, konspektləşdirmə, yaradıcı tapşırıqlar).

Tələbə "portfeli" – tələbələrin sərbəst işlərinin komplektidir, semestr ərzində yerinə yetirdiyi bütün işlərin toplusudur. Tələbə sistematik olaraq öz fəaliyyətinin nəticələrini izləmək imkanına malik olur, daha maraqlı işlərini seçib ayırır, nəzərdə tutulmuş struktur əsasında təşkil edir. O, müstəqil şəkildə və ya müəllimin köməyi ilə təhlil edə bilər ki, işində mənfi, yaxud müsbət cəhətlər hansıdır, hansı nailiyyətləri var, nəyə daha çox diqqət yetirmək lazımdır. Təcrübə göstərir ki, sərbəst işin və özünüyoxlamanın bu növü nitq mədəniyyətinin inkişafı üçün çox effektivdir.

Müəllim tərəfindən əvvəlcədən müəyyən edilmiş üsulların köməyi ilə sistemləşdirmə zamanı öyrənilən material barədə məlumatlar və təsəvvürlər tələbəni dərslik və mühazirələrdəki materialı müstəqil və şüurlu şəkildə təhlil etməyə stimullaşdırır.

Bədii və publisistik ədəbiyyatdan, müxtəlif janrlı əsərlərdən seçilmiş mətnlərdən istifadə edərək ədəbi dil normalarını mənimsəmə dil hadisələrinin qanunauyğunluqları, qarşılıqlı münasibətləri haqqında məlumatları genişləndirir, tələbələri dilə və nitq mədəniyyətinə tədris, daha sonra peşə kommunikasiyasının bir vasitəsi kimi dəyər verməyə yönəldir. Müəllim situativ mətnləri seçərkən həmin mətnlərin tələbələrin nitqinin inkişafına nə dərəcədə kömək göstərəcəyini nəzərə almalıdır. Kollektiv və fərdi-diferensial formada aparılan işlər tələbələrə imkan verir ki, idraki fəallığı və intellektual bacarıqlarını inkişaf etdirsin (diskussiya və dialoq aparmaq vərdişi; dil hadisələrinin analizi və qiymətləndirilməsi; şifahi və yazılı nitqin peşə əhəmiyyətli janrlarını mənimsəmə).

Fərdin və sosial qrupların sosial kommunikasiya prosesində nitq davranışı nitq mədəniyyətinin əsas keyfiyyətlərini nəzərə almaqla qurulmalıdır ki, bunlar da nitq normalarının, etik biliklərin, nitq fəaliyyətində vərdiş və bacarıqların birliyidir.

Beləliklə, nitq mədəniyyəti cəmiyyətin hər bir üzvünün geniş sosial fəaliyyətə cəlb olunmasına kömək edir. Bu zaman əsas şərt hər bir şəxsin cəmiyyətdə baş verən proseslərlə əlaqədar olmasını dərk etməsidir. Ölkəmizdə dil mədəniyyətinin formalaşması və inkişafı məsələsində təhsil sferasına xüsusi diqqət

yetirilir. Müasir şəraitdə təhsilin bütün mərhələlərində fasiləsiz dil hazırlığı zərurəti meydana çıxmışdır. Təhsil sistemi vasitəsilə dil tərbiyəsi və özünütərbiyə baş verir. Nitq mədəniyyətinin inkişafı üçün hər sosial qrupa və nitq fəaliyyətinin konkret növünə diferensial yanaşma tələb edən effektiv sosial texnologiyaların olması vacibdir.

ƏDƏBİYYAT

1. Ağayeva A. Mühəndis və nitq mədəniyyəti (Elektron resurs - http://arxiv.az/az/xalqqazeti.com/60509628)
2. Барсукова М.И. Медицинский дискурс: стратегии и тактики речевого поведения врача. Автореф. дис. на соиск. учен. степ. канд. филол. наук. Саратов, 2007, 21 с.
3. Bayramov A., Məhərrəmov Z., İsgəndərzadə M. Azərbaycan dili və nitq mədəniyyəti (ali məktəb tələbələri üçün dərs vəsaiti). Bakı, "ULU", 2015, 236 s.
4. Hacıyev A.N. Nitq mədəniyyəti milli mədəniyyətin tərkib hissəsidir // "Ali məktəblərdə dillərin öyrədilməsinin müasir problemləri". Ali məktəblərarası VII elmi-praktik konfransın məruzə və bildirişlərinin tezisləri (dekabr 2004-cü il). Bakı, "Kitab aləmi", 2004, s.12-13
5. Ломов Б.Ф. Проблема общения в психологии. Москва, 1981. -279
6. Обуховский К. Психология влечения человека (Электронный ресурс - http://royallib.com/read/obuhovskiy_kazimeg/psihologiya_vlecheniy_cheloveka.html#0)
7. Обуховский К. Психологическая теория строения и формирования личности // Психология формирования и развития личности. Москва, 1981, с. 45-67.
8. Sadıqov E.İ. Ünsiyyət anlayışı və nitq mədəniyyəti // Azərbaycan nitq mədəniyyəti problemləri. Elmi-metodik konfransın materialları (18 dekabr 1987). Bakı, APİ, 1988, s.173-174

ELIYEVA İ.B.,
f.e.n. VELİYEVA V.E.

THE SPEECH CULTURE IN THE PROCESSES OF VOCATIONAL TRAINING AND SOCIAL COMMUNICATION

SUMMARY

Speech Culture is an important element of the human culture, its development is the process of the realization of the social communication. In the process of the social communication the study and definition of the aspects of the speech culture have become practical necessity. The speech culture of human

beings is the the structural part of the common culture, it is connected with the sense and behavior cultures, it determines the quality of the moral personality of a person, it influences to the effectiveness of the communicative activity. Nowadays in all stages of the education the necessity of the intensive language learning has appeared. In this article the ways and mechanisms of the improvement of speech culture of the students are dealt with, the communicative skills and abilities needed in the formation of the trade and communication competency of the future specialists are analysed.

АЛИЕВА И.Б.
ВАЛИЕВА В.А

ПРОФЕССИОНАЛЬНАЯ ПОДГОТОВКА И КУЛЬТУРА РЕЧИ В ПРОЦЕССЕ СОЦИАЛЬНОЙ КОММУНИКАЦИИ

РЕЗЮМЕ

Культура речи считается важным элементом общечеловеческой культуры, и ее развитие – это процесс осуществления социальной коммуникации. В процессе социальной коммуникации выявление и изучение аспектов культуры речи превратилось в практическую необходимость. Культура речи человека – составная часть его общей культуры, связанная с мыслительной и поведенческой культурой, выявляющая качество нравственного лица личности, оказывающая влияние на эффективность коммуникативной деятельности. В современных условиях появилась необходимость непрерывной языковой подготовки на всех этапах обучения. В статье рассматриваются способы и механизмы повышения культуры речи студентов, анализируются навыки и умения, нужные для формирования профессиональной и коммуникативной компетенции будущих специалистов.

ARİFƏ RƏSULOVA
Azərbaycan Dillər Universiteti
arifa_rasulova1988@mail.ru

İNGİLİSDİLLİ ÖLKƏLƏRDƏ ABOROGEN LEKSİKASININ ÇƏTİNLİKLƏRİ

Açar sözlər: *aborogen, dil, mənşə, şimali Amerika, metafor, termin, yerli, mühit*
Key words: *aborigine, language, origin, Northern America, metaphor, native, environment*
Ключевые слова: *абориген, язык, происхождение, Северная Америка, метафора, родной, окружающая среда*

Amerikanın şimal hissəsi aborogenal dili ilə məşhurdur. İstənilən sahədə, məsələn, məhkəmə işlərində, əkinçilikdə, bağçılıqda, maldarlıqda və s. yerli amerikalıların işlətdiyi aborogenal terminlərə geniş şəkildə rast gəlmək olur. Məhkəmə prosesində də aborogenal terminlərə kifayət qədər rast gəlmək olur. Ümumiyyətlə, belə fikir var ki, Şimali Amerikada məhkəmə prosesləri zamanı mütləq tərcüməçiyə gərək duyulur. Bu zaman tərcüməçinin işi tamamilə çətin olur, deyə bilərik. Müşahidələr göstərir ki, tərcüməçilər proses zamanı kifayət qədər ədəbi səslənməyə çalışsalar da buna tam nail ola bilmirlər. Onların işi prosesində ədəbi tərcümə dəqiq tərcüməyə bərabər tutulur. Şimali Amerika aborogenlərinin dilinin tərcüməsi zamanı işlədilən terminlərin qarşılıqlarının verilməsi "conduit pipe metaphor" ilə adlanır. Yəni "boru kəməri metaforu" (1, s.12-34). Vurğulamaq istərdik ki, bir çox dilçilər danışıqda metaforların işlədilməsini həmişə ön plana çəkirlər. Bu adi danışıqda da belədir, yaxud aborigenlərin danışığında da. V.Henderson metaforların işlədilməsini vacibliyini vurğulayır. O yazır: "Metaforların istifadəsində əsas cəhət odur ki, o, ötürülən, yaxud nəzərdə tutulan fikirlərin, yaxud konseptlərin köçürülməsinə imkan yaradır. Metaforları istifadə etməklə tərəflər fikirləri fərqli şəkildə müqayisə yolu ilə bir-birinə ötürürlər. Metaforların güclü ifadə üsulu ilə fikirlər oxucuya, yaxud dinləyiciyə lazım olan şəkildə ötürülə bilər. Faydalı metaforlar mənanı genişləndirir və düşüncənin yeni yollarını yaradır. Bu yolla da bəzən metaforlar zamanla dəyişməyə məruz qala bilir" (2, s.17-41)

Məsələn, "*conduit pipe metaphor*" (boru kəməri metaforu) aborigen metaforu kimi aborigen leksikasında müşahidə olunur. Bu terminə danışıqda demək olar ki, rast gəlinmir. Az işlədilməsi və onun istifadəsinə olan zəif tələbat onun metafor kimi işlədilməsini zəiflətmiş və nəhayət bu metafora adi danışıqda demək olar ki, rast gəlinmir. V.Braun da metaforların istifadəsini labüd hesab edir. Amma metaforların aborogenlərin dilində işlədilməsi

qarşıqlığa gətirib çıxarda bilər. Metaforu bilməyən dinləyici, yaxud qulaq asan onu (metaforu) təşkil edən sözü öz dilində, yaxud dialektində başa düşə bilər ki, bu da onun yanlış anlaşılmasına səbəb ola bilər.

Aborogen leksikasının tərcüməsi zamanı xüsusi diqqətli olmaq lazımdır. Tərcüməçi lazım olan termini hədəf dildən mənbə dilə lazım olduğu qədər səlisliklə çevirməlidir. Lazım olan sözün dəyişməsi hər hansı bir səhv anlaşılmaya səbəb ola bilər. Çox zaman da ədəbi tərcümə ünsiyyətin səhv qurulmasına, yaxud istiqamətlənməsinə səbəb ola bilər. Bəzən belə hallar müşahidə olunur ki, tərcüməçinin lazım olan aborogenal termini bilmədiyindən istifadə edib münasib olmayan bir söyüş işlədilə bilər və s.

Y.V.Bromley və L.V.Markovanın birgə buraxdıqları "Etnoqrafiya" dərsliyinə əsaslansaq iddia edə bilərik ki, Şimali Amerika aborogenləri bir qədər sərt təbiətə malik insanlardır. Elə onların məşğul olduqları iş sahələri də bunları deməyə əsas verir. Onların danışığı kifayət qədər aborogen sözlərlə doludur və onlar istənilən tərcüməçini çaşdıra bilərlər (4).

Aşadırmalar göstərir ki, Şimali Amerika aborogenlərinin dilində istifadə olunan bir çox sözlərin ingilis dilində ancaq bir qarşılığı vardır. Adını qeyd etdiyimiz "Etnoqrafiya" dərsliyində məsələn, Amerika aborogen ovçularının işlətdikləri sözlərdən ingilis dilində ancaq bir sözə rast gəlmək olar. Təbii ki, bu zaman kontekstin rolunu da nəzərə almaq lazımdır. Belə ki, kontekstdən asılı olaraq lazım olan söz bir neçə fərqli məna ifadə edə bilər. Məsələn, Şimali Amerikanın şərq və cənub-şərq vilayətlərinin əkinçi qəbilələrinin işlətdikləri belə bir termin var *apure*. "Şərqi və Mərkəzi Aborogen lüğətinin ingilis lüğətinə keçidi" ("Eastern and Central Arrernte to English Dictionary") lüğətinə əsasən *apure* sözü "feeling someone gets about doing something wrong, stupid or inappropriate and what other people think or say about that; shyness, embarrassment, shame, not sure of the right way to behave" mənasını verir (5).

"Oksford İngilis dili" ("Oxford English Dictionary") lüğətinə əsasən yazdığımız ifadənin mənasına baxırır: "səhv, ağılsız, yaxud münasib olmayan və başqa insanların nə düşündüklərini düşünüb xəcalət çəkmək; utancaqlıq, abır etmək, xəcalət çəkmək və düzgün davranacağını bilməmək". "Eastern and Central Arrernte to English Dictionary" lüğətini tərtib etmiş müəlliflər aborigenlərin mənalarının düzgün anlaşılması üçün çox diqqətli olmağa çalışmışlar (5). Belə ki, aborigenin mənası bəzən standard ingilis dilində işlədilən sözlə üst-üstə düşməyə bilər. Məsələn, qeyd etdiyimiz *apure* sözü bəzi hallarda ingilis dilindəki "shame" kimi tərcümə olunur. *Shame* "xəcalət", "həya", "abır" kimi mənalar verir. Amma *apure* sözü buna oxşar olsa da tam mənanı verə bilmir. "Eastern and Central Arrernte to English Dictionary" lüğətinə əsaslanan M.David yazır ki, *apure* aborigeni tam anlamda ingilis dilində bu mənanı verir: "it shows a positive and healthy attitude and the lack

of *apure* is a social problem" (bu müsbət və sağlıqlı bir münasibətdir və *apure*-nin (yəni utancaqlığın olmaması sosial problemdir. Müəllifin izahına görə *apure* termininin ingilis dilindəki izahı yanlış anlaşılmaya səbəb ola bilər. Belə ki, *Nyiyaparli* (bu dildə şimali Amerikanın Pilpara ərazisində danışırlar) dilində danışan bir şəxsin M.Davidə izahına əsasən *apure* aborigeni ingilis ədəbi dilində daha çox "respect" ("hörmət") mənasına uyğun gəlir. Bizim qənaətimiz belədir ki, terminin mənasının düzgün anlaşılması üçün mütləq kontekst nəzərə alınmalı və həmin konsituasiyaya uyğun gələn müvafiq termin seçilməlidir. Oroniko və Amazonka çayı hövzələrinin əkinçi və ovçu qəbilələrinin dilində *kulini* aborigeninin çox mənası vardır. Bu termin ingilis dilində mental fəaliyyəti əks etdirən "understand", "hear", "know", "think", "believe" kimi sözlərlə eyni mənanı verir. Sözün bir mənasının verilməsi yanlış anlaşılmaya səbəb ola bilər. Belə ki, məsələn, yuxarıda qeyd etdiyimiz *apure* aborigeninin "Macquarie Dictionary" lüğətində 6 fərqli mənası vardır. Mənanın fərqli olması həm ünsiyyət zamanı, həm də müxtəlif digər situasiyalarda səhv anlaşılmaya səbəb ola bilər.

Aborogen terminlərini tərcümə edənlər "false friends" adlı terminlən istifadə edirlər. "False friends" termini adı altında eyni cür səslənən və eyni ümumi mənşəyə malik olan amma fərqli mənaları olan sözlər nəzərdə tutulur.

"False friends" (hərfi mənası: "Saxta dostlar") adı altında işlədilən aborogen sözlər artıq çoxdandır ki, ingilis dilndə və Avropanın bir çox digər dillərində tez-tez rast gəlinməkdədir. Qohum dillər bu problemlə üzləşirlər, çünki bu dilləri təşkil edən sözlər eyni mənbədən, eyni kökdən gəlir, deyə bilərik. İki fərqli dildə fərqli mənalar əks etdirən sözlər əsrlərlədir ki, rast gəlinməkdədir. Vahid mənşəyi olan ingilis və alman dillərində bu məsələ ilə əlaqəli çoxlu sözlərə rast gəlmək olar. Tanış səslənən sözləri anlamaq daha asandır nəinki tanış olmayan sözləri. Məsələn, alman dilində *haus* (ev) və ingilis dilində *house* (ev), yaxud alman dilində *Mann* (kişi, insan, şəxs) və ingilis dilində *man* (kişi, insan, şəxs) sözləri aydın göründüyü kimi ümumi mənşəyə malikdirlər və eyni obyektlərin referentləri hesab oluna bilərlər. Digər nümunə alman dilindəki *fremd* ingilis dilndəki *friend* (dost) sözü ilə əlaqəli hesab oluna bilər, amma *fremd* sözü eyni zamanda "alien" (əcnəbi, yadelli) "strange" (yad, yadelli, nabələd) və "unfamiliar" (naməlum, məchul, nabələd) mənalarını da verə bilər. İngilis dilində işlədilən *friend* sözü Şimali Amerika aborogenlərinin dilində "seksual partnyor" mənasını verur və ingilis dilində işlədilən *friend* (dost, yoldaş, sirdaş) mənası ilə yaxınlığı yoxdur. Doğrudur M.Deyvid iddia edir ki, Şimali Amerika aborogeni hesan olunan *friend*, yəni "sexual partner" ingilis dilindəki "friend" sözündən fərqli anlam ifadə edir. Bu mənada Şimali Amerika aborogeni hesab edilən *friend* sözünün ingilis dilindəki mənasını saxlaması hallarına da rast gəlmək olar. Bəzi "false friends" adlı ifadələr var ki, onlar hiss edilməyəcək şəkildə işlədilirlər və onları

müəyyən etmək çətin olur. Məsələn, *ngunha* aborogeni ingilis dilində who (kim), sözünə uyğun gəlir, bəzi hallarda onu *ngananya* (ingilis dilində where (hara)) aborogeni ilə dəyişik salmaq olur. Araşdırmalar göstərir ki, 1787-ci il sentyabrın 17-də Atlantik okeanı kənarında 13 kaloniya Federal Konstitusiyanı imzalayırlar. Onlar ingiliscə danışan dörd milyon insandan ibarət idi və həmin əhali Appalaçi dağlarının şərqində yaşayırdı. Dilçilik baxımından bu hadisə Birləşmiş Ştatların ingilis dili tarixində ilk və həlledici bir mərhələ idi. Həmin müqaviləyə əsasən qəbul etdilən dili amerikan ingilis dili adlandırıldı.

1787-ci ildən 1861-ci ilə qədər Vətəndaş Müharibəsinin başlanğıcına kimi Appalaçi və Allegenilərin qərbində yeni ştatlar yaradıldı və oraya İrlandiya və Almaniyadan böyük axınla yeni mühacirlər gəldilər. 1845-ci ilin kartof aclığı səbəbindən yarım milyon irlandiyalı Yeni Dünyada məskən axtarmağa məcbur oldu və 1848-ci il Avropa inqilabı xeyli almanın Pensilvaniya və Orta Qərbdə məskunlaşmasına gətirib çıxardı.

Vətəndaş Müharibəsinin sonlarından bugünə qədər olan müddət skandinav, slavyan və italyanların gəlişi ilə etnoqrafik cəhətdən üçüncü dövr kimi qeydə alınmışdır. Həmin dövrdə milyonlarla çex, slovak, polyak, yuqoslav və italyanlar həmin əraziyə gəldilər. Fransız və ispan əhalisinin əlavə edilməsilə Böyük Şimali Amerika Respublikası yarandı və buraya orta qərbdə yerli amerikan hinduları, aborogenlər və həmçinin də Sakit Okean sahillərinə gələn çinli və yaponlar da əlavə olundu, bununla da Birləşmiş Ştatların kosmopolit xarakteri daha çox üzə çıxdı. Daha sonra Afrikadan gələn aborogen zəncilərin sayı 12 milyona çatdı. Həmin vaxta kimi Vaşinqton və Cefersonun, Cəkson və Linkolnun nitqlərində aborogen terminlərinə rast gəlmək olmurdu. Yerli aborogenlərin dillərinin tamamilə mənimsənilməsi ingilis dilinin təhlükədə olmadığını sübut edirdi.

ƏDƏBİYYAT

1. David M. Aboriginal languages and interpreting in the Northern territory. Sydney, New South Wales, Volume 8, Issue 17, 1959, pp.12-34.
2. Black Mix. More about metaphor. In Metaphor and thought. Chapter 2. Ed. Andrew O (p.678). Cambridge: Cambridge University Press, 1993, pp.17-41.
3. Baker M. “Translation Studies”, in Baker M. (edited by), Routledge Encyclopedia of Translation Studies, London and New York, Routledge, 2001, pp.277-280.
4. Bromley Y.V., Puchkov P.I. Ethnic groups and ethnic processes in the modern world // The peoples of the world. Historical and Ethnographic directory. M., 1988.
5. Eastern and Central Arrernte to English Dictionary Complied by John Henderson and Veronica Dobson. Alice Springs: Institute for Aboriginal Development, 1994.

6. Baker M., Saldanha G., Routledge Encyclopedia of Translation Studies, London and New York, Routledge, 2009, 704 p.
7. The Austro-Hungarian monarchy // Collegiate Dictionary. Ed. Brockhaus and Efron. N / m. 1. SPb ., 1890.
8. Altermatt U. Ethnonationalism in Europe. M ., 2000.
9. Bromley Y.V. Modern problems of ethnography. Essays on the theory and history. M., 1981.
10. Gumilyov L.N. Ethnosphere: history and the history of nature. M., 1993.

ARIFE RESULOVA

THE DIFFICULTIES OF ABORIGEN LEXICS IN ENGLISH SPEAKING COUNTRIES

SUMMARY

The article deals with the aboriginal terms of the North America. It states that the northern part of America is famous for its aborigen language. The terms of aborigens are possible to be observed in the speech of court, farming, gardening, etc. of the native Americans.

Investigations show that the words used by native inhabitants of Northern Americans may have only one equivalent in Standard English. The various meanings of the terms in the language of aborigens and in the language of English have been analysed in the article as well.

АРИФА РАСУЛОВА

ТРУДНОСТИ АБОРИГЕН ЛЕКСИКИ НА АНГЛИЙСКИХ ГОВОРЯЩИХ СТРАНАХ

РЕЗЮМЕ

В статье рассматриваются условия аборигенов Северной Америки. В нем говорится, что северная часть Америки славится своим аборигенным языком. Условия аборигенов можно наблюдать в речи суда, сельского хозяйства, садоводства и т. д. коренных американцев.

Исследования показывают, что слова, используемые коренными жителями североамериканцев, могут иметь только один эквивалент в стандартном английском языке. В статье также были проанализированы различные значения терминов на языке аборигенов и на английском языке.

Rəyçi: Ülkər Quliyeva
filologiya elmləri namizədi

SƏBİNƏ CƏFƏROVA
Gəncə Dövlət Universiteti

ŞƏRT ŞƏKİLÇİSİ İLƏ FORMALAŞAN TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR

Açar sözlər: *şərt şəkilçisi,bağlama vasitələri,tabeli mürəkkəb cümlə*
Key words: suffix condition, closure means, complex sentence
Ключевые слова: состояние суффикс, закрывающее средство сложноподчиненное предложение

Tabeli mürəkkəb cümlələr haqqında çoxlu monoqrafiya, dərslik və dərs vəsaitlərinin yazılmasına, namizədlik və doktorluq dissertasiyalarının müdafiə edilməsinə baxmayaraq, bu sahədə araşdırmalı, tədqiqata cəlb edilməli məsələlər hələ də qalmaqdadır. Bunlardan biri də *komponentlərin bağlanma qaydalarına görə tabeli mürəkkəb cümlələrin zəngin semantik-sintaktik xüsusiyyətləri*nin öyrənilməsidir. Şərt şəkilçisi ilə bağlanan tabeli mürəkkəb cümlələr haqqında ümumi məlumatlar verilsə də, konkret olaraq, şərt şəkilçisi ilə formalaşan cümlələr ayrıca tədqiqat obyektinə çevrilməmişdir. Bu şəkilçi ilə formalaşan tabeli mürəkkəb cümlələr semantik-struktur cəhətdən ciddi araşdırılmadığından bu mövzu öz aktuallığını saxlamaqdadır. Məsələ burasındadır ki, aparılan tədqiqatların, demək olar ki, hamısında –sa,-sə və ya isə(-sa, sə) şəkilçiləşmiş ədatlarının sintetik tipli tabeli mürəkkəb cümlə komponentlərini bağlamasında iştirakı haqqında məlumat verilir və nümunələr gətirilir. Bu şəkilçi ilə formalaşan cümlələrin ümumi şərt mənası yaratmaqda rolu, həmin şəkilçinin hansı mövqedə daha dayanıqlı, hansı mövqedə fakultativ olması, komponentlərin ifadə etdiyi məna –məzmun çəkisində onun nə dərəcədə iştirak etməsi diqqətdən kənarda qalır. Nə zaman –sa,-sə-ni başqa vasitə ilə əvəz etmək olmaz, onun artırıldığı feilin zaman çalarları və uyuşmaları hansı mənaları ifadə edə bilər kimi suallara aydınlıq gətirilmir. Halbuki bizim ilkin müşahidələrimiz göstərir ki, bu şəkilçi ilə bağlanan komponentlər zəngin semantik çalarlara malikdir, onlar müxtəlif transformasiyalara uğraya bilər və bu zaman Azərbaycan dilinin bir ünsiyyət vasitəsi kimi ikinci, bəlkə də, üçüncü qatda qalan potensial qüvvəsi meydana çıxa bilər. Digər tərəfdən, –sa,-sə-nin iştirak etdiyi tabeli mürəkkəb cümlələrin daxil olduğu mətnə bütövlükdə diqqət yetirdikdə onun həmin mətnin məzmunu ilə qarşılıqlı əlaqəsi də meydana çıxır.

Elmi ədəbiyyatda bu şəkilçinin tabeli mürəkkəb cümlələri bağlayan vasitə kimi iştirakından xeyli danışılmışdır. Tabeli mürəkkəb cümlələrin qurulmasında ədatların rolundan danışarkən prof. Ə.Abdullayev rusdilli elmi ədəbiyyatda və eləcə də, türkologiyada mövcud olan fikirləri ümumiləşdirərək yazır: "Müşahidələr göstərir ki, *-sa-sə*-nin müxtəlif budaq cümlələrin təşkilində xidmət

etməsi halı türk dilləri üçün ümumi haldır" (1, 116-119). Daha sonra o, -sa, -sə (isə) ədatı ilə bağlanan tabeli mürəkkəb cümlələri sadalayır (şərt, qarşılaşdırma, yer, zaman, tərzi-hərəkət, kəmiyyət, səbəb, mübtəda, tamamlıq, qoşulma budaq cümlələri) və onlara nümunələr verir, şərt və qarşılaşdırma budaq cümlələrindən başqa, digər cümlələrdə də bu ədatın iştirakı məsələsinə və komponentlərin xəbərlərinin zamanca dəyişə bilib-bilməməsinə toxunur (1, 124-126). Bu sahədə aparılan tədqiqatların nəzərdən keçirilməsi bir daha təsdiq edir ki, araşdırmalarda yalnız –sa, -sə ədatının həm şərt və qarşılaşdırma, həm də digər budaq cümlə komponentlərinin bağlanmasında iştirakından danışılmış, onun yaratdığı məna-məzmun münasibətlərinə toxunulmamışdır.

EA-nın 1959-cu ildə nəşr etdirdiyi "Azərbaycan dilinin qrammatikası" kitabında şərt budaq cümlələri iki tipə bölünür: 1) real şərtlik və 2) qeyri-real şərtlik bildirən cümlələr. Birincilərin xəbərinin sadə şərt şəkli, ikincilərin isə şərt şəklinin hekayəsi ilə ifadə olunduğu qeyd olunur (4, 381). 1981-ci ildə nəşr olunan "Müasir Azərbaycan dili"ndə "Tabeli mürəkkəb cümlələrin qurulmasında ədatların rolu" başlığı altında –sa, -sə (isə)nın təkcə şərt deyil, mübtəda, tamamlıq, zaman, kəmiyyət, tərz, yer, müqayisə, qarşılaşdırma və qoşulma budaq cümlələri komponentlərini bağlamağa xidmət etməsi vurğulanır və qeyd olunur ki, "şərt budaq cümləsinin xəbəri şərt şəkilçisi ilə bərabər, idi//imiş-in ixtisar formasını da qəbul edir. Çox zaman baş cümlənin xəbəri də həmin formaya müvafiq gəlir"(8, 392). Morfologiya aid tədqiqatlarda –sa, -sə-nin sintaktik xarakterli olmasından söz açılır: " Şərt şəklinin morfoloji əlaməti ilə formalaşmış feli xəbərli cümlə müstəqil işlənə bilmir. –Sa, -sə şəkilçisi öz mənasını yalnız tabeli mürəkkəb cümlə tərkibində, həm də budaq cümlənin xəbərində reallaşdıra bilir. Ayrılıqda sadə cümlə tərkibində şərt şəklinin təzahürü qeyri-mümkündür. Feil şəkillərinin sintaktik xarakterli olması şərt şəkli timsalında özünü daha qabarıq və aydın nəzərə çarpdırır" (9, 356;). Bu fikri prof M. Hüseynzadə də təsdiq edir: "Feilin şərt şəkli o biri şəkillərdən fərqli olaraq, yalnız tabeli mürəkkəb cümlələrdə işlənir və bir qayda olaraq, həmin cümlələrin budaq cümlə komponentini təşkil edir" (5, 176). Bəzi hallarda –sa, -sə-ni "isə"dən ayıraraq, birincini xüsusi, ikincini isə ümumi şərt şəkli adlandırır və şərt budaq cümləli tabeli mürəkkəb cümlə komponentlərinin xəbərlərinin xüsusi və ümumi şərt şəkli ilə bağlanmasından danışırlar. Bu zaman *isə* təkcə fellərə deyil, adlara da artırılır və şərt mənası əmələ gətirir (2,397). Azərbaycan dilində tabeli mürəkkəb cümlənin inkişaf tarixini araşdıran prof. Q. Kazımov –sa, -sə-nin bütün budaq cümlələrə xidmət etdiyini, budaq cümlə ismi xəbərli olduqda *isə* köməkçi sözünün hər iki formasından istifadə olunduğunu, bəzi hallarda isə -sa, -sə-nin arzu, istək mənasını ifadə etdiyini qeyd edir (6, 25; 100). Bu məsələyə öz münasibətini bildirən M.Rəhimov yazır: " ... –sa, -sə formasının arzu mənası bildirməsi bir sıra türk dilləri üçün qismən ümumi hadisə olmuşdur və ümumi olduğuna görə də nisbətən qədim hesab edilməlidir. Deməli, Azərbaycan dilinin

XVIII əsrdən əvvəlki yazılı abidələrində - sa,-sə formasının arzu mənasında işlənməsi tarixən qanunauyğun dil hadisəsidir;... –sa, -sə formasının arzu mənası üzrə inkişafı xarakterinə görə Azərbaycan dili başqa türk dillərindən nəzəri cəlb edəcək dərəcədə fərqlənir: türk, türkmən, özbək dillərindən fərqli olaraq, müasir Azərbaycan dilində--istər ədəbi dildə, istər danışıqda, istərsə də dialekt və şivələrdə -sa, -sə forması cümlənin müstəqil xəbəri olmur və arzu mənasında işlənmir" (10, 176).

Şərt şəkilçisi ilə formalaşan tabeli mürəkkəb cümlələrə həsr edilmiş namizədlik dissertasiyalarında bu şəkilçinin praforma və derivatlarından, eləcə də -sa, -sə şəkilçisinin morfoloji və üslubi xüsusiyyətlərindən danışılmış, Azərbaycan dilinin materialları başqa türk dillərindən gətirilən nümunələrlə müqayisə olunmuşdur. Ayrı- ayrı budaq cümlələrin formalaşmasında –sa, -sə-nin rolundan danışmaq istəyən dissertantlar əslində nümunələr və sxemlər göstərməklə işi bitmiş hesab etmişlər (3; 7). Bu tədqiqatlarda şərt şəkilçisinin iştirakının budaq cümlənin digər növlərində (məsələn, mübtəda, xəbər, tamamlıq, təyin, zərflik kimi) yaratdığı semantik məzmunun aşkara çıxarılması, onun baş və budaq cümlə xəbərlərinin ifadə vasitələrinə təsiri, tabeli mürəkkəb cümlənin üst və alt qatlarından doğan məna-məzmun xüsusiyyətləri diqqətdən kənarda qalmışdır. Ümumilikdə götürsək, aparılan tədqiqatlar konkret dil materialının araşdılmasına yox, sadəcə olaraq sadalanmasına yönəldilmişdir; -sa,-sə-nin oynadığı roldan çox, budaq cümlə növlərinin sxemlə və digər türk dilləri ilə müqayisəli təqdimi ön plana çəkilmişdir. Fikrimizcə, -sa, -sə şəkilçisinin iştirakı ilə formalaşan tabeli mürəkkəb cümlələrdə bu şəkilçinin oynadığı rola daha çox diqqət yetirilməli, onun ümumi cümlə kontekstinə təsiri ayrı-ayrı nümunələr əsasında öyrənilməlidir. Özü də bu məsələ təkcə nisbi tabelilik əsasında qurulan korrelyativ mübtəda, xəbər, tamamlıq və b. k. budaq cümlələrə deyil, şərt və qarşılaşdırma budaq cümlələrinə də aiddir.

Şərt budaq cümlələrindən danışarkən prof. Ə. Abdullayev baş cümlədə işin icra olunub-olunmadığından asılı olaraq, şərt budaq cümləli tabeli mürəkkəb cümlələri üç qrupa bölür: "1. işin icra olunduğunu bildirən baş cümlələr. 2. işin icra olunmadığını bildirən baş cümlələr. 3. Işin icra olunacağı ehtimalını bildirən baş cümlələr"(1, 323). Bu bölgüdə budaq cümlədəki işin icra olunub-olunmadığı nəzərə alınmır, komponentlərin qarşılıqlı şərtlənməsindən doğan semantik münasibət diqqətdən kənarda qalır. Məsələ burasındadır ki, baş və budaq cümləyə kompleks şəkildə yanaşıldıqda hər iki komponentdə işin icra olunub – olunmamasından asılı olaraq, maraqlı məzmun münasibətləri meydana çıxır.

-Sa, -sə şəkilçisi ilə formalaşan birinci qisim şərt budaq cümlələrində hər iki komponentdəki iş icra olunmur, xəbərlərin təsdiq və inkar aspektində olub-olmamağından asılı olmayaraq, baş cümlədəki işin icrası budaq cümlədəki işin nəticəsi kimi meydana çıxır; məs.: *İkicə addım irəli getsə, torpaq ayağı altında ovxalanıb tökiləcək, uçuruma necə düşdüyündən özünün də xəbəri*

olmayacaqdı (İ.Şıxlı);); *Qarlı bir zirvə olsan, Ağ buludun olaram*(N. Xəzri); *Mənim hayfımı ondan almasam, südümü sənə halal eləmərəm, oğul*(İ.Şıxlı); *Qoy belə olmasa, könül ilhamı Dağılsın bir uşaq yuxusu kimi*(Ə.Kərim). Birinci nümunədə real hadisələrdən danışılır, birinci hadisənin nəticəsi kimi baş cümlələrdəki hadisələr meydana çıxır. İkinci və üçüncü nümunələrdə hər iki komponentdə qeyri-real, mücərrəd hadisələr ifadə olunur, dördüncü nümunədə isə budaq cümlənin məzmunu qaranlıq qalır ; *qoy belə olmasa* şərtnin məzmununu açmaq üçün mətnə diqqət yetirilməlidir: Şair, nəğmələrinin Kürə bənzəməsi arzusu ilə yaşayır və ona işarə edir.Buradan belə nəticə hasil olur ki, mürəkkəb cümlə olsa belə, bəzən baş və budaq cümlələrdə ifadə olunan məna-məzmun münasibətlərini iki və ya üç komponentin sərhədindən kənarda axtarmaq lazım gəlir. Əlbəttə, bunu şərt şəkilçisi ilə formalaşan bütün cümlələrə aid etmək olmaz. –Sa,-sə şəkilçisi ilə formalaşan cümlələrin əksəriyyətində budaq cümlə baş cümlədə icra olunacaq işin şərtini, baş cümlə isə həmin işin nəticəsini bildirir; məs.: *Mən orda olmasam, qan çıxar dizə... Mən getsəm, qırğının hesabı olmaz* (S.Vurğun); *Xalq razı qalmasa bir hökmdardan, Hakimi qurd kimi didəcək zaman* (S.Vurğun); *İçəridən alışmasa, bu sürətlə, bu cürətlə gedə bilməz təyyarələr*(B.Vahabzadə); *Çıxardıb atsalar, acından ölərəm* (Anar); *Bir damla istəsəm, bir ümman istə*(N.Xəzri).

-Sa, -sə şəkilçisi ilə formalaşan elə cümlələrə rast gəlmək olur ki, baş cümlədəki fikirdə qətilik ifadə olunsa da, informasiya çatışmazlığı hiss olunur; sanki mürəkkəb cümlədəki fikir bütövlükdə budaq cümlə ilə ifadə olunur, baş cümlə ilə budaq cümlə məna baxımından qovuşur; məs.: *Mənim ahım sizi tutmasa, daha heç nə bilmirəm* (İ.Şıxlı); *Axırda kişinin ürəyini partlatmasa yaxşıdır*(İ.Şıxlı). Verilən nümunələrdə budaq cümlə kontekstdəki fikri, demək olar ki, çatdırır, komponentlərin bağlanmasında şəkilçinin iştirakı fakultativləşir; "Daha heç nə bilmirəm" və "Yaxşıdır" baş cümlələri budaq cümlədə qoyulan şərtin nəticəsi kimi yox, onun təsdiqi kimi çıxış edir. Baş cümləsində qətilik ifadə olunan bəzi cümlələrdə isə əsas fikir ağırlığı baş cümlənin üzərinə düşür; məs.: *Harada olsa, gəlib çıxacaq*(İ.Şıxlı). Burada "harada" sözü bağlayıcı vasitə deyil, bir növ baş cümlədə ifadə olunan fikrin qətiliyini daha da möhkəmləndirir.

Şərt şəkilçisi ilə formalaşan tabeli mürəkkəb cümlələrə dair dil materialların az bir qisminin nəzərdən keçirilməsi göstərir ki, bu şəkilçinin vəzifəsi təkcə şərt məzmunu yaratmaqla bitmir, komponentlər arasında zəngin sintaktik-semantik münasibətlərin meydana çıxmasında, bütövlükdə tabeli mürəkkəb cümlənin və onun daxil olduğu mətnin məna-məzmun xüsusiyyətlərinin öyrənilməsində -sa, sə-nin və onun digər bağlayıcı vasitələrlə birgə iştirakının əhəmiyyətli rolu vardır. Rabitəli mətnlər üzrə işə ciddi diqqət yetirildiyi müasir təlim biliklərin sadəcə təqdim olunmasını deyil, həm də analiz edilməsini, onların bacarıq və vərdişlərə çevrilməsini tələb edir. Məhz bu praktikanın həyata keçirilməsi Azərbaycan dilinin

tabeli mürəkkəb cümlə sisteminə təkcə struktur baxımından deyil, semantik cəhətdən də ciddi və müasir yanaşma tələb edir.

ƏDƏBİYYAT

1. Abdullayev Ə.Z. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. "Maarif", Bakı,1974
2. Abdullayev Ə.Z., SeyidovY. M., Həsənov A.Q. Müasir Azərbaycan dili. IV hissə (sintaksis). "Maarif", Bakı, 1985
3. Abdullayeva G.A. Azərbaycan dilində -sa, -sə şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri—filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2000
4. Azərbaycan dilinin qrammatikası. II hissə (sintaksis). EA-nın nəşri, Bakı, 1959
5. Hüseynzadə M. Müasir Azərbaycan dili.III hissə (morfologiya). "Şərq-Qərb", Bakı, 2007.
6. Kazımov Q. Ş. Seçilmiş əsərləri. 10 cilddə (VIII cild)."Nurlan", Bakı, 2009
7. Qocayeva L.V. Oğuz qrupu türk dillərində -sa, -sə şəkilçili budaq cümlələr- - filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2008
8. Müasir Azərbaycan dili. 3 cilddə (III cild). "Elm", Bakı, 1981
9. Müasir Azərbaycan dili. II cild (morfologiya). "Elm", Bakı, 1980
10. Rəhimov M. Azərbaycan dilində fel şəkillərinin formalaşması tarixi. EA nəşri, Bakı, 2014

SABINA JAFAROVA

TERMS SUFFIX FORMING COMPLEX SENTENCES

SUMMERY

Our initial observations made with ingredients rich semantic shades of the suffix, they are subject to various transformations and Azerbaijan language as a communication tool, it is the second, perhaps, the potential effect may arise on the third layer. On the other side, sa, -se in the complex sentences in the text as a whole, including the interaction with the content of the text is that it pays attention emerge.

Terms of complex sentences formed with the ending of a small portion of the consideration of the language on the show that this prefix is not limited to the task of creating the necessary content, rich syntactic and semantic relationships between components in the appearance of the whole meaning of the text, including complex sentence and the nature of the content sa study, with the participation

level, and its other connector means there was an important role. Terms suffix given general information about the closing of complex sentences, in particular, must not become the subject of separate investigations suffix forming sentences. The suffix forming complex sentences with the semantic and structural point of view, this is a serious study of the subject retains its relevance.

САБИНА ДЖАФАРОВА

СЛОЖНОПОДЧИНЕННЫЕ ПРЕДЛОЖЕНИЯ, ФОРМИРУЮЩИЕСЯ С ПОМОЩЬЮ УСЛОВНЫХ МОРФЕМ.

РЕЗЮМЕ

Наши первичные наблюдения показывают, что компоненты связанные условными морфемами, имеют богатые семантические оттенки, они могут подвергнуться различным трансформациям, и в это время, может выявиться потенциальная сила Азербайджанского языка, как средства общения, оставшаяся на втором или даже на третьем пласту, с другой стороны, если обратить пристальное внимание на сложноподчиненные предложения входящие в текст с морфемами -sa, -sə, выявляется их взаимосвязь с содержанием данного текста.

Обозрение малой части языкового материала относительно сложноподчиненных предложений формирующихся с морфемами условности показывает, что роль этой морфемы не заканчивается образованием только условности содержания, морфемы -sa, -sə, -nin вместе с другими его средствами связи выполняют важную роль в изучении сложноподчиненных предложений и особенностей содержательного значения текстов, в которые они входят. Несмотря на то, что в литературе даются общие сведения о сложноподчиненных предложениях связанных с морфемами условности, отдельно и конкретно не исследованы предложения формированные морфемами условности как объект исследования. Эта тема продолжает оставаться актуальной из-за не исследованности сложноподчиненных предложений формированных этими морфемами.

Rəyçi: professor H.A.Əsgərov

AYSEL XANALIYEVA
Bakı Dövlət Universiteti
x.aysel.f@gmail.com

AZƏRBAYCAN DİLİNDƏ FRAZEOLOJİ VARİANTLAR, FRAZEOLOJİ VARİANT SİLSİLƏSİ VƏ ONLARIN YARANMASINDA KOMPONENTLƏRİN ROLU

Ключевые слова: *Фразеологические варианты, циклы фразеологических вариантов, компонент, фразеологические синонимы.*
Keywords: ***Phraseological variants, cycles of phraseological variants, component, phraseological synonyms.***
Açar sözlər: *Frazeoloji variant, frazeoloji variant silsiləsi, komponent, frazeoloji sinonim*

Dildə əksər frazeoloji vahidlər eyni məzmun və konstruksiya daxilində bir sıra dəyişikliklərə (əvəzlənmə, ixtisar, yerdəyişmə, təkrarlanma və digər fonetik, qrammatik formalara) məruz qalaraq, özü ilə eyni ampulada olan frzaeoloji variantlar əmələ gətirirlər. "Frazeoloji vahidin variantları mənasına və semantik qovuşmasına görə onun onunla eyni olan leksik-qrammatik növləridir» (9, 192) Bu frazeoloji variantlar arasında işlənmə tezliyinə görə müəyyən fərqlər olsa da, əksər hallarda hər biri dilimizdə geniş işlənmə imkanlarına malikdir. Bir məna mərkəzində birləşən frazeoloji variantların sayı çox olarsa, onlar birlikdə frazeoloji variant silsiləsi (FVS) yaradır. Azərbaycan dilində frazeoloji variant silsilələri xeyli çoxdur. Elə frazeoloji variant silsilələri var ki, daxilində olan frazeoloji variantların sayı 10-dan çoxdur. Məsələn, dilimizdə narahatlıq, qorxu, həyəcan keçirmək mənasında belə bir frazeoloji variant silsiləsi var: *kürkünə birə düşmək//kürkünə bit düşmək//kürkünə bit-birə düşmək//kürkünə birə dolmaq//canına birə düşmək//canına birə dolmaq//canına birə darışmaq//canına vəlvələ düşmək//canına vic-vicə düşmək//canını vic-vicə almaq// canına lərzə düşmək//canına üşütmə düşmək//canına üşütmə dolmaq//canına qorxu düşmək//canına qorxu dolmaq// bədəninə üşütmə dolmaq və s.* Bu FVS-də çarpaz olaraq bir neçə mərkəzi komponent vardır: "kürkünə", "birə", "canına", "dolmaq", "düşmək". Hətta bu variant silsiləsində "kürk" komponentli frazeoloji vahidi məişət zəminində yaranan ilkin forma kimi də düşünmək olar. Belə ki, ilkin forma sərbəst söz birləşməsi modelində reallığı əks etdirir: kürkün dəridən hazırlanması bit, birə kimi cücülərin düşmə ehtimalını artırır. Üzərinə bit-birə düşmüş kürk geyinilən zaman müxtəlif narahatlıq halları (qaşınma, səpgi, qızartı və s.) yaratması frazeoloji vahidin yeni semantik yük qazanması, həmçinin komponentlərin əvəzlənməsi üçün şərait yaradır. Fikrimizi əsaslandırmaq üçün nümunlərə diqqət

edək: *Yatağıma elə bil* ***bit-birə dolmuşdu,*** *bədənimə sanki* ***qaşınma düşmüşdü****. (1,47) Qulağına dəhlizdən qəribə səslər gəlməyə başladı. Ya pişik miyoldayırdı, ya da uşaq səsiylə kim isə ağlayırdı.Yorğanın altındaca büzüşdü,* ***canını vic-vicə aldı.*** *(4,63) Əhməd dayı bu haqda eşidər-eşitməz* ***kürkünə birə doldu****, tez arvadını çağırıb işin məğzini öyrəndi; Ancaq qonşunun Səfayə ilə həmyaşıd qızı artıq nişanlanmışdı və Bikəxanımın* ***canına qorxu düşmüşdü:*** *"Birdən qız evdə qalar alan olmaz". (3,25) Ağlına gələn qəfil fikirdən* ***bədəninə üşütmə doldu****... (7, 134) Kafirlərin yerinin cəhənnəm olduğu barədə danışdığı rəvayətlər* ***canına üşütmə salırdı.*** *(6, 6) və s.* Sonuncu nümunədə "canına üşütmə salmaq" frazeoloji vahidindəki "salmaq" komponenti digər frazeoloji vahidlərdən cümlədaxili əhatə və əlaqə formasına görə fərqli mövqedə dayanır.

Sözü gedən FVS-də komponentlər ekspressivliyi daha güclü olan sözlərlə (*qorxu, üşütmə, vic-vicə, vəlvələ, lərzə)* əvəzlənərək FVS-ni daha da rəngarəng və məqsədyönlü edir. Müxtəlif mərkəzi komponentlərdə kəsişən bu FVS-də bir-birinə sinonimlik münasibətində olan frazeoloji vahidlər də seçmək olar; *kürkünə birə dolmaq – canına qorxu düşmək; kürkünə bit-birə dolmaq//canına vic-vicə düşmək və s.*

Azərbaycan dilində frazeoloji variant komponentlərinin forma, ifadə dəyişikliyi nəticəsində frazeoloji sinonimlərin yaranması faktları xeyli çoxdur. Daha bir FVS-ə nəzər salaq: *cana doymaq//cana yığılmaq//boğaza yığılmaq//canı boğazına yığılmaq //canı boğazına gəlmək//cana gəlmək//canından bezmək.* Hər hansı bir səbəbdən yorulmaq, bezmək" mənası ətrafında birləşən frazeoloji variant silsiləsində variant komponentlərinin hər biri öz ampulasında elə dəyişir ki, nəticədə frazeoloji variant silsiləsində frazeoloji sinonimlər meydana çıxır. Məsələn, *boğaza yığılmaq//canından bezmək;cana doymaq//boğaza yığılmaq; boğaza yığılmaq//cana gəlmək və s.* Azərbaycan dilində jestlə ifadə olunan *bura yox, bura yığılmaq* frazeoloji vahidi də *boğaza yığılmaq, canı boğazına yığılmaq, cana yığılmaq* frazeoloji vahidlərindən törəmədir və bunu da göstərilən FVS-yə daxil etmək olar. Ancaq bu frazeoloji variant şifahi nitqdə jestlə birlikdə istifadə olunur. Belə ki, danışan şəxs şəhadət barmağını çənəsinə qoyub "bura yox", daha sonra alnına qoyub "bura yığılmaq" komponentlərini işlədir ki, bu da "həddən artıq bezmək, yorulmaq" mənasını verir.

Azərbaycan dilində eyni sintaktik konstruksiya çərçivəsində komponent əvəzlənmələrinə görə frazeoloji variant silsiləsinə bənzəyən frazeoloji vahidlər vardır. Məsələn, *kələfin ucunu açmaq, kələfin ucunu ələ keçirmək, kələfin ucunu itirmək, kələfin ucunu tapmaq.* Bu sıralanma ilk baxışda variant silsiləsi kimi görünsə də, əslində doğru olmayan məqamlar var. Frazeoloji variant silsiləsinin yaranması üçün əsas meyar FVS-nin tərkib üzvlərinin zahiri (forma) və daxili(məzmun) yaxınlığıdır. Daha dəqiq desək, frazeoloji vahidlər arasında formaca müəyyən komponent fərqi özünü göstərsə də, lakin onlar məzmunca mutləq üst-üstə düşməlidir. *Kələfin ucunu açmaq//kələfin ucunu ələ*

Azərbaycan dilində isimləri hal kateqoriyasına görə hallandırdıqda, sonu sait səslə bitən sözlərə ismin yiyəlik və təsirlik hal şəkilçiləri "n" hərfi ilə, yönlük hal şəkilçisi "y" hərfi ilə birləşdirilir. III şəxs mənsubiyyət şəkilçisi saitlə bitən sözlərə artırıldıqda isə "s" bitişdirici samit səs əlavə olunur.

Məsələn:

quzu-n-un, quzu-n-u, quzu-y-a, quzu-s-u

tale-y-im, mövqe-y-in, mənafe-y-i və s.

Beləliklə, azərbaycan dili ilə müqayisə etdikdə ingilis dilində bitişdiri samit səslər tələffüzdə iki söz qovşağında gəlir və sözün sonuna özündən sonra sait səsin gəldiyindən asılı olaraq "r", "j", "w" səsləri artılır. Azərbaycan dilində isə bitişdirici fonemlər yalnız söz formalarında rast gəlinir və əsasən

söz qovşağında deyil, sözə şəkilçilər artırıldıqda iki sait arasında /n, j, s/ səsləri artırılır və bu da orfoqrafik və tələffüz norması kimi özünü göstərir.

Azərbaycan dilində səs artımı morfoloji xüsusiyyətə malikdir. Amma ingilis dilində bitişdirici səslər sırf tələffüzlə bağlıdır, yəni morfoloji xüsusiyyətə malikdir.

ƏDƏBİYYAT

1. Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı, "Maarif", 1984.

2. Zeynalov F. Supplement to the Book "Practical English Phonetics". Book I and II, Bakı, "Mütərcim", 2012.

3.Peter R. English Phonetics and Phonology. A practical course, fourth edition. UK, Cambridge University Press, 2009.

4. Daniel J. Cambridge English Pronouncing Dictionary, 18th Edition. 2006, Cambridge University Press.

5.Gerald K. How to teach pronunciation. UK, Pearson Longman, 2000

KUBRA MAMMADOVA

ON THE USE OF LINKING CONSONANTS IN ENGLISH SPEECH ACT

SUMMARY

The article deals with linking consonants used in spoken English. In this article an attempt is made to study consonant sounds which appeare at a word boundaries and compared with the Azerbaijan language. In the article variants of linking [r] are compared in British and American English. The use of linking [r] in different variants is shown by examples. Besides linking [r], linking [j] and linking [w] are studied. The use of linking in the Azerbaijani language is studied. The problem of linking in the English and Azerbaijani languages is analysed in the works of American and English scholars such as Peter R., Daniel J., Gerald K., Axundov A., Zeynalov F. and so on.

КУБРА МАМЕДОВА

ОБ ИСПОЛЗОВАНИИ СОЕДИНИТЕЛЬНЫХ СОГЛАСНЫХ В АНГЛИЙСКОМ РЕЧЕВОМ АКТЕ

РЕЗЮМЕ

В статье рассматриваются соединительные согласные, используемые в разговорном английском языке. В статье сделана попытка изучения согласных звуков, которые встречаются на границах слов в сравнении с азербайджанским языком. В статье справниваются варианты соединительного в бвитанском и американском английском. На примерах показаны использавание соединительные [j] и [w]. Изучается исползавание соединительных в азербайджанским языке. Проблема соединия в английском и азербайджанском языках анализируется в работах американских и английских ученых, таких как Питер Р., Даниел ДЖ., Геральд К., А.Ахундов, Ф.Зейналов и т.д.

Rəyçi: fil.f.d., dos. Kifayət Alırzayeva

TƏHMİNƏ ƏLİYEVA
ADU
tahmina.aliyeva.1990@ mail.ru

İNGİLİS DİLİNDƏ ŞƏKİLÇİLƏRİN NİTQ HİSSƏLƏRİ ÜZRƏ TƏSNİFİ

Açar sözlər: *şəkilçilər, söz birləşmələri, təhlil, çalar , məna*
Keywords: *affixes, word combination, analysis ,shade , meaning*
Ключевые слова: *окончание, словосочетания, анализ, оттенок, значение*

R.S.*Ginzburq "A course in Modern English Lexicology"* kitabında şəkilçiləşmə prosesinə belə tərif vermişdi: *"Affixation is generally defined as the formation of words by adding derivational affixes to different types of bases".* Şəkilçiləşmə müxtəlif köklərə düzəltmə şəkilçilər artırmaqla yeni sözlərin əmələ gəlmə prosesidir (1, 97) .Əgər sözü məna ifadə edən səs kompleksi adlandırmış olsaq, müəyyən bir qrammatik mənaya malik olan və tək halda cümlə yaratma qabiliyyətinə malik nitq vahidi kimi qəbul etsək, onda onu başqa fundamental dilçilik vahidlərindən yəni morfemlərdən fərqləndirmə imkanı əldə edərik.Morfem də həmçinin, verilmiş mənanın verilmiş səs kompleksi ilə assosiyasıdır.Lakin sözdən fərqli olaraq o, müstəqil deyil.Morfem nitqdə yalnız sözün hissəsi kimi çıxış edir.Onlar kiçik mənalı hisslərə bölünür. Buna görə də morfem sözün ən kiçik mənalı hissəsidir (1, 102-105) .

Əgər mənasını dəyişmədən tək götürülə bilərsə, forma müstəqildir, sərbəstdir. Əgər belə deyilsə, qeyri-sərbəst formadır: Məsələn, *"sportive"* və *"elegant"* sözlərini və onların hissələrini müqayisə etsək, görərik ki, *sport, sporline, elegant*sözlərimüstəqil işləndiyi halda, *eleg-, -ive, -ant* qeyri-sərbəstdirlər, çünki onlar heç vaxt tək işlənmir. L.Bloomfield sözü kiçik müstəqil forma təsvir etmişdir.Morfem də ya sərbəst, ya da qeyri-sərbəst olur.Söz düzəltmədə roluna görə morfemlər kök və affikslərə bölünür.Şəkilçilər də yerinə görə prefikslərə, suffikslərə və infikslərə, funksiyasına və mənalarına görə sözdüzəldici və funksional (sözdəyişdirici) affikslərə bölünür.Sözdən funksional və sözdüzəldici şəkilçiləri götürsək, kök alınar.Kök leksik və nitq hissəsi mənalarını ifadə edir.Məsələn, *hearty, heart (Sing.) – hearts (Pl)* sözlərində *"heart"* kökdür. Kök yalnız morfemdir, o həmçinin sərbəst kökdür, çünki *"heart"* sözünün omonimidir.Qeyri-sərbəst kök alınma sözlər üçün xarakterikdir. Məsələn, Fransız dilindən alınmış *"arragance", "charity", "courage", "coward", "distort", "involve", "notion", "legible", "tolerable"* və s. kimi sözlərdə suffiksləri götürsək, qalan elementlər bunlardır: *arrog-, char-, cour-, cow-, -tort, -volve, -nat-, leg-, toler-.*Bunlar da semantik cəhətdən müstəqil sözlərlə əlaqələnmir.(2, 157)

Qeyd etdiyimiz kimi, kökdən fərqli olaraq, affkislər qeyri-sərbəst formalardır. Kökün fonemə bənzər bir cəhəti var. Bu ondan ibarətdir ki, fonemlər kimi köklər də mənafərqləndirici keyfiyyətə malikdir. Əslində söz kökləri məna daşıyıcısı olub, məna yaratdığına və mənaları fərqləndirən minimal morfem olduğuna görə müəyyənləşdirilmişdir.Kök əsas mənanın daşıyıcısı olub, heç bir affiks qəbul etmədən, morfoloji cəhətdən təcrid olunmuş vəziyyətdə mənanı ifadə edir.Bu cəhətdən yanaşdıqda kökün müxtəlif növləri aydın edilir.

Şəkilçi (affiks) sözə qrammatik məna verən və ondan yeni məna yaranmasına kömək edən morfemdir. Bu cəhətdən yanaşdıqda, işlənmə yerinə görə affiksləri 3 qrupa bölmək olar:

1. Suffikslər, 2. Prefikslər, 3.Infikslər.

Suffikslər – sözün sonuna qoşularaq onu forma və ya məzmunca dəyişən morfemdir. Məsələn, *-en, -y, -less* şəkilçiləri *hearten, hearty, heartless* sözündə, *-ify, -er* fel düzələn şəçilkilərdir, *horrify, perify, twitter, flicker.*

Prefikslər – sözün önünə artırılıb, ona leksik-qrammatik mündərəcə verən morfemdir.Məsələn, *to hearten – to dishearten.*Fellərdə və hal-vəziyyət bildirən sözlərdə prefiks bir nitq hissəsini digərindən fərqləndirmək üçün işlənir. Məsələn, *earth n, unearth v, sleep n, asleep (stative).*

Infikslər – Infiks sözün ortasına – kök tərkibində işlənən elə morfemlərdir ki, kökün mənasını dəyişir.Bu, həm də yeni mənayaratma istiqamətində olur.Məsələn, *-n "stand"* sözündə.Bu məhsuldar növ deyil.

R.S.Ginzburq "A course in Modern English Lexicology" kitabında prefiksləşməyə belə bir tərif vermişdi: "Prefixation is the formation of words with the help of prefixes. (1,101)

Prefikləşmə prefikslərin köməyi ilə yeni sözlərin yaranmasıdır.Bəzi linqvistlər prefiksləşməyə mürəkkəb söz düzəltməyin tərkib hissəsi kimi yanaşmışlar.Prefikslərin semantik müstəqilliyi, suffikslərdən fərqli olaraq linqvistlərin prefiksləri mürəkkəb sözlərin birinci komponenti kimi qəbul etməyə əsas vermişdi.(4, 132)

Müasir dövrdə alimlərin əksəriyyəti prefiksləşməni düzəltmə affkis kimi qəbul edərək onu söz-düzəltmənin ayrılmaz hissəsi hesab edirlər. Məsələn, H.Marchand *to overdo, to underestimate* kimi sözləri mürəkkəb fellər kimi təqdim etmişdi. Çünki bu sözlərin birinci elementi prefiks yox, ədatdır. Eyni yolla o, *income, onlooker, outhouse* kimi sözləri də həmçinin birinci elementi ədat olan mürəkkəb sözlər kimi təqdim etmişdi.

Ginzburq müasir ingilis dilində sözyaratma sistemində 51 prefiksin olduğunu göstərmişdi. Prefikslə düzələn sözlərin faiz göstəricisinə əsasən, fellər 42,4%, sifət 33,5%, isim isə 22,4; təşkil edir. Məsələn,

Prefiksli fellər:*to enrich, to co-exist, to disagree, to undergo*

Prefiksli sifətlər:*anti-war, uneasy, super-human*

Prefiksli isimlər:*ex-champion, co-author, disharmony, subcommittee.*

Struktur təsnifat 2 növ prefiksləri ayırır.

1) Bu növ prefikslər hər hansı müstəqil sözlə əlaqələnmir (əsas və ya funksional). Məsələn, *un-, dis-, re-, pre-, post-* və s.

2) Bu növ prefikslər ilə funksional sözlə (sözönü və sözönünə oxşar zərflərlə) əlaqələnir. Məsələn, *out-, over-, up-, under* və s.

Çox vaxt sadə söz və onun prefikslə düzəltməsi eyni nitq hissəsin aid olur.Məsələn, *mis-* prefiksli fellərə artırılarkən *"badly", "wrongly", "unfavourably"* mənalarını ifadə edir.Əsasən fellərə artırılır. Məsələn, *misbehave, calculate :: miscalculate, inform :: misinform, lead :: mislead, pronounce :: mispronounce.*

Bəzi hallarda isə semantik əlaqə fərqli olsa da ümumi leksik-qrammatik məna qalır, məsələn, *giving :: misgiving "suspicion", take :: mistake* və *trust :: mistrust.*

Prefiksin semantik effekti adverbial xarakter daşıyır, çünki, kökün ifadə etdiyi hal-vəziyyət, zaman, yer, dərəcə və s. mənaları bildir. Məsələn, *mis* prefiksi *"wrongly, badly* zərflərinin ekvivalentidir.O, müvafiq felin hal-vəziyyətini bildirir: *pre* və *post* – prefiksləri zamana aiddir, *historic :: prehistoric, view :: preview; pay :: prepray.*

Neqativ mənalı prefiksləri sayca o qədər çoxdur ki, bəzi alimlər prefiksləri neqativ və qeyri-neqativ (none-negative) növlərinə bölməyi məqsədəuyğun hesab etmişlər.Onlar: *de-, dis-, in- (im), (il-) ir-, un-*.Bu qrup həm də neqativ, əks və tərs, qarşı mənalarını ifadə edən prefikslər kimi xarakterizə olunur.[7, s. 98-99]

"de-" prefiksi bir çox neologizmlərdə təsadüf olunur. Məsələn, *decentralize, decontaminate, denozify.*

Ümumi neqativ məna isə *"dis-"* prefiksi ilə ifadə olunur.*agree :: disagree, "not to agree", appear :: disappear;* və s.

"un-" prefiksi isə daha çox təsadüf edilən prefikslərdəndir və 2 müxtəlif mənanı ifadə edir:

1) Adi neqativ mənanı sifət kökünə və ya feli sifət kökünə artırılarkən ifadə edir. Məsələn, *happy :: unhappy, kind :: unkind*

2) *un-* prefiksinin mənası fel kökü ildə işləndikdə müxtəlif olur. Bu zaman o sadə sözün əksi olan mənanı ifadə edir. Məsələn, *bind :: unbind, do :: undo, mask :: unmask, pack :: unpack.*

re- prefiksi ən çox işlənən şəkilçilərdəndir və kökdə ifadə olan hərəkətin təkrarını bildirir. Bu prefiks əsasən fellərə və feli-isimlərə (verbal noun) artırılır: *rearrange v, recost, remarrage* və s.

be- prefiksi sifət və isim kökündən təsirli fellər düzəlir və təsirsiz felləri təsirli fellərə dəyişir. Məsələn, *belittle, benumb, befriend, becloud* və s.

-a- prefiksi hal-vəziyyət bildirən sözlər üçün xarakterik şəkilçidir.Məsələn, *aboard, afraid, asleep, awake* və s.

Bu prefiks kökün leksik mənasını ifadə edən bir sıra morfemlərlə omonimdir. Məsələn, *arise v, amoral adj.*

pre-, post-, non-, anti- və başqa roman və yunan mənşəli prefikslər müasir ingilis dilində çox məhsuldardır və sifət düzəltməyə xidmət edir. Məsələn, *anti-war, pre-war, post-war, non-party.*

Qədim ingilis dilində prefiksləşmə yeni söz yaratmağın məhsuldar yollarından biri olmuşdur.Prefikslərin çoxu müstəqil söz kimi işlənən sözönü və zərflərdən alınmalıdır. Məsələn, *mis-, be-, ofer-.*

Ən çox işlənən və ən məhsuldar prefikslər aşağıdakılardır: *ā, be-, for, fore, =e-, ofer-, un-.* Bunlardan *un-* əsasən isimlərə və sifətlər, qalanları isə fellərə xas prefikslərdir.

Qədim ingilis dilində prefikslərin çoxu istifadədən qalmışdı. Məsələn, *a-, to-, on-, of-, =e, or-*. Bəzi sözlərdə prefikslə köklə birləşir və sözün quruluşu sadələşir. Məsələn, *OE on-=ihna > ME ginnen or beginnen, NE begin, OE to – brecom > ME, breken, NE break.*

Bəzi prefikslər isə söz yaradıcılığının əsas yolu kimi işlənməkdə davam edirdi və onların məhsuldarılığı daha da artırdı. Məsələn, *be-* bir çox sözlərdə təsadüf olunurdu. Məsələn, *beseechen (NE beseech), bewitchen (NE bewitch) NE befriend, belittle* və s.

Neqativ məna ifadə edən *mis-* və *un-* bir yeni söz düzəltmişdi.*Mis-* XVI əsrdən etibarən çox məhsuldar şəkilçi hesab olunmur. Məsələn, *mislayen, misdemen (NE mislay "misjudge")* yeni köklə *mistake n;* yeni dövrün əvvəllərində isə onun məhsuldarlığı artmışdı. *NE misjudge, mispronounce, misappericate, mislead, etc.*

un- prefiksi əsasən isimlərə və sifətlərə çox nadir hallarda fellərlə işlənir: O bütün dövrlərdə məhsuldar qalmışdı. Orta əsrlərdə yeni düzələn sözlər, *unable, unknowen,* yeni dövrdə isə *unkook, unload* və s. bu prefikslə düzələn hibridlər: *ME uncertain, unreasonable, NE unscale, unreal, unfamiliar* və s. (3, 56)

Qədim ingilis dilindəki zərf və sözönlərindən düzələn prefikslər orta əsrlərdə və yeni dövrdə çoxlu sözlərin yaranmasında iştirak etmişdi.*OE ut, ME out – ME outcome, NE outlook, outspoken., OE ofer, ME over- : ME overgrowe (n) NE overload, overlook, OE under, ME under- : ME underwrite (n), NE underfeed, undermine.*

Orta əsrlərin sonlarında və erkən yeni dövrdə bir çox yeni prefikslər ingilis dilində işlənməyə başladı: fransız, latın və yunan. Bir çox alınma sözlərin qəbulu zamanı belə sözlərə sadə sözlər kimi yanaşılırdı.Lakin belə sözlərin öz mənbə dillərində ya düzəltmə, ya da mürəkkəb olmalarının da heç bir fərqi yox idi. Məsələn, *commit, submit* ingilis dilində sadə olsa da, fransız və latın dilidə *com-* və *sub-* prefiksinin köməyi ilə düzələn düzəltmə sözlər olmuşlar.

1200 və 1500-ci illər arasında *re-* prefiksi ilə çoxlu sözlər fransız dilindən alınmışdır.Məsələn, *ME re-conforten, re-dressen, re-formen, re-entren, re-compensen,* eyni kök sadə *loan* sözlərdə və başqa şəkilçili başqa düzlətmə sözlərdə təsadüf edilir. Məsələn, *comforten, dressen, formen, entren, entrance, comfortable, discomforten, undressen, deformen.*

re- sözün elementi kimi ayrılır, onun mənası danışanlara aydın olur və XVI əsrdən etibarən söz yaratma növü kimi təqdim olunmağa başladı.

XVI əsrdəki nümunələr: *re-greet, re-kindle, re-live*

XVII əsrdə və XVIII əsr: *re-act, re-adjust, re-full, re-open*

XIX əsr: *re-attack, re-awake.*

re- həm alman və həm də dilin öz sözləri ilə birlikdə işlənirdi. Məsələn, *fill, live, open.*Daha sonra isə o, ingilis dilində ən məhsuldar fel şəkilçilərindən birinə çevrildi.

Fel düzəldən prefikslər *de-* və *dis-* roman mənşəlidir və ingilis dilinə *loan* sözlərin tərkibində daxil olmuşdur.Məsələn, *ME destructive, decresen, dischargen, discomforten, disgisen,* sonralar isə çoxlu alınma və dilin öz kökləri ilə birlikdə işlənməyə başladı. Məsələn, *disconnect, disroot, disbelieve, dislike, disown.*

en-/in- prefiksləri erkən yeni dövrdə çox məhsuldar olsa da, məhsuldarlığı o vaxtdan artmadı, onun «müvafiq şəraitə gətirmək» mənası bağlayıcı fellərlə və sifətlərlə ifadə olunurdu. Orta əsrlərdəki nümunələr bunlardır: *en ablen, enclosem*, yeni dövrdəki *ME encamp, endanger, enlist, enrich.* Doğma köklü hibridlərə misal olaraq aşağıdakıları göstərmək olar: *ME enhungen, NE embody, enturne, entrust.*

in- təyini prefiksi çoxlu inkar mənası ifadə edən prefikslərdən biri olmuşdur: doğma *mis-, un-,* alınma *non-*. Bu prefikslər XIV və XVI əsrlər arasında yazılan çoxlu mətnlərdə sinonimlər təqdim etmişlər: *unpleasant, displeasant; unpossible, impossible; disable, unable; non-able; unfirm, innfirm* və s.

İnkar mən ifadə edən *non-* frank-latın mənşəli prefiksi sifətlərə və isimlərə artırılan çox məhsuldar ingilis prefiksinə çevrilmişdi.Məsələn, *NE non-attendance, non-Germanic, non-aggression, non-existent.*

XVII əsrdən alınan çoxlu yeni prefikslər çoxlu alınmaların – latın və yunan sözlərinin tərkibində dilə daxil olmuşdu. Çoxlu klassik *loan* sözləri elm, fəlsəfə və ədəbiyyat sferasına daxil olmuşdu. Bu sferadan olan çoxlu yunan və latın prefikslər çox məhsuldar prefikslərə çevrilmişlər. Çoxlu latın və yunan kökləri kimi bu şəkilçilər də beynəlxalq sferaya daxildir, bunlar daha çox latın və yunan mənşəli köklərlə işlənir. *anti (yunan) – anti-aircraft, anti-climax, co (Latin) – co-exist, co-operate, co-ordinate; ex (L) – ex-champion, ex-president; extra (Latin) – extra-mural, extra-ordinary; post-position, post-war; pre (Latin) – pre-classical, pre-written; semi (Latin) – semi-circle, semi-official.*

R.S.Ginzburq "A course in Modern English Lexicology" kitabında suffiksləşmə prosesinə belə bir tərif vermişdi: *"Suffixation is the formation of words with the help of suffixes".*

Bu prosesin mahiyyəti suffikslərin köməyi ilə yeni söz yaratmaqdır.Tədqiqatın xarakterindən asılı olaraq suffikslərin müxtəlif təsnifatından istifadə olunmuşdur. Suffikslər mənşəyinə, nitq hissələrin, işlənmə tezliyinə, məhsuldarlığına və s. cəhətlərinə görə xarakterizə olunur.

Leksik-qrammatik sinif eyni leksik-qrammatik mənalı leksik elementlər sinfi kimi xarakterizə olunur.Bu cəhətdən isimlər xüsusi və ümumi isimlərə bölünür.Ümumi isimlər içərisində biz şəxs adlarını, kollektiv isimlər, material isimləri, mücərrəd isimləri, əşya adların müəyyənləşdiririk. Mücərrəd isimlər aşağıdakı suffikslərlə düzəlir: *-age (breakage, vicarage), -ance/-ence (reference, assistancxe), -amcy/-ency, -dom (freedomn); -hood (manhood), -ing (reading, boating), -ion/-tion/-ation (solution), -ism (realism, barbarism), -ment (nourishment), -ness (darkness, kindness), ship (friendship), -th (growth), -ty (sonority).* və s.

Emosional cəhətdən neytral şəxs adı bildirən isimlər aşağıdakı suffikslərlə işlənir: *-an (grammarian), -ant/-ent (servant, student), -arian (vegetarian), -ee (examinee), -er (porter), -ician (musician), -ist (linguist), -ite (sigbarite), -or (inspector)* və s.

Qadın cinsi ifadə edən suffikslər şəxs adları bildirən isimlərin yarımqrupu kimi təsvir olunur.Onlar çox tez-tez işlənmir və sayca azdır: *-ess (actress), -ine (heroine), -rix (testatrix), -eet (suffragette)*

Kollektivlik mənası aşağıdakı suffikslərlə *-dom, -ery, -hood, -ship* ifadə olunur. Bu şəkilçili sözlər polisemantikdir və hal-vəziyyət bildirən mücərrəd isimlərlə əlaqə ifadə edir.Məsələn, *knighthood.*

> Suffiksləşmə qədim ingilis dilində də ən məhsuldar söz düzəltmə yollarından olmuşdur.Suffikslər yalnız leksik mənanı ifadə etmir, həm də sözü başqa nitq hissəsinə çevirir.Suffikslər daha çox isim və sifətlərə, çox nadir hallarda fellərə tətbiq olunurdu.(7, 114)

Suffikslər əsasən nitq hissələrinə görə təsnif olunurdu. Qədim ingilis dilində suffikslərin iki böyük qrupu var idi: isim düzəldən suffikslər və sifət düzəldən suffikslər. Isim düzəldən suffikslər də konkret və mücərrəd mənalı suffikslərə bölünür.

Konkret məna ifadə edən suffikslərin bəziləri qeyri-məhsuldar, ölü suffikslər olmuşdur. Məsələn, *-a hunta (NE hunter)*

-end indiki zaman feli sifətinin şəkilçisi, *OE freond, fiend, h5lend, (NE friend, fiend, "saviour") -end* söz yaratmada sonra *-ere* suffiksi ilə əvəz olundu *scotere, sutere (NE scholar "shoemaker")*

Qədim ingilis dilindəki *-ere* şəkilçili kollektiv isimlər isimlərdən və fellərdən düzəlmişdi: *bocere, fiscere, leornere, b5cere* və s.; *(scribe, fisher, learner, baker)* və s.

Mücərrəd mənalı isimlər düzəldən suffikslər *-t meaht, siht* və ya *sihp (NE might, sight)* ölü suffikslər adlanırdı.

Feldən mücərrəd isim düzəldənn məhsuldar şəkilçilərə *-ung/-ing* misal ola bilər.*bodian-bodung (preach, preaching) earnian-earnung (NE earn, earning) wilnian-wilnung ("desire" v, n)*

Orta əsrlər ingilis dilində müxtəlif mənşədən həm doğma, həm də xarici mənşəli köklərdən *-er* şəkilçili çoxlu sözlərə təsadüf edirik: *OE writere (NE writer) ME rider (e), singer (e), weever (e)* Tədricən suffiksin mənası genişlənir və müxtəlif yerli insanları göstərmək üçün işlənir: *Londoner, Southerner.*

Erkən yeni dövrdə isə suffiks yeni məna qazanır. Bu suffiks əşya və ya instrument mənalı isimlər düzəldir. Məsələn, *knocker, roller.*

Müasir ingilis dilində bu suffikslə düzələn çoxlu isimldər vardır.Məsələn, *follower, flyer, producer, type-writer.*

-er suffiksinin həm də alınma şəkilçilərdən sinonimi vardır. Məsələn, *-or, -ist, -ite.*

Mücərrəd məna ifadə edən *–ap, -op, -p*orta əmrlər ingilis dilində ölü şəkilçilər hesab olunurdular. Sonralar isə daha məhsuldar olan dilin öz şəkilçiləri *-ness* və *-ing* şəkilçiləri ilə əvəz olundu.

-ness suffiksi bütün dövrlərdə məhsuldar olmuşdur.O daha çox sifət kökləri ilə işlənirdi.*ME derkness, seekness, NE narrowness, prettiness*

Mücərrəd isim düzəldən *ME -ing* şəkilçisi qədim ingilis dilindəki iki şəkilçini əvəz etdi: *-in=/-un=*.Daha çox verbal köklərə artırılır.*ME hunting – OE huntop, ME meeting – OE =e-mot*

Çoxlu yeni düzəltmələr meydana gəldi: *ME beginning, feeling, spelling, preechin, NE shopping* və s.

Qədim ingilis dili isim suffikslərinin içərisində kök-morfemlərindən düzələn şəkilçilər də var idi: *-dom, -lac, -had, -r5den, -scipe*.

Orta əsrlərdə bu şəkilçilər nisbətən məhsuldar idi, lakin sonrakı mərhələlərdə öz məhsuldarlığını itirdi.

Bütün tarixi dövrlərdə mətnlərdə *-dom; -ship* və *-hood* şəkilçiləri ilə düzələn yeni düzəltmələr meydana gəlirdi, lakin belə sözlər adi neytral lüğətə aid deyildi. *ME sheriffdom, dukedom, NE boydom, churchdom; ME brotherhood, manhood, NE bookhood, invalidhood.*

ship şəkilçisi ilə düzələn düzəltmə sözlər başqa mücərrəd mənalı sözlərdəki kimi nadir təsadüf edilir. *ME hardship, courtship, NE editorship, relationship.* Bu suffikslərin mənası aydın olmurdu və bəzən onlar daha məhsuldar mücərrəd mənalı isim düzəldən *ness* şəkilçisi ilə əvəz olundu: *ME richdom* və *richness*, *falsedom* və *falseness*.

Yeni *-man*suffiksi kök-morfemdən düzəlmişdi. Başqa suffikslər kimi mürəkkəb ismin ikinci komponentindən düzəlmişdi.Bu komponentli bəzi sözlər erkən orta əsrlərdə nisbətən sadələşdi.Məsələn, *OE wifman, wimman > ME wiman > NE woman.*

Bəzi mürəkkəb sözlər suffikslə düzəltmə sözlərlə sadələşdi.Məsələn, *NE plaughman, seaman.*

-man suffiksi ilə düzəlmiş isimlərdə həm də birləşdirici *-s* elementi təsadüf edilir. Məsələn, *kinsman, staatesman* və s.

Onlara mürəkkəb söz kimi yanaşmanı sübut edən məsələlərdən biri *-man* şəkilçisinin bəzi sözlərdə *-woman* sözü ilə əvəz olunmasıdır.*Nobleman-noblewoman.*

Ədəbiyyat

1. Ginsburg R.S.Modern English Lexicology. M., 1966.
2. Arnold I.V. English Word Formation.M., 1981.
3. Marchand H. Studies in Syntax and Word Formation. Munchen; 1999.
4. Арнолд И.В. Лексикология совроменного ангийского языка. М.,1971.
5. Швейцер А.Д. Литературный английского языка. М., 1993.
6. Каращук П.М. Словообразование английского языка. М.,1977
7. Смирницкий А.И. Синтаксис английского языка. М., 1987.
8. Гальперин И.Р. Лексикология английского языка. М.,1973.

ALIYEVA TAHMINA

CLASSIFICATION OF ENGLISH AFFIXES ACCORDING TO THEIR PARTS OF SPEECH

SUMMARY

This article deals with the classification of English affixes according to their parts of speech. Affixes are divided into three groups: prefixes, suffixes and infixes. These types are clearly interpreted in the given article. With the help of examples the author studied affixes and come to conclusion. Affixation is one of the most productive ways of word building throughout the history of English. It is clear that one of the main functions of affixation is to form one part of speech from another. They are also interpreted according to their origin.

АЛИЙЕВА ТАХМИНА

КЛАССИФИКАЦИЯ АНГЛИЙСКИХ АФФИКСОВ ПО ЧАСТЯМ РЕЧИ

РЕЗЮМЕ

В данной статье рассматривается классификация аффиксов по частям речи. Аффиксы разделяются на три группы: префиксы, суффиксы и инфиксы, которые также рассматриваются в статье. С помощью примеров, автор статьи изучил аффиксы и пришел к выводу, что они также интерпретируются согласно их происхождению. Аффиксация, один из самых продуктивных методов словообразования в английском языке, одной из главных функций которой, является образование новых частей речи.

Rəyçi: dos . Rafiq Şabanov

İSGƏNDƏROVA İLHAMƏ
ADU

TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ SİSTEMİNƏ DAİR

Açar sözlər: kurrikulum, qiymətəndirmə, interaktiv, kommunikativ
Key words: curriculum, assessment, interactive communicative
Ключевый слова: куррикулум, оценивания, интерактив, коммуникативный

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələridir və bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzrə çıxaran etibarlı mənbə hesab edilir. Təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, 0təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür.Təlim prosesində qiymətin rolu o dərəcədə böyükdür ki, o yeganə təlim motivinə çevrilir. Halbuki qiymət ilk növbədə şağird üçün özünü qiymətləndirmə və özünə-nəzarət vasitəsi kimi çıxış etməlidir. Özünüqiymətləndirmə vərdişlərini yaratmaq üçün bütün sinif və müəllimin iştirakı ilə qiymətin şagirdin özü tərəfindən qoyulması, eləcə də şagirdlərin bir-birinin işinə qiymətə verilməsi üsulunu tətbiq etmək üçün faydalı olar.Qeyd edilməlidir ki, interaktivliyə əsaslanan təlim prosesində şagirdlərin özünü və sinfi, hətta bütövlükdə dərsin özünü qiymətləndirməsi imkanları çox genişdir. Yeni təlim metodları ilə işləyən müəllimlər bu qiymətləndirmə üsulundan müntəzəm istifadə edir və çox yaxşı nəticələr əldə edirlər. Qiymətləndirmənin əsas problemlərindən biri obyektiv qiymətin təmin edilə bilməsinin çətinliyidir: şagird qiymətin obyektivliyinə əmin olmalıdır və qiymətin tədris prosesinin real tənzimləyicisini ola bilməsi üçün onun nəyə görə verildiyini dəqiq təsəvvür etməlidir.Qiymətləndirmə sistemindəki islahatlar təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə olduğundan yəni qiymətləndirmə sisteminin yaradılması prosesinin kurrikulum və müəllim hazırlığı sahəsində aparılan islahartlarla sıx əlaqəli şəkildə həyata keçirilməsi, dərslik və təlim materiallarının yaradılmasına yeni yanaşmaların formalaşdırlması ciddi vəzifələrdən hesab olunur. Bu istiqamətdə görülən işlər vasitəsilə aşağıdakıların reallaşdırılması nəzərdə tutulur:

ölkədə kurrikulum hazırlanması və qiymətləndirmə fəaliyyətini bir-birilə əlaqələndirən tam milli sistemin yaradılması;qiymətləndirmədə təlim və tədris ehtiyaclarını ödəmək üçün istifadə edilməsi;təhsilin keyfiyyəti haqqında

obyektiv məlumatları əldə etmək məqsədi ilə səmərəli idarəetmə üçün məktəbdaxili və milli qiymətləndirmə sisteminin yaradılması, ölkənin beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirakının təmin edilməsi.Şagird nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik prosesdir. Qiymətləndirmə prosesi şagirdləri fənni öyrənməyə həvəsləndirir və kommunikativ bacarıqları əldə etməyə zəmin yaradır. Bu prosedə müəllimlərin şagird üzərində müşahidəsi, şagirdlərin sinif işləri və yaradıcı ev tapşırıqları, yazılı və şifahi cavabları əhəmiyyətlilik baxımdan eyni dərəcədə vacibdir.Məlum olduğu kimi, xarici dil üzrə 4 məzmun xətti müəyyən edilmişdir. Dilin komponentləri isə 4 məzmun xətti çərçivəsində interqaktiv şəkildə tədris olunur. Məktəb müəllimləri xarici dil fənninin tədrisində nəyi qiymətləndirmələri haqqında çətinlik çəkilər. Fənnin qiymətləndirilməsinə əsasən dil bacarıqları və dilin komponentləri aiddir. 1. Dil bacarıqları 2. Dilin komponentlər, Dinləyib anlama qaramatika, Danışma lüğəti, oxu, tələffüz, yazı orforqrafiyaXarici dil fənnini tədris edən müəllimlər fənnin qiymətləndirilməsində 4 növ test nümunələrindən istifadə edə bilərlər.1. Diaqnostik test vasitəsilə şagirdin mövzu ətrafında ilkin biliklərini təyin etmək olar.2. Yerləşdirmə testi vasitəsilə şagirdin mövzu ətrafında ilkin biliklərini təyin etmək olar.3. Qabiliyyət testi şagirdin dil haqqında səviyyəsini müəyyən etmək üçündür.4. Nailiyyət testi final imtahanları və şagird təqdimatları nümayişləri əsasında aparılır. Bir sözlə test tapşırıqlarının səmərəliyi ona daxil edilmiş çalışmaların seçim prinsiplərindən aslıdır.Şagird nailiyyətlərinin qiymətləndirməsinin əsas göstəricisini onların bilik, bacarıq və dərslərin mənimsənilməsi səviyyəsini göstərən beş fəaliyyət növünə ayırmaq olar.1. Yazılı testlər2. Şifahi testlər 3. Ev və müstəqil sinif yoxlama tapşırıqları (o cümlədən laboratoriya tapşırıqları)4. Yaradıcı tapşırıqlar5. Oyun xarakterli fəaliyyət (viktorina, krossvord həlli və s)Yazılı testlərin qiymətləndirilməsi ümumi test tapşırıqlarının, həmçinin mürəkkəb dərəcəli test suallarının sayından aslıdır. Şifahi cavabların qiymətləndirilməsi zamanı cavabların dolğunluğu, əhatəliyi, konkretliyi, düzgünlüyü, dəqiqliyi, nəticələrin xüsusən nitqin ardıcıllığı və məntiqindən aslıdır. Sinif və müstəqil ev tapşırıqlarının qiymətləndirmə meyarları hər bir tapşırığın əsasını təşkil edən konkret təlim məqsədlərindən aslıdır. Onların qiymətləndirlməsi daha çox keyfiyyət xarakteri daşıyır. Yaradıcı tapşırıqların qiymətləndirilmsəi ideyaların məhsuldarlığından, çevikliyindən, orijinallığından, adekvatlığından və başqa yaradıcı tapşırıqların yerinə yetirilməsi göstəricilərindən aslıdır.Təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagridin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də

qiymətləndirmək mümkündür.Yeni qiymətləndirmə sisteminin fəaliyyət mexanizmini başa düşmək üçün qiymətləndirmə və monitorinq anlayışlarının mahiyyətini bilmək lazımdır. Qiymətlndirmə və monitorinq anlayışları bir-birilə əlaqəlidir, başqa sözlə desək, biri digərinə xidmtə edən anlayışlardır. Qiymətlndirmə faktuiki vəziyyətin, monitorinq isə vəziyyətin dəyişmə dinamikasının, yəni prosesin qiymətləndirilməsidir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsində aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

* Təlim nəticələrinin nümayişi etdirilməsinin (müəyyənləşdirlməsinin) askarlığı. Hər bir şagird nəyin qiymətləndirildiyini, onun fəaliyyətinə dair necə mühakimə yürüldüldüyünü, bu zaman hansı dəlillərə istinad edildiyini bilməsidir.

* Müxtəlif stanadrtlara nailolma həddinin müəyyənliyi. Bunun üçün müxtəlif yeni qiymətləndirmə üsullarından və qeydiyyat vasitələrindən istifadə edilməlidir.

* Faktın (dəlilin) vahid olması. Düzgün qiymətləndirmənin vacib cəhətlərindən biri həqiqətə uyğun qərar qəbul etməkdə müəllimə kömək etməsidir (vahidlik)

Qiymətləndirmənin etibarlılğı fərqli vaxtda və şəraitdə eyni bir şagird və ya sinif üçün oxşar nəticənin alınması ilə müəyyən edilir. Bu zaman aşağı, orta və yüksək bilik səviyyəsinə malik olanların aşkar fərqləndirilməsi də etibarlılıq göstəricisidir. Qiymətləndirmə nəticələr. Həmin nəticələrdən tədris prosesinin planlaşdırılması və istiqamətləndirilməsi, qiymət ballarının hesablanması, müqayisələrin aparılması, təhlil sənədlərinin və lisenziyaların verilməsi, təhsilin bir pilləsindən digərinə keçilməsi, pedaqoji nəzəriyyələrin formalaşdırılması, təhsil siyasətinin qurulması və onun təsirliliyinin monitorinqinin aparılması, təlim resurslarının bölgüsü, kurrikulumun və tədrisin keyfiyyətinin dəyərləndirilməsində istifadə olunur, eyni zamanda geniş ictimaiyyəti məlumatlandırmaq məqsədi daşıyır.

Qiymətləndirmə standartları. Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətvermə prosesinin qanuniliyinə zəmanət verir. Təhsildə keyfiyyətin müəyyən olunması şagird nailiyyətlərinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Lakin şagridin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür.Yeni qiymətləndirmə sisteminin fəaliyyət mexanizmini başa düşmək üçün qiymətləndirmə və monitorinq anlayışlarının mahiyyətini bilmək

lazımdır. Qiymətlndirmə və monitorinq anlayışları bir-birilə əlaqəlidir, başqa sözlə desək, biri digərinə xidmtə edən anlayışlardır. Qiymətlndirmə faktiki vəziyyətin, monitorinq isə vəziyyətin dəyişmə dinamikasının, yəni prosesin qiymətləndirilməsidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiya "Azərbaycan müəllimi qəzeti" 29 iyul, 2006-cı il.

2. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurrikulum), "Kurrikulum" jurnalı, 2008 No.1.

3. Принципы и порядок оценивания Р.Ф. Утверждено Педоветоле от 16.12.205 II www. maardu.edu

4. Əhmədov A. Şərifov T, Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətlndirilməsi, "Kurrikulum" jurnalı, 2008 No.1.

İLHAMA İSGANDAROVA

ABOUT ASSESSMENT SYSTEM IN THE LEARNING PROCESS

SUMMARY

This article deals with the modern assessment system implemented in the system of general education, its essence and principles and also importance of its methods and susbtances used in the process of assessment.

The article deals with the backgrounds of foreign language teaching activity. It is shown that with the help of plsycho-logical, physiological and didactic basis even rational using of new technology. The quality of education is getting to be risen. Тще маин аим оф Стате Праграмме ис то форм аунигуе натионал едуъатион бй меанс оф интродуътион анд тще усаэе оф модерн Інформатион-Соммуниъатион Теъщнолоэй анд бй провидинэ гуалитативе едуъатион оппортунитй естаблисщинэ ъондитионс фор стате едуъатион сйстем ин ордер то интеэрате инто worлдwиде едуъатион сйстем.

ИСГАНДАРОВА ИЛХАМА

О СИСТЕМЕ ОЦЕНИВАНИЕ В ПРОЦЕССЕ ОБРАЗОВАНИЯ

РЕЗЮМЕ

В этой статье говорится о основном характеристики новой системы оценивание достижений учащихся, ее сушность и принцыпы, а также важность ее методы и средствыиспользуемый в процесс оценивания.

В статье раскрываются теоретические основы учебной деятельности. Указывается что при учете психологических, физиологических и дидактических основа также при рациональном испоьзавании новых технологий обучения повышается качество обучения.

Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образования.

Rəyçi: prof. Ə. Y. SƏFİYEV

ŞƏHLA BALACAYEVA
ADU

XARICI DILLƏRIN TƏDRISINDƏ LÜĞƏTLƏRDƏN ISTIFADƏ

Açar sözlər: *eşidib-anlama,şifahi nitq,kontekst.*
Key words: *listening,oral speech,context.*
Ключевые слова: *аудирование,устный речь,контекст.*

Tədqiqatçıların qeyd etdiyinə görə, sözlərin öyrənilməsi üç əsas istiqamətdə aparılmalıdır: Birinci qrupa funksional sözlər, yəni cümlədə müəyyən funksiyaları yerinə yetirən sözlər aid edilir. Bir qayda olaraq, funksional sözlər qrammatikanın tədrisinin obyekti olduğu səbəbindən, onlara xüsusi diqqət yetirilmir. İkinci qrupa qaydasız fellər, xüsusi cəm formalı isimlər aid edilir. Üçüncü qrupa isə sözlərin morfoloji və sintaktik xüsusiyyətləri aid edilir. Eşidib-anlama vərdişlərinin aşılanması prosesində tələbələri sözdüzəltmə üsulları haqqında məlumatlandırmaq lazımdır. Lakin, bu istiqamətdə iş apararkən, əsas məqsədin məhz vərdişlərin inkişaf etdirilməsi olduğunu yaddan çıxarmamalı və diqqətin qrammatika və yaxud leksikanın öyrədilməsi deyil, məhz, eşidib-anlama prosesinin üzərində cəmləşdirilməsini təmin etmək lazımdır. Məlum olduğu kimi, lüğətlərdə sözlərin tələffüzü, orfoqrafiyası, mənaları, hansı nitq hissəsinə mənsub olması haqqında, eyni köklü olan sözlərə dair məlumat verilir. Lakin, önəmlisi olan məhz sözlərin mənasıdır. Həm də tələbələrə ingilis dilinə xas olan polisemiya, yəni çox mənalılıq haqqında məlumat verilməli, sözlərin yalnız bir mənası, mətndə olan kontekstual mənasının tapılması tövsiyə edilir: Birinci növbədə, tələbələrə aşağıdakı məlumatların verilməsi məsləhət görülür: İngilis dilində sözlərin böyük əksəriyyəti bir neçə nitq hissəsinə aid edilə bilər. Belə ki, eyni söz isim, fel, sifət, zərf, sözönü və digər funksiyaları yerinə yetirə bilər. Əslində, sözün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirən həmin sözün cümlə daxilində tutduğu yer və onun hansı funksiyanı yerinə yetirilməsidir. Məsələn, “act” sözü həm isim, həm də fel ola bilər. *1. I caught him in the* act*. 2. You* acted *wisely. 3. We must* act *quickly.*İngilis dilində çoxmənalılığın geniş yayıldığından burada sözlərin böyük əksəriyyəti çoxmənalı sözlərdir. Misal olaraq, “take” və “head” sözlərini gətirmək olar. Belə ki, “take” feli 24 mənaya malik olduğu halda, “head” sözü 39 mənaya malikdir. Şübhəsiz, polisemiya hallarının mövcudluğu ingilis dilini öyrənən insanlar üçün, xüsusilə də ana dilində bu hadisəyə nadir hallarda rast gələn azərbaycanlı tələbələr üçün çoxsaylı problem və çətinliklər yaradır. Məlum olduğu kimi, lüğətlərin əksəriyyətində sözlərin mənaları təqdim edilərkən, müəyyən ardıcıllıq gözlənilir: isim, sifət, fel və s. Onu da nəzərə almaq lazımdır ki, ingilis-ingilis, yəni izahlı lüğətlərdən istifadə etmək heç də asan deyil və tələbə tərəfindən müəyyən səriştə, bilik və bacarıq tələb edir. Müəllim hər bir təlim kontekstində hansı lüğətlərə üstünlüyün verilməsi haqqında qərara gəlməli və burada əsas

məqsədin tələbələrin lüğət tərkibinin zənginləşdirilməsi deyil, onlara vərdişlərin tələb edilən səviyyədə aşılanması olduğunu yaddan çıxarmamılıdır. Müvafiq olaraq, hər bir təlim kontekstində ingilis dilində tədris edən müəllimin qarşısında duran əsas vəzifələrdən biri lüğətin rolunu və yerini müəyyənləşdirməkdir. Əsas məqsəd tədris edilən xarici dildə oxunun səmərəli şəkildə təşkili olduğundan, lüğətdən sui-istifadə hallarına yol verilməməlidir. Sonra həmin sözlərlə cümlələr təqdim edilir. Tələbələr sözü cümlədə yetirdiyi funksiya, onun hansı nitq hissəsinə mənsub olduğunu deməli və nəhayət, düzgün məna variantını siyahıdan tapmalıdır. **Word List:** *arm noun* – 1) the long part at each side of the human body, ending in a hand; 2) the part of a piece of a piece of clothing that you put your arm in; 3) the part of a chair where your arm rests; 4) things resembling arm in shape or function; 5) control, means of reaching; 6) weapon, branch of military forces .*arm verb* – 1) equip with weapons or other requisites .

Lüğətlə işləmək bacarığını nümayiş etdirən tələbələr tərəfindən sözlərin öyrənilməsi məqsədilə hər hansı yazılı çalışma və tapşırıqların yerinə yetirilməsinə vaxtlarının sərf edilməsi müsbət bir hal kimi qəbul edilməməlidir. Lüğətlə bağlı olan çalışma və tapşırıqların səmərəliliyinə baxmayaraq, bu istiqamətdə aparılan işin müvafiq bacarıqlara artıq yiyələnmiş tələbələrin ixtiyarına verilməsi tövsiyyə edilir. Tələbənin özü lüğətdən hansı məqsədlərlə, nə vaxt və necə istifadə edilməsi haqqında qərara gəlməli və aparılan işi müstəqil şəkildə planlaşdırıb həyata keçirməlidir. Meydana çıxan vacib problemlərdən biri də sürətdir. Bu məsələ proqramlara daxil edilməli, kurikulum və silabuslarda öz əksini tapmalıdır. Sürətli nitqin eşidib-anlama vərdişlərinin tələbələrə aşılanmasına yönəldilmiş xüsusi çalışma və tapşırıqlar dilin tədris sisteminə daxil edilməli, dil fakültələrində təhsil alan və xarici dili ixtisas dili kimi öyrənən tələbələrlə bu istiqamətdə məqsədyönlü, sistemli mərhələli iş aparılmalıdır. Onu da qeyd etmək lazımdır ki, qarşıda duran vəzifə dil daşıyıcıları olan insanların sürətli nitqi dinləyənlər adekvat şəkildə qavramaq bacarığına yiyələnməkdir. Lakin, ilk növbədə bu cür məqsədin nə dərəcədə real və əldə edilə bilən olduğunu müəyyənləşdirmək lazımdır. Tədqiqatçılar tələbələrdə sürətin əhəmiyyətli dərəcədə artırılmasına səbəb olan bu istiqamətdə yerinə yetirilən çalışma və tapşırıqların və yaxud tələbələrin tədricən ixtisas dili olan ingilis dilinə yiyələnmələrinin olduğunu müəyyənləşdirməkdə çətinlik çəkirlər. Lakin qətiyyətlə onu demək olar ki, tələbələrdə vərdişlərin inkişaf etdirilməsinə yönəldilmiş çalışma və tapşırıqların sistemli şəkildə yerinə yetirilməsi tələbələrdə onlarda bilik və bacarıq səviyyələrinə uyğun olan mətnlərin dinləməyə dair əminlik yaradır. İşlədilmə tezliyi göstəricisini müəyyənləşdirmək məqsədilə xüsusi lüğət və soraq kitabçalarına müraciət etmək lazımdır. Lakin bu cür mənbələrin müraciət etməklə problemlərin həllini təmin etmək mümkün deyil. Bu cür soraq kitabçalar bu və ya digər təlim situasiyasında mənimsənilməli olan leksik vahidlərin seçilməsi prosesində müəllim və tələbələri istiqamətləndirmək məqsədilə, bir növ bələdçi kimi istifadə edilə bilər. Qeyd edildiyi kimi, müzakirə

obyekti olan ikinci amil leksik vahidlərin çətinlik göstəricisidir. Adətən dil materiallarının təqdim edilməsi və mənimsənilməsindən danışarkən, asandan çətinə, sadədən mürəkkəbə doğru irəliləmək tövsiyə edilir. Onu da qeyd etmək lazımdır ki, lüğət vahidlərinin mənimsənilməsinin çətinlik dərəcəsini müəyyənləşdirərkən, adətən həmin prosesə tələb edilən vaxt müddətini əsas tuturlar. Eyni zamanda, problemi araşdıran müəlliflərin fikrincə, "çətinlik" meyarının kifayət qədər etibarlı və inandırıcı olması məsələsi birmənalı şəkildə qəbul edilmir və mübahisələrə səbəb olur.

Xarici dildə, o cümlədən ingilis dilində eşidib-anlamanın tədrisində əsas problem tələbələrin bilmədikləri sözlərin sayıdır. Dinləyicilərin onlara naməlum olan sözlərin hamısını tapmaq məqsədilə lüğətə müraciət etmələri qəti şəkildə qəbul edilməzdir. Onu da qeyd etmək lazımdır ki, yalnız xarici dildə deyil, ana dilində eşidib-anlamanın təlimi prosesində də dinləyicilər onlara mənaları tanış olmayan sözlərə rast gələ bilərlər. Həmin sözlərin mənaların açılması adətən həmin sözün formasından, eləcə də onu əhatə edən sözlərin vasitəsi ilə həyata keçirilir. Belə ki, sözlər də olan suffikslərin vasitəsilə onların hansı nitq hissələrinə mənsub olduqlarını təyin etmək mümkündür. Sözləri əhatə edən kontekst isə sözün kontekstual mənasını müəyyənləşdirməyə imkan verir. Eşidib-anlama vərdişlərini aşılayarkən, tələbələri naməlum sözlərin məhz bu yolla tapmağa həvəsləndirmək, bu istiqamətdə yönəltmək tövsiyyə edilir. Yeni sözlərin mənalarını lüğətə müraciət etmədən müəyyənləşdirilməsi mümkün olduğu halda, onların kontekst daxilində daşıdıqları leksik və qrammatik mənaları məhz bu yolla tapılması oxu prosesini əhəmiyyətli dərəcədə səmərələşdirir. Tələbələrə sözlərin kontekstual mənalarını müəyyənləşdirmək bacarığını aşılamaq məqsədilə, onlara aşağıdakı növ tapşırıqların yerinə yetirilməsi təklif edilə bilər: 1.*I always* take *my mobile phone with me. 2. I* took *the kids to the park. 3. Someone's* taken *my cat.* 4. *So, you are going* to take *the job?* 5. *You'll have to* take *the matter up with your manager.* (Source: Cambridge Learner's Dictionary, CUP 2001, p. 65-651)Misal olaraq "take" felini götürməkdə əsas məqsədimiz ingilis dilini çox mənalı sözlərin müxtəlif kontekstlərdə, müxtəlif mətnlərdə fərqli mənalarda işlədilməsini əyani şəkildə azərbaycanlı tələbələrə nümayiş etdirməkdən ibarətdir. Milli-mədəni mənsubiyyətləri fərqli olan azərbaycanlı tələbələr üçün ingilis dilində kulturoloji spesifikası olan hər hansı situativ kontekstin başa düşülməsi bəzən ciddi problemlərin yaranmasına səbəb olur. Onu da xüsusilə qeyd etmək vacibdir ki, fərziyyələrin irəli sürülməsi özü-özlüyündə onun düzgün olmasını təmin etmir. Tələbələrə üsul seçimində müəyyən müstəqilliyin verilməsində əsas məqsəd onlarda dinlənilən mətnin və yaxud kitabın məzmununa maraq oyatmaq, onları eşidib-anlama ilə bağlı olan və dinləmə prosesini səmərələşdirən müxtəlif fəaliyyət növlərinə cəlb etmək, onlarda rast gəldikləri problem və çətinliklərə baxmayaraq dinləməyi davam etdirmək həvəsini yaratmaqdan ibarətdir. Tələbələri düzgün istiqamətləndirmək, onlara mətnin məzmununu adekvat şəkildə başa düşmək üçün

hansı üsullardan istifadə etmək haqqında məlumatlandırmaq və bu məqsədə nail olmaq üçün yerinə yetirilməsi tövsiyyə edilən çalışmaları və tapşırıqları onlara təqdim etməlidir. Lakin, tələbə-yönümlülük prinsipinə riayət edərək, onlara müstəqillik verilməli və əslində eşidib-anlama vərdişləri tələbələrə aşılanmamalıdır, tələbələr zəruri olan vərdiş və bacarıqlara yiyələnməlidirlər. Belə ki, naməlum olan sözlərin mənalarının öyrənilməsinə gəldikdə, tələbə mətni təkrar olaraq dinləməli və hansı sözlərin vacib olduğu, hansıların isə məzmunun başa düşülməsi üçün o qədər də əhəmiyyətli olmadığını tələbənin özü müəyyənləş-dirməlidir. Çox vaxt dinləmə prosesində tələbələr onlara tanış olmayan, bilmədikləri sözləri ucadan desələr tələbələrin bu üsulla üstünlük verdiyi halda, müəllim tərəfindən heç bir etiraz edilməməlidir. Yerinə yetirilən tapşırıqların əsas məqsədi həmin prosesin səmərəliləşdirilməsi və daha yüksək nəticələrin əldə edilməsidir. Unudulmamalıdır ki, rabitəli şifahi nitq bacarıq və vərdişlərinin inkşafında əlaqələndirmənin əhəmiyyəti böyükdür. Bütün bunlar öyrəncilərin differensiallaşdırılması , onların qabiliyyətlərindən maksimum istifadə edilməsi baxımından təqdirə layiqdir. Təkanverici, istiqamətverici olması ilə işin məzmununu, mahiyyətini təmsil edirlər.

ƏDƏBİYYAT

1.Bley-Vroman R. Hypothesis testing in second language acquisition theory.Language Learning.1986,N№36,3,p.353-76

2.Гусейнзаде Г.Д Обучение речевой коммуникации на иностранным языке.Баку:2001

3.Theoretical Principles and Pedagogical Consideration.”The Modern Language Journal 70/2:1986.99-106

BALAJAYEVA SHAHLA

THE USAGE OF DICTIONARIES IN FLT

SUMMARY

The article deals with the problem of working out,effective ways of listening skills of the students learning English for proffesional purposes.Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners’ ability to use the target,language for communication.Listening comprehension is one of the most basic and important of the four skills in language teaching&learning. The article deals with the backgrounds of foreign language teaching activity. It is shown that with the help of plsycho-logical, physiological and didactic basis even rational using of new technology, the quality of education is getting to be risen. While analyzing great attention was given to the facts taken from literature. This article deals with the problems and different

approaches in foreign language. In the article the author analyzes these problems and notifies her opinions .The author tries to detect and find out the problem in this field.

БАЛАДЖАЕВА ШАХЛА

ИСПОЛЬЗОВАНИЕ СЛОВАРЕЙ НА ПРЕПОДАВАНИИ ИНОСТРАННОГО ЯЗЫКА.

РЕЗЮМЕ

Данная статья посвящена рассмотрению рациональных путей формирования навыков аудирования у студентов,изучающих английский язык в профессиональных цельях.В условиях глобализации основная цель обучения иностранным языкам и их изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации.Умение адекватно воспринимать информацию в процессе аудирования является одним из самых важных и необходимых умений которыми должен обладать человек,изучающий язык в тех или иных целях. В статье раскрываются теоретические основы учебной деятельности. Указывается что при учете психологических, физиологических и дидактических основа также при рациональном испоьзавании новых технологий обучения повышается качество обучения. В течение анализа большое внимание обрашено на факты, полученные из литератур. В этой статье говорится о проблеме связанной с чтении и разными подходами к этой проблеме. В статье автор проводит анализ и высказывает свои мысли. Автор пытается раскрыть проблемы в этом плане.

Rəyçi: fil.f.d. Nuriyyə Əliyeva

QƏNBƏROVA ELNARƏ
ADU

INGILIS DILININ TƏDRISINDƏ INTERFERENSIYANIN NƏZƏRƏ ALINMASI

Açar sözlər: interferensiya , intonasiya, tələffüz
Ключевые слова: интерференция, интонация, произношение
Key words: interference , intonation, pronunciation

Bu gün Azərbaycanın təhsil sistemində ciddi islahatlar həyata keçirilir. Avropa təhsil sistemində olan Azərbaycanın təhsil sistemində keçirilən islahatlar arasında dillərin tədrisinə kommunikativ yanaşmanın qəbul edilməsi, kommunikativlik prinsipinə əsaslanan yeni proqram və silabusların hazırlanması, xarici dillərin tədrisində tələbə-yönümlülük prinsipinin tətbiq edilməsidir. Tələbə-yönümlülük prinsipi isə dillərin tədris sisteminin tələbələrin maraq, ehtiyac və tələbatları üzərində qurulması, onların yaş, intellektual səviyyələri və fərdi xüsusiyyətlərini nəzərə almaqla təşkil edilməsini tələb edir. Bu zaman söhbət tələbənin öyrədilməsi deyil, fənni tədris edən müəllim tərəfindən biliklərin tələbələrə ötürülməsi deyil, təlim prosesində fəal iştirakçı qismində çıxış edən tələbələr tərəfindən müvafiq biliklərin mənimsənilməsindən söhbət gedir. Qloballaşma dövründə ingilis dilindən danışarkən, tələbələrin öyrədilməsindən deyil, daha çox tələbələri ixtisas dilində prosesə cəlb etməklə, onların eşidib-anlama vərdişlərinin inteqrativ şəkildə, yəni şifahi nitq, oxu və yazı vərdişləri ilə eyni zamanda inkişaf etdirilməsini nəzərdə tutur. Bu isə xarici dillərin tədrisi metodikasında qəbul edilmiş və xarici dillərin, o cümlədən ingilis dilinin təlimi prosesinin səmərəliləşdirilməsini təmin edən "learning by doing", yəni hər hansı hərəkəti icra etməklə öyrənmək prinsipinin məqsədyönlü, sistemli, mərhələli şəkildə təşkil edilməsini nəzərdə tutur .

Geyd etməliyik ki, nitq səslərinin səs cildini öyrənmək, səs birləşmələrinin və prosodik vasitələrin relevantlığını və funksional xüsusiyyətlərini tədqiq etmək dilçilik elminin maraq dairəsinə daxildir. Hər bir dilin öz səs qanunları olduğundan düzgün tələffüzə yiyələnmək üçün bu qanunları öyrənmək lazımdır. Dilin fonetik tərkibini , səslərin əvəzlənməsinin, nitq potokunda fonemlərin modifikasiyasının, vurğu və intonasiyanın dil daşıyıcıları üçün ümumi xarakter daşımasına baxmayaraq , səs qanunları hamı tərəfindən eyni şəkildə qəbul edilmir. Danışanın fərdi xüsusiyyətlərindən, yerli şəraitdən və s. səbəblərdən asılı olaraq tələffüz normaları pozulur, təhrif olunur, beləliklə də nitq prosesində başadüşülməzliklər meydana çıxır. Ədəbi dilin tələffüz normalarından kənara çıxma hallarından danışarkən tədqiqatçılar onun iki növünü qeyd edirlər. Pozulma və təhrif olunma.Tələffüz normasının pozulması fikrin ümumi mahiyyətini pozmur,

mənafunksiyasınısaxlayır.

Tələffüz normasının təhrif olunması isə özünü müxtəlif formalarda biruzə verir. Daha dəqiq desək, nitq prosesində başadüşülməzlik yaradaraq, mahiyyəti alt-üst edir. Lakin qeyd edilməlidir ki, tələffüz normasının pozulması və təhrif olunması qəbul edilmiş ədəbi tələffüz normalarından kənara çıxmanın ümumi bir qatını təşkil edərək, fonetik interferensiya ünsürləri halında təzahür edir. **Danışıq dilinin biri digərinə yaxın görünən vahidləri bəzən çox incə məna və intonasiya xüsusiyyətləri ilə seçilir. Fonetik ünsürlər prinsipcə leksik-qrammatik vasitələrdən fərqlənir. Lakin onlar canlı nitqdə həmin vasitələrin mənalarının səsləndiricisi rolunu oynayırlar.** Cəmiyyətin tərəqqisi ictimai-iqtisadi əlaqələrlə yanaşı, mənəvi amillərdən, xüsusilə insanlar arasındakı ünsiyyət prosesindən asılıdır. Ünsiyyət prosesi çoxmillətli xalqlar yaşayan coğrafi arenada daha mürəkkəb səciyyə daşıyır. Qarşılıqlı əlaqələr ikidillilik şəraitində həyata keçirilir. İkidillilik cəmiyyətin qanunauyğun inkişafının nəticəsi kimi müxtəlif xalqların mədəniyyət, təhsil sahəsində praktik zəruriyyətindən yaranır. İkidilliliyin təzahür formalarını nəzərə alan alimlər onun iki növünü qeyd edirlər 1. Təmaslı; 2. Qeyri-təmaslı.

Təmaslı ikidillilik bir neçə xalqın və ya millətin birgə qarşılıqlı əlaqəsi, ünsiyyəti nəticəsində yaranan uzunmüddətli proses olmaqla daimi xarakter daşıyır. Ana dilimizin semantik vahidləri ingilis dilinin semantik vahidlərilə eyniyyət təşkil etmədiyi hallarda interferent xarakter daşıyır. L.R Zinder yazır: "Belə düşünmək lazımdır ki, səslərin özlərində akustik-fizioloji xüsusiyyətləri deyil, onların linqvistik, fonetik xüsusiyyətləri tədqiq olunmalıdır. Rus dilində bu mənada həlledici şey sait və samitlərin heca əmələ gətirməsində rolu olur. İngilis dili tələffüzünün Azərbaycan auditoriyasında tədrisi sahəsində çoxillik təcrübə bizi inandırır ki, bu işin təşkilində metodiki planlaşdırma əsasdır. Çətinliklərin müəyyən edilməsində fikir ayrılığının olmaması üçün yalnız fonetik vahidlərin müxtəliflik dərəcəsi əsas meyar ola bilər. Fonetik vahidlərin müxtəliflik dərəcəsi dedikdə bu bir tərəfdən xarici dil ilə ana dilinin fonetik vahidləri arasındakı müxtəliflik dərəcəsini nəzərdə tutur. Bu ictimai hadisə ilk baxışda fərdi psixoloji şəkildə görünsə də, ictimai- ideoloji xarakter daşıyır. İkidillilik həm də tarixi kateqoriyadır. Belə ki, müəyyən tarixi şəraitdən asılıdır.Dilin başqa sahələrində olduğu kimi, onun fonetik quruluşuna daxil olan faktlar, yəni fonemlər bir birilə mohkəm əlaqədə olan ünsürlərdir. Dilin fonem tərkibinə daxil olan linqvistik vəzifəni danışıq səsləri- fonemlər ən azı bir əlamətə görə fərqlənməsinə baxmayaraq, bir-birilə əlaqədə olur, dilin fonematik, fonetik quruluşunda müəyyən sistem təşkil edir. Hər hansı bir dilin fonem sisteminin təhlili göstərir ki, fonemlər müəyyən sıralar təşkil edir, müəyyən struktur əmələ gətirir. A.S. Trubetskoy bu barədə yazır: Bu strukturu başa düşmək üçün fonoloji qarşı-qarşıya qoyulmaların müxtəlif növlərini tətbiq etmək lazımdır.Eşidib-anlamanın tədrisində başlıca vəzifə dinləmə üçün təqdim edilən mətndə olan leksik, struktur və kulturoloji mənanın

dekodlaşdırmaq, mətndə olan semantik mənanı adekvat şəkildə qavramaq, eləcə də öyrənilən xarici dildə mövcud olan normalara uyğun olan və kommunikativ cəhətdən adekvat məna kəsb edən mətnlərin yaratmaq bacarığının tələbələrə aşılanmasıdır. Xarici dildə əsas məqsəd ayrı-ayrı səs və sözlərin qavranılması deyil, kodlaşdırılmış mesajların adekvat şəkildə qəbul edilməsi məqsədilə leksik vahidlərin və qrammatik struktur mənalarının dekodlaşdırılmasıdır. Dil fakültələrində təhsil alan tələbələrə ixtisas dilində mesajları adekvat şəkildə dekodlaşdırmaq bacarıqlarının aşılanması məsələsinə xüsusi diqqət yetirilməlidir. Məsələni tədqiq edən alimlərin bəziləri qeyd edirlər ki, dil istifadəçisi olan insanlar tərəfindən mətndə olan kodlaşdırılmış məlumatı adekvat şəkildə qəbul etməyə və müəyyən dərəcədə özünkiləşdirməyə çalışaraq ayrı-ayrı söz və söz birləşmələrinin mənalarını tapmaq məcburiyyətindədir . Eşidib-anlama vərdişlərinə tələb edilən səviyyədə yiyələnmiş tələbələr səs və səs birləşmələrini, leksik vahidlərin mənalarını bilavasitə dekodlaşdıraraq, əldə olunmuş məlumatı və dərk olunmuş mənaları yenidən kodlaşdıraraq, onları şifahi və yaxud yazılı nitq vasitəsilə başqalarına çatdırır. Xarici dildə informasiyanı adekvat şəkildə qəbul etmək bacarığının tələbələrdə inkişaf etdirmək, onlara müvafiq linqvistik və ekstralinqvistik biliklərin, eləcə də leksik, qrammatik və tələffüz vərdişlərinin sistemli, mərhələli şəkildə aşılanması məqsədilə ixtisas dilində eşidib-anlamanın təliminin ayrılmaz tərkib hissəsini təşkil etməlidir. Alimlərin fikrincə, hazırlıqlı, müəyyən dərəcədə professional hesab edilə bilən dinləyici üç növ məlumat əldə etmiş olur. Birinci, səs və səs birləşmələri ilə əlaqəli olan məlumat. Güman edilir ki, dil fakültələrində təhsil alan tələbələr artıq bu növ məlumata yiyələnmişlər. Burada əsas diqqət tələbələrə tələffüz vərdişlərinin lazımi səviyyədə aşılanmasına yönəldilməlidir. İkinci növ məlumat dilin qrammatik strukturlarının daşıdığı sintaktik məlumatdır . Ana dilində müvafiq qrammatik vərdişlərə yiyələnmiş tələbələr bu sahədə əldə edilmiş bilikləri xarici dildə eşidib-anlama prosesində tətbiq edirlər. Dil daşıyıcısı olmayan, dili ixtisas kimi öyrənən tələbələr müvafiq bilik və vərdişlərə məqsədyönlü, mərhələli şəkildə yiyələnməlidir. Üçüncü növ informasiya isə semantik informasiyadır. Eşidib-anlama üçün seçilmiş mətndə olan semantik informasiyanı adekvat şəkildə qəbul etmək məqsədilə mətni dinləyən tələbə həm linqvistik, həm də kulturoloji xarakterli mənanı adekvat şəkildə qavramaq bacarığına malik olmalıdır. İngilis dilini professional məqsədlərlə öyrənən tələbələrin dil daşıyıcılarının mədəniyyəti, onların yaşadığı məkanda qəbul edilmiş ünsiyyət tərzləri, milli xarakteri, mentaliteti, verbal və qeyri-verbal davranış normaları haqqında məlumatlandırılması müasir metodikanın ən aktual və olduqca vacib problemlərindən biridir. İxtisası xarici dil olan ali məktəblərdə ingilis dilini öyrənən azərbaycanlı tələbələr yalnız sözlər və qrammatik strukturlarda olan mənaları deyil, həm də dinlənilən mətndə olan və ingilislər tərəfindən "behind the message" adlandırılan sətirlərarası mənanı başa düşmək və sonradan özləri sərbəst şəkildə mətn yaratmaq bacarığına

yiyələnməlidirlər. Müstəqil dinləyici qarşısında qoyulan məqsədlərdən asılı olaraq müxtəlif dinləmə strategiyalarından kreativ şəkildə istifadə etməyi bacarmalıdır. Eyni zamanda eşidib-anlama vərdişlərinə tam şəkildə yiyələnmiş, müstəqil dinləyici mətnin məzmununun ümumi şəkildə və yaxud müfəssəl, ətraflı surətdə başa düşülməsindən asılı olaraq müvafiq dinləmə strategiyalardan istifadə etməyi bacarmalıdır.

ƏDƏBİYYAT

1. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili. Bakı., 1984
2. Tahirov A.,Salayev Ə., Orta məktəblərdə ingilis dilinin tədrisi metodikası.Bakı.,1978
3. Danes F.Sentence intonation from a functional point of view. Kopenhagen.,1960.
4. Widdovvson H .Y. Exploration in Applied Linquistics. Oxford University Press, 1979
5. Brown, H.D.Principles of language learning and teaching. Longman publication, 2000.
6. Баранникова Л.И. Проблемы двуязычия. М. ,Наука, 1972

QANBAROVA ELNARA

THE INTERFERENCE IN FLT

SUMMARY

The article deals with the problem of teaching oral speech to language students. Radical changes should be brought into the process of teaching oral speech. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication.Speaking comprehension is one of the most basic and important of the four skills in language teaching&learning.One of the main goals of language learning is to acquire the ability to communicate effectively.Special attention should be paid to preparing materials and activities for speaking. Preference should be given to materials. Materials shouldn't be to difficult to comprehend.

КАНБАРОВА ЕЛЬНАРА

ИНТЕРФЕРЕНЦИЯ НА ПРЕПОДАВАНИИ НОСТРАННОГО ЯЗЫКА

РЕЗЮМЕ

В данной статье рассматриваются вопросы обучения устной речи на английском языке в условиях языкового вуза. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке. Процесс английскому языку в целом и процесс обучения диалогической речи должен базироватьвся на коммуникативно – функциональном принципе. Обучением устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению еффективности данного процесса. В условиях глобализации основная цель обучения иностранным языкам и их изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации.Умение адекватно воспринимать информацию в процессе “speaking” является одним из самых важных и необходимых умений которыми должен обладать человек,изучающий язык в тех или иных целях.Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.Особое внимание должно быть уделено отбору текстовых материалов,Предпочтение должно быть отдано материалом.Также следует отметить,что тексты не должны быть слишком сложными для восприятия.

Rəyçi: prof.Ə. Y. Səfiyev

Dosent Ramidə MİRZƏFƏROVA
Bakı Slavyan Universiteti

"ANARIN "ƏLAQƏ" POVESTİ ƏTRAFINDA OLAN MÜBAHİSƏLƏR"

Keywords: image, time, fantasy
Ключевые слова: образ, время, фантастика.
Açar sözlər: obraz, zaman, fantastika.

Azərbaycan ədəbiyyatı tarixinə görkəmli nasir, dramaturq, publisist, tənqidçi, kinodramaturq, ssenarist kimi daxil olan və ictimai xadim kimi tanınan Anar yaradıcılığıbir çox spesifik xüsusiyyətləri ilə diqqəti cəlb edir. O, 60-cı illərin ədəbi gəncliyinin aparıcı nümayəndəsi olmaqla, Azərbaycan nəsrinə təzə ovqat gətirmiş, ədəbiyyatımızın yönünü yeni mövzu və qəhrəman axtatrışlarına, müasirliyə istiqamətləndirmişdir. Qırx ildən artıq bir müddətdə Azərbaycan bədiinəsrinin inkişafı yolunda qələm çalan Anar bu gün də bədii yaradıcılığının ən kamil çağını yaşayır. O, insan və zaman problemləri daxilində müasir dünyamızın həyat fəlsəfəsini və bu müstəvidə insanın həyati baxışlarını, onun xarakter xüsusiyyətlərini və s. əsl sənətkar qələmi ilə mənalandırmış, geniş oxucu kütləsinə çatdırmışdır.

Anarın nəsr yaradıcılığında "Əlaqə" povesti (1976) mövzu və janrca bir qədər gözlənilməz, ancaq bu yaradıcılığın simasını müəyyən edən, onun bədii miqyas hüdudsuzluğunu, paradoksallığa meyllilik özümlüyünü üzə çıxaran əsərlərdəndir. Sabit, möhkəmlənmiş düşüncə tərzinin dəyişilməsi, yeni idraki "variantların" qəbulu və təsdiqi, şübhəsiz, uzun sürən prosesdir. Ancaq necə olursa-olsun, bu dəyişikliyi görmək, yaratmaq lazımdır...

İlk təməl, problemlər Anarın yaradıcılığının əsasını təşkil edir və bu problemlərdən biri- əlaqə, ünsiyyət yazıçının "Əlaqə" əsərində öz əksini tapıb. Bu əsər Anarın yaradıcılığı və ümumiyyətlə nəsrimizdə yeni bir əsər idi. Zaman və məkan, əlaqə, ünsiyyət probleminbizim qəbul etdiyimiz, vərdiş etdiyimiz izahından, yozumundan başqa da mümkün variantları var. Əgər biz insanlar hər şeyi "kasıb zehnimizin qısa arşınıyla ölçəcəyiksə", onda nə ictimai münasibətlər, nə də elm sahəsində heç bir irəliləyişə ümid bəsləyə bilmərik. Çünki bütün kainatı ancaq biz isanların məntiqi ilə idarə etmək olmaz. Elə bu bizim beynimizdə möhkəm kök salmış, hətta müəyyən dərəcədə fanatik düşüncə tərzidir. Özümüzü təsəvvür edilməz dərəcədə böyük olan bütün kainatın mərkəzində qoymaq, yalnız özümüzün dərk etdiyimiz əlaqə vasitələrindən istifadə edib digər planetlərin sakinləri ilə əlaqə yaratmaq təşəbbüsümüz səmərəsiz olacaqdır. Anar bu məsələləri həm oxucular, həm də elm adamları qarşısında qoyur, onları "başqa növ əlaqə prinsiplərinə"

yiyələnməyə çağırır. Əsərdə qorxu, xof təkliyin üzündən doğan təbii psixi halətlər kimi təsvir edilr. Tələbənin real psixoloji vəziyyəti-isti cənub şəhərində üzücü imtahanlardan çıxması, müvəffəqiyyətlərin tam aydın olmayan, qarmaqarışıq sevinci, gərginlikdən sonra boşluğa düşməsi onun sonrakı "fantastik vəziyyəti" ilə məntiqi şəkildə əlaqələndirilir. Həm də onun ruhi sapmaları birdən-birə yox tədriclə və təmkinlə təsvir edilir, "fantastik girişdən" - tələbənin başqasını abituriyent yoldaşı ilə qarışıq salmasından sonra bir-birinin ardıncı baş verən "əcaib-qəraib" gözlənilməzliklər onun olmazın ruhi sarsıntılar çəkməsinə səbəb olur.

"Əlaqə"də fentezi janrına məxsus xüsusiyyətlər-şəkillərdəki adamların sifətlərində dəyişikliklərin baş verməsi, qırıq xətli telefon, liftin 20-ci mərtəbəyə qalxmaq əvəzinə zirzəmiyə enməsi, otağın qapılarının başqa mənzilə açılması, divar saatının əksinə hərəkət etməsi və s. bu kimi xüsusiyyətlər tələbənin əsəblərini son dərəcə tarıma çəkir və onu tam psixopataloji hala salır. Povestinin janrı ilə bağlı müxtəlif mübahisələr ortaya çıxmış, fərqli fikirlər söylənmişdir. Bu povestlə bağlı aparılan araşdırmalarda ədəbiyyatşünaslar povestin janrı ilə bağlı həmfikir olmamış, yekdil qərara gələ bilməmişlər. Fikrimizcə bu, fentezi janrının Azərbaycan ədəbiyyatında yetəri qədər araşdırılmamasından irəli gəlir. Çünki povestdəki, demək olar ki, hər bir detal "Əlaqə"nin məhz fentezi janrında yazıldığını demək üçün bizə əsas verir. Əsərdə rast gəlinən fantastik elementlər, ağlın, real düşüncənin qəbul edə bilməyəcəyi hadisələr "Əlaqə"ni fantastikanın bir neçə yarım janrına yaxınlaşdırsa da, daha çox fenteziyə uyğun gəldiyinə, əsərdə daha çox fentezi janrının xüsusiyyətləri özünü göstərdiyinə görə "Əlaqə" povesti məhz fentezi janrında yazılmış bir əsərdir. Ümumiyyətlə, iri nəsr nümunələrində Anar həqiqətə və ünsiyyətə aparan yolu, təbii genetik əlaqə estafetini fərdlər yox, daha çox zamanlar və yaddaşlar arasında axtarır. "Əlaqə" povesti məhz bu baxımdan Anarın ədəbi-fəlsəfi axtarışlarında yeni bir mərhələni ifadə edir. Povest dərc olunan da onun janrı ilə bağlı bir sıra mübahisələr ortaya çıxdı. Bəziləri əsəri adicə fantastika [3], digərləri isə "elmi -fantastik əsər" [1, 12] hesab edirdi.

Professor Tofiq Hüseynoğlu bu əsərin elmi-fantastik janrda olması ilə heç cür razılaşmır. "Düzdür, povestdə irsiyyət genlərinin yaddaşı, vaxtın fəlsəfi və fiziki mahiyyəti və nisbiliyi, radioteleskoplar və uzaq dünyalarla əlaqə problemi, şüur sistemlərinin müxtəlif ola biləcəyibarədə fərziyyə və mülahizələrdən elmi-fantastika elementi və ünsürü kimi istifadə edilib. Lakin bununla povest elmi-fantastikaya çevrilmir. Çünki bu əsərdə fantastika əsas bir mövzu yox, ancaq ədəbi priyomdur, əsas fikri ifadə etmək üçün vasitədir" [5].

Ədəbiyyatşünas, professor N.Əliyeva qeyd edir ki, "Əlaqə"də fantastik və ağlasığmaz təsvirlər çox dərin, düşündürücü fəlsəfi məsələlərlə çuğlaşır, qəribə, əcaib, çox zaman da vahiməli situasiyalar qəhrəmanın mənəvi–psixoloji

vəziyyətindəki anormallıqla qarışıb itir, hansının daha önəmli olduğu bilinmir; baş verən hadisələrdə rasional–məntiqi bağlılıq, ardıcıllıq əsla gözlənilmir, bütün bunlar sanki qarabasma, hallusinasiya, xəstə, qeyri-normal təfəkkürün sayıqlamaları təsiri bağışlayır, heç nə aydın surətdə axıracan izah olunmur [4, 74]

Anar bu əsərdə oxucuya çatdırmaq istədiyi ideyaya uyğun bədii forma seçmişdir. Nədir əsərin ideyası? Müəllif personajların birinin dili ilə bunu belə ifadə edir: "...Biz şüurumuzun dəyişməz məntiqi qanunlarının pozulmasına razı olacayıqmı? Hadisələrin səbəb-nəticə bağlılığının qırılmasıyla barışa biləcəyikmi? Tamam başqa bir şüur sisteminin olmasını qəbul edəcəyikmi? Uzaq dünyalarla əlaqənin yaranıb-yaranmayacağı məhz bunlardan asılıdır. Əgər bütün qeyri-adi, dərkolunmaz, izahedilməz, şüurumuza sığışmaz şeylərə yenə də məntiqi-rasional səbəblər axtaracayıqsa, vərdişli analogiyalar arayacayıqsa, hər şeyi kasıb zehnimizin qısa arşınıyla ölçəcəyiksə, o zaman heç kəslə heç bir əlaqə yaratmaq mümkün olmayacaq" [2, 184].

Povestdə diqqəti, əsasən, fenomenal üçlük cəlb edir: Tənha Yer Kürəsi-Tənha Bina-Tənha, Fərdiyyətçi Tələbə! Yer Kürəsinin sakinləri ona görə geniş makrokosmik münasibətlər yarada bilmirlər ki, hərtərəfli kosmik əlaqə vasitələrinə hələ yiyənlənməyi bacarmayıblar; tələbə ona görə kütləvi–insani həyat tərzinə qovuşa bilmir ki, fərdiyyətçidir və inanlarla hərtərfli əlaqə yaratmaq keyfiyyətindən tamamilə uzaqdır. Şəhərdən ayrı, tənha bina. Əsərin ən böyük müvəffəqiyyəti tələbənin başına gələn hadisələrin məhz bu tənha binada təsvir edilməsidir. İnsanlarla hərtərəfli ünsiyyətdən məhrum olan gəncin başına gələn bu qəzavü-qədər belə məkanda təsvir olunmalı idi: Şəhərdən, binalardan əlaqəsi kəsilmiş bu tək bina, adamlardan ayrı düşmüş tənha gənclə digər planetlərin canlı varlıqları ilə əlaqəsi olmayan tənha yer kürəsinin uyğun vəziyyətini-böyük yalqızlığı qabarıq göstərmək üçün ən tutarlı simvolik obyektdir. Belə əlaqələndirmənin sayəsindədir ki, povestdə möhkəm, bitkin ideya-kompozisiya bütövlüyü yaradılmışdır.

Professor Nurlana Əliyeva belə bir fikir irəli sürür ki, povestdə müəllifi insanlar arasında ünsiyyət, yaxud da kosmik əlaqələr problemindən daha çox bizim adi düşüncə tərzimizin, məntiqi təfəkkürümüzün özünün birtərəfliliyini–son dərəcə mürəkkəb dünyanın dərkində vərdiş etdiyimiz rasional, yalnız ağla söykənən ölçü və meyarların yetməzliyi problemi düşündürür. Sürrealizmə məxsus bədii qavrayış, sürrealist üslub Anar yaradıcılığında ilk dəfə olaraq ən bariz şəkildə məhz bu əsərdə özünün ifadəsini tapdı və " Əlaqə" povesti nəsrimizdə ilk sürrealist nümunə kimi ədəbiyyat tarixinə daxil ola bilər [4, 75].

Ədəbiyyatşünas Nurlana Əliyevanın fikrincə, "Əlaqə" povesti Anarın sürrealist bədii təfəkkürə, üsluba nə qədər yaxın olduğunu nümayiş etdirir: əsər başdan-başa sürreal təsvirlər, qarabasmalar, yuxu ilə reallıq arasında olan qəribə, əcaib səhnələr, heyrətləndirici, bəzən insanı dəhşətə gətirən,

çevrilmələr, metamorfozalar (cisimlərin, əşyaların, rəsmlərin, insanların göz önündəcə görünüşlərini dəyişməsi və s.), müxtəlif səpgili hallusinasiyallar və ağlasığmaz təsvirlərlə doludur. Əsərin qəhrəmanı tələbə bütün bunları hansısa təbii səbəblərlə bağlamağa, baş verənlərin məntiqi izahını tapmağa və beləliklə də özünü sakitləşdirməyə, yəni ağlının başında olduğuna, dəli olmadığına öz-özünü inandırmağa çalışır. Lakin onun bütün səyləri hər dəfə ətrafında baş verən növbəti ağlasığmaz möcüzə, fantastik çevrilmə ilə üzləşdikcə əbəs cəhdlərə dönür: "… Dəhşətdən tamamilə şüuru dumanlanan tələbə fotoya lap yanaşdı və gözlərini zillədi: Necə ola bilər? Gör mən necə bərk yatmışam ki, qarının gəlib şəkli dəyişdirməsini duymamışam. Ya belə deyilsə, onda deməli, mənim ağlım çaşır, başım xarab olur, onda deməli, onlar məqsədlərinə çatıblar; mən dəli oluram. Amma əgər adam öz dəli olmağınıı belə aydın və dəqiq dərk edə bilərmi?! "Tələbə şəklə iki addımlıqdan baxdı və şüurunun son dərəcə aydın anlarında tam bir dəqiqliklə fotonun yavaş-avaş dəyişdiyini gördü-şəkildəki oğlanın sifətində yavaş-yavaş saqqal çıxır, onun üzünü tük basırdı. Tələbə qəşş etdi. Otaq qaranlığa qərq oldu. Məlum deyil nə qədər vaxt keçdi, nəhayət, huşu yavaş-yavaş başına qayıdanda tələbə vəziyyətini təyin etməyə çalışdı: yuxudurmu, ayıqlıqdırmı? O, hələ də bayılmış haldadır, yoxsa tamamilə ağlını itirmişdir…" [2; 160,161].

Bu cür qorxunc, sağlam düşüncənin hüdudlarını aşan, insanı bayılmaq, dəli olmaq dərəcəsinə çatdıran qeyri-adi, sarsıntılı səhnələrlə öz qəhrəmanını imtahana çəkən müəllif əsərin sonunda onu "psixiatr"-astrofiziklə görüşdürür: o isə öz növbəsində tələbəni inandırmağa çalışır ki, dünyada hər şeyi formal və rasional məntiqin səbəb-nəticə əlaqələri ilə izah etmək mümkün deyildir. Astrofizikin kosmik əlaqələr sahəsinə dair söylədikləri əslində tələbənin düşdüyü situasiyanın izaholunmazlığına da aiddir: "…Aman Allah, biz necə də öz-özümüzdən müştəbehik, necə də qəti hökm veririk. Kainatı ancaq bizim məntiqimizlə dərk etmək olar?!" [2, 182]. Qeyd etməliyik ki, "Əlaqə" müxtəlif janrlara aid edilsə də, povestdə fentezi janrının xüsusiyyətləri özünü göstərir.

ƏDƏBİYYAT

1.Anar. Kontakt. M, Sovet yazıçıları, Bakı, 1980, 215 s.

2. Anar. Seçilmiş əsərləri: 2 cilddə, 2 c, Bakı: Azərnəşr, 1988, 398 s.

3. Eminov.A. Janrın "tələbi". "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1979, 1 yanvar.

4. Əliyeva.N. Anar-Şəxsiyyət və sənətkar. Bakı: Təhsil, 1999, 135 s.

5. www.axar.az. Nigar An. Başqa planetlərlə əlaqə yaratmaq üçün.

Dosent Ramidə MİRZƏFƏROVA
Bakı Slavyan Universiteti

ANARIN "ƏLAQƏ" POVESTİNDƏ İNSAN PROBLEMİ

Summary

The problem of man in «Contact» by Anar

The paper is dedicated to the problem of man in «Contact» by Anar where the character is many-sided. The dissociation of the student, his searches around himself and his going around in circles are scrutinized by the hero. The young man becomes the witness of the unclear mystical phenomena. Life of heroes in the story is similar to the island which is full by fantastic miracles. Are shown in article as a dream and desires of the hero blossom in the utopian course. Features of heroes by Anar in masterful disclosure of their psychology. The paper also reflects different scientific points of view relating to the central character of Contact.

Аннотация

Проблема человека в повести Анара «Контакт»

Статья посвящена проблеме человека в повести Анара «Контакт», где образ многогранен. Раздвоение студента, поиски вокруг себя, хождения по кругу исследуются героем. Юноша становится свидетелем непонятных мистических явлений. Жизнь героев в повести похожа на остров, который полон сказочными чудесами. В статье показаны как мечты и желания героя расцветают в утопическом русле. Особенности героев Анара в мастерском раскрытии их психологии. Также в статье отражаются различные точки зрения ученых по поводу главного героя повести «Контакт».

Rəyçi: filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Tahirov Vaqif.

NİGAR ƏLƏKBƏROVA
ADPU, magistrant
natigahmadov@gmail.com

YAŞAR QARAYEVİN TƏDQİQATLARINDA TƏNQİDİ REALİZM PROBLEMİ

Açar sözlər: tənqidi realizm, estetika, metod, mövzu, tipiklik, simvol, tendensiya
Ключевые слова: критический реализм, эстетика, метод, тема, типичность, символ, тенденция
Key words: critical realism, aesthetics, methods, themes, typical nature, characters, trend

Azərbaycan tarixinin ictimai-siyasi hadisələrlə zəngin bir dövrü əsasən XX əsrin əvvəllərini əhatə edir. Belə ki, bu dövrdə Azərbaycanda feodal münasibətləri tədricən dağılır, yeni kapitalist münasibətləri formalaşmağa başlayır, neft sənayesi, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı yerli və xarici istismarçıların ölkəyə nüfuzunu gücləndirir. Hakim olaraq burjua-mülkədar ağaları, çarizmin istismarçı siyasəti, kəndlərdə başlayan sürətli təbəqələşmə, savadsızlıq və s. xalqı ehtiyac içində saxlamaqla onlarda milli mübarizə ruhunu artırır. Yeni inqilabi dövr nəticədə xalqın mənəvi mədəniyyəti – ədəbiyyatına da təsir göstərməklə milli demokratik ruhla ədəbi həyatın mühüm, ayrılmaz bir hissəsinə çevrilir. XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycan ədəbiyyatında formalaşmaqda olan və M.F.Axundovla möhkəmlənən maarifçi realizm nəticədə öz yerini tənqidi realizmə verir. Burjua-kapitalist münasibətlərinin dərinləşməsi inqilabi-ideoloji qüvvələrin mübarizə üsulunu da dəyişməklə inqilabi demokratizm tənqidi realizmin məfkurə əsasına çevrilir. Professor Y.Qarayev tənqidi realizmin yaranması, təşəkkülünə bilavasitə təsir edən siyasi-ictimai prosesləri dəyərləndirərkən 1905-ci il rus inqilabi üzərində xüsusilə dayanır. Tənqidçiyə görə, "rus realist şeirində yeni epoxa inqilabi demokratiyanın böyük şairi Nekrasovla başladığı kimi, bizdə də Sabirlə başladı. Bu, eyni ideya amilinin – inqilabi demokratiyanın hər iki milli poeziyanın tarixində oynadığı eyni bir xidmət, roluna ən yaxşı tipoloji nümunədir". (2, 202)

Tənqidi realizmin metodologiyasının araşdırılması professor Y.Qarayevin araşdırmalarında 3 əsas prinsip üzərindən qeydə alınır:

1. Tənqidi realizmdə tarixilik;
2. Tənqidi realizmdə "tənqidilik" keyfiyyəti;
3. Tənqidi realizmdə tipik xarakter və tipik şərait.

Tənqidi realizmdə tarixilik anlayışı hər şeydən əvvəl bir metod kimi onun mahiyyətinə bağlıdır. Digər tərəfdən cəmiyyətdə baş verən ictimai-siyasi prosesləri izləmək, hadisələrə tənqidi şəkildə yanaşmaq olanların yalnız səthi şəkildə müşahidəsi deməkdir. Lakin mövcud mühitin tarixi gerçəklikdə, inkişafda götürülüb tənqid olunması hadisələrə daha obyektiv formada yanaşmanı tələqin edir. Tənqidi realizmin tənqidiliyi burada "kəmiyyətə (ayrı-ayrı qüsurlara) qarşı çevrilmir, keyfiyyətə (ayrı-ayrı qüsurları doğuran vahid mahiyyətə, ictimai əsasın özünə) qarşı çevrilir. Ən başlıca cəhət isə odur ki, o, heç yerdə və heç zaman islah üçün tənqid etmir, kökündən qazımaq, "baltanı dibindən vurmaq", inkar və rədd etmək üçün tənqid edir" (2, 205). Əslində tənqidi realizmin daha kəskin, qəti, ifşaedici mahiyyəti maarifçi realizmin mövzu-problematikası ənənəsinə bilavasitə bağlı olmuşdur. XIX əsrin əvvəllərində İ.Qutqaşınlı, A.Bakıxanov, M.Ş.Vazehin simasında formalaşan ilk Azərbaycan maarifçiliyi M.F.Axundovun yaradıcılığında möhkəmlənməklə bu təlimin əsaslandığı yeni tipli ziyalı, öz sözünü deməyi bacaran, dövrün, cəmiyyətin sosial-siyasi problemlərinə yaxın olan və ən əsası bu hadisələrə münasibət bildirən xarakterik obrazları ədəbiyyata gətirir. Təbii ki, realizmin maarifçi və tənqidi realizm mərhələlərinin dövrləşdirilməsinin qəti şəkildə qoyulması məntiqi baxımdan doğru deyildir. Belə ki, XX əsrin əvvəlləri tənqidi realizmin yaranması maarifçi estetikanın ədəbi mühitdən tamamilə silinib getməsi mənasını vermir. Əksinə maarifçi realizm "hələ uzun müddət tənqidi realizmlə yanaşı yaşamaqda davam edir, ikinci tərəfdən tənqidi realizmin özü də maarifçi məfkurə və motivlərdən tamam "təmizlənmir" (2, 216). Professor Y.Qarayev XX əsrin inqilabi-demokratik nailiyyətləri şəraitində maarifçilik ideallarının rolunu Ü.Hacıbəyov, C.Məmmədquluzadə, N.Nərimanovun mülahizələrinə istinad edərək göstərir ki, inqilabi demokratiyanın cəmiyyətdə qəbulu üçün onun özünün maariflənməyə ehtiyacı vardır. Xalqın inqilabi hərəkata hazırlığı sözsüz ki, cəmiyyətdə mədəni geriliyin aradan qalxması, mədəni-maarif mühitinin yaradılmasından keçir.

Azərbaycan ədəbiyyatında tənqidi realizmin klassik forması əsasən 1905-1917-ci illəri əhatə edir. Milli realizmin M.F.Axundov mərhələsi maarifçi realizmə bağlıdırsa, M.Ə.Sabir, C.Məmmədquluzadənin yaradıcılığında "klassik tənqidi realizm kimi formalaşır" (2, 221). Başqa sözlə desək, M.F.Axundovun realizm ənənəsi yeni dövrdə inkişaf etdirilərək öz yerini "Molla Nəsrəddin" ədəbi məktəbinə verir. M.F.Axundov və C.Məmmədquluzadə, poeziyada Q.Zakir və M.Ə.Sabir arasındakı bağlılıq, eləcə də açıq – gizli tendensiyalılığın dəyişən forması zaman, mühitin tələbindən irəli gəlməkdə idi.

Azərbaycan tənqidi realizminin formalaşması, inkişaf istiqamətləri ictimai hadisələr, cəmiyyətin siyasi proseslərinə bağlı olduğundan metodun ədəbiyyat, sənət qarşısında qoyduğu mövzu və problematikası da eyni

kontekstdə öz izahını tapırdı. Yeni inqilabi dövrün hadisə və konfliktlərinin əsasında feodal-patriarxal münasibətləri, burjua-proletar gerçəkliyi dayandığından tənqidi realizmin mövzusundan irəli gələn qəhrəman və xarakter məsələsini də müəyyənləşdirmiş olur.

Maarifçi və tənqidi realist ədəbiyyatın qeyd olunan zaman kəsiyində birgə inkişafı metodların uyğun mövzularını bir araya gətirirdi. Təsadüfi deyildir ki, maarifçi realizmdə də feodal-patriarxal həyatı ilə yanaşı, burjua-proletar məişəti də başlıca mövzuya çevrilmişdir (N.Vəzirov – "Pəhlivanəni-zəmanə"; İ.Musabəyov – "Neft və milyonlar səltənəti"; Y.V.Çəmənzəminli – "Studentlər"; S.M.Qənizadə "Gəlinlər həmayili" və s.). Professor Y.Qarayev eyni kontekstdə rus realizminin ona məxsus rus azadlıq hərəkatından keçməsini əsaslandıraraq Azərbaycan realizminin "milli və xəlqi" xüsusiyyətlərini şərtləndirən amilləri aşağıdakı hadisə və proseslərə bağlayaraq yazır: "...milli zülm və müstəmləkə köləliyi əleyhinə fəal müxalifət, şimalda 1905-1907-ci illərin inqilabı, cənubda – Səttar xan və Xiyabani üsyanları, zəif, asılı milli burjuaziya, feodal – patriarxal təsərrüfat ukladının qalması, spesifik estetik inkişaf qanunauyğunluğunun və romantik ədəbi ənənənin xüsusilə qüvvətli olması" (2, 226).

Azərbaycan tənqidi realist ədəbiyyatının başlıca mövzusu xalq və onun taleyi məsələsi idi. Xalqın səsi, onun keçdiyi mübarizə yolu, nəhayət zülm və istismar bir millətin varlığında onun tarixi yaşantılarını ədəbiyyata gətirirdi. Məlum olduğu kimi, maarifçi realizmdə xalq probleminin qoyuluşu daha çox "kütlə", "toplu" şəklində öz ifadəsini tapırdı. Xalqın ruhu, yaddaşı, məişəti, dünyagörüşü, mənəvi-əxlaqi aləmini simalaşdıracaq konkret qəhrəmanların obrazlaşdırılması isə tənqidi realizmin mahiyyətinə bağlı olmuşdur. Xalq taleyində kəndlinin ədəbiyyata gətirilməsi burada tənqidi realizmin mövzu və qəhrəman məsələsində başlıca yer tuturdu. Kəndlinin məişət, düşüncə və istəkləri ilə tənqidi realistlər bir tərəfdən həm xalqın tarixi taleyində əzilən, istismar olunan millətin faciəsini qoyur, digər tərəfdən isə onların "şüur yoxsulluğu" məsələsini işıqlandırırdılar. Bütün hallarda tənqidi realizmin mövzu dairəsi dövrün, cəmiyyətin ictimai-siyasi, sosial problemlərindən qaynaqlanırdı. Tənqidi realizm bu baxımdan daha ümumiləşdirilmiş şəkildə, simvolik formada Mirzə Cəlilin yaradıcılığında "mənəvi ölülük" problem – mövzusunu qoyurdu. Dəyişən ictimai-siyasi şərait, inqilabların dünyanı lərzəyə gətirdiyi bir vaxta bu fırtınalardan kənarda qalan xalqa – "ölülər" deyə xitab olunması burada hər şeydən əvvəl onun mənəvi diriliyi – oyatmağa xidmət edirdi. Bu problem XX əsrin əvvəlləri Azərbaycan romantikləri də daxil olmaqla dövrün realist ədəbiyyatında başlıca mövzu kimi keçirdi. Professor Y, Qarayev A.Səhhətin "Ölü şəhər", H.Cavidin "İblis", M.Hadinin "Düşüncələr", M.S.Ordubadinin "Qəflət", N.Nərimanovun "Nadanlıq" əsərləri, M.Ə.Sabirin satiralarına əsaslanaraq "mənəvi ölülü"yün dövrün bütün ziyalı-ədiblərinin

yaradıcılığında xüsusi yer tutduğunu göstərir. Nəticə etibarilə tənqidi realizmin "mənəvi ölülük" mövzusu ümumiləşdirilmiş formada "Novruzəli passiv"liyini məzmun-obraz olaraq aktuallaşdırmış olur.

Görkəmli alimin fikrincə, "Novruzəli passivliyi xalqın böyük bir hissəsinin vətəndaşlıq passivliyinin ifadəsi idi" və məhz "Poçt qutusu" Novruzəliliyi bir keyfiyyət kimi "kəşf və faş edərək" "Novruzəli həqiqətini" bütün hədəflərə – Qurdbasar, İtqapan, Zurnalı, Ulaqlı, Qapazlı və Danabaş kəndindəki bütün Novruzəli ünvanlarına vaxtında və dəqiq çatdırdı" (3, 256).

Nəsr, dramaturgiyada qoyulan bu problemin bədii həlli Sabir satirasında özünün ən yüksək zirvəsinə çatır. "Milli şüuru oyatmaq, vətəndaş birliyinə və düşüncəsinə nail olmaq Sabirin sənət kredosu, sənət konsepsiyası idi. Şair öz sənət kredosu uğrunda mübarizə və mücadiləyə "işin ibtidası"ndan – tərbiyədən başlamışdı. Sabirin tərbiyə məktəbində sinfi və yaxud təbəqə, zümrə ayrı-seçkiliyi yox idi. Sabirin əsas tərbiyə üsulu tənqid idi. Milli birliyə, oyanışa, tərəqiyyə mane olan hər cür qüsurları, özünü dərk edərək vətəndaş kimi formalaşmağa, vətən və millətin taleyi ilə bağlı düşünməyə mane olan hər cür əxlaqi və mənəvi, sosial naqisliyə qarşı kəskin tənqidi münasibət Sabir satirasının həqiqi milli məzmununu yaradır" (4).

"Poeziya tariximizdə Vaqif və Füzulinin timsalında davam edən iki müxtəlif üslubi istiqaməti üzvi vəhdətdə Sabir birləşdirir: Vaqif sadəliyi, C.Məmmədquluzadənin demokratizmi, Füzuli psixologizmi, Nizami epizmi – hamısı Sabirdə sintez təşkil edir. Bu xüsusiyyətlər Sabiri XX əsr dünya tənqidi realizminin zirvələrinə qaldırır" (2, 308). M.Ə.Sabirin satiralarında da C.Məmmədquluzadənin dramaturgiya və nəsrində olduğu kimi mövcud ictimai-siyasi şəraitin doğurduğu bəlalar – yerli, hakim siniflərin özbaşınalığı, din xadimləri, fanatik ruhanilərin ikiüzlülüyü, xalqı öz çirkin əməllərini şəriət arxasında gizlətməklə əsarətdə saxlamaları və ən başlıcası əzilən siniflərin faciəsi və s. başlıca yer tuturdu.

Tənqidi realizmin ədəbiyyatımıza gətirdiyi "xırda adam"ların obrazı Sabir yaradıcılığında başlıca xarakterdə konfliktlərin mərkəzində dayanır. Lakin bu "xırda adamlar" prof. Y.Qarayevin də qeyd etdiyi kimi, "əzilən sinif"dən çox, ayağa qalxan, öz haqqını, hüququnu tanımağa, tanıtmağa cəhd göstərən yeni düşüncəli qüvvələr olaraq təqdim edilir. Sabir üslubunun özəlliyinə bağlı bu xarakterlər həm də "adsız qəhrəman"lardır. Şairin obrazlaşdırdığı hər bir xarakter – şair, həkim, fəhlə, kəndli, rövzəxan və s. əslində daha ümumiləşmiş, simvollaşmış problemləri kütləvilik üzərindən təqdim edirlər. "Nuxulular", "saraylılar", "danabaşlılar" – realist qəhrəmanın bu kütləvi, "toplu" tipi bizim milli realizmin bundan əvvəlki mərhələsində keçirdiyi "fərdləşmə", "şəxsləşmə" (Novruzəli, usta Zeynal) təsnifindən sonra indi daha müasir məzmunda, fəhlə, əkinçi mütəşəkkilliyi ilə şərtlənən daha konkret ictimai-sinfi tərkibdə yenidən "kütləviləşdirdi" (2, 311). Sabir

satirasına məxsus bu kütləviləşmədə hər bir zümrənin xarakteri, obraz olaraq səciyyəviliyi həm də konkret təsvir-təqdim üsulunda konkretləşir (“Bir bölük, boşboğazlıq, heyvərəlik adətimiz”, “Dindirir əsr bizi dinməyiriz”, “Zülmət sevər insanlarız üç-beş yaşımızdan”, “Yaşamaq istər isək sırf əvam olmalıyız).

Maarifçi realizmin irəli sürdüyü ziyalı obrazı, məktəb, maarif işi bu baxımdan yeni metodda daha çox tənqid və ifşa olunur. Vaxtilə M.F.Axundovun ədəbiyyatımıza gətirdiyi ziyalı obrazları tənqidi realizmdə cəmiyyətdə öz yerini tapa bilməyən, “novruzəli”lər, “mənəvi ölülər” dünyasında məhv olur, yaxud xalqdan ayrı düşməklə istismarçı, hakim siniflərin təsiri altına düşür. XIX əsr ədəbiyyatında rast gəldiyimiz ziyalı – avam camaat konflikti yeni əsrin ədəbiyyatında xalq – intelligent ziddiyyəti ilə əvəzlənir.

Tənqidi realizmin mövzu və problematikası ilə yanaşı, ədəbi janrlardan istifadə imkanları da yeni metodun özünəməxsus cəhətləri sırasında seçilir. Məlum olduğu kimi, XX əsrin əvvəllərində Azərbaycan nəsri, xüsusilə hekayəsinin inkişafı özünün növbəti mərhələsində daha çox aktuallaşır. Sadə, adi adamların məişəti, dünyagörüşünün təqdimi üçün hekayə janrının seçilməsi burada ona görə vacib idi ki, ədiblər ən böyük mətləbləri “xırda adamlar”ın təbiəti ilə kiçik həcmli nəsr əsərlərində uyğunlaşdıraraq təqdim edirdilər.

“Zeynal bəy”, “Cənnətin qəbzi” (Y.V.Çəmənzəminli), “Dəllək”, “Poçt qutusu”, “Usta Zeynal” (C.Məmmədquluzadə), “Qaban”, “Qəndil” (Ə.Haqverdiyev) və s. hekayələrdə adi məişət həyatını yaşayan sadə insanlar verilməklə onların rastlaşdığı hadisələr, başlarına gələn “bəlalar” konkret sujetə qoşulur və nəticə etibarilə mövzu cəmiyyətin daha vacib taleyüklü problemlərinə bağlanır.

Tənqidi realizmin təşəkkülü, formalaşaraq inkişaf etməsi, həyata baxışı, sosial, mənəvi-əxlaqi problemlərə münasibəti dəyişdirməklə yanaşı müraciət olunan problemlərin bədii həllinin vasitələrinə də ciddi təsir göstərir. Belə ki, tənqidi realistlərin üslubu daha sərt, ironiya və eyhamlar üzərində qurulur, maarifçi realistlərə xas açıq tendensiyalılığı gizli tendensiyalılıq əvəz edir. Gizli tendensiyalılığın səciyyəviliyi isə bu əsərlərdə obraz, xarakter və simvol probleminə bağlıdır. Məlumdur ki, hər bir bədii obraz bu və ya digər dərəcədə sujetin inkişafında mühüm rol oynayır. Bu rolun əhəmiyyətini artıraraq spesifik cəhətlər surətin seçilməsi, xarakterlərin aydın və bədii cəhətdən kamil verilməsi, eləcə də onların hadisələrdəki mövqeyinin düzgün səciyyələndirilməsindən çox asılıdır.

Təbii ki, bunların sayını daha da artırmaq mümkündür. Lakin obraz və xarakterlərin dolğun verilməsi burada həm də müəllif tendensiyasının gizliliyi – simvolikliyinin təminatına bağlıdır. Eyni zamanda burada çoxsaylı psixoloji vəziyyətlər, sosial mətləblər ümumiləşdirilir ki, bütün bunlar konkret ideyanın daşıyıcısına çevrilir. Tənqidi realizmdə bədii əsərlərin poetikası, o cümlədən

sıx-sıx işlədilən bədii simvollardan istifadə imkanlarını, vasitələrini metodun bədii-estetik postulatlarına uyğunlaşdırır. “Təsadüfi deyil ki, bu əsərlərin adları artıq konkret məfhum ifadə etmir: “Ölülər”, “Dəli yığıncağı”, “Danabaş kəndinin əhvalatları”, yaxud “Kamançа”, “Anamın kitabı” kimi simvolik məna ifadə edir (2, 245).

Azərbaycan ədəbiyyatında tənqidi realizmin təşəkkülü, ədəbi hərəkatın yeni mərhələsi olaraq mövzu və problematikası, sənətkarlıq xüsusiyyətləri, tarixi qaynaqları və s. bir daha sübut edir ki, bu metod ədəbiyyatımızın XX əsrin əvvəlləri başlıca tendensiyası, təkamül mexanizmində aparıcı mövqeyə malik olmuşdur. Eyni zamanda tənqidi realizmin ədəbi metod kimi konkret tarixi mənasını professor Yaşar Qarayev məhz bunun üzərindən araşdırmış, “kəskin mübahisələrə nəzəri aydınlıq gətirməklə bahəm, eyni zamanda ... müasirlərimizdə “ədəbi hərəkat”, “bədii cərəyan”, tarixi dəyişmə və varislik prinsiplərinə tabe “ədəbi inkişaf” kimi anlayışlar barədə təsəvvür formalaşdırmışdır. Bir sözlə, Yaşar Qarayev tənqidində hər şey, ədəbiyyatımızın bütün faktları və hadisələri bir niyyətə xidmət edir; çağdaşlığa gətirib çıxaran vahid bədii tərəqqinin tarixi qanunauyğunluqlarını üzə çıxarmaq və təsbir etmək!” (1, 15).

ƏDƏBİYYAT

1.Əlişanoğlu T. Əsrdən doğan nəsr. Bakı, Elm, 1999, 128 s.
2.Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə, III cild, Bakı, Elm, 2015, 908 s.
3.Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı, Elm, 1980, s.197. 256 s.
4.Salamoğlu T. M.Ə.Sabirin milli intibah idealı. Bakı, “EL” MMC, 2015.
5.Vəliyev Ş. XX əsr Azərbaycan ədəbi tənqidində poeziya problemləri (1895-1917). Bakı, Elm, 2004.
6.Yusifli V. Nəsr: konfliktlər, xarakterlər. Bakı, Yazıçı, 1980, 166 s.

НИГАР АЛЕКБЕРОВА

ПРОБЛЕМА КРИТИЧЕСКОГО РЕАЛИЗМА В ИССЛЕДОВАНИЯХ ЯШАРА ГАРАЕВА

РЕЗЮМЕ

Эволюция критического реализма в азербайджанской литературе, являясь новым этапом литературного движения, своей тематикой и проблематикой, особенностями мастерства, историческими корнями еще раз доказывает то, что этот метод являлся главной тенденцией в нашей литературе в начале XX века и занимал ведущую позицию в ее эволюционном механизме. Исследование проблемы критического реализма в азербайджанской литературе приобрел еще большие масштабы в середине XX века. Азербайджанские литературоведы

изучали критический реализм и как независимое литературное движение, и как литературный метод. Известный литературный критик Яшар Гараев является одним из первых литературоведов, изучавших критический реализм как литературный метод. Говоря о критическом реализме в своих произведениях, он сформировал представление о таких понятиях, как «литературное развитие», подчинявшееся принципам «литературного движения», «художественного направления», исторического изменения и наследственности. Одним словом, в исследованиях Яшара Гараева все факты и события нашей литературы служат одной цели – выявить исторические закономерности целостного художественного прогресса, ведущего к современности. В этой статье находит свое отражение разрешения проблем критического реализма в наследии Яшара Гараева, член-корреспондента НАНА.

NIGAR ALEKBEROVA

THE PROBLEMS OF CRITICAL REALISM IN YASHAR QARAYEV'S RESEARCHES

SUMMARY

Its themes and problems, artistic features, historical sources etc. once more prove that as a new phase of the literary movement, the formation of critical realism in Azerbaijan literature was the main trend in the beginning of the 20th century in our literature and had a leading position in its evolutionary mechanism. The problem of critical realism in Azerbaijan literature was explored in a wide scope in the mid-20th century. Azerbaijan literary critics learned critical realism both as an independent literary movement and as a literary method. Well-known literary critic, professor Yashar Qarayev was one of the first literary critics to analyze critical realism as a literary method. In his research work when talking about critical realism he forms an idea about notions like "literary movement", "artistic movement", "literary development" which is a subject to historical change and the principles of continuity (inheritance). In short all facts and events in our literature serve one purpose in Yashar Qarayev's research: to reveal and describe the historical objective laws of the single (whole) artistic progress. In our article the solutions to the problems of critical realism in the correspondent of Azerbaijan National Academy of Sciences Yashar Qarayev's heritage is reflected.

Rəyçi: fil.ü.e.d., prof. Təyyar Salamoğlu

LIANNA AXUNDOVA *(Əmrahova)*
AMEA Nəsimi adına Dilçilik İnstitutu
lianna.axundova@gmail.com

KTEMATONIMLƏRIN ORFRAFİYASI

Açar sözlər: *erqonim, orfoepiya, orfoqrafiya, fonetik prinsip, morfoloji prinsip, xüsusi söz tipi*
Ключевые слова:*ергоним,орфоепия,орфография,принципыфанетики, морфологические принципы, специальный тип слов.*
Key words: *erqonym, orthoephic, orthographic, phonetic principle, morphological principle, special type of word.*

Orfoqrafiya yazılı nitqin normalarıdır. Bu normaların konkret dil vahidlərinə görə qanuniləşdirilmiş müxtəlif təzahürləri isə orfoqrafiyanın qaydalarını təşkil edir. Buna görə də ümumiləşdirilmiş halda orfoqrafiyaya belə bir tərif vermək olar: Orfoqrafiya – yazılı nitqdə dil vahidlərinin yazılışını tənzimedici qaydalar sistemidir (3, 267s.) Orfoqrafiya qaydaları hamının məcburi surətdə riayət etməli olduğu qaydalardır. Ofoqrafiya qaydalaını müəyyənləşdırılməsində istifadə olunan prinsiplər əsasən aşağıdakılardır: 1. Fonetik prinsip, 2. Morfoloji prinsip, 3. Tarixi - ənənəvi prinsip, 4. Fərqləndirici prinsip, 5. Etioloji prinsip. Müasir Azərbaycan dilinin orfoqrafiya qaydaları, əsasən, üç prinsip üzərində, yəni fonetik, morfoloji və tarixi - ənənəvi prinsiplər üzərində qurulmuşdur.

Azərbaycan dilinin istifadədə olan orfoqrafiya qaydaları Azərbaycan SSR Nazirlər Sovetinin 1958-ci il 24 iyun tarixli 497 nömrəli və 1959-cu ilin 6 aprel tarixli 268 nömrəli qərarları ilə təsdiq olunmuşdur. İctimai-siyasi quruluşun dəyişməsi, o zamandan bəri xeyli illər keçməsi, bəzi qaydaların köhnəlməsi, əlifbanın dəyişməsi və s. yeni qaydaların yaradılması zərurətini ortaya qoymuşdur. Bu zərurət nəzərə alınaraq, yeni orfoqrafiya qaydaları yaradılmış, bir sıra mətbuat orqanlarında, o cümlədən «Azərbaycan müəllimi» qəzetinin 4 fevral 1999-cu il tarixli nömrəsində dərc olunaraq bir ay müddətində yekunlaşdırmaq məqsədilə müzakirəyə verilmişdir. Yeni «Qaydalar»ın yaranması yeni əlifbaya keçilməsi ilə bağlı olmuşdur: «Azərbaycan Respublikasının dövlət dili haqqında» Azərbaycan Respublikasının 1992-ci il 22 dekabr tarixli qanununa müvafiq olaraq yeni Azərbaycan əlifbasının tətbiqinə keçilmişdir. Bununla əlaqədar Nazirlər Kabinetində Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyevin sədrliyi ilə Azərbaycan Dövlət Dilinin Tətbiqi üzrə Hökumət Komissiyası yaradılmış və komissiya tərəfindən yeni orfoqrafiya qaydaları layihəsi işlənib hazırlanmışdır. «Hökumət Komissiyası layihənin ictimai əhəmiyyətini nəzərə alaraq, onu geniş müzakirəyə çıxarmağı lazım bilmiş, buna görə də layihə mətbuatda çap olunmuşdur (5, 5).

KİV-də xüsusi isimlərin, o cümlədən idarə, müəssisə, təşkilat, yüksək dövlət vəzifələri və s. adlarının da yazılışında yanlışlığa yol verilir. Qəzetlərdə, adətən, idarə, müəssisə və təşkilat adlarında yalnız birinci sözün baş hərfi böyük hərflə yazılır. Məsələn, Şamaxı rayon təhsil şöbəsi, Salyan mərkəzi rayon xəstəxanası.Yüksək dövlət

vəzifələrinin adlarının yazılışında da səhvlər baş alıb gedir. Dil normaları üçün sərhəd yoxdur, orfoqrafiya qaydaları "doğmalıq-ögeylik" tanımır. Azərbaycan Respublikasının Baş naziri yazılanda baş sözü böyük, ölkəmizə səfər etmiş digər ölkələrin baş nazirləri (Məsələn, Türkiyə Respublikasının baş naziri) kiçik hərflə yazılır. Mətbuatda, az da olsa, bunun böyük hərflə yazılmış variantına da rast gəlirik. Azərbaycanın müstəqillik tarixi ilə birbaşa bağlı olan və millətimizin şərəf və ləyaqətinin simvoluna çevrilmiş Dövlət bayrağı, Dövlət gerbi, Dövlət bayrağı meydanı, Şəhidlər xiyabanı və s. bu tipli birləşmələrdə hər iki söz, yoxsa birinci söz böyük hərflə yazılmalıdır? Əfsuslar olsun ki, nümunə gətirdiyimiz bu sözlərdən şəhidlər xiyabanı və dövlət bayrağı, dövlət gerbi, dövlət himni sözləri kiçik hərflərlə yazılır. Azərbaycan Respublikası rəmzlərinin kiçik hərflə yazılması nə məntiq, nə də etik baxımdan düzgün deyildir. Ən azından, dövlət sözü xüsusiləşdiyi üçün fərqləndirilməlidir. Tarixi hadisə və günlərin adlarının da düzgün yazılışına əməl olunmur. Vaxtaşırı rastlaşdığımız faktlara müraciət edək. Birinci və İkinci Dünya müharibələri, adətən, Birinci və İkinci sözlərinin böyük hərflə yazılması ilə müşahidə olunur.Tarixi günlərin yazılışında dırnaqarası bir sərbəstlik vardır. Bu cür "sərbəstlik" hərc-mərclik yaradır. Müşahidə və qənaətimizi qeyd edəcəyimiz iki nümunə ilə izah etmək istərdik. Beynəlxalq Qadınlar Günü və Novruz bayramı tarixi gün adlarını nəinki hərə bir cür, hətta bir mətndə eyni müəllif tərəfindən ən azı iki-üç cür yazılır: ya beynəlxalq sözü böyük, qadınlar və günü sözləri kiçik, ya da birinci və ikinci sözlər böyük, sonuncu kiçik hərflə yazılır. Novruz bayramı sözündə nəinki bayram, hətta hər iki sözün kiçik hərflə yazıldığına da rast gəlinir. Qəzetlərdə 15 sentyabrda qeyd olunan Bilik günü sözü dırnaqda yazılmışdı. Unutmayaq ki, Bilik günü rəsmi təsdiqlənmiş və ictimaiyyətə elan edilmiş tarixi gündür. Tarixi hadisə və gün adlarının dırnaqda yazılması düzgün deyildi (6, 10).

Əvvəlki orfoqrafiya lüğətlərində ümumi sözlərin düzgün yazılışı göstərilmişdir. Orfoqrafiya lüğətinin 6 – ci nəşrində idarə və təşkilat adlarının düzgün yazılış forması da əlavə edilmişdir. Afad Qurbanov "Azərbaycan onomalogiyasının əsasları" kitabında onomastik vahidlərin orfoepik və orfoqrafik problemlərinə toxunmuş və burada səthi də olsa, ktematonimlərə də yer ayırmışdır. Ümumi isimlərdə olduğu kimi ktematonimlərdə də eyni orfoqrafik və orfoepik prinsiplər mövcuddur və bu prinsiplər Azərbaycan dilinin qaydalarına əsasən tətbiq edilir. Lakin, ortaq qaydalarla bərabər fərqli, ktematonimlərə xas spesifik cəhətlər də mövcuddur. Ktematonimlərin orfoqrafik xüsusiyyətlərini nəzərdən keçirək:

I. Bütün xüsusi isimlər kimi ktematonimlər də böyük hərflərlə yazılır. Məsələn, *"Abşeron" tortları, "Badamlı", "Zülmani", "Qalibiyyət bayrağı" və s.*

II. Tam ixtisarla yazılan idarə və təşkilat adlarının bütün komponentləri böyük hərflərlə yazılır, sətirdən – sətrə keçirilmir. Məsələn, *BDU, ADPU, MTN, DYP, AZETİ və s.* İxtisara əlavə edilən şəkilçilər onların son hecasına uyğun olaraq yazılır: *MEA – dan, BMT – yə, AMEA - da və s.*

III. Tərkibində *"üzrə", "yanında", "adına", "nəzdində"* sözlərinin köməyi ilə yaranan erqonimlərin digər komponentləri böyük hərflə yazılır. Məsələn, *F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Respublikası Narkomanlığa və Narkotik*

Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası, M. Mirqasımov adına Respublika Kilinik Xəstəxanası və s.

IV. Tərkibində *"birlik"* yardımçı sözü işlənən ktematonimlərdə yardımçı vahiddən başqa bütün üzvlər böyük hərflə yazılır. Məsələn, *"Azərbaycan Yazıçılar birliyi", "Yeni Nəsil Jurnalistlər birliyi", "Azəri – Türk Qadınlar birliyi" və s.*

V. Tərkibində *"ittifaq", "təşkilat", "fond", "konqres", "komitə"* kimi sözlər olan erqonimlərin hamısının ilk hərfi böyük hərflə yazılır. Məsələn, *"Azərbaycan Yazıçılar İttifaqı", "Birləşmiş Millətlər Təşkilatı", "Beynəlxalq Miqrasiya Təşkilatı", "Avropa İqtisadi və Sosial Komitəsi", "Beynəlxalq Qırmızı Xaç Komitəsi", "Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi", "Beynəlxalq Fövqəladə Uşaqlara Yardın Fondu" (UNİCEF) və s.*

VI. Bir çox dilçilərin *"xüsusi söz tipi"* adlandırdıqları, yarımçıq ixtisar olunmuş sözlərin birləşməsi nəticəsində yaranan ayrı – ayrı adlar da tərkib etibarı ilə mürəkkəb söz kimi təsnif olunur və bitişik yazılır. Məsələn, *Azərdəmiryolbank, Azərnəşr, Azərenerji, Qaradağsement, Aztürkqaz və s.*

VII. Bank adlarında *"bank"* hissəciyi yerindən asılı olaraq müəsisə adına bitişik və ayrı yazılır. Əgər əvvəldə gələrsə, böyük hərflə və ayrı yazılır. Məsələn, *Bank Respublika, Bank BTB* və s. Özəl təşkilatın adından sonra gələrsə bitişik və yaxud ayrı yazılır. Məsələn, *Parabank, Texnikabank, Kapital bank və s.*

VIII. İctimai partiya adlarının bütün komponentlərinin ilk hərfi böyük hərflə yazılır. Məsələn, *Vətəndaş Həmrəyliyi Partiyası, Vahid Azərbaycan Milli Birlik Partiyası, Yeni Azərbaycan Partiyası, Azərbaycan Xalq Cəbhəsi və s.*

IX. Tarixi gün, ay adları rəqəmlə ifadə olunan hissədən ayrı yazılır. Əgər rəqəm hərflə yazılarsa bu zaman xrononimin ilk hərfi böyük hərflə, qalan üzvləri isə kiçik hərflə yazılır. Məsələn, *İyirmi səkkiz may, Bir may* və s. Rəqəm hissəsi hərflə deyil, rəqəmlə ifadə olunarsa bu zaman rəqəmdən sonra gələn hissə böyük hərflə yazılır. *31 Dekabr, 15 İyul, 20 Yanvar, 8 Mart və s.*

X. Rəqəmlə ifadə olunan məişət iaşələrinin adları da rəqəm hissəsindən ayrı və böyük hərflə yazılır. Məsələn, *28 Mall, 28 Cinema və s.*

XI. Dırnaqda yazılan orden, medal adlarının birinci sözünün baş hərfi böyük yazılır. Məsələn, *"Qəhrəman ana" (fəxri adı), "Əməkdə fərqlənməyə görə" (medalı), "Şərəf nişanı" (ordeni)* və s. Dırnaqsız yazılan orden adlarının bütün sözlərin (orden və dərəcə sözlərindən başqa) baş hərfi böyük yazılır; məsələn, *Qızıl Ulduz ordeni, Qırmızı Bayraq ordeni, II dərəcəli Vətən müharibəsi və s. (4, 481s.).*

XII. Bədii əsər, opera, balet, kinofilm, qəzet, jurnal, kinoteatr, mehmanxana, nəşriyyat, kafe, restoran, düşərgə, yeməkxana, mağaza və s. adları dırnaqda və böyük hərflə yazılır: *"Ata və oğul" povesti,"Yeddi gözəl" baleti, "Uzaq sahillərdə filmi", "Azərbaycan" qəzeti, "Cücələrim"kafesi, "Bahar"mağazası, "Badamlı", "İstisu" mineral suları və s. (1, 12 s).*

XIII. Yaxın mənalı sözlərin birləşməsindən yaranan erqonimlərdə və tədqiqat müəsisələrin adları tire işarəsi vasitəsi ilə ifadə olunurlar. Məsələn, *"Elmi – Tədqiqat Əkinçilik İnstitutu", "Elmi – Tədqiqat Tərəvəzçilik İnstitutu", "Aqrar – Sənaye", "Mədəni - Maarif" və s.*

XIV. Maşurut adları da tire işarəsi vasitəsi ilə ifadə olunur. Məsələn, *Bakı – Moskva qatarı, Bakı – Moskva reysi, Bakı – Tiblisi maşurutu və s.*

XV. Müxtəlif tarixi şəxsiyyətlər tərəfindən yaranmış nəzəriyyə adları tire işarəsi ilə ifadə olunur. Məsələn, *"Marks – Engels nəzəriyyəsi", "Boyl – Mariot qanunu" və s.*

XVI. Ərəb və fars mənşəli xüsusi adlarda, izafət şəklində qurulmuş adlarda efis işarəsi qoyulur. Məsələn, *"Gülüstani – İrəm", "Ziyayi – Qafqaziyyə", "Divani – lüğəti – it - türk", "Məcmueyi – Əşara – şüarayi – Azərbaycan", "Təzkireyi – Nəvvab", "Riyazül – aşıqın", "Danışməndani – Azərbaycan", "Sərgüzəşti – vəziri – xani – Lənkəran" və s. (4, 485s).*

XVII. Qədim yazılı abidə adları da defis işarəsi qoyulur. Məsələn, *"Kitabi – Dədə Qorqud", "Orxon - Yenisey"abidələri və s.*

XVIII. Azərbaycan dilində dini sekta adları böyük hərflə yazılır. Məsələn, *"Həyatverici lütf", "Məhəbbət kilsəsi" sektası, "İeqova şahidləri" sektası, "Yeddinci gün adventistləri" sektası, "Yeni həyat" sektası, "Həyat sözü" sektası, "Oşo" sektası və s.*

XIX. Cəhətlərin adlarına qoşulan sözlər böyük hərflə yazılır: Məsələn,*Cənubi Azərbaycan, Şərqi Avropa və s.*

XX. Fəxri adlar, elmi ad və dərəcələr, peşə, vəzifə, sənət bildirən sözlər xüsusi isimlərlə birgə işlədildikdə böyük hərflə yazılır: Məsələn, Profesor Abbas Zamanov, Dosent Doktor Ramazan Əhmədov və s.

XXI. Ay tarixi və həftənin günləri, xüsusi isimlərlə işlənən müraciət sözləri və bu sözlərin qısaltmaları, eləcə də, xüsusi isimlərin əlavələri böyük hərflə yazılır: *Məsələn, 4 Aprel 1988, Bazarertəsi, 30 Sentyabr, Çərşənbə və s.*

XXII. Tərkibində *"orta" , "son" və "baş"* sözləri olan ktematonimlər ayrı yazılır.

Məsələn, *"Orta sarıtel", "Orta müxəmməs","Baş divani"," Baş dübeyti", "Baş sarıtel", "Orta Paleolit dövrü", "Son Tunc dövrü" və s.*

XXIII. Cəhət adları ilə ifadə olunan ktematonimlərdə defis işarəsi qoyulur. Məsələn, *"Qərb – Şərq"* nəşriyyatı .

XXIV. Siyasi cərəyanların, ictimai formasiya, quruluş və s. adlarını bildirənlər: *"Sosial – demokratik" nəzəriyyə, "Materialist – dialektik" nəzəriyyə* və s. (3, 284s).

XXV. Bir sıra xüsusi mürəkkəb adları təşkil edən ifadələrin söz birləşmələrinin tərkibindəki ilk sözün son hissəsi ixtisar olunur, digər sözlərin isə ilk hərfi saxlanılır və beləliklə də, ixtisarlı – qısaltma söz yaradılır. Belə qısaltmaların əvvəlindəki ixtisarla düzələn söz hissəsinin baş hərfi böyük, digər hərfləri kiçik yazılır və sonra nöqtə qoyulur. İfadənin tərkibindəki digər sözlərin ilk hərfləri əsasında düzələn qısaltmanı təşkil edən hərflər isə böyük yazılır; məsələn: *Azər. TA, Az.ETİ və s. (3,293s)*

XXVI. Tərkibində *"gün"* sözü olan və təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər böyük hərflə yazılır: *Beynəlxalq Qadınlar Günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü,Azərbaycan Polisi Günü, 9 iyul – Diplomatik Xidmət Orqanları Əməkdaşlarının Peşə Bayramı Günü, 22 iyul – Milli Mətbuat və Jurnalistika Günü, 1 avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü,2 avqust – Azərbaycan Kinosu Günü,5 avqust – Azərbaycan Respublikasının Hərbi Donanması günü, və s.*

Sayt adlarının yazılışı
Sayt adları 3 müxtəlif formada yazılışı da göstərilir.Məsələn,
1. “Qafqazinfo”, “Media forum”,
2. Lent.az
3. Publika.Az
“Orfoqrafiya qaydaları”nda sayt adlarının yazılışı ilə bağlı ayrıca bənd yoxdur. Ancaq sayt adları dırnaq işarəsi olmadan, internet ünvanı saxlanılmaqla və internet ünvanının kiçik hərflə yazılması daha məqsədəuyğun hesab edilir (az, com, org və s.). Məsələn: *Qafqazinfo.az, Publika.az, Mediaforum.az, Azadliq.org və s.*

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, “Lider nəşriyyatı”, 2004, 728 s.
2. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Genişləndirilmiş və yenidən işlənmiş 6 – cı nəşr.Bakı, “Şərq – Qərb” Nəşriyyat evi, 2013, 840 s.
3. Dəmirçizadə Ə. M. Müasir Azərbaycan dili, I hissə (Fonetika, Orfoepiya, Orfoqrafiya). Bakı, “Maarif”, 1984, 308 s.
4. A.Qurbanov. Azərbaycan onomalogiyasının əsasları II cild (2 cilddə), Bakı,”Nurlan”, 2004, 504 s
5. Azərbaycan müəllimi, 4 fevral 1999
6. Azərbaycan.-2012.- 16 noyabr.- S.10

ЛИАННА АХУНДОВА (АМРАХОВА)

ОРФОГРАФИЯ КТЕМАТОНИНГА

РЕЗЮМЕ

В статье было написано о ктематонимгических орфографичеких правилах. Орфография это норма письменной речи .Все должны в принудительномпорядке придерживаться орфографических правил. Также как вименисуществительном в ктематоническом существуют одни и теже орфографические и орфоэпическиепринципы и эти принципы используются согласно правиламАзербайджанскогоязык. Но, несмотрянато, что есть одинаковые правила есть испецифические черты. Здесь былипроанализированы правила ктемантонинга.

LIANNA AKHUNDOVA (AMRAHOVA)

ORTHOGRAPHY OF CTEMATONYMS

SUMMARY

In this article is dealed orthographic rules of ctematonyms. Orphography are norms of written speech. Everybody must to conform to the orphographic rules. There are same orphographic and orphoepic principles. Between common noun and ctematonyms and these principles are appling to the Azerbaijan language rules.But there are speciphic side of ctematonyms. Here is analysesorphographic rules of ctematonyms.

RƏYÇİ: filologiya elmlər doktoru, professor Q.Məşədiyev

BƏNNAYEVA VÜSALƏ
Heydər Əliyev adına Azərbaycan
Ali Hərbi Məktəbi

İNGILIS DILININ XÜSUSİ MƏQSƏDLƏRLƏ ÖYRƏDİLMƏSİ VƏ TƏDRİSİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: dil, metod, məqsəd, üsul, ingilisdilli ölkələr.
Ключевые слава: язык, метод, цель, способ, англоязычные страны.
Key words: language, method, aim, style, English speaking countries.

Dövlətlər və xalqlar arasındakı qarşılıqlı əlaqələri daha da dərinləşdirən və genişləndirən qlobal prosseslər, praktiki olaraq insan fəaliyyətinin bütün sahələrinə təsir edir. "Qlobal dil" terminini dilçiliyə ilk dəfə görkəmli ingilis linqvisti Devid Kristal gətirmişdir. Devid Kristal belə hesab edirdi ki, hər hansı bir dilin "qlobal dil" statusunu alması üçün onun bir çox ölkələrdə aparıcı, hakim mövqedə olması vacib şərtdir. Daha sonra Devid Kristal bu statusu əldə etməyin üç yolunu və ya dilin qloballaşması üçün vacib olan üç müxtəlif funksiyanı göstərir. Birincisi, bir çox ölkələrin dövlət dili olmaq funksiyasıdır. Yəni, hər hansı bir dil "qlobal dil" statusunu əldə etmək üçün eyni zamanda bir neçə ölkənin ya əsas dövlət dili, ya da ikinci dövlət dili olmalıdır. İkincisi, bir çox ölkələrdə dil rəsmi status əldə edərək dövlət qurumlarında, hüquqi sistemlərdə, reklamlarda, kütləvi informasiya vasitələrində, təhsil sistemində geniş şəkildə yayılır. Bu halda dil ikinci dövlət dili səviyyəsinə yüksəlir. Bəzən onun tədrisi hətta ana dili ilə bərabər ibtidai siniflərdən başlanır. Bu zaman xarici dil həmin dövlətdə yeganə rəsmi dil və ya yarımrəsmi dil ola bilər. Dilin qloballaşmasının üçüncü mərhələsi isə dövlətin təhsil siyasəti ilə bağlıdır. Belə ki, dilin heç bir rəsmi status almamasına baxmayaraq, o həmin ölkədə xarici dil tədrisində üstün mövqeyə malik olur.

Belə qloballaşma prosesi İngilis dilinin istifadəsində və statusunda dəyişikliklərlə nəticələnir. İngilis dili dünyada ən çox maraq göstərilən dillərdən biridir. Hazırda ingilis dili demək olar ki, bütün ölkələrdə milyonlarla insan tərəfindən danışılır və müxtəlif məqsədlərlə istifadə edilir. İlk əvvəllər ingilis dili xarici yaxud da ikinci dil kimi öyrənilirdi, burada ingilis dilinin öyrənilməsində əsas məqsəd qarşılıqlı ünsiyyəti təmin etmək və məhz həmin dildə ünsiyyət qurmağı bacarmaq idi. Ona görə də Ümumi ingilis dilinin öyrənilməsi daha çox məşhurlaşmışdı.

Ümumi ingilis dilinin öyrədilməsi programı demək olar ki, son dörd onillik ərzində universitetlərdə müxtəlif sahələr üzrə tədris olunub. Ümumi məqsədlərlə ingilis dilinin öyrədilməsinin tədris programına xarici dildə ümumi bilik və bacarıqlarının öyrədilməsi, dil səviyyəsinin artırılması kimi məsələlər daxildir. Halbuki İngilis dilinin profesional cəhətdən öyrədilməsi hesab olunan İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsi ümumi məqsədlərlə eyni məzmunlu deyildir. İndi artıq bir çox universitet məzunları öz ixtisaslarını bilməklə yanaşı, həmin bilikləri xarici dillərdə, xüsusilə ingilis dilində elmi cəhətdən izah etməyi bacarmalıdırlar. Bəzi səbəblərə görə məzunların bir hissəsi xarici dili peşəyə aid və yaxud peşəyönümlü tapşırıqlara lazımı şəkildə tədbiq edə bilmirlər. Bu da, əlbəttə, peşələrə uyğun ünsiyyət bacarıqlarının tədbiqində uğursuzluğa səbəb olur. Bu sahəni araşdıran metodistlər xüsusi məqsədləri əsas götürərək ingilis dilini peşəyönümlü

məqsədlərdə tələbələrin istifadə etməsi üçün peşələrə aid xüsusi program hazırlamaq qərarına gəldilər.

Son vaxtlar xarici dilin tədrisi metodikasında çox böyük yeniliklər əldə edilmiş və şagirdlərin xarici dilə davamlı yüksək marağı təlim prosesinə də təsir etmişdir. Avropa standartlarına inteqrasiya edərək ingilis dilinin tədrisi zəngin və maraqlı resursların istifadəsinə yer vermişdir. Bu gün ingilis dilinin tədrisində fənn kurkulumlarına istinad edərək məzmun standartlarının, strategiyaların tətbiqi, yeni metodlardan istifadəsi onun mənimsənilməsində ən uğurlu vasitədir. Hər bir inkişaf etmiş ölkədə olduğu kimi, Azərbaycanda da elm və təhsil prioritet sahə hesab olunur. Respublikamızda elm və təhsilə, xüsusilə xarici dillərin öyrənilməsinə böyük diqqət və qayğı göstərilir. Universitetlərdə də xarici dillərin tədrisinə xüsusi diqqət və qayğı ilə yanaşılır

Dünyada mövcud olan bir neçə əsas dil var ki, onlardan biri də İngilis dilidir. Yaşadığımız zamanda hər hansı bir iş üçün müraciət etdikdə ingilis dili tələb olunur. Bu da onun beynəlxalq əhəmiyyətli dil olduğundan irəli gəlir. Bir araşdırmada göstərilir ki, Benjamin Franklin XVIII əsrdə ingilis dilində drunk(sərxoş) sözünə 200-ə yaxın sinonim tapmışdır. Bu dildə təxminən 500 min söz ehtiyatı vardır və BMT-nin altı əsas dilindən biridir.

Hal – hazırda dünyada xeyli insan ingiliscə danışır. İngilis dili beynəlxalq dil olduğundan onun öyrənilməsinə tələbat həddindən artıq çoxalmışdır. Təkcə, ingilis dili ixtisasında oxuyanlar deyil, həmçinin müxtəlif peşə sahibləri də bu dili öyrənməyə can atırlar. Bu baxımdan Azərbaycanda ingilis dili öyrənmək arzusunda olanlar həddindən artıq çoxdur.

Bundan başqa xaricdə oxumaq üçün əsas tələblərdən biri də ingilis dilini bilməkdir. Bu günə kimi xaricdə 10 mindən çox Azərbaycanlı tələbə təhsil alır. Belə ki, xaricdə oxumaq istəyənlər ilk öncə ingilis dilini sərbəst öyrənməlidirlər.

Qloballaşan dünyada getdikcə ingilis dilinə ehtiyac daha da çoxalır. Hətta bəzi ölkələr var ki, ingilis dilini dövlət dili kimi də qəbul etmişdir. Bu kimi ölkələrə İngiltərə və ABŞ-dan başqa Kanada, Avstraliya, Yeni Zelandiya kimi ölkələri nümunə göstərmək olar.

Hal-hazırda gənclər də başa düşürlər ki, ingilis dilini bilmədən ölkədən kənara çıxmaq olmaz və yaxud da dünya görüşünü inkişaf etdirmək olmaz. İngilis dilini bilməklə uğura aparan yola açar əldə etmiş olursan. Yəni bugünkü zamanda uğur əldə etmək, dünya görüşünü inkişaf etdirmək, müasir dünya yeniliklərindən məlumatlı olmaq istəyirsənsə ,ingilis dilini mütləq öyrənmək lazımdır.

İngilis dilli ölkələrin insanları çox xoşbəxtdir ki, onların ana dili olan ingilis dili bütün dünyada keçərlidir. Amma ingilis dili olmayan ölkələrdə də bu dili öyrənmək gərəkdir. Bu ölkələrdən biri də Azərbaycandır. Azərbaycan 1991-ci ilə kimi Sovet Sosialist Respublikasının tərkibində olduğundan bu ölkədə rus dili əsas dil kimi istifadə olunmuş və insanların əksəriyyəti rus dilini öyrənmişdir.

Həm də o dövrlərdə ingilis dili dünyada o qədər məşhurlaşmamışdı. O zamanlar rus dili əsas dil kimi istifadə edilirdi. Bu səbəbdən ingilis dili Azərbaycanda bir o qədər inkişaf etməmişdi. Lakin ölkəmiz müstəqillik qazandıqdan sonra xüsusilə də Azərbaycanın Avropaya inteqrasiyasından sonra burada da ingilis dilinə maraq artdı.

Müstəqil Azərbaycanın beynəlxalq münasibətlərinin genişlənib möhkəmləndiyi bir dövrdə xarici dillərə olan tələbat zərurətə cevrilmişdir. Bu səbəbdən də təhsil

sistemində xarici dil tədrisinə xüsusi əhəmiyyət verilir. Bu baxımdan da 1999-2000-ci illərdə Azərbaycan Respublikasında xarici dil tədrisilə əlaqədar Təhsil İslahatı proqramı həyata kecirildi. Bu proqram öz qarşısına xarici dil təliminin həyatla əlaqəsini möhkəmləndirmək, onun praktik istiqamətini gücləndirmək məqsədini qoymuşdur.

Xarici dil dərsləri qarşısında duran əsas və başlıca məqsəd tələbələrə xarici dili praktik olaraq öyrətməkdən ibarətdir. Onun digər bir məqsədi isə bu prosesdə doğma Azərbaycanımıza, dilimizə, dinimizə, tariximizə, mədəniyyətimizə, adət və ənənələrimizə dərin məhəbbət və sevgi hissləri aşılamaqdan, dünyəvi dəyərləri dərk etməyə cəlb etməkdən, dili öyrənilən ölkənin mədəniyyətinə yiyələnməyə yönəltməkdən ibarətdir. Xarici dillərin öyrənilməsinin ümumtəhsil əhəmiyyəti bir də ondan ibarətdir ki, xarici dil vasitəsilə tələbələr dilini öyrəndikləri ölkənin tarixi, mədəniyyəti, adət və ənənəsi haqqında məlumat əldə etmək imkanina malik olurlar.

Dünya dövlətləri arasında mədəni-iqtisadi əlaqələrin genişləndiyi müasir dövrdə heç olmazsa, bir xarici dili mükəmməl bilmədən hazırlıqlı, geniş dünyagörüşünə malik mütəxəssis yetişdirmək mümkün deyil. Xarici dili öyrənən tələbə həmin dildə çap olunmuş yenilikləri orijinaldan oxuyub baºa düºməli, öz əmək fəaliyyətində onun yaxşı cəhətlərindən faydalanmağı bacarmalıdır və buna görə də xarici dilləri öyrənməyi özlərinə vəzifə borcu hesab etməlidirlər.

Yuxarida qeyd etdiyimiz kimi xarici dillərin içində ingilis dili ən geniş yayılmış dillərdən biridir. 1960-cı illərdən başlayaraq Ümumi İngilis dilinin öyrədilməsi tələbələrin və ya sahibkarların tələblərini ödəmədiyi üçün İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi anlayışının yaranmasına gətirib çixardı. İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi ingilis dilinin xüsusi sahələrdə istifadəsi üçün tədris edilməsi və öyrənilməsidir.

Müasir dünyada ingilis dilinin rolu istər işgüzar aləmdə, istər ünsiyyət vasitəsi kimi danılmazdır. Günümüzdə ingilis dilində mükəmməl danışmaq heç kimi təəcübləndirmir. Çünki bu artıq zərurətdir.

Azərbaycanda inkişaf və tərəqqi göz qabağındadır. Ölkəmiz xarici dövlətlərlə müxtəlif sahələrdə əməkdaşlıq edir, dünya səviyyəli yarış və müsabiqələrə ev sahibliyi edir, ölkəmizdə tədris dili xarici dil olan məktəblər fəaliyyət göstərir, məktəblərimizin məzunları xarici ölkələrdə təhsil alırlar. Bütün bunlar ölkəmizdə xarici dil və ya dillərin öyrənilməsinin əhəmiyyətini göstərir. İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi dilin müxtəlif ixtisas sahələrinə təsiri nəticəsində meydana gələn yeni dil tədrisidir. İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi proqramı həmçinin" Xüsusi Sahələr üçün İngilis dili" də adlanır. Bu proqram müxtəlif ixtisas sahələrinə aid kursları əhatə edir. Bu ixtisaslaşdırılmış dil kurslarına Menecerlər üçün İngilis dili (English Course for Managers), Elmi və Texnoloji İngilis dili (English for Science and Technology), Tibbi İngilis dili (English for Medical Purposes), Hüquqi İngilis dili (English for law), Diplomatik İngilis dili (Diplomatic English), Aviyasiya üçün İngilis dili (English for Aviation), Akademik İngilis dili (English for Academic Purposes), Turizm üçün İngilis dili (English for Tourism), Biznes İngilis dili (Business English), Beynəlxalq Auditorlar üçün İngilis dili (English Course for International Auditing), İnsan resursları üçün İngilis dili (English Course for Human Resources) və sairə daxildir.

İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsində işlədilən "xüsusi" termini İngilis dilinin tədrisində nəzərdə tutulan müxtəlif xüsusi məqsədlərə aid edilir. Tələbələr,

yetkin dil öyrəniciləri artıq onlara məlum olan və aid olan sahələr vasitəsi ilə ingilis dilinin öyrənilməsinə başlayırlar. Bu o deməkdir ki, İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sinifində tələbələr öyrəndiklərini dərhal öz araşdırmalarında və yaxud işlədikləri sahədə istifadə edə bilirlər. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi yanaşması yetkin dil öyrəncisinin öyrəndiklərinin aktuallığını artırır və onlara artıq bildikləri ingilis dili biliklərinin daha da inkişaf etdirməsinə şərait yaradır. Bu da öz növbəsində onlara gələcəkdə, xüsusilə öz sahələrinə aid yeni məlumat əldə etməyə və təcrübəli mütəxəsislərlə qarşılıqlı ünsiyyət qurmağa maraq, həvəs yaradacaq, onları bu işdə nailiyyət əldə etməyə motivə edəcək. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsi dünyadakı dil biliyi tələbatlarını qiymətləndirir və özünə motivasiya, xüsusi fənn, xüsusi məqsədlər və onlara müvafiq dil bacarıqların öyrədilməsi məzmunu kimi anlayışlarını daxil edir.

İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi həm yeni, həm də aktual sahədir. Müəyyən və ya istənilən dil tədrisindəki kimi İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi də dil təliminin əsas sahələrindən biri hesab olunur. Lakin İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsi araşdırıldıqca burada "hansı xüsusi məqsədlər movcuddur?", "deyilən xüsusi məqsədlərə uyğun xarici dili necə öyrənmək olar?", "xarici dildə nəyi öyrənmək lazımdır?" kimi suallar meydana çıxdı. Bu artıq xarici dil tədrisində fərqli yanaşma idi. Bu yanaşma əksəriyyət tərəfindən maraq göstərilən xüsusi dil tələbatının tərkibini, onun nəzərə çarpan, olduqca vacib xüsusiyyətlərini özündə cəmləyirdi. Dünyada müxtəlif ixtisaslarda təhsil alan tələbə qrupları üçün dil biliyi tələbatları kimi dil tədrisinə aid məsələlərdə İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi (ESP) fənni o zaman üçün yenilik oldu. 1960-ci ilin əvvəllərindən başlayaraq İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsi ingilis dilinin öyrədilməsində əsas inkişaf etmiş sahələrdən birinə çevrildi. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsinin inkişafı bir sira sahələrə də təsir etdi. 1977-ci ildə Strevens, 1980-ci ildə isə Robinson İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi sahəsinin mənasını və nəzəri vəziyyətini araşdırdılar. Coffey 1985-ci ildə Strevensin işini yenidən nəzərdən keçirtdi və İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsini ümumiyyətlə kommunikativ dil tədrisinin əsas hissəsi kimi müəyyən etdi.

Lakın İngilis dilinin ikinci dil kimi öyrədilməsi və İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi yalnız tələbələrin xüsusiyyətlərindən, məqsədlərindən asılı deyil, həmçinin buradakı təlimatların məqsədindən də asılıdır. Bu məqsədlər normalardan kənara çıxa bilər, yəni bu deməkdir ki, bu məqsədlər biri digərlərindən fərqlənə bilər. Əslində bir qayda olaraq ikinci dil kimi İngilis dili tədrisi dinləmə, oxu, danışıq və yazı kimi bütün dörd dil bacarıqlarını özündə bərabər şəkildə vurğuladığı halda, İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsində isə tələbatların təhlili ilə tələbələr üçün ən çox lazım olan dil bacarığı məyyən edilir, və tədris programı ona uyğun olaraq tərtib edilir. İngilis dilinin xüsüsi məqsədlərlə öyrədilməsi programı biznes idarəçiliyi sahəsini öyrənən və bu sahəni bitirməyə hazırlaşan tələbələrdə oxu bacarıqlarını inkişaf etməsini nəzərə çarpdıra bilər, yaxud da bu program turizm sahəsini araşdıran və gələcəkdə turist bələdçiləri olmaq istəyən tələbələrin danışıq bacarıqlarının inkişafına kömək edə bilər.

Bu gün dünya sürətlə inkişaf edir, dəyişir və qloballaşır. Bu qloballaşma artıq sosial həyatın bütün sahələrinə, eləcə də təhsil sahəsinə dərindən nüfuz edib. Təbii ki, qloballaşma şəraitində təlimin məzmun və keyfiyyətində də dəyişikliklər aparılmalıdır.

Müəllim bu gün tədris materiallarının müasir tələblər səviyyəsində mənimsədilməsi üçün yeni pedaqoji texnologiyalardan və metodlardan səmərəli istifadə etməlidir.

Bu gün ingilis dilinin tədrisiin ən məşhur üsulları kommunikativ üsul və klassik üsuldur.

Klassik üsul ən çox məktəblərdə və universitetlərdə istifadə olunur. Bu üsul İngilis dilinin əlifbası ilə və fonetika ilə birlikdə öyrənməklə başdan həyata keçirilir.Bura həm dinləmə, oxu, yazı , həm də danışıq daxildir..

Kommunikativ üsul nisbətən yaxınlarda qəbul edilmişdir. Kommunikativ üsul dil baryerini aradan qaldırmaq üçün kömək edir. Bu üsul dəqiq yaxşı nəticələr verir. Son zamanlarda intensiv metod haqqında daha ətraflı və genis söhbət açılır..

Tədrisdə müxtəlif metdolardan istifadə olunur. Bunlardan passiv metod,aktiv metod, interaktiv metod və s. Passiv metod artıq keçmişdə qalmış bir metoddur və bundan istifadə edilmir, demək olar ki. Amma bəzi müəllimlər tərəfindən hələ də tətbiq edilir. Bu metodda şagird yalnız dərsə qulaq asır, müəllim danışır. Amma illər keçdikcə aktiv metod ərsəyə gəldi. Bu metod ərsəyə gəldikdə passiv metodu tətbiq edən müəllimlər buna qarşı çıxdılar, amma zaman keçdikcə onlar da aktiv metoddan istifadə etməyə can atdılar.

İnkişaf etmiş ölkələrin təhsil təcrübəsi göstərir ki, çağdaş insan yetişdirmənin ən doğru yolu, şagirdi sinifdə təlimin obyekti kimi yox, subyekti kimi qəbul edən şagirdyönümlü interaktiv təlim metodlarından istifadə etməkdir. Artıq Avropa təhsilində əsas metod kimi interaktiv metod tətbiq edilir. Bu metodda mövzunun müzakirəsi zamanı müəllimlə şagird arasında müzakirə ilə yanaşı, şagirdlər arasında da müzkirə olur. Məsələn, müəllim hər hansı mövzu üzrə dərs tədris edir. Mühazirənin gedişi zamanı artıq tələbələr arasında da müzkirə başlanması bu interaktiv metodun göstəricisidir.Azərbaycanda Boloniya təhsil sistemi tətbiq olunsa da demək olar ki, interaktiv metodda dərslər tədris olunmur. Bunun səbəblərindən biri də yaşlı nəslin təhsildə üstünlük təşkil etməsidir. İnteraktiv metod üçün kompyuter biliklər olmalıdır. Həm də müasir dünya görüşlü müəllim olmalısan ki, dərs tədrisi zamanı interaktiv metodu tətbiq edə biləsən.

Əlbəttə ki, bütün dərslərdə interaktiv metodun tətbiqi vacibdir. Amma dil dərslərində bu daha çox vacibdir. Xüsusilə ingilis dili dərslərində bu metodun tətbiqi vacibdir. İlk öncə dil dərsləri müzakirəli şəkildə olmalıdır. Həm də təkcə, müəllim deyil, tələbələr öz aralarında müzakirələr aparmalıdır.Kompyuter sahəsindən istifadə olunmalı, müxtəlif qısametrajlı filmlərə baxılmalı, musiqilər dinlənilməli, praktik olaraq işlər görülməlidir.Ümumiyyətlə,ingilis dili dərslərində şagirdlərin aktiv olmalarını təşkil etmək elə asan iş deyil, bu müəllimin bacarığından asılıdır. Bəzən görürük ki, bir müəllim bu mövzunu elə keçir ki, tələbə razı qalır, amma başqa bir müəllim eyni mövzunu elə tədris edir ki, tələbə dərsdə oturmaq istəmir. İndiki gənc öyrəncilərin əsas tələbatı interaktiv metoddur. Ona görə bütünlüklə tədris interaktiv metoda üstünlük versə daha yaxşı nəticələr əldə etmək mükündür. Çünki bu metod artıq sınaqdan şıxmış bir metoddur.

Eləcə də bizim Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də xarici dillərin tədrisinə xüsusi önəm verilir. Bizim tədris etdiyimiz ingilis dili fənni altı semestr ərzində tədris olunur. İlk iki semestrdə ümumi ingilis dili, sonrakı dörd semestrdə onların ixtisasına uyğun hərbi ingilis dili keçirilir. İngilis dilinə mükəmməl yiyələnən zabitlər dilllərini daha da təkmilləşdirmək üçün STANAG kurslarına cəlb olunurlar. Sertifikata yiyələnən zabitlər xarici ölkələrdə təşkil olunmuş müxtəlif dil kurslarında

iştirak edirlər. Nail olduqları təcrübələri Vətənə qayıtdıqdan sonra digər zabitlərlə bölüşürlər.

Əməliyyat İmkanları konsepsiyası çərçivəsində fəaliyyət göstərən taborun və Sülhməramlı taborun olması da məktəbimizdə ingilis dilinin tədrisinin vacib olduğunu göstərir.

Məktəbimizdə ingilis dili fənninin tədrisi zamanı məktəbimizin yaratdığı yüksək şərait nəticəsində keyfiyyətli dərslərə nail olmaq ücün müxtəlif yardımçı üsullardan da istifadə etmək mümkündür. Siniflərimiz müasir texnoloji avadanlıqlarla təchiz olunub, burada müasir tələblərə cavab verən linqafon kabinələri yaradılıb. Bir sözlə, dərsin yüksəkkeyfiyyətli, müasir üslubda keçilə bilməsi üçün bütün şərait yaradılıb. Kompyüterlərlə, müasir proyektorlarla, elektron lövhələrlə və sairə ilə təchiz olunmuş siniflər kütləvi mətbuatdan istifadə, dialoq aparmaq, filmlərə baxış və debatlar kecirməyə imkan yaradır. Bunlardan əlavə, müəllimlərimiz beynəlxalq səviyyəli layihələrdə, proqramlarda, treninqlərdə iştirak edirlər

Məktəbimizdə ingilis dili interaktiv təlim metodu ilə tədris olunur. Auditoriyada müəllim-tələbə, tələbə-tələbə münasibətləri yaradılır, dərs zamanı müəllim ünsiyyət tələb edən situasiyaları təmin edir, kommunikativ fəaliyyətin həyata keçirilməsində müəllim öz fəallığı ilə tələbə fəaliyyətini motivləşdirməyə cəhd göstərir. Müəllimlərimiz tərəfindən tələbələr üçün yeni olan biliklərin müstəqil olaraq əldə olunması, mənimsənilməsi üçün şərait yaradılır.

Məktəbimizdə ingilis dili fənninin başlıca təyinatı müasir dövrdə kursantların ingilis dilində yazma, lüğətdən istifadə edərək danışma, inkişaf etmiş xarici ölkələrin ordularının strukturu, hərbi əsirlərin dindirilməsi, taktiki terminlərin öyrənilməsi və sair bu kimi terminlərin tədris olunmasından ibarətdir.

Müəllimin əsas vəzifəsi tələbələrə yol göstərmək, istiqamət vermək, müəyyən çətinlik meydana çıxarsa onlara yardımçı olmaqdır. Müəllimlər hər bir tələbəyə hörmətlə yanaşır, bilik səviyyəsindən asılı olmayaraq onlara inam göstərirlər.

İngilis dilinin oyrənilməsində tələbələrin xarici ölkələrdən vətənimizə gəlmiş səlahiyyətli zabitlərlə də görüşləri mühüm əhəmiyyət kəsb edir. Bu görüşlər tələbələrin dünyagörüşünün artmasına, xarici qonaqlarla ünsiyyət vərdişlərinin yaranmasına, onların bilik və bacarığının aşkara çıxmasına səbəb olur. Belə görüşlərdə tələbələr adətən həvəslə iştirak edir, dilini öyrəndiyi ölkənin vətəndaşları ilə birbaşa ünsiyyətdə olur.

Ümumiyyətlə, bizim müəllimlərimizin məqsədi müasir dövrdə dilin intensiv metodlarla oyrənilməsinin daha vacibliyini aşılamaqdır. Bu zaman işgüzar söhbətlər, maraqlı görüşlər, sərbəst şəraitdə keçirilmiş tədbirlər daha çox səmərə verir. Müəllimlərimizin qarşısında duran *məqsəd* tələbələrdə İngilis dilində bilik və bacarıqları inkişaf etdirmək, tələbələrə lazım olan İngilis dilinin söz bazasını öyrətmək, məktəbdə keçirilən İngilis dili fənninin təkmilləşdirilməsindən ibarətdir.

İstinad edilmiş ədəbiyyat:

1. Aynur Məmmədova: " Teaching speaking" məqaləsi." Filologiya məsələləri" jurnalı.2011.

2. Şamsudinova Leyla: " İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi prosesində meydana çıxan problemlərin həlli yolları" məqaləsi "Elmi əsərlər məcmuəsi" jurnalı 2015.

3. Eyubova Mehriban: "Məktəbdə ikinci xarici dilin tədrisinin əhəmiyyəti" Filologiya məsələləri" jurnalı 2015.

04. Azərbaycan Dillər Universiteti, "Diplomatik İngilis dili" fənni mühazirə materialları, Bakı 2014

5. Cəfərov V. Diplomatik etiket və nitq mədəniyyəti, Bakı, BDU nəşriyyatı, 2009,176 s.

6. Baker C., SienkewiczA. The Care and Education of Young Bilinguals, Cambrian Printers Ltd. Press, Great Britain, 2000, 220 p.

SUMMARY

The article deals with the importance of teaching of English. One can see how English is important in the life of our people. Students continuing their education in Europe and also in other countries need English, too. It also deals with the new ways and methods of teaching English. The article is very important because it can be used at secondary schools and at the same time at universities where English is non – profile subject. The article mostly deals with the importance of English for special purposes. English for special purposes is taught to students studying science and arts proficiency. Translators and Azerbaijani readers also can use this article. Our country is developing day by day. Azerbaijan is hosting different kind of contests, concerts etc. A lot of guests come to Azerbaijan today. Besides English is an international language. That's why we must know English.

РЕЗЮМЕ

В статье говорится о важности и актуальности изучения и обучения английскому языку. Изучения английского языка имеет также важное значение и для нашего народа. Знание английского языка помогает успешно учиться за границей. В статье в основном затрагивается профильный английский, поэтому она полезна специалистам гуманитарного и технического профиля, переводчикам и читателям, изучающим специализированный английский. Азербайджан успешно развивается. Развиваются и расширяются также его отношения с другими странами, которые используют английский как международный язык. Наша республика принимает зарубежных гостей, организует различные спортивные и музыкальные мероприятия. В успешном проведении международной политики в нашей стране важная роль принадлежит всестороннему изучению английского языка.

Rəyçi: Məmmədova Münəvvər
Filologiya üzrə elmlər namizədi

ƏDƏBİYYATŞÜNASLIQ

Fil.ü.e.d MAHİRƏ QULİYEVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
Erkən yeni dövr Azərbaycan ədəbiyyatı
şöbəsinin müdiri
mahirahamid@mail.ru

USTADNAMƏ İLƏ KLASSİK ƏNƏNƏ ARASINDA ƏLAQƏ

Ключевые слова: эпос, ашукская поэзия, классическая литература, «Устаднаме», классическая традиция
Key words: epos, ashuk poetry, classical literature, "Ustadnameh", classical tradition

Ədəbi növlər və janrlar ayrı-ayrı xalqların bədii irsində müxtəlif tarixi dövrlərdə fərqli olmuşdur. Bunları ümumi şəkildə üç əsas qismə ayırmaq olar:(1,52)

1. Folklor və şifahi ədəbi növlər;
2. Klassik ədəbi növlər;
3. Yeni dövr və müasir ədəbi növlər;

Azərbaycan ədəbiyyatında daha bir şaxə vardır ki, bu da aşıq poeziyasından ibarətdir və onu bəzən yanlış olaraq təkcə şifahi ədəbi ənənələrin çərçivəsində təqdim edirlər. Bütün hallarda ədəbi proses ilk olaraq şifahi ənənələrdən qaynaqlanır və həmin xüsusiyyətə malik aşıq ədəbiyyatı başqa bir yandan klassik yazılı irslə uyğun gəlir, yəni aşıq şeirinin konkret müəllifləri vardır.

Ərəb, fars və türk dillərində yazılan Şərq xalqlarının zəngin ədəbi mirası öz məzmun və formasına görə, bir sıra ortaq xüsusiyyətlərə malik olmaqla yanaşı, eyni zamanda yerli dil-üslub özəllikləri ilə seçilir. Klassik aşıq şeiri bir çox cəhətlərdən yerli və şifahi ənənələrə sadiq qalsa da, burada klassik ədəbi prosesdən gələn cəhətlərə də rast gəlmək olar. Başqa sözlə desək, aşıq poeziyası və klassik ədəbi irs arasında qırılmaz əlaqə vardır və onların bir-birinə təsiri qarşılıqlı olmuşdur.

Əvvəllər konkret müəlliflər tərəfindən nəql edilən və sonra qələmə alınan dastanlar da bu qəbildəndir. Aşıq şeirinin öz növ və şəkilləri, quruluş və kompozisiyası vardır. Bu baxımdan dastanlar öz quruluşuna görə fərqlənir və epik janra xas xüsusiyyətləri ilə seçilir. Klassik ədəbiyyatda isə məsnəvi şəklində qələmə alınan dastanlar öz quruluş və sisteminə görə fərqlənir. Məsnəvilər adətən, minacat, tövhid və Allahın sifətlərinin vəsfi ilə başlayır, Peyğəmbərin nəti və meracın təsviri ilə davam edir. Bu parçalar bir növ əsərin

girişini təşkil edir. Azərbaycan ədəbiyyatında mühüm yer tutan dastanların giriş hissəsini adətən ənənəvi ustadnamələr təşkil edir. Ustadnamələrin üçdən ibarət olması isə ənənəvi simvolik məna daşıyır.

Qeyd edək ki, klassik aşıq poeziyası və xalq dastanlarının tədqiqi və nəşrində bir çox dəyərli işlər görülmüşdür ki, bunları belə ümumiləşdirmək olar:(2,5)

1. Aşıq sənətinin ilkin kökləri və qaynaqları, onun inkişaf və təkamül mərhələləri;
2. Aşıq şeirinin toplanması, sistemləşdirilməsi və nəşri;
3. Aşıq poeziyasının növ, janr və şəkilləri;
4. Xalq dastanlarının yaranışı, inkişafı, mövzu və növləri;
5. Dastanların toplanması və nəşri;
6. Aşıq poeziyası və dastanların poetikası;
7. Aşıq ədəbiyyatı ilə klassik irsin əlaqəsi.

Aşıq ədəbiyyatının və xalq dastanlarının tədqiqi, toplanması və nəşri sahəsində klassik tədqiqatçılardan M.Təhmasib, H.Araslı və Ə.Axundovun xidmətlərini xüsusilə dəyərləndirmək lazımdır. Son zamanlar aşıq sənətinin qaynaqları, təşəkkülü və inkişaf mərhələlərinin müasir elmi müstəvidə araşdırılmasında M.Qasımlının işlərini təqdirəlayiq hesab etmək olar (3).

Aşıq ədəbiyyatının tədqiqində M.Həkimov, S.Pirsultanlının kitabları maraq doğurur. Dastan poetikasının müasir elmi-nəzəri konsepsiyalar əsasında təhlili məsələsində isə Kamil Nərimanoğlunun monoqrafiyası sanballı tədqiqat işi sayılır (4). Aşıq yaradıcılığının müxtəlif cəhətləri, onun növ və şəkilləri barədə də bir sıra kitablar nəşr edilmişdir.

Bütün bunlarla yanaşı, aşıq şeiri və dastanların tədqiqi ilə bağlı öz həllini gözləyən bir sıra məsələlər vardır. Birincisi, aşıq şeirinin forma, janr, növ və şəkilləri üzərində dəqiqləşmələr aparmaq lazım gəlir və burada daha elmi və ümumiləşdirici təsnifat aparmağa ehtiyac duyulur. Təsəvvüf motivlərinin folklora və dastanlara nüfuzu barədə H.Göyüşovun nəzəri mülahizələrinə diqqət yetirsək, bu sahədə olan boşluğu daha aydın təsəvvür edə bilərik. O, bu məsələni elmi şəkildə əsaslandıraraq, onun əsas cizgilərini müəyyənləşdirmişdir (5).

Bundan başqa, üzərində dayanılası ciddi problemlərdən biri də Quran və islam maarifinin klassik aşıq ədəbiyyatı ilə əlaqəsidir. Bu problemin tək-tək suallarına çox pərakəndə və epizodik şəkildə toxunulmuşdur. Eyni zamanda aşıq yaradıcılığının klassik yazılı irslə əlaqəsi də zəif işıqlandırılmışdır. Bu əlaqə qarşılıqlı olmaqla yanaşı, həm forma və həm də məzmun baxımından özünü göstərir. Təəssüflər olsun ki, aşıq poeziyasının və dastanlarda yer alan nəzm parçalarının özünəməxsusluğu ilə seçilən poetikası ilkin qaynaqlara əsaslanmadan, eyni zamanda yarımçıq və epizodik öyrənilmişdir.

Yazılı ədəbiyyat öz inkişafının bütün mərhələlərində folklorun məzmun və formasından, onun dil-üslub xüsusiyyətlərindən, bədii obrazlar sistemindən, deyilən mətləbi oxucuya sadə və fəsahətli şəkildə çatdıran tükənməz axıcı söz xəzinəsindən bəhrələnmiş və həmin milli zəmin üzərində qol-budaq atmışıdır. Təbiidir ki, aşıq yaradıcılığı ilk növbədə folklor mədəniyyətindən və şifahi ənənələrdən qaynaqlanmışdır.

Zaman keçdikcə, ictimai-siyasi və ədəbi-mədəni həyatdakı yeniliklər aşıq sənətinin məzmun, mövzu qayəsini dəyişməklə bərabər, onun bədii ifadə formalarının da dəyişilməsinə, kamilləşməsinə, yeni boya və rənglərlə zənginləşməsinə səbəb olur. İslam mədəniyyəti mühitində zəngin klassik ədəbiyyatla yan-yana inkişaf edən aşıq poeziyası və dastanlar, həmin mühitin təsiri ilə yeni yüksəliş və təkamül mərhələsi keçmişdir. Böyük ustad aşıqların yaradıcılığı və gözəl xalq dastanlarının meydana gəlməsi ədəbiyyatımızın zənginləşməsinə səbəb olmuşdur.

Aşıq ədəbiyyatında ustadnamə mühüm şeir növü kimi tanınır və formaca aşıq şeirinin müxtəlif şəkillərində yazılan bu növ öz məzmunu ilə diqqəti cəlb edir və burada ibrət və nəsihət xarakteri daşıyan didaktik motivlər, əsasən də hikamətamiz mətləblər ifadə olunur. Ustadnamələrin əsas xüsusiyyətlərindən biri onların atalar sözü və zərbül-məsəllərlə zənginliyidir. Bəlli olduğu kimi, hikmət, nəsihət və moizə klassik irsdə xüsusi yer tutur və Şərq poetikasında şairlərin işlətdiyi atalar sözləri və zərbül-məsəl kimi deyimlər xüsusi adla – "İrsəlül-məsəl" termini ilə ayırd edilir. Nizami, Xaqani, Sədi və başqa Şərq klassiklərinin əsərlərində belə motivlər olduqca çoxdur. Ustadnamələr əvvəlcə ayrı-ayrı ustad aşıqların yaradıcılığında geniş işlənmiş və sonralar dastan müəllifləri tərəfindən bu ədəbi növün girişi olaraq əsərin başlanğıcına əlavə edilmişdir.

Dastanlar haqqında "Ədəbiyyat nəzəriyyəsi" kitablarının böyük əksəriyyətində verilən məlumatlar bir-birini təkrarlayır: "Dastanlarda süjet xətti möhkəm və cəsarətli olur, əsas məsələ ilə əlaqədar yardımçı süjet xətləri verilir, bunlar vahid süjet xəttini pozmur (6,202).

Mətn tutumuna görə həcmcə iri olan xalq dastanları həm tarixilik baxımından həm də forma və məzmuna görə geniş diapozonludur. "Azərbaycan xalq dastanları" kitabının girişində göstərilir ki, "dastan mətnlərinin əsasında mif, mifoloji düşüncə və bu düşüncənin gerçəkləşdiyi əfsanəvi əsatir mətnləri dayanır" (7,5). Ancaq Türk dastanlarında miflər yunanlardan fərqli olaraq, epizodik xarakter daşıyır və burada həyat gerçəkliyi, xalqın adət-ənənələri, ailə-məişət münasibətləri daha geniş ifadə olunur və ən qədim dastanlardan biri olan "Kitabi-Dədə Qorqud" abidəsi də bu cəhətdən seçilir.

Epik folklorumuzun mürəkkb növü olan dastan nəsrlə nəzmin növbələşməsi nəticəsində yaranır, musiqi ilə qovuşur və epik-lirik şəkildə

yaşamağa başlayır. Xalqımızın ilk böyük folklor abidəsi olan "Kitabi-Dədə Qorqud"da vəziyyət belədir (8,13). Dastanları söyləmək üçün xalq içərisindən xüsusi aşıqlar çıxardı. Aşıq tarix boyu xalqın sevdiyi sənətkar olmuşdur. O öz sənəti ilə xalqa, onun ruhuna daim yaxın olmuş, onunla kədərlənmiş, onunla sevinmiş, onunla təsəlli tapmışdır.

Onlar dastanı söyləməzdən qabaq onun mövzusuna uyğun ustadnamələr seçərmişlər. Elə sənətkar aşıqlar vardır ki, onlar özləri yaradıcıdırlar. Şifahi xalq şeiri nümunələri ilə bərabər öz yaratdıqları qoşmaları, düzəltdikləri dastanları oxuyur və peşəkar aşıqlardan fərqlənirdilər (9,50).

Dastanlar öz mövzusuna görə, əsasən iki hissəyə ayrılır: qəhrəmanlıq və məhəbbət dastanları.

Qəhrəmanlıq dastanları xalqımızın keçirdiyi tarixi mərhələləri, onun öz azadlığı uğrunda daxili və xarici düşmənlərə qarşı mübarizəsini ümumiləşdirilmiş şəkildə və yüksək vətənpərvərlik hissi ilə əks etdirir. "Dədə Qorqud", Koroğlu, Qaçaq Nəbi kimi dastanlar qəhrəmanlıq dastanlarıdır (9,51).

Məhəbbət dastanları bir-birini dərin məhəbbətlə sevən gənclərin taleyindən bəhs edir. Bəzən qəhrəmanlar bədii sözün qüdrətilə düşmənlərinə qalib gəlir, öz məqsədlərinə nail olurlar. Bəzi məhəbbət dastanlarında qəhrəman öz sevgilisinə çata bilmir, arzusu uğrunda mübarizədə məhv olur (9,51).

Ustadnamə dastanın hikmət qapısıdır, canlı, aydın xalq dili ilə zəngin klassik poeziyanın özünəməxsus incəliklərini bədii şəkildə təcəssüm etdirən bədii növdür. Dastana xas olan milli düşüncə, insana məhəbbət, xeyirxahlıq, ədalət, əməli-salehlik kimi əxlaqi-mənəvi motivlər və dərin məzmunlar bu şeir növündə klassikaya uyğun tərzdə tərənnüm olunur. Bu isə bir növ dastana keçmək üçün bir başlanğıc funksiyasını yerinə yetirir. Ustadnamə – ustad nəsihəti, ustad sözü, ustad vəsiyyəti deməkdir.

Deməli, dastanlar hər dövr klassik yazılı ədəbiyyatda işlənən məsnəvilər kimi, özünəməxsus quruluşu ilə seçilir və burada verilən ustadnamə və başqa şeir parçaları öz bədii dil-üslub gözəlliyi, səlisliyi və axıcılığı ilə insan qəlbinə yol tapır, oxucunun düşüncəsinə və ruhuna təsir göstərir.

Ə.Ağayev yazır: "Ustadnamələrin müxtəlif dastanların əvvəlində işlədilməsi bir tərəfdən onun folklor koloritinin əsas göstəricilərindən olan xəlqiliyi, digər tərəfdən şeirdə xalqın hiss və duyğularının tərənnümü, digər tərəfdən canlı xalq dilindən məxəzlənmiş, sadə dillə ifadəsidir" (10,78). Ancaq ustadnamənin əsas mahiyyəti bundan ibarət deyildir və onun başlıca qayəsi hikmət, ibrət və nəsihətdir. Bu baxımdan ustadnamələrlə Quran üslubu arasında olan tipoloji bənzərliyi unutmaq olmaz, belə ki, bu səmavi kitabda verilən ayələr insanlar üçün ibrət olaraq dəyərləndirilir.

Eyni ustadnamənin bir neçə dastanın giriş qapısı kimi təkrarlanması isə onun fəlsəfi-hikmətamiz əhəmiyyəti, ustadnaməni söyləyən müəllifin şəxsiy-

yəti, təbi, fitri istedadı və qələminin qüdrətini əks etdirir. Məsələn, Aşıq Ələsgərin ustadnamələri bu baxımdan xüsusi olaraq seçilir.

Deməli, ustadnamələr bir tərəfdən dastanın quruluş və kompozisiyasının tərkib hissələrindən biri kimi çıxış edirsə, o biri tərəfdən onun məna ruhunu qüvvətləndirir. Ustadnamələrin forma və məzmun rəngarəngliyi nə qədər mütəhərrikdirsə, fikir bitkinliyi, bədiyyatı, sənətkarlığı bir o qədər rəvan, səlis, axıcı, ahəngdar və poetik cəhətdən zəngindir.

Ustadnamələr haqqında müxtəlif mülahizələr söylənilir ki, onların bir qisminin dəqiqləşdirilməsinə ehtiyac vardır. Məsələn, Mürsəl Həkimin filologiya fakültəsinin tələbələri üçün yazdığı "Azərbaycan şifahi xalq ədəbiyyatından xüsusi kurs" adlı kitabında müəllif yazır:

"Aşıq yaradıcılığında ustadnamələr əsasən "Bayatı", "Gəraylı", "Qoşma", "Müxəmməs", "Təcnis", "Divani" "Heydəri", "Əliflam" və s. kimi formalarda yazılır". (11,52). O, sonra fikrini belə davam etdirir: "Ustadnamələr bədii bir növ olmaqla, ibrətli xalq kəlamları və atalar sözündən formalaşmışdır. Məzmun və fikir etibarı ilə xalq hikmətinin parlaq ifadəsi olan atalar sözü və məsəllər də üslubca bədii sözün canlı, gözəl nümunələridir. Bu mənada aşıq ədəbiyyatında, işlək dairəsi geniş olan ustadnamə növünün mərkəzində atalar sözü və məsəllər durur" (11,52).

Öncə qeyd edildiyi kimi, ustadnamə aşıq şeirinin şəkillərinə görə deyil, məzmununa görə müəyyən edilən növüdür. Bu səbəbdən də onu bədii növ adlandırmaq doğru deyildir. Eyni zamanda onu atalar sözü və məsəllərlə eyniləşdirmək də dəqiq sayıla bilməz. Ustadnamələr daha çox hikmətli və ibrətamiz kəlam kimi diqqəti cəlb edir və onların poetik xüsusiyyətləri isə ayrıca deyil, aşıq şeirinin poetikası çərçivəsində tədqiq edilməlidir.

"Ustadnamələrdə güclü məntiq, oxucunu düşündürən didaktika, sənətdə kamillik və bu kimi məsəllər ön plana çəkilir" (11,41). Həmid Araslı "Azərbaycan ədəbiyyatı: tarixi və problemləri" adlı kitabının "Aşıq yaradıcılığı" bölümündə Aşıq Abbas Tufarqanlıdan bəhs edərkən yazır: "Abbasın şeirləri o qədər xalqın istək və arzularına uyğun olmuşdur ki, uzun müddət öz müəllifini Azərbaycan aşıqları içərisində ustad aşıq kimi sevdirmişdir" (9,53).

Həmin kitabın başqa bir yerində isə şairin həyatı haqqında az-çox təsəvvür verən yalnız onun adıyla bağlı "Abbas və Gülgəz" adlı dastandır ki, aşıqlar bu gün də həmin dastanı məclislərdə söyləyir, Abbası ustad aşıq kimi tanıdırlar. Onun müxtəlif mövzularda yazdığı qoşmalar, nəsihətamiz didaktik şeirlər bu gün də aşıqlar tərəfindən ustadnamə kimi oxunmaqdadır (9,53).

Mürsəl Həkimovun "Aşıq şeirinin növləri" adlı kitabında ustadnamə ilə yanaşı, aşıq yaradıcılığında önəmli yer tutan təəssüfnamə haqqında da məlumat verilir: "Azərbaycan aşıq ədəbiyyatında ustadnamə, təəssüfnamə, deyişmə, hərbə-zorba, qıfılbənd (bağlama, kilidləmə) kimi bayatı, gəraylı, qoşma, təcnis,

divani, müxəmməs və s. növləri özündə birləşdirən terminə - ustadnaməyə tez-tez rast gəlirik" (11,53). Burada, zənnimcə, yanlışlığa yol verilib, belə ki, aşıq şeirinin müxtəlif şəkillərini ustadnamə adı altında birləşdirmək doğru və məntiqli deyildir. Yuxarıda da qeyd etdiyimiz kimi, ustadnamə formaya və şəklə görə deyil, məzmuna görə fərqlənən növdür. Başqa tərəfdən, hərbə-zorbanı ustadnamə adlandırmaq çox qəribə görünür.

Eyni əsərin başqa bir yerində müəllif ayrıca bir başlıq altında təəssüfnamə haqqında yazır: "Öyüdnamə, nəsihətnamə ilə yanaşı, aşıq yaradıcılığında təəssüfnamənin də xüsusi yeri vardır. Adından da göründüyü kimi, təəssüfnamə saz-söz sənətkarlarının keçirdikləri daxili hiss və həyəcan, niyyət və arzu ilə bağlıdır" (12,42). Bunun qədim nümunələrindən birinə müəllif "Kitabi-Dədə Qorqud" boylarından nümunə gətirir.

Aruz!
Mənə bu işi edəcəyin bilsəydim,
Qaraqoçda qazılıq atını minərdim.
Əyni bərk dəmir donu geyərdim,
Qara polad üz qılıncım belimə bağlardım (12,42).

Burada müəyyən elmi dəqiqləşməyə ehtiyac vardır, belə ki, insanların hiss və həyəcanları o qədər müxtəlifdir ki, onların hər birinə aid bir şeir növü icad etsək, bunun sayı-hesabı olmaz. İkincisi, təəssüf ki, heç bir qaynaqda "təəssüfnamə" termini yoxdur. Eyni zamanda, "öyüdnamə" və "nəsihətnamə" terminləri də artıq və lüzumsuzdur və bunlar elə ustadnamənin məzmununu təşkil edir. Bu hesabla, gərək ustadnamənin məğzini təşkil edən hikmət və ibrətə də müvafiq olaraq "hikmətnamə" və "ibrətnamə" adı verməklə, yeni növlər yaradaq.

Bəzən də mövzunun təqdimatında təzadlı fikir və dolaşıqlığa rast gəlirik: əsərin bir məqamında müəllif təəssüfnaməni ustadnamənin tərkib hissəsi kimi verdiyi halda, başqa bir yerində isə onu ustadnaməyə bərabər tutur. Təəssüfnamə isə artıq dastanın tərkib hissəsi deyil, ustadnamənin mövzu çaları, mövzu rəngarəngliyidir. Müəllif qeyd edir ki, "təəssüfnamələr baş verən hadisənin müşahidə məqamında, şahidlik məkanında təsdiqlənən nəticədir. Belə müdrik nəticələr bir növ sonrakı nəsillərə aldanmamaq, səhv etməmək üçün saz-söz ustadlarından vəsiyyət və nəsihətdir" (12,43). Deməli, yekun olaraq ustadnamənin məzmunu və hədəfi hikmət, nəsihət və ibrətdir.

Dastanların əsasən üç ənənəvi tərkib hissəsi, yəni ustadnamə, dastan özü və sondakı duvaqqapmalardan ibarət olması fikri "Azərbaycan dastanları"nın 1-ci cildində yazılmış giriş hissəsində yığcam və dəqiq şəkildə göstərilmişdir. Bu fikir Sədnik Paşa Pirsultanlının "Ozan-aşıq yaradıcılığına dair araşdırmalar" kitabında bir qədər fərqli şəkildə verilir: "Əsli Kərəm"lə "Leyli və Məcnun" arasında bənzər cəhətlər nəzərə çox çarpır. Əksər məhəbbət dastanlarımız duvaqqapma ilə, toy-düyünlə bitdiyi halda, hər iki dastan faciə ilə qurtarır"

(8,86). Müəllifə görə, kökü ərəb dastanlarına gedib çıxan "Leyli və Məcnun" Nizaminin ədəbi dühasından keçərək yenidən dastanlaşmışsa, "Əsli və Kərəm" əksinə, məhz xalqın bədii təfəkküründən məhsuldur. "Əsli və Kərəm" Azərbaycan ərazisində yetişmiş, yaranmış, ciddi milli koloritə malik yerli dastan mövzusudur (8,86). Ancaq bu iki dastan arasındakı fərq deyilənlərlə bitmir və məsələ burasındadır ki, "Leyli və Məcnun"un yerli versiyası birbaşa ərəblərdən deyil, Nizami və Füzulidən götürülmüşdür.

Dastanların necə bitməsinə gəlincə isə, bu məsələ onun məzmunundan və dastanı qoşan sənətkarın fərdi yanaşmasından asılıdır. Başqa bir yandan, Qurbaninin diri versiyası, Şahzadə Əbülfəz, Abbas, Fərhad və bu kimi dastanlar heç də duvaqqapma ilə bitmir. Biz bu məsələyə aydınlıq gətirmək üçün 35 dastanın sonluqlarını müqayisə etdik və belə bir nəticə alındı:

* 27 dastan duvaqqapma ilə bitir, deməli, bu növ əsas yer tutur;

* 3 dastan ağlaşma və oxşama ilə tamamlanır;

* klassik ədəbiyyatdan gələn "Leyli və Məcnun" şikayətnamə ilə sona yetir;

* "Abbas və Gülgəz" ,"Bəhmən və Humay" xoş sonluqla bitir;

* "Fərhad və Şirin", "Əsli və Kərəm" lənətnamə ilə tamamlanır;

* "Tanrıverdi və Kamal" qəhrəmanlıqla bitir.

Pirsultanlının "Eldən-obadan eşitdiklərim" əsərində dastan sonluqları haqqında verilən məlumat əvvəlkilərdən daha genişdir: "Dastanların əvvəlində üç ustadnamə, sonra dastanın yurdu, təhkiyə hissəsi, dastan xoşbəxtliklə tamamlanarsa, duvaqqapma, faciə ilə bitərsə, cahannamə verilir (8, 83).

Pirsultanlı başqa bir əsərində məhəbbət dastanlarından danışarkən, onların əvvəlində verilən ustadnamənin dastanı yazan aşığa, ya da özündən çox əvvəl yaşamış ustad aşıqlara məxsus olduğunu qeyd edir. Sonunda isə hökmən həmin dastanı düzüb-qoşan yaradıcı aşığın müxəmməs-duvaqqapması və ya "Cahannamə"sinin verildiyini iddia edir. Bir sözlə, dastan onu yaradan şəxsin ad-möhürbəndi ilə tamamlanır (8,46). Müəllifə görə, qəhrəmanlıq dastanlarının əvvəllərində vücudnamə (əzəl-axır), dastanın yurdu, sonda cahannamə verilir (8,83). Bu mülahizələrdə maraqlı məqamlarla yanaşı, bir qədər səthilik, pərakəndəlik və qarışıqlıq vardır. Əvvələn, məhəbbət dastanlarının sonu haqqında qəti hökm vermək doğru deyildir; daha sonra, müəllif "cahannamə"nin nədən ibarət olduğunu açıqlamır. Əgər dünyanın yaranışı və aqibəti barədə klassik ədəbiyyatda verilən komoqrafiya nəzərdə tutulursa, bu, aşıq şeirinin növü hesab edilmir və heç bir qaynaqda belə bir terminə rast gəlmirik; ikincisi isə, "vücudnamə" klassik ədəbiyyatdan gəlmə bir termindir və buna Nizami və başqa klassiklərdə, sufi ədəbi nümunələrində də rast gəlirik.

Müəllif qeyd edir ki, bəzi dastanlarda duvaqqapma yerinə, arzulamalar verilir (8,114). Zənnimizcə, bu termin də bir növ "təəssüfnamə" kimi ədəbi növ və şeir şəkli olaraq, qəbul edilə bilməz. Hikmət, nəsihət və ibrət ustadnamənin

məzmun xüsusiyyətlərini bildirdiyi kimi, arzulama da sadəcə, duvaqqapmanın məzmun çalarını ifadə edir.

Bir məsələni də qeyd etmək istərdik ki, sovetlər zamanında toplanıb nəşr edilən dastanlar müxtəlif şəxslər tərəfindən söylənilmiş, onların köhnə versiyaları əldə yoxdur. Müəllifi bəlli olan dastanlar istisna olmaqla, qalan köhnə dastanların ustadnamələri arasında Aşıq Ələsgər, Dəllək Murad və Xəstə Qasımın şeirləri daha münasib və güclü görünür. Aşıq Alı kimi ustad sənətkardan isə heç bir nümunə verilməmişdir. Ola bilsin ki, bir çox dastanların köhnə versiyalarında məzmun və poetik baxımdan daha məşhur ustadnamələr işlənmişdir. Aşıq Ələsgərin ustadnamələrində hikmət, nəsihət və ibrət daha qabarıq ifadə olunur. Hətta bunların bir qismi dillər əzbəri olaraq, atalar sözləri və zərbül-məsəl kimi işlənir:

Arif olub diyar-diyar gəzənin,
Əvvəl, başda pür kamalı gərəkdi.
Ororub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi (13,71).

Ustadnamələr klassik poetika baxımından ən çox "irsəlul-məsəl" və ya "təmsil" növünə uyğun gəlir (14,242). Bu, nəsr və nəzmdə işlənən elə poetik vasitədir ki, burada müəyyən bir cümlə və ya ifadə tərzi, zərbül-məsəl və yaxud hikmətamiz söz şəklində verilir. Bu poetik vasitə sözün estetik gözəlliyinə və məzmununun gücləndirilməsinə xidmət edir. Əslində bu vasitə şifahi xalq ədəbiyyatının təsiri ilə yazılı ədəbiyyata keçmişdir. Folklor düşüncə tərzi ilə bağlı olan bu bədii ifadə vasitəsi peşəkar sənətkarlarda yüksək intellektual obrazlarla zənginləşərək, daha böyük məzmun kəsb edir. Bu bədii ifadə vasitələrindən aşıq ədəbiyyatında daha geniş istifadə edilib. Böyük el nəğməkarı Aşıq Ələsgərin "Yaxşıdı" və "Görmədim" qoşmaları bu sənətə gözəl nümunədir:

Bivəfanın, müxənnəsin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim (14,242).

"İrsəlül-məsəl" tipli deyimlər Qurani-Kərimdə geniş yer alır. Yasin surəsinin 69-cu ayəsində deyilir: "Biz ona (Muhəmməd əleyhissəlama) şeir öyrətmədik və bu ona heç yaraşmaz da (lazım da deyildir). Ona vəhy olunan ancaq öyüd-nəsihət və (haqla batili ayırd edən) açıq-aşkar Qurandır".

Başqa bir ayədə deyilir: "(Ya Peyğəmbər!) Əgər nəsihət etmək fayda versə, (ümmətinə Quranla) öyüd-nəsihət ver! (əl-Əla: 9)". Və ya: … Xeyr bu (Quran) bir öyüd-nəsihətdir (əl-Qiyamə: 54).

Bütün bu dediklərimiz hikmət və öyüd-nəsihətin mənşəyindən, özü də misli-bərabəri olmayan mənşəyindən xəbər vermirmi?

Ədəbiyyat

1. M.N.Təhmasib. Azərbaycan xalq dastanları(orta əsrlər), "Elm", Bakı-1972.
2. M.H.Quliyeva. Aşıq yaradıcılığı və dastanlar Şərq poetikası və İslami dəyərlər baxımından. "Elm və təhsil", Bakı-2016
3. M.Qasımlı.Ozan-aşıq sənəti. "Uğur" nəşriyyatı, Bakı-2007
4. K.V.Nərimanoğlu. Azərbaycan eposunun poetik sintaksisi (monoqrafiya). "Oskar", Bakı, 2009
5. N.Göyüşov. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. "Tural-Ə", Bakı-2001
6. C.X.Hacıyev. Ədəbiyyat nəzəriyyəsi. Azərnəşr, 1952.
7. Azərbaycan dastanları.c1, AMEA, Folklor institutu, "Çıraq", Bakı-2005
8. S.P.Pirsultanlı. Eldən-obadan eşitdiklərim. AGAH, 2006.
9. H.Araslı. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. "Gənclik". Bakı, 1958
10. Ə.Ağayev. Sənətkarlıq məsələləri. Bakı, "Elm", 1962.
11. M.Həkimov. Aşıq şeirinin növləri. Bakı, APİ, 1987.
12. M.Həkimov. Azərbaycan şifahi xalq ədəbiyyatından xüsusi kurs. Bakı, APİ, 1975
13. Aşıq Ələsgər. Şerlər, dastan-rəvayətlər, xatirələr. Tərtib edən: İslam Ələsgər. Bakı, "Çinar-Çap", 2003.
14. Quliyeva M. Şərq poetikasının əsas kateqoriyaları. Bakı, "Maarif", 2010.
15. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Ankara, "Kozan Ofset", Məhərrəm, 1418/1997, Ya.Sin: 40.

Mahira Guliyeva

FUZULI TRADITIONS IN MOLLA PANAH VAGIF CREATIVITY

SUMMARY

Molla Panah Vagif was the great poet of Azeri poetry from point of view of ashug creativity and classical literature of XVIII century. Prominent master of arts beautified the national poems reflecting the reality with the Fuzuli's breath, great poet and thinker of our poetry. The poet benefiting from classical heritage and Fuzuli's tradition, made special trace in the history of literature.

In recent years we come across the effect of hadiths and Quran on the literary word art. Classical and traditional themes in Mollah Nasraddin's creativity were not explored. In this regard the new review to Molah Nasraddin's creativity is necessary. The exploration of return to the date memory, Islamic values, plot and motives of Quran is an important issue. In the

article is investigated the values of Muhammad Fuzuli's creativity in comparative with Mola Nasraddin Vagif's creativity in the present scientific context.

МАХИРА КУЛИЕВА

ТРАДИЦИИ ФИЗУЛИ В ТВОРЧЕСТВЕ МОЛЛЫ ПАНАХА ВАГИФА

РЕЗЮМЕ

Молла Панх Вагиф, выступающий как ашугского творчества и классической литературы вправе считается выдающимся представителем Азербайджанской литературы XVIII века. Стихотворные образцы поэта, близкие духу народа, простые и читабельные обогатили Азербайджанскую поэзию. Выдающийся мастер слова стихотворные образцы с национальным духом, отражающие реальность, были очарованы духом великого поэта и мыслителя нашей поэзии Физули. Поэт, писавший под воздействием традиций поэта души, выдающегося мастера слова Физули, оставил своеобразный след в истории литературы.

В последние годы встречаются исследования по влиянию Корана и хадисов на искусство художественного слова. Но классическая и традиционная тематика творчества Молла Панах Вагифа осталась вне исследований. В этом смысле, необходим новый взгляд на творчество Молла Панах Вагифа. Особенно, возвращение к исторической памяти в период независимости, ценности Ислама, изучение Коранических сюжетов и мотивов являются важными вопросами, стоящими перед наукой. В статье анализируются в сравнительно-сопоставительном аспекте, по научным требованиям сегодняшнего дня, вышеуказанные ценности творчества Мухаммада Физули и творчество Молла Панах Вагифа.

Rəyçi: Nəsib Göyüşov
Filologiya üzrə elmlər doktoru, professor

TOFİQ ƏBDÜLHƏSƏNLİ
UNEC-in "Azərbaycan dili" kaledrasının müdiri, filologiya elmləri doktoru, professor

KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATINDA MULTİKULTURAL DƏYƏRLƏR VƏ TOLERANTLIQ

Açar sözlər: multikulturalizm, tolerantlıq, klassik ədəbiyyat, Azərbaycan ədəbiyyatı, Nizami, Füzuli
Keywords: multiculturalism, tolerance, the classical literature, the Azerbaijani literature, Nizami, Fizul
Ключевые слова: мультикультурализм, толерантность, классическая литература, азербайджанская литература, Низами, Физули

Klassik Azərbaycan ədəbiyyatı özünün əsrarəngiz inciləri, misilsiz ədəbi-bədii nümunələri və dahi şəxsiyyətləri ilə, bütövlükdə Azərbaycan mənəvi mədəniyyət xəzinəsinin əsasını təşkil edir. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi sərəncamı əsasında 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edildi. Bu sərəncamın icrasına müvafiq olaraq ölkənin müxtəlif idarə və müəssisələrində, xüsusilə humanitar və ictimai elm sahələri ilə bağlı qurumlarında multikulturalizm və tolerantlıq məsələlərinin öyrənilməsi, təhlili və təbliği sahəsində mühüm işlər görülməyə başlanıldı.

Müasir ədəbiyyatşünaslıqda multikulturalizm anlayışının multidissiplinar yanaşma kontekstində ideoloji, fəlsəfi, bədii, antropoloji, sosioloji, politoloji, iqtisadi, tarixi, pedoqoji və s. istiqamətlər üzrə təhlili təcrübəsi mövcuddur. Bu problem son dövrlər qeyd olunan elmi istiqamətlər kontekstində Avropa, Rusiya, və Amerika elmi araşdırmalarında geniş şəkildə öyrənilir (10; 11; 12;).

Klassik Azərbaycan poeziyasında multikultural dəyərlər və tolerantlıq barədə təhlillərə keçməzdən əvvəl bu barədə Kamal Abdullanın dərin məzmunlu və fundamental yanaşmasını təqdim etmək istərdik. Alim yazır ki, "Bəşəriyyəti bütöv kimi dərk etmək istəyi, ayrı-ayrı xalqları mənəvi xətlərlə birləşdirən amilləri aramaq ehtiyacı, dinləri bir-birinə yaxınlaşdırmaq cəhdi, müxtəlif dinlərin müqəddəslərinə eyni ehtiram, insanlara dininə görə deyil, dəyərinə görə qiymət vermə əxlaqı, hər kəsi mərhəmətə, şəfqətə, başqasının dərdinə acımağa dəvət, eşqin ən yüksək, ən ali hiss kimi dilindən, dinindən asılı olmadan bütün xalqlar üçün əsas həyat prinsipi olmasının tərənnümü və bir sıra digər bu kimi dəyərlər ədəbiyyatımızın dərin qatda pərvaz edən ruhunun göstəriciləridir... Cəsarətlə demək olar ki, minillik tarixə malik klassik ədəbiyyatımızın hər bir nümayəndəsi bu dəyərləri nəinki qəbul etmiş, hətta onları öz dünyagörüşünə çevirmişdir" (1, 3).

Azərbaycan etnokulturoloji mühiti öz folkloru, ədəbiyyatı, incəsənəti, etnoqrafiyası və başqa cəhətləri ilə özünün multikultural təbiətini ortaya qoymuşdur. Bu mühitin multikultural təbiətini şərtləndirən bir sıra amilləri xüsusilə diqqət mərkəzinə gətirmək olar:

Birincisi, dini baxış bucağından multikulturalizmə yanaşsaq, görərik ki, bu coğrafi regionda yeni dini dünyarüşü ilə yanaşı, köhnə dini dünyagörüşü də paralel şəkildə mövcud olmuşdur. Məsələn, rəsmi şəkildə islam dinin mövcud olmasına baxmayaraq, Azərbaycan cəmiyyətində tanrıçılıq və zərdüştilikdən qalan müxtəlif dini inanc və ayinlər müəyyən mərasim və xalq inancları şəklində öz varlığını saxlamışdır.

İkincisi, tarixi-siyasi yerləşmə baxımından da bu region multikulturalist xarakterə malik olmuşdur. Bəllidir ki, müasir Azərbaycanın ərazisində dini və etnik fərqlilik hakim siyasi iqtidarın uğurlu idarəçiliyə nail olması üçün müxtəlif dini və etnik maraqlara hörmətlə yanaşmasına, inteqrativ münasibəti əsas götürməsinə səbəb olmuşdur.

Üçüncüsü, milli özünütəşkilin müxtəlif etnik mədəniyyətləri özündə ehtiva etməsi baxımından da multikulturalizmə yanaşa bilərik. Məlumdur ki, müasir Azərbaycan dövlətinin formalaşdığı ərazidə tarixən bir sıra azsaylı xalqlar sülh və mehriban qonşuluq şəraitində yaşamışlar ki, bu da həmin xalqların öz etnik milli-mənəvi dəyərlərini qorumaqla yanaşı, digər xalqla mədəni ünsiyyət dilinin formalaşması sayəsində mümkün olmuşdur. Təsadüfi deyidir ki, müstəqil Azərbaycan dövlətinin əsas ideoloji bazasını da ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş Azərbaycançılıq məfkurəsi təşkil etmişdir. Məhz Azərbaycançılıq ideologiyası ölkə ərazisində yaşayan hər bir xalqın etnik-milli kimliyini qorumaqla vahid ideya ətrafında birləşməsinə gətirib çıxardı. K.Abdulla bu barədə yazır ki, "Təbii olaraq, ulu öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır" (3).

Tarix boyu Azərbaycan mənəvi həyatında tolerantlıqdan xeyli danışmaq mümkündür. Bunlar, təbii ki, multikultural tərzin Azərbaycan cəmiyyətinə öncədən xas olmasına bir sübutdur" (2).

Təsadüfi deyildir ki, dünya mədəniyyəti xəzinəsinin ən fundamental incilərindən olan "Kitabi-Dədə Qorqud" eposunda da oğuzların həyat tərzi, davranışı, özgələrə – yaddinli, yaddilli və yadellilələrə münasibəti, oğuz cəmiyyətində qadın və kişi hüquqları multikulturalizm və tolerantlıq baxımından mühüm əhəmiyyət kəsb edir: "Azərbaycanlıların qəhrəmanlıq dastanları sırasında xüsusi yer alan ən qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud" dastanında maraqlı multikultural və tolerant əhvalın təsvirinə rast gəlirik" (1, 9). Belə ki, istər "Qanlı Qoca oğlu Qanturalı boyu"nda (5, 104-119) Qanturalının kafir qızı, yəni Trabzon təkurunun qızı ilə evlənməsi, "Oğuz bəyləri üçün dini və milli mənsubiyyət heç bir mənada özgəlik ifadə et"məməsi faktında, istər "Baybörənin

oğlu Bamsı Beyrək boyu"nda (5, 52-78) Beyrəyin xristian qızına söz verərək sözünə əməl etməsi müqabilində həlak olması faktında (1, 12) multikulturalizm və tolerantlığın çox şahanə nümunələri ilə qarşılaşırıq.

Klaasik Azərbaycan ədəbi düşüncəsini təhlil edərkən aydın olur ki, bu mətnlərdə milli, dini, etnik ayrıseçkilik deyil, bəşəri və humanist dəyərlərin təsviri və təbliği ön plandadır. Ümumiyyətlə, ədəbiyyatda multikultural dəyərlərin öyrənilməsi ilə bağlı mövcud nəzəri təcrübədən aydın olur ki, bu təhlillər bir neçə istiqaməti əhatə edir. Belə ki, ədəbiyyatda multukultural dəyərlərin öyrənilməsi ənənəvi mədəniyyət səviyyəsində, yeni tənqid isitiqamətlərində, mifoloji və arxetiplərin öyrənilməsini, formalist və feminist və başqa yanaşmalar kontekstində özünü göstərir (9, 23).

Klassik Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından olan dahi Nizami Gəncəvi yaradıcılığı, bəllidir ki, özünün ümumbəşəri konsepsiyası, fəlsəfi ideya və poetik-estetik dəyəri baxımından mühüm əhəmiyyət kəsb etməklə bərabər, bugünki həyatımız üçün də daim aktualdır. Onun poemalarında dünyanın ən müxtəlif xalqları və mədəniyyətləri bir arada, vahid fikir və ideya ətrafında təsvir olunmuşdur ki, bu da hələ XII əsrdə Azərbaycan ədəbi-bədii təfəkküründə mövcud olan multikultural və tolerant baxışın tipik örnəyi idi. "Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən bu şairin qəhrəmanları içərisində türk, fars, ərəb, çinli, hindli, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlirik. Humanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyətinə, dini görüşlərinə qarşı çıxmır. Onun qəhrəmanları ədalət, xalq xöşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırlar. İnsan şəxsiyyətinə, insan əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır" (6).

Nizami Gəncəvi yaradıcılığı üçün xarakterik olan bir nümunəyə diqqət yetirək:

Zəncinin zahiri qaradır ancaq,
Sən ağzından çıxan saf sözlərə bax.
Zənci dəmir kimi qara, parlaqdır,
Üzü qaradırsa ürəyi ağdır (7, 89).

Bu beytləri insan konsepsiyası aspektindən təhlil edən X.Əlimirzəyev yazır ki, "İnsan insana zahiri görkəminə, rənginə irqinə, ictimai vəziyyətinə görə qiymət verməməlidir. İnsan hər yerdə insandır. Bu ali, şərəfli adına görə o, həmişə böyük hörmətə, ehtirama, məhəbbətə layiqdir" (4, 50). Alimin verdiyi izahdan aydın olur ki, dahi şairimiz Nizami müasir dövrdə belə tez-tez rast gəlinən probelmlərdən birinə - rasizmə qarşı hələ öz zamanında qarşı çıxmış, poetik sözün qüdrəti ilə insanın mahiyyətini daxili dünyasında, kamal və ağlında, daha konkret desək, fikir və düşüncələrində axtarmışdır. Şair zənci obrazına mənfi münasibət bəsləyən, ona "yuxarıdan aşağı baxan" insanlara üzünü tutaraq diqqəti insanın daxili aləminə, ürək-könül dünyasına yönəldir. Şairin yanaşmasından aydın olur ki, yaradılışın əşrəfi olan insan hər zaman və hər yerdə ən yüksək qiymətə layiq olmalıdır. Buradan aydın olur ki, Nizami yaradıcılığının ümumbəşəriliyinin ən mühüm əlamətlərindən biri gerçəkliyi, onun ən müxtəlif səviyyələrini – fərdləri,

cəmiyyətləri, mədəniyyətləri multikultural və tolerant baxışlar bucağında dərk etməsi, anlamasıdır.

Yaxud başqa bir nümunədə şair deyir:

Ey müsəlman, öyünmə, atəşpərəst deyilsən,
Bir günəşin eşqindən zərrəcə məst deyilsən.
Kaş ki, hindli möbidtək dərk edəsən dünyanı.
Bu dünyaya uymadan tərk edəsən dünyanı (8, 81).

Orta əsrlər Azərbaycan ədəbiyyatı tarixinə hökmdar şair kimi daxil olan şəxsiyyətlərdən biri kimi Qazi Bürhanəddinin də yaradıcılığında multikultural və tolerant fəlsəfə üstünlük təşkil etmişdir. Əsasən qəhrəmanlıq və məhəbbət motivli ədəbi örnəkləri ilə diqqəti cəlb edən şairin həyata baxışlarında başqa dinlərə və məzhəblərə, onların daşıyıcılarına görmət və məhəbbət hiss olunur. Şair beytlərinin birində deyir:

Xəti Xızır, ağızı Məryəm, sözü İsa, ləbi Yəhya,
Özi Yusif, gözü Musa, zehi Adəm, zi Həvvadur (1, 56).

Ümumiyyətlə, klasssik Azərbaycan ədəbiyyatının ümumi mənzərəsini diqqət mərkəzinə gətirəndə aydın olur ki, bu dövr Azərbaycan ədəbiyyatı bir sıra cəhətləri baxımından multikultural fəlsəfə və tolerant baxışlar üzərində yüksəlmişdir. Əvvəla onu deyək ki, orta əsrlər Azərbaycan ədəbiyyatı üumumşərq müsəlman mədəniyyətinin tərkib hissəsi idi və bu mədəniyyətin ortaq mədəni dəyərlər xəzinəsi var idi. Ortaq ədəbi mövzular, ortaq mədəni mühit və ortaq mədəni qaynaqlar.

Bütün bu faktorlar, əslində, klassik Azərbaycan ədəbiyyatı üçün ortaq ədəbi mühit çərçivəsində ümumi obraz və rəmzlərin, süjet və motivlərin, mövzu və problemlərin yaranmasına, başqa sözlə desək, multikultural düşüncə və tolerantlığın formalaşmasına səbəb olmuşdur. Bir sözlə, klassik Azərbaycan ədəbiyyatı özünün bütün təbii cəhətləri – zamanı, məkanı, mahiyyəti ilə multikultural fəsləfəyə və tolerant baxışlara söykənir.

ƏDƏBİYYAT

1. Abdulla K. Ön söz. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. I kitab, Bakı: Mütərcim, 2016, 287 s.
2. Abdulla K. Məruzə. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin 27 yanvar 2016-cı il tarixli iclası. "525-ci qəzet" 10.02.2016-cı il tarixli nömrə.
3. Abdulla K. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=45058
4. Əlimirzəyev X. Nizami Gəncəvinin insan konsepsiyası. Bakı: Gənclik, 2001, 354 s.
5. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər nəşriyyatı, 2004, 376 s.
6. Multikulturalizmə giriş.
7. http://unec.edu.az/application/uploads/2015/07/multikulturalizme-giris.pdf

8. Nizami Gəncəvi. İskəndərnamə.İqbalnamə. Bakı: "Lider nəşriyyat", 2004, 256 s.
9. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Filoloji tərcümə. Bakı, Elm, 1981.
10. Reading Horizons. Multicultural Literature for Children and Young Adults: A Rationale and Resources.
11. http://scholarworks.wmich.edu/cgi/viewcontent.cgi?article=1408&context=reading_horizons
12. Behbood Mohammadzadeh. Incorporating multicultural literature in English language teaching curriculum/ Procedia Social and Behavioral Sciences 1 (2009) p. 23–27
13. Козлик И.В. Мультикультурализм и методологические проблемы литературоведения. Вестник Томского Государственного Университета. 2009, № 2 (6), стр., 41-58.

МУЛЬТИКУЛЬТУРАЛЬНЫЕ ЦЕННОСТИ И ТОЛЕРАНТНОСТЬ В КЛАССИЧЕСКОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

РЕЗЮМЕ

В статье анализируются вопросы мультикультурализма и толерантности в образцах классической азербайджанской литературы, являющейся сокровищницей духовной культуры нашего народа. Было отмечено, что философия мультикультуральных ценностей и толерантности нашла свое естественное отражение как в фольклоре, так и в письменной литературе древнего периода. В ходе анализа, наряду с широким использованием достижений современной научно-теоретической мысли применительно к данным понятиям, в том же ключе рассматривается и творчество представителей классической азербайджанской литературы.

MULTICULTURAL VALUES AND TOLERANCE IN THE CLASSICAL AZERBAIJANI LITERATURE

SUMMARY

In the article are analysed multicultural questions and tolerances in samples of the classical Azerbaijani literature, which are a treasury of spiritual culture of our people. It has been noticed, that the multicultural values' and tolerance's philosophy has found the natural reflexion both in folklore, and in the written literature of the ancient period. During the analysis, along with wide use of achievements of modern scientific-theoretical thought with reference to the given concepts, creativity of representatives of the classical Azerbaijani literature is the same way considered also.

PƏRİXANIM MURADOVA
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin
aparıcı məsləhətçi-şöbə müdiri

ABBAS SƏHHƏT YARADICILIĞINDA MİLLİLİK

***Açar sözlər**: ədəbiyyat, mədəniyyət, vətən, milli, mübarizə, şeir, qadın azadlığı*
***Ключевые слова**: литература, культура, родина, национальный, борьба, стихи, женский вопрос*
***Key words**: literature, culture, homeland, national, struggle, poems, women'sissue*

XX əsr Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan görkəmli şəxsiyyətlərdən biri də Abbasqulu Əliabbas oğlu Mehdizadədir. 1874-cü ildə Şamaxının Sarıtorpaq məhəlləsində yoxsul ruhani ailəsində dünyaya gələn Abbasqulu, sonralar həkimlik peşəsinə görə özünə "Səhhət" təxəllüsünü götürür. Onun atası molla Əliabbas yoxsul olsa da dövrünün nüfuzlu adamlarından sayılırdı və "Ətşan" təxəllüsü ilə şeirlər yazırdı.

A. Səhhət ədəbi fəaliyyətinə XIX əsrin 90-cı illərində başlamış, XX əsr Azərbaycan şeirinin yeni inkişaf mərhələsinə yüksəlməsində müstəsna rol oynamışdır. O, ailəsinin maddi imkansızlığı üzündən Şamaxıda açılmış yeni üsullu məktəblərdə oxuya bilmir. İlk təhsilini atasının yanında alır və 1881-ci ildən mollaxanada oxumağa başlayır. Bir neçə il orada ərəb və fars dillərini öyrənən A.Səhhət "Gülüstan"ı oxumuş, "Quran"ı isə tamamlamışdır.

A.Səhhətin xasiyyətindəki yüksək millilik elə kiçik yaşlarından özünü göstərmişdi. O, Şərq klassiklərinin yaradıcılığı ilə maraqlanır, Azərbaycan ədəbiyyatı dahilərindən Nizamini, Füzulini sevdiyi qədər Şərqin Sədisini, Firdovsisini də öyrənirdi. Səhhətin ərəb, fars və fransız dillərini mükəmməl bilməsi ona yaradıcılığında çox kömək edirdi. Onun bir sənətkar kimi formalaşmasında dünya görüşünün zənginliyinin böyük rolu olub.

Abbas Səhhət uşaq vaxtından düşüncəsi və zirəkliyi ilə öz həmyaşıdlarından seçilirdi. 1912-ci ildə hələ şairin öz sağlığında yazılmış tərcümeyi-halında qeyd olunmuşdur ki, "kiçik ikən nəhayət dərəcədə qüvveyi-hafizəyə malik imiş. Belə ki, hər bir şeri bir kərə oxuduqda xatırlarmış"(1.s.830).

A.Səhhət 1894-cü ildə atasının təkidi ilə dini təhsil almaq üçün İranın Məşhəd şəhərinə gedir və Mirzə Cəfər mədrəsəsində bir il oxuduqdan sonra tibbi təhsil almaq arzusu ilə oradan Tehrana gəlir. A.Səhhət atasının dostlarından birinin köməkliyi ilə Tehran darülfünunun tibb şöbəsinə qəbul olunur və təhsil aldığı dövrdə təlim-tərbiyəsi, istedadı və çalışqanlığı ilə darülfünunun müdiri yanında hörmət qazana bilir. A.Səhhətin yaradıcılığını nəzərdən keçirdikdə, İranda keçirdiyi günlərini həyatının ən ağır günlərdən hesab etdiyi məlum olur.

Altı illik tibbi təhsilini başa vuran A.Səhhət 1900-cü ildə həkimlik diplomu alır. Qaşqay xanı Zərğamüs-Səltənə sarayına savadlı bir həkim istəyi ilə darülfününun müdirinə müraciət edir, müdir isə savadlı həkim kimi A.Səhhəti məsləhət görür. O, Qaşqay xanı Zərğamüs-Səltənənin sarayında az müddətdə həkimlik edə bilir. Bir tibbi mübahisə nəticəsində sarayda xan tərəfindən döydürülərək təhqir olunan Səhhət, artıq sarayda qalmağın mümkün olmadığını görür və 1901-ci ildə Şamaxıya qayıdır. Şamaxının dindar ruhani mürtəceləri elə İranda olduğu kimi onu heç də yaxşı qarsalamırlar. O, xeyli müddət işsiz qalır və ağır yoxsulluq içərisində yaşayır. Qardaşı onun dolanmağına kömək edirdi, amma saatsaz işləyən qardaşı da imkanlı deyildi.

A.Səhhət İranda olarkən İranın böyük şəhərləri Xorasan, Tehran, Şiraz, İsfahanı və digərlərini gəzir və getdikcə dərinləşən böhran içərisinə düşən bu ölkədə yaranan mədəniyyətsizliyi, tərbiyəsizliyi, ağır iqtisadi və sosial şəraiti görürdü. Bu da onda İrana qarşı bir nifrət, bir kin oyandırmış və insanlara verilən ağır cəza qulaq, əl kəsmək, başa yanan manqal keçirmək kimi cəza üsullarını rəzalət adlandırmışdı.

A.Səhhət dayısı qızı Səkinə ilə evlənir, lakin, xasiyyətlərinin uyğun gəlməməsi üzündən ayrılmalı olur. İkinci dəfə Nisə xanım adlı bir kasıb qızı ilə ailə qurur. İkinci xanımın xoş rəftarı, ərinə sədaqəti, onun yaradıcılığına dəyər verməsi Səhhəti daha da ruhlandırır, o Nisə xanıma yazıb oxumağı da öyrədir. Sonralar Nisə xanım həyat yoldaşının yaradıcılığı ilə daha yaxından tanış olur, əsərlərini maraqla oxuyur və hətta onun ilk oxucusu məhz Nisə xanım olur.

Ьmumiyyətlə, A.Səhhət yaradəcələpəna nəzər yetirdikdə юairin dьюьncələrinin, fikirlərinin nə qədər yenilikзi, mьasir oldupu gцrьnьr. Bu gьnki həyatəməzə sanki o zaman gцrən юair, xalqənən azad gьnlərini gцrmək arzusu ilə зaləюərdə. Coюoub-daюoan vətən sevgisi, xalq məhəbbəti onu yeni ideyalarla xalqəna xidmət etməyə ruhlandərərdə. Gəncləri də milli ruhda maarifləndirmək, onlarə iюəqlə sabaha aparmaq A.Səhhətin ən ьmdə arzusu idi. Цzьnə iю tapa bilməyən юair həkimliyi ilə ailəsini birtəhər dolandərərdə. Hətta o цzьnьn imkansəzləpənə, acizliyini belə ifadə edir:

Fikri ali, bədəni xar, zəlil,
Adə Səhhətkən цzь xəstə, əlil (2.s.301).

A.Səhhət yorulmadan çalışır, qəlbində alovlanan azadlıq, qurtuluş yolunun olacağına inanırdı. Onun əsərlərinin qəhrəmanları: Fəxrəddin, İsgəndər, Fərhad və Rzaqulu xan da bu mübarizənin qəhrəmanlarından idilər. Böyük ideyalar sahibi olan bu qəhrəmanlar nəyin uğrunda mübarizə apardıqlarını gözəl anlayırdılar. A.Səhhət vətənə olan bağlılığını öz qəhrəmanlarının surətində göstərirdi.

A.Səhhət 1901-ci ildə Mirzə Ələkbər Sabirlə tanış olur. Onların arasında başlanan tanışlıq sonradan möhkəm dostluğa çevrilir. M.Ə.Sabirin ağır şəraitdə yaşaması, xəstəlikdən əziyyət çəkməsi A.Səhhəti bir dost kimi narahat edirdi. Özü yoxsul vəziyyətdə yaşayan Səhhət 1912-ci ildə M.Ə.Sabirin şeirlərini

“Hophopnamə” adı ilə kitab şəklində nəşr etdirmişdir. Bunun maraqlı tarixçəsi vardır. Sabir hələ Tiflisdə olarkən yazmış olduğu məktubunda “Ölürsəm, qəm etmərəm, çünki bilirəm siz mənim asarımı təb etdirərsiniz” deyə qeyd etmişdi. 1911-ci ildə vəfat edən şairin son vəsiyyətinin unutmayan A.Səhhət onun şeirlərinin nəşr etdirir(1.s.832).

A.Səhhətin Sabir poeziyasına sonsuz məhəbbətinin olması ondan irəli gəlirdi ki, Sabir də mübariz ruhlu idi. O, da xalq üçün yaşayan, yazan, hər cür məşəqqətə dözən və sözünün qüdrəti ilə xalqa böyük mənəvi xeyir gətirən, əsl fədakar vətənpərvər idi. A.Səhhət daxilən onu narahat edən məsələləri məhz Sabir yaradıcılığında təzahürünü görürdü. Onların arasında olan səmimilik bəlkə də bu səbəbdən möhkəm dostluğa çevrilmişdi.

Səhhətin юeirlərindən əsl inqilab qoxusu gəlirdi. Юairin yaюadəpə dцvrь nəzərə alsaq, zarizmin hцkmranləq etdiyi bir vaxtda bu cьr mцvzulara toxunmaq elə də asan deyildi. A.Səhhət xalqə sanki aюkar azadləpa səsləyirdi. Onun milli ruhda yazəlmәю əsərləri bunu deməyə əsas verir.

1905-ci il inqilabə zox sьrətlə yayəlaraq Rusiyanən hьdudlarəndan kənara zəxdə və inqilabən təsiri ilə Zaqafqaziyada, eləcə də Azərbaycanda bцuьk inqilabə mitinqlər, zəxəюlar baюladə. Bu inqilab artəq zarizmin sьtunlarənə tərpətmiюdi. Yoxsul, zəhmətkeю, fəhlə sinfinin tətilləri Azərbaycanən bьtьn regionlarəna gəlib zəatmәюdə. Dəmiryolzular, neft mədən iюziləri, dənizzilər və mьxtəlif peюə sahibləri inqilabi mьbarizəyə qalxaraq qorxmadan mitinqlərə qoюoulurdular. Bu inqilab цzьnь mədəniyyət sahəsində də gцstərməyə baюladə. Qəzet və jurnallarən nəюori, tirajə gьn-gьndən artərdə. Xalq zətin sosial durumda yaюasa da baю verən hadisələrlə maraqlanər və sabah nə olacapənə цyrənməyə can atərdə. A.Səhhət də digər ziyalələr kimi Юamaxənən kəndlərini qarəю-qarəю gəzərək insanlarə zarizmin fitnə-felinə uymamapa zapərər, bu gьn baю verən hadisələrin kцkьndə nə kimi maraqlarən dayandəpənə avam kьtlələrə anlatmapa zaləюərdə.

1905-ci il inqilabi ədəbiyyatda bцuьk bir fəaliyyət və yenilik hərəkatə oyatdə, mьasir, ictimai mцvzular qəzəl və mərsiyə ədəbiyyatənə geriyə atdə. Ədib və юairlərin zoxu, o cьmlədən, Abbas Səhhət yeni ədəbiyyat yolunda zaləюmapa baюladə(2.s.298).

Ənqilab Azərbaycanən ictimai-siyasi həyatəna qьvvətli təkan verdi. Ədəbiyyatda realizm ədəbi məktəbi ilə mьrtəce romantizm cərəyanə arasənda bir mьbarizə yaranmәюdə. Artəq Azərbaycanən bцlgələrində kəndlilərlə istismarzələr arasənda toqquюomalar baюlamәюdə. Sabirin bu zamanda səyahətdə olmasə A. Səhhəti belə bir vaxtda Юamaxəda tək qoymuюdu. Həmsцhbəti olan dostunun yanənda olmamasə ьzьndən o цzьnь tənha hiss edirdi. Dərdini bцlməyə elə bir dostu yox idi.

Tənhaləqdan səxələn A.Səhhətin Юamaxəda kezirdiyi bu həyat zox davam etmir. Nəhayət, o dцvrьnьn nьfuzlu adamlarəndan həmfikir, həmməsləк Apa Əlibəy Nasehlə və Məhəmməd Tərrahla tanəю olur. Onlarən tanəюlərpə sonradan

mцhkəm dostlupa зevrilir. Эюsizlikdən səxəlan Səhhət tanэю oldupu bu adamlarla gьnьnь maraqlə gцrьюlərdə keзirirdi.

A.Səhhət yalnəz 1905-ci il inqilabə dцvrьndə ictimai-pedaqoji fəaliyyətə baюolaya bilir. Bu zamandan etibarən A.Səhhət Юamaxənən mədəni-maarif iюlərinin fəal iюtirakзələrəndan biri olur(3.s.12).

1905-ci il inqilabə onun yaradəcələpəna yeni bir ruh, yeni bir həvəs gətirmiюdi. Belə ki, A.Səhhət ictimai bərabərsizliyi, nadanləpə, cəhaləti lirikasənda gцstərməyə zalэюərdə. A.Səhhət sцzьn qьdrətini gцzəl anlayərdə. O, mьasirlərinin yaradəcələpəna dəyər verən, onlarən юəxsində həm də qələmin qьdrətini yьksək tutan sənətkar idi.

Юair "Fəryadi-intibah və ya amalə-vətənpərvəranə" adlə юeirində zamanən apərləpənə, zəhmətkeю siniflərin gьzəranənə, dərdini kədər dolu misralarla anlatmapa zalэюaraq deyirdi:

Ayıl, ey ümməti-mərhumə, ayıl!

Ayıl, ey milləti-məzlumə, ayıl!

Milləti hürriyyətə səsləyən şair cəmiyyətə lənətlər yağdırır, etirazını bildirirdi. Lakin, bununla yanaşı bəzən bədbinliyə də qapılan anları olurdu. A.Səhhət özünü bu proseslərin həyata keçməməsində zəif, gücsüz, hətta günahkar bilirdi. Bu küskünlüyün fonunda onun şəxsi problemləri deyil, yalnız millətin, xalqın mənafeyi dayanırdı.

A.Səhhət pedaqoji fəaliyyəti ilə ədəbi fəaliyyətini paralel aparırdı. O, həkimliklə də məşğul olur, imkansız ailələrin xəstələrini pulsuz müalicə edir, özü yoxsul yaşasa da onlara dərmanlarının alınmasında köməklik göstərirdi.

A.Səhhət Юamaxəda yaюamasəna baxmayaraq tez-tez Bakэya gəlir, zəhmətkeю fəhlə sinfi ilə gцrьюьr və onlarən apər həyat юəraitini əsərlərində qələmə alərdə. "Sənəq saz", "Əhmədin qeyrəti" poemalarə belə əsərlərdəndir.

A.Səhhət ən yaxən dostu M.Ə.Sabirin yaradəcələpənə "ədəbiyyatəməzda bцyьk inqilab" adlandərərdə. O, bunu юairin ədəbiyyata gətirdiyi "yeni məzmun" və "yeni ibarələrdə", yəni yeni ideya və forma xьsusiyyətlərində gцrьrdь. (6.s.247).

A.Səhhət Sabirin yaradıcılığında olan yüksək millilik ruhunu sevirdi. Sabirin şeirlərində ölkədə baş verən haqsızlıqları incə, saf, aydın duyğularla qələmə aldığının, şairin xalqı gülə-gülə ağlatdığının şahidi olurdu və o da Sabir kimi yazmaq istəyirdi. Hətta qələmini bu yolda, satira janrında sınadı da. Hər bir işdə hər kəsin öz yolu olduğu kimi, ədəbiyyatda A.Səhhətin özünün yolu vardır.

Sabir yaradıcılığına dərin ehtiram bəsləyən Səhhət Sabirdən bəhs edərkən onun satiralarına işarə edib deyirdi: "Sabir Azərbaycan ədəbiyyatında ən əvvəl yeni cığır açdı ki, ondan müqəddəm kimsə o gözəl şivədə yazmamışdı"(1.s.857).

A.Səhhət Azərbaycan mədəniyyətinin beşiyi, klassiklərin vətəni olan Şamaxının mədəni-maarif işlərində yaxından iştirak edir, hətta bu işlərdə fəallardan hesab olunurdu. Onun əməli fəaliyyətinin əsasında millilik dayanırdı.

Səhhət tənqiddən də incimirdi. Onun yaradıcılığında Qori Müəllimlər Seminariyasının nüfuzlu pedaqoqu Firidun bəy Köçərlinin mühüm müsbət təsiri olmuşdur. 1903-cü ildə A.Səhhət və dövrünün sayılan şairlərindən dostu Naseh F.b.Köçərli ilə tanış olur. F.Köçərlinin onlara əsərlərini sadə, anlaqlı dildə yazmağı məsləhət görməsini hər iki şair yüksək dəyərləndirir.

Ana dili fənnindən dərs deyən юair, юagirdlərdə bu dərsə maraq oyatmaq ьзьn yuxarə siniflərdə Azərbaycan ədəbiyyatəna geniю yer verirdi. Nizami, Xəqani, Fьzuli və xьsusilə Sabir onun зox sevdiyi və dərslərində tez-tez bəhs etdiyi ədəbi simalar idi(3.s.20).

Qeyd edildiyi kimi цlkədə cərəyan edən siyasi proseslər A.Səhhət yaradəcələrəna da təsirsiz цtьюmədi. Bu proseslər artəq yeni юeir formasənən yaranmasənən, poeziyanən inkiюaf mərhələsini уьksəltməyin, dцvrьn tələblərinə uypun daha dərin mцvzulardan yazmapən, savadlə və genio məlumatlə olmapən zamanə зatdərənə, bunun ьзьn зoxlu mьtaliə etməyin vacibliyini tələb edirdi. Зьnki, Azərbaycanən digər qəzalarənda oldupu kimi Юamaxəda da kцhnə юeir ənənələri (qəzəl, mərsiyə, qəsidə və.s.P.M) qalmaqda idi. Tiflisdə və Bakəda inkiюaf edən realist ədəbiyyatən səsi Юamaxəya gec gəlib зatərdə. Bununla belə yaradəcələqla məюopul olan A.Səhhət ədəbi iюindən əl зəkmirdi. A.Səhhət yaюoadərə dцvrьn qayda-qanunlarəna tabe ola bilmirdi. Azadləq, mьstəqillik uprunda mьbarizə aparsa da зox vaxt bu onun arzuladərə kimi olmurdu.

1907-ci ilin yayənda ziyalələr Юamaxəda yeni bir qiraətxana aзərlar. Kitablarən toplanmasə iюində xьsusi fəalləq gцstərən Səhhət, qiraətxananən aзələюoə gьnь genio bir məruzə edərək, belə mədəniyyət ocaqlarənən əhəmiyyətindən danəюər. (3.s.17).

Юamaxəda inqilabdan sonra mədəni yeniliklərdən biri də realni məktəbin aзələюoə oldu. Milli hissiyyatə gьclь olan юair, millətinin gələcəyini iюəqlə gцrmək arzusu ilə hər sahəyə maraq gцstərir, xьsusilə təhsilin, səhiyyənin tərəqqisinə zaləюərdə. O, Azərbaycan ədəbiyyatə ilə yanaюo rus və xarici цlkələrin ədəbiyyatə ilə də maraqlanərdə. Azərbaycanən ilk mьtəxəssis mьtərcimlərindən hesab edilən A.Səhhət, 1907-ci ildən etibarən Krəlov, Puюkin, Lermantov, Nekrasov, Qoqol, Saltəkov-Юedrin, Ostrovski, Qorki kimi rus ədəbiyyatənən dahilərinin əsərlərindən tərcьmələrə baюolayər və az zaman iзərisində зoxlu tərcьmələr edir.

A.Səhhətin yaradəcələrə genio əhatəli olub. On beю ilə qədər mьəllimlik etmiю Səhhət mьəllimliklə yanaюo məqalə, юeir, hekayə, poema, yazər, tərcьmələr edir və eyni zamanda millətin saplamlərə naminə həkimlik borcunu da yerinə yetirirdi. Əmkansəz xəstələrə gцstərdiyi kцməkliyi ona el arasənda "yaxюo adam" adənə qazandərməю, o Юamaxə əhalisi tərəfindən yaxюo insan və gцzəl həkim kimi sevilmiю və yaddaюolarda belə qalməюodər.

A.Səhhət ən yaxən dostu M.Ə.Sabirlə Юamaxəda yeni ьsullu "rus-tatar" məktəbi aзmaq qərarəna gəlir və məktəbin aзəlmasəna icazə almapə цhdəsinə

gцtьrən A.Səhhət bunun ьzьn 1908-ci ildə Bakəya gəlir. Lakin əlaqədar dцvlət idarələri və zar məmurlarə юairin xahiюini rədd edir. Səhhət qəmgin halda Юamaxəya qayədər(3.s.22). Məktəb azmapa qərarlə olan юair ruhdan dьюməyərək bunun ьzьn baюqa yollar aramapa baюlayər.

Mьxtəlif mətbuat orqanlarə ilə əməkdaюləq edən A.Səhhət mьasirliyin tərəfdarə olmaqla yanaюə milliliyin qorunmasəna bцyьk əhəmiyyət verirdi. O "Dəbistan" və "Məktəb" kimi məcmuələrə tərbiyəvi xarakterli yazələr gцndərirdi. A.Səhhətin юairliyi ilə yanaюə gцzəl nasirlik qabiliyyəti də var idi. Yaюadəpə mьhitin apər юəraitini əsərlərində əks etdirən Səhhəti ən zox narahat edən məsələlərdən biri kizik yaюlə qəzlarən kor-koranə zorla ərə verilməsi idi.

A.Səhhətin əsərləri hələ sovetlər dцnəmində bir nezə dəfə nəюr olunmuюdu. "Məprib gьnəюləri", "Sənəq saz", "Neft fantanə", "Qaragьnlь Həlimə", "Yoxsulluq ayəb deyil" və s. kimi əsərlər o gьnьn tələbi ilə yazəlmәю əsərlərdir.

O dцvrьn yazəzə və юairlərinin bir zoxu bədii yaradəcələqda burjua ədəbiyyatə ilə apardəqlarə mьbarizəni lazəm gələndə tənqid sahəsinə kezirir və sənətin mьxtəlif məsələlərinə həsr olunmuю məqalələr yazər, bununla da qabaqcəl tənqidin inkiюafəna kцmək edirdilər.

XX əsr demokratlarənən əsərlərində sənətkarən ictimai həyatda rolu ədəbiyyatən ideyalələpə məsələsi ilə birgə həll edilirdi. Yeni əsrin demokratik tənqidi yazəzənə təkcə qabaqcəl ideyalarən carəzəsə hesab etməklə kifayətlənmirdi, onu həm də xalqa baюzələq edən, onun inkiюafəna istiqamət verən ictimai xadim kimi təqdim edirdi.

Azadlığın bir gün qələbə çalacağına inanan şair qəlbinin ağrıları yazdığı şeirlərində göstərməyi bacarırdı. O, müasirlərini gözü açıq olmağa, onları daim millətin yanında görmək arzusu ilə bir çağırış edirdi. Millilik hissi bütün vücudunu saran şair çox gözəl anlayırdı ki, xalqı cəhalətdən oyandırmağın tam zamanıdır. Dünyada baş verən ictimai, siyasi və mədəni proseslər bir millət olaraq bizim də ortalığa çıxmağımıza fürsət yaratmışdı. Şair "Şərarə" şeirində qələmi "yazmaqda atəşbar olmağa" çağırır, özü isə "yanar vulkana" bənzər fikirlərini cəsarətlə deyən bir sənətkar olmaq istəyirdi. O, üzünü düşmənlərinə, "nəfəsini qanlı əllərlə tıxayanlara" tutaraq deyirdi:

Şişə çəksəz də diriykən ətimi,
Atmaram mən vətənü millətimi(4.s.209).

Əsərlərinin əsas mцvzusunu vətən, xalq, millət və s. təюkil edən юairin amalə, əqidəsi yalnəz azadləq idi. Azadləq eюqi ilə alәюəb-yanan юairin adənə Azərbaycan ədəbiyyatə tarixində bir zox vətənpərvər юair və yazəzələrla bir sərada qeyd edə bilirik.

A.Səhhət XX əsr Azərbaycan şeirində özünəməxsus orijinal mövqe tutmuşdu. O, nə Sabir idi, nə də Hadi idi, nə Sabir kimi həyatı satirik vasitələrlə əks etdirir, nə də Hadi kimi fəlsəfi ümumiləşdirmələrə çox meyl göstərirdi. Şair bəzən realist üslubda Vətənin təbiətinin gözəl lövhələrini çəkirdi. A. Səhhətin ən

məşhur şeirlərindən olan "Vətənimdir" şeirində şair sanki Vətən məhəbbətini, millət sevgisini, ürəyini göynədən ağrı-acısını bu misralara boşaltmışdı.

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, Vətənimdir, vətənim.

A.Səhhət bu şeirdə Vətəni, onun milli dəyərlərini o qədər gözəl vəsf etmişdi ki, Vətən anlayışını anlamayan belə bu şeirdən o məhəbbəti görə bilir. Abbas Səhhət sözün əsl mənasında həqiqi milli şair idi. Onun həyatı bütünlüklə fəal maarif xadiminin, xalqın azadlığı üçün çalışan, həssas qəlbli bir vətənpərvərin həyatı idi. Baxmayaraq ki, o müasirliyə yüksək qiymət verirdi, lakin xalqın milli dəyərlərinə daha diqqətlə yanaşırdı.

A. Səhhətə görə həqiqi sənətkar vətəndaş olmalı, xalqın dərdinə yanmalı, qeydinə qalmalıdır. Əsl vətənpərvər xalqının ehtiyaclarını görüb ona qurtuluş yolunu göstərməlidir. A.Səhhətin yaradıcılığının əsasında dayanan millilik onun həyatında da özünü göstərirdi. Şair dönə-dönə yazırdı ki, həqiqi sənətkar xalqın azadlıq mübarizəsinə başçılıq edən ictimai xadim olmalıdır, o cəmiyyətin nöqsanlarını, çətinliklərini görüb onları aradan qaldırmaq yollarını göstərməyi bacarmalıdır. Səhhət müasiri Sabiri belə sənətkarlardan hesab edirdi. O, böyük satiriki xalq xadimi kimi, xalqın arzularını, dərdlərini dərindən duyan əsil vətəndaş kimi təsvir edirdi(4.s.207).

Xalqın savadlanması uğrunda apardığı mübarizədən bir an da olsa çəkinməyən Səhhət, əsərləri ilə millətin milli ruhunun oyanmasında, onların dünyanı və özünü dərk etməsində müstəsna rol oynamışdı. Milli ruhlu şair bir neçə dram əsərləri ilə də ədəbiyyatımızda iz qoymuşdu. Onun "Cəhalət səmərəsi, yaxud yetimin xoşbəxtliyi" adlı dram əsəri maraqlı mövzu baxımından sevilmişdi. A.Səhhətin Azərbaycan uşaq ədəbiyyatının yazılmasında da xüsusi xidməti olmuşdu. "Tağı və Nağı" onun ilk uşaq pyeslərindəndir.

A.Səhhətin həyata baxışında, ədəbi görüşlərində sözsüz ki, 1905-ci il inqilabının böyük təsiri olmuşdur. Bu inqilabın başlanması sanki onun yaradıcılığında yeni bir dövrün əsasını qoydu. O, xalqın bu inqilabi mübarizəyə həvəslə qoşulduğunu, artıq millətin şüurunun oyandığını görür və bütün bunlardan ilhamlanaraq ən yaxın dostu olan Mirzə Ələkbər Sabirlə bu mübarizədən kənarda qalmamağa çalışırdı. Şamaxının mədəni həyatında qızğın fəaliyyət özünü göstərirdi. Səhhət də müasirləri kimi bu fəaliyyətin daha da genişlənməsi üçün, xalqı çarizmin törətdiyi erməni-müsəlman qırğınlarına getməməyə çağırır və erməni millətçilərinin fitvasına uymamağa çalışırdı.

1906-ci ildə Şamaxıda yeni açılmış məktəbdə dərs deməyə başlayan A.Səhhət, şagirdlərə həm Azərbaycanın, həm də rus klassiklərinin yaradıcılığını öyrədirdi. Onları Nizami, Füzuli, Sabir kimi ədəbi simalarla yanaşı, Puşkin, Lermantov, Qoqol və digər şair və yazıçılarının yaradıcılığı ilə də tanış edirdi.

A.Səhhət Azərbaycan klassik ədəbiyyatının dərindən öyrənilməsinə böyük əhəmiyyət verirdi. Azərbaycan və Şərq klassik ədəbiyyatına müsbət münasibət

Səhhətin bədii yaradıcılığında olduğu kimi, ədəbi görüşlərində də üstün cəhətlərdən biri idi. O, klassik ədəbiyyata bir irs kimi, xalqın mədəniyyət tarixinin mühüm bir sahəsi kimi baxırdı. Məsələn, Səhhətin tez-tez Nizamiyə müraciət etməsi, ondan misallar gətirməsi, Sədi və Hafizə şeirlər həsr etməsi, Firdovsi sənətinə yüksək qiymət verməsi, Füzulinin: "Dəhənin(qönçə ağız-P.M) dərdimə dərman dedilər cananın" misrası ilə başlanan qəzəlinə tərbi(dördləmə-P.M) yazması klassik ədəbiyyata bağlı olduğunu və bu ədəbiyyatdan öyrəndiyini sübut etməkdədir. (6.s.243).

A.Səhhətin düşüncəsinə görə klassik ədəbiyyat millətin kimliyidir. O, bu kimliyin qorunması yolunda böyük əmək sərf etmişdi. A.Səhhət hər sözündə xalqının dərdini deməyə, vətənə, millətə olan sevgisini göstərməyə çalışır, bu yolla mövcud quruluşa üsyan edirdi. Şair hakim siniflərin xalqı əsarətdə saxlamaq məqsədilə ədəbiyyatdan istifadə etməsini, özlərinin rahat həyat yaşamaları üçün şairi əllərində bir alətə çevirməyini əsərlərində göstərirdi. Xalqının gələcəyi uğrunda mübarizə əzmi ilə yazıb, yaradan A.Səhhət olmazın əziyyətlərə məruz qalsa da mənafeyindən dönməmişdi. O, yeni məktəblərin, kitabxanaların açılmasın yolunda böyük zəhmət çəkmiş və 1907-ci ildə Şamaxıda qiraətxananın açılmasında yaxından iştirak etmişdi. Sonralar Şamaxı ziyalılarının görüş və müsahibə yerinə çevrilən qiraətxananın bağlanmasına qəza naçalniki Juprinski tərəfindən əmr verildi və bu işlə əlaqədar hətta A.Səhhətin evində axtarış da aparıldı.

A.Səhhət bu qədər təqib olmasına baxmayaraq sanki bir inqilabçı şair vəzifəsini yerinə yetirirdi. O, əsil milli vətəndaş idi. Sözlə arzusunu xalqa çatdıran şair kəsərli sözün həyatda böyük rol oynadığını bilirdi. Ən güclü əsərlərindən olan "Sınıq saz" şeirində o sözün qüdrətinin nə qədər güclü olduğunu göstərir:

Eşq zənciri qırıldı yol açın!
Ey uşaqlar, hololo gəldi qaçın! (5.s.279).

Azərbaycan mədəniyyət tarixində xüsusi dəsti xətti olan A.Səhhət dərsliklər yazılmasında və nəşr olunmasında da böyük əmək sərf etmişdir. Azərbaycan məktəblərinin dərsliklərə çox böyük ehtiyacı olduğunu görən A.Səhhət M.Mahmudbəyovla birlikdə "Yeni məktəb" dərsliyi tərtib edir. Dərslikdə rus ədəbiyyatından tərcümələr yer almışdır ki, bunların da çoxu A.Səhhətə aid idi. O, bir neçə mətbu orqanları ilə sıx əməkdaşlıq edirdi. "Həyat", "İrşad", "Məlumat", "Dəbistan", "Rəhbər", "Məktəb", "Zənbur" və s. mətbu orqanlarında mütəmadi olaraq yazıları dərc olunurdu. A.Səhhət müasirləri kimi mətbuatı xalqın inkişaf etməsində ən əsas yollardan hesab edirdi. Hələ 1911-ci ildə S.Hüseyn yazırdı: "Mətbuat bir millətə, bir qövmə nəf verər ki, o millətdə eşidən qulaq, dərk edən baş və yaxşını yamandan təmyiz (ayıran, yol göstərən-P.M) verən əql və fikir olsun...Mətbuat millətin dili məqamındadır"((4.s.105).

Mətbuatı xalqla əlaqə saxlamağın ən yaxşı üsulu hesab edən A.Səhhət və dövrünün azadlıq mücahidlərinin əksəriyyəti inqilabın mətbuatsız, mətbuatın

inqilabsız olmasını təsəvvür etmirdilər. Onlar düşünürdülər ki, mətbuatı olmayan millətin mövcudiyyəti, istiqbalı qətiyyən mümkün deyil. Mətbuat milləti azadlığa çıxara biləcək yeganə vasitədir. Mətbuat inqilab, azadlıq, müstəqillik, ədalət və s. bir-birinə bağlıdır. Bakıda mətbuatın geniş yayılması, qəzet və jurnallara olan tələbatı artırdı. Baxmayaraq ki, fəhlə sinfinin, yoxsul cəmiyyətin yaşayış şəraiti yaxşı deyildi, bununla belə mətbuata tələbat var idi.

A.Səhhət müasirləri kimi bu məqamdan istifadə edir və millətin gələcəyi naminə risklərə gedirdi. O, xalqı ayıq olmağa, hüquqlarını bilməyə səsləyirdi. Bu yolda A.Səhhətə rus mətbuatı ilə tanışlığının çox böyük köməyi dəyirdi. O rusdilli müəllim dostlarının köməkliyi ilə rus dilini də mənimsəməyə çalışırdı. Daha sonra əldə etdiyi rus mətbuatından tərcümələr edərək, Rusiyada və ölkəmizdə baş verən hadisələr haqqında xalqa məlumat verirdi. Savadsız əhali arasında güclü təbliğata ehtiyac olduğunu görən A.Səhhət savadsız, avam kütlənin maariflənməsi yolunda çalışırdı. Xalqın mədəniyyətini inkişaf etdirmək üçün ilk növbədə istedadlı adamların işləyib, çalışmasına lazımı şəraitin yaradılması vacib idi. Bunun üçün maarifçilik işi aparmaq gündəmdə idi. Bu da birbaşa ictimaiyyətin vəzifəsi idi desək, yanılmarıq. Çünki, cəmiyyətin əsas hissəsini sadə əhali təşkil edirdi, bu da özlüyündə cəmiyyətin çoxluğu demək idi. Azərbaycan xalqının sənətkara verdiyi dəyərin müqabilində onları mühafizə edən elə sadə xalq kütləsi olurdu.

Millət və xalq vahid, birtərkibli deyildir. F.Köçərli də xalqı eyni tərkibli bir kütlə kimi təsəvvür etmirdi. O, müasir cəmiyyəti iki hissəyə bölürdü: bir "zülm və təcavüz edən", həyatın mənasını istismarda görən, rəiyyətin qanını soran hakim siniflərə, bir də "mayeyi-həyatımız və səbəbü-eyşi zindəganımız olan "qara rəiyyətə", əzilənlərə. Bir demokrat kimi F.Köçərli "qara rəiyyəti" müdafiə edirdi(4.s.214).

A.Səhhətin də fikri, düşüncəsi belə idi. Müasirləri ilə fikirləri üst-üstə düşən A.Səhhət millətini hər kəsdən, hər şeydən uca tuturdu.

1908-1912-ci illərdə Səhhət yaradıcılığında realizmə qüvvətli meyl oyanır və o yaradıcılığında mühüm yer tutan bir neçə realist əsərlər meydana gətirir. Bu əsərlərdən "Əhmədin qeyrəti" poeması, "Cəhalət səmərəsi" pyesi, "Müsəlman ürəfaları"(ağıllı, mərifətli adamlar-P.M)", "Özlərini sevənlərə", "Alimnümalar(yalançı alimlər-P.M), "Yay səhəri", "Əkinçi nəğməsi" və s. misal göstərə bilərik. Bu əsərlərlə yanaşı A.Səhhət mövhumatı və tüfeyli din xadimlərini tənqid edən şeirləri ilə də ədəbiyyatda iz qoymuşdu. O, dini əllərində bir vasitə kimi istifadə edərək avam, elmdən uzaq xalqı istismar etməyə çalışan dırnaqarası din xadimlərini tənqid etməkdən çəkinməyirdi. Mədəniyyətsizliyin, geriliyin səbəblərini araşdırmağa çalışan şair cəmiyyətin inkişafına mane olan bu ictimai bəladan millətin canını qurtarmağı arzulayırdı. O, bütün xalqı bu yolda çalışmağa çağırırdı. Lakin zaman böyük qayələr sahibini şikəst etmiş, yaşadığı mühit onun qanadını əzmiş, qələmini zəncirləmişdir. Şair:

Vətənə, millətə sanma deyiləm dildadə,

Yazmaq olmaz fəqət olmazsa qələm azadə. (1.s.845)

deyərək hayqırırdı, amma səsini eşidən yox idi.

Gələcək nəsillərin savadlanması, təhsillə məşğul olması üçün uşaq ədəbiyyatına böyük ehtiyac duyulurdu. Onun uşaq və gənclər üçün əsərlər yazması, lirik şeirlər, səhnə əsərləri, təmsilləri meydana gətirməsi bir müəllim olaraq əmək fəaliyyətində təlim-tərbiyə metodu kimi köməyinə gəlirdi. Kiçik yaşlı uşaqlara və gənclərə həsr etdiyi əsərləri "Dəbistan" və "Məktəb" uşaq jurnallarında, həmçinin "Türk əlifbası","İkinci il", və "Yeni məktəb" adlı dərsliklərdə nəşr olunmuşdu. Uşaq əsərlərində mollaxanaların mövcudluğunun gənc nəslin təlim-tərbiyəsində mənfi rolu olduğunu, belə təhsil ocaqlarının uşaqları şikəst etdiyini də göstərirdi(7).

Fədakar maarifpərvər, müəllim, tərcüməçi, şair Abbas Səhhət Azərbaycan mədəniyyət tarixini yazanlardan biridir.

A.Səhhət bir çox Azərbaycan ədəbiyyatının romantizm nümayəndələri kimi arzuladığı azadlığı görməsə də, gələcəyə olan ümidlərini itirmədi. Bilirdi ki, gec ya tez Azərbaycan azad günlərə qovuşacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi, Bakı,1960 .s.906.
2. M. Cəlal, F. Hüseynov: "XX əsr Azərbaycan ədəbiyyatı", Bakı, 1969, s.347.
3. K.Talıbzadə: "Abbas Səhhət", Bakı, 1955, s.194.
4. K.Talıbzadə: "XX əsr Azərbaycan tənqidi", Bakı1966, s.538.
5. K.Talıbzadə: "Ədəbi irs və varislər", Bakı,1974, s.318.
6. K.Talıbzadə: "Tənqid və tənqidçilər", bakı, 1989, s.490.
7. https://az.wikipedia.org/wiki/Abbas_Səhhət.

ПЕРИХАНУМ МУРАДОВА

Заведующий отдел Архива Политических Документов При Управлении делами Президента Азербайджанской Республики

СТАТЬЯ ПОСВЯЩЕНА ЛИРИКЕ ИЗВЕСТНОГО ПОЭТА А.СИХХАТА

РЕЗЮМЕ

В статье объеком анализа стала любовь к Родине, привязанность к Родине и проблема свободы в творчестве А. Сиххата одного их выдающихся азербайджанской литературы.

Аббас Сиххат является одним из выдающихся представителей азербайджанской литературы XX века. Статья посвящена лирике известного поэта А.Сиххата. В статье анализириуются характерные поэтические

произведения поэта А.Сиххата, опубликованные в этом журнале, выявляются их идейно-художественные особенности.

PERIXANIM MURADOVA
Executve office head of department Azerbaijan Republic political State Archive

THE ARTICLE HAS BEEN DEDICATED TO THE LYRICS OF A. SAHHAT.

SUMMARY

The problem of love for Motherland, Affection for Motherland and freedom of Motherland have become the object of analysis in the creative work of A. Sahhat one of the prominent representatives of modern Azerbaijan literature in the artiche.

A.Sahhat is one of the most prominent representatives of the Azerbaijani literature of XX centure. The article has been dedicated to the lyrics of A. Sahhat.

There have been analysed characteristic works, their idealogial-literary features have been clarified.

Rəyçi: Şamil Vəliyev.
Bakı Dövlət Universiteti, jurnalistika fakültəsi, mətbuat tarixi kafedrasının müdiri, professor

MEHRİBAN QULİYEVA
Naxçıvan Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
quliyeva.mehriban@list.ru

MƏHƏMMƏD AĞA ŞAHTAXTILININ YARADICILIĞINDA BƏDİİ TƏRCÜMƏ

Açar sözlər: *Naxçıvan, tərcümə, ədəbi mühit, bədii dil, yaradıcılıq*
Key words: *Nakhchivan, translation, literary environment, figurative language, creative*
Ключевые слова: *Нахичеван, перевод , литературной среды, образный язык, творчество*

Tərcümə əsərləri ədəbi dilin inkişafında mühüm rol oynayaraq onun leksik tərkibinin zənginləşməsinə kömək edir. Müxtəlif dövrə aid tərcümələr həmin dövrün ədəbi dil xüsusiyyətlərini, orfoqrafiyasını öyrənmək baxımından faydalı mənbə hesab edilir. Tərcümə işində rus dilinə tərcümənin xüsusilə böyük əhəmiyyəti vardır. Bu tərcümə milli mədəniyyətlərin inkişafına, milli dillərin zənginləşməsinə, həm də fəlsəfi dərinliyi ilə diqqəti cəlb edən zəngin şərq ədəbiyyatının qərb dünyasına tanıdılmasında bir körpü rolu oynayan amil funksiyasını yerinə yetirmişdir. Tərcümə əsərləri ədəbi dilin inkişafında mühüm rol oynayaraq onun leksik tərkibinin zənginləşməsinə kömək edir. Müxtəlif dövrə aid tərcümələr həmin dövrün ədəbi dil xüsusiyyətlərini, orfoqrafiyasını öyrənmək baxımından faydalı mənbə hesab edilir. Tərcümə işində rus dilinə tərcümənin xüsusilə böyük əhəmiyyəti vardır. Bu tərcümə milli mədəniyyətlərin inkişafına, milli dillərin zənginləşməsinə, həm də fəlsəfi dərinliyi ilə diqqəti cəlb edən zəngin şərq ədəbiyyatının qərb dünyasına tanıdılmasında bir körpü rolu oynayan amil funksiyasını yerinə yetirmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda təzahür edən milli maarifçilik hərəkatı Naxçıvanda da özünü göstərməyə başlamışdır. İctimai-iqtisadi, sosial-mədəni yeniliklər mütərəqqi, demokratik ziyalılar təbəqəsinin formalaşması üçün münbit zəmin yaratmışdır. Bədii tərcümə sahəsi də həmin dövrdə sürətlə inkişaf etməyə başladı. M.Şahtaxtlı bir sıra çətinliklərə baxmayaraq, çoxcəhətli yaradıcılığı dövründə tərcümə sənəti ilə də yaxından məşğul olmuş, şərq xalqlarının qiymətli sənət əsərlərinin Avropa və Rusiyada tanıdılması, təbliği istiqamətində böyük əmək sərf etmiş, bu peşənin nümayəndəsi, sahibi olmaqla fəxr etmişdir. Məsələn, görkəmli maarifçi hələ XIX əsrdə yazdığı ilk məqalələrinin birində Mirzə Mehdixanın o dövr Azərbaycan və İran hökmdarı, görkəmli sərkərdə və dövlət xadimi Nadir şaha

həsr olunmuş "Tarixi-Nadir" əsərindən, onun ədəbi və bədii xüsusiyyətlərindən bəhs edərkən onun məzmununun çox lazımlı keyfiyyətlərə malik olduğunu, ancaq qəzetin həcminin buna imkan vermədiyini təəssüflə qeyd edir, Mirzə Mehdixanın dərin və fəlsəfi düşüncələrinin oxucuya çatdırılmasında özünün ancaq sadə bir tərcüman olduğunu fəxrlə qeyd edirdi.

Məlum olduğu kimi, böyük ziyalı ədib ömrünün çox hissəsini tərcüməçilik sənətinə həsr etmişdir. O, hələ 1882-93-cü illərdə İstanbulda işləyərkən farsca "Əxtər", fransızca "İstanbul" qəzetlərində, fransızca "Şərq ədəbiyyatı" jurnalında tərcümə nümunələrini nəşr etdirmiş, ondan sonra bu şəhərdə Beynəlxalq Ticarət Məhkəməsində Rusiyanın daimi nümayəndəsi kimi, həm də tərcüməçi sifətilə fəaliyyət göstərmiş, 1909-1912-ci 7illərdə Rusiyanın Türkiyədəki səfirliyində jurnalist-tərcüməçi vəzifəsində, daha sonra 1914-cü ildən 1917-ci ilin fevral ayınadək Rusiya Xarici İşlər Nazirliyində tərcüməçi ştatında çalışmışdır. Yuxarıda da qeyd etdiyimiz kimi, 1922-ci ilin sonları 1923-cü ilin əvvəllərində Moskvada Şərq Xalqlarının Kommunist Universitetində mühazirəçi-tərcüməçi işləmiş, bu dövrdə İ.Stalinin "Seçilmiş əsərləri"ni türk dilinə tərcümə edərək nəşr etdirmiş, eyni zamanda Buxarinin əsərlərinin şərq dillərinə tərcüməsi ilə məşğul olmuşdur.

Hər bir milli dildə başqa dilə məxsus bütün gözəllikləri, ən zərif, ən təbii hissləri, səsləri, hətta milli özünəməxsusluğu da əks etdirmək olar. Bunun üçün zəhmətli yaradıcılıq axtarışları, ən əvvəl isə fitri istedad lazımdır. Məhz belə keyfiyyətlərə malik olan M.Şahtaxtlı tərcüməçi peşəsinin elmi sirlərinə dərindən yiyələnmişdi. O, bütün tərcüməçilik fəaliyyəti ərzində orijinaldan tərcüməyə üstünlük vermişdir. Orijinaldan tərcümə etmək üçün sənətkardan həmin dilləri öz ana dili kimi bilmək,o dillərin özünəməxsusluğunu görüb duymaq, onların tarixini, inkişaf mərhələlərini yaxşı bilmək tələb olunur. Böyük maarifçi məhz bu keyfiyyətlərə malik olmuşdur. Məhz bu səbəbdən o, İstanbulda yaşamağa başlayarkən "Russkoe slovo" qəzetinin redaktoruna onlar üçün lazımi tərcümə materialları göndərəcəyini bildirərək yazırdı: "Əvvəlki dövrlərdə bir neçə il ərzində mən Konstantinopolda yaşamışam. Bu ölkəni və xalqın dilini yaxşı bilirəm. Bundan başqa fransız, alman və rus dillərini də bilirəm ki, ...bunları bilmək çox zəruridir. Ona görə də söz verirəm ki, məqalələrim məzmunlu və maraqlı olacaqdır".

Tərcümə sənətində tərcümə olunacaq əsərin seçilməsi də mühüm amillərdən biridir. Bu baxımdan M.Şahtaxtlının tərcümə üçün müraciət etdiyi elmi-publisistik və ya bədii əsərlər dövrün nəbzini tutan, mövzusunun aktuallığı ilə seçilən, öz dövrü ilə səsləşən ədəbi nümunələr olmuşdur. Məsələn, Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən Zeynalabdin Marağalının (1838-1910) "Səyahətna-meyi-İbrahimbəy və ya təəssübkeşliyin bəlası" adlı əsəri XIX əsrin sonlarında vətənpərvərlik mövzusunda yazılmış ən dəyərli bədii nümunələrdən biridir. M.Şahtaxtlı bu qiymətli əsərin Yaxın

Şərqdə böyük marağa səbəb olduğunu, ədəbi-mədəni aləmdə bir hadisəyə çevrildiyini nəzərə alıb onun bir hissəsini farscadan ruscaya çevirib əlüstü Tiflisdə çıxan "Arqonavt" (1901, № 183, 188) qəzetində çap etdirdi. Bəlkə də tərcüməçinin bu ilk təşəbbüsü sonralar əsərin tam şəkildə rus dilinə tərcümə olunub çap olunmasına təkan vermişdir.

Fars dilinə və ədəbiyyatına dərindən bələd olan alim bir neçə il sonra yəni 1908-ci ildə Peterburqda yaşamağa başlayanda yenidən fars dilindən ruscaya tərcümə işinə müraciət etmiş, "İran konstitusiyası" kitabını çevirmiş, elə həmin ildə Peterburqda nəşr etdirmişdir. O, xüsusilə Osmanlı türklərindəki aşağıda qeyd etdiyimiz elmi-publisistik və fəlsəfi ədəbiyyat nümunələrini rus dilinə məharətlə tərcümə etmişdir: I. Əhməd Şakir paşanın "Günəş təqvimi" əsəri. O, tərcümə etdiyi bu əsərin müqəddiməsində yazırdı: "Dünyanın bütün müsəlmanları üçün elmi təqvimin əsası kimi çox mühüm məsələyə həsr olunduğuna, müasir Türkiyənin görkəmli hərbi dövlət xadiminin qələmindən çıxdığına, müasirlərimiz olan türklərin nümunəvi şərhetmə üslubu rus oxucusu üçün tanış olmadığına adı çəkilən polemika böyük maraq doğurduğundan tərcümə olunmağa tam layiqdir". II. Əhməd Cövdət paşanın "Peyğəmbərlər və xəlifələr tarixi" adlı 1200 səhifəlik traktatını sənətkar böyük zəhmət bahasına rus dilinə çevirmişdir. Peterburq senzor komitəsi islam dinini təbliğ edə biləcəyindən qorxaraq əlyazması Rusiya Mərkəzi Dövlət Tarix arxivinin fondunda saxlanan həmin tərcümənin nəşrinə icazə verməmişdir. III. Müəllif bununla yanaşı, Osmanlı dövlətinin sədr-əzəmi Kamil paşanın xatirələrini tərcümə edərək Rusiya Xarici İşlər Nazirliyinin "Xəbərlər" jurnalında nəşr etdirmişdir (89, 39). Ədib bundan başqa Əhməd Muxtar paşanın "Anadoluda 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin tarixi" adlı əsərini türkcədən ruscaya tərcümə edib. Əsər "Hərbi-tarixi jurnal"ın 1913-1915-ci illərə aid bir neçə nömrəsində nəşr edilmişdir. Təəssüf ki, memuar janrının bu qiymətli və gözəl nümunəsinin nəşri I dünya müharibəsinin başlaması və jurnalın nəşrini dayandırması ilə əlaqədar tamamlanmamışdır.

Tərcümə əsərlərinin dəyərini artıran amillərdən biri də dəqiqlik faktına əməl olunması, riayət edilməsidir. Məlumdur ki, Osmanlı yazılı ədəbi dili, xüsusilə XIX əsrin sonlarında ərəb-fars ünsürləri ilə anlaşılmaz hala düşmüşdü, elmi üslüb isə daha bərbad vəziyyətdə idi. Bu tərcümə prosesinə də təsir göstərirdi. Ona görə də M.Şahtaxtlı belə qiymətli tarixi-publisistik əsərin tərcüməsində bir sıra çətinliklərlə qarşılaşmışdı. Mütərcim bu çətinlikləri aradan qaldırmağa müvəffəq olmuş, tərcümənin dəqiqliyinə nail olmuşdu. Məhz bu səbəbdən də M.Şahtaxtlı əsərin tərcüməsinə yazdığı müqəddimədə göstərirdi: "Avropa dilləri ilə müqayisədə türk dilindən tərcümə etmək müqayisə edilməyəcək dərəcədə çətindir. Sözlərin mənası tərəfimizdən dəqiq müəyyən olunsa da, buraxılmış qrammatik qaydalar sözlər arasındakı əlaqəni başa düşməkdə çətinlik yaradır. Buna baxmayaraq, oxucu bizim tərcümənin

dəqiqliyinə əmin ola bilər. Bu sətirlərin müəllifinin özü də türkmənşəlidir və cəmi bir il bundan əvvəl Rusiya İmperatorluğunun səfirliyində tərcüməçi kimi çalışdığı Konstantinopoldan geri qayıtmışdır" .

Onu da qeyd etmək lazımdır ki, görkəmli şahtaxtlışünas akademik İsa Həbibbəyli ədibin tərcümə əsərlərinin aşkar edilməsində böyük əmək sərf etmiş, bu qiymətli əsərləri elmi ictimaiyyətin istifadəsinə təqdim etmişdir. İsa Həbibbəyli ədibin axırıncı dəfə Türkiyədə çalışdığı dövrdə (1909-1912) Əhməd Muxtar paşanın "Anadoluda 1877-1878-ci illər Rusiya–Türkiyə müharibəsinin tarixi" əsərini ruscaya uğurla tərcümə etməsindən bəhs edərkən göstərmişdir: "Bu əsərin tərcüməsi barədə indiyədək elmi ədəbiyyatda heç bir məlumat verilməmişdir. Bu qiymətli memuar əsəri nümunəsi bir daha ədibin tərcüməçilik fəaliyyəti barədə ümumiləşdirmələr aparmağa imkan verir. Ümumiyyətlə, M.Şahtaxtlı Azərbaycanda elmi-publisist ədəbiyyatın tərcüməsi ilə məşğul olan ilk müəlliflərdən biridir. Mövcud tərcümələri onun türk-müsəlman aləmini Rusiyada, habelə rus dili vasitəsilə dünyada tanıtmaq, dərk və qəbul etdirmək arzularının ifadəsidir. Bundan başqa M.Şahtaxtlının tərcümə əsərləri orijinaldan ən mükəmməl tərcüməyə də dəyərli örnəklərdir".

Yeri gəlmişkən bir faktı da qeyd etmək lazımdır ki, M.Şahtaxtlı böyük zəhmət bahasına nəşrinə nail olduğu XX əsrin ilk Azərbaycan dilli mətbuat orqanı olan "Şərqi-Rus" qəzeti də Azərbaycan bədii tərcümə sənətinin inkişafında böyük rol oynamışdır. Belə ki, bu qəzet öz sələfləri kimi Avropa və rus ədəbiyyatından ədəbi tərcümələrə ciddi fikir verirdi. "Şərqi-Rus"un ilk nömrəsində naşir xalqların mədəni cəhətdən yaxınlaşdırılması baxımından qəzetin üzərinə böyük vəzifələr düşdüyünü və bu vəzifələri şərəflə yerinə yetirəcəyini bəyan edərək yazırdı: "Bu gündən etibarən qəzetəmiz müsəlmanlar üçün Yevropa və rus elminin bir ayinəsi, bir cahannaməsi olacaq. Yevropanın, Rusiyanın siyasi və ticarət əhvalından başqa biz oxucularımızı bunların ədəbiyyatından, fəlsəfə və hükəmiyyatından ... dəxi baxəbər edəcəgiz".

M.Şahtaxtlı qəzetin növbəti nömrələrinin birində (№78) eyni zamanda gənc qələm sahiblərinə müraciətlə yazırdı ki, onlar rus və Avropa belletrini, roman, teatr və əşara dair əsərləri tez-tez oxusunlar, ən yaxşı əsərləri tərcümə etsinlər. Gənc ədiblər yalnız bu yolla "Avropa usta ədiblərinin yazmaq üsullarını öyrənəcək, onların sirlərinə vaqif olacaq və onların zehni və biliklərindən istifadə edəcək olurlar".

Qəzetdə bədii tərcümənin genişlənməsinə onunla yaxın əməkdaşlıq edən ilk elmi "Azərbaycan ədəbiyyatı tarixi" kitabının müəllifi olan F. Köçərlinin də böyük köməyi olmuşdur. Məqalələrinin birində bu maarifçi-alim tərcümələrin, bəşəri ədəbiyyatın insan cəmiyyətinin, dünya mədəniyyətinin inkişafında böyük rolundan bəhs edərək yazmışdır: "İstər farsların Sədisi və Xoca Hafizi, istərsə də ingilislərin Şekspiri və Bayronu, firənglərin Jan Jak Russosu və

Viktor Hüqosu, nemeslərin Hötesi və Şilleri, rusların Puşkini, Dostoyevski və Tolstoyu öz əsərlərində millətlərinin ən böyük müəllimi və ən mahir və müqtədir mürəbbisi olub əsərləri ilə onların təhzibi əxlaqına, rüfət və səadət tapmasına, şöhrət və qüvvət kəsb etməsinə hüsnü-tədbirlər və səlamət təriqələr göstəriblər" (1904, № 252).

A.P.Çexovun "At familiyası" (1904, №104-105) hekayəsini də görkəmli ədəbiyyatşünas-maarifçi F.Köçərli tərcümə etmişdir. Tərcümənin əvvəlində qəzet A.P.Çexovun nəsri haqqında oxuculara məlumat verərək yazırdı: "Çexov müxtəsər və qısaca hekayələrlə rus millətinin hər bir sinfinə dair əhvalat yazıb hər dairənin eyib və qüsurlarını istehza və kinayə təriqincə zərifanə işarələr ilə göstərir. O, cənab kəlamın ustadı hesab olunur, azacıq və lətif sözləri ilə dərin və böyük mənalar yetirməkdə bimisl bir vücud idi"

M.Şahtaxtlı tərcümə məsələlərində, xüsusilə Avropa sözlərinin tərcüməsində diqqətli olmağı tövsiyə edirdi: "Ruscadan türkcəyə əsərlər tərcümə edənlər bilirlər ki, rus dili bizim tərcüməmizdən çox zəngindir. Yüzlərcə, minlərcə Avropa dillərindən eynilə alınmış sözlər var ki, əvəzləri rus dilində olmadığı kimi bizim şərq dillərində dəxi yoxdur. Bunların hər birinin əvəzinə öz dillərində ruslar bir söz qoysaydılar, söz mənasını əldə edəməyəcək idi. Çünki bu mənaları vücuda gətirən Avropa millətlərinin, rusların şəriklik etmədikləri diriliyi və vüquatı olmuşdur. Ona görə bu sözləri Avropa sözü ilə istemal edib ləfzləri ilə bərabər mənalarını da öyrənirlər". M.Şahtaxtlı tərcümə məsələlərində lüğətlərin də böyük əhəmiyyəti olduğunu qeyd edir.

Müəllif Azərbaycan və İran məktəblərində dərslik kimi Sədinin "Gülüstan" əsərinin ilk nümünəvi əsər kimi tədris olunduğunu göstərir, həm də müasirlərinə irad tutur ki, bu ifadəni "Gülüstane-Sədi" şəklində yox, Sədinin "Gülüstan"ı şəklində işlətmək daha düzgündür. Bu qiymətli bədii əsərin fəlsəfi məzmun kəsb etdiyini və dünya ədəbiyyatı xəzinəsinə daxil olduğunu, bütün Avropa dillərində əsərin tam tərcüməsinin çap olunduğunu vurğulayır. Gülüstan sözünün rus dilinə "mesto dlya roz" şəklində tərcüməsini doğru hesab etməyərək almanca tərcüməsində olduğu kimi "Rosenland" şəklində variantını daha məqbul hesab edir.

Müəllif tərcümə işində təhriflərə yol verilməsini, tərcümənin yersiz ixtisarlara məruz qalmasını yol verilməz sayır və bununla əlaqədar bir hadisəni nümunə göstərir. O, Azərbaycan və İran məktəblərində tədris olunan farsca "Cameyi-Abbas" əsərinin müsbət məziyyətlərini, anlaşıqlı dildə yazıldığını, cəmiyyətin Rusiyanın müsəlman təbəqələrinin həyat tərzi və adət-ənənələrinin öyrənilməsinə marağın artdığını və bu istiqamətdə Şeyx Bahəddinin bu əsərinin böyük əhəmiyyət kəsb etdiyini və ona görə də rus dilinə tərcümə olunmasının zəruri olduğunu qeyd etdikdən sonra Şamaxı şəhər məktəbinin tatar (Azərbaycan) dili müəllimi Seyid Kazımın bu əsəri Azərbaycan dilinə tərcümə etmək kimi ağlına gözəl bir fikir gəldiyini bildirir. O, tərcüməsini

Peterburqa, İmperiya Elmlər Akademiyasına təqdim edir. Akademiya tərcüməni bir şərtlə nəşr etməyə razılıq verir ki, tərcüməçi oradan bəzi yerlərin ixtisar edilməsinə razılıq versin. Tərcüməçi bu halda tərcüməsini geri götürmüş və çapına razılıq verməmişdir. Çünki ixtisar zamanı onun fikirləri şiələrə tamam başqa şəkildə, təhrif olunmuş şəkildə təqdim olunacaqdı. M.Şahtaxtlı eyni zamanda Azərbaycan dilinə tərcümə sahəsində da mühüm xidmətlər göstərmişdir. Hələ 1920-ci ildə rus dilindən N.Nərimanovun "Maariflilər və xalq təsərrüfatını bərpa eləmək" məqaləsini sadə və anlaşıqlı tərzdə Azərbaycan dilinə tərcümə etmiş, Azərbaycan hərbi inqilab komitəsinin orqanı olan "Füqəra füyuzatı" həftəlik məcmuəsində nəşr etdirmişdir.

Tərcümədə dəqiqlik M.Şahtaxtlının hələ XIX əsrin 70-ci illərdəki publisistik fəaliyyətində də gözə çarpmaqdadır. Belə ki, həmin ildə "Tiflisskiy vestnik" qəzetində M. Şahtaxtlının çap olunmuş əlifba islahatı haqqında məqaləsi tərcümə edilərək "Ziya" qəzetində gecikməli şəkildə nəşr olunmuşdur. Senzor M. Axundov materialla tanış olarkən təhrifə yol verildiyini, orijinaldan kənara çıxıldığını müəyyən etmiş və bu yanlışlığın düzəldilməsini tələb etmişdir.

Tərəddüd etmədən qeyd edə bilərik ki, Azərbaycan ictimai fikri tarixində elmi-publisistik ədəbiyyatın peşəkar tərcüməsi ilə Avropa elminin tələbləri səviyyəsində məşğul olan ən birinci maarifçi elm xadimi M.Şahtaxtlı olmuşdur.

ƏDƏBİYYAT

1. Həbibbəyli İ. Ə. C.Məmmədquluzadə: mühiti və müasirləri. Bakı: Azərnəşr, 1997, 490 s.
2. Əliyev K.İ. Məhəmməd ağa Şahtaxtlı: bildiklərimiz və bilmədiklərimiz. Məhəmməd ağa Şahtaxtlı: taleyi və sənəti, Bakı: Nurlan, 2008, s. 80-88.
3. Kazımova F.R. Məhəmməd ağa Şahtaxtlı irsinin tədqiqi tarixindən / Məhəmməd ağa Şahtaxtlı: taleyi və sənəti. Bakı: Nurlan, 2008, s. 107-117 .
4. Quliyev Ə.A. M.Şahtaxtlının publisistikasında Naxçıvan // AMEA NB "Xəbərlər"i, Naxçıvan, 2010, №4, s. 178-183.
5. Şahtaxtlı Məhəmməd ağa. Seçilmiş əsərləri. (tərtib edəni və ön sözün müəllifi akad. İ.Həbibbəyli), Bakı: Çaşıoğlu, 2006, 432 s.
6. Şahtaxtlı Məhəmməd ağa: taleyi və sənəti. Bakı: Nurlan, 2008, 166 s.

MEHRIBAN GULIYEVA

MOHAMMED AGHA SAHTAHLI'S CREATIVE LITERARY TRANSLATION

SUMMARY

Azerbaijani public opinion on the scientific and journalistic literature, professional translation with the European science requirements, which is the first educator, scientist M.Shahtakhli been. Despite the difficulties of a number of M. Shahtakhli,who has been involved closely with the art of interpreting the the manifold creativity , eastern Europe and Russia, the promotion of the peoples of the precious works of art, made greate efforts towards the application of the profession's representative , took pride in being the owner.

M.Shahtakhtli the translation of Azerbaijani scientific publications dealing with the literature is one of the first authors. Existing translations of the Turkic-Muslim world , in Russia as well as through the Russian language in the world and wishes to expression. In addition , most perfect translation from the original translated works. M.Shahtaxtli's valuable example. M.Shahtaxti's accuracy and high responsibility to the excellent scientific, and artistic works has been able to translate.

МЕХРИБАН КУЛИЕВА

ЛИТЕРАТУРНЫЙ ПЕРЕВОД В ТВОРЧЕСТВЕ МУХАММЕД АГА ШАХТАХТЛЫ

РЕЗЮМЕ

В истории Азербайджанской общественной мысли, М. Шахтахтлы был самый первый ученый-просветитель профессионально занявший перевод научно-публичистической литературы на уровне требованием европейской науки. Несмотря на ряда трудности М. Шахтахтлы во время многогранного творчества занималься с исскуством перевода, тратил много усилий распространение и признание драгоценние произведения искусства восточных народов в Европе и России,гордил имея эту профессую. М. Шахтахтлы был одним из первых авторов занявщий переводом научно-публицистической литературы в Азербайджане. Доступные переводы выражают его желании признание турецкий-мусульманский мир в Росии, также признание в мире с помощью русского языка. Кроме того, переводные произведение М. Шахтахтлы являются примеры наиболее совершенного перевода исходного значения М. Шахтахтлы показывая точность и высокая ответственность достиг перевода замечательные научные и художественные произведения.

ÇİNARƏ RZAYEVA
AMEA Naxçıvan Bölməsi
cinarerzayeva@yahoo.com.tr

HÜSEYN CAVID YARADICILIĞINDA ALQIŞLAR VƏ QARĞIŞLAR

Açar sözlər: *H.Cavid, şifahi xalq ədəbiyyatı, folklor, alqışlar və qarğışlar*
Key words: *H.Javid, folklore, literature, praises and damnations*
Ключевые слова: *Г.Джавид, народная литература, фольклер, похвала и проклятия*

Azərbaycan ədəbiyyatının və romantizminin inkişafında misilsiz rol oynamış qüdrətli sənətkar Hüseyn Cavid öz qaynağını milli mədəniyyətin ən dərin qatlarından alırdı. "H.Cavid bir şair kimi orijinaldır, təkraredilməzdir, yalnız özünə, öz sənətinə xas olan poetik ifadə və vasitələrin müəllifi kimi çox uğurlu bir dəst xətti vardır" (2, 18). Cavidin yaradıcılığını araşdırdığımızda bu deyilən fikirlərin doğruluğunu açıq görürük.

Görkəmli romantik şair və dramaturq H.Cavid yaradıcılığında yazılı ədəbiyyatın janrlarından geniş istifadə etsə də şifahi xalq ədəbiyyatının janırlarını da yaddan çıxarmamışdır. H.Cavidin yaradıcılığını incələdikdə görürük ki, ədib yaradıcılığının bütün dövrlərində şifahi xalq ədəbiyyatına müraciət etmişdir. Zəngin bədii sənət inciləri xəzinəsi olan şifahi xalq ədəbiyyatı xalqın birgə əməyinin məhsuludur. Yazıçı və şairlər yaradıcılığında bu məhsullardan geniş istifadə etmişlər. "Şifahi xalq ədəbiyyatı nəinki ideya-məfkurəvi, əxlaqi, həm də bədii-estetik tərbiyə işində də mühüm rol oynayır, insanın estetik zövqünün yüksəlməsinə böyük təsir göstərir (1, s.11). Ədəbiyyatın bu dəyərli cövhəri xalqı azad və xoşbəxt həyat uğrunda mübarizəyə səsləyir.

Dramaturqun əsərlərində Azərbaycan şifahi xalq ədəbiyyatının demək olar ki, bütün nümunələrinə-mifik obrazlara, atalar sözləri və məsəllərə, aşıq yaradıcılığına, alqışlar və qarğışlara və s. rast gəlirik. Əvvəlki tədqiqatlarımızda sadalanan növlərə müraciət edilmiş və təhlillər aparılmışdır. Bu məqalədə əsas məqsəd alqışlar və qarğışları seçilib təhlil etməkdir.

"Folklorda alqış və qarğış problemi də müəyyən dərəcədə inanclarla bağlıdır, qədim insanların xeyir və şərlə qarşılaşdıqdan sonra onlara olan münasibətinin nəticəsi kimi yarandığı qeyd olunmalıdır" (6, s. 282) "İnsan şüurlu fəaliyyətində daim xeyir və şərlə qarşılaşmalı olmuşdur. Xeyir və şər anlayışının yaranması ilə erkən təsəvvürlərdə xeyri alqışlamaq, şəri isə qarğışlamaq anlayışı da yaranmışdır. Arzulamaq, bəyənmək mənasında başa düşülən "alqış"ın mənası alqışlama-xoş söz, qırmızı sözlə bağlı olmuşdur. Xeyirin əksi şərdir. Xeyiri alqışlayan insan şəri pisləməklə qarğış yaratmışdır" (9)

"Xalq arasında yaşamaqda olan alqış və qarğışlar aşağıdakı kimi qruplaşdırılır:

1. Mərasimlə bağlı yaranan alqış və qarğışlar: Bu alqış və qarğışlar adından da göründüyü kimi mərasim ilə bağlıdır. Və bu növ xalq arasında geniş yayılmışlar: "Bəylik hamamına gedəsən", "Toy şirnini yeyim" və s.

2. Məişətlə bağlı yaranan alqış və qarğışlar: Alqış və qarğışların bu növünə də çox rast gəlinir. Özünəməxsus məişət xarakteri ilə seçilir: "Evin abad olsun", "Duz-çörəkli olasan", "Süfrən açıq olsun"; "Evin yıxılsın", "Ocağın sönsün" və s.

3. **Mifoloji və dini təsəvvürlərin təsiri ilə yaranan alqış və qarğışlar.** Adından da göründüyü kimi bu növ alqışlar və qarğışlarda mifoloji və dini təsəvvürlər öz əksini tapıb. "Şərdən uzaq olasan", "Bəxt ulduzun sayalı olsun", "Ocağın sönməz olsun", "Həzrət Abbas köməyin olsun"; "Ulduzun axıb gedən olsun", "Qapında bayquş ulasın", "Səni tapşırıram Həzrət Abbasa" və s. (9).

Sadaladığımız alqışlar və qarğışların növlərinə aid nümunələrə H.Cavid yaradıcılığında rast gəlinir. İlk növbədə romantik şairin "Ana" dramında işlətdiyi alqışlara diqqət yetirək.

Səlma

Haqlıdır, əvət, haqlıdır İsmətim;
Bənim də həp budur duam, hacətim:
Qanpolad bunsuz, bu onsuz olmasın!
Allah bir-birindən ayrı salmasın! (3, s.42)

Səlma

Südüm halal olsun, oğul Qanpolad (3, s.54)

Əvvəldə də qeyd etdiyimiz kimi alqışlar sevincdən, birinin etdiyi yaxşılıqdan, birinə olan məhəbbətdən, istəkdən doğur. Məhs burada verdiyimiz birinci nümunədəki alqışlar da deyilən səbəblər nəticəsində ortaya çıxmışdır. Səlma oğlunun nişanlısı İsmətə Qanpoladın gələcəyini xəbər verir. Onun Qanpolada olan sevgisini, onun gəlmə xəbərinə sevinməyini görür və bu alqışları edir.

İkinci nümunədə isə Səlma oğlu Qanpoladın qanlısından-Orxandan, İzzətdən intiqam alaraq ilk atəşdə yerə sərdiyini, onları öldürdüyünü eşidən kimi, sevinir və südüm sənə halal olsun deyir.

Alqışlara həmçinin Hüseyn Cavidin "Maral" dramında da rast gəlirik. Onu da qeyd edək ki, "Maral" əsərində işlənən alqışlar "Ana" dramında işlənən alqışlara nisbətən çoxluq təşkil edir.

B ə y p o l a d. Nə işə, təkrar əfvinizi istirham edər, Allaha ısmarlarım, qardaşlar! (3, s.86)

C ə m i l b ə y. Bəlkə bən yanılıyorum!.. Allah ağzından eşitsin! (3, s.89)

B ə y p o l a d. İnşallah, yenə görüşürüz (3, s. 86)

T u r x a n b ə y. Buyurun!.. Buyurun! Uğurlar olsun! (3, s.113)

S ə l t ə n ə t. Allah köməyi olsun! (3, s.96)

H u m a y. Əskik olmayın, əfəndim!.. (3, s.98)

İstər "Maral" əsərində Səltənətin, Humayın dili verilən alqışlar, istərsə də "Ana" əsərində Səlmanın dili verilən alqışlar hər dövr üçün aktual olub, bugünkü günümüzdə də öz işləkliyini qoruyub saxlayır. Cavid əfəndi alqışlardan yerli-yerində işlədərək əsərlərinə xüsusi dəyər qatmış və oxucusunun diqqətini çəkmişdir. Məhz bizim də diqqətimizi çəkdiyi üçün Cavid yaradıcılığında alqışlar və qarğışlara müraciət etmişik.

Alqışlara romantik şairin təkcə dram əsərlərində deyil, həmçinin digər yaradıcılığında-şeirlərində də rast gəlirik. H.Cavidin qələmə aldığı "Dəniz tamaşası"nda da folklorun izlərinə rastlanır. Belə ki, əsərin sonuna nəzər salaq:

"Ey böyük Tanrı! Ey böyük Yaradan!
Hər bəladan əsirgə yurdumuzu,
Kamran eylə şanlı ordumuzu..." (2, s. 71)

Romantik şairin vətənə, yurduna, orduya olan sevgisinin nəticəsidir ki, sonda fikrini yurduna, şanlı ordusuna alqışlar edərək tamamlayır.

Əvvəldə qeyd etdiyimiz kimi, dramaturq yaradıcılığında folklor nümunəsi olan alqışlarla yanaşı qarğışlara da müraciət etmişdir. Görünür ki, H.Cavid əsərlərində mənfi obrazları qələmə aldığı zaman özü haqsızlığa dözməmiş qarğışlara müraciət etmişdir. Romantik şair və yazıçının "Ana", "Maral" dramlarından aldığımız bir neçə nümunəyə nəzər salaq:

S ə l t ə n ə t. Eh...h, Allah həpinizin bəlasını versin!..(3, s.98)

T u r x a n b ə y. Allah onun bəlasını versin. Bayram çay gətirir. Payladıqdan sonra çıqar (3, s.80)

Səlma

Bən səndən daha müstəhəqqim, İsmət!
Lakin Allah nəhy etmiş bunu …lənət
Lənət bu iqbala, bu ömrə lənət!.. (3, s.60)

Səlma

Eyvah!
Kaş ki, öləydim, görməyəydim, Allah! (3, s.56).

Səlma

Get, gözüm görməsin! Uzaqlaş dəf ol!
Nə haqsızlıq etdinsə Allahdan bul!
Get, çəkil get! Dinsiz, Allahsız xain!
Murdar izin bu torpaqdan silinsin!
Oğlumu söndürdün, yandırdın məni,
Get, kamə irdirməsin Allah səni! (3, s.69)

"Ana" dramında H. Cavid Səlmanı nə qədər qəhrəman, geniş ürəkli, mərd ana kimi təsvir etsə də, əsərin sonunda oğlunun ölümünə dözə bilməyən ana qatilə qarğışlar edir və bununla da təsəlli tapmağa çalışır.

Qarğışlara təkcə mütəfəkkir şairin "Ana", "Maral" dramlarında deyil, həmçinin bir çox əsərlərində rast gəlirik. Onlardan biri də "Şeyda" əsəridir. Burada da Rəufun dili ilə Məcid əfəndiyə qarğış edilmişdir. Nümunələrə nəzər salaq:

R ə u f. Doğrusu, bən onun sağ qaldığına əsla inanmıyorum. Allah Məcid əfəndinin bəlasını versin, hərifi durduğu yerdə bədbaxt etdi (3, s.308).

Ta qədim zamanlardan bu günə kimi alqışlar yaxşı iş görüb, xeyirxahlıq edənə, yaxşı adamlara ünvanlanmışdır. Qarğışlar isə onun əksi olaraq pislik edənə, ev yıxıb ara vuranlara, bir sözlə pis əməl sahiblərinə ünvanlanır. Deyilənləri romantik şairin yaradıcılığında da görürük.

Romantik şair və dramaturqun əsərlərində alqışlara daha çox rast gəlinir. Qarğışlar isə azlıq təşkil edir. Bu da romantik şairin həm həyatında, həm də əsərlərində pisliklərə yer verməməyi, hər kəsə dua və alqışlar etməyin tərəfdarı olduğunu bir daha göstərir.

Nümunələrə diqqət etsək görürük ki, "Ana" dramında daha çox qarğışlar işlənmişdir. Burada qarğışlarla yanaşı Səlma ananın qəhrəmanlığı da oxucuların diqqətini çəkmiş, onlarda həm yazıçıya, həm də Səlma ananın ürəyinin böyüklüyünə, qəhrəmanlığına pərəstiş hissi yaratmışdır. "Ana" dramında alqışlara nisbətən qarğışların daha çox işlənmə səbəbi Səlma ananın yaşadıqlarıdır. Ananın çəkdiyi acını nəzərə alsaq bunu təbii hal saya bilərik. Səlma ananın yerinə kim olsa bəlkə də onun dili ilə qələmə verilən qarğışlardan artığını deyər və oğlunun qatilinə evində yer verməz, onun getməsinə yol göstərməzdi. Bu da Cavid əfəndinin ürəyinin böyüklüyündəndir ki, əsərlərinə yansıtmışdır.

Aparılan tədqiqatların nəticəsi olaraq onu deyə bilərik ki, Hüseyn Cavid yaradıcılığında folklor nümunələrinin digər növləri kimi alqışlar və qarğışları da yerli-yerində işlətmişdir. Bu da Hüseyn Cavidin folklora olan marağını bir daha sübut edir. Bununla da həm şifahi xalq ədəbiyyatı nümunələrindən, həm xalq danışıq dilindən istifadə edərək, obrazları xalqa yaxınlaşdırmış, həmçinin əsərlərinə bədii poetik anlam qatmışdır.

ƏDƏBİYYAT

1. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı: Maarif, 1981, 406 səh.
2. Cavid H. Əsərləri (Tərtib edəni Turan Cavid). 5 cilddə, I c., Bakı: Elm, 2007, 420 s 22
3. Cavid H. Əsərləri (Tərtib edəni Turan Cavid). 5 cilddə, II c., Bakı: Elm, 2007, 420 s.
4. Cavid H. Əsərləri (Tərtib edəni Turan Cavid). 5 cilddə, III c., Bakı: Elm, 2007, 368 s.
5. Cavid H. Əsərləri (Tərtib edəni Turan Cavid). 5 cilddə, IV c., Bakı: Elm, 2007, 296 s.
6. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: 2014, 350s.

7. İbadoğlu Ə. Hüseyn Cavidin "İblis faciəsi, Bakı, Azərnəşr, 1969
8. http://www.azerbaijans.com/content_111_az.html
9. http://www.azerbaijans.com/content_111_az.html

CHINARA RZAYEVA

PRAISES AND DAMNATIONS IN THE WORKS OF HUSEYN JAVID

SUMMARY

In terms of the use of folklore examples, the works of the great playwright Huseyn Javid are very rich and saturated. Examples of folklore, the expression of human values clearly expressed in the works of Huseyn Javid. Praises and damnation used in the works of Huseyn Javid were involved to the investigation in this article. Theoretical views were shown by examples extracted from poems. İn the article there was gained such a conclusion that H.Javid especially gave great place to the praises. But the damnations are used very rarely. It shows once more that romantic poet was the supporter of good will and praises. There is no place to the badness not in his life, neither in his works. New interesting scientific summary was gained during the investigation.

ЧИНАРА РЗАЕВА

ПОХВАЛА И ПРОКЛЯТИЯ В ТВОРЧЕСТВЕ ГУСЕИН ДЖАВИДА

РЕЗЮМЕ

Произведения великого драматурга Гусейна Джавида богаты, полноценны с использованиями фольклорных материалов. Отражение фольклорных и мифологических образов и образы человечных ценностей более ярко выражены в его творчестве. В этой статье привлечено к исследованию похвалы и проклятия использованные в работах Гусейна Джавида. Здесь выделенные литературные мысли были выбраны из фольклорных примеров драматурга. Похвалы и проклятье, использованные в работах Гусейна Джавида, были привлечены к расследованию в этой статье. Теоретические воззрения были показаны примерами, извлеченными из стихотворений. В статье был сделан такой вывод, что Г. Джавид особенно уделил большое место восхвалениям. Но проклятия используются очень редко. Это еще раз показывает, что романтический поэт был сторонником доброй воли и похвал. Нет места злу не в его жизни, ни в его делах. При исследовании выявлены новые интересные научные результаты.

Rəyçi: Hüseyn Həşimli
Filologiya üzrə elmlər doktoru

YEGANƏ HÜSEYNOVA
Gəncə Dövlət Universiteti.
yegane.huseynli@box.az

BƏXTİYAR VAHABZADƏ POEMALARINDA SOSİAL MÜHİTİN TƏSVİRİ

Açar sözlər: Şair, poema, kənd həyatı.
Keywords: Poet, poem, rural life
Ключевые слова: Роэт, поэма, деревенская жизнь.

Bəxtiyar Vahabadə poemalarını fərqləndirən əsas cəhətlərdən biri şairin sosial həyat və mühiti dolğun təsvir etməsindədir. Onun yaradıcılığının ilk mərhələsinin məhsulu olan «Sadə adamlar» və "İztirabın sonu" poemalarında da kənd həyatı və sosial mühitin epik təsviri poetik şəkildə verilmişdir. Bu poemalarda sosial mühit, eləcə də, kənd və şəhər arasında mövcud olan fərqliliklərin insan psixologiyasındakı təzahürü təsvir edilir.

Əvvəlki poemalarında olduğu kimi, "Sadə adamlar"da da aparıcı mövqe tutan sevgi xəttində sosial mühitin təsvirinə geniş yer verilir. Ülkər-Rizvan, Cəmilə-Nəriman xətlərində səmimi, ülvi insani münasibətin qəlblərə gətirdiyi hiss və duyğudan bəhs edir. Ülkər kəndə gələrkən çətinliklərlə üzbəüz qalır, ilk günlər tərəddüdlər də keçirir. Və təbii ki, bu psixoloji hallar və həyəcanlar şəhərdə böyüyən və ali təhsil alan gənc mütəxəssisin daxili aləmini, duyğu və düşüncələrini dolğun əks etdirir və bu hal tamamilə obyektiv təsir bağışlayır, oxucu qəhrəmanın mənəvi təkamülünü hadisələrin ümumi axarında izləməyə nail olur.

Əlbəttə, «Mən kənddən gedirəm, kənd gözəlləşir» fikri əsasən Rizvanın kənddən ayrılma məqamlarına bir işarə olmaqla yanaşı, həm də kəndi gözəlləşdirməyə, inkişaf və tərəqqiyə doğru aparmağa can atan Ülkərin gəlişini bir yenilik və ruh yüksəkliyi kimi qarşılamaq cəhdini də təlqin edir. Poemada təbiətlə insan üzbəüz və nəfəs-nəfəsə təsvirə gətirilir, burada insanın keçirdiyi daxili təbəddülatlar, təbiətlə qarşılıqlı münasibətlər təsirli və inandırıcı lövhələrlə verilir. Şair burada kəndlə şəhəri bir-birinə qarşı qoymur, "işi bir, sözü bir" olanlar üçün kəndin özünün də şəhər olduğunu dilə gətirir.

Hələ kifayət qədər yaradıcılıq təcrübəsinə və səriştəsinə malik olmasa da, Bəxtiyar Vahabzadənin 50-ci illərin ortlarında yazdığı bu poemalarında sosial mühit mövzusu ətrafında qurduğu süjet xətləri öz dövrü üçün yenilikçilik kimi qəbul edilə bilər. Şairin bir qədər təfərrüatları uzun təsir bağışlayan fikir və düşüncələri ev və ailə mühitinə, onun davranış və münasibətlərinə gur işıq salır ki, bu da bir çox, qaranlıq mətləblərin bədii ifadəsinə geniş imkanlar açır.

Həyata və dünyaya münasibətdə fərqli düşüncə sahibləri olan Hatəmlə Şahnaz arasında yaranan uçurumlar və ixtilaflar "İztirabın sonu" poemasında adi bütün detalları ilə üzə çıxır. Şahnazın Hatəmin keçirdiyi hissiyyatlara biganə və laqeyd münasibətində ilə aralarında yaranan mənəvi uçurumların fəsadları sosial mühitin mənzərəsini aydın şəkildə göstərir. Daha sonra ailədə yaranan soyuq münasibət, Gülpəri-Hatəm qarşılaşması və nəhayətdə Hatəmin evli olması məsələsinin ortaya çıxması, Sədaqət adlı körpəsinin dünyaya gəlişi ailədə tədricən tarazlığın bərpasına stimul yaratması poemada əsas ideyanın qabarıq şəkildə ifadəsini gerçəkləşdirir.

Beləliklə, B.Vahabzadənin ilk yaradıcılıq məhsullarından olan "Sadə adamlar" və "İztirabın sonu" poemalarının əsas təsvir obyetinin sosial mühit və onun xarakterinin olduğunu görmək mümkündür.

«Sadə adamlar»da (1952-1955) Bəxtiyar Vahabzadə bundan əvvəl yazdığı poemalarda qaldırılan problem məsələlərə sədaqət nümayiş etdirməyə fəal təşəbbüs göstərir. Bu əsərdə də sosial qayğılar: kənd və şəhər arasında mövcud olan tamamilə fərqli durum və bunun insan psixologiyasında müəyyən izlər buraxması əsas məqsəd və hədəf seçilir.

Digər ilk poemalarında olduğu kimi, bu əsərdə də sevgi xətti aparıcı bir mövqe tutur. Ülkər-Rizvan, Cəmilə-Nəriman arasında olan səmimi hisslər və düşüncələr bu baxımdan diqqətdən yayınmır. Müəllifin ayrı-ayrı bölmələr və nəğmələr şəklində qələmə aldığı poemanın elə bir səhifəsi yoxdur ki, orada bu ülvi insani münasibətin qəlblərə gətirdiyi hiss və duyğudan kifayət qədər bəhs edilməsin. Əlbəttə, poemadakı sevgi xəttinin əsər boyu aparıcı bir ideya istiqaməti kimi müəyyənləşməsi elə bir ciddi narazılıq doğurmur. Ancaq poemaya bütövlükdə natamam təəssürat aşılayan məqamlar içərisində sevgi xəttinin heç birinin kifayət qədər əsaslandırılmaması və sona qədər davamlı şəkildə izlənilməməsidir. Şair Ülkəri hazır qəhrəman kimi oxucuya təqdim etmir. O, kəndə gələrkən çətinliklərlə üzbəüz qalır, ilk günlər tərəddüdlər də keçirir. Və təbii ki, bu psixoloji hallar və həyəcanlar şəhərdə böyüyən və ali təhsil alan gənc mütəxəssisin daxili aləmini, duyğu və düşüncələrini dolğun əks etdirir və bu hal tamamilə obyektiv təsir bağışlayır, oxucu qəhrəmanın mənəvi təkamülünü hadisələrin ümumi axarında izləməyə nail olur.

Kənd mühiti, onun təbiəti, saf qəlbli insanları Ülkərin bu yerlərə tez bir zamanda isinişməsinə, ürəkdən bağlanmasına münbit zəmin yaradır, hətta quşların və yağan yağışın səsi burada nağıllarda təsvir olunan əsrarəngiz və sehrli bir aləmi ona xatırladır.

Şair «məni»nin məhsulu olan bu düşüncələr həm də poemanın baş qəhrəmanı olan Ülkərin həyat və fəaliyyət kredosunu və məramını da dolğun əks etdirməkdədir. Bu düşüncələr Ülkəri daha fəal və işgüzar fəaliyyətə qoşur, Şiraslan kişinin vasitəsi ilə kənd rəhbərləri ilə baş tutan görüşdə də o öz məram və məqsədini açıq etiraf edir, kəndin dirçəlişi və tərəqqisi naminə hamını səfərbərliyə

çağırır. Əlbəttə, Ülkərin bu fəaliyyətinə qısqanclıqla yanaşanlar da tapılır ki, bu da poemada əsas konflikti şərtləndirən əsas amillərdən biri kimi müəyyənləşir. Kənd kitabxanasında uzun müddət başını girləyən Vəli kişinin yerində elmi-texniki nailiyyətləri kəndə və onun təsərrüfat həyatına gətirməyi qarşısına əsas niyyətlərdən biri kimi qoyan Ülkərin fəaliyyəti yalnız kənd kitabxanasında kosmetik xarakterli səliqə-sahman yaratmaqla məhdudlaşıb qalmır, o tezliiklə pambıq sahələrinə baş çəkir, min bir əziyyətlə becərilən «ağ qızıl»ın becərilməsində zəhmət çəkən əmək adamlarının qayğı və problemlərinin həlli yollarının axtarılıb tapılmasında yaxından iştirak edir. Tez bir vaxtda o, pambıq ustaları Yasəmənlə Zöhrənin yaxın sirdaşına və xeyirxah məsləhətçisinə çevrilir. Poemadakı bu səhnələr və təsvirlər işini-gücünü ataraq Cəmiləni sevmək xəyalları ilə «ciddi» məşğul olan mehtər Nərimana da təsirsiz ötüşmür, əvvəlcə mehtər sənətini özünə ar bilən Nəriman baş tutmayacaq bu sevgidən uzaqlaşır, Mehtər Təyyarın yazmış olduğu kitabdan faydalanaraq öz işində əsaslı dönüş yaratmağa müvəffəq olur. Ayrı-ayrı təsərrüfatlarda, hətta yaylaqlarda belə səyyar kitabxananın təşkili əmək adamlarının həyatında, fəaliyyət sahələrində nailiyyətlərə gətirib çıxarması fonunda insani münasibətlərin bir qədər arxa plana keçməsinə səbəb olması da nəzərdən yayınmır. Məsələn, Ülkərlə ilk görüşdən Rizvan arasında az qala əhd-peymana çevrilən görüş səhnələri, onların ailələrində öz doğma evlərində olduğu kimi qarşılanması epizodları Rizvanın anası Pəri tərəfindən bəyənilən, hörmət və izzətlə qarşılanan kitabxanaçı qızın sevgi taleyinin yarımçıq qalması, poemada bu xəttin kifayət qədər ayrı-ayrı hadisə və təfərrüatlarla «yüklənməsi» hesabına sona çatdırılmamasına səbəb olur, hadisə içindən şaxələnən hadisələr poemaya ağırlıq və ümumiləşdirmələrə zərurəti kölgədə saxlayır.

Bəxtiyar Vahabzadənin 1956-cı ildə qələmə aldığı «İztirabın sonu» poeması da epik səpgidə yazılan belə nümunələrdəndir. Bu poemada da ailə-məişət mövzusu əsərin əsas ideya istiqamətini müəyyənləşdirir, müəllif gənc bəstəkar Hatəmin şəxsində təsadüfi tanışlıq nəticəsində Şahnazla qurulan ailənin davranış və münasibətlərində, həyat və dünyagörüşlərində baş verən ziddiyyətlərin fonunda yaranan fikir ayrılıqlarını, tamamilə fərqli düşüncə tərzlərini konkret hadisə və təfərrüatlar əsasında açmağa müvəffəq olur. İnsanın mənəvi dünyasının ən səciyyəvi məqamlarına toxunan, onun təzadlarını, bir çox hallarda qəribəliklərini özünəməxsus poetik ümumiləşdirmələrlə canlandırmağa çalışan şair dünyanın əşrəfi sayılan insanın bir anın içində büsbütün dəyişməsini, özgələşməsini həssaslıqla duymaq, bu məqamları əks etdirən təfərrüatları epik təsvirin predmetinə çevirmək cəhdi poemanın əvvəlində daha qabarıq ifadəsini tapır.

Poemanın ayrı-ayrı hissələrində əsas konflikt və ziddiyyətləri doğuracaq səbəblər bəzən o qədər də həyati məsələlərdən və real mətləblərdən yaranmaması diqqətdən yayınmır. Şübhəsiz ki, bir sənət əsərinə baxışdan və təəssüratlardan irəli gələn fərqli münasibətin fonunda yaranan fikir ayrılığının az qala yeni qurulan

ailənin dağılmasına gətirib çıxaracağı da oxucu üçün bir o qədər inandırıcı təsir bağışlamır. Şairin insanların dünyagörüşündə və həyata baxışındakı fərqli yanaşmaları doğuran ciddi səbəbləri yalnız adi bir təfərrüat üzərində qurmaqdansa, gerçəkliklərin özündən irəli gələn məsələlərə yönəltməyi daha təbii görünər, nəticə etibarı ilə əsər belə bir məziyyəti ilə daha çox yeni və prinsipial keyfiyyətlər qazana bilərdi. Belə bir xüsusiyyətlərin Bəxtiyar Vahabzadənin epik yaradıcılığının ilkin mərhələlərində təsadüf edilməsi həm də hələ bu sahədə müəyyən təcrübə və səriştənin olmamasından irəli gələn bir hal kimi qiymətləndirilməlidir. Hadisə və süjet içində yeni təfərrüatlar vermək, situasiyaların bəzən qəsdən uzadılmasına edilən uğursuz cəhdlər də şairin ilk poemalarından nəzərə çarpan qüsurlardan idi və bunun əlamətlərini «İztirabın sonu» poemasında da müşahidə olunmaqdadır. Digər tərəfdən, keçən əsrin ortalarında ailə-məişət mövzularında qələmə alınan poemaların böyük əksəriyyətində real həyatın və gerçəkliklərin məntiqindən irəli gələn barışmaz ziddiyyətlərin bütün təfərrüatı ilə açılmaması və ya belə konflikti doğuran səbəblərin obyektiv və inandırıcı görünməməsi dəfələrlə işlənmiş mövzulara və konkret hadisələrə təkrar müraciətdən irəli gəlirdi. Aydın həqiqətdir ki, ailədə və cəmiyyətdaxili münasibətlərdə belə hadisələr və gözlənilməz situasiyalar baş verə bilər və o epik əsər üçün yeni mövzu və ideyaların bədii ifadəsinə yönəldilməsi şübhə doğurmur. Bu həyati müşahidələrin obyektiv səciyyəsindən və dərin ümumiləşdirmə qabiliyyətindən irəli gələn bir xüsusiyyət kimi epik səpkili əsərlərdə əsas ideyanın ifadəsində başlıca rolu oynaya bilər.

Beləliklə, Bəxtiyar Vahabzadənin epik yaradıcılığının birinci mərhələsində qələmə aldığı ədəbi nümunələrin mövzu, ideya-sənətkarlıq xüsusiyyətləri bir daha onu təsdiqləyir ki, şairin bütün istiqamət və sahələr üzrə axtarışları bilavasitə bu dövrdən başlayaraq özünün inkişaf və təkamül prosesini keçirir. Əslində kəskin fikir və mövqe toqquşmaları, dramatik təzadlar və gərgin situasiyalar Bəxtiyar Vahabzadənin poemalarında özünün parlaq bədii ifadəsini tapır. Bu cəhət sonralar şairin bir dramaturq kimi məhsuldar yaradıcılıq axtarışları aparmasına da müsbət təsir göstərir.

ƏDƏBIYYAT

1.Vahabzadə B. Sadə adamlar. Bakı, "Azərnəşr", 1956, səh.3.

2. Vəliyev M. Bir ailənin tarixi. "Ədəbiyyat və incəsənət" qəzeti. 31 mart 1957.

3.Vahabzadə B. İztirabın sonu. (Poema), "Ceyran", Bakı, Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1957, səh.94.

4. Mahmudov R. Kənd həyatından yazılan əsərlərə aid bəzi qeydlər. "Ədəbiyyat və incəsənət" qəzeti, 30 oktyabr, 1954.

5. Hüseynov Ə. Sadə adamlar. "Ədəbiyyat və incəsənət" qəzeti, 18 sentyabr 1954.

YEGANA HÜSEYNOVA

DESCRIPTION OF SOCIAL ENVIRONMENT IN POEMS OF BAKHTIYAR VAHABZADE

SUMMARY

One of the distinguishing features of poems of Bakhtiyar Vahabzade is substantial description of social life and environment by poet. The product of first stage of his creative work, the poems "Ordinary people" and "End of pangs" describe rural life and social environment poetically in epic form. These poems reflect the manifestation of differences available between social environment, as well as village and cities on human psychology.

Although in 50-es Bakhtiyar Vahabzade had no such creative work experience and skill but his poems of the given period may be accepted as pioneer of that period in view of topics set by him on the social environment. Some details of poet, long lasting thoughts and ideas bring sufficient light on home and family environment, his behavior and relations, which create broader opportunities for artistic expression of many, undisclosed matters.

ЙЕГАНА ГУСЕЙНОВА

ОПИСАНИЕ СОЦИАЛЬНОЙ СРЕДЫ В ПОЭМАХ БАХТИЯРА ВАХАБЗАДЕ

РЕЗЮМЕ

Описание поэтом социальной жизни и среды является одним из основных качеств, отличающих поэмы Бахтияра Вахабзаде. Также в поэмах «Простые люди» и «Конец страданий», которые считаются произведениями первой эпохи его творчества, эпическое описание деревенской жизни и социальной среды представлено в поэтическом виде. В этих поэмах отражены проявления в психологии человека различий, имеющих место между социальной средой, а так же деревней и городом.

Несмотря на недостаточный творческий опыт и навыки, сюжетные линии, построенные вокруг темы социальной среды в поэмах Бахтияра Вахабзаде, написанных в середине 50-х, для своей эпохи могут быть восприняты как новаторство. Мнения и мысли поэта, хотя и создают впечатление затянутости, проливают яркий свет на домашнюю и семейную обстановку, его поведение и отношения, что в свою очередь, открывает широкие возможности для художественного выражения многих неясных замыслов.

Rəyçi: prof.Bədirxan Əhmədov

PƏRVANƏ QULİYEVA
Gəncə Dövlət Universiteti
yegane.huseynli@box.az

AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ RƏSUL RZA DÜNYASI

Açar sözləri: ədəbiyyat, sənətkar, məzmun, forma, yaradıcılıq, poema.
Ключевые слова: литература, мастер, содержание, форма, творчство, поэма.
Key words: Literature, craftsman, maintenance, form, creative activities, poem.

Rəsul Rza Azərbaycan ədəbiyyatının inkişafında öz dəsti-xətti olan görkəmli sənətkarlardan biridir. Onun bir-birindən maraqlı, bədii cəhətdən qüvvətli, sənətkarlıqla yazılmış əsərləri vardır. Rəsul Rza xalqımızın ən böyük mənəvi sərvəti olan söz xəzinəmizin incəliklərindən yararlanmaqla qiymətli sənət əsərləri yaratmışdır.

Rəsul Rzanın yaradıcılığı həm məzmun, həm də bədii forma cəhətdən zəngindir. Bir zamanlar Rəsul Rza sənətinə dərindən bələd olan azadlıq aşiqi, alovlu sənətkar Xəlil Rza Ulutürk "Zamanın adından danışan sənətkar" əsərində yazırdı: "R. Rzanın poeziyası-təfəkkür poeziyasıdır. Onun şerləri oxucunu düşünməyə, həm də dərindən düşünməyə, fəal idraka təhrik edir. Şairin bəzən aşkar demədiyini, açıb-ağartmadığını anlamağı, duymağı arif oxucunun öz öhdəsinə buraxır. Ona görə bu şerlər oxucudan mədəni səviyyə, müasir poetik üslubu qavrayan bədii zövq, hətta adi milli şüurdan doğan bir sıra başqa keyfiyyətlər tələb edir. Bu şerlər yalnız bədii zövq üçün meydana gəlməmiş, birinci növbədə, yeni insan tərbiyə etmək, vətənə, xalqa, insana bağlı könül sahibləri yetişdirmək üçün yazılmışdır."

Sərbəst şerin bədii imkanlarından sənətkarlıqla yararlanan Rəsul Rzanın hansı mövzuda yazmasından asılı olmayaraq bu mövzudakı təmkin, sərbəstlik, fikrin ifadəsi diqqətdən yayınmır. Onun əsərlərində qürur, mərdlik, prinsipiallıq, mübarizlik vardır. Yaradıcılığında bəşəriyyətin azad, sakit, xoşbəxt həyatı, üstündə dünyaya göz açdığı Yer kürəsi, burada baş verən hadisələr və onun bir kiçik hissəsi olan Ana Vətəni-Azərbaycanın mədəniyyəti, ədəbiyyatı, şərəfli tarixi, insan zəkası, insan əməyi, dünya xalqlarının inkişafı sülh, müharibə, fəlakətlər, şairin könül çırpıntıları, lirik duyğuları, nəcib insani hissləri əsas yer tutur. Hansı əsərinə diqqət yetirsək, ona tədqiqatçı, oxucu gözüylə baxsaq düşündürücü mövzularla, fikirlərlə, ideyalarla qarşılaşarıq. Şairin lirik şerləri bu cəhətdən diqqəti daha çox cəlb edir. Həcmcə kiçik bu lirik şerlərdə böyük fikirlər, arzular, həyati məsələlər ön plandadır.

Rəsul Rza yaradıcılığında ("Soruş" şerində) şair böyük sənətkarlarlıqla lirik düşüncələrini verir. Burada şairin fəlsəfi düşüncələri ilə poetik duyğuları birləşir.

Şair gördüyü həyat hadisələrini, ətrafında baş verən reallıqları poetik bir dillə qələmə alır; odun nə çəkdiyini küldən, başın çəkdiyini dildən, nəğmələrin həsrətini bir qırıq teldən, zülmətin, qaranlığın verdiyi möhnəti kordan soruşmağı məsləhət bilən şairin qəlbində insani hisslər dolaşır. Dünya, həyat hadisələrinə açıq gözlə baxan, ətrafında baş verən hadisələri bütün incəlikləri ilə duyan şair:

Mən kölgəsiz bağ görmədim,
El dərdi tək dağ görmədim,
Gözlərimi yumub açdım
Neçə dostu sağ görmədim.

-misralarında ən böyük dərdini - el dərdini göstərməklə yanaşı, gözünü açıb yumunca neçə dostunu itirdiyinidən doğan kədərini də ifadə edir..

Şerin ikinci hissəsində də şair lirik hisslərini tərənnüm etməklə yanaşı bir şair kimi narahatdır. "Hansı sözüm, hansı şerim yaşayacaq məndən sonra mən bilmirəm, eldən sonruş!"-deyən şair qələmiylə xalqa xidmət etdiyindən, onun mənafeyini müdafiə etdiyindən şerlərində xəlqilik prinsiplərini əsas tutduğundan hansı əsərinin yadda qalacağını eldən, xalqdan soruşmağı məsləhət bilir. Çünki şairin, sənətkarın yaratdığı əsər o zaman qüdrətli əsər olur ki, o əsərdə xalqın istək və arzuları, fikir və duyğuları yaşayır.

Rəsul Rza yaradıcılığında vətən mövzusu mühüm yer tutur. Onun üçün vətən geniş məfhumdur. Bu vətən onun üçün dünyanın bütün varından, dövlətindən qiymətlidir. O bu vətəndən yetərincə yararlanmışdır. Çünki onun baharında bənövşəni, nərgizi dərib, buz bulaqlarından doyunca içib, hər qarışını addım-addım gəzib, gözəlliyinə məftun olub, bu gözəlliklərdən aldığı mənəvi zövqü dünyanın hər nemətindən əziz, qiymətli bilib. Onun gözəlliklərini tərənnüm edən, doğma Bakısının xoş güzəranını, gəncliyini keçirtdiyi, yazıb-yaratdığı doğma küçəsini də əzizləməyi bacaran şair həm də onun qayğılarını yaşamağı, bu qayğılara məlhəm olmağı bacaran vətəndaşdır. Şair üçün Azərbaycanın hər bir guşəsi əzizdir. Vətən deyib müraciət etdiyi Bakı da, Təbriz də onundur. Vətən dedikdə şair torpağında bitən hər ağacı, hər çiçəyi, hər gülü, hər dağı, qayanı, hər şəhəri, hər eli-elatı nəzərdə tutur. Şair doğulub boya-başa çatdığı vətəninin tarixini dərindən bilən bir insandır. Onun hər gününün acısını, sevincini, kədərini ürəyində yaşadan vətənpərvər şairdir. Bakıda yaşayıb-yaradan şair sinəsində Təbriz həsrətinin yaşadır. Ürəkdolusu tamaşasına həsrət qaldığı Təbrizi yuxularında görür, onun nigarançılığını çəkir, yuxularında qəmli gördüyü üçün, Təbriz taleyinə həsrət, ayrılıq düşdüyü üçün şairn qəlbi də narahatdır. Bağlı yollar, tikanlı məftillər araya elə bir ayrılıq salmışdır ki. şair kimi neçə -neçə qüzeyli azərbaycanlı güneyli azərbaycanlılardan-doğmalarından ayrı düşüb, bir-birindən nigaran, həsrət girdabında çabalayır. Təbriz dərdi Bakının ən böyük dərdidir. Şair bu dərdi içində yaşadır. Narahatdır, ona görə ki, Təbriz yuxusuna hər gecə qəmli girir. Şair körpə bir uşağı dilə tutub, ovundurmaq istəyən, könlünü almağa çalışan, sinəsindən keçənləri bilmək istəyən bir ata kimi Təbrizini dindirir:

Tez-tez yuxuma girirsən,
Təbrizim.
Yoxsa incimisən
Uzun həsrət yorub səni?!
Yoxsa dözüb-dözüb
indi yaman qəribsəmisən.
İnanmıram.
Hələ ümidin var böyüyəsi,
arzun var boy atası.

Təbriz dərdli, Təbriz həsrətli şair ondan ayrılmaq istəməzdi. Onu da zülümnən ayırıblar. Bir zaman Təbrizdə olmaq onun qismətində imiş. O zaman Təbrizin bağ-bağçaları gül-çiçəklə dolu idi. O zaman qəhrəman Təbriz azadlıq uğrunda mübarizəyə qalxaraq öz sözünü deyirdi. Dodaqlarda "ey torpağı lə"l, mərcan Azərbaycan" mahnısı səslənirdi. Lakin şair bu bəxtiyar günlərin uzun sürmədiyindən azadlıq carçılarının faciəsindən, fəlakətindən ürəyi göynəyərək xoş günlərin qara günlərlə əvəz olunduğunu, Təbrizin bu görkəmlə viranəyə çevrildiyini ürək ağrısıyla bildirir.

Dünya, həyat, kainat mövzusu Rəsul Rza yaradıcılığında Rəsul Rza təfəkkürünə, dünyagörüşünə uyğun vəsf edilir. Bu tərənnümdə dünyanın dərdini şair öz dərdi kimi yaşayır. Şairin gözlərinə yuxu getmir: "nə başım ağrıyır, nə xəstəyəm" deyən şair yatağının rahat, otağın sakit guşəsində nigaran baxışlarala, fikirlə dünyanın ağrısını çəkir, bu dünyanın bir guşəsi də onun torpağıdır. Ancaq özünü deyil həm vətəninini, həm də dünyanını dərdini, ağrısını çəkən şair gözlərimiz qarşısında əsl vətəndaş, ziyalıdır. Böyük dünyanın bir zərrəsi olan insan, onun yaxşılarını, pislərini görür, eşidir, gələni qarşılayır, gedəni yola salır, gülə-gülə, qəmlənə-qəmlənə, arzularını, istəklərini həyata keçirmək uğrunda çalışaraq, bu yolda çətinliklərlə rastlaşanda bu çətinliyə qarşı mübarizə apara-apara yaşayır, işləyir, oxuyur, öyrənir, görür, götürür, gedəndə də şairin dediyi kimi "nə isə aparca"qdır özüylə!" Dünya elə dünyamızda qalır. Daima qayğılı, fikirli, qaşqabaqlı şair dünyanın qayğılarını çəkməyi özünün vəzifəsi, insani borcu bilir.

Şairin nəzərində insanlar arasında dostluq və səmimiyyət olsa zülmətləri işıq boğar, bolluq ehtiyacı aradan götürər, məhəbbəti özünə ideal bilən nifrəti qəlbində boğar, dünyada həsrət, nifrət, kin olmasa dünya dinc və firavan olar. Yaxşılar pislərin qəlbindəki nifrət toxumunu yox edə bilsə, insanlar yer üzərində bir-biriylə dost, qardaş olsa təbiət də dil açıb danışar, heyvanlar da, quşlar da yaşamaq naminə dünyanın bəzəyi olar.

Dünyanı ziddiyyətlər, müharibələr, kütləvi qırğın silahları ilə məhv etmək qorxusunu yaşayan insanların səadətini unudub dünyanın dincliyinin qayğısını çəkməsi, gözlərdəki nigarançılıq, tələş bir çox ölkələrin ərazisində gedən müharibələrdən cana doyan insanların istəkləri şairin bu misralarında ümumiləşir:

Var elə gün olaydı ki, deyəydilər:

Dünya səsziz, dünya sakit,
Planetin heç yerində
Bir güllə də açılmadı.

Şair dünyanın bolluq, bərəkət içində görmək, istəyir və o eşitmək istəmir ki, kimsə deyər ki, " bircə yoxsul süfrəsi də açılmadı". Bir günün ilə, əsrə bərabər olmasını, mənalı ömrü, mənalı yaşayışı, insan üçün ən qiymətli günlərin mənalı keçməsini hər şeydən çox arzulayır. Bu şe'rlərdə insan səadəti, dinc həyat eşqi güclüdür.

Şairin yaradıcılığında mühüm yer tutan mövzulardan biri də səyahətləri, bu səyahətlər zamanı gördüyü tarixi yerlər, ölkələr, şəhərlər, müxtəlif görkəmli şəxsiyyətlər, onlarla arasında olan dostluq münasibətləri, şairin gördüyü, eşitdiyi hadisələrin poetik şəkildə tərənnümüdür. Nazim Hikmətin əziz xatirəsinə ithaf etdiyi "Burda bir insan ölüb" şe'rində şair ən əziz insanın itkisindən doğan kədərini ifadə edir:

Bir dostumuz öldü
Adamların yaxşısından idi.
Sözü, işi arzularıyla insan idi.
Bu ölümə yerin torpağı yandı,
Ağacın yarpağı yandı,
Göynədi qəlbim
Duz basılmış yara kimi.

Şerdə şair bu gözəl insanın ölümündən kədərlənir. Onun bu dünyada öləndən sonra işıqlı fikirlərinin, "böyük qəlbinin istisi"nin qaldığını ürək yanğısı ilə ifadə edir.

Ümumiyyətlə, Rəsul Rzanın əsərlərinin dili, üslubu, folklorla, xalq ədəbiyyatıyla bağlı məsələləri özü ayrıca bir mövzudur. Bu mövzunu geniş şəkildə işləməklə biz Rəsul Rza yaradıcılığı, onun əsərlərinin sənətkarlıq xüsusiyyətləri, bu əsərlərdəki folklor motivləri haqqında dəyərli sözlər deyə bilərik. İnanıram ki. bu mövzular üzərinə də qayıdacığıq. Hər bir xalq sənətkarının əsərlərinin sənətkarlıq məsələlərini təhlil etmək özü bir elmi axtarışdır. Bu da onu göstərir ki, Rəsul Rza dövrünün ən böyük sənətkarları kimi əsərlərində xəlqiliyi, realizmi əsas götürməklə dərin məzmunlu, yüksək ideyaları özündə yaşadan sənət əsərləri yaratmışdır.

Ədəbiyyat:

1.Azərbaycan sovet ədəbiyyatı. Ali məktəblər üçün dərslik. Bakı, “Maarif”, 1988
2.B.Bağırov. Azərbaycan Sovet ədəbiyyatına aid metodik göstəriş, 1972
3.R.Rza. Seçilmiş əsərləri. 5–ci cilddə, III cild, Bakı, 1981
4.R.Rza. Seçilmiş əsərləri, 5 cilddə, IV cild, Bakı, “Yazıçı”, 1982
5.Azərbaycan Sovet ədəbiyyatı. Ali məktəblər üçün dərslik, Bakı, 1988

6.R.Rza. Seçilmiş əsərləri. V cilddə, 1 cild, Bakı, 1980
7.R.Rza. Seçilmiş əsərləri. V cilddə, II cild, Bakı, 1981

Hd.tch. P.E.GULIYEVA

AZERBAIJAN LITERATURE AND RASUL RZA'S WORLD.

SUMMARY

Rasul Rza's language, style, works, problems connected with folklore, with people literature itself is the separate subject. We shall be able to say valuable words about Rasul Rza's creative work, about motives of handicraft features of his works, folklore in these work with working this subject in the wide form. It is scientific search to analyse the handicraft problems of the works of the each people. It shows that Rasul Rza as the greatest craftsmans of the time has created the works in the national character, with taking basicly realism deep pithy, works of art immortalizing in itself high ideas.

Ст.пр.П.Е.КУЛИЕВА

АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА И МИР РАСУЛ РЗЫ.

РЕЗЮМЕ

Язык произведений Расул Рзы, стиль, задачи, связанные с фольклором, народной литературой само является отдельной темой. Исследуя эту тему в широком виде, мы можем сказать ценные слова о творчестве Расул Рзы, о мастерских особенностях его произведений, о фольклорных мотивах этих произведений. Исследовать мастерские задачи произведений каждого народного мастера само является научным исканием. И это показывает , что Расул Рза , как самые великие мастера своего времени создал произведения искусства, в которых живут народность, реализм, высокие идеи.

Rəyçi: dos. Nəzmiyə Axundova

KAFİYƏ MUSAYEVA
Gəncə Dövlət Universitetinin
yegane.huseynli@box.az

ORTA ƏSR ƏDƏBİ TƏNQİDİNİN ÜSLUBLARI

Açar sözləri: *ədəbiyyat, ədəbi-tənqid, elmi fəaliyyət, realist*
Ключевые слова: *литература, литературная критика, научная деятельность, реалистический.*
Key words: *literature, literary criticism, scientific activity, realist.*

Orta əsrlər ədəbi fikrini təhlil edərkən bu dövrün estetik görüşlərində iki əsas üslub – realist («şeiri-sidqi») və romantic («şeiri-kizbi») üslublar haqqında fikirlər də tədqiqatçının diqqətindən yayınmamışdır. Burada varlığı bir-birinə zidd mövqedən əks etdirən bu təsvir üsullarının mahiyyət və məğzi müəyyənləşdirilir, onların əsas xüsusiyyətləri haqqında bəhs edilir. K.Talıbzadə bu dövrün mütəfəkkirlərinin əsasən «şeirikizbi»yə üstünlük verdiyini, Nəsirəddin Tusinin «Əsasüliqtibas» əsərində bu iki üslubu qarşılaşdıraraq «kizb»ə üstünlük qazandırdığını, Firdovsi, Nizami, Xaqani kimi ədiblərin «kizb» üslubunda yazdığını göstərir, «sidqi»nin də Azərbaycan alimləri Şərəfəddin Rami Təbrizi və Əlişah ibn Mehdi kimi tərəfdarları olduğunu nəzərə çatdırırdı. Tədqiqatçı eyni zamanda orta əsrlərin görkəmli mütəfəkkirləri Qurqani və Ibn Sinanın da hər iki yaradıcılıq üsulunun əsas xüsu-siyyətlərinin təhlilində «şeiri sidqi»ni məhdud və birtərəfli üsul kimi qiymətləndirdiklərini, son dərəcə geniş imkanlara malik «şeiri kizbi»ni təqdir etdiklərini qeyd edirdi.

Nizamidən sonra onun yaradıcılıq ənənələrinin davam etdirilməsi, dahi şairin ədəbi irsinə münasibət bildirilməsi barədə K.Talıbzadə tənqidi fikrin əsas inkişaf tərəflərindən biri kimi danışır. Tədqiqatçı burada əsasən Nizami məktəbinin layiqli davamçısı XIV əsr şairi Arif Ərdəbilinin görüşlərinə diqqəti cəlb edir. Onun məşhur «Fərhadnamə» əsərində «Xosrov və Şirin» mövzusuna Nizami ilə özünün yanaşma prinsiplərinin, təsvir üsullarının təhlilində şairin ədəbi mövqeyinin daha aydın nəzərə çarpdığını qeyd edən tədqiqatçı yazır: «Arif Ərdəbilinin ədəbi-estetik prinsipləri Nizamiyə münasibət bildirilən məqamlarda müəyyənləşir.» XIV əsr şairi Arif Ərdəbilinin dahi sələfinə danılmaz sevgisi və pərəstişi, vurğunluq və hörməti onun ədəbi görüşlərinin qeydsiz-şərtsiz qəbul edilməsinə gətirib çıxarmır, əksinə, şair eyni mövzuya Nizami ilə özünün fərqli münasibətindən söhbət açır, «Xosrov və Şirin» poemasını fəsil-fəsil təhlil edib, öz ədəbi mövqeyini bildirirdi. K.Talıbzadəyə görə Nizami ilə A.Ərdəbili arasında fikir ayrılığı ilk növbədə mövzu və onun bədii həlli problemi ilə bağlı olduğundan A.Ərdəbilinin məqsədi «Xosrov və Şirin» poema- sının sözün müasir mənasında

tənqidi təhlilini verməkdən daha çox özünün ədəbinəzəri mövqeyini və prinsiplərini əsaslandırmaqdan ibarət idi.

Tədqiqatçı eyni zamanda bu ədəbi-bədii polemikada tənqidi fikrin özünəməxsus təzahürünü görür, onu milli tənqidi fikrin xarakterik inkişaf xüsusiyyəti kimi mənalandırırdı. K.Talıbzadə Nizaminin sənət görüşlərinin tənqidində bəzən hədsiz subyektivizmə yol verməsinə baxmayaraq A.Ərdəbilinin gerçəkliyi, həyat hadisələrini real şəkildə əks etdirməyə çağırışında öz dövrü üçün mütərəqqi mahiyyət daşıyan rasional cəhətlərin də olduğunu nəzərə çatdırır və bunu təhlilində əsaslandıra bilirdi. XIII-XVIII əsrlər ədəbi-estetik fikrini tədqiq edərkən müəllif bu möhtəşəm ədəbi mərhələnin tənqidində bir sıra keyfiyyətlərə – ənənəyə münasibət, bədii təsvirdə əqli başlanğıcın roluna əhəmiyyət vermək, xəyali və real tərəflərin nisbətini gözləmək və digər məsələlərə xüsusi diqqət yetirir, araşdırmalarını bu istiqamətdə aparırdı. O, Nizamidən sonrakı dövrdə Azərbaycan ədəbi-estetik fikrinin inkişafında I.Nəsimi, M.Füzuli kimi böyük şairlərin xidmətlərindən danışarkən milli estetik fikrin bu dahi söz ustalarının yaradıcılıqları ilə yeni bir mərhələyə yüksəldiyini qeyd edir, onların görüşləri haqqında nisbətən yığcam məlumat verməklə kifayətlənir. Orta əsrlərin ədəbi-estetik görüşləri elmi yalnız bədii ədəbiyyatda öz əksini tapan fikir və mülahizələrlə məhdudlaşmır. Belə ki, bu dövrdə professional ədəbi elm inkişaf edir, ədəbiyyat nəzəriyyəsi məsələlərini əhatə edən poetika risalələri, fəlsəfi traktatlar, şərq ədəbiyyatı tarixini işıqlandıran təzkirələr yazılırdı. Bu elmi-nəzəri əsərlərin Nəsirəddin Tusi, Şərəfəddin Rami, Vəhid Təbrizi, Sam Mirzə, Əssar Təbrizi, Sadiq bəy Sadiqi, Lütfəli bəy Azər kimi müəllifləri K.Talıbzadənin qeyd etdiyi kimi, ədəbiyyat nəzəriyyəsi və ədəbiyyat tarixini yaratmaqla məşğul olmuşlar. K.Talıbzadə təhlilində Zeynalabdin Şirvanini Axun-dov maarifçiliyinə keçid dövrünün bir çox xüsusiyyətlərini ədəbi görüşlərində əks etdirən bir alim kimi daha yüksək dəyərləndirirdi. Müəllif müstəqil janr kimi yaranmağa başlayan ədəbi tənqidin yetkin təzahürünü isə M.F.Axundovun görüşləri əsasında izah etməklə, eyni zamanda realizmin nəzəri məsələlərini üzə çıxarıb elmi cəhətdən ümumiləşdirirdi. O, maarifçi-realist tənqid konsepsiyasının yaranmasında M.F.Axundovun əvəzsiz xidmətlərindən, böyük mütəfəkkirin yaratdığı tənqid məktəbinin maarifçi-realist ədəbiyyat uğrunda mübarizəsindən geniş planda bəhs edir, bu kimi mühüm ədəbiyyatşünaslıq məsələlərinin uğurlu həllinə nail olurdu. Onu da qeyd edək ki, K.Talıbzadəyə qədər də M.F.Axundovun ədəbi-tənqidi görüşləri tədqiq edilmiş, bu mövzuda bir sıra əsərlər yazılmışdı. Bunlardan M.Arif, F.Qasımzadə, M.Cəfər, C.Cəfərov, M.M.Qasımov, M.Rə-fili, Ş.Mirzəyeva, N.Məmmədov və başqa tanınmış tədqiqatçıların əsərlərini dəyərli nümunələr kimi göstərmək olar. Bu əsərlərdə M.F.Axundovun estetik görüşləri nəzərdən keçirilir, XIX əsrin böyük mütəfəkkirinin ədəbi-tənqid haqqında fikir və mülahizələri araşdırılır, təhlil edilirdi. Axundov tənqidinə həsr olunmuş həmin əsərlər sırasında görkəmli tənqidçi M.Cəfərin fundamental tədqiqatı – «M.F.Axundovun ədəbi-

tənqidi görüşləri» monoqrafiyası (1950) xüsusilə diqqəti cəlb edirdi. Burada Axundovun görüşləri milli tənqidin təşəkkülü, ədəbiyyatşünaslıq prob-lemlərinin həlli zəminində öyrənilmir, onun estetikasının bir sıra məsələləri diqqətlə araşdırılmışdı.

M.F.Axundovun ədəbi konsepsiyasının formalaşmasında mühüm mənbələrdən danışarkən K.Talıbzadə Şərqin yetirməsi olan böyük yazıçı və tənqidçinin estetik təfək-kürünün təşəkkülündə məhz Şərq estetik fikrinin nailiyyətlərindən xüsusi bəhs edir, ədibin milli ədəbi irsimizə – Nizami, Xaqani, Nəsimi, Füzuli, Əssar, Vaqif, Bakıxanov, Vazeh və Zakirin görüşlərinə mühüm qaynaqlar kimi istinad etdiyini bildirir. Burada Şərq mənbələri ilə yanaşı rus və Avropa elmi, fəlsəfi və ədəbi fikrinə dair məxəzləri araşdırıb onlardan yaradıcı şəkildə bəhrələnməsi Axun-dovun görüşlərinin formalaşmasına təkan verən amillərdən biri kimi qiymətləndirilir. Yazıçının ideya mənbələrindən, rus ədəbi fikri ilə əlaqələrindən danışarkən müəllif onun görkəmli rus tənqidçiləri N.A.Dobrolyubov və V.Q.Belinskiyə münasibəti haqqında xüsusi bəhs edir, Axundovun ilk dəfə ədəbiyyata münasibət bildirdiyi Puşkinin ölümünə həsr olunmuş poemada rus klassiklərinin mövqelərini düzgün qiymətləndirməsini də onun rus ədəbiyyatı və tənqidiylə yaxından tanışlığı ilə izah edirdi.

Axundov tənqidinin yarandığı dövrün spesifikasına toxunan K.Talıbzadə bu mərhələdə Azərbaycanda epiqonçu ədəbiyyatın, mərsiyyə şeirinin davam etdiyini, realizmin təzəcə təşəkkül tapdığını, Vaqif, Zakir, Şakir kimi realist meylli şairlərin ədəbi mövqeyinin hələ izah olunmadığını yazırdı. Axundovun realist ədəbi tənqidi belə bir dövrdə formalaşır, epiqonçu ədəbiyyata qarşı çıxmaqla yanaşı, realizmin təşəkkülü uğrunda mübarizə aparırdı; böyük mütəfəkkir «realist ənənələrin əhəmiyyətini, faydasını ay-dınlaşdırır və bu ənənələri yeni məzmunda inkişaf etdirmək zərurətini göstərirdi.» K.Talıbzadə monoqrafiyasında Axundovun görüşlərini tədqiq edərkən problemin bu cəhətinə xüsusi diqqət yetirir, onun realist konsepsiyasını aydınlaşdırmağa çalışır, yazıçının görüşlərində və bədii əsərlərində realizmin təzahürünü göstərirdi. Həqiqətən də Axundov tənqidinin və estetikasının başlıca problemi olan realizm onun sənət nəzəriyyəsinin əsasını təşkil edir. Yazıçının fikrincə sənət əsərində «xilafi-vaqe», yəni real həyata zidd bir şey, anti-realizm olmamalıdır, bunun əvəzində sənətdə «mütabiqi-hal» təzahür etməlidir. Onun ədəbi anlayışında realizm termini kimi «mütabiqi-hal», «müvafiqi-övza», «kəma hüva həqqəhu» ifadələri işləndiyini qeyd edən K.Talıbzadə Axundovun realist sənət haqqında fikirlərini məhz bu terminlər vasitəsilə müasirlərinə çatdırdığını bildirir. K.Talıbzadəyə görə Axundovun tənqidi onun sənət nəzəriyyəsinin ifadə formasıdır ki, onun da mərkəzində duran əsas problem realizmdir. Yazıçı bu metodun ayrı-ayrı prinsiplərini vahid bir konsepsiya əsasında şərh edir, öz realist nəzəriyyəsində maarifçi realizm mövqeyində dayanır, bu məsələnin həlli uğrunda ardıcıl mübarizə aparırdı. Gerçəkliyi sənətin əsas təsvir obyekti hesab edən Axundova görə hər hansı bir təsvir ağlın tələblərinə uyğun

olmalıdır. O, məhz bu tezisdən çıxış edərək realizmin prinsiplərini müəyyənləşdirməyə çalışırdı. K.Talıbzadə təd-qiqatında bu cəhətə xüsusi diqqət yetirmişdir. Müəllif monoqrafiyada Axundov tənqidinin bütün məsələlərini onun realism nəzəriyyəsi əhatəsində araşdırır; burada yalnız realizmin tipiklik, həyatilik, ideyalılıq, bədii satira kimi əsas məsələlərini öyrənmir, həm də ədəbiyyat və incəsənətdə forma və məzmun, onların qarşılıqlı əlaqəsi, Azərbaycan və Şərq ədəbiyyatının görkəmli klassikləri haqqında fikirləri kimi sənətin ümumi nəzəri məsələlərini də realizm aspektində izah edirdi. Tədqiqatçı Axun-dov tənqidinin M.Füzuliyə münasibəti ilə bağlı məqamları da diqqətlə tədqiq edir, bu haqda deyilmiş fikir və müla-hizələri dəlillər əsasında dəqiqləşdirirdi. «Füzuli şair deyil və xəyalatında əsla təsir yoxdur» deyə böyük ədəbi şəxsiyyəti Şərq klassiklərinin cərgəsindən ədalətsizliklə ayırmasında K.Talıbzadə Axundovun haqsızlığını qeyd edirsə, digər tərəfdən dahi şairə münasibətdə Axundova şərti bəraət qazandıran bəzi obyektivtarixi məqamları açıqlayır. O, Axundovun ilk növbədə realizmi əsaslandırmaq, onun milli ədəbi prosesdə mövqeyini möhkəmləndirmək üçün bu üsuldan istifadə etdiyini, romantizmin şöhrətini, nüfuzunu qırmaq, romantik ədəbiyyatın möhkəm kök salmış estetik müddəalarına qarşı çıxmaq üçün Füzuliyə kəskin münasibət bildirdiyini qeyd edir. Tədqiqatçı bu münasibətin əslində Füzulinin özündən çox onun poeziyasının təsiri ilə yaranan epiqonçu nəzmə aid olduğunu göstərməkdə və əsaslan-dırmaqda tamamilə obyektiv və düzgün mövqe tuturdu. Axundovun M.Füzuliyə münasibətinin romantizmlə əlaqələndirildiyi məqamlarda isə müəllifin gəldiyi nəticə bir qədər mübahisəli təsir yaradır. Zənn edirik ki, Axundov kimi böyük mütəfəkkir milli ədəbi prosesdə realizmin mövqeyini möhkəmləndirmək xətrinə də olsa Füzuli kimi dahi sənətkarı təkcə romantik şair olduğuna görə inkar etməzdi. Doğrudur, yeni məktəb yaradan Axundov realizmi əsaslandırmaq üçün özündən əvvəlki məktəbin – həm də əsrlərlə davam edən romantizmin təsirinə qarşı mübarizə aparmışdı, lakin, Füzulinin şöhrətini heçə endirməyi bu ədəbi mübarizə üsullarından, yollarından biri kimi seçməmişdi. Ona görə ki, Axundov kimi böyük yazıçı-tənqidçi «romantic poeziyanın məziyyəti və ləyaqətini başa düşməmiş deyildi: bunu onun yaradıcılığını bəyəndiyi, təqdir etdiyi romantik şairlərə münasibəti də yaxşı göstərir.» Bədii yaradıcılıqlarında romantik metodla sıx bağlı xüsusiyyətlər nəzərə çarpan Şərq, rus, eləcə də Avropa ədəbiyyatının bir sıra görkəmli yazıçıları Axundovun əsərlərində misilsiz söz inciləri yaradan sənətkarlar kimi dönə-dönə təqdir olunurdu.

Ədəbiyyat:

1.K.Talıbzadə. “XX əsr Azərbaycan ədəbi tənqidi . (1905-1917-ci illər)”. AEA, Bakı, 1966

2.K.Taləbzadə. “Azərbaycan ədəbi tənqidinin tarixi”, “Maarifɜi” nəıoriyyatə, 1984

3. K.Taləbzadə, “Seзilmiю əsərləri”, Azərbaycan Dцvlət nəюriyyatə, Bakə, 1994
4. Y.Qarayev. “Ədəbi ьfьqlər”, Gənclik, Bakə, 1985
5. Y.Yusifov. Ulduzlarən karvan yolu. Gəncə , “Əsgəroplu”, 2001

Hd.tch.K.R.MUSAYEVA

THE MIDDLE AGE STYLES OF LITERARY CRITICAL

SUMMARY

The representatives of literary criticism has lightened the creative activities way Azerbaijan raising the spreading democratic social thought, praise of the revolutionary ideas to the literary critical professional level on the begining of the XX century as F.Kocherly, S.Huseyn, A.Sur, N.Narimanov, A.Yusifzadeh, A.Akberov and so on.

He has shown which have involved for the works of that critics which mentioned to the analysis connected with literary development of the time, their fighting for new Azerbaijan literature.

ст.пр.К.Р.МУСАЕВА

СТИЛИ СРЕДНЕВЕКОВОЙ ЛИТЕРАТУРНОЙ КРИТИКИ.

РЕЗЮМЕ

Представители литературной критики наряду с определением распределения Азербайджанской демократической мысли начала 20-го века, воспеванием революционных идей, определением усовершенствования просветительского мировоззрения, просветил творческий путь возвысивших литературную критику на профессиональный уровень Ф.Кечерли, С.Гусейна, А.Сура, Н.Нариманова, А.Юсифзаде, А.Акперова и др.

Он привлек к исследованию произведения вышеназванных критиков относительно литературного развития того времени, их борьбу за литературу Азербайджана.

Rəyçi: dos.əv.Q.N.Qazıyev

مفهوم الأدب عند ميخائيل نعيمة

Açar sözlər: *tənqid, tənqidçi, şair, ədəbiyyat*
Ключевые слова: *критика, критик, поэт, литература*
Key words*: criticism, critic, poet, literature*

د. ماهر حميدوف
فرع الشرق والغرب
في معهد الدراسات الشرقية
التابع لأكاديمية أذربيجان الوطنية للعلوم

يعد مخيائيل نعيمة واحدا من أبرز الكتاب العرب الذين تعمقوا في دراسة الأدب الروسي. ولقد عاش عمراً طويلاً بلغ قرابة 99 عاماً خلف وراءه مجموعة من الآثار الأدبية منذ المراحل الأولى لإبداعه خصوصا أبحاثه عن الشعر ونقده. وقد تلقى نعيمة تربية ذات ثقافة مسيحية تقليدية، ونهل من مشارب أدبية وفكرية مختلفة. وعندما تشكلت شخصيته الأدبية كانت له مكانة مهمة في الثقافة الدينية.

وكان نعيمة الذي أحرز شهرة بأشعاره ومقالاته النقدية خلال الفترات الأولى من تأثيره الأدبي قد اتبع أسلوب حياة انعزالي على الرغم من تواجده مع الناس في الفترة التي تلت عودته من أمريكا -ثالث مرحلة في مسيرته الأدبية- إلى لبنان؛ وكرّس نفسه للأفكار الغيبية وما وراء الطبيعة ولكتابة أعمال تدور حول هذه المواضيع.

إن هذا الكاتب الذي غاص منذ طفولته في أفكار تتمحور حول مواضيع الحياة والوجود وأسرارهما كان طوال حياته في بحث عن حقائق كهذه. ولما كان يفكر في ذلك، كان يَرِدُ مشارب فكرية أجنبية عديدة ليتمكن من التوصل إلى فكّ رموز هذه المواضيع.

يعد ميخائيل نعيمة أحد روّاد الأدب العربي الحديث، كما أنّه يتميّز بشخصيّة أدبيّة فريدة تتمتّع بتعدُّد مواهبها الأدبيّة كالشِّعر والقصة القصيرة والكتابة التجريبيّة.

إذا ما تمّ تقييم ميخائيل نعيمة بالاعتماد على آثاره الأدبية كاملة فسوف يتبيّن لنا أنّ العالم الفكري لنعيمة لم يتأثّر بمعينٍ ثقافي واحد. والمتأمّل في آثاره سوف يلحظ وجود اتجاهين ثقافيين اثنين يطبعان قريحته الأدبيّة، وهما مرتبطان بالمنابع الأدبيّة التي تأثّر بها و تغذّى عليها. أوّل هذين الاتجاهين هو اتجاهه الحداثي الذي ابتعد به عن خطّ الأدب العربي التقليدي، فهو بمحاولاته الدؤوبة لبثّ روح التجديد في المعنى والمبنى الأدبي كان يظهر بمظهر الواقع تحت تأثير الإعجاب بالأدب الغربي، ومن الممكن الإحساس بتشابه كبير بين مفهوم الفنّ عند نعيمة والاتجاهات الأدبيّة التي ظهرت في بادئ الأمر في أوروبا، كالمدرسة الرومنسيّة والمدرسة الكلاسيكيّة، بحيث يظهر بوضوح الجانب الواقعي في الحكايات القصيرة التي كتبها في بدايات حياته الأدبية. أما الجانب الرومنطيقي فيطبع أشعاره و حكاياته ذات المواضيع المتصلة بما وراء الطبيعة التي كتبها في خضم حياته الأدبيّة.

و يعود الفضل في تعرّف نعيمة على هذين الاتجاهين للأدب الروسي. فمفهوم الأدب و الفنّ عند نعيمة تشكّل بعد ارتباطه بالكُتّاب الروس من أمثال بوشكين وليرمونتوف ونكراسوف وبيلينسكي ودوبروليوف وتورغينييف ودوستويفسكي وتولستوي وغوغول وتشيخوف وذلك قبل متابعته للأدباء الأوروبيّين. ففي حين يظهر جليّاً أثر الكُتّاب الروس الواقعيّين في القصص القصيرة التي تتناول المشاكل الاجتماعيّة والتي كتبها في بداية حياته الأدبيّة، تحمل أشعاره التي كتبها في نفس الفترة آثار الشعراء الرومنطيقيّين.

أما الاتجاه الثاني في الإبداع الأدبي عند نعيمة فهو المتمثّل في قبول أن يكون إحساس الفرد أساسا للبحث والتحليل والحكم وهو الاتجاه المُتأثّر بالثقافة الشرقيّة أو بالاتجاهات الفكريّة الغربيّة ذات الجذور الشرقيّة. هناك جزء مهمّ من أشعار نعيمة يحسب نتاجا لهذا الاتجاه.

نستطيع القول بأنّ توجّهات ميخائيل نعيمة كناقد و ككاتب للقصص القصيرة و كشاعر قد تطوّرت بنفس القدر، و نالت كلّها نفس الاهتمام. فمفهوم الأدب و الفنّ عند نعيمة يحدّده بشكل كبير الفرد وحساسيّة هذا الفرد تجاه المجتمع الذي يشكّله.

والأدب الحقيقي بنظر نعيمة هو الذي يولي أهمّية قصوى لمعرفة الغاية من خلق الإنسان، مثله مثل باقي فروع الفنون، يجب أن يقدّم الكثير لمعرفة هذه الغاية. ووظيفة الأدب إلى جانب الاهتمام بالإنسان وحاجاته المساعدة في إدراك النفس البشرية و الغاية من وجودها و إيصال الرسائل الإلهيّة للبشر {1,35}

من هذا المنطلق نستطيع القول: إنّ نعيمة يُعدّ واحدا من المُدافعين عن الأدب الهادف القائل بأنّ الأدب - خصوصا الشعر - يجب أن يكون وسيلة لبلوغ الحق والوصول إلى الحقيقة. و يمكن اختصار مفهوم الأدب الهادف عند نعيمة بأنه الأدب الذي يستخدم تجلّيات الخالق على وجه البسيطة كالجمال و الحبّ و العدالة و الاستقامة، مبادئ إلهيّة أساسيّة لتحقيق نموذج الإنسان الكامل عن طريق توحّده مع الخالق و لنشر هذا المثال في المجتمع.

وبالإضافة لكون نعيمة شاعراً مرموقًا، وناقداً معتبراً، فإنه يُعدُّ أيضاً روائيّاً (كاتبا قصصيا) متميّزاً . وتعد القصص التي كتبها في بداية حياته الأدبيّة ، وخصوصاً تلك التي كتبها متأثّراً بالأدباء الروس أرقى من القصص التي كتبها في مراحله التالية، والتي اعتمدت مواضيع ما وراء الطبيعة (الميتافيزيقا). فبالإضافة إلى ثقل المواضيع الفلسفيّة التي احتوتها قصصه اللاحقة، فإنّ هذه القصص خالية من الحركة، كما أنها ضعيفة من الناحية الفنّيّة مقارنة بسابقاتها.

وكانت هذه المجموعة *[3 ;2]* لقد تم جمع كلّ أشعار نعيمة في ديوان معنون باسم "*همس الجفون*"[1] الشعرية المطبوعة لأول مرة في لبنان عام 1945 تتألف من 44 قصيدة. وتظهر هذه الكمية أن نعيمة كان لم يحتج ميخائيل نعيمة لكتابة الكثير من الشعر شاعراً مُقِلّاً. يقول جورج صيدح أحد شعراء أدب المهجر: " *[4, 265]*لإثبات دهائه الشعري. وحاز مرتبة يحسده عليها الكثيرون فقط بهذا القدر من الشعر الذي كتبه." ولنعيمة قصيدة أيضاً لم تندرج في ديوانه الشعري باسم "من أنتَ؟ ما أنتَ؟". لقد نشرت هذه القصيدة في جريدة "*السائح*" بتاريخ 23 آب/ أغسطس 1922م وهي التي انتقد فيها شاعرنا طغيان فلسفة الحياة المادية ؛ بيد أنه لم يتطرق أحد لا الشاعر نفسه ولا غيره *[5, 482]* على العالم أجمع بعد الحرب العالمية الأولى . فكان الشاعر الذي يقارن الحضارة الغربية بقرينتها *[6, 141]*لسبب امتناع وجود هذه القصيدة في ديوانه الشرقية يشعر بالانزعاج بسبب رؤيته طغيان المادية الغربية على الشرق.

لم يكن جلّ شعر نعيمة باللغة العربية فقد نظم أيضاً بالإنكليزية. ونجد هذه الأشعار المنظومة على الوزن الحر في نهاية ديوانه. وكتب نعيمة أيضاً أشعاراً أخرى باللغة الروسية. وتحمل قصيدة كتبها أثناء دراسته في روسيا اسم "*النهر المتجمد*"؛ ولاحقاً ترجم نعيمة هذه القصيدة المكتوبة عام 1910 إلى اللغة العربية عندما كان في أمريكا سنة 1917. وإن أول شعر وصلنا لنعيمة الذي بدأ بقرض الشعر في سن مبكرة وكان السبب الذي قاد نعيمة لكتابة هذه هذه القصيدة التي كتبها عندما كان يدرس في مدينة بولتافا الأوكرانية. القصيدة حسبما يروي بنفسه هو المنظر الخلاب لنهر "سولا" المتدفق بسلاسة بين الحقول والغابات صيفاً والذي يتجمد شتاءً فيمر فوقه الناس وعربات الأحصنة *[7, 52]*.

لقد كتب نعيمة وهو في روسيا العديد من الأشعار، ولكن للأسف ضاعت أشعاره الأخرى عدا النهر المتجمد *[8,33; 9,193]*.

أما في الشعر، فقد وقف نعيمة ضد التيار التقليدي فأولى المعنى الأهمية القصوى على حساب المبنى وكمحصّلة طبيعية لهذا الاتجاه لم يكن يرى أن العَروض - الذي هو أهمّ العناصر في بناء الشعر التقليدي - عنصر أساس في الشعر.

كان نعيمة يعتقد أنّه عندما يسعى الوزن والقافية للتعبير عن الأفكار والمشاعر فإنهما يحولانها لموسيقى شاحبة متكرّرة الإيقاع، لذلك فهو يضع التعبير الحرّ عن الأفكار والمشاعر أساساً للشعر فيما يأتي الشكل و المبنى في الدرجة الثانية *[10, 391]*.

و نعيمة وإن ذهب إلى أبعد من ذلك فقال إنه "لا الوزن و لا القافية هما من ضروريات الشعر"

[1] لقد تمت ترجمة أشعار نعيمة بأكملها إلى اللغة الآذربيجانية بواسطة د. ماهر حميدوف. راجع ميخائيل نعيمة، همس الجفون، ترجمة د. ماهر حميدوف، مطبوعات العلم و التعليم، باكو، 2014.

فإنّه لم يخرج في أشعاره عن بحور العروض التي و ضعها الخليل ابن أحمد الفراهيدي. *[10, 425]* و القارئ لأشعار نعيمة يلحظ تجنّبه للبحور الطويلة كالبسيط و المديد و الطويل، و اتجاهه نحو البحور القصيرة. و هو باستثناء البحر الطويل والمضارع والمقتضب قد استعمل جميع بحور الشعر في ديوانه. كما يلحظ القارئ أنّ نعيمة وإن لم يخرج عن نُظُم العروض فقد لعب بالقوافي بتنويع القوافي و تغيير توزيع البحور.

لذلك نستطيع القول إنّ التجديد الشعري الذي جاء به نعيمة لم يكن تجديداً جذريّاً بل يجب أن يُرى كتعديلات جديدة أجراها على النظام الموجود، و كانت جهوده في تجديد الشعر العربي لا تقل عن جهود أصحاب الموشحات التي ظهرت في الأندلس قبل عدّة قرون.

وبالإضافة إلى أنّ تطبيقات نعيمة في الوزن والقافية لا تبدو مترابطة، فإنّها تتوارى خلف الغنى الفكري والعاطفي لشعره، وتختفي كلّيّاً وراء الوضوح اللغوي وبساطة التعبير لديه. فنعيمة الذي يرى أن البساطة والوضوح هما من ضروريات الحياة، يولي اهتماماً بالغاً في شعره لإيصال المعنى للقارئ باستعمال الكلمات الأجمل والأكثر استخداماً بين الناس، و هو مع هذا كله يبتعد عن التكرار للكلمات والتعابير.

وبالرغم من تأكيد نعيمة في كتاباته على ضرورة استعمال اللغة العامية جنباً إلى جنب مع اللغة الأدبيّة إلّا أنّنا لا نلحظ أيّ مثال لاستعماله هذه اللغة في شعره.*[11,146]*

ويولي نعيمة اهتماماً بالغاً للموسيقى في الشعر، وهو يكسب شعره ذلك اللحن الجميل بالاستعانة بالمصادر الموسيقيّة الخارجيّة، كالوزن والقافية والطباق والجناس والنداء، كما يستعين بالموسيقى الداخليّة التي يُحدِثها وقع الكلمات المستخدمة في نفس القارئ وروحه.

أمّا عن ديوانه، فإنّه يخلو من التقسيم المطبق في دواوين الشعراء الكلاسيكيّين، إذ لا وجود لأقسام منضوية تحت عناوين الغزل والرثاء والوصف والمديح والهجاء والفخر. بل لا نجد له قصيدة واحدة كتبت لمناسبة معينة، فالفكر والعاطفة مسيطران على ديوانه بالكامل. وحتى في غزله، فالشاعر لا يصف المرأة وجمالها بل بالعكس يولي مزايا المرأة الإنسانيّة اهتمامه كله و يعمل على وصفها في عالم الروح.

كما تحتلّ الطبيعة مركزاً مهمّاً في أشعار نعيمة. فالطبيعة في نظره تعلو عن كونها مجرّد مخلوقات مادّيّة لتصبح كائناً حيّاً ذا روح. والطبيعة التي استقى منها الشاعر أسماء معظم أشعاره تعتبر من قبله ملاذاً آمناً من حياة المدينة ومادّيّتها القاسية وظلمها. فهي إلى جانب منحها الشاعر حسن القبول بعمقها الروحي تمنحه أيضا الراحة والسعادة وتعينه على الهرب من زحمة حياة المدينة. إنّها حالة موجودة في التيّارات الصوفيّة الانطوائيّة وخصوصاً في التراث الهندي القديم.

ويشكّل الإنسان الموضوع المركزي في أشعار نعيمة. والشاعر الذي يولي الإنسان قيمة عظيمة يرفع لواء الأخوّة الإنسانيّة فالناس جميعهم إخوة، والجميع يجب أن يعيشوا جنباً إلى جنب دون تفرقة بحسب الدين أو العرق. و هو عندما يتحدّث عن الإنسان يُشعر القارئ بالدفء و الحنان فنجده يناديه "أخي" و "صديقي" في أماكن كثيرة في ديوانه.

وإذا كان للدين المسيحي دور كبير في تشكيل شخصيّة نعيمة الأدبيّة؛ لكونه قد ترعرع في بيئة وشكّل إيمانه المسيحي الخاص *[5, 272]* فإن نعيمة قد خالف تعاليم الكنيسة فيما بعد*[5,10]* كنسيّة تقليديّة في النهاية نستطيع القول: إنه لم يبق من التربية المسيحية *[5, 188]*المشوب بوحدة الوجود و تناسخ الأرواح التقليدية في فكر نعيمة إلا بعض الطقوس الجامدة.

أمّا المواضيع الفلسفيّة التي احتوتها أشعار نعيمة فيلاحظ أنّها بعيدة عن الأحكام المطلقة للعقل البشري، بل إنّ الشاعر عند تطرقّه لهذه الأمور يلقي كل اهتمامه على قلبه و مشاعره و يفضّل الوصول للحقيقة باستعمال غريزته عوضاً عن عقله وتفكيره. لهذا، يبدو الشاعر متأثّرا بالتيّار الصوفي الذي يقدم القلب أكثر من تأثّره بالاتجاه الفلسفي الذي يحكّم العقل والمنطق، ونستطيع لذلك القول بأنّ جميع أشعار نعيمة بشكل عام وخصوصاً أشعاره التي كتبها بأوزان حرة كتبت بجوّ صوفي عميق. وتُعد الرسالة التي حمّلها هي نفسها تلك *[12, 460; 13, 50; 14, 274; 15, 313]*نعيمة للغريزة لكشف حقائق تكوين الوجود القيمة السامية التي يوليها المتصوفة للغريزة لإدراك الخالق *[16, 139]* والوصول للعلم اللدنّي.

ومن تأثير التصوّف على نعيمة نرى اعتكافه و غوصه في الصمت والتأمّل لمدد طويلة. هذا الصمت الذي ينبع من استسلام الشاعر لغريزته أو لخياله؛ ليكشفا له الحقائق التي يستحيل على العقل أن يتوصّل إليها،

بحيث أصبع اعتزال الناس والصمت والحياة بمنأى عن المجتمع من سمات شخصيّته التي يمكن استشفافها من آثاره المتنوّعة.

وإدراك العلم اللدنّي وفهم غاية الوجود الإنساني هي الحالة القصوى المعروفة عند التيارات الصوفيّة بـ "الفناء في الله" حسب التراث الصوفي الاسلامي، أو "الوصول إلى النيرفانا" حسب الاعتقاد البوذي في التراث الهندي القديم، أو في الاعتقاد البراهماتي حلول براهما الخالق في كل مكان، وما هذه المسمّيات إلّا تعبير عن حقيقة واحدة، أو عن مفهوم واحد، هو وحدة الوجود.

على أنّنا يجب أن نبيّن أنّ فكرة وحدة الوجود عند نعيمة و إن تأثّرت في بادئ الأمر بالمفهوم الصوفي الإسلامي، فإنّها خرجت فيما بعد من هذه العباءة لتقترّب أكثر من المفهوم الهندي الذي يوحي بتمكّن الفرد بجدّه و اجتهاده من الحلول محلّ الخالق نفسه. أمّا المفهوم الصوفي الإسلامي للفكرة فلا يعني الاتحاد الجسماني مع الخالق، بل إدراك صفاته و الذوبان معنويّاً في ذاته.

يُضيف نعيمة – الذي يستخدم الرموز كثيراً في شعره – إلى المعاني الظاهريّة للكلمات معانٍ أخرى أكثر عُمقاً، متشبهاً في ذلك بالتقليد الصوفي الذي يتبحّر في استعمال الكلمات في معانٍ خارجة عن معانيها بالضرورة أنّ نعيمة تأثّر فقط بالتصوّف الإسلامي. الأصليّة. على أنّ هذا التشابه لا يعني

يعدّ الطريق الذي اتبعه نعيمة لإدراك الحقيقة العُظمى النقطة المشتركة بينه وبين الفلاسفة المسلمين، وبينه وبين المسيحية والإيمان الهندي القديم. فنعيمة -كهؤلاء الفلاسفة الذين جاؤوا قبله- حاول الوصول إلى الحقيقة العظمى عن طريق اعتماد عالم الوجود في حال وحدة. و نعيمة الذي يستخدم في أشعاره نظريات وحدة الوجود وتناسخ الأرواح لفهم الحقيقة العظمى، يستعين بهذه المفاهيم لإشباع شغفه بالحياة الأبديّة.

وهكذا فبإمكاننا أن نشاهد و بوضوح كيف تركت الاتجاهات الدينيّة و الفلسفيّة المختلفة آثارها على فكر نعيمة. بل بإمكاننا القول إنّ هذه الأفكار والأحاسيس، بدل أن تكون نتيجة لتأثّر الأدباء بعضهم ببعض، أو عزفاً لبعض الأدباء في أزمنة متعدّدة للحن روحي واحد، فإنها أمست حقائق خالدة متحرّرة من أي زمان أو مكان، تخاطب الجانب الروحي لدى الإنسان، كل إنسان.

وعليه، فبإمكاننا القول إنّ نعيمة لا ينتمي لأي اتجاه فلسفي، وإنّ الاتجاه الديني عنده أقوى من الاتجاه الفلسفي.

أمّا قول بعضهم: إنّ نعيمة لكونه تأثّر بالكثير من الثقافات الأجنبيّة، وتطوّر من خلالها، فهو يفتقر إلى الإبداع الخاصّ النابع من الذات - فهذا قول مردود على صاحبه؛ لأنّ التأثّر بالثقافات المختلفة جزء لا يتجزّأ من الإبداع. والمهمّ للأديب أن يسخّر خبراته و تجاربه التي اكتسبها من الثقافات المختلفة في إبداعاته الخاصة.

وهكذا استطاع نعيمة باطلاعه على مختلف الثقافات أن يتجاوز روح التقليد التي رانت على الأدب العربي لمئات السنين، وأن يبدع أعمالاً شعريّة فنّيّة تتجاوز المبنى لتبدع في المعنى، و هنا يظهر أيضا مفهوم الفنّ لدى نعيمة . فالفرق بين أشعار نعيمة و الشعر العربي التقليدي هو في العروض والفنون الأدبيّة واللغة، ففي حين فضّل الشعر الكلاسيكي التركيز على المبنى، آثر نعيمة التركيز على المعنى.

من هذا كله يتبيّن لنا أن تعامل نعيمة مع الشعر الكلاسيكي العربي مشابه لتعامل الأدباء الأوروبيّين الرومنطيقيّين مع المدرسة الأدبيّة الكلاسيكيّة. فالأدباء الأوروبيّون الفردانيّون أولوا اهتمامهم للعالم الداخلي للإنسان عوضاً عن اهتمامهم بخارجه. فقيمة المجتمع برأي هؤلاء الأدباء هي نسبة إحساس الفرد بهذه و هكذا فالفرد يأتي قبل المجتمع. وهذه الخصوصيّة في التيّار الرومنطيقي كان لها دور *[247 ,167]*القيمة بارز في تنشئة شخصيّة نعيمة الأدبيّة.

على أنّه لا يجوز اعتبار أنّ إصرار نعيمة على التجديد تقليد أعمى للأدب الغربي بل هو ثمرة حبّ لهذا لأدب، و سير لا إرادي في هذا الاتجاه. و السبب الأوّل لهذا الحبّ هو أنّ الأدب الغربي يتجاوب مع متطلّبات العصر، و يعكس الحالة العاطفيّة و الفكريّة للإنسان المعاصر.

وفي الختام، يمكننا القول إنّ نعيمة - صاحب الاطلاع الواسع على الأدب الأوروبي، والمؤمن بأنّ الشاعر مفكّر يجب عليه أن يتجاوب مع متطلّبات عصره - تبحّر في دراسة المشكلات التي عاناها الأدب العربي، و قد سخّر خبرته و إبداعه في سبيل حلها.

المراجع

1- ميخائيل نعيمة: ***دروب***، المجلد الخامس، دار العلم للملايين، بيروت، 1999.
2- ميخائيل نعيمة: ***همس الجفون***، المجلد الرابع، دار العلم للملايين، بيروت، 1999.
3- ميخائيل نعيمة: ***همس الجفون***، ترجمة ماهر حميدوف، مطبوعات العلم و التعليم، باكو، 2014.
4- جورج صيدح: ***أدبنا وأدباؤنا في المهاجر الأمريكية***، بيروت، 1964.
5- ميخائيل نعيمة، **سبعون**: المجلد الأول، دار العلم للملايين، بيروت، 1999.
6- شفيع السيد: ***ميخائيل نعيمة: اتجاهه في الأدب***، القاهرة، 1972.
7- أنس داود: ***الطبيعة في شعر المهجر***، القاهرة.
8- بشارة السبعلي: ***ميخائيل نعيمة يحدثني***، بيروت، 1998.
9- فاخر ميا: "مخائيل نعيمة والثقافة الروسية"، ***مجلة المعرفة***، دمشق، 1995.
10- ميخائيل نعيمة: ***الغربال***، المجلد الثالث، دار العلم للملايين، بيروت، 1999.
11- ميخائيل نعيمة: ***الآباء و البنون***، المجلد الرابع، دار العلم للملايين، بيروت، 1999.
12- ميخائيل نعيمة: ***في الغربال الجديد***، المجلد السابع، دار العلم للملايين، بيروت، 1999.
13- ميخائيل نعيمة: ***المراحل***، المجلد الخامس، دار العلم للملايين، بيروت، 1999.
14- ميخائيل نعيمة: ***صوت العالم***، المجلد الخامس، دار العلم للملايين، بيروت، 1999.
15- محمد شفيق شيا: ***فلسفة ميخائيل نعيمة***، بيروت، 1987.
16- إيرول غونغور: ***التصوف الاسلامي*** (بالتركية)، نشريات أوتوكان، إسطنبول، 1982.
17- شوقي ضيف: ***دراسات في الشعر العربي المعاصر***، دار المعارف القاهرة، *1959*.

ملخص: يعد ميخائيل نعيمة أحد روّاد الأدب العربي الحديث، كما أنّه يتميّز بشخصيّة أدبيّة فريدة تتمتّع بتعدُّد مواهبها الأدبيّة كالشِّعر والقصة القصيرة والكتابة التجريبيّة.

إذا ما تمّ تقييم ميخائيل نعيمة بالاعتماد على آثاره الأدبية كاملة فسوف يتبيّن لنا أنّ العالم الفكري لنعيمة لم يتأثّر بمعين ثقافي واحد. والمتأمّل في آثاره سوف يلحظ وجود اتجاهين ثقافيين اثنين يطبعان قريحته الأدبيّة، وهما مرتبطان بالمنابع الأدبيّة التي تأثّر بها و تغذّى عليها. أوّل هذين الاتجاهين هو اتجاهه الحداثي الذي ابتعد به عن خطّ الأدب العربي التقليدي، فهو بمحاولاته الدؤوبة لبثّ روح التجديد في المعنى والمبنى الأدبي كان يظهر بمظهر الواقع تحت تأثير الإعجاب بالأدب الغربي، ومن الممكن الإحساس بتشابه كبير بين مفهوم الفنّ عند نعيمة والاتجاهات الأدبيّة التي ظهرت في بادئ الأمر في أوروبا، كالمدرسة الرومنسيّة والمدرسة الكلاسيكيّة.

أما الاتجاه الثاني في الإبداع الأدبي عند نعيمة فهو المتمثّل في قبول أن يكون إحساس الفرد أساسا للبحث والتحليل والحكم وهو الاتجاه المُتأثّر بالثقافة الشرقيّة أو بالاتجاهات الفكريّة الغربيّة ذات الجذور الشرقيّة. هناك جزء مهمّ من أشعار نعيمة يحسب نتاجا لهذا الاتجاه.

بحث في هذا المقال مفهوم الأدب عند ميخائيل نعيمة.

الكلمات الرئيسية: نقد، ناقد، شاعر، أدب

MAHIR HAMIDOV

THE CONCEPT OF LITERATURE ACCORDING TO MIKHAIL NAIMY

SUMMARY

The present paper deals with the concept of literature in Mikhail Naimy's works. It argues that one of the important representatives of modern Arabian literature Mikhail Naimy differs from his contemporaries as a poet, novelist and critic with his diverse literary personality. If we consider all his works together, we can see that his thought is inspired from different literary and philosophical

dimensions. Based on civilizations poet had been inspired and nourished, we can underline two main lines in his oeuvre. The first of them rose from the traditional Arabic literary area and inclined to innovative sphere. Initiatives to innovate format and content in Arabic literature mainly arise due to the influence of Western literature. It is possible to observe some similarities between the main principles of European romanticism and realism and Naimy's concept of art.

The second direction in Naimy's literary oeuvre is to solve human nature and his issues not only in the context of certain environment affected by orient civilization or western philosophical thoughts which have oriental origins but in the context of the whole existence. An important part of the litterateur's poetry was written at the result of this flexure.

МАХИР ГАМИДОВ

ПОНЯТИЕ ЛИТЕРАТУРЫ ПО МИХАИЛУ НУАЙМИ

РЕЗЮМЕ

В настоящем документе рассматривается концепция литературы в творчестве Михаила Нуайме. Он утверждает, что одним из важных представителей современной арабской литературы Михаила Нуайме отличается от своих современников как поэт, прозаик и критик с разнообразной литературной личностью. Если мы рассмотрим все работы вместе, то мы можем увидеть, что его мысль вдохновлена из различных литературных и философских аспектов. На основании цивилизаций поэта были продиктованы и воспитаны, мы можем подчеркнуть два основных направления в своем творчестве. Первый из них поднялся с традиционной арабской литературной области и склонны к инновационной сфере. Инициативы по инновациям формат и содержание в арабской литературе в основном возникают из-за влияния западной литературы. Можно заметить некоторое сходство между основными принципами европейского романтизма и реализма и концепции искусства Нуайме.

Второе направление в литературном творчестве Нуайме является решение природы человечества и его вопросы не только в контексте определенной среды,но и от пострадавших цивилизации или западной философской мысли, которые имеют восточные корни, но и в контексте всего существования. Важная часть поэзии литератора была написана в результате этого изгиба.

Rəyçilər: professor İmamverdi Həmidov
professor Kamandar Şərifov

KÖNÜL MƏMMƏDOVA
Pedaqogika üzrə fəlsəfə doktoru,
ADPU-nun "Yaş və pedaqoji psixologiya"
kafedrasının dosenti

MÜASİR TƏHSİL SİSTEMİNDƏ MÜƏLLİMİN PEDAQOJİ USTALIĞININ PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: Müəllim şəxsiyyəti, kompetensiya, təhsildə sərişt əlilik, kurikulum, pedaqoji ustalıq, yeni təlim texnologiyaları
Ключевые слова: Личность учителя, компетенция, компетентность в образование, курикулум, педагогическое мастерство, новые технологии обучения
Keywords: teacher personality, competency, educational proficiency, curriculum, pedagogical skills, new teaching technologies

Dünya təhsilinə inteqrasiyanın sistemli, geniş parametrli prosesə çevrildiyi müasir dövrdə inkişaf etmiş ölkələrin qabaqcıl pedaqoji təcrübələrini öyrənib, ümumiləşdirib yaymaq, həmkarlarının çoxillik əməyinin nəticəsi olaraq formalaşmış qabaqcıl pedaqoji təcrübələrdən bəhrələnərək tədris prosesinin səmərəliliyini artırmaq və öz fəaliyyətini təqdim etmək bacarığına malik olmaq müəllimin yaradıcı əməyinin keyfiyyət göstəricilərindəndir.Təhsil prosesində müəllim yeni pedaqoji texnologiyalardan faydalanaraq şagirdlərdə təfəkkürün formalaşmasına nail olur, müasir təlim yanaşmalarını əks etdirən dərs-mühazirə, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart dərslərdən istifadəyə üstünlük verir, qruplarla, cütlərlə, fərdi və kollektivlə iş formalarından istifadə edir, dialoqa, məntiqi və tənqidi təfəkkürü inkişaf etdirən, yaradıcı metodlara əsaslanan fəal metodlardan istifadəyə geniş yer verir. Fəal təlimdən istifadə etməklə dərslərin yeni təlimə uyğun qurulması müəllim və şagird fəaliyyətinin səmərəsini artırır. Təhsilin inkişafını şərtləndirən əsas amil məhz müəllimin fəaliyyətidir. Bu gün uğurlu nəticə müəllim fəaliyyətdən aslıdır. Müəllimin uşaqlarla həsas ünsiyyətqurma, əməkdaşlıq, tədqiqatçılıq, özünütəhsil və idarəçilik bacarıqlarına malik olması, onun, dövrün tələblərinə uyğun inkişaf etmiş xüsusiyyətlərindən hesab olunur.

Müəllim-şagird münasibətləri tədris prosesinin əsas komponentlərindəndir. Odur ki, tədris prosesində müəllimin şagirdlərlə ünsiyyəti, onlara yanaşma tərzi həlledici rol oynayır. Təlim prosesinin yaxşı qurulması üçün müəllim-şagird münasibətləri tənzimlənməlidir. Müəllim şagirdin pisxologiyasını öyrənməli, onu stimullaşdırmaq üçün özünün sinif şəraitinə uyğun mexanizmi tapmalı və bunun üçün özündə dözümlülük bacarığı yaratmalıdır. Müasir informasiya texnologiyasını mükəmməl mənimsəməli, tədris və inkişaf prosesində ondan

istifadənin imkanlarını təhsilalanlara öyrətməlidir. Müəllim yalnız bilik vermir, eyni zamanda öyrənənlərin təfəkkürünün, düşünmə tərzinin dəyişməsinə səbəb olur, idrak fəaliyyətinə təsir edir. Təcrübə göstərir ki, təhsil və inkişaf sahəsində müəllim amili özünün əhəmiyyətinə və misiyasına görə bu gün də, gələcəkdə də aktual olaraq qalacaqdır.

Müasir müəllim qabaqcıl dünya təhsil sistemindən ən önəmli nümunələr seçərək milli zəmin əsasında demokratikləşdirmə, humanistləşdirmə, humanitarlaşdırma, inteqrasiya, diferensiallaşdırma və fərdləşdirmə kimi vacib prinsiplərin tədris prosesinə yaradıcılıqla tətbiqini həyata keçirir[2]. Müasir müəllim təlim fəaliyyəti zamanı təhsil məqsədləri olaraq şagirdlərdə müstəqillik və özünütəşkil qabiliyyətlərini, özlərinin hüquqlarını müdafiə edə bilmək bacarığını və yüksək hüquqi mədəniyyətini, əməkdaşlığı, tolerantlığı, digərlərini qəbul etmək və dinləmək mədəniyyətini, dialoq aparmaq, məzmunlu kompromis axtarıb tapmaq bacarığını formalaşdırmalıdır. Müəllimin yaradıcı əməyi bir də ondan ibarət olmalıdır ki, dərslərini yeni təhsil modeli kimi kurikulum əsasında qurmalıdır. O,bu zaman şagirdləri əzbərçilikdən xilas edərək tədqiqatçılığa, təfəkkür və düşüncələrinin inkişafına gətirib çıxarır. Həmdə özü yenilikləri mənimsəməyə səy göstərir, dərslərinin daha maraqlı, rəngarəng keçməsinə imkanlar yaradır. Bu dərslərdə interaktiv metodların imkanları daha aydın meydana çıxır. Debatlar, rollu oyunların təşkili, müzakirələr, kompyuterdən istifadə edərək tapılan yeni mülahizələr, dəlillər, tarixi faktlar dərsin elə sinifdə öyrənilməsinə zəmin yaradır. Dərslərdə yeni təlim texnologiyaların tətbiqi şagirdlərin idrak fəallığını artırır, nəticədə təlimin keyfiyyəti yüksəlir. Müəllim pedaqoji prosesin təşkilatçısı olmaqla yanaşı ilk növbədə prosesi qiymətləndirməyi bacarmalıdır. Təlim-tərbiyə prosesində qiymətləndirmənin yerini müəyyən etməli, onun statistik təhlilini aparmalı, proqnoz və təkliflər vermək üçün problemə ümumi yanaşıb, qiymətləndirmə ilə bağlı fundamental məsələləri həll etməlidir. Bunun üçün təlimin məzmunu (uşağa nəyi, hansı həcmdə öyrətməli), təlim üsulları (uşağı necə öyrətməli), öyrədici mühit (uşağı hansı şəraitdə öyrətməli) və qiymətləndirmə (öyrətmə prosesinin durumu və onun nəticəsinin göstəriciləri) kimi təlim prosesinin sadələşdirilmiş modelini həyata keçirməyə nail olmalıdır.

Ölkəmizdə aparılan islahatların, təhsil quruculuğunun indiki mərhələsində əsas diqqət qarşıya qoyulan vəzifəyə uyğun olaraq təhsilin məzmununun yenişləşməsinə, yeni pedaqoji texnologiyalar əsasında həyata keçirilməsinə yönəlmişdir. Pedaqoji texnologiyalardan istifadənin əsas istiqamətləri innovasiyalarla əlaqədər biliyin, müvafiq anlayışların düzgün mənilmsənilməsi, müasir təlim prinsipləri, təlim metodlarından öz yerində maksimum səmərəli istifadə olunması ilə bağlıdır. Dərs zamanı şagirdlərdə qazanılmış bilik və bacarıqların tətbiq edilməsi, öz fikrini əsaslandırıb müdafiyə etməsi, sərbəst düşünmə qabiliyyətinin formalaşdırılması təmin olunur. Şagirdlərin fəallığı, müstəqil olaraq bilikləri əldə edib mənimsəmələri, öz qabliyyətlərinin

gerçəkləşməsi və təşəbbüskarlığa cəhd etmələri fəal təlimin əsas üstünlüklərindən sayıla bilər[2].

Pedaqoji fəaliyyətin müvəffəqiyyəti üçün hər bir müəllim təbiət və cəmiyyət haqqında dərin biliklərə yiyələnməklə, yüksək inam, yüksək ideyalılığa görə fərqlənməklə yanaşı bir sıra mühüm keyfiyyətlərə də malik olmalıdır. Psixoloji ədəbiyyatda həmin keyfiyyətlər aşağıdakı kimi xarakterizə olunur: 1) Hər bir müəllim öz fənninə dərindən yiyələnməli; 2) idrak nəzəriyyəsini və pedaqoji elmi mükkəməl əxz etməli; 3) ayrı-ayrı anlayışlar arasındakı əlaqə və münasibətləri açmağı bacarmalı; 4) şagirdləri fəallaşdırmaq məqsədilə müxtəlif kommunikativ vasitələrdən istifadə edə bilməli və s. Bütün bu keyfiyyətlərə yiyələndikdən sonra müəllim öz pedaqoji fəaliyyətində yüksək nailiyyətlər əldə edə bilər.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur. Bu istiqamətlərdə səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı, bundan başqa, təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi, innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılması və s.kimi məsələlər prioritet olaraq nəzərdə tutulur[3].

Müasir cəmiyyətdə harmonik fəaliyyət üçün müəllimlər konseptual kompetensiyalara malik olmalıdırlar. Belə kompetensiyalara- prosedur, motivasiya və fəaliyyətlə bağlı məsələləri daxil etmək olar.

Bütövlükdə təhsildə səriştəli yanaşmanı "nəyi bilmək, nəyi öyrətmək" anlayışı ilə deyil, "necə bilmək, necə öyrətmək" anlayışı ilə əvəz etmək lazımdır. Araşdırmalar göstərir ki, əsas kompetensiyalara sosial kompetensiyaları aid etmək olar. Sosial kompetensiyalar siyasi nəzakət, sosial nəzakət, sosial sahədə ədəbi fəaliyyət, özünün hüquq və mənafeyini qorumaq kimi qabiliyyətlərin öyrənənlərdə formalaşdırılmasını təmin edir. Bu baxımdan sosial kompetensiyalara yiyələnmiş insan fərd kimi ayrıca, eyni zamanda qruplarda işləməyi; vəziyyəti, durumu təhlil etməyi; demokratik xarakterli qrupların formalaşdırılması və qrupların işində iştirak etməyi; konfliktlərin həll olunması üçün müxtəlif yanaşmalardan istifadə etməyi; birgə fəaliyyətin qanun və qanunauyğunluqlarına riayət etməyi; sosial və mədəni xarakterli fərqli hadisələrə, proseslərə tolerant münasibət bildirməyi bacarmalıdır[4].

ƏDƏBİYYAT

1.Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı, 2010

2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009

3.“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”. Bakı, 2013.

4. Əlizadə Ə.Ə. Məktəbə psixoloji xidmət: problemlər, düşüncələr// Azərbaycan məktəbi, 1993, №3.

К.А.МАМЕДОВА

ПСИХОЛОГИЧЕСКИЕ СВОЙСТВА СОВРЕМЕННОГО ОБРАЗОВАНИЯ В СИСТЕМЕ ПЕДАГОГИЧЕСКОГО МАСТЕРСТВА

РЕЗЮМ Е

В статье был выдан анализ психологического свойства современного образования в системе педагогического мастерства, формирование личности педагог, психологическое отношение педагог с учениками. Кроме того, в статье были указаны, как широкий анализ в системе педагогического процесса, связанное с образованием преподавателя, действующее нормативно – правовым актам в соответствии с утвержденными обязанностями, знаниями, навыками, и в то же время соблюдением субъективного принципа и т.д.

В статье образовательные компетенции вдвигаются на первый план в развитии психопедагогических навыков преподавателей.

В то же время отмечается, что высокий уровень компетентности, всесторонние знания, навыки и формирования набора личного и социального развития являются ключевым показателем повышения эффективности учебно-воспитательного процесса. Кроме того отмечается, что для грамотного подхода к образованию понятие «чего знать и к чему учить», надо заменит понятием «как знать и как учить». Исследования показали, что к ключевым компетенциям могут быть отнесены социальные компетентности. Социальные компетенции способствует к формированию у учащихся таких способностей как, политическая вежливость, социальная вежливость, литературная деятельность в социальной сфере, умение защитить свои права и интересы.

K.A.MAMMADOVA

PSYCHOLOGICAL BASIS OF TEACHER'S PEDAGOGICAL SKILLS IN MODERN EDUCATION SYSTEM

SUMMARY

The article deals with psychological basis of teacher's pedagogical skills, formation of the teacher personality, psychological analysis of teacher – student relationships in modern education system. Furthermore, the teacher's approved duties according to available normative legal acts, knowledge, skills, experience, competency are studied, at the same time keeping subject – subject principle in teacher – student relationships, etc. are widely analyzed in the article.

The article deals with the education competencies as one of the basic ways for developing teachers' psycho-pedagogical skills. At the same time, it is noted that high-level proficiency is the main indicator as a factor of individual, social development for shaping a set of knowledge and skills, for promoting efficiency of teaching/learning process. Furthermore, the article highlights that it is important to replace competency-based approach in education, which claims the notion what to know and what to teach, by the notion how to know and how to teach. Researchs show that social competencies may be related to basic competencies. Social competencies provide learners with skills formation such as political and social etiquette, literary activity in social field, protecting one's own rights and interests.

Rəyçi : Qulam Əzizov
Pedaqogika uzrə fəlsəfə doktoru

LOĞMAN ƏLİYEV
AMEA Nizami adına Ədəbiyyat
İnstitutunun dissertantı

Ə.İLDIRIMOĞLU YARADICILIĞINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR, MİLLİ ÖZÜNÜDƏRK VƏ SOSIAL - PSIXOLOGIYA MƏSƏLƏLƏRI

Açar sözlər, Azərbaycan dilində: dil, yazıçı, nəsr, milli-mənəvi dəyər, millət.

Ключевые слова, на Русском языке: язык, писатель, проза, национально-нравственные ценности, нация.

Key words, in English: language, writer, prose, national and moral values, nation.

İnsanın mənəvi zənginləşmə təsiri mexanizmində milli-mənəvi dəyərlər müstəsna yer tutur. Bunun izahı belədir ki, sosial cəmiyyətin əsl inkişaf göstəricilərindən olan milli-mənəvi dəyərlər öz mahiyyətinə görə xalqa, milli topluma daha çox yaxın olur, onun əhval-ruhiyyəsini yaşadır, əsas etibarilə ədalət və xeyir anlayışlarının məzmununda ifadə olunur. İctimai rəyin gücü ilə qorunan bu sosial fenomen normaları insanın daxili dünyasını əks etdirən mənəvi baxışlarla möhkəm tellərlə bağlıdır. Qanunlardan fərqli olaraq əxlaqi-estetik normalar, o cümlədən, milli-mənəvi dəyərlər insanın davranış və hərəkətlərinin mümkün olan və yol verilən həddlərini geniş diapazonda, ümumi şəkildə götürür, fərdlərə müxtəlif seçimlərdə daha çox azadlıq verir. Azadlıqla milli-mənəvi dəyərlərin vəhdəti fonunda insanın elinə - obasına bağillığı, mənsub olduğu cəmiyyət qarşısında mənəvi-əxlaqi borcu, bir fərd kimi vətənində xoşbəxt olmaq cəhdi şair və yazıçıların yaradıcılığında, başqa sözlə, bədii ədəbiyyatda daha dolğun aşkara çıxır.

Mılli-mənəvi dəyərlər baxımından ideoloji sahədə müəyyən problemlər və boşluqlar müasir qloballaşma dövründə də özünü göstərir. Əhalinin müxtəlif təbəqələrini milli-mənəvi dəyərləri qoruma prosesinə geniş miqyasda qovuşdurmaq, insanların mədəni səviyyəsini yüksəltmək, düşüncədə "mənə nə" qalığına son qoymaq, mənəvi həyatda plürüalizmin və tolerantlığın pozulması hallarına qarşı fəal mövqe tutmaq, maddi və mənəvi sahələrdə mövcud olan problemlərin vaxtında aşkara çıxarılıb aradan qaldırılması yolunda mucadilə aparmaq hər bir cəmiyyətə mənsub yazıçının yaradıcılıq borcudur.

Ə. İldırimoğlu bir yazıçı kimi həmişə milli-mənəvi dəyərlərə söykənmişdir. Azərbaycan xalqının milli özünəməxsusluğu, əxlaqi saflığı və mənəvi ucalıqı onun ədəbi istinad nöqtəsinə çevrilmişdir. O, təsvir etdiyi hadısələrdə, yaratdığı qəhrəmanların simasinda milli-mənəvi dəyərlərə sadiq, xalq təssübkeşi olan bir

yazıçı kimi yaddaşlara hopmuşdur. Milli ruh və kolorit onun əsərlərinin əsas dəyərlərindəndir. Azərbaycan ədəbiyyatının tanınmış tədqiqatçılarından biri, Dövlət Mükafatı laureatı, filologiya üzrə elmlər doktoru, professor Qasım Qasımzadə yazır: "Belə bir yaradıcılıq təcrübəsinə, həyat biliyi və müşahidəsinə malik nasirin indi janrın iri formalarına keçmək təşəbbüsü təbii və qanunauyğundur. Zəngin həyat müşahidəsi və xatirələrini roman şəklində ifadə etdiyi "Həmin adam" əsəri ilə tanışlıq bu qənaəti möhkəmləndirir. Əsər hər gün, hər addımda üz-üzə gəldiyimiz ciddi maneələri, cəmiyyətin inkişafını ləngidən psixoloji sədləri ibrətamiz hadisələr, canlı xarakterlər təzadında açıb göstərir. Jurnalistlərin ictimai-mədəni həyatda mövqeyi, xalq mənafeyinə ləyaqətlə xidmət yolunda qarşılaşdıqları çətinliklər əsərdə hadisələrin iştirakçısı olan müxbirin yaşadığı aləmin bədii inikasıdır. Buradakı konflikt və insanların taleyi ilə bağlı epizodlar Əli İldırımoğlunun illər boyu qarşılaşdığı, şahidi olduğu redaksiya həyatının özünəməxsus daxili dünyasıdır"(10).

Doğma vətəninə bütün varlığıyla bağlı olan Ə.İldırımoğlu Azərbaycan təbiətini çox sevir, onun hər daşı, hər qayası, yağışı, günəºi, buludu ilə dərdləşə bilir. Bərgüşad çayı ilə uzaqdan-uzağa da olsa dərd bölməsi, əsərlərinin, demək olar ki, hər birində özünün də, yaratdığı obrazların da təbiətlə təbiət dilində həsb-halı Əli İldırımoğlu yaradıcılığının kodlaşmış yeni bir üslub təzahürüdür. O, təbiətlə tabuyla, qadağalar diliylə danışır. Bütün əsərlərində o simvola, rəmzə çevirdiyi təbiətə, canlı ətraf mühitə müdaxiləni hamı üçün, hətta özü üçün də qadağan edə bilir. Onun bütün əsərlərində antropormorfizm - yəni təbiətə canlı insan xassələri vermək, onunla söhbət etmək, öz qapalı dünyasında bu dilsiz-ağızsız, lakin dil bilən, gülə bilən, kədərlənə bilən, həssas qəlbli yazıçıyla öz dərd-sərini, giley-güzarını bölüşə bilən varlıqların xüsusi yeri və mizanı var. Əli İldırımoğlu yaradıcılığına bələd olanlar bilir ki, onun əsərlərində təbiətə müraciət, təbiətlə söhbətlər saysız-hesabsız və hüdudsuzdur. Təbiət yazıçı üçün ən etibarlı mənəvi - əxlaqi mənbə, milli-mənəvi dəyərlər və milli özünüdərk ünvanlarından biridir. Bu, onun "Arğalısı itən dağlar" essesindəndir: "Bəzən dəymədüşərliyi, inciməyi, küsməyi də olurdu bu əzəmətli dağın. Bir axşamçağı işdən evə qayıdanda boz dumana büründü. Məndən üz döndərirmiş kimi görünməz oldu. Diqqətimi cəmləşdirib nə qədər vərəvurd elədim, qara hicabını qaldırıb mənnən kəlmə kəsmədi. Heç səbəbini də açıb-ağartmadı, Şah dağı" (10).

Sonrakı sətirlərdən məlum olur ki, Şah dağının insanlardan üz döndərməsinin səbəbi onun qoynunda boy atıb böyümüş, bu yerlərin yaraşığı, kökü kəsilməkdə olan vəhşi qoçun, nadir arğalının ovlanmasıdır... Bəli, Əli İldırımoğlunun belə kövrək notlarla köklənmiş o qədər təbiət esseləri var ki... Bütün bunlar təbiəti təbii dillə danışdıran yazıçı üçün mənəvi - əxlaqi kodlardır. Ona görə təbiətə həssas munasibət, eləcə, ən ciddi mənəvi – əxlaqi dəyərdir.

Məhsuldar yazıçı olan Əli İldırımoğlu milli özünüdərkə özündən başlayıb. Onun hekayələri, povestləri, romanları, oçerkləri, felyetonları, digər qəzet janrında

qələmə alınmış yüzlərlə ədəbi-bədii, publisist yazılarında bu dəyərlər əsas xətdir, bədii leytmotivdir. Bütün bunlar yazıçının mənəvi dünyasından süzülüb gələn son dərəcə dərin və çağlayan ədəbi qaynaqlarından xəbər verir. Ən azı bunu demək kifayətdir ki, onun seçilmiş əsərləri on cildə güclə sığıb və bundan əlavə də neçə-neçə əsərlər yaradıb. Bu qədər əsər yazasan və hər kəlməndə, hər sözündə, hər mövzunda yeni və orijinal olasan, xalqın milli-mənəvi dəyərlərinə, düşüncə tərzinə, inanclarına, sevinc və kədərinə, eyni zamanda, özünə, oz daxili aləminə, yazıçı amalına sadiq qalasan... Şübhəsiz ki, bu, böyük hünər, istedad, hər şeydən də öncə, güclü vətəndaşlıq mövqeyi tələb edir. Əsasən milli ruhda yazan yazıçi heç vaxt mövzu təkrarçılığına, cümləpərdazlığa, qrafomonluğa, süni obrazlılığa getməyib. Bu, əslində özünüyaratma, özünütəsdiq və özünüdərk deməkdir. Ədib zərrə-zərrə özünütəqdimlə, özünüdərklə, əslində, böyük ədəbi ənənələri olan ölkəsində öz təmiz adı, səliqəli, bütün kənar təsirlərdən uzaq olan yazılari – iri nəsr əsərləri ilə vətəninə, xalqına xidmətlə məşğul olub. Onun əsərlərində özünütəqdim – xalqı təqdim, özünüdərk - xalqı dərk düsturunda təzahür edib.

Belə ibrətamiz, vacib ədəbi xüsusiyyətlər onun bütün əsərləri üçün səciyyəvidir və sübhəsiz ki, bunlarsız onun ədəbi nümunələri indiki dövrdə əhəmiyyətsiz görünərdi. Necə ki, zaman ötdükcə bir çox tanınmış yazıçıların əsəsləri də öz dəyər və əhəmiyyətini itirir.

Ədibin romanlarinda - "Həmin adam", "Zorən jurnalist", "Közərən sətirlər", "Mənim rəncbər atam", "Qarlı gecələr", "Aqibət", "Daş yağan gün" və s. milli-mənəvi dəyərlər, sosial –psixoloji fonda insanın özünüdərk müstəvisində nəsr poetikası üçün çox vacib dəyər hesab olunan zəngin üslubi çalarlarda təzahür edən bədii nümunələrdir. "Aqibət" əsərinin timsalında buna nəzər yetirsək görərik ki, burada hər şey sosial - psixoloji təzadlar, ictimai kolliziyalar insanın formalaşması fonunda özünüdərk çərçivəsində büruzə verir. Dəlmə arxı - Dəvəbatan burulğanı - Dəyirman... Bu üçbucaqda fokslaşan, ideya-estetik məna daşıyan və yazıçı məqsədinə xidmət edən ictimai-siyasi, mənəvi-əxlaqi mahiyyət, kodlaşmış subistansiyalar insanın zərrə-zərrə sosial varlığa çevrilməsi və formalaşması prosesini əks etdirir. Əsərdə Dəvəbatan burulğanı ilk baxışdan qorxunc bir ünvan, mistik bir anlayışdır. Amma son anda müqəddəs missiya yerinə yetirir. Qasımın tulunğu oğlu Lovğa Səftərə sanki üsyan edib Dəvəbatan burulğanında intihar edən kəhər at, sonra da bu yolu nicat bilib namus ləkəsini məlum burulğanın köpüklərində yuyan Qənirə... Burada Dəvəbatan sanki xilaskardır, şərin, namussuzluğun, nadanlığın əlindən xilas olmaq istəyən Kəhərlərin, Qənirələrin xilaskarı. Yaxud, dəyirmanda baş verən hadisəni götürək. Burada Bağır kişiylə dəyirmançı Şahnəzərin bozalaşması, əlbəyaxaya çıxmaları və sonucda dəyirmançının başının dəyirman daşına dəyib o dünyalıq olması... Bütün bunlar alt qatında çox ciddi mətləblər yatan, fəlsəfi-estetik mahiyyət daşıyan simvollardır.

Yazıçı bu bədii işarələrlə ədəbi–bədii simvollarla insanı mənəvi kamilliyə

yönəldir, milli özünüdərkə səsləyir, xalqın min illər boyu qoruyub yasatdığı əxlaqi yaddaşı, mənəvi özünəməxsusliğu əks etdirən hadisələri ədəbi bir vasitəyə, bədii dəstəyə cevirir.

Axı bu dəyirmanın daşını vaxtilə dünyanın o başından min bir zülmlə gətirən Bağır kişiyə indi bir ovuc ağnağaz üyütməyi də çox görəndə və Lovğa Səftərlə bu ruzi mənbəyini, bin-bərəkət ocağını haram yuvasına çevirəndə cüvəllağı dəyirmançının taleyi necə olmalıydı? Bu təbii qəzavü-qədər ədibin nəzərində həyatın məntiqi hökmüdür. Odur ki, son anda müəllif belə bir qənaətə gəlir ki, dəyirmançını Bağır yox, o müqəddəs dəyirman daşı öldürməlidir. "Aqibət" romanında Höcət Cahangirin qulağına teyfdən gələn və onu Dəlmə arxını təmizləməyə təşviq edən səs, başqa sözlə, babaların ruhunun çağırışı, dəyirman yolunda Sücəddinin gözünə görünən mömin Mir Rahibin söylədiyi: "Onu da anla, agah ol ki, Qalaça kəndi Tanrının qəzəbinə keçib. Başınıza gələn müsibətlər Yaradanın cəzasıdır. Bunu başa düşmək fəhmindən xalisiniz. Qalaçanın mollası Tağı, yolgöstərəni Lüt Qasımın oğlu Lovğa Səftər, dəyirmançısı sülək Şahnəzər, deputatı qüdrətsiz Qüdrətdirsə, deməli, kəndə həqiqətən bədbəxtlik üz verib. Fitnə-fəsadın baş alıb getdiyi, namus-qeyrətin qeybə çəkildiyi, insanların ehtiraslarının quluna çevrildiyi, adamların qurd kimi bir-birini diddiyi məmləkət fəlakətdən yaxa qurtara bilməz! Nə qədər gec deyil, tövbə edin! Tövbə edin! Haqqa qayıdın!". - Bu sözlər ulularımızın ruhlarının üsyanı kimi səslənir. Bu, təkcə babaların ruhlarının üsyanıdırmı?. Bu, həm də mütəfəkkir yazıçı Əli İldırımoğlunun müasirlərinə bir çağırışıdır. Milli yaddaş itəndə, milli ruh öləndə insanlar bax, bu cür bədbəxtliklərlə üzləşir...

Əli İldırımoğlu məhsuldar yazıçı olmaqla yanaşı, yazdığı mətnə tələbkar və həssasdır. O, cild-cild romanlar yazsa da, heç bir əsərində artıq sözə, cümləyə, epizoda, lüzumsuz təfərrüata, lazımsız səhnə və yaxud yerinə düşməyən obraz və ştrixlərə rast gəlmək mümkün deyil. Onun əsərləri heç cür redaktəyə gəlmir, hər hansı bir sözə, ifadə və cümləyə toxunulsa fikir dağılacaq, məntiq və məna itəcək, sətirlər arasında xaos yaranacaq və hər şey pərən-pərən düşəcək. Onun üslubunda, yazı tərzində sanki qəribə bir hərbi nizam-intizam mövcuddur. O, hər sözün, hər cümlənin, hər hadisənin, hər obrazın üstündə əsir və zərgər dəqiqliyi ilə iş aparır. Onun əlyazmaları ilə tanış olanda buna daha yaxından şahid olursan və bu böyük sənətkarın iş manerası, yazı texnikası, zəhmət və əzablı fəaliyyəti qarşısında bir daha heyran qalırsan.

Yazıçının əsərlərində hər şey təbii axarındadır. Dil də, hadisələr də, obrazların təbii stixiyası da. Hər şey elə bil təbii ahəngə tabedir və bu mənada onun əsərlərindən yüzlərlə, minlərlə misal çəkmək olar. Xüsusilə iki detalı xatırlatmaq yerinə düşər. Əli müəllimin iki əsərində tüfənglə bağlı epizod var. Birinci epizod "Aqibət"dədir. Orada deyilir ki, Höcət Cahangir bir köhnə üçatılan tapır, silib-təmizləyir, saz vəziyyətə gətirir. Lakin ondan istifadə edib yararlana bilmir. Hövsələsiz oxucu bəlkə də düşünər ki, əsərdə bu detal artıqdır, heç nəyə

xidmət etmir, heç bir mətləbi ortaya qoymur, bu nəyə lazımdır? Lakin belə deyil. Əslində üçatılan da əsərdə bir-birini şərtləndirən və tamamlayan simvollar zəncirinin bir həlqəsidir. Üçatılan əsərin sonunda yazıçı məqsədinin reallaşmasında bədii detala çevrilir. Əsərin əvvəlində Cahangirin tapdığı silah əsərin sonunda Sücəddinin əlində açılır.

Belə bir simvol "Daş yağan gün" əsərinin də yadda qalan bədii detallarındandır. Erməni vandalları Həsənli kəndini oda qalayanda qaniçən Andranik Poqosyan Nəcəfin atasına məxsus aynalı tüfəngi ələ keçirir. Əsərin sonunda da Nəcəfin əlindən qaniçən erməni Andranik Poqosyana məhz bu aynalıdan atəş açılır.

Bütün bunlar yazıçının yazı prosesində hadisə və epizodları ən kiçik detallarına qədər nəzarətdə saxlamağını, bədii mətnə və qələmə aldığı həyat hadisələrinə nə dərəcədə həssas yanaşdığını bir daha göstərir. Və Ə.İldırımöğlunun ədəbiyyatın, sənətin klassik normativlərinə nə qədər sadiq olduğunu bir daha nümayiş etdirir.

Əslində qeyd etdiyimiz bu simvolların hər biri milli-mənəvi dəyərlərin bədii inikası kimi təzahür edir. At da tufəng də, kamil xarakterli insanlar da, barışmaz, mübariz səciyyəli qəhrəmanlar da bütün parametrlərilə bizim mılli şüurun oyanışına, milli mənliyimizin formalaşmasına və qorunmasına xidmət edir.

Əli İldırımoğlunun yaratdığı qəhrəmanlar milli-mənəvi dəyərlərimizə bağlı olan layiqli və namuslu həmvətənlərimizdir. Bu qəhrəmanlar xalqımızın min illərdən üzübəri formalaşmış əxlaqi, tərbiyəvi görüşlərini, milli-mənəvi dəyərlərini ləyaqətlə yaşadıb çağdaş dövrümüzə çatdırdıqları kimi müstəqil ölkəmizin şərəfini, şöhrətini layiqincə qoruyub yaşadır, milli-mənəvi dəyərlərimizin, hətta, coğrafi sərhədlərini də ayıq-sayıq, namusla qoruyurlar. Onlar kimdir? Namuslu əməyini ən uca bayrağa çevirən, dəhnə bağlayan, zəmi biçən, ot çalan, toxum səpən, bununla bərabər müdrikliyi, ağayanalığı və alicənablığı ilə nümunə olan İldırım kişi, mərd, mübariz, sözübütöv, gözü-könlü tox Nazim İlham, Höcət Cahangir, Sücəddin, Nəcəf, Mürşüd kişi, Qaçaq Mürsəl, Əmrah, Mövlamverdi və b. Bu obrazlar – Vətənin layiqli ovladlarının hər biri özünəməxsus milli-mənəvi və özünüdərk üçün vacib olan ictimai-siyasi yük daşıyır. Hər biri də müəyyən bir rakursdan cəmiyyətin güzgüsünə çevrilir və toplumda, birlikdə yazıçının öz ümumiləşmiş obrazını formalaşdırır.

Onların hər birində yazıçının özü, onun dünyagörüşü, həyata münasibəti və milli-mənəvi dəyərlərimizə, milli özünüdərkə, milli əxlaqa münasibəti görünür. Şübhəsiz ki, hər bir yazıçının yaradıcılığında bir şah əsəri olur. Buna ana xətt, özək, maya, bünövrə də demək olar. Yazıçıya ömrü boyu elə gəlir ki, burda nəsə yaddan çıxıb, qalıb, nəsə unudulub, nəyisə başqa cür işləmək lazımdır. Hərdən ona elə gəlir ki, bu yazıya dönə-dönə qayıtmalıdır. Beləliklə, bir əsər bir yazıçı həyatını ömrü boyu təqib edir. V.Hüqonun "Səfillər"i, İ.V.Hötenin "Faust"u, L.N.Tolstoyun "Hərb və sülh"u kimi dünya ədəbiyyatında böyük yazıçıların

çoxunda onları həyatı boyu izləyən, onların az qala, tərcümeyi-halına çevrilən bir əsəri olur. Təkcə bu fakt çox maraqlıdır ki,deyilənə görə, L.N.Tolstoy "Hərb və sülh" romanının üzünü öz əli ilə səkkiz dəfə köçürüb. Böyük yazıçı bunu təkcə mexaniki köçürmə yox, həm də yaradıcı iş hesab edirdi. Bütün əsərlərini tədqiq edəndən sonra belə bir qənaətə gəlirsən ki, Əli İldırımoğlu üçün də belə bir əbədi nəğmə, ömür dastanı "Zorən jurnalist"dir. O, bu əsəri bir oxucu kimi də dönə-dönə oxuyur, öz söhbətdaşlarıyla müzakirə eləyir və hiss olunur ki, bu əsərə yenə də qayıtmaq istəyir...

Ə.İldırimoğlu haqda yazanda, onun milli ruha bağlı, xalq deyimləri ilə zəngin şirin, axıcı, ləngərli, poetik əsilli dili barədə danışmamaq mümkün deyil. Çəkinmədən demək olar ki, onu milli-mənəvi dəyərlərimizə bağlayan amillərdən biri də dil faktorudur. Onun ədəbi məktəbinin bünövrə daşı, təməl prinsipi, məhz bu füsunkar və ecazkar dildir. Əli İldırımoğlunun ədəbi dili Azərbaycan dili içərisində avtonom hüquqlu, özünəxas statuslu bir dil sayıla bilər. Böyük ədəbiyyat məkanında onun özünəməxsusluğunun daha bir təsdiqi əsl xalq dilində yazmasıdır. Onun ədəbi obrazları, məhz bu dillə fərqli, seçilən, müsbət və mənfi qəhrəmanlardır. Yazıçının ədəbi dilinin xüsusiyyətlərindən, leksik tərkibindən, frazeoloji vahidlərindən, dialekt və şivələrə ədəbi dil ahəngi gətirməsindən, onları ədəbi dil normalarına uyğunlaşdırmasından geniş bəhs etmək olar. Bu barədə ədəbi ictimaiyyətin nümayəndələri - alimlər, ədəbiyyatşünaslar, tənqidçilər Əli İldırimoğlunun dili, ədəbi üslubu barədə fundamental tədqiqatlar aparıb, elmi məqalələr yazmışlar. Lakin dönə-dönə vurğulamaq lazımdır: Əli İldırımoğlunu böyük yazıçı kimi formalaşdıran, möhtəşəm ədəbi uğurlarını şərtləndirən ilk növbədə, məhz onun milli dildir. Məhz bu dil milli özünüdərk prinsiplərini, onun təmiz ədəbi ekologiyasını yaşadan fundamental bünövrədir.

Ədəbi dili onun yazıçı qəlbinin və nasir təfəkküründün lokomativi, yaradıcı ehtirasın enerji mənbəyidir. Ə.İldırımoğlu yazır: "Ömrün yoxuşunu qalxdıqca elə bil hava seyrəlir, sərinləşir, soyuyur. Bəzi istəyənlərim, istədiklərim kimi. Zirvədə addımladığım cığırlar haçalanır. Gah daralır, gah da düyünə düşür. Başımın üstünü, yolumu duman-çən alır. Gözün görəcəyi məsafə sanki ağappaq örpəyə bürünür... Uzaq düşmüş "bivəfa, dönük" gəncliyim daha ahıllığıma səmtimir, gəlmir çağırışıma, çatmır imdadıma, harayıma! Səmanı bulud bürüyəndə kölgələr ərşə çəkildiyi kimi, dostlarım da qeyb olur. Belə çağlarda ürək dözmür, sancır, başlayır içindən ovulmağa, əriməyə, gileylənməyə" (10).

Bu haqda Telman Mehdixanlı yazır: "Dünya təsviri sənətinin qüdrətli ustadlarından biri Brülovun "Pompeyin son gecəsi" adlı çox dəhşətli, zəhmli tablo mənzərəsi var. Görənlər ömrü boyu istəsə də onu unuda, yaddan çıxara bilmir. Yazıçı Əli İldırımoğlunun bir az öncə xatırlatdığımız qənaəti gözlərimiz qarşısında həmin əsəri yenidən canlandırdı. Allah, nə şirin olurmuş ömrün təravətli anları, gənclik çağları, atalı illəri! Əli müəllim yaşının ixtiyar, müdrik dövründə incəlmiş, kövrəlmiş vaxtında artıq xatirə örpəyinə bürünüb güclə görünən o günlərə qayıdır.

Amma ehtiyatla...” (10).

Bu yaddaşın özü də bir dəyərdir, insan psixologiyasına, əxlaqına, hopmuş dəyər. Bəzən milli mentalitetin izahı və təqdımatı üçün epitetlər axtarırıq. Təqdim etdiyimiz nümunələr elə axtardığımız deyilmi?

İndiki demokratikləşmə dövründə, müstəqillik şəraitində milli özünüdərklə digər ümumbəşəri dəyərlərin müqayisəsində daha ciddi yeniliklər və irəliləyişlərin olması bir faktdır. Qeyd olunan proses ilk növbədə, milli özünüdərklə demokratik düşüncə tərzinin bir-birinə qarşılıqlı təsirinin artmasında, onların vəhdətinin möhkəmlənməsində ifadə olunur. Bu, daha çox demokratiyanın bünövrəsində xalq hakimiyyətinin dayanması, cəmiyyətin müxtəlif maddi, mənəvi tələbat və maraqlarının əlaqələndirilməsi, insan haqlarının bütün parametrlərdə qorunması və inkişaf etdirilməsinin nəzərdə tutulması ilə izah olunur. Demokratiyanın birbaşa insan kollektivləri ilə əlaqəli formalaşması, inkişafı, yaradıcı fəallıq əsasında milli özünüdərklə ayrılmaz bağlılığı insanın azad seçim və fəaliyyətini mümkün və zəruri edir. Demokratiyanın özünüdərkə təsiri həm də mənəvi-psixoloji şəkildə təzahür edir. İnsanlar öz milli maraqları ilə bağlı qərarların qəbulunda azad iştirak etdikləri üçün, onları yüksək aktivlik və məmnunluqla həyata keçirməyə çalışırlar. Demokratiyanın əsas prinsiplərindən olan ictimai həyatın bütün sahələrində milli-mənəvi dəyərlərin qorunması, plürüalizmin təmin edilməsi milli özünüdərkin inkişafını daha da gücləndirir. Bu da demokratik cəmiyyətə yeni ahəng və harmoniya gətirir, onun formalaşması və inkişafı üçün özünəməxsus stimul yaradır.

Ə.İldırımoğlu yaradıcılığına insanın mənəvi zənginləşməsi kontekstində yanaşdıqda, onun milli-mənəvi dəyərlər baxımından Azərbaycan insanını bu ideya ilə təkmilləşdirmək cəhdi xüsusi qeyd olunmalıdır. Bu, onunla izah oluna bilər ki, onun məqsədyönlü ədəbi fəaliyyətinin bütün janirları bu idealdan ayrılmazdır. Yazıçının mövcud cəmiyyət ilə onun gələcək inkişaf perspektivləri arasında əlaqələri əks etdirən nəsr əsərləri sistemili olmaqla milli-mənəvi dəyərlər düşüncəsində əhəmiyyətli yer tutmaqdadır. Ə.İldırımoğlu əsərlərinin başlıca keyfiyyəti – həyat həqiqəti və hadisələrinin obyektiv göstərici olması, qələmi ilə ətrafa başqa sözlə cəmiyyətə təsir göstərə bilməsi, perspektivdə isə insan üçün səmərəli yaşam və fəaliyyəti modelləri müəyyənləşdirmək cəhdidir. O, milli-mənəvi dəyərləri, elmi baxışları, estetik, dini təsəvvürləri, emosional hiss və duyğuları, psixoloji yaşantıları əks etdirməklə əsərlərində milli özünüdərkin real inkişafına, onun dolğun qavranılmasına nail ola bilir.

Ə.İldırımoğlu yazır: “Allaha inamım, ata-babama ehtiramım, övladlarıma məhəbbətim, elimə-obama bağlılığım, vətənə sədaqətim, gücsüzlərə köməkliyim, yazıqlara rəhmim, yolunu azanlara qəzəbim – əyilən qəddim, qıyılan gözlərim, pozulmuº səhhətim, yuxusuz gecələrim, narahat günlərim, gərginləşən əsəblərim – sevincim, kədərim, tapdığım və itirdiyim uğurlar, dosta etibarım, gəncliyimin əzabları, ahıllığımın gileyləri kitablarımın əmanətindədir. Məni və mənimi bilmək

istəsəniz ömür salnaməmin natamam parçası olan əsərlərimi vərəqləyin" (10).

Bu sözlər onun əsərlərində əksini tapmış milli-mənəvi dəyərlərimizi nişan verən, Azərbaycançılıq ideologiyasının elmi – nəzəri postulatlarını ortaya qoyan tezislərdir. Bu ifadələrin hər birinin arxasında bizim milli simamız öz əksini tapır.

Ölkəmizin dəyişməsi və inkişafı prosesində cəmiyyətdə və ədəbi yaradıcılıqda sosial-psixoloji münasibətlər təkmilləşir və yeni çalarlar əldə edir. Bu baxımdan müasir dövrdə, yəni milli müstəqillik əldə olunduqdan sonra yaranan və açıq cəmiyyətin əsaslarının formalaşması prosesində qərarlaşan sosial-psixoloji davranışlar, xüsusilə mühüm olub, millətin inkişafında prinsipcə yeni keyfiyyət mərhələsi kimi ortaya çıxır. Müstəqillik dövründə Azərbaycan iqtisadiyyatında bazar münasibətlərinin bərqərar olması, siyasi və mənəvi həyatda plürüalizmin geniş yer tutması müasir sosial-psixoloji davranışın artmaqda olan təsir mexanizmini təmin edən əsas amillərdəndir. Bağlı olduğumuz cəmiyyətdə sosial-psixoloji davranışları yaxşılaşdırmaq üçün sözügedən tərəflər arasında əlaqələrin ailədə və təhsi sistemində izahı şübhəsiz ki, az effektli olur, özünü doğrultmur. Müasir metodologiya sübut edir ki, sosial həyat hadisələrinin psixologiyasının öyrənilməsində öz ədəbi yaradıcılıqlarıyla şair və yazıçılar daha müstəsna rol oyna bilır.

Ə.İldırimoğlu əsərlərində xırda bir hadisədən, kiçik bir sosial-psixoloji durumdan çox böyük məharətlə ədəbi - dramatik gərginlik yarada bilır. Bu haqda filologiya üzrə fəlsəfə doktoru İslam Sadıq yazır: "Yazıçı – Ə.İldırımoğlu hadisələrin təsvirini elə qurub ki, oxucu hansı səhnənin necə qurtaracağını əvvəlcədən görə bilmir, obrazların taleyindən nigaran qalır və bu nigarançılıqdan qurtarmaq üçün kitabı oxumağa məcbur olur. Ayrı-ayrı səhnələrdə elə dramatik anlar var ki, oxucu əsəri yarımçıq saxlaya bilmir. Müəllim internat üçün mal almaq məqsədilə qarlı-çovğunlu bir qış gecəsi Abasqulu kişini də götürüb rayon mərkəzinə yola düşür. Bu yolun hər addımı qorxulu və təhlükəlidir. Həkərini keçmək, tara düşmək, dağda-daşda azmaq təhlükəsi də, hər addımda canavarla üzləşmək qorxusu da bütün yol boyu yolçuları qarabaqara izlədiyi kimi, oxucunu da nigarançılıqda saxlayır. Onlar gecəykən malı da alıb kəndə qayıdırlar, ancaq qəbz yadlarından çıxır. Məktəbin direktoru bunu hay-küyə salır, raymağ müdiri Orucun ünvanına ağzına gələni danışır. Müəllim təzədən gecə vaxtı rayon mərkəzinə gedir. Bu yolun nə qədər qorxulu olduğunu əvvəlcədən bilən oxucu indi ikiqat nigarançılıq keçirir, üstəlik də nə müəllimin özü, nə də oxucu bilmir ki, Oruc onu necə qarşılayacaq, malın qəbzini verəcək, yoxsa onu danacaq?! Axı direktorun onun ünvanına söylədikləri müəllimdə də, oxucuda da güclü şübhə yaratmışdır" *(7*).

Sosial - psixoloji davranış son dərəcə mürəkkəb problemdir. Müasir elm onun bütün qatlarını və psixi - fizioloji mexanizmlərini tam dərinliyi ilə açа bilməmişdir. Lakin onun mahiyyəti haqqında fəlsəfə və psixologiya elmi xeyli miqdarda biliklərə və informasiyaya malikdir. Ədəbi yaradıcılıq baxımından

yanaşdıqda, yazıçı mətnində sosial-psixoloji məzmunda aşağıdakılar əsas yer tutur: maraq və məqsədin izah edilməsi, hər hansı bir istəyi reallaşdırmağa kömək edən və mane olan amillərin nisbətinin müəyyənləşdirilməsi, qarşıya qoyulan məqsədi həyata keçirməyin yollarının və üsullarının axtarılıb tapılması, mümkün olan variantlar arasından düzgün seçim edə bilmək qabiliyyəti, nəzərdə tutduğunu həyata keçirmək üçün bədii surətlər arasında dialoqu yüksək səviyyəyə çatdırmaq...

Sadalanan fikirlər Ə.İldırımoğlunun nəsr əsərlərində bir-biri ilə sıx qarşılıqlı təsirdə və ayrılmaz vəhdətdə çıxış edir. Yazıçı obrazlarının sosial-psixoloji davranışını, həyat fəallığını bütöv mexanizmi ilə birlikdə aşkara çıxarır.

Azərbaycan nəsrinin inkişafında və zənginləşməsində özünəməxsus rolu olan Ə.İldırımoğlunun zəngin və çoxşaxəli yaradıcılıq yolu özünün bütün mərhələ və məqamlarında həmişə xəlqi ruhu və milliliyi ilə seçilmişdir. Tanınmış ədibin nəsrdə qazandığı yaradıcılıq uğurlarında milli-mənəvi dəyərlərə bağlılığı, milli özünüdərkə xidməti ədəbi mətnin əsasını təskil edir. Milli ruh və kolorit bu yaradıcılığın hər sətrində, hər abzasında hiss olunur.

ƏDƏBİYYAT

1. Aristotel, Poetika, Bakə: Azərbaycan Dцvlət Nəюriyyatə, 1974, 192 s.
2. Mütəllimov M. Təhsin. Sənət qayğıları, Bakı: Yazıçı, 1981, 200 s.
3. İbrahimov M. Seçilmiş əsərləri, IX cild, Bakı: Yazıçı, 1982, 664 s.
4. Qurbanov Ş. Ömürdən səhifələr, Bakı: Yazıçı, 430 s.
5. Dədəyev Ş. Psixika, Bakı: Qanun, 2007, 456 s
6. Ədəbiyyatşünaslığın əsasları, Bakı: "Maarif" nəşriyyatı, 1988, 280 s.
7. Kredo qəzeti, 20 noyabr 2004-cü il
8. Həbibbəyli Ə. Bьtьn yцnləri ilə yaradəcə, Bakə: Elm və təhsil, 2014, 102s.
9. Əldərəmoplu Ə. Seзilmiю əsərləri, I cild, Bakə: Nurlan, 2007, 390 s.
10. http://www.aliildirimoglu.az

ЛОГМАН АЛИЕВ

НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫЕ ЦЕННОСТИ, НАЦИОНАЛЬНОГО САМОПОЗНАНИЕ И СОЦИАЛЬНО ПСИХОЛОГИЧЕСКИЕ ТЕМЫ В ТВОРЧЕСТВЕ А.ИЛЬДЫРЫМОГЛУ

РЕЗЮМЕ

Статья посвящена теоретическим основам национально-нравственных ценностей, национального самопознания и социальной психологии в мировой литературе. Выбор темы, постановка проблемы, цели и задачи показывают, что статья актуальная и новая. Автор, пользуясь своим

литературным почерком, постарался и смог разобрать проблемы самопознания, национально-нравственных ценностей и социальной психологии.

Писатель А.Ильдырымоглу национальное самопознание начал с самого себя. В его произведениях это является главной чертой, художественным лейтмотивом. Это произведение рассказывает о внутреннем мире А.Ильдырымоглу.

А также автор в статье показывает, что важно изучение и разбор национально-нравственных ценностей, национального самопознания и социально-психологических тем в области литературы.

LOGMAN ALIYEV

THEORETICAL BASIS OF NATIONAL AND MORAL VALUES, NATIONAL SELF-AWARENESS AND SOCIAL PSYCHOLOGY IN THE CREATION OF A.ILDIRIMOGLU.

SUMMARY

The article is devoted to the style and language of Ali Ildryrymoglu in the context of national self-awareness. Choosing a theme, problem statement, goals and objectives show that the current and the new article. The author, using his literary handwriting, tried and failed to make out the problem of self-knowledge, national and moral values and social psychology.

Writer A.Ildyrymoglu national self-started with himself. In his works it is the main feature, the artistic leitmotif. This work tells about A.Ildyrymoglu inner world.

As well as the author of the article shows that it is important to study and analysis of national and moral values, national self-awareness and social and psychological themes in literature.

SƏADƏT QULİYEVA,
LƏTİFƏ MƏMMƏDOVA
Azərbaycan Dillər Universiteti
Can.suna26@gmail.com

ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA MİLLİ DƏYƏRLƏRİN VƏ ÖZÜNÜ TƏRBİYƏNİN ROLU

Açar sözlər: əxlaq insan cəmiyyətinin məhsuludur.
Key words: Morality is a product of human society
Ключевые слова: *Воспитание это продукт человеческого общества*

Şəxsiyyətin formalaşmasında özünütərbiyənin rolu hələ də məktəbə qədərki dövrdə şəxsiyyətin inkişafı situasion xarakter daşıyır. Xaricdən göstərilən təsir və böyüklərin hərəkətlərini yamsılamaq bu dövrdə həll edici rol oynayır. Zaman keçdikcə əldə edilən bilik, bacarıqlar və təcrübə uşağın gələcək fəaliyyətinin xarakterini formalaşdırır.

İkinci dövr altı-on yaşlar arasıdır. Biz bu dövrləri şərti olaraq bölmüşük. İlkin məktəb illərinin nəzərdən qaçırılması gələcəkdə qarşıya daha çətin bir vəzifə-yenidəntərbiyə məsələsini ortaya çıxara bilər.

Uşaqlıq dövrünün mənəvi həyatının əmək intizamı, rejimi, fiziki möhkəmlik, sağlamlıq qayğısına qalmaq və s. yaş artdıqca daimi xarakter alır və gələcək özünütərbiyə üçün möhkəm zəmin yaranır. Uşaq bacarmadığı hər hansı bir işin öhdəsindən gəlməklə ondan mənəvi həzz alır. Bu da getdikcə onların özlərinə tənqidi yanaşmağa sövq edir. Müəyyən zaman keçdikcə mənlik şüurunun meydana gəlməsi özünüdərketmə prosesinin ilkin əlamətləri hiss edilməyə başlayır. Mənlik şüuru və özünü dərketmə olmadan nə özünüdərketmə, nə də özününizamlama mümkün deyil.

Uşağın inkişafında üçüncü dövr V-VI siniflər arasındakı dövrlərdir. Bu yaş qrupuna daxil olan uşaqlar, adətən ilk vaxtlardan idman və əmək bacarıqlarına, vərdişlərinə yiyələnməyə çalışırlar. Bu yaşda onlar özünütərbiyə ilə məşğul olmağa qadir deyillər. Onların əxlaqi keyfiyyətlərinin, xüsusiyyət cizgilərinin formalaşması, özünütərbiyəsi üçün mütləq böyüklərin işə qarışması, nəzarəti və köməyi lazımdır. V-VI siniflərdə oxuyan uşaqlarda özünütənqid çox zəifdir. Onlar özlərində yalnız böyüklərin gördükləri çatışmazlıqları və mənfi cəhətləri görə bilirlər. Uşaqlar həmin yaş dövrünə xas olan fəaliyyət sahələrində müvəffəqiyyət gətirən bacarıq və vərdişləri özlərində görməyə çalışırlar. Çox az sayda şagird özünüəlaqalma, iradə və xarakterin formalaşması ilə məşğul olur. Bu dövrdə taxtanı mişarlamaq, paltar tikmək, yemək hazırlamaq kimi işlərə də çox meyilli olurlar. Bu dövrdə özünütərbiyə hələ çox zəifdi : uşaq öz yaddaşını, diqqətini fikirləşmək qabiliyyətini inkişaf etdirə bilmir. VI sinfin axırlarına yaxın

şagirdin artıq mənlik şüuru inkişaf edir və bu da onda özünütərbiyə tələbatı doğurur.

Beləliklə, daha dəqiq desək, bir çox pedaqogika sahəsində çalışan alimlərin təsdiq etdiyinin əksi olaraq məktəbli igidlik, cəsurluq kimi keyfiyyətlərin tərbiyəsi ilə deyil, özündə təhsilə, əməyə və idmana aid olan vərdiş və bacarıqların formalaşması ilə məşğl olur.

Yeniyetməlik dövrünü böyük fransız filosofu və mütəfəkkiri Jan Jak Russo ikinci mənəvi doğum dövrü adlandırmışdır. Bu yaşda məktəblilərdə ətraf aləm haqqında möhkəm anlayış əmələ gəlir. O, fəal sürətdə özünütəsdiq yollarını axtarır Həyatın mənasını topladığı təcrübə prizmasından nəzərdən keçirir. Yeniyetmə dövrü, əsasən, xarakterin yaranması dövrüdür. Əlbəttə, xarakter iki-üç ildə deyil, əvvəllərdən, hələ uşaqlıq dövründən formalaşmağa başlayır. Hər dövrün özünəməxsus cizgiləri gələcək xarakterin "xəzinə"sində toplanır. Lakin xarakterin fəal şüurlu şəkildə yarandığı dövr məhz böyük yeniyetməlik dövrünə düşür.

Mənəvi tərbiyənin mahiyyətini düzgün dərk etmək üçün əxlaqın necə yarandığını bilmək zəruridir.

Milli tərbiyə etmənin üsul və vasitələri haqqında pedaqoji fikir tariximizdə ümumən mülahizələr bəzən səthi münasibətlə araşdırılmış, məsələnin mahiyyəti tam açıqlığı ilə göstərilə bilmişdir. Əslində isə milli şüurun oyanması bilavasitə milli etiqad toxumunun bəhrə verməsi ilə bağlıdır. Milli etiqad bir növ inam, əqidə, məslək yoludur. Mənəvi tərbiyə isə bu formalarda təzahür edən – yəni şəxsiyyətin həyatda fəal mövqe tutması – ictimai borca şüurlu münasibət göstərməsi deməkdir. Milli etiqadlarla bağlı uşaqlarda mənəvi tərbiyə və vərdişləri aşılamaq səyi uzun müddət yasaq edilmiş, tərbiyə məqamı vahid mərkəz "pultunda" idarə edilərək planlaşdırılmışdır.

Uşaq əvvəl öz doğulduğu dünyaya göz açdığı məkanı tanıyıb duymalı, sonra addımlarını kənar məkanlara qoya bilməlidir. Yaxud ilkin olaraq ana laylasının həzin duyğularını dərk edib, sonradan bəşəri hikmətli əxz etməlidir. Bu cəhətdən milli etiqad anlayışında ehtiza olunan dini inamlar "ana südü, dağ çiçəyi" kimi xalq hikmətləri mənəvi tərbiyə işində əsl milli yaddaş mənbələridir. Onları qorumaq gələcək nəslə çatdırmaq bu gün məhz bizim üzərimizdədir. Milli etiqad amilləri – xeyirlə-şərə bağlılıq, dostu-düşməndən ayırd etmək, xəlqilik, dini fütuhatını qiymətləndirmək, əqidə yolunu müəyyənləşdirmək kimi cəhətlərdə öz əksini tapmalıdır. Milli dirçəlişin həqiqi yolu məhz etiqadla tərbiyə almağın zəruriliyindədir.

M.Hadi əsərlərində milli etiqadla, mənəvi tərbiyə amillərinin təsir gücünü artırmaqla əlaqədar məsələlərə ustalıqla yanaşmış, ədəbi yaradıcılığında, ictimai-siyasi və fəlsəfi şeirlərində, pedaqoji məqalələrində bu məsələlərin şərhinə geniş yer vermiş, həmin problemi peşəkar səviyyədə şərh etmişdir. Şairin fikrincə əxlaq tərbiyəsinin mühüm vəzifəsi insani keyfiyyətlərin ləyaqətli daşıyıcısı olan milli etiqada bağlı vətəndaş yetişdirməkdir. Onun əsl milli ruhlu vətəndaş tərbiyə

etmənin zəruri keyfiyyətləri haqqında "İnsanlar yalnız yaşamaq üçün deyil, mənsub olduğu cəmiyyətə xidmət etmək üçün yaranmışdır." Bu fikir nəcib diləkdir və əsl mənada müəllifi dövrünün qabaqcıl, mütərəqqi fikir sahibləri cərgəsinə çıxarır.

Qadına ehtiram etmək ən qədim əxlaq qaydalarındandır. Müsəlman dünyasının əxlaqi dəyərlərindər biri olan qadına hörmət və humanist baxış Məhəmməd peyğəmbər (s) tərəfindən qanun şəklinə salınmışdır. O deyirdi ki, "Behişt anaların ayağı altlndadır".

Əxlaq insan cəmiyyətinin məhsuludur və insan birliyində yaranmış normalar, tələbatlar əsasında meydana gəlmişdir. Peyğəmbər kəlamları adamlar düzlüyə, doğruçuluğa, bəd əməllərdən uzaq olmağa, əmanətə xəyanət etməməyə, nəzakət qaydalarını gözləməyə, böyüyə, kiçiyə, qadına hörmət etməyə, hamının hörmət və ehtiramını qazanmağa çağırır. Kiçiyin halına acımayan, böyüyünə hörmət etməyən, qayğı göstərməyən şəxs, bizim müqəddəs dinimiz olan İslam dininə xidmət edə bilməz.

Buradan aydın olur ki, Peyğəmbərin kəlamlarında xeyirxahlıq, ədalət, haqq sözü demək, ədəb qaydaları və s. kimi mənəvi dəyərlər haqqında danışılır. Məhz bu mənəvi dəyərlər bizim keçmişimizi, indimizi və gələcəyimizi işıqlandıran mayakdır.

Yeniyetmə və gəncləri formalaşdıran mənəvi dəyərlərin komponentlərindən biri milli mənlik şüurunun formalaşdırmasıdır. Milli mənlik şüuru hər bir millətin varlığının, milli özünüidarə və özünü təsdiqin, milli ləyaqətin və ümumbəşəri keyfiyyətlərinin məcmusudur. Milli mənlik şüurunun komponentlərinə millətin adı, varlığı, dili, dini, xarakteri, adət-ənənələri, psixologiyası, mənəviyyatı, mədəniyyəti və s. sahələr daxildir.

Milli etiqadla insan tərbiyə etməyin gözəl nümunəsi vaxtilə pedaqoji mətbuatımızın qızıl salnaməsi olan "Dəbistan" və "Məktəb" jurnallarının səhifələrində daha bariz görünür. Xüsusən, uşaqlar üçün nəzərdə tutulmuş bu vasitələr bir növ milli düşüncəyə xidmət edəcək ədəb-ərkan məcmuələridir. Dövrünün qabaqcıl məktəbdarları milli etiqadla tərbiyə etməyin mənəvi aləmdə açdığı yenilik elementlərini bu jurnallarda xalq kütləsinə bəyan etmişdir.

Onu da qeyd edək ki, 1906-cı ildə millətin maariflənməsinə kömək etmək məqsədilə Məhəmməd əfəndizadə və Əli isgəndər Cəfərzadə ilk maarifçilik jurnalımız olan "Dəbistan" jurnalının nəşrinə başladılar. Hədsiz çətinliklərə baxmayaraq jurnal yoxluğundan çətinlik çəkən məktəblərə faydalı kömək etmişdir. Sonralar böyük maliyyə çətinlikləri ilə üzləşən jurnal bağlanmışdır. " Dəbistan " jurnalının 1906-cı ildə 17 nömrəsi, 1907-ci ildə əlavə 18 nömrəsi çapdan çıxmışdır. Bundan əlavə bu jurnala əlavə olaraq valideynlər üçün xüsusi vərəqə də nəşr olunmuşdur.

1911-ci ildən başlayaraq Qəfur Rəşəd Mürəziz ilə Əbdül-rəhman Əfəndizadə birlikdə "Məktəb" jurnalının nəşrinə başladılar. Bu jurnalın ömrü daha

uzun, yəno 1925-ci ilə qədər olmuşdur. Bu jurnalın da səhifələrində vaxxtaşırı olaraq görkəmli maarifpərvər ziyalılardan Fərhad Ağazadənin, Sultan Məcid Qənizadənin, Əli Ağa Hüseynzadənin, Süleyman bəy Əbdülrəhmanzadənin, Tofiq Gəncəlinin və başqalarının xalq maarifinə və təlim-tərbiyə məsələlərinə aid yazılaırı nəşr olunurdu. Bu yazıkar bir qayda olaraq, millətin gələcəyi olan uşaqların milli etiqadlar zəminində tərbiyəsi işinə ciddi fikir vermişlər.

"Dəbistan"da dərc olunan məqalələrdə ictimai-pedaqoji fikir tariximiz üçün çox qiymətli olan tarixi nümunələr içərisində xalq üçün döyünən qəlblərin iztirabı, millət çarəsi, ana dili məsələsi və digər milli etiqad aşılayan cəhətlər öz əksini tapmışdır. Bu cəhətdən "Dil millətin həyatına vasitədir" məqaləsi dediklərimizə yaxşı sübutdur. Bu deyilenlerden alınan neticeni yığcam şekilde bele ifade etmek olar:

1)Şəxsiyyətin formalaşması haqqında ideyalar qədim dövrdən başlayaraq meydana çıxmış, cəmiyyətin inkişafına müvafiq olaraq zənginləşmə yolu keçmiş və Azərbaycan ictimai-pedaqoji fikrinin probleminə çevrilmişdir. Orta əsrlərdən başlayaraq bu problemlə əlaqədar əhəmiyyət fikirlər söylənmiş, onun praktikada optimal həlli yollarının tapılmasına səylər göstərilmişdir.

2)Şəxsiyyətin formalaşması haqqında ideyalar xalq pedaqoji fikrində, müqəddəs dini kitablarda, yazılı fəlsəfi-pedaqoji, ədəbi-bədii əsərlərdə əks etdirilmişdir. İlk dəfə olaraq "Avesta"da insanın həyatı və fəaliyyəti, inkişaf haqqında konkret fikirlər söylənmiş, onun xeyir ve şər imkanı,şəxsiyyət etalonu müəyyənləşdirilmişdir. Bu gözəl düşüncə,gözəl fikir,gözəl əməl olaraq nəzərdə tutulmuşdur.Avesta insanın mənəvi aləmini xeyir ve şər konsepsiyası ile müəyyənləşdirilmiş, zidol qüvvələrin mübarizəsindən doğan inkişafda xeyiri ve gözəlliyi ali dərəcədə götürmüşdür. Sonrakı bütün dini kitablarda bu konsepsiya əsas götürülmüş, tək olan yaradandan tanımaqla xeyir ve şərin daxili qüvvə kimi mövcudluğu qəbul edilmiş, xeyir işlər görən,gözəllik yaradan insanlar həqiqi şəxsiyyət hesab edilmişdir. Dini təlim şəxsiyyətdə 2 mühüm cəhətin etiqadın (dini inamın) ve zəkanın (elmin, təfəkkürün) mütləqliyini qəbul etmişdir.

3)Qədim dövrlərdə və ilkin orta əsrlərdə şəxsiyyətin formalaşması ideyası insanın tərbiyə edilməsi kimi başa düşülmüş, yaxşı insan yetişdirilməsi məqsədini daşımışdır. Orta əsrlərdə bu məqsəd daha da aktuallaşaraq kamil insana ve yaxud insanın kamilliyinə çevrilmişdir. XIX əsrdən isə şəxsiyyət bütövlüyü ideyası irəli sürülmüş, azad, müstəqil, yetkin, mübariz, kamil vətəndaş-şəxsiyyətin formalaşdırılması səyləri məqsədyönlü olaraq artırılmışdır.

4)Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi insana bütöv tamın (aləmin) hissəsi kimi baxmağı və eyni zamanda bütöv tamın təzahür etdiricisi kimi görməyi irəli sürür.

5)Şəxsiyyətin formalaşması problemi insan haqqında biliklərə bələd olmağı və ona tərbiyəvi nəsir göstərə bilmək ustalığına yiyələnməyi tələb edir, yəni bu

problem ciddi elmi-pedaqoji, fəlsəfi, sosioloji, bioloji, psixoloji və s. elmi əsaslara malikdir.

6)Azərbaycan ictimai-pedaqoji fikrinə görə insan meymundan və yaxud digər heyvandan çevrilməmiş, bəşər övladı olaraq-bioloji, hissi-iradi, əqli-intellektual, fiziki, estetik, əməl qabiliyyətlərinə malik ali şüurlu varlıq-tək insan olaraq yaradılmışdır, tədricən inama, əqidəyə, marağı, istəyə yiyələnmiş, tələbat və ehtiyacını ödəmək üçün fəaliyyət göstərərək qüvvələrini ve yaşayışını təkmilləşdirilmiş, inkişaf etdirmişdir, fəaliyyət (əqli, fiziki ve s.) imkanlarını artırmışdır. Bunlar, aparılan tədqiqatlar müəyyən təkliflər irəli sürməyə imkan verir.

1)Şəxsiyyətin formalaşması haqqında ideyalar tərbiyənin elmi-pedaqoji əsaslarını təşkil etdiyindən, tərbiyənin hər hansı sahəsində aparılan tədqiqatlarda metodoloji əsas olaraq götürülməli, şəxsiyyətin inkişafı və tərbiyəsinin dialektik vəhdəti nəzərə alınmalı, sistemli yanaşmadan istifadə edilməlidir.

2)Şəxsiyyətin formalaşması problemi ali məktəblərdə xüsusi kurs kimi öyrənilsə, tələbələrdə özünüdərketmənin inkişafına kömək edə bilər, nəticədə şəxsiyyət bütövlüyünün yaranmasına tekan verə bilər.

Tədqiqatlar göstərir ki,təlim-tərbiyə anlayışının tərkibinə daxil olan anlayışlar islam dilində də öz əksini tapmışdır.İslam dilində mövcud olan əxlaqi xüsusiyyətlər,Quran ayələri elə Məhəmməd Peyğəmbər müqəddəs bir şəxsiyyət kimi formalaşmağa istiqamət verir.Məktəblərdə və evdə İslam dəyərlərindən istifadə etmək uşaqların hər tərəfli bir şəxsiyyət kimi formalaşmasına nail ola bilərik.

VI əsirdə Avropada və dünyanın başqa yerlərində qanlı müharibələr gedirdi.Yalnız sakit,əmin-amanlıq olan bir yer vard.Oda Ərəbistan yarmadası idi.Burada vəhşi ərəblər Tək Allahı danıb bütlərə sitaiş edir,əhlaqa sığmaz hərəkətlər edirdilər.Belə bir çətin şəraitdə Məhəmməd Peyğəmbər yeni dünyaya gəlir,İslam dininin təbliğinə başlayır.Məhəmməd Peyğəmbər yeni dinin,yeni tərbiyə, və əxlagın əsasını qoydu.O,öz əgidəsi,məsləki naminə hər cür əzaba,əziyyətə dözmüş,düşmənlərinin tələ və təzyıqlərindən qorxmamışdır. Güclü düşmənlərlə mübarizə aparan Məhəmməd Peyğəmbərə 610-cu ildə vəhy edilir və Quranın ayinləri yayınmağa başlayır.Cahilliyə dövrünün əxlaq normalarına sığmayan qaydalarını,ilk qız uşaqlarının diri-diri basdırılması,qadının ən alçaq məxluq hesab edilməsi,ögey ana ilə oğlun evlənməsi və s-ni Məhəmməd Peyğəmbər ləğv etdi.Məhəmməd Peyğəmbərə görə əxlaqı,tərbiyyəsi subut etmiş bir xalqla iş görmək,həmin xalqı səadətə çatdırmaq,xoşbəxt etməq olmaz.Məhəmməd Peyğəmbər yeni din yaratmaqla yeni mənəviyyat,yeni tərbiyyə qaydaları da yaratdı.O,bu kimi məsələləri ona bəxş olunmuş "Quran"da əsaslandırdı."Quran"ədəb və tükənməz bilik almağa,mərifət sahibi olmağa çağırır."Bir saat elm öyrənmək altmış illik ibadətdən xeyirlidir".Məhəmməd Peyğəmbərin "Quran"I sayəsində Ərəbistanda elm sürətlə inkişaf etmişdir.

Beləliklə də İslam dini şərq pedaqoqika elminin inkişafını ciddi təsir göstərmişdir.Bu kitab əsas gücü insanlar arasında təmiz və yüksək mənəviyyat təbliğ etməyə,təmiz əxlaqı keyfiyyətləri insanlar arasında aşılamağa yönəltmişdir. "Yaxşılıq edilməyə layiq olub-olmamasından asılı olmayaraq hamıya,hər kəsə yaxşılıq et: yaxşılığa layiq olana rast gəlsən,bu,çox yaxşı:layiq olmayana yaxşılıq etsən,bil ki,sən yaxşılıq edənlərdən birisən və bu sənin üçün bəstir".Bu kimi kəlamlar uşaqlara müəllimlər tərəfindən daim missal göstərilir.Burada "Quran"da Məhəmməd Peyğəmbər də uşaqlara tərbiyyə edir ki,yaxşılıq et,təkcə yaxşı olanlara deyil,həmçinin yaxşılıq edilməyə layiq olmayanlara da yaxşılıq et. Peyğəmbərin kəlamlarında başka bir missal:

"Tərəzidə çəkilsə,gözəl xasiyyətdən daha ağır gələn heç bir şey yoxdur"."İnsanların xeyirlisi uzun ömür sürən və əməlləri gözəl olanlardır". Burada İslam uşaqları,yaxşı xasiyyətli olmağa çağırır,yaxşı əməllər etməyə çağırır.İslamda bu səpgidə mövcud olan kəlamlar dəyərlər müsəlman aləmində əxlaq tərbiyəsinin əsasını təşkil edir.Bunlar indi də,gələcəkdə də özünün giymətini və dəyərini itirməyən kəlamlardır.

İslam uşaqların xoşbəxt halal yaşamasını,səadətə satmasını zəhmət və əməkdə görünürdü.Əməyin insan həyatındakı rolunu yüksək giymətləndirir Peyğəmbərin özü həddən artıq səhv və təvazükar yaşamış,heç kəsə əziyyət vermədən öz işlərini öz əməyi ilə görmüşdür.O,adamların münasibətində də ,heç vaxt ağa-nökər ayrı seçkiliyinə yol verməyərək,dəqiq,doğruçul və səligəli olmuşdur.Məhəmməd Peyğəmbər öz işləri ilə,öz kəlamları,uşaqları öz əməyi ilə yaşamağa istiqamətləndirir.Onlara istiqamət verir ki,öz əlinin zəhməti ilə yaşa,heç kəsə möhtac olma.O,öz kəlamlarında deyir:

İbadət yetmiş qapıdır,bunlardan ən üstünü halal yolla ruzi qazanmaq üçün çalışmaqdır". "Halal ruzi qazanmaq,yolunu arayıb axtarmaq əslində mübarizədir və hər bir müsəlman üçün vacibdir". İslam əməyi mənəvi dəyər kimi baxır. İslam dini,eləcə də Məhəmməd Peyğəmbər tərbiyənin təvazükar,mərifətli olmaq,gəzəbli olmamaq,tez özündən çıxmamaq,zəyif adamlara əl qaldırmamaq kimi digər çox mühim məsələlərinə də toxunmuşdur.Məhəmməd Peyğəmbər özünü ələ ala bilməyən,tez gəzəblənən,özündən zəyif adamlara güzəşdə gedə bilməyənləri iradəsiz adam adlandırırdı.Peyğəmbər gəzəblənəndə özünü ələ ala bilən,özündən zəyiflərə güzəşdə gedə bilən adamları isə güclü hesab edirdi. Məhəmməd Peyğəmbər insanın bir şəxsiyyət kimi formalaşmasında elm biliklərin mənimsənilməsinə xüsusi diqqət yetirmək deyirdi.

ƏDƏBİYYAT

- Kazımov N.M. Tərbiyənin pedaqoji əsasları, Bakı, 1993
- Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə işi, Bakı, 1987

- Muxtarova N. Məktəblilərdə milli şüur və milli ləyaqətin tərbiyə edilməsi, Bakı-1999
- Talıbov U,Ağayev Ə,İsayev İ,Eminov A.Pedaqogika, Bakı, Maarif, 1992

С. КУЛИЕВА
Л. МАМЕДОВА

РОЛЬ НАЦИОНАЛЬНЫХ ЦЕННОСТЕЙ И САМАВОСПИТАНИЕ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ.

Воспитание это продукт человеческого общества и появился в основе сложившихся норм и потребностей. Пророк вызывает людей к добру, правде, остерегает от худших намерениях и призывает всех уважать женщин, стариков и детей. Yважение k женщине являемся также одним из превил морали. Одно из ценностей морали мусульманского мира является уважение и гуманный взглад k женщине, что и было узаконено пророком Мухаммедом. Он говорил, что рай находися под ногами

матерей. из выше указанных понятно что, в словах пропока упоминаются о доброте, справедливости, высказываные своего истинного слова, манерах этики. именно эти моральние ценности освещают kak маяк наше прошлое, нынешное и будушее время.

S. QULIYEVA
L. MAMMADOVA

THE ROLE OF NATIONAL VALUES AND SELF-EDUCATION IN THE FORMATION OF PERSONALITY

SUMMARY

Morality is a product of human society and appeared on the basis of the norms, certain needs that arose in the community. The prophet sayings invite people to uprightness, honesty, being far from vile deeds, keeping safe what you have feen entrusted with, feeling respect to grow-ups and juvenile, women, in one word, gaing the respect and sympathy of all. To respert women is also one of the moral rules. Rerevence to women and humanist treatment were legitimated by the Prophet Mohammed. He said that, paradise is under the feet of mother's Just these moral volues is a torch that illumin at our past, present and future.

Rəyçi: Aidə Sabor
Filologiya elmləri namizədi, dosent

GÜNEL MAHMUDOVA
Bakı Dövlət Universiteti

MÜSTƏQİLLİK İLLƏRİNDƏ MİR CƏLALIN TƏDQİQİNİN ÜMUMİ MƏNZƏRƏSİ

Açar sözlər: Mir Cəlal, müstəqillik illəri, tədqiq məsələləri.
Ключевые слова: Мир Джалал, период независимости, вопросы исследования творчества.
Key words: Mir Jalal, the period of Independence, creativity, research questions.

Müstəqillik illərində Azərbaycanda bir çox sahələr inkişaf etdi, ədəbiyyatımızın, mədəniyyətimizin ümumi mənzərəsi ilə tanış olarkən insanda nikbin ruh yaranır. Müasir həyatın və insanların sosial-mənəvi, psixoloji-emosional vəziyyətini yüksək bədii səviyyədə əks etdirmək çağdaş ədəbiyyatın əsas vəzifəsidir. Müstəqillik illərində yaranan ədəbiyyat nümunələrində, bədii əsərlərdə bu vəzifələrin bu və ya digər səviyyədə həlli əksini tapmışdır. Bu illərdə B.Vahabzadə, N.Xəzri, X.R.Ulutürk, M.Araz, F.Qoca, S.Tahir, İ.Tapdıq, N.Həsənzadə və b., nisbətən sonrakı nəsillərin nümayəndələri olan S.Tahir, R.Rövşən, V.Əziz, R.Behrudi, M.İsmayıl, D.Gədəbəyli, S.Sarvan və başqalarının poeziyada, İ.Muğanna, Anar, Elçin, Y.Səmədoğlu, Ə.Əmirli, E.Hüseynbəyli və b. nəsrdə ortaya qoyduğu məharət ürəkaçandır. Belə ki, can, qan hesabına əldə edilən müstəqillik illəri ədəbiyyat, söz, sənət adamlarına həm xeyli mövzu, ideya və ən əsası, söz demək haqqı verdi. 1990-cı ilin qanlı 20 Yanvar hadisəsi, 1992-ci ilin Xocalı soyqırımı, Qarabağ müharibəsi, bayraq, himn, şəhidlər və s. kimi yeni mövzularla şairlər, yazıçılar bir-birinin ardınca maraqlı, zövq oxşayan, o cümlədən milli məfkurəni, milli təəssübkeşliyi əks etdirən onlarla əsərlər yazdılar və yazırlar. Dramaturgiyada da vəziyyət ürəkaçandır. Müstəqillik olmasaydı, bir sıra əsərlərin çapı işıq üzü görməzdi. Həmçinin 71 illik sovet hakimiyyəti illərində deyilməyən çox söz ədəbi tənqid səhifələrində yazıldı. Tolerant bir ölkə kimi, bu gün Respublikamızda müxtəlif xarici dillərdə jurnal və qəzetlər, kitablar çap olunur. Və bu kimi xarici dillərdə çap olunan əsərlərin ölkəmizin hüdudlarından kənarda oxunması bizi sevindirir. Çap olunan kitabların Sovet dövründəki kimi rus və ya başqa dillərdə deyil, ana dilində çap edilməsi təqdirəlayiqdir. Bu gün ana dilimizdə çap olunan hər səhifəyə görə sevinirik. Çünki ana dilinin yaşaması, gələcək nəsillərə ötürülməsi millətimizin qürur yeri, təəssübkeşlik məsələsi kimi hər kəsi sevindirir. Doğrudur ki, "Sovet dövründə ədəbiyyat ideologiyanın məngənəsi altında sıxılırdı" (3, s. 261). O dövrdə deyilməyən sözlər, yazılmayan əsərlər müstəqillik dövründəüzə çıxdı. Ədəbi tənqid bu illərdə xeyli inkişaf etdi. 71 il ərzində tədqiq olunmağa ehtiyacı olan bir çox şairlər, yazıçılar haqqında olan materiallar, sənədlər tarixi və bədii əsərlərdə əksini tapdı. Klassiklərə verilən dəyər

daha da yüksək səviyyədə həllini tapdı. Mühacirət ədəbiyyatı, Cənubi Azərbaycan adlı dərsliklər, dərs vəsaitləri işıq üzü gördü. Bu ədəbiyyatlar universitetlərdə tədris olunmağa başladı. Repressiya illərinin hər acısını əks etdirən faktlar ictimaiyyətə çatdırıldı. Sovet dövründə qısqanclıq edilə-edilə söz açılan bir çox sənətkarlar haqqında müstəqillik illərində bol-bol kitablar yazdılar. Sovet illərində barəsində yazılan şəxsiyyətlərə münasibət daha geniş vüsət aldı. O illərdə məhsuldar bir yaradıcılıq yolu keçmiş ən yaxşı yazıçılardan sayılan Mir Cəlal haqqında müstəqillik illərində daha sanballı məqalələr, monoqrafiyalar, tədqiqatlar ərsəyə gəldi. Mir Cəlal kimi, bir çox sənətkarlar haqqında da bu sözləri yazmaq olar. İllərlə adlarını çəkmək yasaq olunan bir çox şair və yazıçıların yaradıcılıq yolları monoqrafiya və tədqiqatlarda işıqlandırıldı, onların adları üzərindən qara kölgə geri götürüldü. Doğrudur, Mir Cəlal həmişə xalqın sevdiyi sənəkar olmuşdur və öz layiqli yerini ən əvvəla xalqın qəlbində tutmuşdur. Amma müstəqillik illərində onun haqqında ən yaxşı monoqrafiyalar, kitablar bir-birinin ardıyca çap olundu və olunur. Mir Cəlalın alim, müəllim və yazıçı ömrü yüksək səviyyədə araşdırılmış, onun dilçilik görüşləri, yaradıcılığında poeziya məsələləri, Mir Cəlal və folklor, Mir Cəlal yaradıcılığında Cənubi Azərbaycan həyatının təsviri, Mir Cəlal Füzuli yaradıcılığı haqqında, Mir Cəlal klassiklər haqqında və sair kimi mövzularda dövrün alimləri araşdırmalar aparmış, onlarla kitablar, monoqrafiyalar, o cümlədən yüzlərlə məqalələr işıq üzü görmüşdür. Bütün bunlar barədə ətraflı yazmazdan öncə onu qeyd etmək istəyirik ki, müstəqillik illərində böyük ədibin yaradıcılığına verilən bu lazımi dəyəri nəinki ölkəmizdə, həmçinin bütün dünyada görə bilirik. Müstəqillik illərində Mir Cəlal Paşayevin tədqiqi məsələlərinə gəlincə, ən əvvəl buradan başlamaq istəyirik ki, XX əsr Azərbaycan ədəbiyyatında, elmində müstəsna xidmətlər göstərən Mir Cəlal Paşayevin 100 illiyi 2008-ci ildə YUNESKO səviyyəsində qeyd olunmuşdur. Bu, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən önəmin və dəyərin təzahürüdür.

Bu sərəncamla bağlı noyabrın 10-da Parisdə, YUNESKO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim və pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir.

2008-ci ildə Mir Cəlal Paşayev haqqında əldə edilən daha bir uğur ədib haqqında "Üç zirvənin fatehi" adlı televiziya filminin çəkilməsi olmuşdur. Ssenari müəllifi Sadıq Elcanlı, rejissor Emil Babayevin hazırladığı bu filmdə Azərbaycanın ən görkəmli elm və ədəbiyyat xadimləri çıxış etmişlər.

Mir Cəlal haqqında belə ətraflı filmdən əlavə, ədibin həyatı, yaradıcılığı ilə bağlı xeyli başqa verilişlər, proqramlar hazırlanmışdır.

2008-ci ildə həmçinin Bakı Dövlət Universitetində Mir Cəlalın anadan olmasının 100 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirildi. Konfransda söylənilən məruzələr kitab şəklində çap olundu. Kitabda Nərgiz Paşayeva "Yazıçı və zaman", Bəkir Nəbiyev "Fədakar alim", İsa Həbibbəyli "Molla Nəsrədin" ədəbi

məktəbinin tədqiqində Mir Cəlal mərhələsi", Azad Nəbiyev "Mir Cəlal və Füzuli sənətkarlığı", Ədibə Paşayeva "Mir Cəlal rus ədəbiyyatı haqqında", Təhsin Mütəllimov "Görkəmli nəzəriyyəçi alim", Abdulla Abasov "Böyük ədəbiyyatşünas alim", Himalay Qasımov "Ustad sənətkar, qüdrətli ədəbiyyatşünas, böyük pedaqoq", Tofiq Hüseynoğlu "Səviyyə axtarışında", İfrat Əliyeva "Yolumuz hayanadır" romanında tarixilik problemi", Almaz Əliqızı "Mir Cəlalın hekayələrində Cənubi Azərbaycan həyatının təsviri", Cahangir Məmmədli "Sənətkarın estetik ideallar sistemi", Nəsir Əhmədli "Söz sərrafı"və b. Mir Cəlal Paşayev yaradıcılığı barədə maraqlı və elmi məqalələr yazmışlar. Məzmun etibarilə məruzə materialları kitabda ədəbiyyatşünaslıq, dilçilik və sosial elmlər başlığı altında üç yerə bölünmüşdür. Dilçilik adlı bölmədə Mir Cəlalın dilçilik görüşlərindən, ədibin əsərlərində dil hadisələrindən və s. bəhs edən müəlliflərin məqalələri verilmişdir. Mir Cəlal Paşayev dilşünas alim deyildi. Amma onun monoqrafiyalarından və məqalələrindən aydın olur ki, o bu sahədə də uğur əldə etmişdir. "Füzuli sənətkarlığı" monoqrafiyasında Mir Cəlal Füzulinin dil-üslubunu çox aydın şəkildə izah etmişdir. Bundan başqa, digər klassikləri tədqiq edərkən onların dil-üslub xüsusiyyətlərindən də daim yazmışdır. Ədibin 1937-ci ildə çap olunmuş "Klassiklər və müasirlər" kitabında da Mir Cəlal ədəbi və bədii dil məsələlərini diqqətdə saxlamışdır.

Mir Cəlalı çoxları tədqiq edib, haqqında məqalələr yazıb, kitablar çap etdirib və s. Amma Mir Cəlal özü isə, fikrimizcə, üç dahi sənətkarın vurğunu olub. Bunlar Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir və Cəlil Məmmədquluzadədir. Biz, ədibin yaradıcılıq dünyasından yanaşaraq məhz bu fikrə gəlirik. Maraqlıdır ki, ədib bu üç şəxsiyyətdən biri haqqında monoqrafiya yazdı: "Füzuli sənətkarlığı". Sıra etibarilə adını ikinci yazdığımız dahi satirik şair haqqında roman yazdı: "Yolumuz hayanadır". Cəlil Məmmədquluzadənin yazıçılıq üslubunun ənənələrinə isə hekayələrində sadiq qaldı.

Ədibin, Cəlil Məmmədquluzadə, o cümlədən Ə.Haqverdiyev ənənəsini hekayələrində davam etdirməsinə dair sovet dövründə hədsiz çox məqalələr yazılmışdır. Müstəqilliyimizin ilk illərində də bu fikirdə olan müəlliflərin məqalələri çap olundu. "Ədibi xatırlayarkən" adlı məqalədə yazılmışdır: "Mir Cəlalın gülüşü nə qədər təkrarsız olsa da, orada ədibimiz Cəlil Məmmədquluzadənin bədii təsiri aydın şəkildə özünü göstərir" (2, s. 15).

Mir Cəlal yaradıcılığı həmişə xatırlanır. 1994-cü ilin 30 sentyabrında ədibin xatirəsinə həsr edilmiş ədəbi-bədii gecə keçirilmişdir.

1998-ci il 17 iyunda Səməd Vurğunun ev muzeyində də Mir Cəlalın anadan olmasının 90 illiyinə həsr edilmiş xatirə günü keçirildi. Bu tədbirdə də ziyalılar, görkəmli elm xadimləri Mir Cəlal haqqında məruzələr söyləmişlər.

Müstəqillik illərində Mir Cəlal yaradıcılığına verilən ən yaxşı xidmətlərdən biri də ədibin şəxsi fonduna daxil edilən çox qiymətli sənədlərin Hafiz Paşayev tərəfindən Azərbaycan dövlət ədəbiyyat və incəsənət arxivinə verilməsidir. Bu

sənədlər – Mir Cəlalın 60-dan çox bədii, elmi tədqiqat əsərinin əlyazmaları, məktubları və s. ədibin tam biblioqrafiyasının təmin olunmasına hədsiz dərəcədə kömək olmuşdur.

Müstəqillik illərində ədibin yaradıcılığı uğrunda atılan daha bir xoş addım onun biblioqrafiyasının çap edilməsidir.

Ümumiyyətlə, Mir Cəlal Paşayev haqqında üç biblioqrafik kitab çap olunub. Bunlardan birincisi, 1968-ci ildə ədibin 60 illik yubileyi münasibətilə çap olunmuşdur. İkinci şəxsi göstərici 1998-ci ildə ədibin 90 illik yubileyi münasibətilə çap edilmişdir.

Müstəqillik illərində hazırlanmış biblioqrafiya 2006-cı ildə çap olunmuşdur. Biblioqrafiyada biz, ədibin həyatı, çap olunmuş məqalələri, əsərləri, kitabları, tərcümələri, rəhbərlik etdiyi dissertasiya işləri və s. haqqında xronoji əhatəli, bitkin və mükəmməl göstəriciləri oxuya bilirik. Bu biblioqrafiyadan aydın olur ki, Mir Cəlalın, ümumilikdə dövri mətbuatda çap olunmuş 774 adda bədii, ədəbi-tənqidi və publisistik məqalələri, 96 kitabı, 9 adda tərcümə əsəri, redaktə etdiyi 26 adda əsər, rəhbərlik etdiyi 36 adda dissertasiya, eyni zamanda həyat və yaradıcılığı haqqında yazılmış 10 kitab, 417 məqalə mövcuddur.

Bu qədər biblioqrafik göstəriciləri əks olunan bu kitabdan sonra, bizə elə gəlir ki, yeni bir biblioqrafiyanın da çap olunması zərurəti meydana çıxmışdır. Çünki 2006-cı ildən bu günə kimi, yəni son on il ərzində Mir Cəlal Paşayev yaradıcılığı haqqında yazılmış məqalələrin, kitabların adlarını və o cümlədən doktorant və dissertantlara verilmiş onlarla tədqiqat mövzularını yeni biblioqrafiyaya əlavə edəcək bir tərtibatçıya ehtiyac duyulacaqdır.

1998-ci ildə Mir Cəlal haqqında çap olunmuş daha bir məqalə "Görkəmli alim, istedadlı yazıçı" adlanır. Bu məqalədə də ədibin elmi və bədii fəaliyyətindən maraqlı lövhələr verilmişdir. Məqalədə Mir Cəlalın romanları, hekayələri haqqında ətraflı məlumatlar yazılmış, o cümlədən, ədibin elmi fəaliyyəti, yazdığı monoqrafiyalar haqqında məlumatlar vardır (4, s. 6).

1998-ci ilin 17 aprelində Mir Cəlal Paşayevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı imzalanmışdır. Sərəncama əsasən, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Milli Aviasiya Akademiyasında və s. Mir Cəlalın 90 illik yubileyi münasibətilə təntənəli xatirə gecələri keçirilmişdir.

Ədibin 90 illik yubileyilə bağlı və ondan sonralar da yüzlərlə məqalələr çap olunmuşdur: Cəlal Abdullayev "Mir Cəlal fenomeninə dair", Elçin "Ədəbiyyatımızda yaradıcılıq problemləri", "Sadəlik və müdriklik", İfrat Əliyeva "Unudulmaz sənətkar", Yaşar Qarayev "Ədibin Dünyaya və Zamana həmişə açıq kitabı", Teymur Əhmədov "70 yaşlı elm ocağı", Nəriman Həsənzadə "Mir Cəlal - əbədi yaşardı, fəxri addı, tituldu", Flora Xəlilzadə "Dirilən adam" və s. Bu məqalələrdə yazılanları misra-misra araşdırarkən Mir Cəlalın ədəbi, elmi və

pedoqoji fəaliyyətinin paralel şəkildə mükəmməliyi barədə məqalə müəlliflərinin fikirlərində bir daha təkrar oxumaq olar.

Bildiyimiz kimi, Mir Cəlalın namizədlik dissertasiyası Məhəmməd Füzulinin yaradıcılığına həsr olunduğu halda, doktorluq əsəri "Azərbaycanda ədəbi məktəblər (1905-1917)" adlanır. Bu əsərdə müxtəlif ədəbi metoda əsaslanan, üslubuna görə bir-birindən fərqli bir sıra sənətkarın yaradıcılığı geniş nəzəri təhlilə cəlb olunmuşdur. Ədib bu əsəri 1947-ci ildə uğurla müdafiə etmişdir. "Azərbaycanda ədəbi məktəblər" əsərində Mir Cəlal mahir ədəbiyyat nəzəriyyəçisi kimi təhlillər aparmışdır. Əsər 2004-cü ildə professor Təhsin Mütəllimovun elmi redaktorluğu ilə çap olundu. 2004-cü ildə "Azərbaycanda ədəbi məktəblər" kitabının təntənəli şəkildə təqdimatı keçirildi. Tədbirdə görkəmli şəxslər iştirak və çıxış etdilər.

2005-ci il 27 mayda Akademik Milli Dram Teatrında "Dirilən adam"ın ilk tamaşası olmuşdur. Bu tamaşayla bağlı Anarın "Dirilən adam" səhnədə", T.Mütəllimovun "Dirilən adam" yenidən dirildi", B.Babazadənin "Dirilən adam" səhnədə", Flora Xəlilzadənin "Dirilən adam" və s. məqalələr bu tamaşayla bağlı yazıldı.

Müstəqillik illərində ədibin tədqiqi məsələsinə həsr edilmiş yüzlərlə məqalə yazılsa da, ən əsası, neçə-neçə monoqarafiyalar çap edildi. "Mir Cəlal" (Əhəd Hüseynov), "Mir Cəlal: Müasirlərinin xatirələrində və yaradıcılığından örnəklər" (Tərtibçi: Teymur Əhmədov), "Mənəvi borc" (Xalid Əlimirzəyev), "Əziz bir insanı xatırlayıram" (İ.Tapdıq), "Mir Cəlal dünyasından sətirlər" (Hidayət), "Məram" (İlham Rəhimli), "Həyat hekayələri, yaxud insan qəlbinin dialektikası" (Sevinc Muğanna), "Mir Cəlalın elmi-nəzəri görüşləri" (Gülxani Pənah), "Qəlblərdə yaşayan Mir Cəlal" (Ramiz Dəniz) və s.

Əhəd Hüseynovun "Mir Cəlal" monoqrafiyası 1991-ci ildə çap olunmuşdur. Kitaba qədər Əhəd Hüseynov mütəmadi olaraq Mir Cəlal yaradıcılığına müraciət etmiş, xeyli məqalələr yazmış və çap etdirmişdir. 1956-68-ci illər arasında ədəbi tənqiddə özünü göstərən gənc tədqiqatçı olsa da, Ə.Hüseynov Mir Cəlal haqqında doqquz məqalə yazmışdır. "Mir Cəlalın hekayələri", "Mir Cəlalın hekayələrində satira və yumor", "Dil və üslub", "Mir Cəlalın Böyük Vətən müharibəsi illərində yazdığı hekayələr", "Mir Cəlalın hekayələrində gülüşün mahiyyət və vasitələrinə dair" və s. məqalələrində Əhəd Hüseynov görkəmli sənətkarın, xüsusən hekayələrini əhatəli təhlil süzgəcindən keçirmişdir.

Bu məqalələrin hər birində Əhəd Hüseynov istər Mir Cəlalın hekayələrinin mövzu və obrazlar aləminin təhlilində, istərsə də üslub məsələsində ədibə çox yüksək dəyər vermişdir. Bu məqalələr bir yerə toplanaraq 2011-ci ildə "Mir Cəlalın bədii nəsri" adı altında kitab şəklində çap olundu. Kitaba ön sözü Təyyar Salamoğlu yazmışdır (7, s. 13).

Doğrudur ki, Ə.Hüseynovun Mir Cəlalın yaradıcılığına xüsusi maraq göstərməsi ədibin zəngin hekayə yaradıcılığından irəli gəlir.

Müstəqillik illərində Mir Cəlal haqqında çap olunmuş daha bir kitab professor Xalid Əlimirzəyevə məxsus idi. "Mənəvi borc" adlı bu kitabda müəllif Mir Cəlal haqqında xatirələri əks etdirmişdir.

Bildiyimiz kimi, Mir Cəlalın "Dirilən adam" romanının ssenarisi əsasında 2005-ci il 27 mayda Akademik Milli Dram Teatrında əsərin ilk tamaşası keçirildi. Tamaşayla bağlı qəzetlərdə xeyli yazılar, məqalələr, şərhlər yazıldı. Amma bu tamaşa ümumilikdə Mir Cəlal yaradıcılığı üçün ilk səhnə, ilk uğur deyildi. Çünki ədibin əsərləri müxtəlif dövrlərdə səhnələşdirilmişdir. Amma bu əsərlərin səhnə həyatıyla bağlı yazılmış "Məram" kitabı isə müstəqillik illərində ərsəyə gəlmiş, yazılmış kitabdır. Belə ki, 2006-cı ildə çapdan çıxmış bu kitabda Mir Cəlal yaradıcılığının səhnə həyatı əksini tapır. Kitabda Mir Cəlalın "Mirzə Xəyal", "Bir gəncin manifesti", "Dirilən adam" əsərlərinin səhnə həyatı, tamaşa uğurları, ifaçı aktyorlar, qoyulan problemlərin aktuallığı, tamaşa üçün səbəb olacaq mühüm şərtlər və s. haqqında ətraflı yazılmışdır. İ.Rəhimliyə görə, Mir Cəlalın "Açıq kitab", "Yaşıdlar", "Yolumuz hayanadır?", "Təzə şəhər" romanlarının dramaturji-psixoloji mahiyyətləri, süjet xətlərinin dramatik səciyyələri, koloritli obrazları və teatr tamaşası üçün vacib olan digər keyfiyyətləri bu əsərlərin səhnə variantı haqqında düşünməyə əsas verir (6, s. 363).

2007-ci ildə Mir Cəlal yaradıcılığına daha bir töhfə ədibin əsərlərinin Heydər Əliyev Fondunun dəstəyi ilə Türkiyədə çap olunması oldu.

Fondun dəstəyi ilə Mir Cəlal Paşayevin "Dirilən adam", "Açıq kitab" romanları, "Göylər adamı", "İdxal xəstəlik", "Möhür və eşq" hekayə kitabları Türkiyədə nəfis tərtibatla nəşr edilərək türk oxucularına təqdim olunmuşdur.

Ədibin beş kitabda toplanmış roman və hekayələrini türk dilinə Əli Əkbər Əliyev və Azad Ağayev tərcümə etmişlər. Kitabların üz qabığında əsərlərdəki personajlara uyğun şəkillər yerləşdirilmişdir. Həmçinin kitablarda yazıçının həyat və yaradıcılıq yolunu əks etdirən yığcam məlumatlar verilmişdir(9).

Müstəqillik illərində Mir Cəlal yaradıcılığının tədqiqi məsələlərinə bu məqalədə ümumi nəzər saldıq. Amma ədibin yaradıcılığı mütəmadi olaraq araşdırılır, tədqiq etmək üçün doktorantlara Mir Cəlal yaradıcılığı barədə yeni-yeni mövzular verilir.

ƏDƏBİYYAT:

1. Hüseynov Ə. Mir Cəlal. Bakı: Yazıçı, 1991, 190 s.
2. Hьseynova Ю. "Ədibi xatərlayarkən". Azərbaycan jurnalə, Bakə, 12 fevral 1997, s. 15.
3. Quliyev Ə. "Fьzuli sənətkarləpə"nda dil məsələləri". // Bax: Mir Cəlalən anadan olmasənən 100 illik yubileyinə həsr olunmuю elmi konfransən materiallarə. Bakə: Bakə Universiteti nəюriyyatə, 2008, 325 s. S. 261-263.
4. Məmmədov Ю. Gıґkəmli alim, istedadlə yazəzə. – Mir Cəlal – 90. Azərbaycan mьəllimi, 1998, 20 avqust.

5. Mir Cəlal. Biblioqrafiya. Tərtibçi-mьəllif: Napəyeva N. Bakэ, Adiloplu, 2006, 259 s.

6. Rəhimli Э. Məram. Bakэ, Заюэоplu, 2006, 369 s., s. 363.

7. Salamoplu Təyyar. Mir Cəlalən nəsri Əhəd Hьseynovun tədqiqatlarэnda (цn sцz) // Bax: Hьseynov Ə. Mir Cəlalən bədii nəsri (məqalələr toplusu). Bakэ, Elm və təhsil, 2011, 196 s. S. 4-15.

8. Yazэzэ və zaman. Mir Cəlalən anadan olmasэnэn 100 illik yubileyinə həsr olunmuю elmi konfransэn materiallarэ. Bakэ: Bakэ Universiteti nəюriyyatэ, 2008, 325 s.

İnternet

9. http://heydar-aliyev-foundation.org/az/content/view/77/525/Heyd%C9%99r-%C6%8Fliyev-Fondunun-d%C9%99st%C9%99yi-il%C9%99-g%C3%B6rk%C9%99mli-yaz%C4%B1%C3%A7%C4%B1,-%C9%99d%C9%99biyyat%C5%9F%C3%BCnas-alim-v%C9%99-pedaqoq-Mir-C%C9%99lal-Pa%C5%9Fayevin-%C9%99s%C9%99rl%C9%99ri-t%C3%BCrk-dilind%C9%99-n%C9%99%C5%9Fr-edilib

МАХМУДОВА ГЮНЕЛЬ

ОБ ИССЛЕДОВАНИЯХ ТВОРЧЕСТВА МИР ДЖАЛАЛА В ПЕРИОД НЕЗАВИСИМОСТИ

РЕЗЮМЕ

В период независимости Азербайджан стал развиваться по многим направлениям. При знакомстве с общей картиной литературы и культуры того времени появляется чувство оптимизма. В эти годы были написаны фундаментальные статьи, монографии и исследования о творчестве Мир Джалала – одного из самых продуктивных советских писателей.

В 2008 году на уровне ЮНЕСКО было отмечено 100-летие Мир Джалала Пашаева. Кроме этого, в том же году был снят телефильм «Покоритель трех вершин», а также международная научная конференция, посвященные творчеству писателя.

30 сентября 1994 года в связи с годовщиной памяти литератора прошел литературно-художественный вечер.

В 1998 году в доме-музее Самеда Вургуна был отмечен день памяти Мир Джалала.

27 мая 2005 года в Академическом национальном драматическом театре состоялась премьера его спектакля «Воскресший человек», вызвавшая оживленные отклики в научной прессе.

В годы независимости было издано множество монографий о творчестве литератора: «Мир Джалал» (А.Гусейнов), «Мир Джалал: в воспоминаниях современников и творческие зарисовки» (Составитель: Т.Ахмедов.), «Моральный долг» (Х.Алимирзоев), «Воспоминания о дорогом человеке» (И.Таптыг), «Страницы из жизни Мир Джалала» (Идаят), «Цель» (И.Рагимли), «Жизненные рассказы, или диалектика человеческой души» (С.Муганна), «Научно-теоретические взгляды Мир Джалала» (Г.Панах), «Мир Джалал, живущий в сердцах» (Р.Дениз) и пр.

MAHMUDOVA GUNEL

ABOUT RESEARCHING OF MIR JALAL'S CREATIVITY DURING INDEPENDENCE PERIOD

SUMMERY

Azerbaijan began to develop in many directions during the Independence period. There is a feeling of optimism when meeting the general picture of the literature and culture of this time. In those years it was written fundamental articles, monographs and studies on the works of Mir Jalal, as one of the most productive among the Soviet writers.

2008, the 100th anniversary of Mir Jalal Pashayev was marked at the UNESCO. In addition, in the same year was filmed TV movie "Voyage of the three peaks", as well as international scientific conference both dedicated to the work of the writer.

September 30, 1994, passed literary and art evening in connection with the anniversary of the writer's memory.

1998, in the house-museum of Samad Vurgun was marked Remembrance Day of Mir Jalal.

2008, the third one was published bibliography of the writer.

May 27, 2005, at the Academic National Drama Theatre the premiere of his play "The Risen People" with a lively response in the scientific press.

In the Independence years it has been published numerous monographs on the work of the writer: "Mir Jalal" (A.Huseynov), "Mir Jalal: in the memoirs of contemporaries and imaginative sketches" (Compiled by T.Ahmadov), " The moral duty" (H.Alimirzayev), "Memories of a dear person" (I.Taptyg), "Pages from the Mir Jalal's life" (Hidayat), "Purpose" (I.Rahimli), "Life stories, or the dialectic of the human soul" (S.Mughannah), "Scientific-theoretically views of Mir Jalal" (G.Panah), "Mir Jalal, who lives in the hearts" (R.Deniz) and etc.

Rəyçi: prof. Abdulla Abasov

CAHANGIRZADƏ.S.V
Cahangirzade@mail.ru

«ŞEYX SƏNAN» ƏSƏRİNDƏ İNSAN MƏNƏVİYYATI TƏSƏVVÜF MÜSTƏVİSİNDƏ»

Açar sözlər: *H.Cavid, təsəvvüf, Şeyx, Aşiq, həqiqət, kamil insan*
Ключевые слова: *Г.Джавида. Теософия, Шейх, , влюбленный, правда,совершенный человек*
Key words: *H.Djavid. mystical, Sheikh, lover, truth, a perfect man*

H.Cavidin bütün əsərləri baş qəhrəmanın adı ilə adlandırılır. Buna diqqət edən Kamran Əliyev yazır:«Azərbaycan ədəbiyyatı tarixinin 1000 ilə yaxın bir mərhələsinə yaxın hakim olan şəxsiyyət ətrafındakı hərəkət ənənəsini Hüseyn Cavid dəyişdirdi və yeniləşdirdi, şəxsə və şəxsiyyətə olan qlobal marağın yaddaşla bədii əsər arasındakı qabarıq əlaqəsini ilk dəfə önə-açıq müstəviyə çıxardı. Bu böyük kəşf idi...baş qəhrəmanın yalnız özü əsərin adına çıxdı, yeni silsilə yarandı, bu silsilə və ardıcıllığı müşayiət edən poetika ədəbiyyat tarixinə daxil oldu:«Şeyx Sənan», «Şeyda», «İblis», «Afət», «Peyğəmbər», «Topal Teymur», «Knyaz», «Səyavuş», «Xəyyam». (2.s.30-31)

K.Əliyevin mülahizələri bir qədər romantik xarakter daşısa da, bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, Cavid dramaturgiyasının bədii-fəlsəfi açarı əsərlərinin adında ifadə olunan baş qəhrəmandır. Bunu H.Cavid dramaturgiyasının poetikası tələb edir.

H.Cavidin Şeyx Sənanı kimdir? Bir obraz kimi o, hansı bədii-fəlsəfi qayəni təlqin etmək üçün yaradılıb? Şeyx Sənan İslam dinini dərindən bilən, onu böyük inamla təbliğ hətta təlqin edən sufi türk şeyxidir. Ərəbistana ürfan elmini öyrənmək üçün gəlib və buna nail olub. «Kamil insan» anlayışı əvəllər də türklərin fəlsəfəsində özünü göstərirdi. Türklər qazilər, mürşidlər, dərvişlər, şeyxlər olub Turana yayıldılar və ümumtürk mənəvi təkamülünün yaranmasında mühüm rol oynadılar. Müəllif Şeyx Sənanı belə təqdim edir:

Səni annən doğurdu Turanda,
Yaşadın bir zamanda İranda,
Kəsbi-ürfan için, fəzilət için,
Sonra İranı tərk edib gəldin.
Ərəbistanı ixtiyar etdin.
Gənc ikən kəsbi-iştihar etdin.
Lakin ən son yerin, zəki Sənan!
Olacaq son nəfəsdə Gürgüstan. (1.s.143)

«Şeyx Sənan» faciəsində iki plan var: biri hadisələrin baş verdiyi tarixi məkan və zaman, bir də röya. H.Cavid Sənanın yuxusunu real plana daxil edir. Bu daha çox sufi-mistik məqsəd daşıyır. «Şeyx Sənan» əsərinin strukturunda bu yuxu

təkcə çıxış nöqtəsi yox, həm də ideyanın sufi planın rolunu oynayır, əsər yuxuya bənzər ölümlə başa çatır. Bu yuxu həm də bir obraz kimi Şeyx Sənanın taleyini, sufi rolunu müəyyən edir. Şeyx Sənanın düşüncələri şübhələr içindədir. Bu şübhələr onun gördüyü yuxudan sonra yarandı. Bu səbəbdən Şeyx Sənan:

Qoşuyor hər səhər biyabanə,
Həm də əsla qarışmaz insanə,
Halı pəjmurdə, sanki məcnun;
Anlaşılmaz nədir məramı onun?! (1, s.124)

Şeyx Sənanın bu vəziyyəti Füzulinin Məcnununu xatırladır. Məcnunda cəmiyyətin köhnə qanunlarına, mövhumata üsyan edərək biyabanə üz tutmuşdu. Şeyx Sənan isə öz şübhələri ilə cəmiyyətdən uzaqlaşmışdı. Məcnunun və Şeyx Sənanın səhraya üz tutmaları sanki onların real cəmiyyətə olan üsyanıdır. H.Cavid bu əsərdə tək təsəvvüf fəlsəfəsini əks etdirmirdi, eyni zamanda Şeyx Sənanın daxili aləmindəki dəyişikliklərdən bəhs açırdı, onun cəmiyyətə olan münasibətini göstərərək ictimai problemlərə də toxunurdu. Bu barədə A.Turan yazır:«Şeyx Sənan» cəmiyyətə və insan mənəviyyatına təsəvvüf pəncərəsindən boylanan irfan sirləri ilə dop-dolu bir əsərdir, amma həm də təkcə bu deyil, «Şeyx Sənan» faciəsində də Cavid əfəndi Turanın, türk insanının və türk cəmiyyətinin problemləri ilə məşğuldur».(3,s.46) H.Cavidin qəhrəmanlarına konkret olaraq Şeyx Sənan, Peyğəmbər və Xəy-yama diqqət yetirdikdə, onların düşdükləri vəziyyətin eyni olduğunu görürük. Hər üç qəhrəman cəmiyyətdə həqiqət axtaran zaman, cəmiyyətin onları başa düşmədiyini dərk etdiklərinə görə mənən dəyişikliyə uğrayırlar. Şeyx Sənan və Xəyyam məcnun qiyafətində cəmiyyətdən uzaq düşür, Peyğəmbər dalğın, dərin düşüncələrə qərq olmuş kimi görünür. Hər üç qəhrəmanı insan və onun taleyi, mənəvi yüksəlişi düşündürür. XVI əsrdə Nəsimi necə insanı mələklərin Adəmə səcdə edilməsi qədər yaradılışın ən şərəflisi hesab edirdisə, XX əsrdə bu fikri Cavid əfəndi əsərlərinin mövzu predmetinə çevirmişdir.

«Şeyx Sənan» faciəsində əsas ideyalardan biri də Allahın insanın qəlbində olmasıdır. Mövlana qeyd edirdi ki, Allahı axtarırsansa, onu özündə axtar. Əsərdə bu fikir Şeyx Kəbirin dili ilə belə ifadə olunur:

Kim ki, allahı istiyor görmək,
Arasın qəlbi-tabnakində,
Arasın kəndi ruhi-pakində,
Hər kimin ruhu, qəlbi düzgündür,
Daima hiss edərdə haqqı görür. (1, s.135)

«Nə eşq olaydı...» misrası ilə başlanan parçada iki kor ərəb eşq, aşiq, nazlı afət, xaliq, xilqət və s. əvəzinə yalnız ədalət istəyirlər. Korlara görə bunların yerini ədalət doldura bilər. Onların pənahı yalnız Şeyx Sənandır. Belə yayılmışdı ki, Şeyx Sənan xəstələrə şəfa verən, korların gözlərini açan kəramət sahibidir. H.Cavid burada XX əsr tənqidi realizmin əsasını qoyan C.Məmmədquluzadənin

ömrü boyu mübarizə apardığı fırıldaqçı, yalançı, ölüləri dirildən, gözləri kor olanların gözlərini açan dırnaqarası «Şeyx Nəsrullahları» təmamilə ondan uzaq olan Şeyx Sənanın dili ilə tənqid edir:

Böylə ecazkar bir insan,
Xayır, əsla yaratmamış yaradan.
Bir qulum bən də həqir, aciz,
Bu yalan iftirayə uymayınız. (1.s.161)

Şeyx Sənanı hər kəsdən çox Dərviş xarakterizə edir. Çünki,o, şeyxə bəsirət gözü ilə baxmağı bacarır. Dərviş ona deyir:

Baqma, şeyxim bu hali-pürqəminə,
Giriyorsun həqiqət aləminə.
Fəzli həqq runüma kəmalında,
Parlıyor nuri-həqq cəmalında.
Səndə bir əhli-hal əlaməti var,
Səndə əlan xuda qiyafəti var.(1.s. 256)

Bu sətirləri oxuyanda hurifilərin «Ənəlhəq» təlimi yada düşür. Hurifilər «İnsan həqdən qopmuş nur parçasıdır.» deyirlər. Misal verilən şeirdə H.Cavid Sənana «nuri-həqq camallı, xuda qiyafəli» deyir. Həqiqətən də, Şeyx Sənan sufi bir şeyx, həqqə qovuşmuş arif, irfan yolunun salikidir. Bəs Dərviş kimdir? Dərviş fövqəlbəşər, mərifət məqamına yüksələn bir insandır. Onun halı sufizmdə tərkidünyalığı mənalandırır. Dərviş tərkidünyalıq dövründə madd istəklərdən, maddi varlıqdan əl çəkir və şəriət (insan aləmi), təriqət (böyüklük dünyası), mərifət (hakimiyyət dünyası) məqamlarını keçib həqiqətə (aləmi lahuta, ilahi dünya) yüksəlir. Sufizmdə yalnızlıq anlayışını H.Cavid belə xarakterizə edir:

Nədir yalnızlıq?! Anlarsın, düşünsən.
Bu rəmzi get də sor, allahdan ögrən!
Əgər fevqəlbəşər olmaq dilərsən,
Kənar ol daima cinsi-bəşərdən!... (1.s.173)

Türk ilahiyyatçıları bunu Peyğəmbərə gələn «Müzəmmil» və «Müddəsir» 73-74 surələri ilə bağlayaraq yalnızlıq anlayışını «Qurani-Kərim»də «tebettül» adlandırıldığını qeyd edirlər. Gecə yuxuda olan Peyğəmbərə vəhy gəlir və gecəyarısı o namaza dəvət olunur. Hira dağında Hz. Cəbrayılla görüşən zaman Peyğəmbər titrəyərək evə gəlib yoldaşı Aişəyə onun üstünü yorğanla örtməsini istəyir və yenə Allahdan vəhy gəlir ki, gecələri qalx və Allaha yönəl. Türk ilahiyyatçısı yalnızlıq anlayışını belə izah edir:«Çünkü örtünün altından silkinib kalk diyen ayetlərin akabinde şöyle emr ediliyordu:«Rabbinin ismini an ve her şeyden kesilerek Ona çekil» (Ona bütün varlğınla yönəl) Vücudun halkın yanında, kalbin ve ruhun Allahın yanında».(8, s. 87) Əlbəttə, «cinsi-bəşərdən kənar olmaq» fövqəlbəşər, kamil insan üçün ruhən və qəlbən olur. Sufizmdə isə bu proses sufinin tərkidünyalıq, xəlvətə çəkilməsi ilə mənalandırılır. Dərvişin vəcd məqamını Şeyx Sənan belə ifadə edir:

O deyil, gərçi zahirən Mənsur,
Həp «ənəlhəq» diyor da, çırpınıyor. (1.s.178)

Vəcd məqamı barədə Y.Rüstəmov yazır:«İnsan maddi dünyadan təmamilə ayrılır, Tanrıya qovuşmaq istəyindən həzz alır, bu vəziyyətin ən şiddətli vaxtı dərviş «ənəlhaq» («Mən haqqam») deyərək fəryad edir...». (7, s.8) Şeyx Sənan da Gürgüstana gəldikdən, dərvişlə görüşdükdən və Xumarı – ilahi eşqin təcəssümünü gördükdən sonra ətrafındakı Şeyxlərdən uzaqlaşaraq tərkidünyalıq yaşayır. «Bana gəl-gəl» deyən Xumar Şeyx Sənanı yüksəlməyə çağırır. Artıq Gürgüstanda Şeyx Sənan Aşiq Sənana çevrilir.

Şeyx Sənanın ziddiyyətli düşüncələrindən biri qadınlara olan münasibətidir. Bir tərəfdən o, bütün fəlakətlərin səbəbini qadınlarda görür, digər tərəfdən Xumarı sevir, Zəhranın halı-na acıyır. Bunun da izahı var. Şeyx Sənan Zəhranın sevgisindən ona görə imtina edir ki, onun üçün yalnız eşqi-ruhani vardır. Sənanın ilahi eşqdən savayı başqa eşqə könlü yoxdur. O, ruhani eşqi Xumarın təcəssümündə görür. Şeyx Sənan Xumarın eşqinə qovuşmaqla haqqa qovuşur.

H.Cavid Şeyx Sənanın Zəhranı tərk etməsinin, Xumarın eşqi ilə Gürgüstana getməsinin səbəbini, Zəhra və Xumar arasındakı fərqi Şeyx Sənanın dili ilə belə izah edir:

Ah! Zəhra! Zavallı, solğun nur!
Səni Sənan görüncə alçalıyor.
Gəlməz əldən əyilmək... Əlbət,
Səndə var çünki başqa ülviyyət.
Bəni əfv eylə, ey şikəstə həyat!
Sən mələksin... Fəqət... Fəqət... heyhat...(1, s.165)

Şeyx Sənan Xumarı belə təsvir edir:
Onu seçməz sənin gözün əsla,
O mələkdir, qadın deyil haşa!...
(məczub bir halda ümumə)
O baqışlar nasılda lahuti!
Oqunur gözlərində ülviyyət,
Sanki bir heykəl-üluhiyyət! (1, s.192)

Misal çəkdiyimiz şeir parçalarından görünür ki, Xumar ilahi eşqin, mərifət məqamının rəmzidir, eşqin özüdür.

Ədəbi tənqiddə ən çox mübahisələr Şeyx Sənanın gürcü qızı Xumara qovuşmaq üçün boynundan xaç asması, şərab içməsi, donuz otarması ətrafında gedir. Şeyx Sənan Xumarın atası Platonun və Papasın təkcə bir təklifini qəbul etmir – Quranı yandırmır. Cavidşünas A.Turan Şeyx Sənanın Quranı yandırmamağının səbəbini belə izah edir:«Şeyx Sənan sözün ilahi mənşəyini bildiyi üçün onu yandırmır». (3, s. 51) Aşiq Allaha qovuşmaq üçün bütün əzablara dözməli və bütün məqamları keçməlidir. Boynundan xaç asmaq, donuz otarmaq, şərab içmək Şeyx Sənanı dinindən döndərmir. Çünki, Şeyx Sənan arifdir. İman, din, eşq onun qəlbindədir. Sufi şair Şəmsəddin Təbriziyə görə kamil insan özünü dərk edib unudan insandır.

Şeyx Sənan vüsala asanlıqla çatmaq istəmir, bu yolda hər əzaba dözməyə hazırdı. Əsərin əvvəlindən sonuna qədər keçirdiyi psixoloji durumu onu təlvin və təmkin sahibi edir.

Şeyx Sənan üçün Xumar gözlərində ülviyyət oxunan «üluhiyyət heykəli», «Vətənim, cümlə, niyyətim, Kəbəm» deyə ilahiləşdirdiyi bir varlıqdır. Xumar da Sənana adi bir insan kimi baxmır, onu müqəddəsləşdirir.

Əvət, ən möhtərəm, nəcib insan..
Hələ dursun kəmalı, mərifəti,
Onda var sanki evliya sifəti. (1, s. 207)

Bunu Serğo da hiss edir. «Şeyxə pək başqa bir məhəbbət var.» deyir. O, donuz damını göstərərək söyləyir.

Bu uçuq dam Xumar üçün əlan,
Daha qiymətlidir monastırdan.
Bu onun səcdahı, qibləsidir,
Şeyx onun heykəli-müqəddəsidir. (1, s. 210)

Gürcülərin Şeyx Sənana sui-qəsd hazırladıqlarını eşidəndə Xumar «İmdad» - deyə təşviş keçirir. Məhz həmin gərgin məqamda Şeyx Sənanın sufi təbiəti açılır. O, Xumara deyir:

Kim ki, eşq atəşilə oldu hədər,
Onu yandırmaz öylə atəşlər.
Bəni öldrsələr də bən yaşarım,
Tərk edib xəlqi xaliqə qoşarım.
Əbədiyyət bənim məzarımdır,
Çünki sultani-eşq yarımdır. (1, s. 221)

Son anda Sənan deyir:«Uçalım, haqqa doğru, gəl uçalım!» Diqqət edək: gürcülər «Getdilər» - deyir, Şeyxlər və müridlər isə «Uçdular» deyirlər. Bununla sufi Şeyxin haqqa qovuşmağı - həqiqət məqamına qədəm qoymağı, onun cənnətə ilahi uçuşu romantik faciə ilə başa çatır. Tədqiqatçı A.Turan Şeyx Sənanın və Xumarın yüksəlməsini və «uçmaq» sözünün mənasını türk soyunu səma ilə, türk sözünün qədim mənəyi ilə bağlayır:«...türk insanının mübarək ruhu son anda yenə də göyə qayıdırdı, uçurdu. Tək tanrılı türkün müqəddəs Quran vasitəsiylə öyrəndiyi cənnətin qədim türk dilində ki sinonimi «uçmaq» idi».

Bəzi tədqiqatçılar «Şeyx Sənan» faciəsində insanın ilahiləşdirilməsi, Allah səviyyəsinə qaldırılmasını qeyd edirlər. Sufilər «Ənəlhəqq», yəni, «Mən haqqam» dedikdə özlərini yox, Allahı nəzərdə tuturlar. Kamil insan öz mənini yox edib Allaha qovuşur.

H.Cavidin «Şeyx Sənan» pyesisufizmin, romantizmin və türkçülüyün bədii-fəlsəfi vəhdətindən yaranıb. «Şeyx Sənan» faciəsi ilahi eşqi, imanı, diniinsanın zahirində yox, onun mənəvi, iç aləmində, qəlbində axtarmaq lazım olduğunu əks etdirən əsərdir. «Şeyx Sənan» ilahi romantik faciədir və onu heç vəchlə sufizmdən ayırmaq olmaz.Belə olduğu təqdirdəəsərin sonluğu öz mənasını itirmiş olardı.

H.Cavid «Şeyx Sənan» pyesi vasitəsilə fəlsəfi düşüncələrini açıqlayıb. Bu həqiqətonunsufi-mistik mahiyyətini də inkar etmir. Məsud Əlioğlu bu əsərə öz sufi

görüşlərindən çıxış edərək təhlil verir. Məsud Əlioğlunun sufizmanlayışı belədir:«İdeoloji bünövrəsi tarixin qədim dövrlərinə gedib çıxan bu fikri cərəyan - «sufizm» yaxud da«sufilik» insanda dünyəvi hissləri öldürmək və bədənə əzab vermək vasitəsilə mütləq həqiqətə qovuşmağın mümkünlüyünü təbliğ edən qüdrətli və nüfuzlu təriqət kimi məşhurdur». (5, s.112) Belə məhdud bir tərifdən sonra Məsud Əlioğlu məşhur alim Bertelsin «mürid mürşidin əlində diri bir meyitdir». kimi yanlış mülahizəsindən çıxış edərək «Şeyx Sənan» faciəsinə sufizm nöqteyi-nəzərindən dəyər verir.Məsud Əlioğlu Şeyx Sənan haqqında belə yazır: «Sənan sufilik məzhəbinə öz xoşu ilə bağlanmışdır: əqlinə, daxili-mənəvi tələbatına uyğun saydığı bu fikri cərəyanı könüllü surətdə qəbul etmişdir.Lakin Şeyx Sənan surətinin təkamülünü izah edərkən müəllif materializmvə hadisələrin istiqamətini dəyişdikcə Sənana məlum olur ki, iman gətirdiyi doqmatik təsəvvürlərdən, ehkama çevrilmiş təriqətlərdən fərqli olaraq həyatın daha zəngin və ruhoxşayıcı möcüzələrivardır... könlündə ucaltdığı ruhani eşqə torpaqdan-varlıqdangələn təbii hissləri qələbə çalır».Məsud Əlioğlunun fikirləri məntiqəuyğun görünmür. Əsərin ikinci pərdəsindən Sənan sufi məslək mütəfəkkir və dini doqmalara sadiq mürşid olaraq mövqeyini tədricən itirir: yerini təbiətin canlı gözəlliklərinə bağlanan coşqun, həyatsevər aşiqə təslim edir. Sıldırımlı dağlar və yaşıl ormanlarla əhatə olunmuş Qafqaziya-Gürcüstan ərazisi idealist Şeyxi mücərrəd təsəvvürlərdən, hərəkətsiz və məchul xəyal aləmindən ayırıb yerə endirir». (5, s. 63) Göründüyü kimi, M.Əlioğlunun mülahizələri kifayət qədər ziddiyyətlidir. M.Əlioğlu «Mən fəqət hüsni-xuda şairiyəm, \\ Yerə enməm də səma şairiyəm.» deyən Hüseyn Cavidi göylərdən yerə endirir.

«Şeyx Sənan» mövzusunu ilk olaraq yazılı ədəbiyyatda XII-XIII əsrlərin ən tanınmış sufi şairlərindən olan Şeyx Fəridəddin Əttar qələmə almışdır. Şeyx Sənan tarixi şəxsiyyətdir yoxsa əfsanəvi? Bəzi tədqiqatçılar Şeyx Sənanın F.Əttarın xəyalının məhsulu olduğunu, obrazı yaradarkən özünü düşündüyünü qeyd edirlər. Bəzi alimlərin fikrincə, Şeyx Sənan F.Əttarın mürşidi olmuş, Sənan Şamda bir şəhərin adı vəya yeddi yüz nəfər müridi olan şeyxin adıdır. Tədqiqatçı Əhməd bin Hənbal, Nəsai, İbn Salah kimi ərəb tarixçilərin sözlərinə istinad edərək Şeyx Sənanıntarixi şəxsiyyət olduğunu və adınınƏbubəkr Əbdürrəzzaq olduğunu qeyd edir.

XXI əsrdə qədim bədii nümunələri müasir şəkildə oxucuya çatdıran yazıçıFəxri Uğurlu da «Şeyx Sənan» əfsanəsini eyni adlı hekayəsində yeni şəkildə əks etdirmişdir. F.Uğurlu hekayəni H.Cavidin eyni adlı dram əsərindən təsirlənərək yazmışdır. H.Cavidin Xumarı F.Uğurlunun hekayəsində Tamara adlandırılsa da bir neçə yerdə Şeyx Sənan Tamaraya «Xumar» deyərək müraciət edir.vidin Xumarı kimi F.Uğurlunun Tamarası gürcü qızıdır. Lakin H.Caviddə Xumar Platon adlı keşişin qızı, F.Uğurlu da isə Tamara gürcü knyazı İraklinin qızıdır. Xumardan fərqli olaraq Tamara çox ərköyün qız kimi təsvir olunur. H.Cavidin pyesindəki sonluq M.Füzulinin «Leyli və Məcnun» poemasının sonunu xatırladır. Əvvəl Xumar ölür, onun həsrətinə dözə bilməyən Şeyx Sənan da ölür. Çünki Xumarsız Şeyx Sənan üçün həyat yoxdur:

Şeyh Hadi:

O, Xumarsız nasıl cihanda yaşar?
Bəllidir, ay günəşdən ayrılmaz,
Günəş olmazsa, ay işıq salmaz. (1, s.234)

Bu şeir parçasında təsəvvüfdə ikiliyin «mən» və «sən»nin qəbul etməməsi fikri irəli sürülür. Mövlana «mənəvi varlıq birlikdən ibarətdir» deyərək ikiliyi qəbul etməmişdir. Bu misralarda Mövlananın vəhdəti-vücud fəlsəfəsinin izləri görünür.

Dərviş Şeyx Sənanla Xumarı səmada qovuşduğunu görür. F.Uğurlu da isə Şeyx Sənanla gürcü qızı Tamaranın 7 ildən sonra toyu olacağını təsvir edir. Ancaq Tamara bu toyun ona fəlakət gətirəcəyini hiss edir və hiss etdiklərini Şeyx Sənana danışır. Şeyx Sənan bu toyun dünyanın sonunacan yubadalacağına qərar verir və bunu belə izah edir:«Övlad bədənin artımıdı –bir bədəni deşib çıxa bilmiriksə, yüz-yüz, min-min bədənin üstündən necə aşıb bir-birimizi görəcəyik? Bədənimiz böyüdükcə ölümümüzdə böyüyəcək, qorxumuz da, itkimiz də».(7,s.15)Mövlananın fikrincə birlik cisim baxımından lazımsızdır, birlik bədənlərin çoxluğundan meydana gələ bilməz. İnsan özünü dərk etməlidir və Allahdan mənəvi birlik diləməlidir. Müəllif sevgililəri qovuşdurmur. Müəllifin fikrincə, dünya hələ bu toya hazır deyil:«Şeyx Sənan bu dünyanın üstündə hələ çox işləməlidir, çox». (7, s. 20) Təsəvvüfdə «mən» və «sən» ikiliyi qəbul olunmur. Kamil insan mənini Allahda yox etməlidir və bir «mən» olmalıdır.Rumi yazırdı:«Onun yanında iki mən sığmaz. Sən «Mən!» deyirsən; O da «Mən!» deyir. Ya sən öl, ya da o ölsün ki, bu ikilik qalmasın. Fəqət onun ölməsi imkansızdır».

Tədqiqatçı A.TuranH.Cavidin «Şeyx Sənan» faciəsinin mövzu, məzmun,ideya tərkibini aydın və dolğun şəkildə belə xarakterizə edir:«Dünya ədəbiyyatında təsəvvüf anlamlarının bir küll halında dramaturgiyaya tətbiq edildiyi ilk əsərdir». (4, s.113)

«Şeyx Sənan» əsərində H.Cavid hadisələrin cərəyan etdiyi dövrlə bağlı heç bir tarix qeyd etmir. Lakin, məlumdur ki, H.Cavid «Şeyx Sənan» vaqeəsini XII əsrdə yaşamış böyük sufi Fəridəddin Əttarın «Məntiqütteyr» əsərindənŞeyx Sənan hekayəsindən götürüb. Ancaq, bu o demək deyil ki, Cavid bu hekayəti sadəcə nəzmə çəkib və dramatikləşdirib. Buradaözününün fəlsəfi düşüncələrini, insan və cəmiyyət problemlərini əks etdirib.

ƏDƏBIYYAT

1. Hüseyn Cavid «Əsərləri» Beş cilddə, I cild Bakı, «Lider» 2005
2. Kamil Əliyev «Hьseyn Cavid: həyat və yaradəcələpə» Bakə:«Elm» 2008
3. Azər Turan «Hьseyn Cavid» Bakə 2000
4. Azər Turan «Cavidnamə» Bakə: Elm və Təhsil 2010
5. Məsud Əlioplu «Hьseyn Cavidin romantizmi» Bakə: Azərnəıor 1975
6. Yusif Rьstəmov «Mцvlana Cəlalləddinin Ruminin sufilik fəlsəfəsi» Bakə: Nurlan 2006
7. Fəxri Upurlu «Tək apac» Bakə: Gənclik 1991

8. Nihat Hatipoplu «Barəю elɜisindən rahmet dokunuюlarə» Əstanbul 2010
9. Yusuf Babьr «Юeyx Senan kəssasəna dair» Ankara 2013

С.В.ДЖАНГИРЗАДЕ

В СПЕКТАКЛЕ «ШЕЙХ САНАН» ПО НРАВСТВЕННОСТИ НА ТЕОСОФИЯ

РЕЗЮМЕ

В статье расматриваются вопросы по состоянию изученности жизни и творчества великого азербайджанского поета и драматурга Г.Джавида.

Осоьое внимание удаляется начальному этапу становления и формирования джавидоведение в Азербайджане.

Как теософическое произведение анализируется «Шейх Санан».Теософическое план открывается.В произведении изучены проблемы с совершенным человеком.

Внутреннего диалога междуШейх и влюбленный объясняется суфи-мистические основы и романтические-философской характер.В то же время в произведении воспевание божественная любовь и духовной свободы человека отмечается. Главного героя прослеживается веры к любвидуховной эволюции.

S.V.DJAHANGIRZADE

IN THE MYSTICAL SPIRITUALITY OF THE PEOPLE IN THE PLAY SHEIK SANAN

SUMMERY

The article deals with the questions of studying of H.Djavid's life and creativity, who is the one of the great Azerbaijan poet and the playwrights.

The special attention is given to the formation of initial stage of Djavid's studying in Azerbaijan.

Analyzes the sufi works like «Sheikh Sanan».Mystical plan opens.Consider the problem of perfect man in the works.

Sufi-mystic internal dialogue between the Sheikh and Lover the nature of reason and romantic-philosophical.

At the same time works on divine loveand spiritual freedom in the singing. The protagonist of faith in spiritual evolution is traced to love.

Rəyçi: prof.Rüfət Rüstəmov

MƏDİNƏ CABAROVA
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
madina@mail.ru

ABDULLA BƏY ASİ "MƏCLİSİ-FƏRAMUŞAN"-IN FƏAL ÜZVÜ KİMİ

Açar sözlər: *ədəbiyyat, ədəbi mühit, Şuşa*
The key words: *literature, literary atmosphere, Shusha*
Ключевые слова: *литература, литературная атмосфера, Шуша*

XIX əsrin ikinci yarısında Şuşada iki ədəbi məclis fəaliyyət göstərirdi. Bunlardan biri Mirzə Rəhim Fənanın təşəbbüsü ilə yaradılan " Məclisi-üns" , digəri isə XIX əsr ədəbi-nəzəri fikir tarixində özünəməxsus yeri olan Mir Möhsün Nəvvabın təşəbbüsü ilə yaradılmış " Məclisi-fəramuşan" idi. Hər iki məclis ətrafına istedadlı şairlər toplaya bilmiş və bu şairlərin timsalında özündən sonrakı ədəbiyyatın inkişafı üçün münbit şərait yaratmışdı. Əsrin ikinci yarısında təşkil olunmuş bu ədəbi məclislər təkcə Qarabağ ədəbi mühiti üçün deyil, bütünlüklə Azərbaycan ədəbi mühitinin yüksələn xətlə inkişafına təkan olmuşdu. Bu məclislər öz fəaliyyəti ilə ədəbiyyata yeni məzmun və forma gətirmiş, klassik irsimizin davamçıları kimi fəaliyyət göstərməklə bərabər, mövcud ictimai quruluşun eyib və nöqsanlarını əks etdirmiş, xalqın istək və arzularını, düşüncə tərzini təbliğ etməyə çalışmışlar.

Abdulla bəy Asi beş ilə yaxın Qarabağda fəaliyyət göstərən "Məclisi – fəramuşan"ın fəal üzvlərindən olmuş, bu müddət ərzində özünün dərin mənalı şeirlərinə, yazıb-yaratmaq bacarığına görə müasirləri arasında böyük hörmət və nüfuz qazana bilmişdir. Məclisə başçılıq edən Nəvvabdan sonra Asi ən məhsuldar şair hesab olunur, məclisdə müzakirə olunan hər bir məsələdə onun fikri ilə hesablaşılırdı. Bir çox elmi və ədəbi mübahisələrdə məclis üzvləri onun fikri ilə razılaşırdılar. Xüsusilə də Şirvan şairləri Asini bir şair kimi yüksək qiymətləndirir və yazılan əsərlərdə hansı qüsurun olduğunu, kimin daha üstün yazdığını müəyyənləşdirmək üçün Abdulla bəyə məktubla müraciət edirdilər: " Ona binaən haman qəzəlləri təmamən yazıb, hüzuri-bahirün-nurlərinizə pişnəhad etdik. Ümid ki, əshabi-firdovsnişan, xüsusən ol səramədi-dövran və qibleyi ürfan Mövlanə Abdulla bəy Asi və Novrəsi-əvvəl və təmami əhli-məclis ol qəzəllərin bir- birindən əla və pabəst olmağın tərtibən imtiyaz edib, elam buyuralar ki, ta bu qəzəllərin hansı hansından əla olduğu məlum və müşəxxəs ola. Məsələn, bu qəzəl əvvəlincidir, bu ikincidir, bu üçüncüdür ilaxır."

Abdulla bəy ilə yaxın dost münasibətində olan, onun yaradıcılığına yüksək qiymət verən Seyid Əzim Şirvani özünü Asi ilə müqayisədə kiçik "qulam" adlandırır:

Nə Asi, ol ki, dəri-izzətində Seyyidi-zar,
Qulamı olmaq ilə sahibixtiyar olacaq... (F.K.s112)

Asi yaradıcılığını tədqiq edən alimlər onun irsini yüksək qiymətləndirmiş və yaradıcılığına böyük rəğbətlə yanaşmışlar. " Asi klassik poetikaya mükəmməl yiyələmiş, əruzu dərindən mənimsəmiş şair idi. Təsadüfi deyil ki, müasirlərindən çoxu onun qəzəllərini tənzir etmişlər."

XIX əsrin ikinci yarısında fəaliyyət göstərən məclislərdə əsərlər əsasən iki dildə yazılırdı – Azərbaycan və fars dillərində. Lakin qeyd etmək lazımdır ki, bu dövrdə doğma dilimizdə yazib-yaratmaq meyli daha qüvvətli idi. Xüsusilə də məclis şairlərinin əksəriyyəti əsərlərini Azərbaycan dilində yazırdılar. Fars dilində yazmaq ənənəsi öz mövqeyini yavaş-yavaş itirsə də şairlər klassik üslubda yazdıqları əsərlərdə yeri gəldikcə ərəb-fars sözlərindən istifadə edirdilər. Bunun da səbəbini şairlərin əksəriyyətinin mədrəsə və mollaxana təhsili almasında, klassik Şərq poeziyası nümayəndələrinin əsərlərini oxuyub tərcümə etmələri ilə izah etmək olar. Məclis üzvlərinin əksəriyyəti Sədi, Hafiz, Cami kimi klassiklərin əsərlərini orijinaldan oxuyur, asanlıqla dilimizə tərcümə edirdilər. Bu cür bir neçə dilə yiyələnən şairlərdən biri də Abdulla bəy Asi idi ki, özbək şairi Əlişir Nəvainin irsinə maraq göstərərək hətta özbək dilində də əsərlər yaratmışdır. Buna təkan isə " Məclisi-fəramuşan"da Ə.Nəvainin böyük həvəs və maraqla öyrənilməsi olmuşdur.

Abdulla bəyin ərəb və fars dillərini mükəmməl bilməklə yanaşı Ə.Nəvainin yaradıcılığına olan maraqdan cığatay dilini də eyni şəkildə öyrənməsini F. Köçərli xüsusi vurğulayır, şairin bəzi qəzəllərini Nəvai kəlamına bərabər hesab edir: " Abdulla bəyin yaxşı savadı olub, fars və ərəb lisanını kamil bilirdi və cığatayi türklərinin müəzzəm şairi Əlişir Nəvainin əşarü kəlamına o qədər çövqü həvəsi vardı ki, onlardan çoxunu əzbər bilirdi və cığatay lisanını bir dərəcədə öyrənmişdi ki, o dildə gözəl qəzəllər yazıbdır ki, onlardan bəzi Nəvainin kəlamına bərabər ola bilir."

AMEA Əlyazmalar İnstitutunda saxlanılan əlyazmalardan birində şairin 3000 sətrə yaxın şeiri olduğu göstərilir. Mir Möhsün Nəvvab Asi haqqında qeydlərində şairin ömrü vəfa etmədi deyə yazıb yarada bilmədi kimi fikir irəli sürür : " Biçarənin ömrü vəfa etmədi, yoxsa ki, şairliyə lazım olan hər şey onda var idi."

Tədqiqatçı F.Köçərli Abdulla bəyi XIX əsrin 60-cı illərində Qarabağda fəaliyyət göstərən ədəbi məclislərin nümayəndələrindən seçməklə ona yüksək qiymət verir. Digər şəhərlərdə mövcud olan məclis şairlərinin şeirlərinin qiymətləndirilməsi üçün Abdulla bəyə göndərilməsini vurğulamaqla onun nə

dərəcədə gözəl nəzm ustası olduğunu, müasirlərindən bir addım öndə getdiyini nəzərə çatdırır: “ Особенным почетом и славой пользовались карабагские поеты, которые, как могучие орлы, свив себе гнездо на поетической вершине Шушинских скал, с высоты своего положения задавали тон всем остальным служителям поезии. К ним посылались на исправление и оценку поэтические произведение из разных мест и все с напряженным вниманием следили за тем, какой отзыв даст по поводу того или другого произведения знаменитый Аси. Молодой красивый и высшей степени даровитый поет Абдулла бек Аси, как метеор по горизонту адербейджанских поэтов озарив его ослепительным блеском своего могучего таланта.”

Kitabda Abdulla bəyin Qarabağ şairləri içərisində öz istedadı, şeir yazmaq bacarığı ilə seçilməsi, müasirlərinin ona verdikləri yüksək qiymətdən danışılır.

AMEA Füzuli adına Əlyazmalar İnstitutunun arxivində Asinin bədii irsini təşkil edən şeirlərinin böyük qismi toplanmışdır. Orijinal hesab olunan əlyazma indiki vəziyyətdə 30 vərəqdən ibarətdir. Əlyazmada şairin 42 azərbaycanca, 39 farsca şeiri toplanmışdır. Lakin güngün əvvəlki və son səhifələri əskikdir. Bu səbəbdən hesab etmək olar ki, vərəqlərin sayı daha çox olmuşdur. Mənbələrdə göstərilən qeydlər də bu əlyazmalarda şairin irsinin böyük bir qisminin toplandığını təsdiqləyir. Asi yaradıcılığını tədqiq edən Nəvvab şairin irsinin 1400 beyt olduğunu iddia edir. Köçərlinin “Azərbaycan ədəbiyyatı”nda isə Asi irsinin 1500 əfrad olduğu qeydinə rast gəlirik. Buradan belə qənaətə gəlmək olar ki, şair haqqında bütün məlumatlar bir-birini tamamlayır.

AMEA-nın Əlyazmalar İnstitutunda 20-yə yaxın güngdə Abdulla bəyin şeirlərindən nümunələr verilmişdir, lakin bu şeirlər müxtəlif günlərdə təkrarlanan eyni adlı şeirlərdir. Doğrudur onlardan bəziləri az və ya çox şəkildə bir-birindən fərqlənir, lakin bu yalnız Abdulla bəy Asi şeirlərinə edilmiş dəyişiklik deyildir, digər təzkirə və günlərdə də bu cür hallara rast gəlirik.

Ədəbi məclislərdə təkcə doğma dilimizdə deyil, eyni zamanda fars dilində də qəzəllər yazılır, məclis nümayəndələri bir-birini bu dildə yazdıqları nümunələrlə də imtahan edirdilər. Farsca mükəmməl qəzəl yaradan məclis şairləri içərisində Abdulla bəy xüsusi seçilirdi. Onun fars dilində yazdığı qəzəllərdən başqa, bu dildə digər şairlərin qəzəllərinə yazdığı nəzirələr də günümüzə gəlib çıxmışdır. Onun fars dilində yazdığı qəzəllərdən başqa, bu dildə digər şairlərin qəzəllərinə yazdığı nəzirələr də günümüzə gəlib çıxmışdır. İsgəndər bəy Rüstəmbəyovun dili ilə desək “qədim şair” Rəfiqin

Məra dər cesm ta can afəridənd,

Be canəm mehr-e canan afəridənd

- mətləli qəzəlinə Abdulla bəy 11 beyt nəzirə yazmışdır ki, bu şeiri yüksək sənətkarlığına, forma və məzmunun kamilliyinə görə müstəqil sənət əsəri kimi qiymətləndirmək daha məqsədəuyğun olar . Çünki Abdulla bəy məclis iştirakçılarının əksəriyyətindən fərqli olaraq nəziräçilik çərçivəsindən çıxaraq yüksək sənətkarlığa cavab verən təkrarsız şeir nümunəsi yaratmağa müvəffəq olmuşdur. Şairin öz qəzəllərinə də nəzirələr yazılmışdır. Onun fars dilində yazdığı:

Ey fəda-ye xoram rəftarət,

Rəbb-e tuba єavəd negəhdarət.

- mətləli qəzəlinə Nцvrəsin, Əbdьssəmədin, Aıoiqin, Məmo bəyin, Mirzə Sadiqin eyni rədif və qafiyədə yazdəpə nəzirələri nьmunə gцstərmək olar.

Məqalənin sonu olaraq qeyd etmək istərdik ki, Abdulla bəy Asi yüksək şairlik istedadına malik incə zövqlü bir şəxs olmuşdur. Haqqında danışdığımız əsərlər şübhəsiz ki, onun zəngin ədəbi irsini bütövlüklə əhatə etmir, sadəcə bu günki gün əlimizdə olan materialdan yararlanaraq şair haqqında az da olsa məlumat verməyə çalışdıq.

Ədəbiyyat

1. M.M. Nəvvab.Təzkireyi-Nəvvab.Bakı, Azərbaycan 1998, 560 s.
2. Mьctəhidzadə.M. Riyazьl-aıoiqin.Bakə, Azərbaycan, 1995, 248 s
3. Kərimov.R. Abdulla bəy Asinin həyat və yaradəcələpə.Bakə:Nurlan, 2009, 210+83 s.

JABAROVA M. A

ABDULLA BAY ASI AS AN ACTIVE MEMBER OF "MAJLISI-FARAMUSHAN"

SUMMARY

In the second half of XIX century taking part in Shusha, was formed with M.Navvabs initiatives. Abdulla bay Asi was an active member of this assembly taking part in Karabagh for about 5 years and was able to gain great respect among his contemporaries' for his deep sense of poems. All the members were interested in his opinions according to every issue which was discussed and concurred with him. In the assemblies in the second part of XIX century the works were mostly written in the azerbaijanian and Persian. However Abdulla bay Asi created a wonderful work in the uzbek

language except the given languages. From this point of you the poets activity can be highly appleciated.

ДЖАБАРОВА М. А

АБДУЛЛА БЕК АСИ КАК АКТИВНЫЙ ЧЛЕН «МЕДЖЛИСИ-ФЕРАМУШАН»

РЕЗЮМЕ

«Меджлиси-ферамушан» был создан во второй половине 19-го века по инициативе Мир Мохсун Навваба. За 5 лет функционирования этого меджлиса в Карабахе, Абдулла бек Аси стал его активным членом и за это время приобрел большой авторитет среди своих современников за свой глубоко значимый труд. Каждый раз при обсуждении того или иного вопроса члены меджлиса спрашивали его мнения и согласовывались с ним. В действующих меджлисах во второй половине 19-ого века произведении в основном писались на азербайджанском и на фарси.

Rəyçi: Möhsüm Nağısoylu
Filologiya üzrə elmlər doktoru

MƏDİNƏ KARAHAN
medina.karahan@gmail.com
Xəzər Universitetinin doktorantı

Ə.AĞAOĞLUNUN "SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ" ƏSƏRİNDƏ YENİ CƏMİYYƏT PRİNSİPLƏRİ

Açar sözlər: *Ağaoğlu, "Sərbəst insanlar ölkəsi", azadlıq, demokratiya*
Ключевые слова: *А. Агаоглы, в стране свободных людей, свобода, демократия*
Key words: *Aghaoglu, in the Country of Free People, freedom, democracy.*

Ə.Ağaoğlunun ayrı-ayrı məqalə və əsərlərində bu və ya digər şəkildə yeni cəmiyyət məsələsinə toxunulmuşdur. Janr etibarilə alleqorik, siyasi pomflet olan "Sərbəst insanlar ölkəsi" əsərində isə bir demokratik ölkənin anayasa və prinsipləri təsbit olunaraq o zaman mümkün olmayan bir cəmiyyətin, demokratik ölkənin obrazı yaradılır. Təəssüf ki, əsər Azərbaycan dilinə ilk dəfə bu yaxınlarda çevrilmiş və dərc edilmişdir (1). Daha sonra Ə.Ağaoğlunun "Seçilmiş əsərləri"nə daxil edilmişdir (2). Əsər haqqında ilk dəfə məlumatı çapına ön söz yazan professor Rəhman Bədəlov vermişdir (1, 3-9). Professor Bədirxan Əhmədov isə bu əsəri "Əhməd Ağaoğlu" oçerkində yüksək qiymətləndirərək ali məktəb dərsliyinə daxil etmişdir (5). Bununla belə əsərdəki yeni dövlət və demokratik cəmiyyət problemləri tədqiqatdan kənarda qalmışdır.

Əsərin "Ön söz"ündə filosof Ş.Monteskyönün "Qanunların ruhu" əsərində hakimiyyət formasından bəhs edən fikirlə başlaması isə demokratiya, özgürlük kimi məsələlərin artıq dünyada müəyyən bir təcrübə topladığına bir işarədir. Görünür ki, Ə.Ağaoğlu əsərin yazılmasında məhz dünya təcrübəsindən yararlanmağa çalışaraq mövcud təcrübəni Türkiyənin indiki və gələcək cəmiyyətinə tətbiq etmək niyyətində olmuşdur. Əsərə yazdığı "Ön söz"də Şarl Monteskyönün (1689-1755) "İstibdad-yəni şəxsi hakimiyyət-məşrutiyyət şərəfə, respublika da ləyaqətə dayanır" (1, 15) fikrini əsas gətirən Ə.Ağaoğlu bu bölgünün hələ də əhəmiyyətini itirmədiyini, şəxsi hakimiyyət zamanı xalqın tək şəxsin şıltaq həvəsinə tabe olduğundan milyonlarca insanın bu şıltaqlıq və həvəsə itaət etməsi üçün yeganə çarə xalqı qorxutmaq və xof içində saxlamaq olduğu fikrini tənqid edir (1, 15). Konstitusiyalı monarxiya zamanı isə hakimiyyətin hökmdarlarla imtiyazlı sinfin əlində olur və bu ortaq hakimiyyətin yaşaması üçün hər iki tərəf bir-birinə sədaqət göstərməli və bağlı olmaq məcburiyyətində qalır. Burada bir faktı qeyd etmək yerinə düşər ki, Ə.Ağaoğlu hələ Sarbonnada tələbə ikən fransız filosofu Ş.Monteskyönün "Romalıların böyüklüyü və süqutunun səbəbləri", "Qanunların ruhu", "İran məktubları" kimi məşhur əsərlərini mütaliə etmişdi. Ədəbiyyatşünas Ə.Mirəhmədovun yazdığına görə hələ Bakıda "Kavkaz" və

"Kaspi" qəzetlərində dərc etdirdiyi məqalələrində Ş.Monteskyönün sosioloji görüşləri üzə çıxmağa başlasa da "...bu təsir ən qabarıq, mükəmməl ifadəsini Ə.Ağaoğlunun ömrünün yetkin vaxtında, 1930-cu ildə çap etdirdiyi "Sərbəst insanlar ölkəsində" traktatında tapmışdır" (4, 178).

Müəllif əsarətdən qurtulmuş Türk fərdini azad və sərbəst bir ölkəyə aparır; belə ki, burada azadlıq, hüquq bərabərliyi, ədalət, "fikir təmizliyi, hərəkət təmizliyi" eləcə də, ümumun rifahı naminə "əmək fədakarlığı", "sadə yaşayış", "vətəndaş fəziləti" kimi cəmiyyət üçün siyasi və mənəvi əsaslara söykənən quruluş hökm sürür. Bu ölkənin rəhbərləri Türk Cümhuriyyətini quran dahinin əməl və arzularının gerçəkləşməsi üçün çalışmaqdadır. Türk fərdi müəllifin "Pir" dediyi rəhbərlərlə görüşür, onların bir Respublikada azad və sərbəst vətəndaşların necə olmaları haqqında fikirlərini öyrənir. Müəllif burada əsərin yazılması məqsədini izah edir: "...eyni zamanda sərbəst ölkədə gördüyü elm və mədəniyyət ocaqlarını təsvir etməklə məmləkətimizin Azadlıq və Ləyaqət sayəsində necə inkişaf edərək gələcəkdə nur və mədəniyyət mənbəyi olacağını da göstərir.

Bax, bu umacaqsız əsərimin biçimi, hədəfi, amacı budur (2, 16).

Ə.Ağaoğlu əsərinə "Ön söz"dən sonra "Mən bir əsir idim, azad olmaq istədim" epiloqunu verir və dərhal da əsas mətləbə keçir. "Zəncirlərini qıraraq" qala divarlarını deşib azadlığa çıxan bir fərdin hara gedəcəyini, necə hərəkət edəcəyini bilmədiyi bir vaxtda qarşısına yol ayrıcı çıxır. Bu epizod Azərbaycan nağıl qəhrəmanlarının tez-tez qarşılaşdığı situasiyanı xatırladır. Qəhrəman iki yoldan birini seçməlidir. Bu yollardan "Sol tərəfə gedən yol azadlıq yoludur", Sağ tərəfə gedən yol kölelik yoludur". Əsərin qəhrəmanı sol tərəfi tutur və bir qədər yol getdikdən sonra Qala qapısı üzərində (yenə də nağıllarda olduğu kimi!) qızıl xətlə yazılmış "Sərbəst insanlar ölkəsi" yazılı lövhəsini oxuyur. Lakin burada onun qarşısını keşikçilər kəsir və kimliyini soruşurlar. O, əsirlikdən qurtulduğunu, zəncirini qırıb bura gəldiyini və azad olmaq istədiyini söyləyir, lakin məlum olur ki, azad olmaq üçün bütün bunlar azdır; əsarətin "görünən bağlarını qırmaqdan" əlavə "iç zəncirlərini" də söküb atmalıdır. Keşikçilərin "iç zəncirini qırıb atmısanmı?" sualını anlamadığını gördükdə "Tamahına yiyə dursansanmı?", "Doğrunu sevirsənmi?", "Həqiqətə dözümün varmı?", "Ləyaqət sahibisənmi?" suallarını verirlər və yalnız bu suallara "hə" cavabını verdikdən sonra onu içəri buraxır və vətəndaşlığa qəbul edirlər.

Bu kiçik imtahanda müəllif əsarətdən qurtulmanın, zəncir qırmaqla işin bitmədiyini göstərmək istəmişdir. "İç zəncirlərini atmaq" üçün tamahına yiyə durmalı, doğrunu sevməli, həqiqətə dözümlü və ləyaqət sahibi olmalısan. Bundan sonra isə ölkənin pirləri (yaşlı müəllimlər mənasında) gəlir və onun kim olduğunu, hardan gəldiyini soruşurlar. Müəllifin qəhrəmanı əvvəllər yurdlarının Orta Asiyanın yüksək yaylaları olduğunu, sonra isə Şərqə, Qərbə, Şimala və Cənuba doğru yayıldığını, məmləkətlər basdığını, dövlətlər qurduqlarını, mədəniyyətlər yaratdıqlarını, zorakılığa qarşı dayandıqlarını, lakin sonradan qanlarının qarışdığı,

kölə ellərin adətlərinə, mərasimlərinə qapılaraq qurultaydan qaçdıqlarını və günün birində törə qanunlarının pozulması ilə "bəy millətinin qul" olduğunu söyləyir. Yeni vətəndaşın bu söyləmlərindən vətənini, yurdunu, millətini çox sevdiyi görünür. Onun təsvir etdiyi millət isə türk milləti və onun son durumu idi. "Bəy millətinin" qul olmasına dözə bilməməsi və azadlığa çıxmasını müəllif belə təsvir edir: "Artıq buna dayana bilmədik, aramızdan sarı saçlı, mərd üzlü, aslan baxışlı biri çıxdı: -"Yəni elindən əl çəkən, yurdunu əsirgəyən Tanrının elçisi sayılar?". Sözlər söylədi ki, donmuş qəlblərə istilik, ölmüş damarlara can verdi. İşlər gördü ki, bütün dünyanı heyrət bürüdü. Yadelliləri yurddan qovdu, xaqanı başıaşağı etdi. İndi o, millətini azadlığın işığına toplayır. Mən həmin vaxtlar zindanda xaqanın əsiri idim. Ümidsizlik içində qıvrılırkən Tanrı elçisnin səsini mən də eşitdim, birdən-birə canlandım, zəncirlərimi qırdım, divarı dəldim və azadlığımı araya-araya bu diyara gəldim" (1, 18).

Sərbəst insanlar ölkəsinin Anayasasında qeyd olunan maddələr də ölkədə demokratiyanın, azadlığın, sərbəstliyin bərqərar olmasına imkan verirdi. Bu qaydalar içərisində azadlığın doğruya və cəsarətə söykənməsi, yalanın yasaq olması, ikiüzlülük və yalytaqlığın ağır günah hesab edilməsi, çuğulluq edənlərin vətəndaşlıqdan çıxarılması, haqqı qorumağın və çalışmağın, dözüm və yardım göstərməyin vəzifə olması, hər bir vətəndaşın ölkə məmurlarının fəaliyyətini yoxlamaq haqqına sahib olması və s. kimi maddələr başlıca yer tuturdu. On dörd maddədən ibarət qanunu əzbərləmək və onlara əməl etmək hamının vətəndaşlıq borcu hesab olunurdu.

Zəncirlərini qırmış adam iki gün ərzində bu Anayasanı oxuyub dərindən mənimsəmiş və əzbərləmişdi. Lakin pirlər gəldikdə pirlərdən bir neçə maddələri açıqlamalarını xahiş edir. Bu maddələrdən birini "Azadlıq şüurun cövhəridir, şüur da insandır" prinsipini pirlər bu cür izah edirlər: "...bu cövhəri cilalayarkən, insandan göz-qulaq olmalısan. İnsana baxmasan cövhər tutmaz. Uzun-uzun zamanlar istibdada alışmış insana azadlıq aşılamaq heç də asan bir şey deyil. Axı istibdadın hökm sürdüyü yer insanın ruhu və qəlbidir" (S1, 22-23). Yazıçı bəzi maddələr üzərində dayanmaqla o maddələrin cəmiyyət üçün önəmini ifadə etmiş olur. Bununla o, həm də cəmiyyətin ədalət, bərabərlik əsasında qurulmasını göstərmək istəmiş və bu yolun təkamül yolu ilə ola biləcəyini bildirmişdir.

Ə.Ağaoğlu azadlığa mane olan kateqoriyalara da xüsusi önəm verir və azadlığa gedən yolda bu maneələrin aradan qaldırılmasını vacib hesab edir. Bu xüsusiyyətlər "yalan", "ikiüzlülük" və "yaltaqlıq"dır. Qanunun ikinci maddəsində yalanın yasaq olduğu göstərilir. Çünki yalan "zəiflərin", "qorxaqların", "zəlillərin" işidir və həqiqəti gizlətmək, üzə çıxarmamağa qoymamaq üçün bir vasitədir. Həqiqət gizlədilən yerdə isə yalançı inanclar hakim olur, bu yerdə isə "xeyir-bərəkət" qalmır. Müəllif sərbəst insanlar ölkəsində yalan söyləmək suçuna da münasibət bildirir. Onun fikrincə, bu bir tərbiyə məsələsidir ki, ailədən və məktəbdən başlayıb, əhaliyə aşılanmalıdır. Bununla ailə və məktəbdə uşaqların ilk

ruhu təməlləri yaranır. Çünki uşaq ata-anasını və müəllimini yamsılayan bir varlıqdır. Yalançı ata-ananın və yalançı müəllimin yetişdirdiyi uşaqlar da mütləq yalançı olurlar. Buna görə də ata-ana və müəllimlərin borcu uşaqlarına yalan aşılamamağa diqqət yetirmək olmalıdır. Bunun üçün də ən təsirli vasitə özlərinin yalan danışmamalarıdır.

Sərbəst insanlar ölkəsində də belədir; burada yalana qarşı əngəllər qoyulur, yalançını içindən dərhal atır. Ancaq bunun əksi baş verərsə, tam tərsi baş verər; yalan danışmaq ağıl nümunəsi sayılar, cəmiyyət yalançılıq azarının bütün acılarına və nəticələrinə boyun əymiş olar. Bu cür cəmiyyətdə heç kəs heç kimə inanmadığı kimi, özünə arxa da hesab etməz. Ə.Ağaoğlu yalançı cəmiyyətdən danışarkən nümunə olaraq yenə də Şərq cəmiyyətini göstərərək yazır: "İndiyədək Şərq cəmiyyətlərini içindən yeyib gəmirən xəstəliklər arasında bu öygü və yaltaqlıq ən qorxunc və pozucusudur. İlan zəhəri kimi beynin və qəlbin lap dərinliyinəcən işləyir, bədəni çürüdüb iflic edir. Şərq qəsidəxanaları-öygü şairləri bilməyib fərqinə varmamaqdan millətlərinə ən çox pislik etmiş insanlardır. Yazdıqları parlaq olsa da, o biri yandan mənəvi pozuntulara yol açıblar. Onlar həm də cazibəli olduqlarından, təqlidçilər və ardıcıllar doğurublar" (1, 24-25).

Əsərin bütün yarımfəsillərində xəyali ölkə ilə real ölkənin müqayisəsi davam edir. Nizamnamənin dördüncü "Xəbərçilik edənlər sərbəst ölkənin vətəndaşı ola bilməzlər" maddəsində də azadlıqla çuğulçuluğun yan-yana ola bilməməsi fikri nəzəri və praktik cəhətdən əsaslandırılır. Ümumiyyətlə, Ə.Ağaoğlu bütün maddələri izah edərkən nəzəri hissəni Sərbəst insanlar ölkəsinə şamil edir. Onun əksini göstərmək üçün isə yaşadığı cəmiyyətin, ən çox da müşahidə etdiyi hadisələri önə çəkir. Onun fikrincə, azadlıqla çuğulçuluq yan-yana yaşaya bilməz: "Çuğulçuluq olan yerdə azadlıq olmaz, azadlıq olan yerdə də ondan-bundan çuğulçuluq etmək. Təsadüfi deyil ki, azadlığın istifadə etdiyi ən təsirli vasitə çuğulçuluqdur. İstibdadın ilkin istəyi odur ki, vətəndaşlar arasında tərəddüd və şübhə toxumları səpsin, onların bir-birinə inam və arxayınçılığına yol verməsin. Bu səbəbdən istibdad quruluşları çuğullamalara böyük önəm verir, gizli xəbərçiliyi ən qüdrətli vasitə sayır" (1, 26).

Yalançılıq da bu cəmiyyət üçün yad xüsusiyyət hesab olunur; ona görə ki, "yalançı ata, ana və müəllimin" yetişdirdikləri uşaqlar da mütləq yalançı olurlar. Ona görə də on dörd maddəlik qaydalar içərisində yaltaq və riyakar adamların daşa basılması ilə bağlı maddə gördükdə Fərdin heyrət içində pirlərdən "Məgər vəzifə və qüvvət sahibi olan adamlar gərək tərifləmələsinlər, onlara sitayiş olunmasın? Ədəbiyyatdakı bunca parlaq qəsidələrin heç qiyməti yoxdurmu?"-sualnı verir. Bu dialoqda müəllif şüurlarda olan köhnəliklə yeniliyi qarşılaşdırmaq istəmişdir. Əsərin bir neçə yerində müəllif Şərq-Qərb qaşılaşdırmasından da istifadə edir. Millətin təşəkkülü prosesində ədəbiyyatın da həlledici rolunu qeyd edən müəllif Şekspir, Milton, Lokk, Spenser, Höte, Şiller, Kant, Hegel, Milyer, Volter, Russo, Hüqo, Makiavelli, Bruno, Puşkin, Lermantov, Tolstoy kimi filosof,

şair və ədiblərin alman, fransız, ingilis, italyan, rus millətçilərinin formalaşmasındakı roluna istinad edir. Şərq ədəbiyyatı və ictimai fikrinin mahiyyətcə Qərbdəkindən fərqli olduğunu irəli sürən müəllif "Şərq ədəbiyyatı məhsulu mühitə, insan və təbiət mühitinə yad qalmışdır. Daim havalarda, boşluqlarda gəzmişdir" qənaətinə gəlir və Şərqdə də milli hərəkatı ədəbiyyat və ictimai fikrin bu yola düşüdüyü gündən başlamağın məqsədəuyğun olduğunu bildirir. Ədəbiyyatşünas Ə.Mirəhmədov Ə.Ağaoğlunun Şərq-Qərb qarşılaşmasındakı Fərdin dilindən deyilən bu fikirləri qəbul etməyərək yazır: "Gənc akademikin bu mühakimələrində traktat müəllifinin özünə xas olan və bizim yuxarıda da gördüyümüz nihilizmin, Şərq mədəniyyətinə qeyri-obyektiv münasibətin aşkar izləri vardır. Ağaoğlunun özü kimi, onun alim qəhrəmanı da klassik Şərq ədəbiyyatının mahiyyəti və problematikasını düzgün səciyyələndirmir, onun "daim havalarda, boşluqlarda" gəzdiyini söyləməklə həyatın sosial məzmununu inkar etməli olur" (4, 202). Fikrimizcə Ə.Ağaoğlunun Şərq ədəbiyyatı ilə bağlı bu fikirlərində onun mahiyyəti və məzmunu inkar edilmir, daha çox qəsidələrdən, ədəbiyyatın həyatı obyektiv şəkildə əks etdirməməsini göstərmək istəmişdir.

Ə.Ağaoğlu əsərdə Sərbəst insanlar ölkəsinin mitinqlərindən də danışır; çünki mitinqlər azadlığın və demokratiyanın əsas atributlarından biridir. Bu şəhərdə park vardır. Buraya "Azadlıq" parkı deyirlər. Parkın içində bir heykəl qoyulmuşdur. Heykəlin altında "Sərbəst ölkənin ilk azad qəhrəmanı" yazılmışdır. Bu istibdada qarşı azadlıq bayrağını qaldıran ilk vətəndaşın şərəfinə ucaldılıb. Ölkə ilk azad qəhrəmanını şərəfini uca tutduğu kimi, buraya dəstə-dəstə adamlar gələrək mitinqlər keçirir, hökuməti tənqid etməkdən belə çəkinmirlər. Mitinqlərin birində gənc bir kişi hökuməti tənqid edirdi. O, bu tənqidində hökumətin partiya proqramına sadiq qalmadığını, işsiz vətəndaşların hələ də küçələrdə dolaşdığını, statistik məlumatlardan ölkə əhalisinin 0, 02 faizinin oxuyub yazmaq bilmədiyini, bunun isə ökədən ötrü bir ayıb, başıaşağılıq olduğunu göstərirdi.

Ə.Ağaoğlu burada oxucunun diqqətini natiqlərin əda və üslublarına yönəldir; onlar bütün çıxışlarını olmuş və ola biləcəklər üzərində qurur, sözlərində şübhə və tərəddüd doğuracaq qarışıq bir nöqtə qoymamağa çalışırdılar. Söylədikləri təmiz və sayğılı olduğu kimi, tənqidə tutduqları adamların da ləyaqətinə toxunacaq tək bir kəlmə də işlətməkdən çəkinirdilər. Sərbəst insanlar ölkəsində gördüklərini ölkəsində gördükləri ilə müqayisə edən müəllif yazır: "Aman tanrım, o nə iyrənc mənzərə idi! Necə söyüşlər səslənər, neçə suçlar sadalanardı?! Necə qarışıq sözlər, qapalı eyhamlar, örtülü və iyrənc açıqlamalar söylənərdi! Bəzən elə olurdu ki, dinləyənlər və oxuyanlar nifrətlə qulaqlarını tıxayar, gözlərini yumar və hər yandan tələb edərdilər ki, bu boğucu çirkab və üfunətə qarşı bir sədd çəkilsin. Bax o zaman bu qüvvə ortaya çıxar, söyləyənlərin ağzını, dinləyənlərin qulağını qapayar və insanlar yenə sükutdan, səssizlikdən

boğulmağa başlayardılar" (S.İ.Ö., 29). Bununla yazıçı, əslində yaşadığı cəmiyyətdəki ziddiyyətləri, problemləri tənqid edirdi.

"Sərbəst insanlar ölkəsində" əsərində cəmiyyəti idarəetmə məsələlərinə də toxunulur. Qeyd olunur ki, azad olmayan ölkələri tək bir şəxs idarə edir. Hər yerdə hökmdarın iradəsi hakimdir, hamı ona baş əyməyə bocludur. Belə ölkələrdə "vətəndaşların dolanışıq və səadətindən çox, həmin şəxsin şıltaqlıqlarının" yerinə yetirilməsinə diqqət yetirilir. Buna görə də o adam, səlahiyyəti oldu-olmadı, istədiyi şəxsi işə götürə, yaxud işdən azad edə bilir. Amma o yerdə ki, hakimiyyət xalqın əlindədir, ölkəni xalqın öz aralarında seçdiyi adamlar idarə edir. Seçki təbiəti baxımından əxlaqa, ləyaqətə, səriştə və ixtisasa söykənir. Ona görə də xalqın yönəltdiyi dövlət istibdad quruluşunda olduğu kimi, səriştəsizlərin əlində təcrübə taxtası ola bilməz. İdarəetmədə nəzarət əsas şərtlərdən biridir. Müəllifin azadlıq konsepsiyasında bu məsələyə münasibət belədir: "Azadlıq nəzarətlə varlığını qoruyur. Azadlıq demək-nəzarət deməkdir. Nəzarət olmayan yerdə azadlıq olmaz və ola bilməz! Bax buna görə də sərbəst ölkədə nəzarətdən keçirmək vətəndaşların həm haqqıdır, həm borcu. Bu üzdən haqdır ki, onların həyatlarına, müqəddəratlarına aid bir işdir. Ona görə borcdur ki, bu işi görməmək vətəndaşın təməl haqqından vaz keçməkdir" (1, 33).

Ə.Ağaoğlunun "Sərbəst insanlar ölkəsində" əsərində toxunduğu problemlərdən biri də azadlıqla xarakter arasındakı bağlılıqdır. Çünki azadlıq yalnız fədakar xarakterə söykənir. Azadlığa qarşı təhlükələri, təhdidləri yalnız bu xarakterlə dəf etmək olar. Cəmiyyətdə biganəlik artdıqda isə bu xarakter formalaşa bilmir və azadlıq həmişə təhlükə ilə üz-üzə qalır. Müəllif burada diqqəti azadlıq və xarakterlə bağlı nitq söyləyən natiqin nə əvvəldə, nə də nitqindən sonra alqışlamamasına çəkir və göstərir ki, Sərbəst insanlar ölkəsində natiqin kürsüyə çıxarkən və çıxışını bitirərkən alqışlanması yasaq imiş. Beləliklə, Ə.Ağaoğlu hələ 30-cu illərdə yeni cəmiyyətin demokratik yolla gedəcəyini yanız öncədən söyləməmiş, həm də bu cəmiyyətin formalaşmasının prinsiplərini və yollarını müəyyən etmişdir.

ƏDƏBİYYAT
KITABLAR:

1. Ağaoğlu Ə. Sərbəst insanlar ölkəsində. Bakı: "Tutunəşr", 2001-80 s.
2. Ağaoğlu Ə. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2007- 392 s.
3. Ağaoğlu A. Serbest insanlar ülküsi (hazırlayan: Abdullah Akan). İstanbul: Gram Yayınları, 2014
4. Mirəhmədov Ə. Əhməd bəy Ağaoğlu, Bakı, "Ərgünəş", 2014-253 s.
5. Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, I c., Bakı: "Elm və təhsil", 2011- 560 s.

КАРАХАН М.

ПРИНЦИПЫ НОВОГО ОБЩЕСТВА В ПРОИЗВЕДЕНИИ "В СТРАНЕ СВОБОДНЫХ ЛЮДЕЙ" А. АГАОГЛЫ

РЕЗЬЮМЕ

В статье анализируется произведение выдающегося представителя азербайджанской литературы эмиграции А. Агаоглы "В стране свободных людей". Показано, что хотя во время написания произведения исторические условия для формирования такого общества отсутствовали, автор не только увидел его контуры, но даже установил конституцию этого общества. В произведении приводится теоретическая и практическая информация о принципах нового общества и его индивидов, демократии и свободы в обществе, соблюдения закона и пр. Автор защищает многопартийную систему, свободу, законность, демократическое мышление нового общества. В произведении нет такой проблемы нового общества, которой автор не коснулся. В статье также упоминается отношение исследователей к произведению.

KARAHAN M.

THE PRINCIPLES OF THE NEW SOCIETY IN THE WORK IN THE COUNTRY OF FREE PEOPLE BY A. AGHAOGHLU

SUMMERY

The article analyzes the work of an outstanding representative of Azerbaijani literature of emigration A. Aghaoghlu *In the Country of Free People*. It has been shown that, although at the time of writing the work the historical conditions for the formation of such a society were lacking, the author not only saw its contours but even established the constitution of the society. The work provides theoretical and practical information about the principles of the new society and its individuals, democracy and freedom in society, respect for the law and etc. The author defends a multiparty system, freedom, rule of law, democratic thinking of the new society. There is no such a problem of the new society which the author did not touch in the work. The article also mentions the attitude of researchers to the work.

Rəyçi: prof.Bədirxan Əhmədov

ŞƏFƏQ TAĞIYEVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin
kiçik elmi işçisi
shafaqtagiyeva@mail.ru
mob: (050) 990-65-50

FÜZULİ YARADICILIĞINDA GÖZƏLİN TƏSVİRİ

Açar sözlər: *gözəl, gözəllik, təsvir, Füzuli, ədəbiyyat*
Ключевые слова: *красавица, красота, описание, Физули, литература*
Key words: *beautiful, beauty, description, Fizuli, literature*

Allah gözəldir və gözəlliyi sevir[2]

Gözəllik anlamı geniş bir məfhum olub, nisbi xarakter daşıyır. Yəni gözəllik anlamına daima fərdi yanaşma mövcud olmuşdur. Bu baxımdan ədəbiyyatda gözəlliyin təsvir və tərənnümü də müxtəlifdir. Qeyd etmək lazımdır ki, fərqli dönəmlərdə gözəllik anlamı dünya xalqları tərəfindən fərqli şəkildə qavranılmışdır. Məhz bu baxımdan zaman, məkan faktoru da gözəlliyə baxış və münasibətə təsir edən əsas amillərdən olmuşdur.

Tarix boyu müxtəlif elm adamları, filosoflar, ədiblər, şairlər gözəllik anlamı ilə bağlı maraqlı fikirlər irəli sürmüşlər. Qədim yunan filosofu Aristotel "Gözəlliyi Allahın ehsanı" adlandırmış, Heraklit isə "gözəllik" "dünyanın ən gözəl quruluşu və ən gözəl ahəngdarlıq" əksliklərin vəhdəti və mübarizəsinin nəticəsidir"- demişdir. Platon gözəlliyi obyektiv gerçəklikdə deyil, ideyalar aləmində axtarmışdır. Platona görə, gözəllik hərəkət etməyən, dəyişməyən, hiss edilə bilməyən, ancaq ağıl vasitəsilə dərk oluna bilən fövqəladə ideyadır, o, nə törəyir, nə məhv olur. [8, s.6] XIX əsrin görkəmli fransız yazıçı-dramaturqu Onore de Balzak isə gözəllik haqqında aşağıdakı fikri söyləmişdir:

"Gözəllik çox vaxt qüsurları gizləyən bir örtükdür".

Müqəddəs kitabımız Qurani-Kərimi diqqətlə nəzərdən keçirsək, onun iki amala: dünya düzəninin gözəlliyinə və ən şərəfli xilqət olan bəşər övladının mənəviyyat gözəlliyinə böyük və əvəzsiz xidmətinin şahidi olarıq.

Bir sıra ayələrdə dünyada mövcud olan bütün məxluqun gözəlliyi və yaxşılığı vurğulanır. Aşağıdakı ayələrə diqqət yetirək: [9]

[2] Peyğəmbər (s.a.s): "Allah-Təala gözəldir və gözəlliyi sevir. Nemətin nişanəsini bəndəsində görməyi də sevir. O yoxsulluğa və özünü yoxsul göstərməyə nifrət edir.". (Kənzul-ummal, hədis 17166)

الَّذِي أَحْسَنَ كُلَّ شَيْءٍ خَلَقَهُ وَبَدَأَ خَلْقَ الْإِنسَانِ مِن طِينٍ

O yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başladı. [Səcdə; 7]

خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ بِالْحَقِّ وَصَوَّرَكُمْ فَأَحْسَنَ صُوَرَكُمْ وَإِلَيْهِ الْمَصِيرُ

O, Göyləri və Yeri haqq-ədalətlə (yerli-yerində) xəlq etdi, sizə surət verdi və surətlərinizi gözəl yaratdı (insan bütün canlıların ən gözəli və kamil biçimlisi olan məxluqdur). Axır dönüş də Onun (Allahın) hüzurunadır. [Təğabun; 3]

Bəzi ayələrdə isə Allah ən gözəl xəlq edən (Əhsənül-Xaliqin) adlanır – yəni Allahdan gözəl xəlq edən yoxdur. Bundan gözəl düzən ola bilməzdi.

ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَاماً فَكَسَوْنَا الْعِظَامَ لَحْماً ثُمَّ أَنشَأْنَاهُ خَلْقاً آخَرَ فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ

Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa (yeni) bir məxluq olaraq yaratdıq. Ən gözəl biçimdə xəlq edən (Yaradan) Allah nə qədər uca, bərəkətli və uludur. [Muminun; 14]

أَتَدْعُونَ بَعْلاً وَتَذَرُونَ أَحْسَنَ الْخَالِقِينَ

Məgər siz ən gözəl Yaradan və Xəlq edən Allahı qoyub Bələ (Bəl adlı bütəmi) ibadət edirsiniz? [Saffat; 125]

Qeyd etmək lazımdır ki, bəzi hədislərdə də "gözəllik" anlamı ilə bağlı maraqlı faktlar vardır: [2]

Allahın Peyğəmbəri (s.a.v.v.): «Gözəllik dildədir». (Tuhəful-uqul, səh.37)

Allahın Peyğəmbəri (s.a.v.v.): «Ağıldan gözəl gözəllik yoxdur». (Nəhcus-səadə,c.1, səh.51)

Allahın Peyğəmbəri (s.a.v.v.): «Sağlamlıqdan gözəl paltar yoxdur». (Biharul-ənvar, c.77, səh.381, hədis 5)

İmam Əli (ə): «Allah-Taala qadının çöhrəsini (və gözəlliyini) onun üzündə, kişinin çöhrəsini (və gözəlliyini) isə onun dilində qoyub». (Biharul-ənvar, c.71,səh.293, hədis 63)

İmam Əskəri (ə): «Üzün gözəlliyi zahirin gözəlliyi, ağlın gözəlliyi isə batinin gözəlliyidir».

Bir qrup hədislər də vardır ki, burada cənnətdəki insan gözəlliyinin təsvirindən, xüsusilə cənnət əhlinin üz gözəlliyindən, hətta bu gözəlliyin davamlı olaraq artmasından və cənnət qadınlarının gözəl xasiyyətli olmalarından bəhs olunur. [11]

"Cənnətdəki hurilər yaqut və mərcan kimidirlər. Adam onlardan birinin üzünə baxar da, özünü onun yanağında, aynada gördüyündən daha aydın görər. Onların incilərinin ən kiçiyi belə şərq ilə qərbi işıqlandırar."

"Cənnət əhlinin bir bazarı vardır. Hər Cümə oraya gəlirlər. Deyərkən şimal küləyi əsər, paltarlarını və üzünü oxşayar. Bunun təsiri ilə hüsn (gözəllik) və Camal (üz gözəlliyi) artar. Beləcə ailələrinə, daha da gözəlləşmiş olaraq dönərlər xanımları: "Vallah, bizdən ayrıldıqdan sonra sizin camal və gözəlliyiniz artmış!" deyərlər. Kişilər də: "Sizlər də Allaha (and) olsun, bizdən sonra çox daha gözəlləşmiş." deyərlər.

Qadın gözəlliyinin təsviri ədəbiyyat aləmi üçün ən həssas məqamlardan biridir. Çünki, qadın gözəlliyini təsvir edərkən istənilən şair və ya yazıçı sanki bir rəssama çevrilir və öz qələmi ilə bir portret yaradır. Əsrlər boyu, bu ənənə bütün dünya xalqlarının ədəbiyyatları üçün xarakterik olan bir nüans olmuşdur.

Klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri də öz əsərlərində gözəllik mövzusuna müraciət etmiş, qadın gözəlliyini, "gözəl"in tərənnümünü özünəməxsus şəkildə təqdim etmişlər. Hər bir sənətkar öz fərqli boyalı fırçası ilə qadın gözəlliyini təsvir etmiş, özünün anladığı şəkildə gözəllik anlamını oxucusuna çatdırmağa çalışmışdır.

Gözəlin təsviri aşıq ədəbiyyatında da xüsusi yer tutur. Belə ki, aşıq ədəbiyyatında aşıq yaradıcılığının janrı olan "gözəlləmə"[3]lər də vardır ki, bu şeir növü məhz gözəllərin vəsfinə həsr edilmişdir. Bu baxımdan aşıq ədəbiyyatının görkəmli nümayəndəsi hesab olunan Aşıq Ələsgər yaradıcılığı xüsusi qeyd olunmalıdır.

Sənətkarın "Ola", "Gözələ", "Getmə, amandı", "Getmə göz önündən, ay Şəkər xanım" və s. adlı şeirlərində gözəli özünəməxsus şəkildə vəsf etməsinin şahidi oluruq:

Hər yetən gözələ "gözəl" demərəm,
Gözəldə gərəkdi işvə-naz ola.
Buxağından ətri-bənövşə gələ,
Qoynu gülşən ola, bahar, yaz ola. [12, s.67]

***

Canımı qurban elərəm
Bir belə tərlan gözələ;
Hal bilən, şirin gülən,
Dosta mehriban gözələ;
Boy uca, gərdən mina,
Zülfü pərişan gözələ.

[3] Gözəlləmə- gözəllərin vəsfinə həsr edilən aşiqanə məzmunlu qoşmalardır.

Dolanıb mürği-ruhum,
Olubdu mehman gözələ;
Xəstəyəm, yalvarıram,
Hakimi-Loğman gözələ. [1, s.201]

Sadə dillə yazılan bu misralarda şair gözəlin yalnız zahiri görünüşünə deyil, eyni zamanda, onun əxalqi keyfiyyətlərinə, davranışına da diqqət yönəldir. Aşıq gözəldə gözəl görkəmlə yanaşı, işvə-naz, şirin dil, mehribanlıq da axtarır. Yəni, Ələsgərə görə daxili və zahiri gözəllik vəhdət təşkil edir.

XVIII əsr ədəbiyyatının görkəmli nümayəndəsi, yaradıcılığında klassik ənənələrdən, xüsusilə gözəllik aşiqi, dahi şair Məhəmməd Füzuli ənənələrindən bəhrələnən Molla Pənah Vaqif poeziyası da istər "gözəl"in, istərsə də "gözəlliyin" təsvir və tərənnümü baxımından xüsusi qeyd olunmalıdır:

Söz yox zənəxdana, zülfə, yanağa,
Qamətə, gərdənə, qaşa, qabağa,
Bir şirin dilbərsən başdan ayağa,
Nə nabat bənzəyir, nə şəkər sənə. [2, s.24]

Gözəli şirin bir dilbər adlandırıb, nabatla, şəkərlə müqayisə edir, belə bir qamətin, zülfün, zənəxdanın, yanağın, hətta qaş-qabağın təsvirində sözünün yetmədiyini vurğulayır.

Sərasər bir yerə yığılsa xublar,
Sənin bir muyinə tay ola bilməz.
Günəş təki şölə verər camalın,
Belə gözəllikdə ay ola bilməz. [2, s.30]

Klassik ənənəyə uyğun olaraq, şair öz gözəlini ay ilə müqayisə edir, camalının günəş tək işıq saçdığını söyləyərək Allahın nurunun təcəllasını onun simasında görür. Molla Pənah Vaqif gözəl qadın obrazını yetərincə işıqlandırmaq üçün onu əlçatmaz günəş və aya bənzədir və məharətlə təzad sənətindən istifadə edir.

Qeyd etmək lazımdır ki, istər klassik ədəbiyyatımızda, istərsə də dünya xalqlarının ədəbiyyatında "gözəl" obrazının təsvir və tərənnümü özünəməxsusdur. Məsələn rus ədəbiyyatının tanınmış siması Mixayıl Yuryeviç Lermontov gözəlin təsviri ilə bağlı fərqli fikirlər irəli sürmüşdür. Şair bu şeirdə gözəlliyə yanaşmanın fərdi xarakter daşıdığını öz təzadlı fikirləri ilə təqdim etmişdir. Şeirdə "gözəl" bədii təsvir və ifadə vasitələrindən istifadə, eyni zamanda görülən gözəllikdən yaranan hiss və həyəcanı ifadə etməklə təsvir olunmuşdur.

Она была прекрасна, как мечта
Ребенка под светилом южных стран;

M.Y.Lermontov öz gözəlinin "cənub ölkəsinin qızmar günəşi (işığı) altındakı uşağın arzusu tək möhtəşəm" olduğunu qeyd edir.

Кто объяснит, что значит красота:
Грудь полная, иль стройный гибкий стан,
Или большие очи? - Но порой
Все это не зовем мы красотой:
Уста без слов- любить никто не мог;
Взор без огня - без запаха цветок!
О небо, я клянусь, она была
Прекрасна!.. я горел, я трепетал,
Когда кудрей, сбегающих счела,
Шелк золотой рукой своей встречал,
Я был готов упасть к ногам ее,
Отдать ей волю, жизнь, и рай, и все,
Чтоб получить один, один лишь взгляд
Из тех, которых все блаженство - яд! [9]

Şair bəzən qeyri-adi bənzətmələrlə, bəzən isə sadə şəkildə öz təxəyyülündə canlandırdığı gözəlinin tablosunu yaratmışdır.

Bu baxımdan, Çin ədəbiyyatında "gözəl qadın" obrazı xüsusi maraq doğurur. Belə ki, "bir obraz olaraq "gözəl" qadın ağlayan söyüd ağacı ilə müqayisə olunur. Onun gözləri əriyi, baxışları sakit payız sularını, dişləri isə nar dənələrini xatırladır. Gözəlin qaşları bəzən ayparaya, bəzən ağlayan söyüd ağacının yarpaqlarına, bəzən isə yeddi rəngli göy qurşağına bənzədilir. Beli çox incə, ayaqları qamətlidir. İncə barmaqları bambuk ağacının yaz tumurcuqlarına, tənziflə bağlanmış ayaqları isə ayparaya bənzəyir." Ümumiyyətlə, Çinlilərə görə qadın gözəlliyinin ən önəmli göstəricisi üz quruluşunun formasıdır. Ənənəvi olaraq, Çin gözəllərinin üz quruluşu balqabaq tumuna bənzədilir. Bu cür üz quruluşunun yuxarı hissəsi yüngülcə oval, aşağı hissəsi isə nisbətən uzunsovdur. Bəzən belə formalı üz quruluşu qu quşunun yumurtası ilə də müqayisə olunur. Gözəlin təsviri zamanı Çin ədəbiyyatı üçün xarakterik olan məqamlardan biri də gözəli müxtəlif güllərə, məsələn, pion, lotos, gavalı ağacının güllərinə və s. bənzətməkdir. *[14]*

Ümumiyyətlə, ədəbiyyat aləmində bəzən üst-üstə düşən, bəzən isə kəskin şəkildə fərqlənən bənzətmələrlə təsvir olunan qadın gözəlliyi məğz etibarilə eynidir.

Türk dünyasının əvəzsiz şairi Füzuli yaradıcılığında gözəlin təsviri fərqli bir dünyadır. Bu fikri biz yaradıcılıq məxəzi, mənbəyi Qurani-Kərim olan orta əsr şairlərinə də şamil edə bilərik. Gözəllik aşiqi M.Füzuliyə gəlincə, gözəllik özünün "Əsməul-husna" Allaha bağlı gözəl adlarda dünyanın gözəl şəkildə qurulmasında, ən gözəl insanın ən gözəl biçimdə yaranmasında və sairədə göstərir.

Məhəmməd Füzuli öz yaradıcılığında bədii söz sənətinin bənzərsiz çalarlarından istifadə etməklə təxəyyülündə canlandırdığı "gözəl"i təsvir

etmişdir. Ümumiyyətlə, bədii sözün, bədii deyimin və nəhayət bədii mətnin arxasında bədii-estetik düşüncə və poetik təxəyyül dayanır. Söz, deyim və mətn ilə həmin düşüncə və təxəyyül arasında qırılmaz bağlılıq vardır-yəni söz və ya deyim bir növ düşüncə və təxəyyülün daşıyıcısı və ifadə qəlibidir. Düşüncə və təxəyyüldəki gözəllik, incəlik və məna tutumu gərək özünə münasib olan söz seçimi və biçimi ilə verilsin. Bu iki tərəf uğurla bir-birini tamamlarkən bədii sözün emosional-estetik təsiri olduqca güclü olur. Rəssamlıqda rəng seçimi və düzümü, naxışların biçimi və harmoniyası, forma və məzmun vəhdəti nə dərəcədə əhəmiyyətlidirsə, söz sənətində də söz seçimi və düzümü, söz ahəngi və biçimi, söz-deyim-mətn harmoniyası o qədər önəmlidir. [7, s.139-140] Məhz bu baxımdan Füzuli yaradıcılığı xüsusi qeyd olunmalıdır. Sənətkarın yaradıcılığının özəl və gözəl tərəflərindən biri də "gözəl"in vəsfini ona xas rəng qatan incə məna və ləfzi gözəlliklərlə təqdim etməsindədir. Şair öz "gözəl"inin yalnız zahiri gözəlliyini deyil, iç dünyasını, saflığını, sevgisinə sadiqliyini, adət-ənənələrə, milli dəyərlərə riayət edən bir obraz kimi qələmə almışdır.

Zərif, incə çalarlardan istifadə edərək həssaslıqla bəzədilən misraları oxuduqca insanın təxəyyülündə bənzərsiz bir "gözəl"in tablosu canlanır. Şair leksik mənası müəyyən xüsusiyyət və şəraitə görə iki şey və ya məfhum arasında uyğunluğu ifadə edən təşbihin müxtəlif növlərindən istifadə etmişdir. Belə ki, bədii təşbih iki və ya daha çox predmet və məfhum arasında müqayisə aparmaq, hər hansı sifət və ya sifətlərə görə onlar arasında oxşarlıq və bənzətmə yaratmaqdır. [6, s.203]

Hiç sünbül sünbüli-zülfün kimi miskin degil,
Nafeyi-Çini saçın tək derlər, əmma çin degil. [3, s128]

***

Dəhrdə həmta sənə var pəri rux desəm,
Var gözəl çox, vəli sən kimi xunxarə yox. [4, s.91]

***

Ləblərin tək lələ ləfzin tək düri-şəhvar yox,
Lələ gövhər çox, ləbin tək ləl-gövhərbar yox. [4, s.94]

Şair gözəllərin çox olmasına baxmayaraq, üstün təşbehdən istifadə edərək bu gözəlin tayı-bərabəri olmadığını qeyd edir.

Aşağıda qeyd edilən misralarda şair daxili həyəcanını ifadə etmək üçün bədii sualdan istifadə etmişdir. Bədii ifadəni qüvvətləndirmək üçün verilən belə sualların cavabı çox zaman axtarılmaz. Fikrin sual vasitəsilə ifadəsi dilin mahiyyətindən doğan təsirli bədii üsuldur. Bədii ifadə vasitələrinin bu növündən şair və yazıçılar müxtəlif səpkilərdə istifadə etmişlər. Qeyd etmək lazımdır ki, istifhəm Quran üslubuna xas olan bədii vasitələrdəndir. Quranda sözün təsir dərəcəsini artırmaq üçün bədii sualdan geniş istifadə edilmişdir. [6, s.244]

Qansı gülşən gülbuni sərvi-xuramanınca var?
Qansı gülbün üzrə qönçə, ləli-xəndanınca var?

***

Qansı gülzar içrə bir gül açılır hüsnün kimi,
Qansı gülbərgi ləbi-ləli-dürəfşanınca var? [3, s.94]

Klassik Şərq nəzəri sisteminə dərindən bələd olan dahi sənətkarın poeziyasında bədii poetik təsvir və ifadə vasitələrindən geniş şəkildə istifadə olunmuşdur.

Sözü bədiiləşdirən, zinətləndirən, ona şairanə gözəllik və məna incəlikləri verən vasitələr bütövlükdə mühəssənati-kəlam (yəni söz gözəllikləri) və ya sənəat (sənətkarlıq) gözəllikləri adlanır. Müasir ədəbiyyatşünaslıqda bədii ifadə vasitələri adı altında verilən bir çox təsvir elementləri bu sistemə daxildir. Lakin poetik təsvirin məzmun dairəsi daha geniş, söz sənətinin bədii təsirini istər emosional və istərsə də estetik cəhətdən təmin etmək imkanları daha çoxdur. [6, s.149] Ümumiyyətlə, orta çağlar müsəlman Şərq xalqlarının bədii-poetik vasitələr sistemində bəlağət və onun tərkib hissələri arasındakı qarşılıqlı əlaqə bir sıra nəzəri məsələlərin aydınlaşmasında mühüm əhəmiyyət daşımışdır. Xüsusilə bəyan, məani və bədi adları altında araşdırılan üç mühüm bədii-estetik sütunlar arasındakı münasibət söz ustadlarının bədii sənətkarlıq məharəti üçün önəmli sayılır. Bu baxımdan əvəzsiz şair Məhəmməd Füzuli yaradıcılığı xüsusilə qeyd edilməlidir. Çünki Füzuli poeziyası öz oxucusuna zövq verməklə yanaşı, eyni zamanda yuxarıda qeyd edildiyi kimi, düşünməyə də vadar edir. Məhz bu xüsusiyyət sənətkarın yaradıcılığının önəmli və əvəzsiz tərəflərindəndir.

Sənətkarın böyük zövqlə yazmış olduğu qəzəlləri insanı həm məzmun, həm poetik ifadə tərzi, həm də sırf Füzuliyə məxsus üslubi ilə oxucunu özünə cəlb edir. Füzuli gözəli ilə üzləşdiyi zaman keçirdiyi hal-vəziyyətini sənətə gözəl şəkildə gətirməyi bacarır:

Könlüm açılır zülfi-pərişanını görgəc,
Nitqim tutulur qönçeyi-xəndanını görgəc, [4, s.83]

***

Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı.
Sayə tək bir yerdə durmağə qərarım qalmadı. [5, s. 173]

Klassik əsərləri ani olaraq vərəqlədikdə gözümüz çoxlu sayda bədii xitablara sataşır. Sənətkarlarımızın məna çalarlarını qüvvətləndirmək üçün tez-tez şeirlərində ey şux, ey gül, ey badi-səba, gözəl rəna, ey könül, ey mələksima, ey səba, ey can, ey dil, ey məh və s. bu kimi xitablar orta əsr poeziyasına təsir göstərən bədii ifadə vasitələrindəndir.[12, s.237] Qeyd etmək lazımdır ki, klassik poeziyamızın sönməz günəşi hesab edilən Məhəmməd Füzuli yaradıcılığında şairin qəzəllərinin bir çox beytləri, bəzən isə bütöv bir qəzəli tam xitab üzərində qurulur. Bu baxımdan aşağıdakı beytlərə diqqət yetirək:

Yelə vermə dağıdıb hər yan, ayaqlardan götür,
***Ey pəri**, zülfi-pərişanın, gərəkməzmi sana? [4, s.51]*
***
***Ey kəmanəbru**, rəqibə vermə qəmzəndən nəsib,*
Ox atarsan daşə, peykanın gərəkməzmi sana? [4, s.51]
***
***Ey gül**, qəmində əşk ruxi-zərdim etdi al,*
Bildirdi ola surəti-halım səba sana [4, s.53]
***
Demiş hər qönçəyə aşiqliyim razın səba derlər,
*El ağzın tutmaq olmaz, qorxuram, **ey gül**, sana derlər. [5, s.55]*
***
***Ey gül,** nə əcəb sisileyi-mişki-tərin var.*
Vey sərv, nə xoş can alıcı işvələrin var! [5, s.60]
***
*Lalə tək qəlbim mənim, **ey nazənin**, yüz parədir,*
Dağlayan hər paräni ol atəşin rüxsarədir [5, s.195]
***
Qönçə heç vaxt olmamış qönçə dəhanın tək lətif
*Qönçə də təsdiq edir bu fikri, **ey qönçə dəhən**! [5, s.190]*
***
*Öylə rənadır, **gülüm**, sərvi-xuramanın sənin*
Kim, görən bir gəz olur, əlbəttə, heyranın sənin, [5, s.96]

Şair təxəyyülündə canlandırdığı "gözəl"ə özünəməxsus, həssaslıqla seçilmiş "ey kəmanəbru", "ey nazənin", "ey gül", "ey qönçədəhən", "ey pəri", "gülüm" və s. xitablarıyla müraciət etməklə onu daha da canlı şəkildə qələmə almışdır. Şair gözəli vəsf edərkən hər zaman yeni çalarlardan istifadə etmişdir. Bir-birinə bənzəməyən məna çalarları ilə cilalanan misralar insan qəlbinin ən dərinliyində özünə yer tapır:

Sübh salıb mah rüxündən niqab.
Çıx ki, təmaşayə çıxa afitab [5, s.32]

Ustad sənətkar sübh çağının yarın ay üzündən örpək salması, gözəl yarın görünməsi ilə günəşin çıxmasını eyniləşdirmişdir. Öz təzadlı fikirləri ilə gözəli təbiətin ən dəyərli iki məqamı ilə müqayisə etmişdir.

Digər beytdə sübh vaxtı görünən "gözəl" günəşi öz gözəlliyi ilə kölgədə qoymuş, gecə vaxtı görünən "gözəl" gözəlliyi ilə şamı belə əritmişdir.

Sübh qıldı cilvə, gün çəkdi özün bir guşəyə,
Şam ərz etdin rüxün, şəmi əritdi infial [5, s.102]
Gördüm ol xurşidi-hüsnün, ixtiyarım qalmadı,
Sayə tək bir yerdə durmağə qərarım qalmadı. [5, s.173]

Günəş üzlü gözəli gördüyü zaman ixtiyarı əlindən getdiyini, hətta bir yerdə belə dura bilmədiyini söyləyən şair bununla görülən gözəlliyin möhtəşəmliyini vurğulamışdır.

Avropa İntibah dövründə yaşamış dünyaşöhrətli rəssam Leonardo da Vinçi öz fırçası ilə qadın gözəlliyini əks etdirən əsrarəngiz tabloları ilə insanı valeh qoyursa, dahi şair Füzuli öz qələmi ilə sözləri naxış tək düzərək sehirli misralarla oxucusunu ovsunlayır:

Dünən zülfün açırdın, mənsə durmuşdum təmaşəyə,
Onun hər həlqəsində yük könüldür mübtəla gördüm. *[5, s.187]*

Nazlı gözəl zülfünü açdığı zaman yüz könlü valeh edib özünə mübtəla qoyur. Füzuli təxəyyülünün gözəlinə vurulmamaq, aşiq olmamaq qeyri-mümkündür!!!

Şəmi-ruyin afitabi-aləmaradır sənin,
Nuri-həqq xurşidi-rüxsarında paydadır sənin. *[3, s.120]*

***

Hüsn bağına bəzəkdir qönçəvü sərvü gülün,
Gülyanaq, qönçədəhən, sərvi-xuraman olmusan *[5,s.191]*

Öz "gözəl"ini hüsn bağının bəzəyi adlandıran Füzuli təşbeh sənətindən məharətlə istifadə edərək, onun yanağını gülə, ağzını isə təzə açmış qönçəyə bənzədir. Ustad sənətkar Məhəmməd Füzulinin insan ruhunu oxşayan əsrarəngiz poeziya nümunələri istər dünən, istər bu gün, istərsə də gələcək nəsillər üçün əvəzolunmaz, sehirli bir dünyadır. Bu məqalədə Füzuli dünyasının incilərinə qısaca olsa da nəzər salmaqla, ruhumuzu mənən qidalandırdıq!

ƏDƏBİYYAT

1. Aşıq Ələsgər. Şeirlər. Dastan-Rəvayətlər.Xatirələr. "Çinar-çap"., Bakı-2003. ü/h -496s
2. M.P.Vaqif. Əsərləri. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı-1960., ü/h-257s
3. Məhəmməd Füzuli "Fikir-sənət dünyası və türkçə "Divan"ından seçmələr". R.Azadə, V.Feyzullazadə. "Qismət"., Bakı-2005., ü/h-276s
4. Füzuli. 6 cilddə. I cild. "Azərbaycan"., Bakı-1996., ü/h-448s
5. Füzuli. Seçilmiş əsərləri. "Azərbaycan Dövlət Nəşriyyatı"., Bakı-1958., ü/h
6. Mahirə Quliyeva "Şərq poetikasının əsas kateqoriyaları. Bakı, 2010 "Maarif"., ü/h-400 s.
7. Nəsib Göyüşov "Milli sənətin nəzəri təhlilinə giriş". Bakı-Nurlan-2005., ü/h-292 s.
8. Mir Cəlal. Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı-"Maarif"-1988.,ü/h-280s
9. http://sualcavab.ge/index.php?newsid=939

10. mail.mp3.legend.az/123615-gozellik-haqqinda-hedisler.html
11. http://imaningozellikleri.weebly.com/c601nn601td601-304nsan-goumlz601lliyi.html
12. http://www.anl.az/el/a/ae_e.pdf
13. http://www.renclassic.ru/Ru/Supplement/732/1077/
14. http://cyberleninka.ru/article/nƏobraz-krasavitsy-v-sovremennoy-literature-kitaya

SHAFAG TAGIYEVA

THE DESCRIPTION OF THE BEAUTY IN FIZULY CREATIVITY

SUMMARY

The world is built on beauty. In different periods the meaning of "beauty", the description of beauty, in particular, the description of "female beauty" was very specific. It should be noted that the description of "beautiful" has always been presented in the poetry with different ways. Each poet tried to explain the meaning of "beauty" to their readers by the way how he understood. At this point we must emphasize the creativity of Muhammad Fizuli, the indispensable poet of classical literature.The description of "beautiful" in poet's creativity is unique. In the article is analysed only the "beautiful" of M.Fuzuli fantasy.

ШАФАГ ТАГИЕВА

ОПИСАНИЕ КРАСАВИЦЫ В ТВОРЧЕСТВЕ ФИЗУЛИ

РЕЗЮМЕ

Мир устроен по канонам красоты. В разные времена понятие и описание «красоты», а в особенности восхваление «женской красоты» носила своеобразный характер. Надо отметить что, восхваление «красоты» в поэзии всегда было представлено по разному. Каждый поэт по своему старался донести это понятие (тоесть понятие красоты) до своего читателя. С этой точки зрения, надо особо отметить творчество незаменимого представителя классической литературы Мухамеда Физули. Описание «красавицы» в творчестве поэта неповторим. Это статья конкретно посвящена «красавице» которой Физули создал в своем творчестве.

Rəyçi: Mahirə Quliyeva
Filologiya üzrə elmlər doktoru

ŞƏBNƏM HÜSEYNOVA
AMEA Folklor İnstitutu,
e-mail: shebnem.vagif@mail.ru

HAL ANASINDAN QARI OBRAZINA

Açar sözlər: *Hal anası, qarı, folklor, obraz, inanc*
Ключевые слова: *старуха, фольклор, образ*
Keywords: *Hal anasi, old woman, folklore, image, faith*

Folklor nümunələrində geniş rast gəlinən qarı obrazı "qarı" şəklinə düşənə qədər təşəkkül prosesi keçmişdir. Məhz qarı obrazının mifoloji kökünü araşdırarkən onun mifoloji mətnlərdə Hal anası kimi çıxış etdiyinin şahidi oluruq. Aparılan tədqiqatlardan, folklor söyləyicilərindən toplanmış mətnlərdən bəlli olur ki, Hal əsasən qoca qarı cildində təsəvvür edilir. Folklorşünaslıqda Hal anası ilə bağlı kifayət qədər araşdırmalar var. Hənəfi Zeynallı "Azərbaycan nağılları haqqında" məqaləsində, Bəhlul Abdulla "Azərbaycan mərasim folkloru" əsərində, A. Acalov və M. Novruzov "Al" tapınışı və onun izləri" məqaləsində, Cəlal Bəydili "Türk mifoloji obrazlar sistemi (struktur və funksiya)" əsərində, Füzuli Bayat "Türk mitoloji sistemi" əsərində Al/Hal mifoloji varlığından bəhs etmişlər. Şakir Albalıyev "Hal obrazı: mifdə və mərasimdə" başlıqlı məqaləsində halın mürəkkəb təbiətliliyinə aydınlıq gətirmişdir. Bizim məqsədimiz nağıllar, dastanlar və lətifələrdəki qarı obrazının əlamət və funksiyalarının Hal anasından gəldiyini göstərməkdir.
Azərbaycan Mifoloji mətnlərinin bir qismində Hal "meymuna oxşar", "məxmərfason tühləri olan" adam kimi təsəvvür edilir. Hal anası yerin altında yaşayan cinlərin anası olaraq da qəbul edilir. Hal anası tez-tez zahı qadınlara, yeni doğan uşaqlara xətər yetirir, onların ciyərini çıxarıb yeyir.

Hal anası su kənarında yaşayır. Oğurladığı zahı ciyərini də suya salıb yeyir. Buna görə çayı qılınclamaqla Hal anasını qorxutmağa çalışırlar. "Əgər Hala imkan versələr, onda zaha arvadı sağaltmaq olmur. Ona görə də, qoçax kişilər arvadı- uşağı yatan kimi yaxındakı çaya, ya da axar suya gedif qılınşnan suyu qılışdıyır. Bəzən də güllə atıf, hay- küy salıllar ki, hal qorxuf qaşsın. Əgər vaxtında bunnarı eləsələr, zaha arvadın ciyarını də, burun- qulağını da hal gətirif yerinə qoyur. Zaha sağalır (AFA, 2000: 59). Kazan türklərinin inancındakı Albastı da şər ruh olub qeyri- yaşayış yerlərində, səhralarda olur. Gecələr yolçuların qarşısına çıxaraq onları azdırır, yatana zərər yetirir. Kazan tatarları belə hesab edirdilər ki, Albastı bəzən qurbanının qanını içir (Basilov, 2008: 47).

Hal anası ona deyilənin əksini edəndir. Odur ki, tərsinə iş görən adamlara "hal cinsisən? deyirlər (AFA, 2005: 64). Cəlal Bəydili onun bu xüsusiyyətini

xtonik aləmdən gəlmə olması ilə əlaqələndirir (Bəydili, 2007: 143). Füzuli Bayat yeraltı dünyanı belə səciyyələndirir: Yeraltı dünya necə ki, kainatın bölümləri və layları bir- birinin bənzəri və təkrarıdır, eləcə də yeraltı dünya bizim dünyanın bənzəridir. Lakin orada hər şey bizim dünyanın tərs vəziyyətindədir... Orada açıq qapı bağlanmalı, bağlı xalça açılmalıdır (Bayat, 2007: 332). Tədqiqatlar göstərir ki, yeraltı dünya "yalançı dünya"- xaos sayılır. Buna görə də hər şey burada tərsinədir. Nağıllarda yeraltına enən və yaxud divlərin yaşadığı məkana daxil olan qəhrəman yaşadığı dünyanın tərsi olan dünya ilə qarşı- qarşıya gəlir. Atın önündə ət, quşun önündə ot, aslanın önündə quş yemi var... Bir sözlə, hər şey tərsdir, xaotikdir (Rzasoy, 2012; 174).

Əsasən zahı qadınlara zərər yetirən Hal kişilərin də gözünə görünə bilir. Diqqət etsək görərik ki, Halla bağlı mətnlər kişi informatorlardan toplanmışdır. Kişilərin gözünə görünən, onların arxasından gələn Hal anasının digər adı Azərbaycanda Ərdov, Ərdova və Ərdoydur. Al basması kişilərdə daha fərqli görünür. Onlar gecə yatarkən yad bir səslə oyanırlar. Bu səs onları çox uzağa, təhlükəli yerlərə aparıb çıxarır. "Aralıx meşəsinin qulağındakı zağanın yanına çatanda kişi toy məclisi ilə rastlaşır. Bütün tanıdığı qarıların libasında olan qəribə məxluqlar görür. Hətta ucaboy qarı kişiyə çörək vermək istəyir. Bu zaman balaca uşağın "çörəyi alma!" deməsi ilə sanki yuxudan ayılır. Kişi Halla qarşılaşdığını yaxşı bilir (AFA, 2000: 58). Bu qəribə məxluqların boylarının uzun olması Hal anası olmalarına işarədir. Füzuli Bayatın "Türk Mitoloji Sitemi" əsərində Anadolunun Qars, İğdır, Artvin bölgələrində də Erdoy/Ardoy adlı demonik varlığın olduğu göstərilir (Bayat, 2007: 340).

Bədheybət, saçları buruq- buruq, ayağı yalın, başı açıq, cırıq-cındır önlüyü olan, döşləri dizlərinə qədər sallanan Hal arvadı bəzən evin qaranlıq küncündən, divardan çıxır. Elə buradan Halın xtonik təbiətli, fövqəltəbii varlıq olduğu açıq- aşkar görünür. Kişi iynəni onun saçından çıxaran kimi qeybə çəkilir. Bundan sonra kişiyə və onun yeddi arxa dönəninə hal-cin dəyib-dolaşmır.

Azərbaycan mifoloji mətnlərdə rast gəlinən Hal anası bütövlükdə nə xeyirxah, nə də bədxahdır. Lakin Anadoludan toplanan Alqarısı ilə bağlı mətnlərdə Alqarısı tamamilə bədxah ruh kimi təsəvvür olunur. Altayda su iyəsi olan, Hal anasının funksiyasını daşıyan Albastı şər ruh kimi tanınır. Albastının atributları (sehrli kitab və qəpik), onun xeyirxah funksiyaları barədə izlər əvvəllər Albastının xeyirxah ilahə, doğum, artım, məhsuldarlıq, heyvan və ov hamisi olmasını deməyə əsas verir. Daha çox inkişaf etmiş mifoloji sistemin yayılması ilə (zərdüştlükdən əvvəlki dövrlərdə) Albastı bədxah, acıqlı ruh roluna girmişdir (Basilov, 2008: 48). Şakir Albalıyev "Hal obrazı: mifdə və mərasimdə" məqaləsində yazır ki, Hal (Albastı) yaranışı, kökü etibarı ilə xeyirxah qüvvəyə bağlanırsa, doğum hamisi kimi çıxış edirsə, bu gün doğuşun düşməni olaraq öz ilkin missiyasında tamamilə əks qütbə çəkilmişdir

(Albalıyev, 2007: 61). Acalov "vaxtilə Al Tanrının ululuğunu itirərək, alçaq çalarlar alıb, tapınışın, sayğının yerini kinin, qorxunun tutduğunu, Al tanrının Al ruhuna- hal arvada çevrildiyini" yazır (Acalov, 1983: 254).

Təbiətən hər görünməzin qarşılığı olaraq bir görünən nəsnə mövcuddur və ruhun da görünən əksi bədəndir. Heç bir ruh həmişə bir nəsnə içində qapalı qalmaz (Ru, 1994: 131). Məhz Al ruhu da oxşar adlarla müxtəlif cildlərdə, donlarda insanların qarşısına çıxır. Azərbaycanın müxtəlif bölgələrindən toplanmış nümunələrdə Hal anasının pişik, keçi, qadın şəkilləri vardır. Hətta kiçik qız şəklində olan Hal anası ilə əlaqədar inanclar var. Bu da Hal anasının dönərgəliyini göstərir. Qeyd edək ki, Halın bəzi dönərgələri fərqli adlarla tanınır. Ləman Süleymanova "Şəki foklor mühiti" monoqrafiyasında Halın dönərgələri ilə bağlı məlumat verir. L. Süleymanova araşdırma apardığı zaman halın daha çox keçi, pişik, xoruz və qadın formalarına təsadüf etdiyini yazır. Yalnız keçi dönərgəsinə Şəki ərazisində rast gəldiyini bildirir. Və Şəkidə halın keçi dönərgəsinin Unuqay adlandırıldığı məlum olur. Unuqay erkək keçi, oğlaq formasında olub, daha çox axşamüstü, qaranlıq düşərkən rast gəlinən mifoloji varlıqdır. O, çox zaman yolla gedən atlıya, yaxud arabalı yolçuya sahibsiz keçi kimi görünür. Keçinin rəngi mətnlərin əksəriyyətində ağ, yalnız bircə mətndə qara verilir. Tapıntının keçi yox, Unuqay olduğu bilinəndən sonra onun ayaqları uzanmağa başlayır. Unuqayın ayaqlarının uzanması onun güclənməsinə səbəb olur. Mifoloji obrazların əl-ayağının uzanması Azərbaycan folklorunda geniş yayılmış hadisədir. Naxçıvanın Sədərək rayonundan qeydə alınmış Çıntırqayış adlı obraz da belə bir mifoloji keyfiyyətə malikdir Naxçıvan ərazisində həmin obraza Kəndirqayış adı ilə də rast gəlinir (Vaqifqızı, 2012: 62-79).

Halın pişik dönərgəsi də var. Həmin pişik Şəkidə Məstanxanım adı ilə tanınır. Halın pişik dönərgəsinə Göyçə folklorunda da rast gəlirik. Burada da pişiyin adı Məstanxanımdır. Türk inanclarına görə, zahı qadının yanına pişik buraxmazlar, yoxsa uşaq ölər. Görünür, bu fikir Halın pişikdə təcəssüm etməsi inancından irəli gəlir. Pişik, it, eşşək, təkə, oğlaq kimi bir çox heyvanın -cin daşıma xüsusiyyəti var (Boratav, 2012: 75).

Halın transformativ ad vahidlərindən biri də Alyabani, Qulyabanidir (Albalıyev, 2007: 53). İsmayıllı ərazisində isə Hal anası Qırmızıdaban kimi tanınır. Qırmızıdaban da Hal anası ilə eyni əlamətləri və funksiyanı daşıyır. O da döşlərini çiyinlərinə atıb gəzir. O da su kənarında yaşayır. Onun Hal olduğunu isbatlayan "daban" sözüdür. Çünki Halı ələ keçirəndə "nəhlət dabanına", "Xala dabanına" (AFA, 2005: 60, 62) ifadəsi işlədilir. Halı buraxarkən onun dabanını dağlayırlar. Görünür, Halın sehri dabanındadır. Özü də Halın dabanı tərsinə olur. Göyçə folklorundakı nümunələrin birində deyilir: "Yer palçıx olduğunnan qonağımın ayağ izdəri yerdə qalmışdı. Davanının qavaxda, barmaxlarının dalda olduğu aydınca bilinirdi. Kəndin qojaları da

təsdiq etdilər ki, bu Hal ayağının izidir" (AFA, 2000: 57). İsmayıllıda Təzəkənd kəndində yaşayan söyləyici Ballı Əsədovanın (66 yaş) sözlərinə görə, hələ uşaq ikən onları axşamçağı göl qırağına getməyə qoymazdılar ki, həmin vaxt Qırmızıdaban onları basar. Hətta bir dəfə anasının Qırmızıdaban gördüyünü söyləyir. Jan- Pol Ru "Qədim türk mifologiyası" əsərində yazır ki, suyun içindəki mövcud güc fərqli formalarda meydana çıxır və göl, su qaynaqları, çaylarda, "müqəddəs sularda" yaşayırlar (Ru, 2011: 115).

Azərbaycan, o cümlədən digər türk xalqlarından toplanan inanclarda Al/Hal arvadının atları qorxutduqları, onların yallarını hörüb, gecələr minib çapdıqları ilə bağlı mətnlər var. At birdən hürkəndə adətən deyirlər ki, Hal görüb. Gecə tövlədə olan at bərk tərləsə, quyruğu düyülsə, deyərlər, onu ya cin, ya da Hal minib çapıb (AFA, 2002: 93). Hal qarısının inəyi sağması ilə bağlı rəvayətlərə də rast gəlirik. Bir qadın informatorun dediyinə görə, tövlənin deşiyindən baxanda onun libasında olan bir eybəcər arvadın inək sağdığını görür (AFA, 2000: 58). Məhz Qırmızıdabanın da atları mindiyi, yal hördüyü, səhər axura gedəndə atların təngnəfəs olmağından bilinərmiş. Halı ələ keçirmək üçün atların belinə qır çəkir, saqqız yapışdırırlarmış. Yalnız atın belinə qır sürtəndə onları tutmaq mümkündür. Hal anasının, Al qarısının, Albastının ata mehr salması təsadüfi deyil. Vaxtilə at müqəddəs sayılıb. Jan-Pol Ru "Qədim Türk mifologiyası" kitabında atla göy arasında mifoloji əlaqənin olduğunu yazır (Ru, 2011: 35).

İsmayıllının Müdürsə kəndində Halın digər adı "Məməbədüş"dir. Tərcümədə "döşləri çiynində" deməkdir . Məməbədüşü də sancaqla ələ keçirirlərmiş. Sancaq taxmaq "həlqəbəgüş" adlanır. Bu o deməkdir ki, iş sancağı taxmaqla bitmir, əsas odur ki, sancağı taxandan sonra bağlayıb onu halqaya salasan. Söyləyici bunu uşaqları qorxutmaq üçün işlədiyini deyir. Uşaqların üstünə sancaq, iynə sancanda uşağa cin, şeytan dəyməz. Qorxan uşağın da başının altına bıçaq və çörək parçası qoyurlar. "Zahı arvadın yanına dəhrə qoyallar, çörəy qoyallar, pıçax qoyallar. Hal aparanda tüfəy atallar, gedif suyu qılışdıyallar (AFA, 2005: 61). A. İnan Albastının tüfəng səsindən qorxduğunu, bunun üçün Albastı dəyən zahı qadının yanında tüfəng atmağın adət olduğunu yazır. Hətta Albastı dəmirçidən və ocağlı (anlayışın izahı) insanlardan qorxduğu üçün onların adi bir dəsmalı kifayətdir ki, Albastı zahıya yaxın getməsin. Al qarısı, Albastı qırmızı və ağ rənglərdən də çəkinir, zahıya yaxın durmurlar. Buna görə də zahının əyninə qırmızı libas, ayağına ağ başmaq geyindirirlər (İnan, 1987: 161).

Azərbaycanda zahı qadının başının altına bıçaq qoyur, üstünə sancaq taxırlar. Zahının qırxı çıxana su qırağına getməsinə icazə verilmir. Göründüyü kimi Alqarısından qorunmağın müxtəlif yolları var. Başqırdlarda Al qarısı ölüyə də xətər yetirir. Bunun üçün ölünün sinəsinə bıçaq, qayçı, çəkic qoyurlar. Ümumiyyətlə, türk xalqlarında Alın dəmirdən qorxmasına aid inanclar çoxdur.

Dəmirçilərin mühüm alətləri olan kəlbətin, çəkic, örs və körük kimi alət və hacatlar da müqəddəs sayılırdı. Bunların hər birinin xüsusi qoruyucu mələkləri və ruhları var idi (Ögəl, 2004: 81). Məhz dəmirdən hazırlanan alətlərin də onlara xeyir gətirəcəyini, hamilik edəcəyini düşünərək mənfi ruhlardan qorunmaq üçün dəmir əşyalardan istifadə ediblər.

Bir sıra mətnlərdə Halın ağ paltarda gözə göründüyü məlum olur. Zəngəzur mətnlərinin birində Salman adlı bir kişinin ağ paltarlı, çiynində səhəng olan bir Halla qarşılaşdığı deyilir. Buradan məlum olur ki, kişinin Hal görməsinə səbəb çimib pak olmasıdır. (AFA, 2005: 61-62). Qumıqlar Albastıya geydiyi ağ paltara görə Ağ qadın deyirlər (Bayat, 2007: 333). Anadolu mətnlərində Al qarısı qırmızı donlu, qırmızı muncuqlu təsvir edilir. Həm Anadolu mətnlərində, həm də Azərbaycan mətnlərində Hal qızıl saçlı, sarı saçlı təsvir olunub. İnama görə, Hal arvadının muncuğu da sarı olur. Şəkidən toplanan mətnlərin bir qismində Hal sapsarı, yaxud ağappaq saçları olan qız kimi təsvir olunur (Vaqifqızı, 2012: 67). Tükün magik mahiyyətini aydınlaşdıran Muxtar Kazımoğluna görə, saç, ümumiyyətlə, tük folklorda qeyri- adi güc mənbəyi kimi nişan verilir. Professorun gəldiyi nəticə göstərir ki, məhz o biri dünyaya getmək üçün qəhrəman qızıl-gümüş saça yiyələnməlidir (Kazımoğlu, 2006: 68-71). Ümumiyyətlə, diqqət yetirsək görərik ki, Ulu Anadan transformasiya olunmuş obrazların çoxu sarı saçlı kimi təsvir olunub. Füzuli Bayat yazır ki, Erlikin xidmətində düran Almıslar da sarı saçlı qızlar kimi təsəvvür olunur. Bundan başqa, Tuva Şamanist inanclarına görə yer altında yaşayan yeddi qız da sarı saçlı olaraq təsvir olunur (Bayat, 2007: 334). Sarışın və al paltarda olan, qadınları qorxudan digər varlıq Çərşənbə qarısıdır. Özkul Çobanoğlunun kitabında Çərşənbə qarısı pişik, it, kiçik insan cildində, ayaqları tərs qadın, tanıdıqları insanların surətinə girə bilən, müxtəlif səslər çıxarmaqla insanları qorxudan varlıqdır (Çobanoğlu, 2003: 140). Məhz Çərşənbə axşamı qadınların gördükləri ev işlərini Çərşənbə qarıları dağıdıb-tökməklə heç edirlər. Bu da onların xtonikliyini göstərir. Çünki xtonik varlıqlar xaosun təmsilçiləridir.

Hal arvadı hiyləgər və yalançı kimi tanınır. Bu xüsusiyyət Albastıda da var. Zamanla mifoloji əlaqələrini itirən Albastı yüngül xasiyyət, hiyləgər, yalançı kimi mənfi xüsusiyyətlər də qazanmışdır (Bayat, 2007: 325). A. İnan bu xüsusiyyətləri Sarı Albastıya aid edir və "Qara Albastı" yaxud "Qara"nı ciddi və ağır ruh kimi göstərir (İnan, 1987: 161). Bu varlıqları ələ keçirəndə dil töküb yalvarırlar. Mifoloji mətnlərdə rastımıza çıxan maraqlı məqamlardan biri də Hala sancılan iynə haqqındadır. Sən demə iynənin sapgirən deşiyi sınıq olmalıdır ki, Hal qaça bilməsin. Əks halda həmin deşiyə çöp salıb iynəni üzərindən çıxaracaq. Halın boynunda muncuq olur. Bu muncuğu ələ keçirən insan Halın tökdüyü dilə inanıb muncuğu qaytarsa Halın əsirinə çevrilər, yox əgər inanmayıb muncuğu saxlasa, onun dənələrindən yaxınlarına paylasa yeddi

arxa dönəninə belə Hal dəyib toxunmaz. Ümumiyyətlə, Hal and içəndə dediyi sözə əməl edir. Eyni zamanda qarşı tərəfin də andına inanır. Al Qarısı insanoğlu tərəfindən yaxasına iynə taxılaraq əsir tutulduğunda bəzi vədlər qarşılığında sərbəst buraxılarkən məlum olur ki, Al yaşadığı suya geri dönəndən sonra həmcinsləri tərəfindən öldürüləcək. Bu zaman suda dalğalar yaranır və suyun üzərində qan görünür (yasarkalafat.info/?p=1445? gizli iletileri ile değirmen su bağlantili inanmalar).

Hal arvadı ilə bağlı apardığımız araşdırmadan aşağıdakı nəticələri əldə etdik:

Hal anasının xarici görünüşü, funksiya və atributları onun o biri dünyaya, yəni yeraltı dünyaya bağlı olduğunu göstərir. Hal zahı qadınları və yeni doğulmuş körpələrə ziyan verir, kişilərin yoluna çıxaraq onları azdırır. Dondan- dona girmək Hal anasının əsas əlamətidir. Və müxtəlif xalqlarda Hal anasının don dəyişməsi fərqlidir.

Əgər Hal arvadı qarğış edərsə mütləq həyata keçər. Hal hadisələri öncədən görər və xəbər verər. Hal anasına aid olan bütün bu xüsusiyyətlər az və ya çox dərəcədə qarı obrazında özünü göstərir. Eyni zamanda, Hal arvadı ilə bağlı sadaladığımız bu xüsusiyyətlər zaman-zaman qarı obrazının nağıllara, dastanlara, lətifələrə transformasiya olmasını şərtləndirib.

ƏDƏBİYYAT

1. Acalov A. (M. Novruzov). (1983). “Al” tapınışı və onun izləri”/Azərbaycan filologiyası məsələləri jurnalı, Bakı: 247-258.
2. Albalıyev Ş. (2007) “Hal obrazı: mifdə və mərasimdə”. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXV kitab, 50-72.
3. Azərbaycan Folkloru Antologiyası. (2000). III kitab, Göyçə folkloru / Hazırlayan İsmayılov H. Bakı.
4. Azərbaycan Folkloru Antologiyası. (2002). VI kitab., Şəki folkloru / Hazırlayan Əbdülhəlimov H. Bakı.
5. Azərbaycan Folkloru Antologiyası. (2005). XII kitab., Zəngəzur folkloru / Hazırlayan Nəbioğlu V., Kazımoğlu M., Əsgər Ə., Bakı.
6. Bayat F. (2007). “Türk mitoloji sistemi”, II cilt, İstanbul.
7. Basilov V. N. (2008). “Albastı”, Mifı Narodov Mira, Ensklopediya, Elektronnaya izdaniya, Moskva.
8. Bəydili C. (2003). Türk mifoloji sözlüyü. Bakı.
9. Bəydili C. (2007). Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı. Mütərcim..
10. Boratav N. P. (2012). Türk Mitolojisi (Oğuzların - Anadolu, Azerbaycan Ve Türkmenistan Türklerinin Mitolojisi), çev. Recep Özbay, Ankara.
11. Çobanoğlu Ö. (2003). Türk Halk Kültüründe Memoratlar ve Halk İnançları, Ankara.
12. Duran R. (2012). “Türk Mitolojisi”, Mitoloji ve Din, Eskişehir.

13. Inan A. (1987). Makaleler ve İncelemeler, Ankara.
14. Kazımoğlu M. (2006). Xalq gülüşünün poetikası. Bakı
15. Küçük M. A. (2013). Geleneksel Türk Dini'ndeki 'Ana / Dişil Ruhlar'a Mitolojik Açıdan Bakış Iğdır Üniversitesi İlahiyat Fakültesi Dergisi Sayı: 1, Nisan: 105-134.
16. Ögəl B. (2006). Türk mifologiyası.I cild. (Tərcümə edən: Ramiz Əskər). Bakü.
17. Roux J.P. (2011). "Eski Tür k Mitolojisi", çev. Musa Yaşar Sağlam, Ankara
18. Roux J.P. (1994). Türklerin ve Moğolların Eski Dini, çev. Aykut Kazancıgil, İstanbul.

İnternet mənbələr

yasarkalafat.info/?p=1445? gizli iletileri ile değirmen su bağlantili inanmalar

ОТ ОБРАЗА МАТЕРИ ХАЛ ДО ОБРАЗА СТАРУХИ

РЕЗЮМЕ

Одним из широко распространенных в азербайджанским фольклоре является образ старухи все это время формировался на протяжении длительного исторического периода. В статье исследуются мифологические корни образа старухи, что наблюдается в мифологических текстах и архитипах как виде матери Хал. Легенды о матери Хал весьма богат в контексте представлений о рождении мифов. Хал прежде всего злой дух. Она вредит женщинам и детям. Хал делает женщину бесплодной. В результате изысканий в фольклорных материалах нам удалось представить читателям образ старухи Хал.

FROM HAL ANASI TO THE CHARACTER KARI (OLD WOMAN)

SUMMARY

One of the most widespread in the Azerbaijani folklore is the image of an old woman all this time, was formed over a long historical period. The article examines the roots of the mythological image of the old woman, that is observed in the mythological texts and archetypes as a form of Hal anasi. Legends of Hal anasi is very rich in the context of ideas about the myths of the birth. Hal primarily an evil spirit. It harms women and children. Hal makes a woman infertile. As a result of research in folklore materials we were able to provide readers with the image of the old woman's Hal.

Rəyçi: fil.ü.e.d., prof. Muxtar İmanov

İMAN CƏFƏROV
Naxçıvan Dövlət Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
altay1999@yahoo.com

MOLLA NƏSRƏDDİNÇİ SƏNƏTİN DÜNYA ƏDƏBİYYATI İLƏ VƏHDƏTİ PROBLEMİ VƏ "AZƏRBAYCAN MOLLA NƏSRƏDDİNİ" KİTABI

Açar sözlər: *Mirzə Cəlil, Əziz Mirəhmədovun "Azərbaycan Molla Nəsrəddin" kitabı, Naxçıvan, dünya ədəbiyyatı*
Key words: Mirza Jalil, Aziz Mirahmadov, the book of "Azerbaijan`s Mullah Nasraddin", Nakhchivan, world literature
Ключевые слова: *Мирза Джалиль, Азиз Мирахмадов, книга «Азербайджанский мулла Насреддин», Нахчыван, мировая литература*

Azərbaycan mollanəsrəddinşünaslığında xüsusi dəyərə malik tədqiqat əsərlərindən biri görkəmli alim Əziz Mirəhmədovun 1980-ci ildə nəşr etdirdiyi "Azərbaycan Molla Nəsrəddini" monoqrafiyasıdır. "Yazıçı" nəşriyyatı tərəfindən elmi ictimaiyyətə təqdim olunan bu qiymətli əsər haqqında akademik İsa Həbibbəyli yazır: "...Ədəbiyyatşünaslıq elmimizdə ilk dəfə olaraq Cəlil Məmmədquluzadənin jurnalistlik fəaliyyəti müstəqil tədqiqat obyektinə çevrilmişdir. Müəllif haqlı olaraq görkəmli ədibin 1902-1917-ci illərdəki publisistikasının ideya-fəlsəfi əsasları, sosial- etik qayəsi, sənətkarlıq xüsusiyyətləri və təsir dairəsi əsasında yazıçı Mirzə Cəlili həm də XX əsr Azərbaycan jurnalist hərəkatının başçısı kimi ümumiləşdirmişdir." (2, s. 431)

Doğrudur, "Azərbaycan Molla Nəsrəddini" kitabında birbaşa Mirzə Cəlil və dünya ədəbiyyatı probleminin həlli nəzərdə tutulmayıb. Bununla belə, tanınmış ədəbiyyatşünas Əziz Mirəhmədov müxtəlif istiqamətli təhlilləri zamanı Cəlil Məmmədquluzadə sənəti və şəxsiyyətini dünya estetikası ilə bağlayan məqamlardan da söz açmış, prinsipcə eyniistiqamətli gələcək tədqiqatların aparılması üçün təhrikedici müddəalar irəli sürmüşdür.

Xatırladaq ki, C.Məmmədquluzadədən bəhs edən bəzi digər tədqiqat əsərlərində olduğu kimi, Ə.Mirəhmədov da "Azərbaycan Molla Nəsrəddini" monoqrafiyasında ilk növbədə gələcək ədibin hələ yeddi-səkkiz yaşlarında Naxçıvanda mollaxana təhsili mərhələsində dünya, xüsusən də Şərq ədəbiyyatına dair biliklər almasını diqqətə çəkməyi gərəkli bilmişdir. Fikrimizcə, bəli, gələcək mütəfəkkir ədibin Naxçıvanda təhsil aldığı illərdə Sədi "Gülüstan"ına bir ömrə bəs edəcək səviyyədə bağlanması ayrıca vurğulanmalıdır. Mirzə Cəlilin "Gülüstan"a aşiqliyi hətta onunla nəticələnmişdir ki, Sədi Şirazinin bu əsəri nəinki "Molla Nəsrəddin" redaktoru, həmçinin digər mollanəsrəddinçilər tərəfindən müntəzəm

surətdə istinad olunan əsərə çevrilmişdir. Ə.Mirəhmədov da ötəri şəkildə C.Məmmədquluzadə dünyagörüşünə Sədi "Gülüstan"ının ciddi təsir göstərməsindən söz açmışdır.

"Azərbaycan Molla Nəsrəddini" kitabında C.Məmmədquluzadənin Qori Müəllimlər Seminariyasında aldığı təhsilin məzmununa ayrıca diqqət yetirən Ə.Mirəhmədov bu qərara gəlmişdir ki, C.Məmmədquluzadənin dünya ədəbiyyatı ilə əsaslı tanışlığında onun seminariyada oxuduğu əsərlər mühüm rol oynamışdır. Alim öz düşüncələrini belə ümumiləşdirmişdir: "Seminariyada oxuduğu beş il ərzində onun dünyagörüşündə bir sıra yeni, müsbət keyfiyyətlər əmələ gəlib möhkəmləşdi... Dünya ədəbiyyatı ilə ilk əsaslı tanışlıq o zaman başladı. Füzuli, Zakir, Seyid Əzim, Krılov, Puşkin, Lermontov, Qoqol, Tolstoy, Şekspir kimi klassiklərin bir çox əsərlərini oxuyub öyrənmək mümkün oldu." (6, s. 17)

"Azərbaycan Molla Nəsrəddini" kitabının mühüm göstəricilərindən biri ondan ibarətdir ki, C.Məmmədquluzadənin ömür və sənət yolunu müxtəlif mərhələlər üzrə araşdıran Ə.Mirəhmədov bu fikrə gəlmişdir ki, hansı sahədə çalışmasına baxmayaraq Mirzə Cəlil daim dünya ədəbiyyatı ilə ciddi şəkildə maraqlanmış, doğma xalqının inkişafı, tərəqqisi naminə mütəfəkkir yazıçıların ideyalarından gərəyincə faydalanmış, bu sırada Rusiya xalqçılarının fikirlərinə xüsusi önəm vermişdir.

Əziz Mirəhmədov Qori Müəllimlər Seminariyasında təhsilini başa vurduqdan sonra Naxçıvanda müəllim olaraq çalışdığı illərdə də C.Məmmədquluzadənin dünya ədəbiyyatı ilə daha dərindən maraqlanmasına həssaslıqla yanaşmış, o cümlədən Eynəli bəy Sultanovla dostluğunun Mirzə Cəlil üçün xüsusi önəm daşıdığını yazıçının öz sözləri ilə təsdiqləmişdir. Əlbəttə, Cəlil Məmmədquluzadənin naxçıvanlı müasiri Eynəli bəy Sultanovla məsləkdostluğu çağdaş elmi ədəbiyyatlarda dönə-dönə nəzər nöqtəsinə çəkilmişdir. (Bax: 3, s. 3-5; 4, s. 16) Düşünürük ki, Cəlil Məmmədquluzadənin yunan ədəbiyyatı ilə tanışlığında Eynəli bəy Sultanovun birbaşa yunan dilindən oxuduğu əsərlərin mühüm rolu olmuşdur.

Əziz Mirəhmədov "Azərbaycan Molla Nəsrəddini" monoqrafiyasında "Danabaş kəndinin əhvalatları"nın təhlilini məhz Sokratdan (e.ə. 469- 399) gətirilmiş epiqrafla başlamağı zəruri saymış, Sokrata müraciətin əsasında kor-koranə pərəstişin deyil, zülmə qarşı mübarizədən irəli gələn yol və vasitələrin öz zamanına uyğun şəkildə mənimsənilməsinin dayandığını elan etmişdir. Əziz Mirəhmədovun fikrincə, "Danabaş kəndinin əhvalatları"nın müəllifinə qədim yunan filosofu Sokratın fəlsəfəsindən daha çox, həqiqəti suallar və mübahisələr vasitəsi, bir-birinə zidd müddəaların qarşılaşdırılması yolu ilə meydana çıxarmaq metodu gərək olmuşdur. Eyni zamanda görkəmli alim Əziz Mirəhmədov bu qənaətə gəlmişdir ki, dünya ədəbiyyatı, mədəniyyəti və fəlsəfəsi tarixində kimləri xatırlatmasından asılı olmayaraq Cəlil Məmmədquluzadə yaradıcılığı yeni hadisədir. Məhz bu mövqeyini "Azərbaycan Molla Nəsrəddini" monoqrafiyasının

müəllifi belə mənalandırmışdır: "Əhvalatlar"ı yazarkən insaf və vicdan Məmmədquluzadə üçün yalnız Sokratın, yaxud orta əsr Şərq mütəfəkkir-şairləri Sədi, Hafiz, Mahmud Şəbüstəri, Cəlaləddin Rumi və başqalarının ("Əhvalatlar" müəllifi, sözsüz ki, onlardan da xəbərdar idi) çox vaxt əxlaqi aspektdə başa düşdükləri anlayışlar deyildi. "İnsafı zülmə qarşı mübarizə etmək üçün daxili bir amil hesab edən" bütün XIX-XX əsrlər Azərbaycan maarifçiləri kimi, "Əhvalatlar" müəllifi də bu anlayışa yeni, sosial məna verməyə çalışırdı." (6, s. 62)

Əlbəttə, Əziz Mirəhmədovun məqsədi Sokrat və Cəlil Məmmədquluzadə vəhdətini bütün cəhətləri ilə öyrənmək olmadığından alim son dərəcədə yığcam ümumiləşdirmə aparmaqla Cəlil Məmmədquluzadənin sənət dünyasında klassik irs məsələsinə dair gələcəkdə yüzlərlə faktik materiallar əsasında təsdiqlənəcək ilkin nəzəri müddəalar irəli sürərək yazmışdır: "Bizim maarifçilərimiz Qərbi Avropa mədəniyyəti, elmi, texnikası və həyat formaları ilə yanaşı, qoca Şərqin böyük tarixə və cahanşümul ənənələrə malik olan mədəniyyətini, elmi və fəlsəfi fikrini də yüksək qiymətləndirirdilər; bu onların əsas mənəvi qida mənbələrindən biri idi.

Məmmədquluzadə və bir çox başqa maarifçi-demokratlar onu da dərk etməyə bilməzdilər ki, dünya mədəniyyətində, bütün xalqların mədəni irsində həm mütərəqqi cəhətlər, həm də mühafizəkar, lazımsız cəhətlər olur. Odur ki, tərəqqi etmək istəyən hər bir xalq dünya mədəni irsinin ən yaxşı cəhətlərini mənimsəməli, ondan öz milli zəmini və şəraitinin tələblərinə uyğun şəkildə faydalanmalı, ümumdünya mədəni irsini daha da inkişaf etdirib zənginləşdirməlidirlər, əks halda dünya mədəniyyətindən birtərəfli istifadə, təqlidçilik, öz zəminindən və mütərəqqi milli ənənələrdən uzaqlaşmaq halları hər hansı ədəbiyyatı "Anamın kitabı"ndakı gülünc qəhrəmanların kökünə sala bilər." (6, s. 70)

Ümumiyyətlə, C.Məmmədquluzadənin dünya ədəbiyyatına hansı səviyyədə və hansı məqsədlərlə üz tutması Ə.Mirəhmədovu ciddi şəkildə düşündürmüş, mollanəsrəddinşünas alim Mirzə Cəlilin yüzlərlə ayrı-ayrı məqamlarda Şərq-Qərb mütəfəkkir yazarlarının fikirlərindən bəhrələnməsi faktının fərqinə varmış, müxtəlif illərdə Cəlil Məmmədquluzadə əsərlərinin tərtibi zamanı öz şərh və izahlarında həmin fikirlərin kimlərə məxsusluğuna aydınlıq gətirmiş (Bax: 5, s. 706-745), "Molla Nəsrəddin" jurnalı yaradıcısının hansı prinsiplər əsasında dünya ədəbi və fəlsəfi fikrindən faydalanmasını belə açıqlamışdır: "Mədəni irsdən nəyi və necə (götürməli) mənimsəməli?"

Köhnə cəmiyyətin dağılması və yeni cəmiyyətin qurulmasında xalqın işinə yarayacaq hər şeyi! Klassiklərin hər birində bir və ya bir neçə yararlı cəhət daha artıq diqqəti cəlb edirdi. Bu cəhətlər hansılar idi? Məsələn, Nizami, Xaqani, Nəsimi və Şekspirin humanizmi; Xəyyam, Volter və Holbaxın ateizmi; Firdovsinin vətənpərvərlik və qəhrəmanlıq ruhu; Qarvey, Nyuton və Darvinin materialist elmi görüşləri; Sədi və Hafızin müdrik həyat fəlsəfəsi; Füzuli, Emil Zolya, Axundov və Melkum xanın orta əsr feodal ağalığına və müstəmləkə

zülmünə qarşı çevrilən tənqidi; bir sözlə Azərbaycan xalqı, onun müasir həyatı, tərəqqi uğrunda mübarizəsi üçün faydalı ola biləcək qabaqcıl bəşəri ideyalar, sənətkarlıq xüsusiyyətləri...

"Necə götürməli" məsələsini isə Məmmədquluzadə bu cür həll edirdi: müasir dövr üçün əhəmiyyətini itirməmiş mövzu və süjetləri, janr və formaları sənətkarlıqla işləyib yeniləşdirməklə; tərcümə və iqtibaslar, sitat və epiqraflarla; klassik əsərləri Azərbaycan dilində çap edib yaymaqla..." (6, s. 76)

O da var ki, Mirzə Cəlilin digər tədqiqatçıları kimi Əziz Mirəhmədov da belə bir maraqlı nəzəriyyədən irəli getmək, Cəlil Məmmədquluzadə yaradıcılığını əhatə edən ədəbi əlaqələr sistemində Firdovsi, Sədi, Hafız, Şekspir, Emil Zolya sənətinin və digər dünya klassiklərinin hansı səviyyədə təmsil olunduğunu dəqiqləşdirmək niyyətində olmayıb. Bununla belə, Ə.Mirəhmədov "Azərbaycan Molla Nəsrəddini" monoqrafiyasında Mirzə Cəlil yaradıcılığı ilə əlaqəli ədəbi bağlar sistemindən bəhs edərkən İ.Qaspıralının "Tərcüman" qəzetindən söz açmağı gərəkli saymış, bu mövzuda maraqlı mülahizələr irəli sürmüşdür. Doğrudur, "Azərbaycan Molla Nəsrəddini" əsərində İ.Qaspıralıya münasibət birmənalı deyil, yeddi abzası əhatə edən təhlillərin təxminən yarısı "Tərcüman"ın xeyrinədirsə, yarıdan çoxu İ.Qaspıralının əleyhinədir. Aydın görünür ki, Ə.Mirəhmədov "Tərcüman" redaktoru İ.Qaspıralının əleyhinə yazarkən XX əsr sovet ədəbiyyatşünasları üçün mərkəzdən diqtə olunan prinsipləri nəzərə almış, bununla belə, elmi obyektivlik naminə bəzi həqiqətləri etiraf etmək məcburiyyətində qalmışdır. Budur, alim "Tərcüman"ın tənqidindən öncə C.Məmmədquluzadənin ideya etibarilə bu qəzetlə bağlılığını belə dəyərləndirmişdir: "Məmmədquluzadənin jurnalist görüşlərinin inkişafına təsir edən ideya amillərindən danışarkən o zaman Rusiyada, Yaxın və Orta Şərqdə çıxıb Qafqaz müsəlmanları arasında geniş yayılan qəzetlər, xüsusilə İ.Qasprinskinin "Tərcüman"ı (1882-1916) ayrıca qeyd edilməlidir. Çünki Məmmədquluzadə daxil olmaqla yeni dövr Azərbaycan ziyalılarının bu qəzetlə əlaqə və münasibətləri möhkəm olmuş və mübaliğəsiz demək mümkündür ki, "Tərcüman"sız Məmmədquluzadə yaradıcılığının və "Molla Nəsrəddin"in bir sıra məsələlərini layiqincə, elmi şəkildə öyrənmək çətindir." (6, s. 124)

Şübhəsiz ki, "Azərbaycan Molla Nəsrəddini" kitabının nəşri illərində (1980), yəni ədəbiyyatda və ədəbiyyatşünaslıqda sosialist realizminin bütün istiqamətlər üzrə təntənəli surətdə hökm sürdüyü bir dövrdə Rusiya ideologiyasının düşmən elan etdiyi İ.Qaspıralı haqqında həqiqətləri söyləmək mümkün deyildi. Lakin bu gün Ə.Mirəhmədovu minnətdarlıqla xatırlamalıyıq ki, hətta ciddi qadağalara baxmayaraq "Tərcüman"ın Azərbaycan ziyalısına nə qədər doğma olmasından epizodik şəkildə bəhs etmiş, aydınlarımızın bu qəzetə nə qədər önəm verdiklərini də nəzər nöqtəsinə çəkmişdir.

Təəssüf ki, bir sıra ciddi müddəadan sonra Ə.Mirəhmədov Azərbaycan ziyalılarının, o cümlədən Cəlil Məmmədquluzadənin "Tərcüman" qəzetinə

münasibətindən söz açarkən əsl reallığı əks etdirməyən ümumi mülahizələr söyləməklə kifayətlənmiş, "Tərcüman"ın Azərbaycan ziyalılarının gözündən düşməsi fikrini qabarıqlaşdıraraq yazmışdır: "Tərcüman" qəzetini Məmmədquluzadə, Sidqi, Sultanov kimi qabaqcıl Azərbaycan ziyalılarının gözündən salan digər ciddi cəhət onun hələ ilk nömrəsindən öz səhifələrində siyasi itaətkarlıq, "sinfi sülh" ideyaları təbliğ etməsi və sonralar, demək olar, bütün məsələlərdə dini ehkama əsaslanması idi." (6, s. 125)

Şübhəsiz ki, Əziz Mirəhmədovun "Tərcüman"ın Azərbaycan ziyalılarının gözündən düşməsi" fikri ilə razılaşmaq elmi obyektivlikdən uzaq olar. Təkcə bunu söyləmək kifayətdir ki, Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının 30 aprel 1908-ci il tarixli 16-cı sayında "Tərcüman" qəzetinin 25 illiyi ilə əlaqədar "Milli bayram" adlı məqalə çap etdirərək türk-müsəlman dünyasının tərəqqisi naminə İsmayıl bəy Qaspiralının fədakarlıqlarını çox yüksək səviyyədə dəyərləndirmişdir: "Bu aprel ayının onunda möhtərəm "Tərcüman" qəzetinin çıxmağa başlamasının 25-ci ili tamam oldu.

Bir müsəlman qəzetinin faydalı və səmərəli bir yolda 25 il davam etməyi nəinki Rusiyada, bəlkə bütün dünyada əvvəlinci dəfə görülən bəxtiyarlıqlardandır.

Mətbuat dünyasında 25 il qələm çalan böyük yoldaşımız İsmayıl bəy Qasprinski, həqiqətən, bəxtiyardır." (7, s. 124)

Əsas odur ki, Ə.Mirəhmədovun "Azərbaycan Molla Nəsrəddini" kitabında, hətta tənqidi münasibət bildirilsə də, "Tərcüman" mövzusu bir qədər geniş şəkildə gündəmə gətirilmişdir.

Bildiyimiz kimi, C.Məmmədquluzadə "Şərqi-Rus" qəzeti redaksiyasında çalışarkən L.N.Tolstoyun "Zəhmət, ölüm və naxoşluq" adlı hekayə-əfsanəsini Azərbaycan dilinə tərcümə edib əsərin bu mətbu orqan vasitəsilə də oxuculara çatdırılmasına nail olmuşdur. İstər-istəməz mirzəcəlilşünaslar hansı səbəblərdən Cəlil Məmmədquluzadənin məhz "Zəhmət, ölüm və naxoşluq" əsərini tərcümə etməsi haqqında düşünmək məcburiyyətində qalmışlar. (Bax: 1, s. 246) Məhz həmin səbəbləri aydınlaşdırmaq məqsədilə Ə.Mirəhmədov 2 səhifəlik hekayə-əfsanənin az qala cümlə-cümlə təhlilinə ehtiyac duymuş, əsərin müsbət və zəif cəhətlərinə dair maraqlı mülahizələr irəli sürmüşdür. Alim tərcüməçilik fəaliyyətində Mirzə Cəlilin "Zəhmət, ölüm və naxoşluq" əsərinə üz tutmasını iki səbəblə əlaqələndirmiş, bu nəticəyə gəlmişdir ki, "Zəhmət, ölüm və naxoşluq"dakı ideya L.Tolstoyun dünyagörüşü üçün səciyyəvi olduğundan və hekayə-əfsanədə köhnə dünyanın ziddiyyətləri göstərildiyindən C.Məmmədquluzadə bu əsərin azərbaycanlı oxucuya çatdırılmasını məqsədəuyğun saymışdır. Bununla belə, Ə.Mirəhmədovun təhlillərində L.Tolstoy hekayəsinin birtərəfli təhlil olunduğunu görürük. Daha doğrusu, ədəbiyyatşünas alim hekayə-əfsanədə müəllif ideyasının sərlövhəyə çıxarılmasını nəzərə almadan, təbii ki, sosialist cəmiyyətinin fəlsəfəsinə uyğun şəkildə "Zəhmət, ölüm və naxoşluq"un ideyasını ədəbi-elmi ictimaiyyətə belə təqdim edir: "Yer üzündəki

rəzalət və haqsızlıqların əlacı, "xoşbəxtlik nə olduğu" əsərin axırında belə izah olunur: "...bunun əlacı zəhmətdir və bu zəhmətdən nə qüvvətlilər lazımdır qorxub qaçsınlar, nə də zəif üçün bu zəhmət cəbr və zülm olmalıdır", "güclülər" və "zəiflər" gərək "bir-biri ilə yavıq və mehriban" olsunlar!.." (6, s. 140)

Məsələ ondadır ki, "Zəhmət, ölüm və naxoşluq"da insanlığın xilas yolu yalnız zəhmətlə əlaqələndirilmir. Əsərdə belə bir ideya verilmişdir ki, bəşərin xilası hər bir insanın zəhmətdən qorxmamasında, ölümü və naxoşluğu nəzərə alaraq ümumi məhəbbət ideyasında birləşməyindədir.

Ə.Mirəhmədov öz monoqrafiyasında C.Məmmədquluzadənin digər bir tərcümə əsəri olan "Arvad" hekayəsindən bəhs etməyi də lazım bilmiş, bu əsərlə bağlı ədəbi-elmi ictimaiyyəti yeni faktlarla məlumatlandırmağı gərəkli saymışdır. Maraqlıdır ki, "Azərbaycan Molla Nəsrəddini" kitabında "Arvad" hekayəsinin tərcüməsindən bəhs etməyin gərəkliyi ayrıca vurğulanmış, əsərin zəif və müəllifinin qeyri-məşhur olması göstərilmiş, hekayəni çap etdirən "Xanzadə"nin kimliyi dəqiqləşdirilmişdir. Əslində reallıqları söyləməkdən uzaq olmağa çalışsa da, Ə.Mirəhmədovun alim mövqeyi tamamilə görünəndir: "Bu zəif və yarıməfsanəvi əsər ("Arvad" hekayəsi – İ.C.) qadınların cəsurluq və alicənablığı mövzusunda yazılmışdı; heç də tanınmış, istedadlı bir yazıçının əsəri deyildi. Müəllif XIX əsrin axırı, XX əsrin əvvəlində Qafqaz Mətbuat Komitəsində Şərq dilləri senzoru işləyən və "Xanzadə" imzası ilə mətbuatda əsərlər çap etdirən erməni yazıçısı A.Kişmişov idi.

...Görünür, məmur-müəllif "Şərqi-Rus"un əməkdaşı (və sonralar bir müddət müvəqqəti redaktoru) olan Məmmədquluzadənin işlə əlaqədar tez-tez onunla görüşməsindən istifadə edib üzünə salmış, öz dəyərsiz əsərini tərcümə etdirib həmin qəzetdə buraxdıra bilmişdi." (6, s. 142-143)

Düşünürük ki, Ə.Mirəhmədov "Arvad" hekayəsinin qısa məzmununu verməklə bir çox məsələlərə də aydınlıq gətirmiş olardı. Bu yolla "Arvad" hekayəsinin heç də orijinal əsər olmadığı, A.Kişmişov tərəfindən məşhur bir Azərbaycan nağılının müəyyən dəyişikliklərlə rus dilində başqası adına çap etdirilməsi, yəni daha bir erməni plagiatlığı üzə çıxardı.

"Azərbaycan Molla Nəsrəddini" kitabında filoloji fikrimiz üçün mühüm əhəmiyyətə malik məqamlarda biri Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin birlikdə çalışdırdıqları "Qeyrət" nəşriyyatında çapdan çıxmış kitabların təhlil obyektinə çevrilməsidir. Bəlkə də, xüsusi ehtiyac gördüyündən Ə.Mirəhmədov ilk növbədə həmin kitabların əhatə etdikləri sahələr üzrə təsnifatını aparmış, daha sonra "Qeyrət" nəşriyyatına məxsus çap məhsulları ilə Azərbaycan kitab tarixinə qazandırılan müsbət göstəriciləri dəyərləndirmiş, "Qeyrət" nəşriyyatı heyətinin öz səyləri ilə nə kimi yeniliklərə imza atmaları məsələsinə aydınlıq gətirmişdir. Ə.Mirəhmədovun heç bir ayrı-seçkilik aparmadan təqdim etdiyi siyahıya əsasən "Qeyrət" nəşriyyatında çap olunan əsərlərin bir qismi dünya xalqlarına məxsus fəlsəfi-dini, siyasi-iqtisadi və bədii ədəbiyyatlardır. Və

daha əhəmiyyətlisi budur ki, həmin ədəbiyyatlar sırasında Namiq Kamalın "Röya", Mirzə Melkum xanın "Məbdəi-tərəqqi", Firdovsinin "Ata və oğul" ("Şahnamə"dən) əsərləri öz ideya-məzmunlarına görə mollanəsrəddinçiləri daima məşğul etmişdir.

Fikrimizcə, XX əsr Azərbaycan ədəbiyyatı qəflət yuxusundan oyanış, hürriyyətə qovuşma, vətən sevgisi kimi bir çox müqəddəs ideyaların təntənəli surətdə tərənnümü nöqteyi-nəzərindən mənən N.Kamalın "Röya" hekayəsinə borcluluğunu daim etiraf etməlidir. Bu qənaətin təsdiqi üçün N.Kamalın "Röya" əsərini, C.Məmmədquluzadənin "İranda hürriyyət" hekayəsini və Mirzə Ələkbər Sabirin "Nolur şirinməzaq etsə məni həlvayi-hürriyyət" misrası ilə başlayan şeirini ardıcıl oxumaq kifayətdir.

Ə.Mirəhmədovun "Azərbaycan Molla Nəsrəddini" kitabında Ömər Faiq Nemanzadənin "Qeyrət" nəşriyyatındakı fəaliyyətindən bəhs edilərkən türk yazarı Abdulla Cövdətin adının çəkildiyini görürük. Doğrudur, Ö.F.Nemanzadənin xatirələrinə əsaslandığından Ə.Mirəhmədov mollanəsrəddinçi sənətdə müəyyən təsiri görünən Abdulla Cövdət bəy haqqında heç də müsbət təəssürat yaratmır. Bəlkə də, bu səbəbdəndir ki, müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslığında, o cümlədən Şamil Vəliyev "Füyuzat ədəbi məktəbi" kitabında Abdulla Cövdət bəyə dair bir qədər geniş bilgilərlə qarşılaşırıq. (Bax: 8, s. 112-114)

Maraqlıdır ki, Ə.Mirəhmədov "Azərbaycan Molla Nəsrəddini" kitabının "Yaradıcılığında Nəsrəddin surətinin təkamülü. Azərbaycan ədəbiyyatı və mətbuatının Molla Nəsrəddini" bölməsində Mirzə Cəlil – Molla Nəsrəddin vəhdətindən bəhs edərkən haqlı olaraq belə bir elmi mövqedə dayanmışdır ki, C.Məmmədquluzadə yaradıcılığında Molla Nəsrəddin həm bir təxəllüs, həm də tamamilə yeni bir ədəbi surət kimi görünməkdədir və bu görünüşün gerçəkləşməsi prosesində "Molla Nəsrəddin" jurnalının yaradıcısı dünya ədəbiyyatından gərəyincə faydalanmışdır.

Ə.Mirəhmədov sonrakı mülahizələri ilə daha qəti şəkildə təsdiqləyir ki, alim öz dəyərləndirmələrində "dünya ədəbiyyatı" ifadəsini təsadüfən işlətməyib. Görkəmli ədəbiyyatşünas dünya ədəbiyyatı tarixi fonunda sosial-siyasi amillər nəzərə alınmaqla ədəbiyyatda satira və yumora "aşağılayıcı" münasibətin səbəblərinə aydınlıq gətirmiş, bununla belə, bütün tarixi dövrlərdə qüdrətli söz sahiblərinin istedadı ilə ədəbi-estetik gülüşün yaşadıldığı və yeni formalarda təqdim olunması fikrini irəli sürmüşdür. Dünya ədəbiyyatında satiranın Apuley, Rable, Servantes, Zakani, Rumi, Nəfi, Didro, Volter, Monteskyö kimi klassik nümayəndələrini yada salan görkəmli ədəbiyyatşünas yenə də müqayisənin konkretliyini lazım bilmiş, "Danabaş kəndinin əhvalatları" povestinin "Bir yüngülvari müqəddimə" hissəsi ilə Qoqolun "Dikanka yaxınlığındakı xutorda axşamlar" əsərinin "Müqəddimə"si arasında bir doğmalıq görmüşdür.

Mollanəsrəddinşünaslıqda mühüm yer tutan "Azərbaycan Molla Nəsrəddini" kitabında mətbuatımız tarixində ilk satirik karikaturalı dərgi olaraq bütöv bir ədəbi

məktəb və cəbhənin qərargahına çevrilmiş "Molla Nəsrəddin" jurnalının yaranmasını şərtləndirən amillərdən genişliklə bəhs edildiyini görürük. Daha əhəmiyyətlisi isə Ə.Mirəhmədovun bu problemə kompleks şəkildə yanaşması, problemi bütün yön və tərəfləri ilə həll etmək istəməsidir. Çox doğru olaraq ədəbiyyatşünas alim öz elmi şərhlərinin əvvəlində C.Məmmədquluzadənin "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zəmanə özü yaratdı" fikrini yada salmış, "Molla Nəsrəddin"in nəşrə başladığı dövrün əsas göstəricilərini diqqət mərkəzinə çəkməklə bərabər, XX əsrin əvvəllərində Rusiya mətbuatından da ümumi şəkildə söz açmış, Azərbaycan ədəbiyyatında satira və yumorun özünəməxsus ənənələri olduğunu xatırlatmış, satiradan "Əkinçi"qəzetində də istifadə edildiyini faktik materialların təhlili yolu ilə təsdiqləmiş, həmçinin, o zaman Tiflisdə və Rusiyanın digər şəhərlərində fəaliyyət göstərən satirik mətbu orqanların "Molla Nəsrəddin" jurnalı yaradıcılarına təsirini dəyərləndirmişdir. Əlbəttə, bu məsələ ilə bağlı elmi fikirdə uzun müddət mübahisə getmişdir. Həmin mübahisəyə səbəb isə Mirzə Cəlilin məşhur "Xatiratım"ı qələmə alarkən "Molla Nəsrəddin"in yaranmasında təkanverici faktor kimi "Kukureku" jurnalından ayrıca bəhs etməsi olmuşdur. Ə.Mirəhmədov "Molla Nəsrəddin"-"Kukureku" "yaxınlığını" yenidən gündəmə gətirmiş, Mirzə Cəlilin "Xatiratım"da "Kukureku" ilə bağlı yazdıqlarının reallıqdan uzaqlığı fikrini söyləyən Qulam Məmmədlinin təkzibini də yada salmış, problemin həllinə aşağıdakı şəkildə yekun vurmuşdur: "Məsələni həll edib əsl həqiqəti ortaya çıxarmaq üçün Məmmədquluzadənin sözlərinin yalnız "Kukureku"ya deyil, həmçinin onunla təxminən bir vaxtda, Tiflisdə, oxşar bir adla – "Petuşok" adı ilə çıxmış jurnala aid olduğunu deməliyik. Bu jurnalın dördüncü nömrəsinin titul səhifəsində həqiqətən II Nikolay haqqında bir karikatura çap olunmuşdur. Padşah cənnətin qapısı qabağında dayanıb, qapıçı mələikələrə deyir: "Доложите, я – в рай!" Mələikələr cavab verir: "Не туда попали, Ваша Превосходительство, не велено пускать Вас!" Şəklin sağ tərəfində qırmızı qiyafəli qərməzə üzlü şeytan öz balaları ilə birlikdə hökmdara tam əks tərəfi, yəni cəhənnəmi göstərir. Deməli, "Kukureku"dakı xoruz karikaturası ilə "Petuşok"dakı padşah karikaturası Məmmədquluzadənin hafizəsində assosiyasiya yolu ilə birləşmişdir." (6, s. 236)

Göründüyü kimi, Ə.Mirəhmədovun "Azərbaycan Molla Nəsrəddini" kitabında bütünlüklə olmasa da, C.Məmmədquluzadə yaradıcılığının və "Molla Nəsrəddin" ədəbi məktəbinin dünya ədəbiyyatı ilə bağlılığı məsələlərindən bir qədər geniş şəkildə söz açılmışdır. Maraqlıdır ki, alim ötəri olaraq Mirzə Cəlil sənəti ilə əlaqəli özünəqədərki tədqiqatlara da münasibət bildirmiş, həmin tədqiqat əsərlərində müəlliflərin mollanəsrəddinçi ədəbiyyatı əsasən dini xürafat, ətalət, gerilik, ictimai zülm əleyhinə olan bir ədəbiyyat kimi öyrənmələri ilə razılaşmamış, mollanəsrəddinçi təlimə birtərəfli yanaşmanın ciddi nöqsanlarla nəticələndiyini göstərmişdir. Daha təqdirəlayiq hal isə hətta 1980-ci ildə Ə.Mirəhmədovun öz ədəbiyyatşünas həmkarlarını marksist-leninçi metodologiya-

ya əsaslanmaqda günahlandırmasıdır. Əlbəttə, tədqiqatçıları marksist-leninçi metodologiyaya sadiqlikdə töhmətləndirmək XX əsrin 70-80-ci illərində ədəbiyyatşünasdan xüsusi cəsarət tələb edirdi.

"Azərbaycan Molla Nəsrəddini" kitabı deməyə əsas verir ki, Ə.Mirəhmədov mollanəsrəddinçi sənətlə bağlı hər hansı məsələnin aydınlaşdırılmasını zəruri bilibsə, fərqinə varıb ki, həmin məsələ dünya ədəbiyyatından nəinki kənar deyil, əksinə, birbaşa dünya ədəbiyyatı ilə əlaqəlidir. Bu cəhəti nəzərə aldığındandır ki, alim öz təhlillərində fikirlərini həm "Molla Nəsrəddin" jurnalından, həm C.Məmmədquluzadə yaradıcılığından seçdiyi azsaylı faktlarla, həm də dünya ədəbi-estetik fikir tarixində məqamı olan görkəmli şəxsiyyətlərin ciddi müddəaları ilə təsdiqləmək üsuluna üstünlük verib. Maraqlıdır ki, Ə.Mirəhmədov 430 səhifəlik bir kitabda cəmi bir-iki yerdə Sədi Şirazinin adını çəksə də, səhifənin alt yazısında "Molla Nəsrəddin"in ən çox müraciət etdiyi şair Sədi Şirazidir. Bu, xüsusi və dərin tədqiqata layiq bir mövzudur" sözlərini yazmağı da unutmayıb. (6, s. 365) Bütün bunlarla bərabər, görkəmli ədəbiyyatşünas Sədi, Hafiz, S.Ə.Şirvani şeirlərində Mirzə Cəlil tərəfindən müəyyən dəyişikliklər edilməsi yolu ilə onların yeni ədəbi nümunəyə çevirlməsinin estetik mahiyyətinə də aydınlıq gətirərək məsələyə bu cür yekun vurmuşdur: "Əlbəttə, bu, sadəcə üç-beş sözü, təşbehi, yaxud misranı əvəz etmək deyildir. Bu, Belinski demişkən, köhnəni təzə etmək deməkdir ki, böyük tənqidçi bədii yaradıcılıqdakı belə hadisələri düha nişanəsi hesab edirdi. Doğrudan da, klassik əsər üzərində sənətkaranə işi yalnız bədii düha sahibləri görə bilər; əks təqdirdə klassikdən götürülən əsər ancaq korlanıb ləzzətini və gözəlliyini itirər." (6, s. 363)

Düşünürük ki, "Molla Nəsrəddin" ədəbi məktəbi, o cümlədən C.Məmmədquluzadə irsi və dünya ədəbiyyatı probleminin həlli nəzərdə tutulmasa da, həmin problemin elmi-metodoloji cəhətdən düzgün gündəmə gətirilməsi baxımında Ə.Mirəhmədovun "Azərbaycan Molla Nəsrəddini" əsəri çox qiymətli elmi mənbələrdən biridir.

ƏDƏBİYYAT

1. Əziz Şərif. "Molla Nəsrəddin" necə yarandı. Naxçıvan: Əcəmi, 2009
2. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007
3. Həbibbəyli İ. Yeni mərhələ və uğurlu addımlar. Eynəli bəy Sultanov. Hekayələr. Bakı: Elm və təhsil, 2016
4. Maqsudov Э. Eynəli bəy Sultanov: həyatə və yaradəcəlәpə. Bakə: Elm və təhsil, 2016
5. Məmmədquluzadə C. Əsərləri. Azərnəıor, 3 cilddə, II cild. Bakə: 1967
6. Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. Bakə: Yazəzə. 1980
7. Molla Nəsrəddin. 10 cilddə, II cild. Bakə: Azərnəıor, 2002
8. Vəliyev (Kцrpьь) Ю. Fьyuzat ədəbi məktəbi. Bakə: Elm, 1999

IMAN JAFAROV

UNITY PROBLEM OF MULLAHNASRADDINCHI PROFESSION WITH WORLD LITERATURE AND THE BOOK OF "AZERBAIJAN`S MULLAH NASRADDIN"

SUMMARY

The article has been devoted the investigation level of Jalil Mammadguluzada and world literature problem in Aziz Mirahmadov`s "Azerbaijan`s Mullah Nasraddin" monograph. It is noted that in the book the author has been spoken about some highlights which connects Jalil Mammadguluzada`s profession and personality with world aesthetics. According to A.Mirahmadov`s mind the works which Mirza Jalil read during his education years in Nakhchivan and Gori Teacher`s Seminary played an important role in his acquaintance with world literature.

A.Mirahmadov widely investigated Jalil Mammadguluzada`s creative work and showed that Mirza Jalil enough used from world classics` also Sadi`s, Hafiz`s, L.Tolstoy`s cultural heritage in his fighting against oppression. In the book the author also gave information about some changings done by Mirza Jalil in world classics` works, on this way those works became a new literary examples and their aesthetics virtuality also has changed.

ИМАН ДЖАФАРЛИ

ПРОБЛЕМА ЕДИНСТВА «МОЛЛАНАСРЕДДИНЧИ» НА ФОНЕ МИРОВОЙ ЛИТЕРАТУРЫ И КНИГА «МОЛЛА НАСРЕДДИН АЗЕРБАЙДЖАНА»

РЕЗЬЮМЕ

Статья посвящена исследованию Джалила Мамедкулизаде и проблемы мировой литературы в монографии Азиза Мирахметова «Молла Насреддин Азербайджана». А также, в книге отмечается о некоторых аспектах творчества и идентичности Джалила Мамедкулизаде, связанные с эстетикой мира. По словам А.Мирахмедова важную роль в знакомстве с мировой литературой Мирза Джалила сыграли произведения которые он читал в годы учебы в Нахчыване и в Горийской Семинарии Учителей.

А.Мирахмедованализируя творчества Джалила Мамедкулизаде отметил что, Мирза Джалилв борьбе против угнетения пользовался культурным наследием классиков мира, в том числе великих писателей как Сади, Хафиз и Толстой. Мирза Джалил внес некоторые изменения в произведениях мировой классики и создал новые литературные образцы.

Rəyçi: filologiya üzrə elmlər doktoru, prof.Kamran Əliyev

ESMİRA CAVADOVA
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi,
tarix üzrə fəlsəfə doktoru
esmira.cavadova@gmail.com

ÜRƏKDƏN – ÜRƏYƏ YOLLAR GÖRÜNÜR

(Yazıçı – publisist Sona Vəliyevanın "İşığa gedən yol" romanı haqqında düşüncələrim)

Açar sözlər: *H.B.Zərdabi, Sona Vəliyeva, "İşığa gedən yol", Xeyriyyə Cəmiyyəti*
Ключевые слова: *Г.Б.Зардаби, Сона Велиева, «Дорога, ведущая к свету», Благотворительное Общество*
Key words: *H.B.Zardabi, Sona Veliyeva, "The road to the light", Charity Societies*

Görkəmli jurnalist, publisist, naşir, şairə xanım və yazıçı Sona Vəliyevanın Azərbaycan Milli Mətbuat gününə hədiyyə olaraq Bakı, "Zərdabi LTD" MMC nəşriyyatı tərəfindən 2016-cı il, 768 səhifədə çap etdirdiyi "İşığa gedən yol" romanı XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində yaşamış Azərbaycan mətbuatının banisi, millət fədaisi, el atası, cəfakeş insan Həsən bəy Zərdabinin uşaqlıq yaşlarından başlayaraq ömrünün sonuna qədər keçdiyi həyat yolunu əks etdirir. Roman tarixi faktlar əsasında xronoloji ardıcıllığa riayət edilərək böyük ziyalı, maarifçi, təbiətşünas, torpaqşünas, filosof, xalq məişətimizin gözəl bilicisi Həsən bəy Zərdabiyə həsr olunmuş, sadə, bədii dildə qələmə alınan ilk romandır. Roman II hissədən ibarətdir. Birinci hissədə müəllif kiçik Həsənin necə formalaşmasını addım-addım oxucuların göz önünə gətirir. Bu məqamda atalarımızdan bizə gəlib çatan bir deyimi yadıma düşür: "Ot kökü üstə bitər". Odur ki, Məlikovlar ailəsində dünyaya göz açan kiçik Həsən hələ uşaqlıq yaşlarından fərqlənirdi. Babası Rəhim bəyin, atası Səlim bəyin öyüd – nəsihətləri (onlar dövrünün işıqlı dünyagörüşünə malik, elmə, maarifə qiymət verən xeyriyyəçi insanlar olmuşlar), anası Mənzər xanımın verdiyi tərbiyə onu bir ayrı aləmə səsləyirdi. Bir gün Kürün sahillərində tapdığı balıqqulağı Həsəni heyrətə gətirmişdi. O, balıqqulağından sanki əzəmətli, coşqun Kürün səsini eşidirdi. Bu sehirli səsin nə olduğunu soruşanda babasının ona dediyi hikmətli sözlər onun hafizəsində ömürlük qalmışdı: "Əziz balam, eşitdiyin bu səs sənin içinin səsidir, sənin damarlarında axan qanın, alıb-verdiyin nəfəsinin səsidir".

Doğrudan da Həsən böyük ziyalı, təbiətşünas, torpaqşünas alim olanda Kürün şıltaqlığına biganə qalmamışdı. Bu haqda "Kaspi" qəzetinin 1899-cu il 4 iyun 116-cı sayında "Нужда в воде в Восточном Закавказье» adlı məqaləsində ya-

zırdı:

"Nə vaxta qədər Kür çayı bizə doğma deyil, ögey ana olacaqdır. Onu cilovlayıb özümüzə tabe etmək, çöllərimizi bizə lazım olan vaxtda suvarmağa və gübrələnməyə məcbur etmək vaxtı deyildimi?" Həsən bəy sonralar Kür çayında tikiləcək su anbarının harada yaradıla biləcəyinin yerini də göstərmişdir.

Həsən hər zaman babası Rəhim bəyin nəsihətlərinə qulaq asmaqdan doymurdu. Babasının dediyi sözlər onun əqidəsinə, düşüncəsinə təsir edir, səsi qulağından getmirdi: "Həsənim, indi çox balacasan, amma deyəcəklərimi yadında möhkəm saxla! Həyatın boyu səni əhatə edən insanları, yaxınlı-uzaqlı, doğmalı-yadlı hər kəsi dinləməklə və insanlara kömək əli uzatmaqla bərabər, qərar qəbul edəndə hər zaman içindən gələn xeyirxah səsi dinlə və onun ardınca get!" Babasından Həsənə bağışlanan kiçik qılıncın üstündə yazılan: "Tanrıdan sənə ağlının və dilinin qılıncdan iti olmasını diləyirəm" sözləri gələcəkdə Həsənin məsuliyyətini artırırdı.

İlk təhsilini kiçik Həsən kənd mollaxanasında almışdı. Dini təhsilə marağı olmasa belə o bu mədrəsədə təhsil aldığı illərdə ərəb və fars dillərini mükəmməl öyrənmişdi. Babası və atasına elə məntiqli suallar verər və cavabını gözləyərdi ki, hər ikisi və birdə molla bu uşağın düşüncəsinə, ağlına, cəsarətinə heyran olmuşdular. Bu ağıllı uşaq bir dəfə öz gələcək taleyini yuxuda görür. Görür ki, o, doğma Kürün üzəri ilə kəndlərinə doğru uzanan işıqlı bir yol ilə gedir. Yolun o başında məcməyidə iri bir parça boyda bəmbəyaz şanı balı gözə dəyir, yanında isə yanan şam işıq saçırdı. O isə dümaydın göy səmadan ona işıq saçan ən parlaq ulduzları dərib nənəsinin tikdiyi güllü torbaya yığırdı. Ulduzlar çoxaldıqca torba ağırlaşır, ona isə bu ağır yüklə Kürü keçib evlərinə çatmaq çətinləşirdi. Birdən bu ulduzlar torbadan səpələnərək suyun üzərinə düşür. Hər yan işıq saçır, bir gözəllik yaradır. O isə bu gözəlliyə baxa-baxa kənd yoluna çıxmağa çalışırdı. Ona elə gəlirdi ki, bu yolu qət etmək onun üçün çox çətin olacaq. Romanda müəllifin Həsənin taleyi ilə bağlı istifadə etdiyi bu üsul – bu yuxu həyatı boyu onun keçdiyi ömür yolunun mayakı olur.

Həsən kənd mollaxanasındakı tədrisdən razı qalmadığı üçün atası Səlim bəy onu 1852-ci ildə Şamaxıda yenicə açılmış 4 sinifli rus məktəbinə qoyur. Oxumağın, elm öyrənməyin faydasını ona belə başa salır: "Oğlum, baxmayaraq ki, atababadan bizə miras olaraq torpaq sahələri qalmışdır. Torpaq isə mülkdür. Amma o var-dövlət deyil. Əsl var-dövlət atanın övlada verdiyi təhsil, tərbiyədir. Mən səni ətrafındakı insanlarla paylaşan, tükənməyən var-dövlət sahibi etmək istəyirəm. Bu var-dövlət elmdir. Elm, xeyirxahlıq, yaxşı əməl bar verən torpaqdır, əkinçilik kimidir, nə zamansa öz bəhrəsini mütləq verməlidir. Həsən təəccüblə atasından soruşur: - Deyirsən ata, mən əkinçi olacam?

- Yox, sən daha böyük işlər görəcəksən. Sən mənim arzularımın əkinçisi olacaqsan". (Bu kiçik parçada atanın övlada verdiyi nəsihət və tərbiyəsinin bir daha şahidi oluruq).

Mollaxanadan sonra Şamaxıdakı məktəb illəri Həsənin həyatında fərqli izlər qoymuşdu. O, məktəbdə ən çalışqan şagirdə çevrilmişdi. Onun arzusu bu məktəbi bitirib elmin sirlərini öyrənmək üçün daha böyük tədris ocağına daxil olmaq idi.

Bu arzunu Həsən gələcəkdə hansı peşənin sahibi olacağı haqqında yazdığı "Arzularım" adlı inşada belə işıqlandırmışdı: "Mən müəllim olacağam, Zərdabdan Şamaxıya qədər bütün kəndlərdə məktəb açacağam. Var-dövlət içində yaşayan və ya təhsili olan adam, əksəriyyəti kasıb, cahil və savadsız olan bir məmləkətdə xoşbəxt ola bilməz. Odur ki, mən mənə məxsus nə varsa, gələcəkdə təhsilə, məktəbə xərcləməyə söz verirəm". Bu əqidəyə, bu təfəkkürə, bu istedada malik olan uşağın düşüncəsinə heyran qalmamaq olmur. Bu kəlamlar Həsənin gələcəkdə hansı amal uğrunda mübarizə aparacağından xəbər verir. Həsənin inşası Tiflisə, baron Nikolaya göndərilir.

1958-ci il, iyunda Həsən Şamaxıdakı məktəbi böyük müvəffəqiyyətlə bitirir. Qafqaz Təhsil İdarəsinin müdiri baron Aleksandr Pavloviç Nikolayın sərəncamı ilə onu Tiflis gimnaziyasına qəbul edirlər. Bu yerdə romanın müəllifi çox doğru olaraq qeyd edir ki, Şamaxı məktəbində oxuduğu illərdə Həsən yorulmaq bilmədən müxtəlif elm sahələrinə dair çoxlu kitablar oxumuş, bu isə onun tarixi biliklərinin, dünyagörüşünün formalaşmasına ciddi təsir göstərmişdi. Bu baxımdan Həsənin getdiyi yerlərin tarixi haqqında məlumatlı olması, oxucuda şübhə doğurmur. Elə buna görə də romanın müəllifi Sona xanım Həsənin dili ilə onun getdiyi yerlərin tarixi haqqında oxucuya ensiklopedik xarakterli məlumatlar verir. Belə məlumat Şamaxı və onun tarixindən başlayır.

1858-1861-ci illərdə Həsən təhsilini Tiflis gimnaziyasında davam etdirir. Tiflisdə Həsənin atasının dayısı Qafqaz atlı qvardiyasının generalı Nikolay Nikolayeviç (onun əsl adı və soyadı Fərəc bəy Ağayevdir - (1811-1891) ona himayədarlıq edir, onu öz övladı kimi çox istəyir və Tiflisdə yaşayan bütün ziyalılar və dostları ilə tanış edir. Bu tanışlıq Tiflisdə yaşayan Qafqaz canişinin baş dəftərxanasında Şərq dilləri üzrə tərcüməçisi işləyən, ərəb, fars, rus dillərinin tərcüməçisi kimi fəaliyyət göstərən istedadlı dramaturq Mirzə Fətəli Axundovdan (1812-1878) başlayır. Daha sonra dövrünün tanınmış ziyalıları, o cümlədən Şamaxı məktəbinə himayədarlıq edən, kasıb ailələrdən olan istedadlı uşaqları oxudan İsmayıl bəy Qutqaşınlı (1806-1855) və Tiflis Müsəlman məktəbinə müəllim təyin olunan Mirzə Hüseyn Qayıbovla (1852-1930) tanış olur, onlardan isə neçə-neçə rəsm əsərlərinin müəllifi olan Mirzə Qədim İrəvaninin (1825-1875) adını eşidir.

1861-ci ilin iyununda Həsən Tiflis gimnaziyasını gümüş medalla bitirdiyi üçün Moskva Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin Təbiiyyət şöbəsinə imtahansız qəbul olunur. O, Moskva Dövlət Universitetində dövlət hesabına oxuyan, kənddə doğulub boya-başa çatan yeganə müsəlman tələbə idi. Bu hal isə Həsəndən daha məsuliyyətli olmağı tələb edirdi.

Romanda verilən Fərəc bəylə, Həsənin söhbəti çox maraqla oxunur. Belə ki, Moskvaya yola düşməzdən əvvəl Fərəc bəyin ailə qurmaqla bağlı Həsənlə etdiyi

söhbət onun qulaqlarında sırğa kimi qalmış, yaddaşına həkk olunmuşdu. Fərəc bəyin ona dediyi: "Sənin oxuyub elimiz üçün gərəkli bir mütəxəssis olacağına əminəm. Amma gənclik illərində buraxılmış bir səhv, sonra ömrümüz boyu bizi izləyir, həyatımız istəmədiyimiz axarda davam edir (söhbət gələcək ömür-gün yoldaşı seçimindən gedir). Mən həyatımda bir səhv buraxmışam, istəmirəm ki, sən də belə gənclik səhvini təkrarlayasan, səni ələ almaq istəyənlərlə ehtiyatla, ağılla davranmalısan. Mənim məsləhətimi, sözlərimi unutma!" Onu da qeyd etmək yerinə düşər ki, Fərəc bəyin bu etirafı gələcəkdə Həsən bəyə seçim etməkdə həmişə yardımçı olmuşdur.

Moskva universitetinin rəhbəri rektor S. M. Solovyovun (1820-1879) ilk dərs günündə çıxışı Həsənin ürəyincə olmuşdu, çünki professor dəyərli, məzmunlu çıxışını bu sözlərlə bitirmişdi: "Ümidvaram ki, hər biriniz bu böyük təhsil ocağını uğurla başa vurub cəmiyyətimizdə gərəkli mütəxəssislər kimi çalışacaq, öz şəhər və kəndlərinizə geri dönəndə doğma universitetimizi layiqincə təmsil edəcəksiniz. Universitetdə təhsil aldığı illərdə Həsən burada fəaliyyət göstərən bir neçə dərnəklərə üzv yazılır. Məsələn, Aleksey Nikolayeviç Pleşeyevin (1875-1893) (şair, tərcüməçi, ədəbi tənqdçi, pedaqoq) rəhbərlik etdiyi dərnəkdə o, azadlığı tərənnüm edən şeirlərlə, eləcə də fransız utopik sosialistlərinin və maarifçilərinin fikirləri ilə tanış olur. Adlarını eşitdikləri, amma üzünü görmədikləri bu adlı-sanlı adamların hər biri Həsən üçün canlı tarix idi. Onların dilindən deyildiyi "xalq üçün əməli işlər görmək lazımdır" kəlməsi onu düşündürmüşdü. Sonralar Həsən onun ilk məhəbbəti olan rektorun qızı Vera Solovyova ilə tanış olur. Bu yaxın tanışlığın nəticəsində o, tez-tez onlara gedir və Sergey Mixayloviçin icazəsi ilə onların evində olan böyük elmi kitabxanadan istifadə edirdi.

S. Mixayloviç kitabxananın zənginliyi haqqında Həsənə məlumat verərək belə demişdi: "Mənim sənə tövsiyə edəcəyim kitablar illərlə topladığım xəzinənin ən qiymətli nümunələridir. Xeyli və faydalı mütaliədən sən elə xəzinə toplayacaqsan ki, bütün bəylik sərvətin əlindən çıxsa belə, o biliklər sənə həyatın boyu havadar olacaq, dadına çatacaq".

O. Vissarion Qriqoryeviç Belinskinin (1811-1848) Qoqola yazdığı məşhur məktubunu oxuduqca sanki gələcək fəaliyyətinə işıqlı yol axtarırdı. Məktubda xalqın mübarizəsinin, ictimai quruluşun bəlalarını dəf etməyin yolları göstərilirdi və ya "Kolokol" (1857-1861-ci illərdə dərc olunan ilk rus qəzeti) məcmuəsini çap edən Gertsenin (1812-1870) "cəmiyyətdəki nöqsanları məhz mətbu orqanı vasitəsilə çatdırmaq daha yaxşıdır" fikrinə Həsən də bəraət qazandırırdı və ürəyindən keçirdi ki, "kaş mənə mətbəə açmağa, "Kolokol" kimi qəzet dərc etməyə icazə verəydilər", çünki ellikcə mariflənmənin yolu, doğrudan da, mətbuatdır. Həsən rus cəmiyyətindəki inqilabçı-demokratik yazıçıların, ictimai xadimlərin yenilikləri ilə tanış olduqca Azərbaycanda da belə yeniliklərə ələlxüsus elm və təhsil sahələrində ehtiyac olduğunu bilirdi. Həsən eləcə də rus tarixçisi, yazıçısı, şairi 12 cildlik "Rus dövlətinin tarixi" kitabını - Romanovların tarixinə dair (1613) yazan Nikolay

Mixayloviç Karamzinin (1766-1826) kitablarını oxuyaraq onun subyektiv baxışlarına qarşı çıxan tarixçi alim S. M. Solovyovun baxışları ilə və daha neçə-neçə kitablarla tanış olmuşdu. Universitet illəri Həsənin dünyagörüşünün formalaşmasına çox müsbət təsir göstərirdi. O, torpaqşünaslıq, təbiətşünaslıq elminin dərinlikləri ilə yanaşı maarifçilik fəaliyyətinə, təhsil quruculuğuna aid biliklərə də ciddi maraq göstərirdi.

S. M. Solovyov kitabxanasında eləcə də Azərbaycan ədəbiyyatı tarixi haqqında daha çox məlumatlar əldə etmək üçün Şeyx Nizaminin, Şah İsmayıl Xətainin, M. F. Axundovun əsərlərinin olmasını da istəmişdir. Bu istəyi Həsən məmnuniyyətlə yerinə yetirmişdir.

Həsən dərs əlaçısı olmaqla yanaşı fakültənin və universitetin elmi-ictimai həyatında yaxından iştirak edirdi. O, hərtərəfli biliklərə malik bir şəxsiyyət kimi yetişirdi. Bu baxımdan onun Peterburqdakı Ermitaj muzeyi ilə tanışlığı - orada qorunan incəsənət əsərləri, Qərbi Avropa və Şərq incəsənəti, ibtidai mədəniyyət nümunələri, İtaliya intibah dövrünün korifeyləri, XVII – XVIII əsrlərdə Rus incəsənəti nümunələri və s. ilə fikrimizi təsdiq edir. Həsən Moskvada müxtəlif kitabxanalarda, dərnəklərdə, muzeylərdə olmaqla şüurlu surətdə onun ürəyinə girmiş Veradan uzaqlaşmağa çalışırdı. Hər an Fərəc bəyin tale-qismətini göz önünə gətirərək belə həyatı özünə rəva bilmirdi. O, çox doğru olaraq düşünürdü: "Yalnız şəxsi xoşbəxtlik gətirən sevgidən daha böyük ictimai amallar mövcuddur. İndi məni milli amallara və sevgilərə könül vermək taleyi gözləyir". Həsən biləbilə ilk məhəbbətini, sevgisini milli amallara qurban verirdi. O, yaxşı başa düşürdü ki, universiteti bitirdikdən sonra mütləq vətənə dönməli, harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq bütün imkanlardan istifadə edərək xalqı üçün faydalı işlər görməlidir. Elə belə də oldu. 1865-ci ilin iyununda oxuduğu fakültədə bilik və bacarığına görə müəllim və tələbə heyətinin nüfuzunu qazanmış, məzun diplomu ilə yanaşı elmi səpkidə yazdığı diplom işinə görə universitetin elmi şurasının qərarı ilə Həsənə "Təbiətşünaslıq elmləri namizədi" elmi dərəcəsi adı verilmişdir. Eləcə də ona oxuduğu Fizika-riyaziyyat fakültəsində qalıb işləməyi təklif etmişdilərsə də o, bu təklifi qəbul etməmişdi. Özünün dediyi kimi indi mənim xalqım cəhalət girdabında boğulur, elmsiz, təhsilsizdir, məncə xalqım harada mən də orada olmalıyam deyə düşünürdü. Beləliklə, Həsən universiteti bitirib doğma Azərbaycana qayıdır.

Romanı ardıcıl oxuduqca Həsənin Universitet illərində necə formalaşmasını yazıçının əyani olaraq gətirdiyi nümunələrdən aydın görürük. Belə ki, universitetdə oxuduğu illər onun tam formalaşmasına səbəb olur və o, xalqını cəhalətdən qurtarmağın yolları haqqında düşünürdü. Həsən artıq Həsən bəy kimi ziyalılığını, alimliyini xalqın arasında olmağında görür, yeri gəldikcə, imkan düşdükcə bu məzlum xalqa, əlacsız insanlara əl tuturdu, bu bəladan qurtarmağın yeganə yolunu onlara başa salırdı. Bu yol çox tez-tez onun yuxusuna gələn, işıq düşən tərəfə gedən elm, təhsil, maarif yolu idi.

Həsən bəy ilk əmək fəaliyyətinə məhkəmə üzvü kimi Tiflisdə "Mejevaya palata" ("Mərz- torpaq palatası"- E.C) adlanan idarədə işə başlayır. Kəndlilərin hüquqlarını müdafiə edir, onlara lazımi məsləhətlər verir, pulsuz ərizələr yazırdı. Onları başa salırdı ki, başınıza gələn əsas bəlaların səbəbi yazıb-oxuya bilməməyinizdir.

Həsən bəyin işinə belə münasibəti yerli məmurların xoşuna gəlmir, ondan yuxarı dairələrə şikayət edirdilər və çox çəkmir ki, Həsən bəy iş yerini dəyişməli olur.

Romanda daha sonra oxuyuruq ki, 1865-1866-cı illərdə Tiflisdə yaşayarkən Həsən bəy ona ata əvəzi olan Fərəc bəy və Mirzə Fətəli Axundovla sıx əlaqə saxlayır. Tez-tez Mirzənin evində təşkil edilən şeir, sənət məclislərində iştirak edir və burada XIX əsr Azərbaycan şairi və maarifçisi Seyid Əzim Şirvani (1835-1888), Seyid Mir Həmzə Nigari (1805-1885) təxəllüsü ilə tanınan Hacı Mirhəmzə Əfəndi (təriqət şeirinin görkəmli nümayəndələrindən biri), Mirzə Möhsün Nəvvab (şair, rəssam, xəttat, musiqişünas 1883-1918), Kəlbəli Xan Naxçıvanski (1824-1883) (Rus ordusunun general-mayoru olsa da şeiri, sənəti dərindən duyan bir insan) və b. ilə tanış olur.

Mirzə Fətəli məclisdəkilərə Kəlbəli xanın bacısı şairə Qönçə bəyimin yaradıcılığı haqqinda geniş məlumat verir. Məclisdə Şuşadan təşrif buyurmuş Məmo bəy Məmai iştirak edirdi. Ümumiyyətlə, məclisdə iştirak edənlər öz şeirlərini oxuyar, məclisi feyziyab edərdilər.

Romanı oxuduqca məlum olur ki, 1867-ci ildə xalqın savadlanması, elmə, təhsilə yiyələnməsi üçün yollar axtaran Həsən bəy Bakıya qayıdır. Onu Bakı Qəza İdarəsinə işə dəvət etmiºdilər. Çox əfsus ki, bu iº yeri də Həsən bəyin ürəyincə olmur. Burada da məmur özbaşınalığı, xalqın hüquqsuzluğu, savadsızlığı bütün işlərin "aşağı-yuxarı təbəqə" ölçüsündə həlli onu narahat etdiyi kimi, eləcə də rəisini də başqa cürə narahat etmişdi.

Evləri sökülməyə düşən bir qrup sakinlər hansısa mülkədar tərəfindən aldadıldıqları üçün şikayətlə Həsən bəyə müraciət etmişdilər. Onlara sökülən evlərin müqabilində elə az məbləğ təklif etmişdilər ki, ona heç toyuq hini də düşmürdü. Onlar sahibkardan pul almamış evdən çıxmırdılar. Onda sahibkar evlərə od vurdurub sakinləri çölə çıxartmışdı. Bu haqsızlığa dözməyən Həsən bəy Bakı qubernatorundan Moskvaya şikayət ərizəsi yazacağını bildirir. Lakin iş yuxarılara göndərilməmiş həll olunur. Qubernator Həsən bəyi yanına çağırıb şikayətçilərə yüksək qayğı göstərdiyinə görə ona öz təşəkkürünü bildirir və qeyd edir ki, evlərini tərk edənlərin şikayətlərinə yenidən baxılacaq, hamının pulu sakinlərin istədiyi kimi veriləcəkdir. Bunu da sizin xidmətiniz kimi qiymətləndirirəm. Bu gün biz səni Quba qəzasına göndərməyi qərara aldıq. Həsən bəy ona müraciət edən daha bir neçə sakinlərin şikayətlərinin də müsbət həllinə nail olmuşdur. Lakin, gördüyü bu işlər onu qane etmirdi. Həsən bəy çox narahat idi və o, "Allahım, mənim dərdli, əzabkeş millətimin zülm, cəhalət içində boğulduğu bir məqamda

mən necə rahat yaşaya bilərəm? Hara ayaq basıramsa, həmişə insanların müşkülü ilə üzləşirəm, onların özlərindən öncə dərdləri qarşıma çıxır. Mənə həyatda edəcəyim bütün işləri Sən buyurdun, mənim taleyimi, həyat amalımı Sən müəyyən etdin, indi mənə həm də yetərincə güc və iradə ver ki, sona qədər bu yolla gedə bilim. İndi mənim gücüm, ağlım, mənəviyyatım, bir sözlə, hər şeyim özümə deyil, Sənə məxsusdur. Xalqımın, millətimin dərdlərinə çözüm üçün göndərilmişəmsə, mənə bu yolda sona qədər dəstək ol, yetərincə güc və iradə ver, ətrafımın işıqlı, ziyalı adamlarla dolu olmasına, xeyirxah işlərdə onlarla birgə əl-ələ verməyimə şərait yarat, arzum budur ki, kaş bu millətin ana dilində bir qəzeti olaydı, o zaman əhalini elliklə təhsilə, maariflənməyə, oxuyub-yazmağa, savadlanmağa sövq etmək olardı" – deyə ürəyilə danışırdı. Bu anda ata-babalarımıızın "ürəkdən-ürəyə yollar görünür" dediyi zərb-məsəli yadıma düşür. Yazıçı Sona Vəliyeva sanki Həsən bəylə bu yolu birgə gedir, onun ürəyindən, fikrindən keçənləri oxumağı bacarır, hər bir məsələyə onun necə münasibət bəsləməsini hiss edir və onun dilindən danışırdı. Elə bil, Sona xanımla Həsən bəy arasında İlahi qüvvə tərəfindən bir fikir yaxınlığı vardı.

Daha sonra romanda oxuyuruq: Qubaya getməzdən əvvəl Həsən bəy onu görməyə gəlmiş Seyid Əzim Şirvani, Molla Ağa Bixud ("Beytüs-səfa" ədəbi məclisinin yaradıcısı) ilə görüşdü. Seyid Əzim (1835-1888) yeni üsullu məktəbin açılışına izin almaq üçün Bakıya gəlmişdi, həm də "Dərviş karvansarayında Ordubadın ədəbi məclisi olan "Əncüməni şüəra"nın rəhbəri Hacı ağa Fəqirlə (1836-1886), Məhəmmədtağı Sidqiylə (1854-1903) görüşməliydilər. Seyid Əzim Həsən bəyi də karvansaraya dəvət etdi. Həsən bəy karvansarayda dövrünün daha neçə-neçə ziyalıları ilə tanış oldu, onların dilindən şeir və qəzəlləri eşitdi.

Səhəri gün Həsən bəy Seyid Əzimlə Şamaxıya, oradan da özü Zərdaba, daha sonra isə yeni iş yeri olan Qubaya getməliydi.

Həsən bəy yol boyu kəndlilərin öz torpaqlarını necə kor-koranə becərdiklərini bir torpaqşünas alim kimi onlardan səmərəsiz istifadə etdiklərini gördükdə üzünü Seyid Əzimə tutaraq deyir ki, - Ağa, mən bu torpağın sirlərini öyrənməyə illərimi sərf etmişəm. Torpaq insan kimidir, onu həddindən artıq yükləmək olmaz. İki dəfə dalbadal torpağa eyni məhsul əkilsə az bəhrə verər. Halbuki, nə çox əkilməyən dəmyə torpaqlarımız boş qalıb. Əgər torpağa bir il paxlalı bitkilər, o bir il isə taxıl əkilərsə, o bol məhsul verə bilər. Torpaqdan düzgün istifadə etmək qaydalarını kəndlilərə öyrədə bilsək, onların gün-güzəranlarının yaxşılaşdırılmasına, qayğılarının azalmasına kömək edə bilərik.

Seyid Əzim Həsən bəyin böyük amallar uğrunda düşündüklərinin, xalqı üçün böyük işlər görmək istədiyinin şahidi olur. İki gün Həsən bəy Şamaxıda Seyid Əzimin qonağı olur. Ev sahibəsinin qonaqpərvərliyi, Seyidin xalqına olan sonsuz sevgisi, əsl ziyalılığı Həsən bəyin ürəyincə olur, onu hərtərəfli, dəyərli bir ziyalı kimi qiymətləndirirdi. Həsən bəy Seyid Əzimin xahişi ilə onun hazırladığı "Uşaqların baharı" adlı dərsliyi nəzərdən keçirərək ona öz məsləhətlərini verir.

Seyid Əzim ikinci bir dərsliyin planını Həsən bəyə göstərəndə Həsən bəy fərəhlə Seyid Əzimə onun çox faydalı bir işlə məşğul olduğunu, xalqına etdiyi xidmətə görə adının tarixdə qalacağını söyləyir. Səhər yeməyindən sonra Həsən bəy faytonla Zərdaba yola düşür. O, Şamaxıda gimnaziyada oxuduğu illərdən sonra ilk dəfə idi ki, axır çərşənbəni evlərində əzizləri ilə birgə keçirirdi.

Müəllif romanda Azərbaycan xalqının ən sevimli, yadda qalan, nəsillərdən-nəsillərə, əsrlərdən əsrlərədək gəlib çatan "Novruz" bayramı münasibətilə el-obada görülən hazırlıq işlərinin təsvirini verməyi belə unutmamışdı. Bayramda icra olunan adət-ənənələrdən, bütün xalça-palazın günə verildiyini, evdəki yorğan-döşəklərin çırpılıb yenidən dəstələndiyini, gümüşlərin silinərək ağardıldığını, ev-eşiyin təmizlikdən bərq vurduğunu, bayram süfrəsində ən ləziz nemətlərin, cürbəcür şirniyyatların olmasını, yeməklərin şahı olan plovun dəmdə olduğunu, axşam düşəndə bayram tonqalının yandırıldığını, daha sonra "qapı pusdu"larının, "papaq atdı"larının, "sübh sulaşma"larının təsvirini vermişdir. Gəlinlərin, qızların, uşaqların, hətta qulluqçuların belə təzə paltar geyindiklərini yazmışdı. Həsən bəy isə bu əziz gündə belə zəngin adət-ənənələri olan bir xalqın hər kənddə nə zamansa məktəbi olacağını düşünür və əminliklə deyir ki, gün gəlib çatacaq, xalqın neçə-neçə istedadlı oğulları yetişəcək, işıqlı gələcək quracaqlar. Məktəblə bağlı fikrini reallaşdırmaq üçün isə Həsən bəy bilirdi ki, atadan ona qalma nə vardısa ondan mütləq istifadə edəcəkdir.

O, bayramı keçirib səhəri, 1868-ci ilin martında Qubaya yola düşdü.

Həsən bəy Qubada məhkəmə katibi vəzifəsində işə başlayırdı. O, yenə də adəti üzrə şikayətçilərin qayğısına qalır, onlara pulsuz ərizələr yazır, işləri ilə əlaqədar lazımi məsləhətlər verir, düzgün yol göstərirdi. Həsən bəyin gördüyü bu işlər isə məhkəmə sədrinin, eləcə də yerli mülkədarların, bəylərin xoşuna gəlmirdi. Həsən bəy hansı işə baş qoşurdusa o, mütləq bu işdən qalib çixirdi. Həsən bəy məhkəmədəki fəaliyyəti ilə yanaşı, eləcə də bağ-bağça işləri ilə bağlı kəndlilərlə iş aparır, onlara bu işdə məsləhətlər vermək üçün günlər, saatlar ayırırdı. Yerli əhalinin yoxsul təbəqəsi və bir də atası Səlim bəyin dostu olan Muxtar bəy onu çox istəyirdilər. Muxtar bəy hər an onun arxasında durur, onu öz keşikçiləri vasitəsilə qorumağa çalışırdı. Muxtar bəy Həsən bəylə yaxından tanış olduqda onun qarşısında gənc bir oğlanın deyil, el arasında deyildiyi kimi "qanyatıran", ağıllı, məsləhətli bir ağsaqqalın dayandığını hiss edirdi.

Romanı oxuduqca Həsən bəyin işlədiyi müddətdə bir çox çətinliklərlə üzləşdiyinin və bu çətinliklərin müvəffəqiyyətlə aradan qaldırıldığının şahidi oluruq.

Belə ki, Həsən bəyin öz işinə məsuliyyətlə yanaşması, yoxsul, savadsız kəndlilərə kömək etməsi məhkəmə məmurlarının xoşuna gəlmir, onu aradan götürmək üçün ona sui-qəsd təşkil edirlər. Gecə vaxtı yazı masasının arxasında işlədiyi vaxt pəncərədən ona güllə atırlar. Xoşbəxtlikdən güllə Həsən bəyə dəymir. Bu hadisə Həsən bəyi qorxutmasa da, amma nadan adamların şər-böhtanı, xüsusilə namusla bağlı şər-böhtanı onu narahat edirdi. Odur ki, Həsən bəy işdən çıxması

haqqında məhkəmə sədrinə ərizə ilə müraciət edir və dərhal onun ərizəsinə müsbət cavab verilir. Həsən bəy Bakıya qayıdır.

Romanı oxuduqca daha sonra məlum olur ki, Həsən bəy bundan sonrakı taleyini tədrislə bağlamaq qərarına gəlir. Bu məqsədlə o, Bakı Realnı Gimnaziyasının direktoruna ərizə ilə müraciət edir və onunla görüşür. Həsən bəyin dünyagörüşü, Moskva Universitetini qurtarması Gimnaziyanın direktoru milliyyətcə çex olan K. Cermakın xoşuna gəlir və onu işə qəbul edir. Cermakla bağlı deyə bilərik ki, o, Bakıya gələn gündən yerli təhsilin inkişafına dəstək verir, gənc nəslin təlim-tərbiyəsi naminə öz bacarığını əsirgəmirdi. 1869-cu il noyabrın 18-dən Həsən bəyin Bakı Realnı Gimnaziyaya "Təbiət tarixi" fənnini tədris edən müəllim kimi işə qəbul olunması fikrimizi təsdiq edir. Həsən bəy isə bundan sonra arzularının reallaşmasına yol açıldığını düşünür. Həsən bəyin dərs dediyi şagirdlər arasında istedadı ilə seçilən Nəcəflə tanışlığını onları ilk vaxtlar müəllim-şagird münasibətlərindən dostluğa, sonra isə əqidə birliyinə gətirib çıxarır. Həsən bəy Nəcəfi özünün gənc silahdaşı kimi kəşf etmişdi. Min bir zəhmətlə topladığı kitab xəzinəsinin üzünü Nəcəfin və dostlarının üzünə açmışdır. Dərs dediyi tələbələr arasında sonralar istedadı ilə seçilən yazıçı-dramaturq, təbiətşünas, ictimai-xadim Nəcəf bəy Vəzirovla (1854-1926) yanaşı, Əsgər ağa Goranı (1857-1910) (yazıçı, aktyor, teatrşünas, tərcüməçi və jurnalist), Məmmədtağı Əlizadə (1858-1918) (Rusiya I Dövlət Dumasının üzvü, Çar sarayının naziri, Rusiyanın Almaniyadakı səfiri, Hümmət partiyasının yaradıcılarından, "Əkinçi" qəzetinin fəal müxbirlərindən biri), Mixail Aleksandroviç Pavlov (məşhur sovet fizioloqu, akademik) və b. olmuşlar. Həsən bəy tələbələrinə rus təbiətşünasları, onların elmə gətirdikləri yeniliklər haqqında ətraflı məlumat verdiyinə görə bu tələbələrin elmə böyük dəyər verdiklərinin şahidi oluruq və müəllimlərindən eşitdikləri "Elm, təhsil, bilik elə bir sərvətdir ki, onu sənin əlindən heç kim ala bilməz. İndiyəcən bütün qaranlıqlar yalnız elmin saçdığı şölələrlə işıqlanıb, aydınlaşıb" kimi müdrik kəlamlarının mənasını anlayırdılar. Həsən bəy tələbələrinə Qərb və Azərbaycan ədəbiyyatından yazan müəlliflər haqqında məlumat verəndə, Azərbaycanın ilk dramaturqu Mirzə Fətəli Axundov haqqında da ətraflı məlumat vermiş, sonra demişdi ki, imkan düşsə mən sizi bu görkəmli şəxslə tanış edərəm. Allahın izni ilə bu tanışlıq baş tutdu. M. F. Axundov Tiflisdən Bakıya gəlməli oldu. Həsən bəy tələbələrini İçərişəhərin "Şüşəli" karvansara adı ilə məşhur olan mehmanxanasında yer tutmuş M. F. Axundovla tanış etdi. Bu görüş tarixi bir görüş kimi tələbələrin hafizəsində əbədi qaldı. Mirzə Fətəlinin uşaqlara etdiyi tövsiyələri: - "Siz bu gün təhsil yolunu seçmisiniz, gələcəyinizi qurursunuz. Əminəm ki, bir neçə ildən sonra hərəniz bir sahə üzrə ciddi mütəxəssis olacaqsınız, xidmət göstərəcək, məmləkətinizə xeyir verəcəksiniz. Amma harada, hansı sahə üzrə oxumağınızdan asılı olmayaraq, elmi bilikləri yaxşı mənimsəyin, həyat və cəmiyyət üçün gərəkli olan sahələri seçin, o sahədə əsl peşəkar olmağa çalışın. Bir də heç vaxt mənsub olduğunuz milli-mənəvi, əxlaq dəyərlərindən uzaq düşməyin. Dilimizi, milli

mənsubiyyətinizi, dininizi sevin, dəyərləndirin. Milli varlığımızdan uzaq düşsəniz, heç zaman qazandığınız nailiyyətlər bütöv, tam olmayacaq" - onları çox düşündürmüşdü. Mirzənin oxumaq haqqında dediyi fikrinə rəğmən Həsən bəy Mirzə Fətəliyə – həyatda elə hadisələr olur ki, bu hadisələrdə insanlara oxumuş qızlarımız da kömək edə bilərlər – fikrini söyləyir. Məsələn, həkim qızlarımız. Odur ki, kimə deyirəm oğlunu-qızını oxut, deyir hansı pulla, necə? Mən bir xeyriyyə cəmiyyəti yaratmaq istəyirəm ki, imkanı olan kəslərdən pul toplayaraq, imkansız, istedadlı uşaqları bu vəsaitlə oxudaq.

– Çox yaxşı fikirdir, əgər baş tutsa - deyə Mirzə Həsən bəyi alqışlayır.

Xeyriyyə Cəmiyyəti yaratmaq fikri Həsən bəyi rahat buraxmırdı. O, bu məsələ ilə bağlı 1867-1875-ci illərdə Bakı qubernatoru olmuş Rusiya dövlət xadimi Dmitri Semyonoviç Staroselski (1832-1884) və qazi Molla Cavad ağa ilə görüşərək müzakirə etmişdi, qeyd etmişdi ki, Bakıda yerli gürcülərin, ermənilərin, rusların, yəhudilərin və başqalarının yaratdığı xeyriyyə cəmiyyətləri öz hesabına yüzlərlə uşaq oxudurlar. Bizim azərbaycanlıların isə nə ayrıca bir məktəbi, nə də bu məktəblərdə oxuyan imkansız uşaqlara kömək edə biləcək bir cəmiyyətləri var. Biz belə bir xeyriyyə cəmiyyəti yaratmaqla hər il yüzlərlə istedadlı uşaqlarımızı təhsilə cəlb edə bilərik. Odur ki, imkanımız daxilində cəmiyyətin yaradılmasına həm maddi, həm də mənəvi dəstək vermək borcumuzdur.

Həsən bəy "Xeyriyyə Cəmiyyəti" yaratmaq fikri ilə Hacı Zeynalabdin Tağıyevi xəbərdar etmək üçün onunla da görüşmüşdü. O, "Cəmiyyəti-xeyriyyə"nin iki dildə (rus və azərbaycan) yazdığı və 46 maddədən ibarət nizamnaməsini hökumət dairələri tərəfindən təsdiqlənməsinə nail olduqdan sonra cəmiyyətin fəaliyyətini reallaşdırmaq üçün bölgələrə səfərə çıxır.

Bu məqsədlə gimnaziyada dərslər, şagirdlərin imtahanı qurtardıqdan sonra Həsən bəy təşkil edəcəyi "Xeyriyyə Cəmiyyəti"nə pul toplamaq məqsədi ilə (topladığı pulu özü ilə gəzdirməyə ehtiyat etdiyi üçün) bir qaytanlı dəftər düzəldib, notariusda möhürlədib onu özü ilə şəhərbə-şəhər gəzdirir. Həsən bəy ilk səfərini Şamaxıdan başlayır. Daha sonra o, Gəncəyə, Tiflisə, Qazaxa, Naxçıvana, İrəvana və Qarabağa gedəcək, yolunu davam etdirmək üçün Bakıya qayıdıb Qubaya və Dərbəndə də baş çəkəcəkdi. Həsən bəy hansı şəhərə səfər etsəydi onun dostları, ziyalı bəylər onu müşaiyət edir, evlərində qonaq saxlayır və "Xeyriyyə Cəmiyyəti"nin təşkili məqsədilə toplanan yığıncaqlarda iştirak edirdilər. Həsən bəy məclis əhlinə, yerli bəylərə "Xeyriyyə Cəmiyyəti"nin məqsəd və vəzifələri haqqında, sadə sözlə desək imkansız adamların təhsil almaq istəyən uşaqlarını oxutmaq üçün yerli bəylərə, imkanlı adamlara məlumat verdikdən sonra bu xeyirxah işə onları dəstək olmağa çağırır və əlavə olaraq qeyd edirdi ki, Bakıda, digər millətlər bu sahədə neçə illərdir ki, artıq uğurlar qazanmışlar. Həsən bəy dəstək olmaq istəyənlərin adlarını və soyadlarını, pulun qədərini dəftərdə qeyd edərək onlara qol çəkdirir və vəsaitin lazımi ünvana göndərilməsini onlara tapşırırdı.

Yazıçı romanda Həsən bəyin dilindən onun gəzdiyi hər bir şəhər, onun tarixi, təbiətinin gözəlliyi, əhalisinin məşğuliyyəti, maddi abidələri və tanınmış şəxsiyyətləri haqqında oxucuya maraqlı məlumatlar verirdi.

Yolüstü Həsən bəy Şamaxıdan evlərinə, Zərdaba bir günlük döndü. Həsən bəyin gəlişi hamının sevincinə səbəb olmuşdu. O, evə dönməsinin məqsədini bildirdikdə qardaşları birinci olaraq Kürqırağı taxıl zəmilərinin gəlirinin bir hissəsini elə hər üçünün adından bu cəmiyyətin hesabına keçirəcəklərini vəd etdilər.

Romanda Həsən bəyin qonaq olduğu evlərdə açılan süfrələrin zənginliyi, Azərbaycan xalqının qonaqpərvərliyi, zəngin süfrə mədəniyyətinə malik olması gözəl təsvir olunmuşdur və eləcə də Həsən bəyin Azərbaycan uşaqlarının maarifləmməsi üçün çəkdiyi əziyyətini qiymətləndirən Fərəc bəyin xanımı Mariya Fyodorovnanın dilindən eşitdiyimiz sözlər: "Bu, vallah, əsl qəhrəmandır. Kim olsa, atadan-babadan qalan mülkdən, mirasdan, aldığı gözəl təhsildən bəhrələnərək həyatını qurub gözəl də yaşayar. Amma bu, qapı-qapı düşüb millətin təhsil almasına, savadlanmasına çalışır. Bu istidə, evini-eşiyini qoyub uzaq yola çıxıb, heç kimin etmək istəmədiyi yüklərin altına çiynini tək verib, girib bütün ağırlığın altına" – onu deməyə haqq verir ki, bu cəfakeş insan şüurlu surətdə "Xeyriyyə Cəmiyyəti" yaratmaq məqsədi ilə min-bir əzaba qatlaşaraq bu yolu getmişdir.

Bakıya qayıdan Həsən bəy köhnə dost kimi Bakı qubernatoru D. S. Staroselski ilə görüşmüş, ona səfərləri haqqında məlumat verdi və qeyd etmişdir ki, bu qədər gəzdiyi yerlərdən hələ ki, toplanan məbləğ 1600 rubl olmuşdur. Vəd olunansa, 20 000-ə yaxındır. Çox imkanlıların, elmdən, təhsildən, maarifdən uzaq olanların qorxduğu məsələ kasıb uşaqlarının oxuyub onların övladları ilə eyni səviyyədə davranması təhlükəsi idi. D. S. Staroselski Həsən bəyin söylədiyi fikirlərin ürəkaçan olmadığını görüb söyləyir ki, görünür, bu məsələ ilə bağlı Bakıdakı neft milyonçularına, sahibkarlara üz tutmaq lazımdır. Onları başa salmaq, bəzən də məcbur etmək lazımdır ki, bu torpağın sərvətinin cüzi bir hissəsini yerli əhalinin təhsil almasına sərf etsinlər. Bu təklif ağlabatan olsa da, hələlik ona məhəl qoyanlar yox idi. Ona görə də bu işə görə Həsən bəy çox narahat idi. O, düşünürdü ki, yardım davamlı olmasa, görmək istədiyimiz işlər baş tutmasa, verilən sözlər tutulmasa, göndərilən pullar daimi olmasa, bizim üçün çox çətin olacaq. Romanda müəllif yazır ki, D.S. Staroselski Həsən bəyin ürəyini açmaq üçün - "Həsən bəy, sən bilirsən ki, mən Bakını çox sevirəm, onun inkişafı, təhsil sahəsi üçün hər şey etməyə hazıram. Bakıda çalışdığım müddət ərzində hər il sizin "Xeyriyyə Cəmiyyəti"nə qubernatorluqdan 1000 rubl keçirəcəm" demişdi. Bu sözlər Həsən bəyi təsirləndirmişdi.

1871-1872-ci illərdə "Cəmiyyəti-Xeyriyyə" fəaliyyət göstərməyə başladı. 1871-ci ildə bütün bölgələrdən olmasa da Quba və Dərbənddən, Naxçıvan və İrəvandan göndərilən pullar hesaba oturmuşdu. Cəmiyyət hesabına 8 nəfərin oxudulması nəzərdə tutulurdu. Çox əfsus ki, vəd olunmuş pullar cəmiyyətə mütəmadi olaraq göndərilmədiyinə görə Həsən bəy özünün dediyi kimi "bu şagirdləri gim-

naziyaya qoyub oxutdum. O biri il heç kəsdən pul gəlmədiyinə görə uşaqları məcburən evlərinə qaytardım. Çünki zakona görə hansı cəmiyyəti-xeyriyyə iki il hesab göstərməsə ki, nə qədər mədaxil və məxarici var, gərək bağlansın".

Daha sonra romanda məlumat verilir ki, 1872-ci il Həsən bəyin həyatında ən əlamətdar bir il kimi də qaldı. Həsən bəy "Bakinskiy listok" qəzetində dərc olunan "Müqəddəs Nina" qızlar gimnaziyasının siyahısında Hənifə Abayeva adlı bir müsəlman qızının adına, şəklinə rast gəlir, ilk baxışdan ona vurulur və düşünür: "Mənə həyatda apardığım mübarizə və savaşlara tablaşacaq belə bir güclü qız gərəkdi. Bu qız mənim Tanrı payımdır". Onlar elə Tiflisdə evlənirlər.

Romanın ikinci hissəsi "İşığa doğru" adlanır. Bu hissədə yazıçı 1873-cü ildə Həsən bəyin rəhbərliyi və təşəbbüsü ilə Bakı Realnı Gimnaziyasının tələbələri tərəfindən M. F. Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsərinin tamaşaya qoyulması və bununla da Azərbaycan milli teatrının bünövrəsinin yaradılması ilə əlaqədar baş vermiş əlamətdar bir hadisə haqqında xəbər verir.

"Cəmiyyəti-Xeyriyyə" bağlandıqdan sonra zülmət içində yaşayan Azərbaycan xalqını işıqlı yola çıxartmaq üçün Həsən bəy çox düşünür və belə qərara gəlir ki, mən ana dilində bir qəzet çıxartmalıyam ki, bu qəzet hamını qəflət yuxusundan oyatsın. Çünki, yalnız bu yol ilə xalqı maarifləndirmək mümkündür. Amma bu yol çox çətin bir yoldur. Buna hazırlaşmaq tələb olunur. Həsən bəy bu işləri həyata keçirmək üçün çox qapılar döyür və nəhayət D. S. Staroselskinin köməyi ilə maddi və mənəvi çətinliklərə tab gətirərək, 1875-ci il iyul ayının 22-də təsisçisi, tərtibiçisi, korrektoru, çapçısı və redaktoru özü olmaqla, kiçik formatla, az tirajla, həftədə iki dəfə çıxmaqla, ilk dəfə olaraq ana dilində "Əkinçi" adlı qəzet çıxardır və bununla da Azərbaycan milli mətbuatının əsasını qoymuş olur. Qəzetin ətrafına dövrünün tanınmış ziyalılarından M. F. Axundov, N. B. Vəzirov, Əsgər ağa Adıgözəlzadə, Mirzə Həsən Əlqədari, Məmmədtağı Əlizadə, Ələkbər Heydəri və başqaları toplaşmışdılar. Başda Həsən bəy Zərdabi olmaqla adları çəkilən ziyalılar qəzetin xalqın gözünün açılmasında, dünyabaxışında, savada, təhsilə yiyələnməsində müsbət rol oynayacağına şübhə etmirdilər.

1875-1877-ci illərdə "Əkinçi"nin cəmi 56 sayı çap olunmuşdur. Qəzetdə üstüörtülü dövlət əleyhinə gedən siyasi səpkidə yazılan məqalələrə görə 1877-ci il sentyabrın 29-da "Əkinçi"nin son sayı çıxmışdı. Lakin, Həsən bəy əmin idi ki, "Əkinçi"nin səpdiyi ideya toxumları gec-tez onun yolunun davamçısı kimi yeni nəşrlərin yaranmasına səbəb olacaqdır. Hakim dairələr tərəfindən Həsən bəyin Realnı Gimnaziyada qalıb dərs deməsi, gənclərlə ünsiyyətdə olması təhlükə kimi qiymətləndirildiyinə görə onu təqib etməyə başlayırlar və Həsən bəy öz ərizəsi ilə işdən çıxıb ailəsi ilə birlikdə 1880-ci ildə öz kəndlərinə - Zərdaba köçür.

Romanda Həsən bəyin kənddə yaşadığı dövrdə də yerli əhaliyə - kəndlilərə kömək etməsi, məsləhətlər verməsi, pulsuz ərizələr yazması, torpaqdan yüksək məhsul götürmək üçün, ona qulluğun edilməsi yollarını öyrətməsi, eləcə də onun "Kaspi", "Qafqaz", "Novoye obozreniye", "Obzor", "Bakinskiy Listok", "Dəbis-

tan" və s. dövri nəşrlərlə əməkdaşlıq etməsi haqqında məlumatlar verilmişdir. Yazıçı əsərdə Zərdabda Məlikovlar ailəsinin həyat tərzini, Novruz bayramı münasibətilə evlərində aşıq gecəsinin keçirilməsini, bu münasibətlə onlara yığışan adlı-sanlı adamlarla Həsən bəyin ünsiyyətini, 1893-cü ildə keçirilən "Tərcüman" qəzetinin yubileyi, Əlimərdan bəy Topçubaşovla qızı Pərisoltanın ailə qurması və s. məlumatlarla da oxucunu tanış etmişdir.

1896-cı ildə Həsən bəy Zərdabi ailəsi ilə birlikdə Bakıya qayıdır. "Kaspi" qəzetinin əməkdaşı kimi fəaliyyətə başlayır. 1897-1907-ci illərdə isə Bakı Şəhər Dumasının üzvü kimi ömrünün sonunadək bu işdə çalışır.

Romanda Həsən bəyin 1876-cı ildə İran şahzadəsi Fərhad Mirzə Qacarla (1818-1888), 1877-ci ildə Bakıya gələn fransız jurnalisti, 1897-ci ildə isə A. M. Qorki və F. S. Şalyapin (1837-1901) ilə görüşləri çox maraqla oxunur.

1901-ci ildə təsisçisi və hamisi H. Z. Tağıyev olmaqla H. B. Zərdabi Bakı – rus – tarar (müsəlman – E. C.) qız məktəbinin nizamnaməsini tərtib etmiş, məktəb avadanlığının alınmasına yardım etmiş, başqa yerlərdən Bakıya gələn, məktəbin açılışını gözləyən şagirdlərə öz evində yer vermişdir. 1901-ci il oktyabrın 7-də məktəbin Hamilər Şurasına üzv seçilmişdir.

Dumanın fəal üzvü kimi H. B. Zərdabi daim xalqın mənafeyini müdafiə edərək Dumanın iclaslarında xəstəxanaların, məktəblərin, kitabxanaların, uşaq evlərinin (yetimxanaların), qocalar evlərinin, uşaq bağçalarının açılışına və təmirinə ayrılan büdcənin kifayət qədər olmasına çalışırdı.

Romanı oxuduqca xalqını ürəkdən sevən bu cəfakeş insanın ömrünün sonunadək müxtəlif tədbirlərdə yaxından iştirak etdiyinin şahidi oluruq. Məsələn, o, 1902-ci ildə İran şahı Müzəffər şahın Bakıda olarkən Qızlar Gimnaziyasında görüşünün keçirilməsində, elə bu ildəcə həyat yoldaşı Hənifə xanımla Şamaxı zəlzələsində zərər çəkmiş Şamaxılılara yardım edən Bakı Komitəsinin üzvləri ilə, 1905-1906-cı illərdə Bakıda baş vermiş böhranlı günlərdə də yerli camaatla birgə olmuşdur..

Romanda eləcə də sevindirici hal kimi qəbul edilən Həsən bəyin "Həyat" qəzetinin 1905-ci ildə nəşrə başlaması münasibətilə təşkil olunmuş tədbirdə olması, Bakıda 1906-cı il avqustun 15-də keçirilən Azərbaycan Müəllimlərinin I Qurultayında iştirakı və qurultaya sədrlik etməsi və s. haqqında oxuculara ətraflı məlumat verilməsi onu deməyə əsas verir ki, mükəmməl qələm sahibi olan Sona xanım Vəliyeva Həsən bəy Zərdabinin keçdiyi ömür yolunu diqqətlə tədqiq edib öyrənmiş və onun haqqında iri həcmli, çox məlumatlı, ensiklopedik xarakterli bir roman yazmağa nail olmuşdur.

1907-ci il noyabr ayının 28-də Həsən bəy Zərdabi Bakıda vəfat etmişdir. O, ölüm yatağında olarkən belə xalqını düşünmüş və vəsiyyət olaraq belə demişdi: "Sizdən xahiş edirəm: təntənəli dəfn mərasimi düzəltməyin, məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar arasında savad yayan cəmiyyətə verin. Bu mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı

olar!”.

Onu da qeyd etmək yerinə düşər ki, Bakıda bu vaxta qədər H. B. Zərdabinin dəfn mərasimi kimi ümumxalq matəmi görünməmişdi. Bu dəfn mərasimi ümumxalq birliyinin nümayişinə çevrilmişdi. Bakıda yaşayan bütün millətlərin nümayəndələri matəmdə iştirak etmişdilər.

H. B. Zərdabinin həyat və yaradıcılığına həsr edilən romanın irihəcmli olmasına baxmayaraq çox oxunaqlıdır. Romanda hadisələr bir-birini əvəz edərək Həsən bəyin fəaliyyətini tam işıqlandırmışdır. Burada Həsən bəyin xalqı üçün gördüyü təmənnasız işləri sadalayıb qurtarmaq olmur. Odur ki, məqalədə romanda verilən bəzi hadisələri işıqlandıraraq Həsən bəyin xalqının maariflənməsi, hüquqlarının müdafiə olunması yolunda gördüyü işləri, çəkdiyi zəhməti oxucuların diqqətinə çatdırmışıq. Əsərdə Zərdabinin valideynlərinin, ömür-gün yoldaşı, silahdaşı, məsləkdaşı, Hənifə xanımın, övladlarının, qardaşlarının, Əlimərdan bəy Topçubaşovun obrazları xüsusi ustalıqla işlənib oxuculara təqdim olunmuşdur.

Nəticə olaraq deyə bilərik ki, görkəmli jurnalist-publisis, yazıçı, Ali Media Mükafatı Laureatı Sona xanım Vəliyeva H. B. Zərdabinin ömür yolunu incəliklərinədək işıqlandıran “İşığa gedən yol” romanı ilə xalqını ürəkdən sevən və bütün şüurlu həyatını onun maariflənməsinə həsr edən bu cəfakeş insana qranitdən elə bir heykəl yaratmışdır ki, Azərbaycan xalqı yaşadıqca o yaşayacaq və təbliğ olunacaqdır. Romanda deyildiyi kimi, çünki Həsən bəy tək Azərbaycanda deyil, bütün müsəlmanların, türkdilli xalqların, Rusiyada yaşayan mütərəqqi fikirli ziyalıların ürəyində əbədi yaşayacaqdır.

ƏDƏBİYYAT

1. Vəliyeva Sona. İşığa gedən yol. Roman. Redaktor: Fərid Hüseyn. – Bakı: “Zərdabi LTD” MMC, 2016. – 768s.
2. Həsən bəy Zərdabi (Məlikov). Elmi-köməkçi biblioqrafik göstərici (1842-1907). Tərtibçi və ön sözün müəllifi: Esmira Cavadova, tarix üzrə fəlsəfə doktoru, Elmi məsləhətçi: Teymur Kərimli, akademik, Redaktor: Aybəniz Əliyeva – Kəngərli, filologiya üzrə elmlər doktoru. – Bakı: “Elm və təhsil”, 2016, 410s.

ЭСМИРА ДЖАВАДОВА

ОТ СЕРДЦА К СЕРДЦУ ВИДНЫ ДОРОГИ

(Размышления о романе «Дорога, ведущая к свету»)

РЕЗЮМЕ

В статье представлены впечатления и размышления о жизненном пути Гасан бека Зардаби, освещенном в романе писателя-публициста, доктора философии по филологии, лауреата Высшей Медиа-Награды Соны Велиевой «Дорога, ведущая к свету».

Впервые на основе реальных исторических фактов жизнь и творчество основоположника национальной печати Азербайджана, патриота народа Гасан бека Зардаби, его безвозмездная служба народу на пути науки, образования и просвещения представлена автором вниманию читателей в виде объемного романа.

Esmira Javadova

Leading scientific researcher of The Institute of Manuscripts named after Muhammad Fizuli NAC of Azerbaijan, PhD on history

FROM HEART TO HEART THE ROADS ARE SEEN

(Reflections on the novel “The road to the light”)

SUMMARY

The article presents impressions and reflections about the life of Hasan bey Zardabi, lit in the novel "The road to the light" by Sona Veliyeva, writer-publicist, PhD in philology, laureate of the Highest Media Award.

For the first time, based on real historical facts the life and creation of the founder of national press of Azerbaijan, national patriot - Hasan bey Zardabi, his gratuitous service to the people in the way of science, education and enlightment was presented to the attention of readers by the author in the form of massive novel.

GÜNAY ƏFƏNDİYEVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti

AZƏRBAYCAN FRAZEOLOGİYASINDA QANADLI SÖZLƏRİN TƏDQİQ TARİXİ

***Açar sözlər**: frazeologiya, müddəa, linqvistik termin, poetik obraz, frazeoloji vahid.*
***Key words**: phraseology, principle, linguistic term, poetic image, phraseological unit*
***Ключевые слова:** фразеологии, положения, лингвистический термин, поэтический образ, фразеологические единицы*

Azərbaycan dilçiliyində frazeologiyanın tədqiqinə 50-ci illərdə başlanılmışdır. Məsələn, 1950-ci ilə kimi həmin məsələdən bəhs edən heç bir əsərə təsadüf etmirik. Professor M.Hüseynzadə bu sahədə ilk təşəbbüs göstərən dilçilərdən biri olmuşdur. O, 1954-cü ildə nəşr etdirdiyi "Müasir Azərbaycan dili" kitabında "Frazeologiya" adı altında xüsusi bölməyə yer ayırmışdır. Həmin bölmədə atalar sözləri, məsəllər, hikmətli sözlər, idiomatik ifadələr, frazeoloji birləşmə hesab edilən, iki və daha çox sözün birləşməsindən əmələ gəlib bir məfhum kimi dərk olunması, üzvlənə bilməyən cümlə şəklində işlənməsi, komponentlərin məcazi məna kəsb etməsi, idiomatik ifadələrin mənbəyi və sair barədə müəyyən məlumat verilmişdir (1).

Ə.Orucov "Azərbaycan dilinin filoloji izahlı lüğətinin nəzəri əsasları" adlı doktorluq dissertasiyasında (2) frazeoloji vahidlərin də səciyyəvi cəhətlərini izah etmiş, yeni bölgüsünü vermişdir. Onun fikrincə, frazeoloji vahidlər aşağıdakılardır:

İdiomlar
Atalar sözləri
Məsəllər
Peşəkarlığa məxsus ifadələr
Antik ədəbiyyat və əsatiri ifadələr
Aforizmlər
Elmi məfhumlara aid sabit ifadələr və sair.

Ə.Orucov öz kitabında yazır ki, "dildə olan sabit söz birləşmələrinin hamısını frazeologiya kimi götürmüş, əvvəlki bölgüsünü bir qədər dəyişdirmişdir" (2). Leksikoqrafik aspektdə yazılmış kitablar da o cəhətdən maraqlıdır. Elə bu əsərlərdən biri olan M.M.Paşayevanın namizədlik dissertasiyası da nəzərimizi cəlb edir.

Məlumdur ki, bir dilə xas olan bəzi frazeoloji vahidləri başqa dilə eyni ilə tərcümə etmək çox çətindir. Bu çətinliyin qarşısını ala bilən yollar axtarıb tapmaq

leksikoqrafiyanın vacib məsələlərindəndir. M.Paşayeva rus dili frazeoloji vahidlərinin Azərbaycan dilinə tərcüməsi prinsiplərini namizədlik dissertasiyasında nəzəri və əməli cəhətdən düzgün əsaslandırmış və maraqlı fikirlər söyləmişdir.

Son illərdə buraxılan frazeoloji lüğətlər də leksikoqrafiyanın nailiyyətlərindən hesab edilməlidir. Buna azərbaycanca və ingiliscə, rusca-azərbaycanca müxtəsər frazeoloji lüğətləri misal göstərmək olar. İlk təşəbbüs kimi həmin lüğətlərin əməli əhəmiyyəti böyükdür. Daha mükəmməl frazeoloji lüğətlər buraxmaq üçün bunlar zəmin yaradır. H.Bayramovun apardığı tədqiqat işinin bir hissəsi "Sabit söz birləşmələri", "Некоторые вопросы Азербайджанской фразеологии", "Azərbaycan və türk dillərindəki feli sabit birləşmələrin müqayisəli tədqiqinin bəzi nəticələri" (4) adı altında dərc olunmuşdur. O, belə qənaətə gəlmişdir ki, sərbəst söz birləşmələrindən fərqli olaraq sabit söz birləşmələri dildə daşlaşmış lüğəvi vahidlərdir.

H.Bayramov akademik V.V.Vinoqradovun təsnifi əsasında Azərbaycan dilçiliyində sabit söz birləşmələrinin ilk dəfə semantik bölgüsünü vermişdir. Özünün "Некоторые вопросы Азербайджанской фразеологии" adlı məqalədə isə əsasən frazeoloji vahidlərin əmələ gəlmə yollarından danışmışdır. Feli sabit birləşmələrin başqa türk dilləri ilə müqayisəli tədqiqi də maraqlıdır.

Azərbaycan dili frazeoloji vahidlərinin məna növlərindən A.Qurbanov da bəhs etmişdir. O, frazeoloji vahidləri öz çoxmənalı, sinonim, antonim adı altında qruplaşdırmış, konkret misallar vermişdir. A.Qurbanov frazeoloji ifadələrə "atalar sözləri, məsəllər, yazıçıların yaratdığı məsəlvari ifadələr, aforizmlər, həmçinin bəzi rəvayətli ifadələr ştamp və klişe adlanan ifadələr, ədəbi sitatlar və s." daxil edir. Bir qədər sonra isə deyir: "Frazeoloji ifadələr cərgəsində: Bişmiş toyuğun gülməyi gəlir. Bunu sən dedin, mən demədim. Qoyun dərisinə girmiş qurd. Dəvə nalbəndə baxan kimi baxır. Dəvəsi ölmüş ərəb. Əli papağını Vəli başına, Vəli papağını Əli başına qoymaq. Yerin altında tapmaq. Külək belə əssə heç nə. Göyün yeddi qatına çıxmaq. Ovçunun içini iyləmək kimi rəvayətləri, ifadələri də xüsusi yer tutur. Bu ifadələr də öz xüsusiyyətinə görə yuxarıda izah olunan qrupa daxil edilməyə imkan verir" (5, 369)

Bizə elə gəlir ki, müqayisə tərkibləri məsəllərlə bir qrupa daxil etmək düzgün deyil. Bir qrupa tamamilə fərqli təbiətli dil və nitq daxil edilir.

Frazeoloji birləşmələrin analitik səciyyə daşıması V.V.Vinoqradovun göstərdiyi kimi onları frazeologiyaya daxil etməyə imkan verir.

H.Bayramov yazır: "Bizcə, yaradıcılıq üsulu, üslubi məsələlərlə əlaqədar olaraq bu qəbildən olan ifadələrin "frazeologiya", deyil, daşıdıqları xüsusiyyətlərlə əlaqədar olaraq özlərinə məxsus adlarla adlandırılması daha məqsədə müvafiqdir" (4, 52)

Deməli müəllif aforizmləri frazeoloji vahid deyil, nitq vahidi hesab edir. Yadda qalan kiminsə deyimi, fikri nitq vahidi hesab olunur və haqlı olaraq müəllif

eyni meyarı atalar sözlərinə də şamil edir: "Ümumiyyətlə, atalar sözü və məsəllərin dilin frazeologiyasının tərkib hissəsi hesab edilməsinin heç bir elmi əsası yoxdur" (5, 44).

Müəllifin fikrinə görə, atalar sözləri və məsəllərin bir qismi Azərbaycan dili frazeologiyasının mənbələrindən biri hesab oluna bilər. Bu da o deməkdir ki, atalar sözlərinin fraqmentləri frazeoloji vahid kimi dil vahidinə çevrilə bilər.

Ayrı-ayrı dialektlərimizdə işlədilən frazeoloji vahidləri tədqiq etmək sahəsində də müəyyən işlər görülmüşdür. M.İslamov "Frazeoloji birləşmələr" adlı məqaləsini Nuxa dialekti materialları əsasında yazmışdır (6). Burada Nuxa dialektində işlədilən idiom, atalar sözləri, xalq məsəlləri bir neçə dialektlərimizin frazeoloji materialları ilə müqayisəli şəkildə təhlil olunmuşdur. Lakin bu edilən ilk təşəbbüslərdən biridir.

Frazeologiyanın üslubi imkanları tədqiq obyekti seçilmişdir. Bu sahədə aparılmış tədqiqat işlərini üç qismə ayırmaq olar:

a) professor Ə.Dəmirçizadə "Azərbaycan dilinin üslubiyyatı" kitabında (7) "İdiomatik vahidlər adı altında frazeoloji vahidlərdən bəhs etmişdir. Onun fikrincə, "İdiomların üslubi imkanları, hər şeydən əvvəl, onların ayrı-ayrı sözlərə, ifadələrə sinonim ola bilməsi ilə izah edilir və məhz sinonimliklə də onların üslubi məqamları müəyyənləşir. Müəllif belə nəticəyə gəlmişdir ki, "idiomlar bütün üslublarda istifadə olunur, lakin ən çox və hərtərəfli istifadə meydanı bədii üslubdur. Kitabda idiomların üslubi məqamları "daxili və zahiri imkanlar adı ilə iki yerə ayrılmışdır. "İdiomatik sözlər, idiomatik ifadələr, idiomatik cümlələr zahiri idiomların ekspressivlik və məna rəngləri, sahə mənsubiyyəti isə daxili üslubi imkanlar hesab edilmişdir. "Ekspressivlik rəngləri dedikdə isə idiomların bədii təsvir vasitəsi kimi çıxış etməsi, "məna rəngləri dedikdə isə sinonim, antonim və çoxmənalı olması nəzərdə tutulmuşdur.

Başqa bir tədqiqatçı S.Murtuzayev özünün namizədlik dissertasiyasında M.F.Axundovun komediyalarında işlənmiş frazeoloji vahidlərin üslubi və qrammatik xüsusiyyətlərini tədqiq etmişdir. Həmin tədqiqat işi "M.F.Axundovun komediyalarının dil və üslub xüsusiyyətləri" (8) adlı kitabda da öz əksini tapmışdır. Frazeologiya bədii əsərin leksikası ilə bir yerdə götürülmüşdür. A.Qurbanov namizədlik dissertasiyasında S.Vurğunun "Vaqif dramında işlədilən leksik və frazeoloji vahidlərin üslubi imkanlarını, M.Məmmədov isə N.Nərimanovun nəsr əsərlərinin leksikası və frazeologiyasını tədqiq etmişdir.

Öz məqalələrinin bəzilərində R.Məhərrəmova Ə.Sabirin satirik şerlərinin leksik xüsusiyyətləri ilə yanaşı, frazeologiyasını da təhlil etmişdir. O, məqalənin birində frazeoloji vahidlərin nominativ mənada işlədilən sözlərə ekvivalent olması məsələsinə toxunmuşdur.

Müəllif düzgün olaraq belə nəticəyə gəlmişdir ki, "frazeoloji ifadələrin bəzilərinin ədəbi dildə ekvivalenti olsa da, onlar müəyyən məna incəliyi ilə fərqlənirlər, yəni frazeoloji ifadədə olan mənanı ekvivalent sözlər tam verə bilmir.

Frazeologiya məsələlərinə həsr olunmuş IX Koordinasiya müşavirəsinin 1964-cü ildə Bakı şəhərində çağrılması da Azərbaycan dilçiliyi və üslubiyyətinin ilk nailiyyətlərindən biri sayıla bilər. Bu müşavirədə oxunmuş məruzələrdən bəziləri Azərbaycan dili frazeologiyasına aiddir. Azərbaycan dilçilərindən M.Adilov, H.Bayramov və M.Paşayevanın məruzələrində maraqlı məsələlər qoyulmuşdur. Əlbəttə, sadaladığımız işlərlə kifayətlənmək düzgün olmazdı. Və bunu nəzərə alaraq mən bu elmi işdə həmçinin nominasiya aspektində frazeologizmlərin öyrənilməsinə diaxronik cəhətdən yanaşmağı qərara aldım. Digər daha maraqlı məsələlər, yəni frazeoloji semantikada paradiqmatika və sintaqmatika suallarına toxunulacaq və müxtəlif dilçilərin dildə olan kommunikativ frazeoloji vahidlərin mövcud olmasına dair bəzi məsələlər müzakirə olunacaq və onlardan sitatlar gətiriləcək.

Bir qrup frazeoloqlar öz tədqiqat işlərini məhz, dil nominasiyası problemini dilçiliyin ən başlıca məsələlərindən hesab etmiş və elmi işlərini bu istiqamətdə yazmışdırlar. V.N.Teliya öz növbəsində frazeoloji nominasiya problemindən danışaraq qeyd edir ki, frazeoloji nominasiya indiyə qədər nominativ (yəni adlıq) fəaliyyətin az tədqiq edilmiş sahəsi olaraq qalır.

A.V.Kunin isə həmin faktla razılaşıb bu nəticəyə gəlir ki, bu mürəkkəb məsələ sözsüz ki, gələcəkdə daha dərindən araşdırılmalıdır - xüsusilə diaxronik planda.

Son zamanlar müasir ingilis dili frazeologiyasının tədqiqatçıları, frazeoloji vahidləri daha çox diaxronik aspektdə öyrənməyi məqsədəuyğun hesab edirlər. Bu məsələyə misal olaraq N.B.Romanova öz elmi-tədqiqat işində ingilis dilində mövcud olan horse, mare, foal, stallion, steed sözləri kimi komponentlərdən ibarət 336 frazeoloji vahidləri seçib ayırmış və müxtəlif lüğətlərlə işləyib belə nəticəyə gəlmişdir ki, son beş əsrdə xüsusilə ingilis dilində mövcud olmuş və olan frazeoloji vahidlərin istifadəsi praktiki olaraq nəzərə çarpan dərəcədə azalmışdır. Onun verdiyi dəqiq məlumatlara əsasən XVI-XX əsrlərdə mövcud olan 336 frazeoloji vahiddən, indiki əsrdə yalnız 20%-i mövcuddur. Bu rəqəm isə frazeoloji vahidlərin son zamanlarda kəmiyyətcə çox böyük sürətlə azalmasına açıq-aydın sübutdur. Bu cəhətdən aşağıda verilən cədvəl diqqətimizi cəlb edə bilər:

XVI əsr	XVII əsr	XVIII əsr	XIX əsr	XX əsr
106	102	41	69	18

A.V.Kunin yenə də öz növbəsində frazeoloji vahidləri diaxronik cəhətdə təhlil etdikdən sonra belə bir fikir söyləyir: "frazeologizmdən frazeologizm-derivat əmələ gəlir və onun mənasıını frazeoloji prototipi təyin edir".

Tədqiq olunmuş frazeoloji vahidlərin diaxronik təhlili göstərir ki, bu növ frazeoloji nominasiyanın məhsuldarlığının sayı son iki əsrdə olduqca çoxaldı.

Bu hadisə, daha çox XX əsrdə müşahidə olunmuşdur.

The horse's mouth (XX əsr) - the original, authentic source of information— yaranıb— straight from the horse's mouth (XX əsr). Frazeologiyanın diaxronik

planda öyrənilməsi bu günə qədər tədricən inkişaf etmişdir.

Frazeologiyanın bir üslubi kateqoriya kimi səciyyəvi cəhətləri, ayrı-ayrı görkəmli yazıçılarımızın əsərlərindəki rolu, frazeoloji vahidlərin mənşəyi, bir-birinə qarşılıqlı təsiri və sair hələ də tam öyrənilməmiş qalmışdır.

Bundan sonra əsas diqqəti mənim zənnimcə, məhz həmin məsələlərə yönəltmək lazımdır.

Bir faktı da yaddan çıxarmaq olmaz. Bir dildən digərinə tərcümə zamanı hər bir dildəki birləşmələrin məna xüsusiyyətləri aşılanır. Elə bu baxımdan çıxış etsək, qəti demək olar ki, müxtəlif əsərlər bir dildən o biri dilə transformasiya etdikdə frazeoloji vahidlərin səciyyəvi xüsusiyyətlərin nəzərə almaq mütləqdir.

ƏDƏBİYYAT

1. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: 1954
2. Orucov Ə. Azərbaycan dilinin izahlı lüğətinin nəzəri əsasları. Filologiya üzrə elmlər doktoru dissertasiyası. Bakı: 1962
3. Пашаева М.М. О принципах перевода фразеологизмов в русско-азербайджанских словарях / М.М. Пашаева // Вопросы фразеологии и составления фразеологических словарей (материалы IX Всесоюзного координационного совещания). Баку: 1968
4. Bayramov H.A. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, Maarif, 1978, 176 s.
5. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili I-ci cild. Bakı: Nurlan, 2003, 450 c.
6. İslamov M. İ. Frazeoloji birləşmələr (Nuxa dialekti materialı üzrə) / M. İ. İslamov // AMEA-nın Xəbərləri, İctimai elmlər seriyası. 1957, № 11, s. 127-139.
7. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: 1962
8. Murtuzayev S. M.F.Axundovun komediyalarının dil və üslub xüsusiyyətləri. Bakı: 1962

AFANDIYEVA GUNAY

THE HISTORY OF RESEARCH WINGED WORDS IN AZERBAIJAN PHRASEOLOGY

SUMMARY

The author examines the history of the study of winged words in Azerbaijan phraseology. The author begins with the history of the study of 50 years of the twentieth century. The article is mainly selected the subject of study doctoral and master's theses, articles and monographs Azerbaijani scientist-linguist on this topic. Scientific-theoretical concepts of foreign and domestic research on the linguistic nature of species of winged words are also addressed in the article. The author shows that the winged words, their sources, functions, peculiar features of their role in the works of art in the history of the Azerbaijan philology begins study from 1954.

ГУНАЙ АФАНДИЕВА

ИСТОРИЯ ИССЛЕДОВАНИЯ КРЫЛАТЫХ СЛОВ В АЗЕРБАЙДЖАНСКОЙ ФРАЗЕОЛОГИИ

РЕЗЮМЕ

В статье автор исследует историю изучения крылатых слов в Азербайджанской фразеологии. Автор начинает историю исследования с 50-х годах XX века. В статье в основном предметом исследования были избраны докторские и кандидатские диссертации на эту тематику, статьи и монографии Азербайджанских ученых-лингвистов. Научно-теоретические концепции зарубежных и отечественных исследователей о лингвистической сущности разновидностей крылатых слов также рассматриваются в статье. Автор показывает что, крылатые слова, их источники, функции, своеобразные особенности, их роль в художественных произведениях в Азербайджанской филологии начинает историю исследования с 1954-го года.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova

SEVİL AĞAYEVA
Azərbaycan Dillər Universiteti

STRUCTURAL PARTS OF SPEECH

Açar sözlər: köməkçi, kateqoriya, nitq hissəsi, dil, funskiya, cümlə, bağlayıcı, ədat, artikl
Key words: structural, category, parts of speech, language, function, sentence, conjunction, particle, article
Ключевые слова: структурный, категория, часть речи, язык, функция, предложение, союз, неизменяемая частица, артикль

Structural words differ from notional words semantically: their lexical meaning is of a more general character than that of notional words (e.g. *in, and, even).* Moreover, they are sometimes altogether devoid of it (e.g. the articles *the* and *a,* the conjunction ***that,*** the preposition *of,* etc.). Structural words do not perform any independent syntactic function in the sentence but serve either to express various relations between words in a sentence (e.g. *the trees* in *the garden, Tom* and *Joe,* etc.) or to specify the meaning of a word (e.g. the *book,* a *book,* etc.). The following parts of speech are to be treated as structural words: articles, prepositions and conjunctions.

A preposition describes a relationship between other words in a sentence. In itself, a word like "in" or "after" is rather meaningless and hard to define in mere words. For instance, when you do try to define a preposition like "in" or "between" or "on," you invariably use your hands to show how something is situated in relationship to something else. Prepositions are nearly always combined with other words in structures called **prepositional phrases**. Prepositional phrases can be made up of a million different words, but they tend to be built the same: a preposition followed by a **determiner** and an adjective or two, followed by a pronoun or noun (called the *object* of the preposition). This whole phrase, in turn, takes on a modifying role, acting as an **adjective** or an **adverb**, locating something in time and space, modifying a noun, or telling when or where or under what conditions something happened. Is it any wonder that prepositions create such troubles for students for whom English is a second language? We say we are *at* the hospital to visit a friend who is *in* the hospital. We lie *in* bed but *on* the couch. We watch a film *at* the theater but *on* television. For native speakers, these little words present little difficulty, but try to learn another language, any other language, and you will quickly discover that prepositions are troublesome wherever you live and learn. This page contains some interesting (sometimes troublesome) prepositions with

brief usage notes. To address all the potential difficulties with prepositions in idiomatic usage would require volumes, and the only way English language learners can begin to master the intricacies of preposition usage is through practice and paying close attention to speech and the written word. Keeping a good dictionary close at hand (*to* hand?) is an important first step. In everyday speech, we fall into some bad habits, using prepositions where they are not necessary. It would be a good idea to eliminate these words altogether, but we must be especially careful not to use them in formal, academic prose.

- She met ~~up with~~ the new coach in the hallway.
- The book fell off ~~of~~ the desk.
- He threw the book out ~~of~~ the window.
- She wouldn't let the cat inside ~~of~~ the house. [or use "in"]
- Where did they go ~~to~~?
- Put the lamp in back of the couch. [use "behind" instead]
- Where is your college ~~at~~?

When two words or phrases are used in parallel and require the same preposition to be idiomatically correct, the preposition does not have to be used twice. For example: *You can wear that outfit in summer and ~~in~~ winter. The female was both attracted ~~by~~ and distracted by the male's dance.* However, when the idiomatic use of phrases calls for different prepositions, we must be careful not to omit one of them. The children were *interested in* and *disgusted by* the movie.

It was clear that this player could
both *contribute to* and *learn from* every game he played.
He was *fascinated by* and *enamored of* this beguiling woman.

In grammar, a **conjunction** (abbreviated **CONJ** or **CNJ**) is a part of speech that connects two words, sentences, phrases or clauses together. A **discourse connective** is a conjunction joining sentences. This definition may overlap with that of other parts of speech, so what constitutes a "conjunction" must be defined for each language. In general, a conjunction is an invariable grammatical particle, and it may or may not stand between the items it conjoins. The definition may also be extended to idiomatic phrases that behave as a unit with the same single-word conjunction (*as well as*, *provided that*, etc.). Many students are taught that certain conjunctions (such as "and", "but", "because", and "so") should not begin sentences; although authorities such as the *Chicago Manual of Style* state that this teaching has "no historical or grammatical foundation". A simple literary example of a conjunction: "the truth of nature, **and** the power of giving interest".

Coordinating conjunctions, also called coordinators, are conjunctions that join two or more items (such as words, main clauses, or sentences) of

equal syntactic importance. In English, the mnemonic acronym *FANBOYS* can be used to remember the coordinators *for*, *and*, *nor*, *but*, *or*, *yet*, and *so*. These are not the only coordinating conjunctions; various others are used, including "and nor" (British), "but nor" (British), "or nor" (British), "neither" ("They don't gamble; neither do they smoke"), "no more" ("They don't gamble; no more do they smoke"), and "only" ("I would go, only I don't have time").

Subordinating conjunctions, also called subordinators, are conjunctions that conjoin an independent clause and a dependent clause. The most common subordinating conjunctions in the English language include *after*, *although*, *as*, *as far as*, *as if*, *as long as*, *as soon as*, *as though*, *because*, *before*, *if*, *in order that*, *since*, *so*, *so that*, *than*, *though*, *unless*, *until*, *when*, *whenever*, *where*, *whereas*, *wherever*, and *while*. Complementizers can be considered to be special subordinating conjunctions that introduce complement clauses (*e.g.*, "I wonder *whether* he'll be late. I hope *that* he'll be on time"). Some subordinating conjunctions (*until* and *while*), when used to introduce a phrase instead of a full clause, become prepositions with identical meanings. In many verb-final languages, subordinate clauses *must precede* the main clause on which they depend. The equivalents to the subordinating conjunctions of non-verb-final languages such as English are either: *clause-final conjunctions* ; or *suffixes* attached to the verb and *not* separate words Such languages in fact often lack conjunctions as a part of speech because: 1. the form of the verb used is formally nominalized and cannot occur in an independent clause; 2. the clause-final conjunction or suffix attached to the verb is actually formally a marker of case and is also used on nouns to indicate certain functions. In this sense, the subordinate clauses of these languages have much in common with postpositional phrases.

In grammar, a **particle** is a function word that does not belong to any of the inflected grammatical word classes (such as nouns, pronouns, verbs, or articles). It is a catch-all term for a heterogeneous set of words and terms that lack a precise lexical definition. It is mostly used for words that help to encode grammatical categories or fillers or discourse markers that facilitate discourse such as *well*, *ah*, *anyway*, etc. Particles are uninflected. As examples, the English infinitive marker *to* and negator *not* are usually considered particles.

Particles are short words that with just one or two exceptions are all prepositions unaccompanied by any complement of their own. Some of the most common prepositions belonging to the particle category: *along, away, back, by, down, forward, in, off, on, out, over, round, under, up*."

Among individual words commonly so classed are the negative **particle** *not* (and its contraction *n't*), the infinitival particle *to* (*to go; to run*), the imperative particles *do, don't* (*Do tell me*; *Don't tell me*) and *let, let's* (*Let me see now*; *Let's go*). There is also a set of adverbial and prepositional particles that combine with verbs to form phrasal verbs (*out* in*look out*; *up* in *turn up*) and prepositional verbs (*at* in *get at*; *for* in *care for*)."

Particle is a word that does not fit into the conventional grammatical categories the word 'to' can act as a preposition describing direction; she's gone to Antwerp. When 'to' is used with a verb in the infinitive, 'to abide' 'to do' etc., it is a particle, satisfying a grammatical function, but without an easily defined meaning. The term is also often employed for the words that make up a phrasal verb. This is because words that are familiar as prepositions, which link words, are functioning in a different manner:

The plane took off an hour late. ('*off*' changes the meaning of the verb but is not linking words or expressing direction, location, time or possession, which it would if it were acting as a preposition. Hence many people prefer to call words like this particles in phrasal verbs.)

A particle is a word that has a grammatical function but does not fit into the main parts of speech (i.e. noun, verb, adverb). Particles do not change. Many words can be described as particles, e.g. conjunctions such as 'and' and 'but' and interjections such as 'oh' and 'wow'. Particles appear frequently in the teaching of phrasal verbs, which can be grouped for teaching purposes by particle, e.g. 'off', 'on', 'out' etc.

Reference

1. Azar, B. (1992). *Fundamentals of English grammar 2nd ed.* Englewood Cliffs, NJ: Prentice Hall Regents.
2. Hayes, C. (1996). *English at hand.* Marlton, NJ: Townsend Press.
3. Kuznetsova V.S. Notes on English Lexicology.- K., 1968.
4. Кунин А.В. Фразеология современного английского языка. - М., 1970.
5. Ginsburg R.S. A Course in Modern English Lexicology. M., 1979.
6. M.Akhmanova O. Lexicology. Theory and Method. - M., 1972.
7. Baugh A.C. and Cable T.A. History of the English Language, London, 1978.

Sevil Ağayeva

Köməkçi nitq hissələri

XÜLASƏ

Məqalə ingilis dilində mövcud olan köməkçi nitq hissələrindən bəhs edir. İngilis dilində bəzi sözlər qrupu köməkçi nitq hissəsi kimi götürülür. Çünki bu qrup sözlərin cümlədə funksiyası olmur və onlar cümlədə söz forması kimi işlənilir. Bu tip sözlər ingilis dilində cümlədə əsasən bağlayıcı və ya təyinedici söz kimi istifadə olunur. Bu qrupa bağlayıcılar daxildir. Bundan başqa onlar cümlədə sözün mənasını qüvvətləndirir. Bu qrupa ədatlar daxildir.

Məqalədə ingilis dilində mövcud olan köməkçi nitq hissələri haqqında kifayət qədər məlumat verilmişdir. Məqalə göstərilən məsələ barədə geniş məlumat əldə etmək istəyənlər üçün faydalı ola bilər.

Sevil Aghayeva

The structural parts of speech

SUMMERY

The paper deals with the structural parts of speech in English. Some group of words in the English language are taken as structural parts of speech. Because these words have no any functions in the sentence and they are only used as a word form in the sentence. These type of words are used as connectors and determiners in the sentences. This group includes conjunctions. Besides, they emphasize the meaning of words in the sentence. This group includes particles.

Enough information about the structural parts of speech existing in English is given in the paper. The paper may be useful for those who want to get information about the mentioned issue.

Rəyçi: dos. L.A.Məsimova

XƏLƏFLƏR VƏ SƏLƏFLƏR HAQQINDA

FÜZULİ MUSTAFAYEV
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
tətbiqi dilçilik şöbəsinin böyük elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru
mustafayev.fizuli8@gmail.com

PARLAQ ZƏKA SAHİBİ – BÖYÜK VƏTƏNDAŞ

Açar sözlər: görkəmli tədqiqatçı, tərcümə ədəbiyyatı, mətnşünas alim, yeni tərcümələr.
Ключевые слова: известный исследователь, переводная литература, ученый текстолог, новые переводы.
Keywords: well-known scientist, translation literature, textual critic, new translations.

Mən onu cəmi bir ildən bir az artıqdır ki, tanıyıram. Amma ömür yolunu vərəqlədikcə, haqqında danışılan söz-söhbəti dinlədikcə halallıq, mərdlik, ədalət və səxavət rəmzi olan, dərgahı göylərə açılan uca bir insan, elm adlı bir mələk haqqında nağıllara qulaq asırsan elə bil.

Hər adamın öz dövrü var, hər dövrün öz adamı. Ötən əsrin 46-cı ilində Naxçıvan Muxtar Respublikası Kəngərli rayonunun Xok kəndində dünyaya gələn Möhsün Zellabdin oğlu Nağısoylu (əvvəlki soyadı Nağıyev) şərəfli ömrünü yaşayır. Möhsün müəllim Xoku özü üçün rəsmi rəmz seçməsə də, Kəngərli onun üçün əbədi inanc yeridir.

Haqqında söz açdığımız böyük alim 1963-cü ildə indiki Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin fars dili və ədəbiyyatı şöbəsinə daxil olub. 1967-ci ildə V kursda oxuyarkən Əfqanıstana fars dili tərcüməçisi qismində ezam olunub. 1970-ci ildə ezamiyyətdən qayıdaraq təhsilini davam etdirib və 1971-ci ildə universiteti fərlənmə diplomu ilə bitirərək Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunun aspiranturasına (qiyabi) daxil olub. 1972-ci ildən 2015-ci ilədək, indi AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda işləyib. Bu müddətdə baş laborant, kiçik elmi işçi, böyük elmi işçi və 1988-ci ildən şöbə müdiri vəzifəsində çalışıb. Hazırda AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktorudur.

Böyük alim 1979-cu ildə "XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə" (paleoqrafiya, orfoqrafiya və tərcümə məsələləri" mövzusunda namizədlik dissertasiyasını, 1994-cü ildə isə "XV-XVI əsrlər

Azərbaycan tərcümə abidələri (mətnşünaslıq, tərcümə və dil məsələləri) mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 2012-ci ildə professor diplomunu alıb, 2014-cü ildə isə AMEA-nın müxbir üzvü seçilib.

M.Nağısoylunun elmi tədqiqatlarının nəticələri indiyədək çap etdirdiyi 31 kitabında, o cümlədən ümumi həcmi 130 çap vərəqi olan 8 monoqrafiyada, ümumi həcmi 300 çap vərəqi olan 16 tərtibat və tərcümə işində, ümumi həcmi 120 çap vərəqi olan 2 lüğətdə, ümumi həcmi 75 çap vərəqi olan 5 dərs vəsaitində öz əksini tapmışdır. "Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti" (2000), M.Füzulinin "Hədiqətüs-şüəda" əsəri (2002), "XVI əsr Azərbaycan tərcümə abidəsi Şühədanamə" (2003), Şirazinin "Gülşəni-raz" tərçüməsi (2004), Əhmədinin "Əsrarnamə tərcüməsi" (2005), A.Bakıxanovun "Riyazül-qüds" əsəri klassik tərcümə nümunəsi kimi" (2006), Həzinin "Hədisi-ərbəin" tərcüməsi" (2008), XVI əsr Azərbaycan tərcümə əsəri "Kəvamilüt-təbir" (2011) monoqrafiyaları, eləcə də Möhsün Nəsirinin "Lisanüt-teyr" (2001), Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" (2005), "Şeyx Səfi təzkirəsi" (2006) və başqa kitabları Azərbaycan ədəbiyyatşünasları və dilçiləri tərəfindən yüksək qiymətləndirilmişdir.

Bu gün M.Nağısoylu təkcə farsca deyil, eyni zamanda türkcə (və daha çox türkcə) əlyazmaların tədqiqi sahəsində ən yetkin və bacarıqlı mütəxəssislərdən biri sayılır. Onun tərcümə və tərtib etdiyi, çapa hazırladığı çoxlu kitab və məqalələri bunu əyani şəkildə sübut edir. Şərqşünas-türkoloq alimin kitabları sırasında "Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti" (Bakı, "Elm", 2000) adlı monoqrafiyası xüsusilə qeyd olunmalıdır. İstər Azərbaycan ədəbiyyatı tarixi, istərsə də ədəbi dil tarixinin ətraflı araşdırılması üçün çox dəyərli bir tədqiqat sayılan bu kitabda qoyulan məsələlərin hamısı aktuallığı və sanballığı, elmi yeniliyi və yüksək peşəkarlıqla işlənməsi ilə diqqəti cəlb edir. M.Nağısoylunun "Fizulinin "Hədiqətüs-süəda əsəri" (Bakı, "Nurlan", 2002), "XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə" (Bakı, "Nurlan", 2003) monoqrafiyaları da bilavasitə tərcümə tarixi məsələləri ilə bağlıdır və eyni zamanda ədəbiyyat, ədəbi dil tarixi üçün çox əhəmiyyətlidir. Mətnşünas alim eyni zamanda M.Füzulinin "Hədiqətüs-süəda", XVIII əsr müəllifi Möhsün Nəsirinin "Lisanüt-teyr" kimi irihəcmli klassik tərcümə əsərlərinin ilk dəfə çapa hazırlanması işində yaxından iştirak etmişdir.

M.Nagısoylunun daha bir sanballı elmi araşdırması – "Şirazinin "Gülşəni-raz" tərcüməsi" adlı kitabdır. (Bakı, "Nurlan", 2004). Kitab haqqındakı fikirlərimizi bölüşməzdən öncə qeyd etmək istəyirəm ki, istər Şirazinin özü, istərsə də onun "Gülşəni-raz" tərcüməsi Azərbaycan filologiyası üçün tamamilə yeni adlardır və bu barədə Azərbaycanda ilk dəfə söz deyən, elmi araşdırma aparan məhz M.Nagısoyludur. Müəllifin kitaba yazdığı qısa ön sözdən aydın olur ki, Şirazinin 1426-cı ildə tamamladığı "Gülşəni-raz" tərcüməsi ana dilimizdə təsəvvüf simvollarını açıqlayan ilk dəyərli və sanballı

qaynaqdır. Orta yüzilliklərdə böyük şöhrət qazanmasına və geniş yayılmasına baxmayaraq, "Gülşəni-raz" tərcüməsi indiyədək istər Azərbaycanda, istərsə də başqa ölkələrdə ayrıca olaraq nə araşdırılmış, nə də nəşr olunmuşdur. Kitab iki hissədən ibarətdir: birinci hissədə "Gülşəni-raz" tərcüməsi filoloji-tekstoloji yöndən geniş araşdırılır, ikinci hissədə isə tərcümənin müasir əlifba ilə mətni, onun izahları və qısa lüğəti verilir.

Kitabdakı "Gülşəni-raz" tərcüməsi ilə onun farsca orijinalının müqayisəli tekstoloji tədqiqinə həsr olunmuş bölmə tərcümə ədəbiyyatı tarixinin araşdırılması baxımından olfuqca əhəmiyyətlidir. Hər iki əsərin mətnlərini başdan-ayagadək müqayisəli şəkildə - bölmə-bölmə, fəsil-fəsil araşdıran tədqiqatçı alim onlar arasında tam üst-üstə düşən məqamlar, xüsusiyyətlərlə yanaşı, bir sıra kəskin fərqli cəhətlərin də müşahidə olunduğunu aşkara çıxarır. İlk olaraq hər iki əsərdə bir-birinə uyğun gələn xüsusiyyərlər üzərində dayanan M.Nağısoylu Şirazinin tərcümədə farsca orijinalın istər forma və bəhrini eynilə saxladığını, istərsə də onun məzmununa, demək olar ki, sadiq qaldığını qeyd edir və hər iki əsərdən gətirdiyi konkret nümunələrlə fikrini elmi şəkildə əsaslandırır. M.Nağısoylu Şirazinin "Gülşəni-rəz" tərcüməsinə artırdığı əlavələrin geniş təhlilini verərək onların "Gülşəni-raz"ın baş mövzusu olan təsəvvüflə, sufi anlayışlarının yozumu ilə birbaşa bağlı olduğunu vurğulayır. Şirazinin əlavələrinin mahiyyətinə, onları doğuran səbəblərə gəldikdə isə, tədqiqatçı bunu, başlıca olaraq, orta əsrlərdə geniş yayılan sərbəst-yaradıcı tərcümə ənənəsinə xas olan səciyyəvi cəhətlərlə izah edir. M.Nağısoylu Şirazinin əlavələri ilə bağlı onu da qeyd edir ki, mütərcim, ümumiyyətlə, farcsa mətndəki hər hansı bir mövzunu daha geniş şəkildə ifadə etməyə meylli olmuş, beləliklə də, faktiki olaraq Şəbüstərinin əsərinin məzmununu daha da genişləndirmişdir.

M.Nağısoylunun digər monoqrafiyaları kimi, A.Bakıxanovun "Riyazül-qüds" əsərinə həsr etdiyi kitabı da ilk növbədə elmi yeniliyi və qaldırılan məsələlərin istər ədəbiyyatşünaslıq, istərsə də ədəbi dil tarixi üçün xüsusi əhəmiyyət daşıması ilə diqqəti cəlb edir. "Riyazül-qüds" dini mövzudadır, islam aləmində məşhur olan Kərbəla faciəsinə həsr olunmuşdur. M.Nağısoylu bütün tədqiqatlarında olduğu kimi, bu monoqrafiyasında da əsərin əlyazması üzərində daha geniş dayanır və onun başlıca qrafik-orfoqrafik xüsusiyyətlərini yığcam şəkildə təhlil edir.

Sonrakı bölmələrdə "Riyazül-qüds"ün yazılma səbəbi və qaynaqlarını araşdıran M.Nağısoylu bilavasitə əsərin əlyazmasından çıxış edərək ədəbiyyatşünaslığımız üçün tamamilə yeni olan belə bir mühüm faktı xüsusi qeyd edir.

Kitabın ayrıca bir fəsli "Riyazül-qüds"lə onun farcsa qaynağı olan XVII əsr müəllifi Məclisinin "Cəlaül-üyun" əsərinin mətnlərinin müqayisəli təhlilinmə həsr olunmuşdur. Müəllif burada bilavasitə hər iki əsərin

mətnlərindən çıxış edərək, çoxsaylı müqayisə və qarşılaşdırmalar apararaq onlar arasında həm oxşar cəhətlərin, həm də fərqli xüsusiyyətlərin olduğunu aşkara çıxarmışdır.

Müqayisəli şəkildə araşdırdığı bu iki əsər arasında mövcud olan oxşar cəhətlər sırasında müəllif ilk növbədə onların quruluş və məzmun baxımından bir-birinə uyğun gəlməsini qeyd edir.

Füzulinin "Hədiqatüs-süəda" əsərini Azərbaycanda ilk dəfə nəşrə hazırlayanlardan biri M.Nağısoyludur. Bundan əlavə mətnşünas alim Füzulinin "Hədiqətüs-süəda" əsəri haqqında ayrıca bir kitabın da müəllifidir. Ədəbi dilimizin ən qiymətli yazılı abidələrindən biri sayılan "Şühədanamə" də məlum olduğu kimi, bu mövzudadır və M.Nağısoylunun həmin əsər haqqında da dəyərli araşdırması vardır. "Riyazül-qüds"də "Həqiqətüs-süəda"nı müqayisəli şəkildə tədqiq edən mətnşünas alim bu məsələdə də bir sıra maraqlı faktlar üzə çıxarır. Bu iki əsərin müqayisəli təhlili göstərir ki, A.Bakıxanov "Riyazül-qüds"də Məclisinin "Cəlaül-üyun" əsəri ilə yanaşı, Füzulinin sözügedən əsərindən də yaradıcılıqla və uğurla bəhrələnmişdir.

Məhsuldar elmi fəaliyyəti ilə seçilən mətnşünas alim Möhsün Nağısoylunun daha bir kitabı – "XVI əsr Azərbaycan tərcümə əsəri "Kəvamilüt-təbir"dir. Alimin sözügedən kitabı da, əsasən, Bəvazicinin "Kəvamilüt-təbir" tərcüməsinin mətnşünaslıq yönündən təhlili, eləcə də bu yazılı abidənin tərcüməcə dil özəlliklərinin araşdırılması üzərində qurulmuşdur. Bununla belə, M.Nağısoylu ədəbiyyatda varislik prinsipini, eləcə də tarixiliyi gözləyərək öncə "Kəvamilüt-təbir"ə qədər Azərbaycan tərcümə ədəbiyyatının keçdiyi inkişaf yolunu, xüsusilə də XV-XVI yüzilliklərin yadigarları olan tərcümə örnəklərini ayrıca bir fəsildə yığcam şəkildə araşdırmışdır. Dilimizə ilkin tərcümələrin ərəb dilindən edildiyini vurğulayan tədqiqatçı bütövlükdə Azərbaycanda təcümə sənətinin xalqımızın ərəblərlə və farslarla ictimai-siyasi və ədəbi-mədəni əlaqələrinin məntiqi nəticəsi kimi, tarixi bir zərurət olaraq meydana çıxmasını göstərir.

XVI yüzilliyin ən məşhur nəsr tərcümələri Nişatinin "Şühədanamə" və "Şeyx Səfi təzkirəsi" sayılır ki, birincinin tərcüməşünaslıq və dilçilik yönündə araşdırılmasında, ikincinin isə nəşri məsələsində M.Nağısoylunun danılmaz xidmətləri vardır. Dahi Füzulinin qüdrətli qələmindən çıxan "Hədiqətüs-süəda"nı da mətnşünas alim klassik tərcümə nümunəsi sayır və ayrıca olaraq onun özəl xüsusiyyətlərini də açıqlayır. Bu baxımdan XV əsr ərəb müəllifi Ömər ibn əl-Vərdinin tarixi coğrafiyaya, heyvanat və bitkilər aləminə aid "Xəridətül-əcaib və fəridətül-qəraib" əsərinin tərcüməsi xüsusi əhəmiyyət daşıyır. 1562-ci il tarixli bu tərcümə Mahmud Şirvaniyə məxsusdur. Tərcümənin müqəddiməsindən aydın olur ki, müəyyən səbəblər üzündən doğma yurdunu tərk edən Mahmud Şirvani indiki Türkiyə ərazisində yaşamış və tərcüməsini də Osman şah ibn İskəndər Paşaya təqdim etmişdir. Burada

Azərbaycanın ayrı-ayrı şəhərləri haqqında verilən bilgilər xüsusi maraq doğurur. Tərcümənin XVI yüzilliyin sonlarına aid əlyazmasında verilmiş dünya xəritəsində "Adərbayqan" adına da rast gəlirik.

Mətnşünas alim Bəvazicinin "Kəvamilüt-təbir" tərcüməsini yuxuyozmaya həsr olunmuş ensiklopedik səciyyəli bir kitab kimi dəyərləndirir. Onun tam şəkildə nəşrə hazırlanmasının vacibliyini vurğulayır.

Monoqrafiyanın ayrıca bir fəslində "Kəvamilüt-təbir"in tərcümə xüsusiyyətləri araşdırılır. Orijinalla tərcümənin mətnlərinin qarşılıqlı müqayisəsi əsasında tədqiqatçı alim belə bir qənaətə gəlir ki, Bəvazici farsca mətnin hər hansı bir hissəsini olduğu kimi ana dilinə çevirdikdən sonra yuxuyozmaya dair başqa kibatlardan (təbirnamələrdən) aldığı bilgiləri də tərcüməsinə əlavə etmiş, beləliklə də, türkcə daha mükəmməl bir təbir kitabını ortaya qoymuşdur.

Monoqrafiyanın yekunu olaraq verilən nəticə hissəsində tədqiqatçı belə bir qənaətə gəlir ki, Bəvazicinin "Kəvamilüt-təbir" tərcüməsi tərcümə ədəbiyyatının, ədəbi dil tarixinin araşdırılması baxımından dəyərli bir qaynaq olmaqla yanaşı, elm və üslub tarixinin, etnoqrafiyanın tədqiqi yönündən də əvəzsiz yazılı abidədir. Möhsün Nağısoylunun XVI əsr Azərbaycan tərcümə əsəri "Kəvamilüt-təbir" haqqındakı kitabının sonunda bu dəyərli yazılı abidədən ayrı-ayrı parçaların transfoneliterasiyası verilmişdir.

Bu günədək M.Nağısoylunun 300-dən artıq elmi və elmi-kütləvi məqaləsi işıq üzü görüb. Fars, rus dillərini sərbəst bilir. 1967-1970, 1972-1977 və 1982-1986-cı illərdə Əfqanıstanda fars dili tərçüməçisi kimi fəaliyyət göstərib. Fars dilindən 5 kitabı dilimizə tərcümə edib. Onun elmi rəhbərliyilə 18 nəfər dissertant fəlsəfə doktorluğu dissertasiyalarını müdafiə edib.

Möhsün Nağısoylunun 50 illik alim-ziyalı fəaliyyətini dəyərləndirmək üçün milli elmi-filoloji kontekst bir qədər dar müstəvidir. Onun elmi fəaiyyəti bütövlükdə ötən əsrin 70-ci illərindən üzü bəri Azərbaycan ictimai humanitar düşüncəsi ilə bağlıdır. Alim unikal elmi təfəkkürü dilçilik və tərcüməçiliyin fakt və sənədlərinə quru, sxolastik ədəbi keçmiş kimi yanaşmamış, onları daim müasir çağdaş milli problemlərlə əlaqələndirmişdir.

M.Nağısoylu məşğul olduğu bütün sahələrin elmi-professionalizm səviyyəsini daim təmin etmişdir. O, məsuliyyətli professor, AMEA-nın müxbir üzvü titullarının şərəf və ləyaqətini özünün bütün elmi və ictimai fəaliyyətilə doğrultmuşdur.

Əziz Möhsün müəllim! Hesab edirik ki, Tanrının Sizə bəxş etdiyi ömür payını ləyaqətlə yaşayaraq kifayət qədər ali titullara sahib olmusunuz. Lakin Sizin ən böyük sərvətiniz böyük mənəviyyat sahibi olmağınızdır. Geniş qəlbiniz, yüksək səviyyəli elmi araşdırmalarınız Sizə, nəinki Azərbaycanda, hətta böyük Türk dünyasında, Şərqdə, Orta Asiyada kifayət qədər böyük şöhrət qazandırmışdır. Siz hər şeydən öncə doğma Azərbaycana və onun qiymətli

parçası olan qədim Naxçıvana səmimi hissiyyatlarla yanaşan, bu yurda daim ucalıq gətirən şərəfli bir övladsınız. Qismətinizə çoxlarına müyəssər olmayan ömür payı düşsə də Tanrı Sizə həm də yaşınıza uyğun olmayan gümrahlıq, yüksək məntiqli düşüncə tərzi, gözəl nitq qabiliyyəti bəxş etmişdir. Yüksək iş qabiliyyətinizə isə sözün əsl mənasında qibtə etmək olar.

Deyirlər, dünya elmin nuru ilə ziyalanar, əqildən qüdrət alar, mənəvi dayaqlar üzərində möhkəmlənər. Bu xoşbəxt insan sevgi yolunu tutub həm öyrənir, həm də öyrədir. Yaxşılığını heç kəsdən əsirgəməyən, heç kimə pislik arzulamayan 70 yaşlı görkəmli alim Möhsün Nağısoylunun həyat və yaradıcılığını coşğun bir dənizə bənzətsək bizim dediklərimiz dəryadan bir damlaydı.

ƏDƏBİYYAT

1.Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı. 1958.

2.Araslı H. Nizami və türk ədəbiyyatı tarixi. Bakı. 1980.

3.Bakıxanov A. Seçilmiş əsərləri. Bakı. 1981.

4.Dəmirçizadə Ə. Ədəbi dilimizin inkişafında Füzuli mərhələsi. Bakı. 1958.

5.Əlizadə S. "Şühədanamə"də adlar. Bakı. 1965.

6.Füzuli M. Həqiqətüs – şüada. Bakı. 1993.

MUSTAFAEV FIZULI

BRILLIANT INTELLECT, SENIOR CITIZEN.

SUMMARY

Presented article "Brilliant Intellect, Senior Citizen" is devoted to the life and creative-activity of well-known literary critic, translator and linguist Mohsun Nagisoylu. The scholars scientific world-outlook – translations, investigations and researches on linguistics are elucidated in the article:

1.Scientific analyses of the monograph "Profession of translation in Azerbaijan in the middle ages".

2. Investigations of the scientist related with S.Shirazis book "Translation of Gulshani-raz" scientific research.

3.Analyses of M.Naghisoylus work devoted to A.Bakikhanovs work "Riyazul-guds".

4. Services of professor M.Naghisoylu who prepared the publication of M.Fuzulis work "Haqiqatus-Shuada" in Azerbaijan for the first time.

5. Another book of the scientist is the translation work of XVI century in Azerbaijan "Kevamilut-tabir". In the presented paper wide information is given about each work of the scientist.

МУСТАФАЕВ ФИЗУЛИ

БОЛЬШОЙ УЧЕНЫЙ И БОЛЬШОЙ ГРАЖДАНИН.

РЕЗЮМЕ

Статья «Большой ученый и большой гражданин» посвящена известному филологу-литературоведу, переводчику и лингвисту – Мохсуну Нагысойлу, его жизни и научной деятельности. В статье широко представлены научное мировоззрение ученого, переводы и исследования в области языкознания:

1. научный анализ монографии ученого «Искусство перевода в Азербайджана в средние века».

2. Исследовательская работа ученого о научных поисках в книге «Перевод Gülşəni-raz" Ширази.

3. Анализ М.Нагысойлу произведения А.Бакиханова "Riyazül-qüds".

4. О роли профессора М.Нагысойлу в подготовке первого издания в Азербайджане сочинения Физули «Həqiqatüs-Şüada".

5.Следующая книга учёного - монография «Азербайджанские переводы XVIвека "Kəvamilüt-təbir". В статье дано достаточное число сведений о каждом вышеуказанном труде ученого.

Rəyçi: Professor Nadir Məmmədli

MÜNDƏRİCAT

MƏSUD MƏMMƏDOV. DİL VƏ ƏLİFBA 3
Aygül HACIYEVA. RUHI BAĞDADİ "DİVAN"I DİLİNDƏ SAY 10
Dos. Dr. QIZILGÜL ABDULLAYEVA. ZƏRF XVII ƏSRİN DİL MƏNZƏRƏSİNDƏ 17
НИГЯР АХМЕДОВА. НАЗВАНИЯ ДИКИХ ПТИЦ В СОСТАВЕ ФРАЗЕОЛОГИЗМОВ (НА МАТЕРИАЛЕ РУССКОГО И АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКОВ) 25
GÜLBƏNİZ İSMAYILZADƏ. AĞAMUSA AXUNDOVUN YARADICILIĞINDA FONETİKA MƏSƏLƏLƏRİ 34
f.e.d. MUSAYEVA AFƏT. ПРОБЛЕМА ЭВФЕМИЗМОВ В ДИПОЛОМАТИЧЕСКОМ ЯЗЫКЕ 39
СЕВИНДЖ МЕХДИЕВА. РАЗВИТИЕ РЕЧИ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ 44
TƏRANƏ XƏLİLOVA. BİRİNCİ TÜRKOLOJİ QURULTAY VƏ ONUN NƏTİCƏLƏRİ 51
Ş.V.ASLANOVA. FUNKSİONAL-SEMANTİK TƏHRİKLİK MİKROSAHƏLƏRİ VƏ ONLARIN İFADƏ FORMALARI 58
FƏRİDƏ KAZIMOVA. "DƏDƏ QORQUD"KİTABINDA HEYVAN ADLARININ EPİK-MİFOLOJİ SEMANTİKASI 63
ELMİRA ƏSGƏROVA. MODAL AUIXILARIES AND THEIR EQUIVALENTS 72
NAİLƏ QASIMOVA. EMAIL ETIQUETTE 78
FƏRİDƏ HÜSEYNOVA. AZƏRBAYCAN DÖVLƏT NEFT VƏ SƏNAYE NİVERSİTETİNİN "XARİCİ DİLLƏR" KAFEDRASI"NIN TARİXİNDƏN (XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ) 83
MAMMADOVA AYTAN. DESCRIBING LEARNING CONTEXTS 88
SAİDA GAMARLI. COGNITIVE LINGUISTICS 96
ASKEROVA MUNAVVAR. SOME PROBLEMS OF SEMANTİC-STRUCTURAL FEATURES OF COMPLEX SENTENCE İN ENGİLİSH AND AZERBAİJANİ 103
UMAROVA RUHANE. ENGLISH LANGUAGE TEACHING METHODS 108
САБИНА РАГИМОВА. КЛАССИФИКАЦИЯ ТЮРКСКИХ ЯЗЫКОВ 113
KƏMALƏ MEHDİXANLI. MÜASİR İNGİLİS DİLİNDƏ İNVERSİYA HADİSƏSİ PROSESİNDƏ DERİVASİYA ÜSULU İLƏ YENİ SÖZLƏRİN TAPILMASI VƏ TƏTBİQİ 119
LEYLAXANIM NƏCƏFOVA
FİRƏNGİZ PƏNAHOVA. MÜASİR İNGİLİS DİLİNDƏ SOMATİK TƏRKİBLİ FRAZEOLOGİZMLƏRİN TƏRCÜMƏSİNDƏ XÜSUSİ AMİLLƏR 124
AİDƏ ƏLİYEVA. TƏDRİS PROQRAMLARINDA İNGİLİS DİLİNİN MƏHARƏTLƏRİ 129
НИНА БУНЯТОВА
ЛЯМАН АХУНДОВА. ОБЩЕНИЕ МЕЖДУ КУЛЬТУРНОМУ ЛЮДМИ В АНГЛОЯЗЫЧНОМ ОБЩЕСТВЕИ ОБУЧЕНИЕ АНГЛИЙСКОМУ РЕЧЕВОМУ ТИКЕТУ 134
SEVİNC BAĞIROVA. İNGİLİS DİLİNDƏ ELMI-İQTİSADİ MƏTNLƏRİN SİNTAKTİK BÜTÖVLÜYÜ VƏ ONLARIN BAŞQA CÜMLƏ ÜZVLƏRİ İLƏ ƏLAQƏ VASİTƏLƏRİ 139

С.Р.ГАИБОВА. ИСПОЛЬЗОВАНИЕ КОММУНИКАТИВНЫХ И РОЛЕВЫХ ИГР ПРИ ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ 144
MEHRİ İMANQULIYEVA. DİL MİLLİ MƏNƏVİYYATIN MAYASIDIR..... 150
Л.МАМЕДОВА. КОММУНИКАТИВНЫЙ АСПЕКТ КУЛЬТУРЫ РЕЧИ 156
МУСАЕВА А.Г. СОВРЕМЕННЫЕ ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ В ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ 161
AYSEL ŞÜKÜROVA. DİSKURS, MƏTN VƏ KOMMUNİKASİYA ANLAYIŞLARININ QARŞILIQLI ƏLAQƏSİ 169
KƏNAN BƏŞİROV. ŞƏXS VƏ İŞARƏ ƏVƏZLİKLƏRİNİN MÜRƏKKƏB SİNTAKTİK BÜTÖVLƏRİN ƏMƏLƏ GƏLMƏSİNDƏ ROLU 175
Fil.f.d. SEYİDOVA V. M. ANTROPONİMLƏRDƏN ƏMƏLƏ GƏLƏN QASTRONOMİK VAHİDLƏRİN FRANSIZ DİLİNDƏN TƏRCÜMƏ YOLLARI..... 183
NAİLƏ ABBASOVA. İNGİLİS DİLİNDƏ TABELİ MÜRƏKKƏB CÜMLƏNİN BİR NÖVÜ: TƏYİN BUDAQ CÜMLƏSİ (ATTRIBUTIVE CLAUSES)..... 188
SÜCƏDDİN ƏYYUBLU. MÜASİR FRANSIZ DİLİNDƏ NEOLOGİZMLƏRİN YARANMASINDA İXTİSARLAR VƏ TELESKOPİYAYA DAİR 193
XAVƏR HACIYEVA. QƏDİM,ORTA VƏ MÜASİR İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN ROLU 200
TƏRANƏ ZEYNALOVA. İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNİN LÜĞƏT TƏRKİBİNDƏ İCTİMAİ-SİYASİ TERMİNLƏRİN YARANMA YOLLARI 205
XANBUTAYEVA LEYLA. SİQNİFİKATİV CÜMLƏ QRUPLARI: İMPERATİVLƏR..... 212
ARİFƏ HÜSEYNOVA. İNGİLİS DİLİ FRAZEOLOGİZMLƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ ÜSULLARI 217
САБИНА МАМЕДОВА. A PROFESSIONAL GROWTH PLAN FOR LIFELONG EARNERS 222
ƏLIYEVA İ.B.,
f.e.n. VƏLİYEVA V.Ə. PEŞƏ HAZIRLIĞI VƏ SOSİAL KOMMUNİKASİYA PROSESİNDƏ NİTQ MƏDƏNİYYƏTİ 229
ARİFƏ RƏSULOVA. İNGİLİSDİLLİ ÖLKƏLƏRDƏ ABOROGEN LEKSİKASININ ÇƏTİNLİKLƏRİ 234
SƏBİNƏ CƏFƏROVA. ŞƏRT ŞƏKİLÇİSİ İLƏ FORMALAŞAN TABELİ MÜRƏKKƏB CÜMLƏLƏR 243
AYSEL XANALIYEVA. AZƏRBAYCAN DİLİNDƏ FRAZEOLOJİ VARİANTLAR, FRAZEOLOJİ VARİANT SİLSİLƏSİ VƏ ONLARIN YARANMASINDA KOMPONENTLƏRİN ROLU 249
GÜLCAN MÜSEYİBOVA. ТЕКСТОВОЙ МАТЕРИАЛ УЧЕБНИКА..... 254
SARELLA QAİBOVA. WHAT IS A TEACHER? 259
KİFAYƏT ALIRZAYEVA. İNGİLİS DİLİNDƏ PARADİQMATİK VƏ SİNTAQMATİK SƏS DƏYİŞMƏLƏRİNƏ DAİR..... 263
KÜBRA MƏMMƏDOVA. İNGİLİS DİLİNDƏ BİTİŞDİRİCİ SAMİT SƏSLƏRƏ DAİR..... 269
TƏHMİNƏ ƏLİYEVA. İNGİLİS DİLİNDƏ ŞƏKİLÇİLƏRİN NİTQ HİSSƏLƏRİ ÜZRƏ TƏSNİFİ 274
İSGƏNDƏROVA İLHAMƏ. TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ SİSTEMİNƏ DAİR 281

ŞƏHLA BALACAYEVA. XARICI DILLƏRIN TƏDRISINDƏ LÜĞƏTLƏRDƏN ISTIFADƏ..... 286
QƏNBƏROVA ELNARƏ. INGILIS DILININ TƏDRISINDƏ INTERFERENSIYANIN NƏZƏRƏ ALINMASI 291
Dosent Ramidə MİRZƏFƏROVA. "ANARIN "ƏLAQƏ" POVESTİ ƏTRAFINDA OLAN MÜBAHİSƏLƏR" 296
NİGAR ƏLƏKBƏROVA . YAŞAR QARAYEVİN TƏDQİQATLARINDA TƏNQİDİ REALİZM PROBLEMİ 301
LIANNA AXUNDOVA. KTEMATONIMLƏRIN ORFRAFİYASI.... 308
BƏNNAYEVA VÜSALƏ . İNGILIS DILININ XÜSUSİ MƏQSƏDLƏRLƏ ÖYRƏDİLMƏSİ VƏ TƏDRİSİNİN ƏHƏMİYYƏTİ 313

ƏDƏBİYYATŞÜNASLIQ

Fil.ü.e.d MAHİRƏ QULİYEVA. USTADNAMƏ İLƏ KLASSİK ƏNƏNƏ ARASINDA ƏLAQƏ 320
TOFİQ ƏBDÜLHƏSƏNLİ. KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATINDA MULTİKULTURAL DƏYƏRLƏR VƏ TOLERANTLIQ 330
PƏRİXANIM MURADOVA. ABBAS SƏHHƏT YARADICILIĞINDA MİLLİLİK..... 335
MEHRİBAN QULİYEVA. MƏHƏMMƏD AĞA ŞAHTAXTILININ YARADICILIĞINDA BƏDİİ TƏRCÜMƏ 346
ÇİNARƏ RZAYEVA. HÜSEYN CAVID YARADICILIĞINDA ALQIŞLAR VƏ QARĞIŞLAR 353
YEGANƏ HÜSEYNOVA. BƏXTİYAR VAHABZADƏ POEMALARINDA SOSİAL MÜHİTİN TƏSVİRİ..... 358
PƏRVANƏ QULİYEVA. AZƏRBAYCAN ƏDƏBİYYATI VƏ RƏSUL RZA DÜNYASI 363
KAFİYƏ MUSAYEVA. ORTA ƏSR ƏDƏBİ TƏNQİDİNİN ÜSLUBLARI 368
MAHIR HAMIDOV. THE CONCEPT OF LITERATURE ACCORDING TO MIKHAIL NAIMY 373
KÖNÜL MƏMMƏDOVA. MÜASİR TƏHSİL SİSTEMİNDƏ MÜƏLLİMİN PEDAQOJİ USTALIĞININ PSİXOLOJİ ƏSASLARI 379
LOĞMAN ƏLİYEV. Ə.İLDIRIMOĞLU YARADICILIĞINDA MİLLİ-MƏNƏVİ ƏYƏRLƏR, MİLLİ ÖZÜNÜDƏRK VƏ SOSIAL - PSIXOLOGIYA MƏSƏLƏLƏRI 384
SƏADƏT QULİYEVA, LƏTİFƏ MƏMMƏDOVA. ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA MİLLİ DƏYƏRLƏRİN VƏ ÖZÜNÜ TƏRBİYƏNİN ROLU 394
GÜNEL MAHMUDOVA. MÜSTƏQİLLİK İLLƏRİNDƏ MİR CƏLALIN TƏDQİQİNİN ÜMUMİ MƏNZƏRƏSİ 401
CAHANGIRZADƏ.S.V. «ŞEYX SƏNAN» ƏSƏRİNDƏ İNSAN MƏNƏVİYYATI TƏSƏVVÜF MÜSTƏVİSİNDƏ» 409
MƏDİNƏ CABAROVA. ABDULLA BƏY ASİ "MƏCLİSİ-FƏRAMUŞAN"-IN FƏAL ÜZVÜ KİMİ 417
MƏDİNƏ KARAHAN. Ə.AĞAOĞLUNUN "SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ" ƏSƏRİNDƏ YENİ CƏMİYYƏT PRİNSIPLƏRİ 422
ŞƏFƏQ TAĞIYEVA. FÜZULİ YARADICILIĞINDA GÖZƏLİN TƏSVİRİ 429
ŞƏBNƏM HÜSEYNOVA. HAL ANASINDAN QARI OBRAZINA 439
İMAN CƏFƏROV. MOLLA NƏSRƏDDİNÇİ SƏNƏTİN DÜNYA ƏDƏBİYYATI İLƏ

VƏHDƏTİ PROBLEMİ VƏ "AZƏRBAYCAN MOLLA NƏSRƏDDİNİ" KİTABI 446
ESMİRA CAVADOVA. ÜRƏKDƏN – ÜRƏYƏ YOLLAR GÖRÜNÜR 456
GÜNAY ƏFƏNDİYEVA. AZƏRBAYCAN FRAZEOLOGİYASINDA
QANADLI SÖZLƏRİN TƏDQİQ TARİXİ..... 472
SEVİL AĞAYEVA. STRUCTURAL PARTS OF SPEECH 478

XƏLƏFLƏR VƏ SƏLƏFLƏR HAQQINDA

FÜZULİ MUSTAFAYEV. PARLAQ ZƏKA SAHİBİ – BÖYÜK VƏTƏNDAŞ ... 483

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

Çapa imzalanmış **29.03.2017.**
Şərti çap vərəqi **30, 5.** Sifariş № **560.**
Kağız formatı **60x84 1/16.** Tiraj **100.**

"Elm və təhsil" *nəşriyyat-poliqrafiya müəssisəsində*
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.